# NƏSİHƏTLƏR

## (ON DÖRD MƏSUMUN (Ə) BUYURDUQLARI VƏ MİN BİR HİKMƏTLİ SÖZ)

**AYƏTULLAH MEŞKİNİ**

بسم الله الرحمن الرحیم


نام کتاب:............................................نصایح
مولف:...................................... آیت الله مشکینی
مترجم:.........................................خلیفه همیداف
ناشر:................................................ .شهریار
تاریخ چاپ:.........................................1385
نوبت چاپ:................................................اول
تیراژ:.................................................3000

**Kitabın adı:.................................Nəsihətlər**
**Müəllif:.......................Ayətullah Meşkini**
**Tərcümə edən:.......................Xəlifə Həmidov**
**Nəşr edən:.......................................Şəhriyar**
**Çap tarixi:................................................2006**
**Çap növbəsi:.......................................Birinci**
**Tiraj:.......................................................3000**

**964-5934-72-9**

**Əlinizdəki kitabın əsl adı “Nəsihətlər”dir. Əsər bir neçə il bundan qabaq bu adla hazırlanıb çap olunmuşdur. Sonra ona bəzi əlavələr olunaraq müəyyən mətləblər çıxarıldıqdan sonra “On dörd məsumun (ə) buyurduqları” adı altında nəşrə buraxılıb. Daha sonra isə bəzi səhvlər üzündən “Min bir hikmətli söz” adı ilə yenidən çap olunmuşdur. İndi isə hər üç kitab bir çox faydalı əlavələrlə birlikdə əziz oxuculara və Əhli-beyt (ə) elminin və İslam maarifinin aşiqlərinə təqdim olunur.**

## ÖN SÖZ

İslam dininin qorunub əbədi olaraq saxlanılmasının və genişlənməsinin əsas zəmanətvericisi onun göstərişlərinin təbliğ olunması, insanları yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirmək prinsipinin həyata keçirilməsidir. Bu üç böyük və mühüm iş vacib bir vəzifə kimi bu dinin bütün ardıcıllarının öhdəsinə düşür. Yəni müsəlmanların hər biri üçün fərdi olaraq ilahi hökmlərdən öyrəndiyi hər bir şeyi yeri gəldikdə və münasib zamanda bundan xəbəri olmayan şəxslərə çatdırması vacib məsələlərdəndir. Qeyd olunan bu vəzifə irşad, yəni hər hansı bir şəxsə xəbəri olmadığı dini məsələni çatdırmaqla ona yol göstərmək adlanır. Bundan əlavə hər bir müsəlmana vacibdir ki, imkan daxilində vacib işləri tərk edib, haram və qadağan olunmuş işlərə qurşanmaqda bir-birinin qarşısını alsınlar və eyni zamanda bir-birini haqqa itaət edib günahlardan uzaq olmağa dəvət etsinlər. İnsanları dində vacib olan işləri yerinə yetirməyə dəvət etmək "əmr be məruf", qəbih və pis işlərdən çəkindirmək isə "nəhy əz münkər" adlanır.

Əgər dünyanın bütün müsəlmanları və Quran ardıcılları dini məsələlər sahəsində düzgün addım atsaydılar, onların ictimai və dini vəziyyətləri indikindən qat-qat yüksək səviyyədə olardı. Elə indinin özündə də bu barədə qəti qərara gəlib fəaliyyət göstərməyə başlasalar, keçmişdə buraxılmış səhvlərin və üz verən zərərlərin müəyyən miqdarını aradan qaldırmış və xoşbəxt gələcəyə, uğurlu səadətə nail olarlar. Buna görə də lazımdır ki, dünya müsəlmanları – hörmətli ruhanilər, din və mədəniyyət xadimləri, tutmuş cəmiyyətin hər bir təbəqəsinin dindar nümayəndələrinə qədər hər bir kəs öz növbəsində dinin təbliği və genişlənməsi yolunda addım atsınlar; haqq dinlərinə rəvac verib öz ictimai vəziyyətlərini yaxşılaşdırmaq yollarını öz batil əqidələrini təbliğ edib yaymağa çalışanlardan öyrənməklə, əldən vermiş səadət və başucalıqlarını yenidən ələ gətirsinlər, uğurlu və xoşbəxt gələcəyə nail olsunlar.

Həqiqətən də müəyyən bir ölkə əhalisinin hər biri həftədə yalnız bir ilahi hökm öyrənərsə və ya bir kəsə öyrədərsə, bir ay ərzində həmin ölkədə yaşayan insanlar arasında külli miqdarda ilahi hökm öyrənilib yayılacaqdır.

Bu yerdə münasibdir ki, irşad, nəhy əz münkər və əmr be məruf məsələlərinə aid olan Quran ayələri və hədislərdən müəyyən bir qismi gətirilsin, bununla da hər bir insan bunlardan xəbərdar olsun və müqəddəs dinimizin yayılması yolunda daha geniş addımlar atılsın.

## İRŞAD BARƏSİNDƏ OLAN AYƏ VƏ HƏDİSLƏR

◘“(Ya Məhəmməd!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et, onlarla ən gözəl surətdə (şirin) dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et.”[1](1)

◘“(Ya Məhəmməd!) Allahın ayələri sənə nazil edildikdən sonra ehtiyatlı ol ki, (heç bir şey) səni (onları təbliğ etməkdən) çəkindirə bilməsin. (İnsanları) Rəbbinə (ibadətə) dəvət et.”[2] (2)

◘“(Xalqı) Alaha tərəf çağıran, yaxşı iş görən və “Mən müsəlmanlardanam.”– deyən kəsdən daha gözəl danışan kim ola bilər?”[3] (3)

◘“Kitabda insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən kimsələr Alahın lənətinə düçar olar və bütün lənət edə bilənlər də onlara lənət oxuyar!”[4] (4)

◘(Ya Məhəmməd!) Allah kitab əhlindən “Siz onu (kitabda olanları) gizlətməyib, insanlar üçün aydınlaşdırmalısınız!” deyə əhd aldığı zaman onlar bu əhdə arxa çevirdilər və onu ucuz bir qiymətə satdılar. Onların bu alış-verişi necə də pisdir!”[5] (5)

◘Alim elmini elm əhlindən gizlətdiyi zaman, savadsız insan ilahi hökmləri öyrənməyə təkəbbür göstərdiyi zaman, dövlətlilər simiclik edən zaman və fəqirlər öz dinlərini dünyaya satdıqları zaman xalqa ilahi əzab və bəla nazil olar.

Həzrət Əli (ə)

◘Camaatın dini elmlərə ehtiyacı olduğu halda bunu onlara öyrətmək müqabilində muzd tələb edən şəxsin yandırılmaq ləyaqəti vardır.

İmam Cəfər Sadiq (ə)

---

[1] Nəhl surəsi, ayə 125.
[2] Qəsəs surəsi, ayə 78.
[3] Fussilət surəsi, ayə 33.
[4] Bəqərə surəsi, ayə 159.
[5] Ali-İmran surəsi, ayə 187.

◘Rəsuli-Əkrəmdən (s) eşitdim ki, buyurdu: “Heç bir qorxu və təqiyyə yeri olmadığı halda dini məlumat almaqdan ötrü soruşulan suala cavab verməyən şəxsin ağzına qiyamət günü oddan yüyən vurular.

Həzrət Əli (ə)

◘Elmini gizlədən alim qiyamət günü pis iyli cəsəd kimi məhşur olar və hər kəs ona nifrin yağdırar.

İmam Cəfər Sadiq (ə)

◘Ümmətim arasında dinə xilaf olan bidətlər zahir olan zaman gərək elm sahibləri öz elmlərini aşkar etməklə bu bidətləri aradan aparsınlar, əks təqdirdə Allahın lənətinə düçar olarlar.

Rəsuli-Əkrəm (s)

◘Elmini aşkar etməli olan alimin sükut etməsində, nadanın danışığında olduğu kimi, heç bir xeyir yoxdur.

Həzrət Əli (ə)

◘Öz imamından uzaq düşən, dini rəhbərinə əli çatmayan və özünə lazım olan hökmlərin öyrənə bilməyən şəxs yetim uşaqdan da artıq yetimdir. Əgər bizim əhkamımıza bələd olan kəslər belə yetimləri öz himayəsinə alıb onlara yol göstərsələr, behiştin yüksək mərtəbələrində bizim yanımızda olacaqlar.

İmam Həsən Əsgəri (ə)

◘Cahil yetimi himayə edən şəxsin atasız yetimi himayəsinə alan şəxsdən üstünlüyü parlaq günəşin nuru az olan ulduzdan üstünlüyü kimidir.

İmam Həsən Əsgəri (ə)

◘Üç şey həqiqi imandan irəli gəlir (imanın həqiqətlərindəndir): Yoxsul olan zaman bəxşiş vermək, camaatla insafla davranmaq, elm tələbində olanlara elm öyrətmək.

Rəsuli-Əkrəm (s)

◘Hər kəs yolunu azan kəsə yol göstərib onu hidayət etsə ona həyat bəxş edib, əksinə, hidayət olmuş şəxsi yoldan çıxarsa, onu öldürüb. Allah-təala buyurur: “Bir nəfəri dirildən şəxs bütün insanları dirildən şəxs kimidir.”

◘Alim və abidin Allah-təalanın qarşısında dayanacaqları gün abidə xitab olunar: “Behiştə daxil ol!” Alimə isə deyilər: “Dayan! O, kəslər ki, sənin xoş tərbiyəndən istifadə ediblər, onlara şəfaət et!”
İmam Cəfər Sadiq (ə)

◘“Onlara verdiklərimiz ruzidən (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) sərf edirlər” ayəsində məqsəd öz dini məlumatlarını elm azuqəsi kimi camaata ehsan edən alimlərdir.
İmam Cəfər Sadiq (ə)

◘Xeyir təbliğ et və xoşxəbər ol! Demə ki, mən də camaat kimi onlardan biriyəm. Rəsuli-Əkrəm (s) buyurub: “Bilin ki, xeyr və şər yolunun hər ikisi sizə məlumdur. Nəyə görə gərək şər yolunu gedəsiniz və yaxud onu təbliğ edəsiniz?
İmam Musa Kazim (ə)

◘Allah-təala savadsızlardan elm-bilik öyrənməkləri barədə əhd-peyman aldığı kimi, elm və bilik əhlindən də savadsızlara təlim-tərbiyə verməkləri barədə əhd-peyman alıb. Bəli, savadsızlardan aldığı əhd-peyman alimlərdən qabaq olub.
Həzrət Əli (ə)

◘Həzrət İsa (ə) buyurub: “Elm və hikməti təkcə onun əhlinə öyrədin, yoxsa elmə zülm etmiş olarsınız. Eyni zamanda onu əhlindən də gizlətməyin, yoxsa, elm əhlinə zülm etmiş olarsınız”.
İmam Cəfər Sadiq (ə)

◘Cabir deyir: “İmam Baqirdən (ə) elm öyrənmək istədim. Mənə bir kitab verib buyurdu: “Əgər bunda olan mətləbləri Bəni-Üməyyə hakimiyyəti dövründə camaata bəyan etsən məlunsan və Bəni-Üməyyə hakimiyyətindən sonra isə bəyan etməsən məlunsan.
«Kəşşi» kitabından

◘Hər bir ağıl sahibinə din elmlərini öyrənib onu başqalarına öyrətmək vacibdir.

## ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR BARƏSİNDƏ OLAN AYƏ VƏ HƏDİSLƏR

◘"(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir dəstə olsun! Bunlar (bu dəstə) həqiqətən nicat tapmış şəxslərdir."[1] (1)

◘"(Ey müsəlmanlar!) Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. (Onlara) yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və Allaha inanırsınız."[2] (2)

◘"Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!"[3] (3)

◘"Özünüzü və ailə-uşaqlarınızı (yaxşı işlərə əmr edib pis işlərdən çəkindirməklə) elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır."[4] (4)

◘Əmr be məruf və nəhy əz münkər Allahın yaratdığı iki gözəl şeydir; hər kəs onlarla dostluq etsə (Allah yanında) əziz, hər kəs onları tərk etsə zəlil olar.
İmam Məhəmməd Baqir (ə)

◘Onlar (əmr be məruf və nəhy əz münkər) qüdrət sahibi olub, özünün, dostlarının və yaxınlarının canından qorxmayan hər bir kəsə vacibdir.
İmam Cəfər Sadiq (ə)

◘Allah yanında insanların dünya və axirət işlərini təkmilləşdirən əmr be məruf və nəhy əz münkərdir. Onlar nə insanın ömrünü qısaldır, nə də ruzini azaldır.
İmam Cəfər Sadiq (ə)

◘Mənim ümmətim əmr be məruf və nəhy əz münkər etdikləri müddətdə xeyr və səadət içində olarlar, əks təqdirdə, əmlaklarında olan

---

[1] Ali-İmran surəsi, ayə 104.
[2] Ali-İmran surəsi, ayə 110.
[3] Loğman surəsi, ayə 17.
[4] Təhrim surəsi, ayə 6.

bərəkət çəkilər, bəziləri bəzilərinə hökmranlıq edər; belə ki, onlar yerdə və göydə özlərinə kömək edəcək heç bir kəs tapmazlar.

◘Vay olsun o millətə ki, əmr be məruf və nəhy əz münkəri öz dini proqramlarının tərkib hissəsi hesab etməsinlər.
İmam Məhəmməd Baqir (ə) və İmam Cəfər Sadiq (ə)

◘Əgər onlar (əmr be məruf və nəhy əz münkər) olmasa, sizin ən şər adamlarınız sizə hökmranlıq edər və ən xeyirli adamlarınızın nifrini qəbul olmaz. Rəsuli-Əkrəm (s) buyurub: “Mənim ümmətim bu iki vəzifəni bir-birlərinin öhdəsinə atsa, ilahi əzabın gəlməsinə hazır olsun.”
İmam Rza (ə)

◘Əgər camaat o iki vəzifəni tərk etsə, Allah-təalanın çox çətin əzabı ilə üzləşəcək və Allah yaxşıları da pislərin arasında həlak edəcək. Keçmiş zamanda yaşayanların da əzab və həlakı onların günah arxasınca getməsi ucbatından idi. Alimlər və abidlər isə bunun qarşısını almırdılar.
Həzrət Əli (ə)

◘Bilin və agah olun! Mütləq sizin ağsaqqallarınız və bilikliləriniz (öyüd-nəsihət baxımından) nadan və rəyasət tələb edənlərə diqqət yetirsin, əks təqdirdə mənim nifrinim sizin hamınızı bürüyəcək!
İmam Cəfər Sadiqin (ə) xəbərdarlığı

◘Hər kəs moizə etmək və ilahi əzabla qorxutmaq üçün zalım bir hökmdarın hüzuruna getsə, insanların və cinlərin xeyir əməlləri və gördükləri savab işlər qədər savab ona əta olunar.
İmam Məhəmməd Baqir (ə)

◘Zəif insanların haqqını onların güclülərindən alınmasında süstlük göstərən millət heç vaxt pak və eyblərdən uzaq olmaz.
İmam Cəfər Sadiq (ə)

◘Necə olacaq o millətin halı ki, qadınları fəsad törədən, cavanları fasiq olduqları halda əmr be məruf və nəhy əz münkər etmirlər?
İmam Cəfər Sadiq (ə)

◘Allah-təala dini olmayan, yəni əmr be məruf və nəhy əz münkər etməyən mömini özünə düşmən bilir.

İmam Cəfər Sadiq (ə)

◘Heç bir iman sahibi olan gözə icazə verilmir ki, insanların günahlarını müşahidə etdiyi halda belə bir vəziyyəti dəyişdirməmiş göz qapaqlarını bir-birinin üzərinə qoysun.

Qəlbi, dili və əli insanları günahlardan çəkindirməyən kəs dirilər arasında hərəkət edən ölü kimidir.

Həzrət Əli (ə)

◘Ya əmr be məruf və nəhy əz münkər edin, ya da, Pərvərdigarın əzabı hamını bürüyəcək.

◘İnsanların günahlarını müşahidə edən şəxs qüdrəti çatırsa əli ilə, əgər bacarmırsa dili ilə bunun qarşısını alsın. Əgər bunların heç birinə qüdrəti çatmırsa qəlbən buna razı olmayıb nifrət etsin. Əks təqdirdə, qəlbi devrilib alt-üst olar və bununla da haqq yerinə batili qəbul edər və ona razı olar.

◘Öz cəmiyyəti arasında pislikləri görüb bunu aradan aparmayan millətə Allahın əzabı yaxınlaşar.

◘Günahı müşahidə edib ondan xoşu gəlməyən kəs bu günahdan uzaq və xəbərsiz bir şəxs kimidir, amma o kəs ki, qəbih və pis bir iş barəsində eşidib ona razı olur, həmin günahı yerinə yetirən kəs kimidir.

İmam Cəfər Sadiq (ə)

◘Rəsuli-Əkrəm (s) göstəriş verib ki, günah sahibləri ilə (pis işlərindən əl götürəcəkləri ümidi ilə) qəzəbli tərzdə rəftar edək.

◘Allahın dostları o kəslərdir ki, Allahın haramlarını halal hesab edən şəxsləri müşahidə etdikləri zaman yaralı pələng kimi qəzəblənsinlər.

◘Allah-təala əzab mələklərinə göstəriş verib: “Heç vaxt Allahdan ötrü öz görkəmini dəyişib qəzəblənməyən abidin əzabını artıq etsin.

◘Günahsız insanları da günahkarlarla oturub-durduqlarına və onları günahdan çəkindirmədiklərinə görə məzəmmət edib töhmətləndirəcəyəm.

İmam Cəfər Sadiq (ə)

◘Nadanların günahı biliklilərin boynuna yüklənəcək. Ona görə ki, onlar (biliklilər) günahkarlara doğru getməklə onları bu işdən çəkindirməli, onlara təsir göstərəcək ağıllı sözlər deməli və qəbul etmədikləri təqdirdə onların məclislərindən uzaqlaşmalı idilər.

İmam Cəfər Sadiq (ə)

◘Nəyə görə onlar demirlər: "Ya bizdən uzaq olun, ya da pis işlərinizdən çəkinin!"
İmam Cəfər Sadiq (ə)

◘Allah-təala Cəbrailə göstəriş verdi: "Filan abid və zahid kişini günahkar və kafir camaatdan tez yerə batır. Çünki ona danışmaqdan ötrü qüdrət və bacarıq verdik, amma o, əmr be məruf və nəhy əz münkər etmədi.
İmam Həsən Əsgəri (ə)

◘Allah-təala Bəni-İsrail peyğəmbərlərindən birinə buyurdu: "Bəni-İsrail millətinə öz məskən saldıqları şəhərlərindən bir nəfəri hakim edəcəyəm ki, qanlarını töksün, mal-dövlətlərini qarət etsin; mən onların göz yaşlarına rəhm etməyəcək, dualarını qəbul etməyəcəyəm. Bundan əlavə Beytül-Müqəddəsi xarabaya çevirib yüz il bu vəziyyətdə saxlayacaq, bu əzabı onların günahsız alimlərinə də şamil edəcəyəm. Çünki onlar (alimlər) başqalarının pis və çirkin işlərini gördülər, lakin bunun qabağını almadılar.
Təfsire Əyyaşi

◘Allah-təala Şüeyb peyğəmbərə (ə) vəhy etdi: Sənin camaatından olan yaxşı insanların altmış min nəfərinə əzab verəcəyəm. Ona görə ki, günahkarlarla həmrəy oldular və Mənə görə onlara qəzəblənmədilər.
İmam Məhəmməd Baqir (ə)

***Allah-təala İslam dininin bütün ardıcıllarını öz dini və ictimai vəzifələrini müəyyən edib onlara əməl etməkdə müvəffəq etsin, onlara əbədi xoşbəxtlik və səadət inayət buyursun.***

## BİRİNCİ BÖLMƏ

### *Bir tərkibli nəsihətlər*

### *Həzrət Rəsuli-Əkrəmdən (s) mükəmməl sözlər, nadir və bənzərsiz hikmətli kəlamlar*

◘Quran (bəşəriyyətin dərdinə) dərmandır. Dua ibadətin həqiqətidir. Borc zillətdir. Tədbir həyatın yarısıdır.

◘İnsanlarla xoş davranmaq əqlin yarısıdır. Qüssə qocalığın yarısıdır. Yaxşı sual soruşmaq elmin yarısıdır. Ailənin azlığı sərvət deməkdir. Salam vermək danışıqdan qabaqdır.

◘Süd xasiyyəti dəyişər. Bərəkət qocalardadır. Hər bir işin dəyəri (yaxşı və ya pis olması) onun axırından asılıdır. Dinin meyarı pəhrizkarlıqdır (günahdan çəkinməkdir). Allahdan qorxmaq ən üstün hikmətdir.

◘Təqva (günahdan çəkinib vacibata əməl etmək) ən şərəfli əməldir. İmkan olduğu halda borcu qaytarmamaq zülmdür. İmkan olduğu halda dilənmək atəşdir. (Cəhənnəm odudur.) Allahın nemətlərini yada salmaq həmin nemətlərin şükrüdür. Fərəcin (İmam Zamanın (ə) zühuru) intizarı ibadətdir.

◘Oruc (cəhənnəm odu qarşısında) sipərdir. Mülayim və xoşrəftar olmaq bütün hikmətlərin ən üstünüdür. Hikmət həkimlərin (hikmət sahiblərinin) itkisidir. Xoşrəftar olmaq ən gözəl xasiyyətdir. Cavanlıq dəliliyin bir hissəsidir.

◘Qadınlar şeytanın tələləridir. Şərab bütün günahların başıdır. Zina yoxsulluğa səbəb olar. Gözün zinası baxmaqladır. Qızdırma (hərarət) möminin cəhənnəmdən olan payıdır.

◘Qənaət (qane olmaq) mümkün olmayan bütün işlərin sərmayəsidir. Əmanətdarlıq ruzi gətirər. Xəyanət fəqirlik gətirər. Sübh çağı yatmaq ruzini kəsər. Əmmamə mələklərin tacıdır.

◘Həya başdan ayağa xeyirdir. Həyanın xeyirdən başqa səmərəsi yoxdur. Məscid pəhrizkarların evidir. Elmin afəti (onu zərərə uğradacağı şey) unutqanlıqdır. Sözün (danışmağın) afəti yalandır.

◘Ağılın afəti səfehlikdir. İbadətin afəti süstlükdür. Şücaətin afəti zülm etməkdir. Səxavətin afəti minnət qoymaqdır. Gözəlliyin afəti özünübəyənmə və təkəbbürdür.

◘Həsəb-nəsəbin (əsil-nəcabətin) afəti iftixar etməkdir. Dinin afəti nəfs istəklərinə tabe olmaqdır. Xoşbəxt odur ki, başqalarının başına gələnlərdən ibrət alsın. Günahın kəffarəsi peşman olmaqdır. Cümə namazı kasıbların (yaxud həccə getməyə imkanı olmayanların) həccidir.

◘Həcc hər bir imkansızın cihadıdır. Halal mal qazanmaq cihaddır. Elmi gizlətmək caiz deyil (yolverilməzdir.) Hazır (şahid) müşahidə edənləri qaib (qeyri-şahid) görmür. Xeyir işə vasitə olan və onun baş tutmasına səbəb olan şəxs, xeyri yerinə yetirən kimidir.

◘Hər bir yaxşı iş sədəqədir. İnsanlarla xoş davranmaq sədəqədir. Xoş söz sədəqədir. Abır-həyanın qorunması üçün sərf olunan hər bir şey sədəqə savabına malikdir. Qohuma sədəqə vermək həm sədəqədir, həm də sileyi-rəhm [1](1)(qohum-əqrəbanı yoluxmaq.)

◘Sədəqə pis ölümün qarşısını alar. Gizli sədəqə Allahın qəzəbini söndürər. Sileyi-rəhm ömrü uzadar. Yaxşı işlər pis ölümlərin qarşısını alar. Sədəqə, su odu söndürdüyü kimi əzab atəşini söndürər.

◘Hər kəs sədəqə verməkdə həddini aşsa, sədəqəni qadağan edən şəxs kimidir. Tövbə edən günah etməyənlə bərabərdir. Zülm qiyamətin qaranlığıdır. Gülmək qəlbi öldürər. Susuzluqdan ciyəri yanan hər bir kəsə su verməyin (Allah yanında) mükafatı var.

◘Əməl sahibi olan alimlər camaat arasında Allahın etibar etdiyi şəxslərdir. Behişt səxavətlilərin evidir. Behişt qılıncın kölgəsi altındadır. Behişt anaların ayaqları altındadır.

---

[1] İslam dinində sileyi-rəhm (qohum-əqrəbanı yoluxmaq) adlanan əməl böyük savaba malikdir və Quran ayələri müsəlmanları bu işə təkid edir. Bunun əksi olan qəti-rəhm (qohumlarla əlaqəni kəsmək) isə böyük günahlardan hesab olunur. (tərcüməçidən)

◘Azan və iqamə arasında edilən dua geri qaytarılmaz. Halal ruzi kəsb etmək də vacibdir, lakin ümdə vaciblərdən (namaz, oruc) sonra. Xərci bütün qadınlardan az olan qadının bərəkəti digər qadınlardan daha artıqdır. Mömin möminin güzgüsüdür. Mömin möminin qardaşıdır.

◘Möminin xərci azdır. Mömin ayıq-sayıq və zirəkdir. Mömin ülfət və səmimiyyət əhlidir. Mömin o kəsdir ki, camaatın malı və canı ondan amanda olsun. Facir (pozğun, günahkar) hiyləgər və alçaqdır. Möminlər bir tikilinin tərkib hissələri olduqları üçün bir-birlərini saxlayırlar. Möminin Möminə nisbəti, başın bədənə nisbəti kimidir. Mömin qiyamət günü öz sədəqəsinin kölgəsi altındadır.[1](1) Möminlər güzəştə gedən və yumşaq təbiətlidirlər. Qış möminin baharıdır. (Ona görə ki, qışın gecələri uzun olduğu üçün ibadət etməkdən ötrü, gündüzləri də qısa olduğu üçün oruc tutmaqdan ötrü münasibdir.)

◘Dua möminin silahıdır. Namaz möminin nurudur. Dünya möminin zindanı, kafirin behiştidir. Hikmət möminin itkisidir. Möminin niyyəti əməlindən üstündür.

◘Dilənçi Allahın möminin evinə göndərdiyi töhfədir. Ölüm möminin ərməğanıdır. Möminin şərəfi onun gecə namazı ilədir. Möminin izzəti camaata möhtac olmamağı ilədir. Elm möminin dostu, helm (həlimlik, yumşaqlıq) köməkçisi, əql yolgöstərəni, əməl bələdçisi, xoşrəftar olmaq atası, yaxşılıq qardaşı, səbr isə bütün qoşununun əmiridir.

◘Qeyrət imanın yarısıdır. Həya imandan irəli gəlir. Təvazökarcasına olan münasib geyim imandan irəli gəlir. Səbr imanın yarısı, yəqin isə onun hamısıdır. İman iki qismdir; yarısı səbr, yarısı şükr.

İmanın nişanəsi namazdır. Müsəlman odur ki, digər müsəlmanlar onun dilindən və əlindən amanda olsunlar. Müsəlman müsəlmanın qardaşıdır, nə ona zülm edər, nə də ona pis söz deyər. Müsəlmanlar düşmən müqabilində bir əl kimidirlər. Elm öyrənmək hər bir müsəlmana vacibdir.

◘Müsəlmanın qanı, malı və namusu bütün müsəlmanlara haramdır. Müsəlmanın malı da canı kimi möhtərəmdir. Mücahid (cihad edən) o kəsdir ki, Allah yolunda özü ilə döyüşsün. Zirək o kəsdir ki, öz nəfsini

---

[1] Sədəqə təkcə pul verməyə deyil, sözlə, elmlə və hətta əlindən gələn hər bir cüzi köməkliklə də olsa başqalarına kömək edib, əl tutmağa da deyilir. (tərcüməçidən)

ram etsin və ölümdən sonrakı həyatı üçün (əməl vasitəsilə) çalışsın. Bacarıqsız o kəsdir ki, meylini nəfsani istəklərinin ardınca salır, Allahdan isə xam-xəyalla gözəl şeylər arzulayır.

◘İnsan qardaşları vasitəsi ilə artar və qüdrətlənər. İnsan dostunun dini ilə ölçülər. Hər kəs sevdiyi şeyə yaxındır. İnsanın kərəmi dini ilə, alicənablığı ağlı ilə, nəsəbi (əsl-nəcabəti) əxlaqı ilə müəyyən olunar. Müsəlman şəxsin yaxşı əməl sahibi olmasının əlaməti faydasız işləri tərk etməsidir.

◘İnsanlar darağın dişləri kimi bərabərdirlər. (Yəni Allahın hökm və göstərişləri müqabilində birdirlər.) İnsanlar qızıl və gümüş mədənləri kimidirlər. (Yəni fərqli əxlaq və ruhiyyə üzrə yaradılmışlar.) Ehtiyacsızlıq camaatın malına tamah salmamaqladır. Allaha iman gətirdikdən sonra əqlin əsası insanları sevməkdir. Hər kəs özünün mühasibidir.

Hər bir gələcək yaxındır. Naməhrəmə baxan hər bir göz zinakardır. Hər şeyin müəyyən bir əndazəsi var, hətta bacarıqsızlığın da. Hər alim elmin aşiqidir. Hər şeyin əsası var, bu dinin də əsası dərrakə və tədbirdir.

◘Sizdən hər biriniz digəriniz üçün nəzarətçi, əlinizin altında işləyənlərdən ötrü isə məsuliyyətlisiniz. Qiyamət günü hər bir xainin öz xəyanətləri qədər bayrağı var. Qiyamət günü insandan soruşulacaq birinci haqq qan haqqıdır. (Qiyamət günü) hesabı çəkiləcək birinci vəzifə namazdır.

◘(Qiyamət günü) mizan tərəzisinə qoyulacaq birinci şey xoş xasiyyətdir. Bu ümmətdən götürüləcək birinci şey həya və əmanətdir. Din işlərində əldən verəcəyiniz birinci şey əmanət, axırıncı isə namazdır. Dostluq və düşmənçilik irsiyyətə keçər. Sevgi-məhəbbət insanı xar və kor edər.

◘Hədiyyə gözü və qulağı oğurlayar. Xeyir atın nalına bağlıdır. Qırmızı tüklü at mübarək hesab olunur. Səfər əzabın bir hissəsidir. Qadına itaət etmək peşmançılığa səbəb olar.

◘Danışıq bəla gətirər. Oruc səbrin yarısıdır. Hər şeyin zəkatı var, bədənin də zəkatı orucdur. Oruc tutan şəxsin duası geri qaytarılmaz.

(Əgər oruc bütün şərtlərə malik olsa) Misvak (diş fırçalamaq üçün xüsusi ağac) fəsahəti (rəvan danışığı) artırar.

◘İmam-camaat (pişnamaz) ona iqtida edənlərin qiraət barəsində ona arxayın olduqları şəxs, müəzzin (azan verən) isə camaatın namazın vaxtı barəsində ona arxayın olduqları şəxsdir. Mənim şəfaətim böyük günah sahibi olan müsəlmanlar üçündür. Allahın əli yardımı cəmiyyətlədir. Sükut hikmətdir, lakin çox az adam ondan istifadə edir. Ruzi insan dalınca ölümdən möhkəm qaçır.

◘İnsanın yoldaşlığı və xoşxasiyyəti bəzi ticarətlərdən daha yaxşıdır. Cəsarətsiz tacir məhrumdur. Cəsarətli tacir fayda əldə edər. Xoş əxlaq bərəkət, pis əxlaq isə bədbəxtlik gətirər. Dünya rüsvayçılığı axirət rüsvayçılığından asandır.

◘Bəla zamanı səbr etmək daha dəyərlidir. Altmış və yetmiş yaş arası ölümün cövlan etdiyi vaxtdır. Fırıldaq və hiyləgərlik atəş içindədir. And içməyin nəticəsi ya yanlışlıqdır ya da peşmançılıq. Yalandan and içmək evləri boş qoyar.

◘Al-ver zamanı yalandan and içmək malın zay olmasına və qazancın bərəkətinin itməsinə səbəb olar. Faydası olamayan elm xərclənməyən xəzinə kimidir. Yemək yeyib şükr edən kəsin mükafatı oruc tutub səbr edənlə bərabərdir. Namaz hər bir pərhizkarın Allaha yaxınlaşma vasitəsidir. Bəndə ilə küfr arasında fasilə namazı tərk etməkdir.

◘Namazın dində olan mövqeyi başın bədəndə olan mövqeyi kimidir. Doğruçuluq aramlıq, yalan isə iztirabdır. Quran elə bir sərvətdir ki, yoxsulluq gətirməz və elə bir hidayətdir ki, azğınlıq gətirməz. Qəza və qədərə olan iman qüssəni aradan aparar. Dünyada zahidlik etmək qəlbin və bədənin asayişidir.

◘Dünyaya rəğbət qəm-qüssəni artırar. Bekarçılıq qəlbin qəsavətinə səbəb olar. Alim və tələbə xeyirdə şərikdirlər. Əl zamindir ki, götürdüyü hər bir şeyi ötürsün. Övlad qadının qanuni ərinə məxsusdur, zinakarın payı isə daşdır. (Övladın zinadan olmadığı dəqiq məlum olsun, əks təqdirdə, ərə məxsus deyil.)

◘Dilənçi ata minmiş olsa də haqqı var. Görəsən hansı dərd paxıllıqdan böyükdür? Bəxşiş verdiyi şeyi geri alan şəxs, qusduğunu

yeyən it kimidir. Yaşıllığa baxmaq gözün nurunu artırar. Qiyamət günü dəstəmazın təsirindən mənim ümmətimin əl-üzü nurani olar.

◘Naməhrəmə baxmaq iblisin zəhərli oxlarındandır. Qorxu və cürət iki qərizədir ki, Allah onları istədiyi qəlbə verər. Xəstəliyi, sədəqəni, müsibət və bəlanı gizlətmək gözəllik xəzinələrindəndir. (Lakin xəstəliyi gizlətməyin müalicəyə dəxli yoxdur.) İnsanın xoşbəxtliklərindən biri də budur ki, atasına oxşasın. (Yəni xoş əxlaq cəhətdən, çünki bu oxşarlıq halalzadə olmağın əlamətidir.) Xoşbəxtliklərdən biri də gözəl əxlaqdır.

◘Dünyada yaxşı iş görənlər axirətin də yaxşı iş görənləridir. Adəm övladının danışdıqlarının hamısı öz zərərinədir, əmr be məruf, nəhy əz münkər və Allahın zikrindən başqa. Peyğəmbərlər yol göstərənlərdir, dərindən düşünüb dərk edənlər isə ali insanlardırlar. Onlarla həmnişin olmaq isə xeyir gətirər. Yeməkdən sonra əlləri yumaq isə qüssəni aradan aparar və gözün nurunu artırar. Tacir ruzi intizarındadır, möhtəkir isə (baha satmaqdan ötrü mal alıb yığan) lənət intizarında.

◘Bütün səadət Allaha itaətdə keçən uzun ömürdədir. Vay olsun o kəsə ki, ailəsi üçün xeyir qoyub gedir, Allahın hüzürunda isə şərlə varid olur. (Yəni qoyub getdiklərindən ötrü mal-dövlət qoyar, günahlarını isə qəbrə ararar.) Məzlumun (zülm olunan şəxsin) duası qəbuldur, hətta günahkar da olsa.

## İKİNCİ FƏSİL

## *Həzrət Rəsuli-Əkrəmin (s) digər tərzdə olan ürəkoxşayan sözləri*

◘Bilin ki, ən iti görən göz odur ki, xeyir yolunda açılsın. Bilin ki, ən iti eşidən qulaq odur ki, qəlbi (qəflətdən) oyadan söz eşitsin. Bilin ki, batil yolda mal sərf etmək israf və bədbəxtçilikdir. Bilin ki, qənaət və şəhvətə hakim olmaq ən böyük şərəf və təqvadır.

◘Bilin ki, dünya evində möminlik və zahidlikdən başqa yolla onun zərərlərindən salamat qalmaq olmaz və onun yemi olanlar, ondan nicat tapmaz. Bilin ki, sizin qiymətiniz, dəyəriniz behiştdən başqa bir şeyə dəyməz, məbada özünüzü ondan başqa bir şeyə satasınız. Bilin ki, təqva gözəl yerişli bir atdır, pərhizkarlar ona minib cilovunu əllərinə alıblar və o da onları behiştə tərəf aparır. Bilin ki, günah ram olmayan tərs ata bənzəyir; günahkarlar onun tərkinə minmişlər. Əgər yüyəni əllərindən çıxarsalar onları cəhənnəmin uçurumuna atar. Bilin ki, bu

gün hazırlıq günü, sabah isə müsabiqədir. Müsabiqə behişt uğrundadır, məğlub olanların aqibəti isə cəhənnəmdir. Bilin ki, yoxsulluq bəladır, yoxsulluqdan da pis bədənin ağrılarıdır, ondan da pisi qəlbin (ruhun) xəstəliyidir.

◘Bilin ki, bol sərvət Allahın nemətlərindəndir. Mal-dövlətdən də yaxşı bədənin sağlamlığıdır. Sağlamlıqdan da yaxşı qəlbin təqvasıdır. Bilin ki, hər kəs düşünmədən bir işə başlasa gərək gözlənilməz hadisələrin intizarında olsun. Bilin ki, dərrakəli insan hər işə dəqiq, məqsədyönlü şəkildə və uzaqgörənliklə başlayan şəxsdir. Bilin ki, səfər (dünyadan köçmə) təbilini vurublar və yol azuqəsini də müəyyən edib tanıtdırıblar; belə isə öz canınızı qoruyun və özünüzlə yol azuqəsi götürün. Bilin ki, cihadın qiyməti behiştdir. Hər kəs özü üçün cihad etsə behiştə malik olar. Allahın ən böyük savabı o kəs üçündür ki, özünü tanısın.

◘Bilin ki, dinin hökmləri səhih və dəqiq olma baxımından birdir və onun yolları mötədildir. Hər kəs din yolu ilə getsə qənimət əldə edər və hər kəs üz döndərsə yolunu azıb peşman olar. Bilin ki, bilməyən kəs heç vaxt öyrənməkdən utanmasın. Çünki hər kəsin dəyəri onun məlumatı və elmi qədərdir. Agah olun! Dillər azad, bədənlər sağlam, bədən üzvləri ixtiyarınızda, şərait (meydan) geniş, macal çoxdur. Nə qədər ki, ölüm yetişməyib əməl sahibi olun!

## ÜÇÜNCÜ FƏSİL

## *Rəsuli-Əkrəmin (s) başqa şəkildə olan ibrətamiz kəlamları*

◘Hər kəs sükut etsə nicat tapar. (O yerdə ki, danışmaq nəticə verməz.) Hər kəs Allaha görə təvazökarlıq etsə Allah onu ucaldar. Hər kəs təkəbbür etsə Allah onu xar edər.

◘Hər kəs başqalarının xətalarından keçsə, Allah da onun günahlarından keçər. Hər kəs başqalarını bağışlasa, Allah da onu əfv edər. Hər kəs müsibətə səbr etsə Allah onu (müsibəti) əvəz edər. Hər kəs öz qəzəbini udsa, Allah ona əcr verər. Hər kəs dolanışığında əndazə saxlasa Allah onun ruzisini verər. Hər kəs bədxərclik etsə Allah onun ruzisini kəsər. Hər kəs hökmdarların qapısına yaxınlaşsa əziyyət görər. Hər kəs öz malının müdafiəsi zamanı öldürülsə şəhid hökmündədir. (Bir şərtlə ki, özünü dünya malından ötrü bilərəkdən ölümə atmasın.)

◘Hər kəs öz ailəsini müdafiə edən zaman ölsə şəhid hesab olunar. Hər kəs öz dinini müdafiə edən zaman öldürülsə şəhid hökmündədir. Allah hər kəsi istəsə ona xeyir verər və ona dini bilik inayət edər. Hər kəs

behiştin arzusundadırsa gərək xeyirli işlərə tələssin. Hər kəs atəşdən qorxur gərək şəhvətlərdən özünü qorusun.

Hər kəs ölüm intizarındadırsa gərək ləzzətlərə göz yumsun. Hər kəs dünyaya rəğbətsiz olsa müsibətlər ona asan gələr. Hər kəs öz əlaltılarının qollarının gücü hesabına izzət ələ gətirmək istəsə Allah onu zəlil edər. Hər kəs qarşı saxtakar və yalançı olsa bizdən deyil. Hər kəs bizim din işlərində özündən bidət (dində olmayan şeyi dinə aid etmək) icad etsə dindən çıxıb (müsəlman deyil).

◘Hər kəs aramla iş görsə öz məqsədinə yetişər və ya ona yaxınlaşar, amma hər kəs tələsik iş görsə ya xəta edər, ya da xətaya yaxınlaşar. Hər kəs xeyir əksə rəğbət və xoşluq biçər, hər kəs şər əksə peşmançılıq biçər. Hər kəs bilsə ki, Allah əvəz verir, səxavətlə bəxşiş verər. Hər kəs istəyir ən hörmətli şəxs olsun Allahdan qorxsun. Hər kəs istəyir ən ehtiyacsız şəxs olsun gərək öz əlində olandan daha çox Allahın əlində olana ümidvar olsun.

◘Hər kəs günah etməyə çalışsa, sonra məqsədindən dönsə onun üçün savab yazılar. Hər kəsə ki, Allah xeyir verib gərək həmin xeyrin əlaməti onda görsənsin. Hər kəsin danışığı çox olsa xətası da çox olar, hər kəsin xətası çox olsa günahı da çox olar, hər kəsin günahı çox olsa onun üçün atəş yaxşıdır. Hər kəs ruzi yolu tapsa əlindən buraxmasın, hər kəs nemət tapsa şükr etsin.

◘Hər kəs azdan ötrü şükr etməsə çoxdan ötrü də şükr etməz. Hər kəs müsibət üz verən adama təskinlik versə onun qədər savab əldə edər. Hər kəs mənim ümmətimlə xoş davransa Allah da onunla xoş davranar. Hər kəs xəstəyə baş çəksə behiştlik iş görüb. Hər kəs zalımla yol getsə günahkardır. (Bir şərtlə ki, ona zülm etməkdə kömək etsin və ya onun əlaltılarından hesab olunsun.)

◘Hər kəs müəyyən bir dəstəyə oxşasa onlardandır. (Yəni, öz əqidə və rəftarında hər hansı bir millətə oxşayan şəxs cəza və mükafatda da onlarladır.) Hər kəs elm tələbində olsa Allah onun ruzisinə zamindir. Hər kəsin elmi ona fayda verməsə, cəhaləti ona ziyan verər. Əməli onu geri aparan şəxsi nəsli irəli apara bilməz. Hər kəs qazi (qəzavət edən, mühakimə edən) olsa, başı bıçaqsız kəsilib.

◘Hər kəs öz malını əlində daşısa təkəbbürdən uzaqdır. Hər kəs şəfaəti inkar etsə ondan binəsib olar. Hər kəs yaxşı işdən xoşhal, pis işdən

narahat olur mömindir. Hər kəs Allahdan qorxursa (cavanlıq və qüdrətli vaxtında) Ona itaət etməyə çalışsın və hər kəs çalışsa mənzilə yetişər. Hər kəs axirət izzət və şərəfini istəyir gərək dünya zinətlərindən əl çəksin.

◘Hər kəs gecə çox namaz qılsa, gündüz üzü nurani olar. Hər kəs dünyanı sevsə öz axirətinə ziyan vurur və hər kəs qəlbini axirətə bağlasa dünyaya zərər vurar. Hər kəs Allahın qüdrətini yüngül tutsa Allah onu xar edər və hər kəs Allahın qüdrətinə ehtiram etsə Allah onu əziz tutar. Hər kəs hansı işi sevsə - xeyir və ya şər - onu yerinə yetirən kimidir. Hər kəs Allahın adı ilə sizi sığınsa ona sığınacaq verin və hər kəs sizə Allaha and versə və nəsə istəsə, istədiyini ona verin.

◘Hər kəs sizi bir yerə dəvət etsə, dəvətini qəbul edin. Hər kəs sizə bir yaxşılıq etsə siz də onun əvəzini qaytarın. Əgər bacarmasınız həmin yaxşılıq ona çatana qədər onun üçün dua edin. Sizdən hər biriniz çox istədiyiniz (tamahınız çəkdiyiniz) bir şeyin ardınca gedəndə aramla gedin. Allah hər kəsə altmış il ömür versə (ömür cəhətdən) onun üçün heç bir üzr qoymayıb. Hər kəs gecəni səhər etsə və bir kəsə zülm etmək fikrində olmasa Allah onun günahlarını bağışlayar.

◘Hər kəs həya pərdələrini yırtsa, qeybəti yoxdur. (Onun barəsində edilən qeybət qeybət deyil.) Hər kəs öz pis əməlinə görə narahat olarsa istiğfar etməsə də Allah onu bağışlayar. Hər kəs Allahla görüşməyi sevirsə, Allah da onunla görüşməyi sevir, hər kəs ki, Allahla görüşməyi sevmir, Allah da onunla görüşməyi sevmir. Ondan elmi sual soruşularkən cavab verməyən alimin ağzına atəşdən yüyən vurular. Hər kəsin üzünə bir xeyir qapısı açılsa onu qənimət bilsin, hətta nə vaxt bağlanacağını bilməsə də.

◘Hər kəs öz qəzəbini işlədə bilsə və (Allaha xatir) onu sakitləşdirsə Allah onun qəlbini iman və əmniyyətlə doldurar. Hər kəs imanın ləzzətini dadmaq istəyirsə gərək saleh insanları sırf Allaha görə sevsin. Hər kəs qeyri-şəri yolla pul ələ gətirsə onu çətin və xoşagəlməz işlərə xərcləməli olar. Hər kəs yoldaşlıq və mehribanlıqdan öz payını götürsə, dünya və axirətdən öz payını aparıb. Hər kəs Allaha olan məhəbbəti insanlara olan sevgidən üstün tutsa (Allahın məhəbbətini üstün tutsa) Allah onu camaatın şərindən qoruyar.

◘Hər kəs özünə behiştin ortasında məskən seçmək istəyirsə gərək xalqdan (yəni, müsəlmanların dini etiqad və göstərişlərindən

ayrılmasın. Hər kəs peşman olduğu beyəti pozsa, qiyamət günü Allah onun xatalarından keçər. Hər kəs ana və övladı arasında ayrılıq salsa, qiyamət günü Allah onunla dostları arasında ayrılıq salar. Hər kəs yoxsula əl tutsa Allah onun dünya və axirət işlərini asanlaşdırar. Hər kəs ona borclu olub borcunu qaytarmağa imkanı olmayan şəxsə möhlət versə və ya borcun müəyyən hissəsini ona bağışlasa qiyamət günündə (ilahi kölgədən olmayan bir zamanda başqa kölgə) Allah ona ərşin kölgəsində yer verər.

◘Hər kəs dünyada ikidilli olsa Allah onun üçün oddan iki dil qərar verər. Hər kəs icazəsiz başqasının yazısına baxarsa, elə bil atəşə baxır. Hər kəs əmr be məruf etsə bu işi Allah bəyənən şəkildə (gözəl şəkildə) etsin. Hər kəs qırx gün özünü (əməllərini) Allahdan ötrü xalis etsə, hikmət çeşmələri qəlbindən dilinə axar. Allaha və axirət dünyasına imanı olan hər kəs gərək qonşusuna hörmət edib onunla xoş keçinsin.

◘Hər kəsin Allaha və qiyamət gününə imanı var xeyir söz danışsın ya da sakit otursun. Hər kəs bir kafiri müsəlman etsə behişt ona vacib olar. Hər kəs bir müsəlmana gizlincə kömək etsə Allah dünya və axirətdə ona kömək edər. Hər kəs mömin qardaşının qəlbindən bir dünya qüssəsini aparsa, Allah onun qəlbindən bir axirət qüssəsini aparar. Hər kəs mömin qardaşının ehtiyacını aradan aparsa, Allah da onun ehtiyacını aradan aparar.

◘Hər kəs mömin qardaşının eybini örtsə Allah dünya və axirətdə onun eyblərini örtər və nə qədər ki, bəndə mömin qardaşına kömək edir Allah da onun köməyi olar. Hər kəs hətta toyuq-cücə hini boyda da olsa bir məscid tiksə Allah onun üçün behiştdə bir ev qərar verər. Hər kəs elm arxasınca getsə və tapsa iki savabı var və hər kəs elm arxasında getsə lakin tapmasa bir savabı var. Hər kəs elmi şöhrət qazanmaqdan ötrü bir vasitə qərar versə və camaatın qulağını öz elminin avazı ilə doldursa qiyamət günü Allah camaatın qulağını onun rüsvayçılıqları və biabırçılıqları ilə doldurar və onu həqir və dəyərsiz edər. Hər kəs axirət əməllərini dünya qazanmaqdan ötrü vasitə qərar versə axirətdə heç bir payı yoxdur.

◘Hər kəsə yaxşılıq etsələr əvəzini qaytarsın, əgər qaytara bilməsə təşəkkür etsin. Çünki təşəkkür həmən yaxşılığın əvəzidir. Hər kəsə bir yaxşılıq etsələr və təşəkkür etməkdən başqa əvəzini qaytarmağa imkanı olmasa gərək təşəkkür etsin və əgər etməsə naşükürlük etmiş olur. Hər

kəs dünyada Əbdül-Müttəlibin [1] nəslinə yaxşılıq etsə və onun yaxşılığının əvəzini qaytarmasalar mən qiyamət günü onun əvəzini verərəm. Hər kəs bir övrət (insanın eyib yeri) görüb onu örtsə, elə bil, qəbirdəki insan can verib onu qəbirdən çıxardıb. Hər kəs ümidini Allahdan başqa hər kəsdən üzsə Allah onun bütün ehtiyaclarını ödəyər və güman etmədiyi yerdən ruzisini yetirər və hər kəs ümidini dünyaya bağlasa Allah onu dünyada öz başına buraxar.

◘Hər kəs camaatın ondan xoşu gəlsin deyə Allaha günah etsə, elə gözünü dikdiyi camaat onu məzəmmət edər. Hər kəs Allahın razılığını qazanmaqdan ötrü camaatın acığına gələn iş görsə Allah özü ondan razı qalar və camaatı da ondan razı salar və hər kəs camaatın xoşuna gəlməkdən ötrü Allahın razılığına qarşı zidd bir iş görsə Allahın ona acığı tutar və camaatı da ondan narazı edər. Hər kəs dünyada etdiyi pis əməlinin cəzasını elə dünyada çəksə, Allah öz bəndəsini iki dəfə cəzalandıracaqdan daha ədalətlidir. Hər kəsin ki, Allah günahını dünyada bağışladı və onu rüsvay etmədi (axirətdə də bağışlananlar cərgəsindədir.) Allah öz əfvindən dönməkədn daha kərimdir. Hər kəsin onu xəlvətdə günahdan çəkindirəcək təqvası olmasa elmindən ibadət yolunda zərrə qədər də işlətməyib.

◘Hər kəs öz namazlarını camaat arasında gözəl, xəlvətdə isə pis qılsa Allaha xəyanət edib. Hər kəsin namazları onu pis əməllərindən çəkindirmirsə Allahdan uzaq düşməkdən başqa bir şey əldə etməyib. Hər kəs məqsədinə günah vasitəsi ilə çatmaq istəsə xeyri az, zərəri isə daha çox olar. Hər kəs saleh qəlbə malik olsa Allah onun qəlbindən çöhrəsinə məhbubiyyət gətirər ki, onunla tanınıb məşhurlaşar. Hər kəs bir işdən ötrü and içə sonra ondan daha yaxşı bir iş irəli gəlsə gərək kəffarə versin və daha yaxşı olan işi yerinə yetirsin.

◘Hər kəsin bir qız uşağı olsa və ona yaxşılıq etsə həmin qız onunla atəş arasında sipərə çevrilər. Hər kəs dəvət olunmadan süfrə başında otursa oğurluğa gedib ev qarət edən şəxs kimidir. Hər kəs müsəlman qardaşına xeyir yetirsə və ya onun çətinliyini aradan aparsa (Allah qədəmlər titrəyən gündə ona sirat körpüsündən keçməyə kömək edər. Hər kim ki, qonaq gedir, ev sahibinin icazəsi olmadan müstəhəb oruc tutmasın. Hər kəs (dində olan) bidətlərin qarşısını alsa Allah onun qəlbini iman və əmniyyətlə doldurar.

[1] Peyğəmbərin (s) babası.

◘Hər kəs bidətlərə arxa çevirsə Allah böyük vəhşət günündə onu amanda saxlayar. Hər kəs sağlam bədənə, xatircəmlik və əmniyyətə və bir günlük ruziyə malik olsa elə bil ki, bütün dünyaya malikdir. Hər kəs müsəlmanlardan birinin işi üçün qabağa düşsə (o işə rəhbərlik etsə) Allah da onun üçün xeyir istəyər və ondan ötrü saleh bir müavin təyin edər ki, Allahı yaddan çıxardıqda onun yadına salsın, yadında olanda ona kömək etsin. Hər kəs camaata əziyyət verməsə, yalan deməsə və vədəsinə xilaf çıxmasa alicənablığı kamil, ədaləti aşkar, onunla qardaşlıq vacib, qeybəti haram olan kimsələrdəndir. Hər kəs dilini və övrətini (zinadan) qorusa behiştə daxil olar. Hər kəs bilərəkdən mənə yalan nisbət versə yeri cəhənnəmdir.

## DÖRDÜNCÜ FƏSİL

### *Rəsuli-Əkrəmdən (s) olan moizələr*

◘Behişt narahatçılıq və əziyyətlər qapısının arxasında, cəhənnəm isə şəhvət və ehtiraslar qapısının arxasındadır. Allahın məhəbbəti qəzəblənən zaman həlim olmağı bacaranlara vacibdir. Mən mükəmməl sözlərlə məbus (peyğəmbərliyə təyin) olunmuşam. (Yəni elm, əxlaq və hikmətlə dolu olan sözlərlə) Qiyamət günü insanların hər biri öz niyyətlərinə uyğun müəyyən olarlar.

◘Allah rəhmət etsin dilini islah edən kəsə. Allahın rəhməti olsun o kəsə ki, ya faydalı söz danışır, ya da susur. Allahın rəhməti mənim ümmətimdən o kəslərə olsun ki, dəstəmaz alan zaman və yeməkdən sonra dişlərini təmizləyib yuyurlar. Allah istəyir sevdiyi bəndəsinə həmişə onun gümanı gəlmədiyi yerdən ruzi versin. Fəqirlik küfr uçurumunun kənarındadır. Həsəd elə bir şeydir ki, sanki qəzavü-qədəri dəyişdirir.

◘Hər kim ki, camaatı tanıdı bəlaya mübtəla olar, hər kim ki, tanımadı asudə yaşayar. Hər bir xasiyyət mümkündür mömində olsun, yalnız din işlərində xəyanət, yalandan başqa.

(Siz, ey camaat!) Binalar tikirsiniz lakin onda həmişəlik oturmursunuz, mal-dövlət toplayırsınız, lakin yemirsiniz və elə şeylərə ümid bəsləyirsiniz ki, onalara çata bilmirsiniz. Nə çox insanlar var ki, səhərlər sağdırlar lakin axşama çata bilmirlər və ya sabahın intizarındadırlar, səhərə çıxmırlar. Təəccüb edirəm o qafilə ki, ondan qəflətdə deyillər. (O Allahdan qafildir, Allah isə ondan yox.)

◘Təəccüblüdür o kəs ki, dünyaya bel bağlayır, halbuki, ölüm arxasıncadır. Təəccüb edirəm o kəsə ki, ağzı gülməkdən cırılır, lakin bilmir Allah ondan razıdır ya yox. Təəccüb! Çox təəccüb o kəsə ki, əbədi yaşayacağını zənn edir və başdan ayağa hiylə olan bu dünya üçün çalışır. Möminin işi qəribədir, and olsun Allaha! Allah onun üçün xeyirdən başqa bir şey müqəddər etmir. Qiyamət yaxınlaşır lakin insanlar dünyaya hərislikdən başqa bir şey əldə etməyiblər, saleh kişilər bir-birinin ardınca aradan gedir, Allahın etina etmədiyi pis və alçaq adamlardan başqa bir kəs qalmır.

◘Siz tikanı qardaşınızın gözündə görürsünüz amma öz gözünüzdə budağı görmürsünüz. Bu böyük xəyanətdir ki, mömin qardaşın sənə inanıb, sözlərini təsdiq etdiyi halda sən ona yalan danışırsan. (Bizim rəftarımız belədir ki,) sanki (dünyada) haqq yol başqaları üçün, ölüm də məhz təkcə onlar üçün yazılıb; sanki o ölüləri ki, müşayiət edirik, səfərə yola salırıq və guya tezliklə qayıdacaqlar, bədənlərini torpağa tapşırırıq və onlardan irs qalan mal-dövləti yeyirik, guya ki, biz onlardan sonra əbədi yaşayacağıq, nəsihət edənləri unutmuşuq, sanki bütün hadisələrdən amandayıq. Xoş o kəsin halına ki, öz eyibləri başını elə qatıb ki, başqalarının eyiblərini görmür və əlinə gələn malı günahdan başqa yolda sərf edir, elm və hikmət əhli ilə oturub-durur, günah və bəd əməl sahiblərindən uzaq gəzir. Xoş o kəsin halına ki, özü öz nəzərində dəyərsiz olsun, xoş əxlaq sahibi olsun, malının artıq qalanını (ehtiyacı olanlara) bağışlasın, artıq danışmasın, İslamın qoyduğu yol ona bəs etsin, bidətdən və digər batil yollardan özünü qorusun.

◘Xoş o kəsin halına ki, qazancı pak, daxilən ləyaqətli, zahirən də əziz və hörmətli olsun. Xoş o kəsin halına ki, elminə əməl edir. Ey Adəm övladı! Sənə kifayət edəcək qədər varındır. Sən isə tüğyana səbəb olacaq artığın dalınca gedirsən. Nə aza qane olursan, nə də çoxdan doyursan. Xoş o kəsin halına ki, İslama hidayət olub, kifayət qədər ruzisi var, özü də bundan qanedir. Bir sifət hər kəsdə olsa dünya və axirət onun fərmanına müti olar, behiştdə haqqa müqərrəb olma səadəti əldə edər. Dedilər: “Ya Rəsuləllah, o hansı sifətdir? Buyurdu: “Təqva. Hər kəs istəsə ki, hamıdan əziz olsun, Allah qarşısında təqvalı olsun. Sonra həzrət (s) bu ayəni oxudu: “Hər kəs ilahi təqvaya riyaət etsə Allah onun üçün (düşdüyü hər bir çətinlikdən) çıxış yolu qərar verər və ona gümanı gəlmədiyi yerdən ruzi nəsib edər.”

◘Bütün xeyirlərin başı Allahdan qorxmaqdır. Gəmini təmir edin ki, dərya dərindir, güc-qüvvənizi artırın ki, yol uzaqdır. Həvayi-nəfsinizlə mübarizə edin ki, özünüzə hakim olasınız! Ölüm çatdı və özünüzdən qabaq göndərdiyiniz xeyir əməllərdən başqa heç bir şey fayda verməyəcək. Ölüm çatdı və özünüzdən qabaq göndərdiyiniz yaxşı işlərdən başqa heç nə sizi ehtiyacsız etməyəcək. Hikmət qəlbinizi bürüyənə qədər şəhvətlərə qalib gəlməkdən ötrü nəfsinizlə mübarizə aparın. Yeməyinizi azaltmaqla nəfsinizlə cihad edin ki, məlaikələr sizə yaxınlaşsın və şeytan sizdən uzaq olsun. Gözün quruluğu qəlbin qəsavətindən irəli gəlir.

◘Dünyaya həris olmaq münafiqlik əlamətlərindəndir. Ailə ilə oturmaq mənim məscidimdə etikafdan üstündür. (O yerdə ki, ülfət və xoş ünsiyyətlə onların qəlbini şad etsin və gözəl əxlaq və ədəblə onları tərbiyələndirsin.) Allah pak əxlaqı özü ilə əlaqə üçün vasitə qərar verib və bu (fəzilət) sizin üçün bəsdir ki, sizi Allaha yaxınlaşdıracaq xoş bir xasiyyət əldə edəsiniz. Yaxşı insanlarla oturub-durun ki, yaxşı iş görəndə səni alqışlasınlar, pis iş görəndə isə sənə bundan çəkinmək üçün xəbərdarlıq etsinlər. Bu günah müsəlman kişi üçün bəsdir ki, öz qardaşının abrını aparsın və bu şər də onun üçün bəsdir ki, öz qardaşını təhqir etsin.

◘Tamahkarlığı dünyaya məhəbbət bəsləyən qəlbdən silmək mümkün deyil. Pəhrizkarlıq şəhvət düşkünü olan qəlbə heç vaxt daxil olmaz. Şəhvət düşkünü olan qəlb məlaikələr aləminə pərvaz etməkdən məhrumdur. Bu fəzilət din işlərində hər bir kişiyə kifayət edər ki, namazına vaxtlı-vaxtında riayət etsin. Yalançılığın əvvəlinci əlaməti budur ki, eşitdiyin hər bir şeyi nəql edəsən.

◘Nadanlığın əvvəlinci əlaməti budur ki, bildiyin hər bir şeyi aşkar edəsən. Elminə əməl edən alimin hörməti şəhidlərə və siddiqlərə olunan hörmət qədərdir. Sizlərdən ən yaxşısı odur ki, bütün səy və himmətini (ciddi-cəhdini) axirətə yönəldib. Sizlərdən ən yaxşınız odur ki, fəqirliyə razı olsun, camaatdan kənar gəzsin və özünün din və təqvasını qorusun (bir halda ki, onlarla əlaqə saxladıqda özü günaha düşsün və onları islah etmək qüdrətinə də malik olmasın.) Sizlərdən ən yaxşısı odur ki, Allah ona özünə malik olmaqda kömək etsin.

◘Hamıdan yaxşı o kəsdir ki, ömrün keçib-getmə sürətini bilsin və səfərə hazır olsun. Sizdən ən yaxşısı odur ki, onunla görüşməyiniz sizə Allahı xatırlatsın. Sizlərdən ən yaxşısı odur ki, danışığı sizin elminizi

artırsın. Sizlərdən ən yaxşısı odur ki, sizi xeyir iş görməyə dəvət etsin. Sizlərdən ən yaxşısı o kəsdir ki, fəqirliyə razı olsun və dünyanı özündən aşağı bilib ondan vaz keçsin.

◘Sizlərdən ən yaxşınız odur ki, eyiblərdən uzaq olsun. Sizlərdən ən yaxşınız odur ki, günahdan çəkinsin, sizin ən yaxşı əməlləriniz odur ki, sizin axirətinizi islah etsin. Ən yaxşı xeyir əməllər onlardır ki, daimi olsun; hərçənd, az da olsa, ən yaxşı qardaşlar onlardır ki, sizə axirət işlərində kömək etsinlər.

◘Mənim ümmətimin ən yaxşıları onlardır ki, dünyaya qarşı etinasız olub axirətə daha çox dəyər versinlər. Sizin ən yaxşı qardaşlarınız o kəslərdir ki, sizi eyiblərinizdən xəbərdar etsin. Allah yanında ən üstün istiğfar günahdan əl çəkib peşman olmaqdır. Allahın ən üstün bəndələri o kəslərdir ki, ibadət üçün günəş və ayı izləyirlər. (Yəni, oruc və namazların intizarındadırlar.) Sizin ən yaxşı qardaşlarınız o kəslərdir ki, sizə ibadətdə kömək etsinlər, sizi günahdan çəkindirsinlər və Alahın razılığını əldə etmək üçün yol göstərsinlər.

◘Məlaikələr mənə dedilər ki, sənin ümmətinin ən üstün kəsləri onlardır ki, Allahın rəhmətinin intizarından xoşhal olsunlar və xəlvətdə isə onun dərdli əzabının qorxusundan ağlasınlar. Müsəlmanların ən yaxşısı odur ki, qənaəti çox, ibadəti gözəl olsun və bütün səy və himmətini axirət yolunda sərf etsin. Mənim ümmətimin ən yaxşısı odur ki, cavanlığını Allaha itaətdə keçirsin, dünya ləzzətlərindən əl götürsün və qəlbini axirətə bağlasın. Belə bir kəsə Allah behiştin yüksək dərəcələrini əta edər.

◘Allah yanında bəndələrin ən üstünü o kəsir ki, Allah qarşısında təslim və ona təvəkkül etməyi daha artıq olsun. Mənim ümmətimin ən yaxşısı odur ki, onunla nadanlıqla rəftar etsələr səbr etsin, cinayət görsə göz yumsun, ona əziyyət etsələr dözsün. (Yəni əgər onun bu xüsusiyyətindən sui-istifadə etmirlərsə, alicənablıqla bunlardan keçsin və intiqam almaq fikrində olmasın.)

Mənim ümmətimin ən yaxşıları onlardır ki, nə o qədər nemət içində olsunlar ki, tüğyan etsinlər və nə o qədər yoxsul olsunlar ki, dilənçiliklə məşğul olsunlar. Mötədil (orta həddə) olun ki, əcr əldə edəsiniz, səfər edin ki, səhhət və qənimət əldə edəsiniz, sərt olmayın, mülayim olun. Elmi yazmaqla qoruyub saxlayın. Borcunuzu az edin ki, rahat yaşayasınız, günahlarınızı azaldın ki, ölüm sizin üçün asan olsun.

Təqvalı ol ki, insanların ən abidi olasan, qane ol ki, insanların ən çox şükr edəni olasan, özün üçün istədiyin şeyi camaat üçün də istə ki, mömin olasan, qonşunla xoşrəftar ol ki, müsəlman sayılasan, dostuna və yoldaşına yaxşılıq et ki, mömin olasan, dinin vacibatına əməl et ki, abid olasan, ilahi qismətə razı ol ki, zahid olasan.

◘Camaatın malından tamahını çək ki, səni sevsinlər, dünyadan meylini çək ki, Allah səni sevsin. Dünyada qərib və qonaq kimi yaşa və özünü ölənlərin sırasında bil. O şeyə ki arxayın deyilsən onu boşla və daha etibarlı mətləbi öyrənməyə çalış. Din qardaşınla zalım da olsa, məzlum da olsa dostluq et. (Zalımın zülmünün qarşısını al, məzluma isə arxa dur.) Yer əhlinə rəhm et ki, göy əhli də sənə rəhm etsin. Mülayim ol ki, sənə qarşı da mülayim olsunlar.

◘Həvəslə dəstəmaz al ki, ömrün uzansın. Öz ev əhlinə (ailə üvlərinə) salam ver ki, evinin bərəkəti artsın. Nə qədər bacarırsan xahiş və təmənna etməkdən çəkin. Haqq acı olsa da onu söyləməkdən çəkinmə. Harada olsan Allahdan qorx.

◘Əgər günah etdin arxasınca ibadət et ki, onu məhv etsin. Camaatla xoş xasiyyətlə rəftar et. Bircə salam deməklə də olsa sileyi-rəhm edin. Bir-birinizdən ötrü hədiyyələr göndərin ki, aranızda olan mehr-məhəbbət artsın. Cihad edin ki, övladlarınız əzəmət əldə etsin və çalışqan və fəal olsun.

◘Böyüklərin səhvlərinə göz yumun. Hədiyyə göndərin ki, kinlər aradan getsin. Hədiyyə göndərin ki, dostluğunuz daha da möhkəmlənsin və nigarançılığınız aradan getsin. Mənim dediklərimi camaata çatdırın, hərçənd bir Quran ayəsi olsa belə. Möminin dərrakəsindən qorxun, çünki o, Allahın nuru ilə görür.

◘Binalarda və evlərdə haram iş görmək oranın viran qalmasına səbəb olar. Öz övladlarınıza ehtiram göstərin və onları gözəl tərbiyələndirin. Gözəl söz danışın ki, qənimət əldə edəsiniz və pis danışıqdan uzaq olun ki, salamat qalasınız. Nütfələrdən (spermalardan) ötrü pak bətnlər seçin. Ləzzətləri tar-mar edəni (ölümü) çox yad edin.

◘Mehriban və doğan qadınlarla evlənin, çünki mən peyğəmbərlər arasında ümmətimin çoxluğu ilə iftixar edəcəyəm. Yarım dənə xurmanı sədəqə verməklə də olsa özünüzü cəhənnəm odundan qoruyun. Paxıllıqdan çəkinin, çünki keçmiş ümmətləri də həlak edən məhz

paxıllıqdır. Ağzınızı yaxalayacaq suya da olsa qənaət etməklə ehtiyacsız olun. Zəkat verməklə mallarınızı sığorta edin.

◘Sədəqə vasitəsilə xəstələri müalicə edin. Duanı bəla qarşısında sipər edin. Ürəyiniz yumşaq olan zaman dua edin, çünki ürək yumşaqlığı rəhmətdir. Ömrünüz boyu xeyir dalınca olun və özünüzü Allahın rəhmət nəsim (mehi) qarşısında qərar verin, çünki Allahın hər kəs üzərində əsəcək rəhmət nəsimləri var. Hər hansı bir iş görərkən gizlində yerinə yetirin, öz məqsədlərinizi aşkar etməyin ki, bir işi görə biləsiniz. Öz yeməyinizi pərhizkarlara və xeyirxah möminlərə yedizdirin.

◘Mənim haqqımı Əhli-beytimin hüquqlarına riayət etməklə qoruyun. Mənim Əhli-beytim Nuhun gəmisi kimidir; hər kəs ona daxil olsa nicat tapar, hər kəs ona zidd olsa qərq olar.

## BEŞİNCİ FƏSİL

## *Peyğəmbərin (s) digər nəzmlə olan hikmətli kəlamları*

◘Mömin bir yerdən iki dəfə sancılmaz. Camaata təşəkkür etməyən Allaha da şükr etməyib. Qəzanı (qəza və qədəri) duadan başqa heç nə qaytarmaz, ömrü başqalarına yaxşılıq etməkdən başqa bir şey artırmaz.

◘İbrət götürməyəndən başqası səbirli hesab olunmaz. Nadanlıqdan böyük fəqirlik yoxdur. Əqldən faydalı dövlət yoxdur. Xudpəsəndlikdən (özünəpərəstiş, eqoizm) də dəhşətli tənhalıq yoxdur. Məşvərət etməkdən gözəl həmkarlıq yoxdur.

◘Tədbir əqlin ən gözəl nümunəsidir. Xoşxasiyyətlik ən yaxşı əsl-nəcabətdir. Günahdan çəkinmək kimi pərhizkarlıq yoxdur. Təfəkkür kimi ibadət yoxdur. Səbr və həya kimi iman yoxdur.

◘Həddi-büluğa çatan heç kəs yetim hesab olunmur. Əmanətdar olmayan kəsin imanı yoxdur, əhdə vəfa etməyənin də dini yoxdur. (Yəni, din və imanları zəifdir.)

◘Üç gündən artıq küsülü qalmaq olmaz. İstiğfar (bağışlanma diləmək) vasitəsilə böyük günah qalmaz, təkrar vasitəsilə kiçik günah (yəni kiçik günahları təkrarlamağın özü) böyük günahdır. Dini üçün qəm çəkməkdən başqa qüssə yoxdur.

◘Quran oxuyan bəndə fəqirlik görməz. Ehtiyat müqəddər olunan şeyin qarşısını alır. Mömin ehtiyatı əldən verib qəflətə düşməz. Başçısı qadın olan millət doğruluğun üzünü görməz. Gərək mömin özünü xar etməsin. İkiüzlü adam Allah yanında etibarlı deyil. Ata-ana və ədalətli imamdan başqasına yaltaqlanmaq rəva deyil. Allaha günah etməkdən ötrü heç kəsə itaət etmək olmaz. Söz gəzdirənlər əsla behiştə getməz (tövbə edənlərdən başqa). Qonşusu ondan amanda olmayan heç bir bəndə behiştə getməz.

◘Müsəlmanı qorxutmaq heç bir müsəlmana halal deyil. Heç bir müsəlmana rəva deyil ki, üç gündən artıq öz müsəlman qardaşından ayrı gəzsin. (küssün) Sərvətli və ya işləmək qüdrəti olan şəxslərə sədəqə halal deyil. Nə qədər ki, bir kəsin qəlbi düzəlməyib, imanı da düzəlməz, nə qədər ki, bir kəsin dili düzəlməyib, qəlbi də düzəlməz. Özü üçün istədiyi xeyri mömin qardaşı üçün istəməyən bəndənin imanı yoxdur.

◘Nə qədər ki, bir kəs ona yetişən şeyin qarşısını almaq və ona yetişməyən şeyi ələ gətirmək imkanının öz əlində olmadığını dərk etməyib, imanın həqiqətinə çatmaz (yəni Allahın qəza və qədərinə imanlı olsun). Sizlərdən heç birinin imanı dilinə hakim olmadığı müddətdə kamil olmaz. Camaata rəhm etməyən şəxsə Allah da rəhm etməz. Mümkün deyil ki, mömin tox olsun qonşusu ac. Heç bir alim behiştə çatana qədər elmdən doymaz.

◘İnsanlar getdikcə paxıl olarlar və qiyamət qopan zaman Həzrət Mehdi (ə) və Məryəm oğlu İsadan (ə) başqa yer üzü şər insanlarla dolu olar. Nə qədər ki, yer üzündə kişilər az, qadınlar çox olmayıb qiyamət bərpa olmaz. Hər kəs bir bəndənin bədənini örtsə (onu geyindirsə), Allah da qiyamət günü onun bədənini örtər. Sənin haqqına riayət etməyən və səninlə oturub duran adamda xeyir yoxdur. Gözlərini əldən verən, lakin Allaha xatir səbr edən hər bir bəndə behiştə daxil olar. Heç kəs, nə qədər ki, harama düşməmək üçün şübhəli işlərdən çəkinməyir, pərhizkar hesab olunmaz. Mənim ümmətimdən bir dəstə Allahın hökmü gələnə qədər haqdan ayrı düşməz. Kişinin canı davamlı olaraq öləndən sonra nə qədər ki, ödənməyib öz borcundan asılıdır. Namazın intizarında olan bəndə üçün həmin müddətdə namaz savabı yazılar. Mömin qardaşını məzəmmət etmə! Çünki, ola bilsin Allah ona afiyət versin, səni isə giriftar etsin.

◘Ruzigarı söyməyin, çünki, ruzigar özü elə Allah deməkdir (yəni işlərin təqdiri Allahın əmri ilədir). Ölüləri söyməyin ki, bu iş dirilərə əziyyət verir. Ölüləri söyməyin, çünki, onlar özlərindən qabaq göndərdiklərinə çatıblar. Heç kəs mömin qardaşının hədiyyəsini qaytarmasın, hətta, imkanı varsa əvəzində o da hədiyyə etsin. Özün geyinmədiyin özgə paltarına əlini silmə. Dilənçini əliboş qaytarma, heç olmazsa yarım dənə xurma ilə onu razı sal. Müsəlmanların qeybətini etməyin və onların eyiblərini axtarmayın. Heç kəsin sirr pərdəsini yırtmayın. Heç bir yaxşı əməli kiçik saymayın. Elə ki, mömin qardaşına vəd verdin, ona xilaf çıxma.

◘Məbada, sənə şiddət üz versə ölüm diləyəsən. Ölüm anında, məbada, Allaha xoşgüman olmayasınız (bəd güman olasınız). Nə qədər ki, bir kəsin işinin aqibətini görməmisiniz, onun əməlindən xoşhal olmayın. Məbada, bir kəsin məhəbbəti sizi haqqa əməl etməkdən saxlasın (yəni, haqqı tanıyasız, lakin ona əməl etməyəsiniz).

◘Məbada, bir kəs yad bir qadınla xəlvət bir yerdə qalsın. Çünki orada üçüncü kəs şeytandır. Heç kəsi Allahın qəzəbi ilə xoşhal etmə və Allahın sənə etdiyi lütfə görə heç kəsə təşəkkür etmə (yəni, ondan başqasına); Allahın səndən əsirgədiyi lütfə görə də heç kəsi məzəmmət etmə. Çünki O, nə ruzini bir kəsin istəyinə əsasən artırır və nə də onu bir kəsin nifrətinə əsasən azaldır. Rəhbərlik istəyin olmasın. Çünki əgər ona istəmədən çatsan sənə kömək edərlər və əgər istədiyin halda çatsan köməkçin olmaz. Qiyamət yaxınlaşan zaman övlad qəzəbə səbəb olar, çoxlu yağış yağar, alçaqlar çox, alicənab insanlar az olar, kiçiklər böyüklərə qarşı və rəzillər kərim insanlara qarşı ədəbsizlik edər, alçaq adamlar yaxşı insanlara qarşı həyasızlıq edər. Məşvərət edən kəs uduzmaz. Əgər rəhbərlər hidayət yolunda olsalar rəiyyət heç vaxt fəlakətə düçar olmaz, baxmayaraq ki, zülmkar və bədəməldirlər.

## ALTINCI FƏSİL

### *Rəsuli-Əkrəmin (s) fərqli bəyanla olan başqa növ kəlamları*

◘Söhbətlərin bəzisi sehirli, şerlərin bəzisi hikmətamiz, bilik mənbələrinin bəzisi isə cəhalətdir. Mənim ümmətim mərhəmət olunan ümmətdir (yəni, Allahın onlar üzərində lütf və mərhəmət nəzəri var). Əhdə vəfa etmək imandandır. Xoşgümanlıq xoş bir ibadətdir.

◘Alimlər peyğəmbərlərin varisləridir. Allahın dini saf və asandır. Allahın dini rahat və düzdür. Sileyi-rəhmin savabı hər ibadətin savabından tez yetişər. Hikmət insanın şərəfini artırar.

◘Allahın halalını haram edən kəs haramı halal edən kəs kimidir. Dünyapərəstlərin şərəfi mal ilə ölçülür. Haqq sahibinin sözü də haqdır. Ali əxlaq sahibi olmaq behişt əhlinin əməllərindəndir. Yaxşıların ən yaxşısı gözəl xasiyyətdir.

◘Behişt əhlinin əksəriyyəti sadəlöhv insanlardır. Behiştdə sakin olanların azı qadınlardır. Allahın ianəsi (maddi yardımı) ehtiyac miqdarındadır. (Bəndə nə qədər çox möhtac olsa kömək də o qədər çoxdur). Səbr müsibət qədər nazil olar. Ataya ən gözəl ehsan odur ki, ölümündən sonra onun dostlarına məhəbbət göstərəsən.
Şeytan Adəm övladına nəzərən (arterial damarda axan) qan kimidir. İnsanlardan Allaha ən çox şükr edəni bəndələrin haqqını ən çox gözləyənidir. Mal-dövlətdə səxavət zəxirədir (ehtiyat), yığıb saxlamaq isə fitnə. Bu ümmətin əzabını bu dünyada qərar veriblər. (Yəni dünya narahatçılıqları mömin bəndə üçün axirət əzabının əvəzidir). İnsan bəzən günah səbəbinə ruzidən məhrum olur.

◘Bəndələrdən elələri də var ki, əgər Allaha and versələr həmin andla hacətləri rəva olar. Allahın elə bəndələri var ki, fərasətlə insanları tanıyırlar. Allah özünə borc bilir ki, dünyanı ucaldıb, onun əzəmətini artıran hər bir şeyi ikiqat alçaldsın. Allahın elə bəndələri var ki, onları çətinlikləri aradan aparmaqdan ötrü yaradıb. Məktubun cavabı da salamın cavabı kimi zəruridir.

◘Ən gözəl yemək kəsb olunan məhsuldur və övlad da kəsb olunmuşlardandır. (Yəni əgər övlad öz malını atasının ixtiyarında qoysa ata üçün zillət və haram deyil.) Həddindən artıq borcu olan və acınacaqlı vəziyyətdə olan fəqirlərdən başqasına dilənmək halal deyil. Elmə söykənən az əməl çoxdur, cəhlə söykənən çox əməl isə az. Bəndə xoş xasiyyətli olmaqla gündüzlər oruc olub, gecələr namaz qılanların dərəcəsinə çatar. Hər dinə məxsus olan bir əxlaqi xüsusiyyət var, mənim dinimə xas olan əxlaqi xüsusiyyət də həyadır.

◘Hər şeyin bir şərəfi var və ən şərəfli əyləşilən yer də üzüqibləyə olanıdır. Hər bir ümmətin bir fitnəsi var, mənim ümmətimin fitnəsi maldır. Hər bir yol gedənin məqsədi var və hamının son məqsədi

ölümdür. Hər sözün yeri var, hər bir haqq da həqiqətə əsaslanır. Hər padşahın qoruğu var, Allahın qoruğu da haramdır.

◘Hər bir oruc tutanın qəbul olunacaq duası var. Hər şeyin qapısı var, ibadətin də qapısı orucdur. Hər şeyin mədəni var, təqvanın mədəni ariflərin qəlbidir. Hər şeyin qəlbi var, Quranın qəlbi də "Yasin" surəsidir. Hər peyğəmbərin duası var, mən isə öz duamı qiyamət günü öz ümmətimə şəfaət etməkdən ötrü ehtiyat saxlamışam.

◘Möminin çəkdiyi hər bir xərcə görə əcri var, yalnız torpaq və imarət üçün sərf etdiyindən başqa. (Ehtiyacını ödəməkdən ötrü olan hallar istisnadır. Yəni qeyri-şəri olmamalıdır.) Həsəd atəşin odunu aradan apardığı kimi yaxşı əməlləri aradan aparar. Atəşə daxil olmağın ən alçaq səbəbi ağız və fərcdir (cinsiyyət üzvü). İnsanı behiştə çatdıracaq ən gözəl şey təqva və xoş xasiyyətdir. Elə ki, fitnə hər yeri bürüdü, elm kölgəsində olan alimlərdən başqa hamı yerindən olar.

◘Pis göz kişini qəbrə salar, dəvəni qazana. Təkəbbür üzündən məxsus libas geyinənə Allah-təala qiyamət günü nəzər salmaz. Allah gözəldir və gözəlliyi də sevir (əlbəttə, əsas ruhun gözəlliyidir ki, düzgün əqidə və xoş əxlaqlı olsun). Allah dua edərkən israr edənləri sevir. Allah xoşxasiyyət insanları və tanınmayan pərhizkarları sevir.

◘Allah işləyib çalışan mömini sevir. Allah hər bir qəmgin qəlbi sevir (o halda ki, qəlbi mənasız və günah iş üçün qəmgin olmasın). Allah şərəfli və gözəl işləri sevir və dəyərsiz və alçaq işlərdən xoşlanmır. Allah Onun haramlarından çəkinməyi sevdiyi kimi halallarından da istifadə etməyi sevir. Allah şəhvətin tüğyan etdiyi vaxt iti görən gözü, şübhənin irəli gəldiyi vaxt kamil və dəqiq əqli və həmçinin bir neçə xurma qədərində də olsa bəxşişi və bir ilan öldürmək qədər olsa da şücaəti sevir.

◘Sənin Allahın bəyənilmiş işləri sevir. Allah öz bəndəsinin tövbəsini can boğaza çatana qədər qəbul edir. Allah heç bir mal və can xəsarəti görməyən şeytan və napak kişini düşmən bilir. Allah sizin üçün namaz halında oynamağı, gündüz vaxtı qadınla yaxınlıq etməyi və qəbristanlıqda gülməyi bəyənmir. Allah sizi boş söz-söhbət etməkdən, malınızı bihudə tələf etməkdən, bir şey istəyərkən israr etməkdən (yalvarmaqdan) çəkindirir.

◘Allah müsəlman üçün qeyrət sahibidir; o da gərək qeyrətli olsun. Allah rəhimdil insanlardan başqasına rəhm etməz. Allah sədəqə verməyə görə yetmiş pis ölümü insandan uzaqlaşdırır. Allah bəzən bu dini dinsiz insanın əli ilə möhkəmləndirir. Allah elə həmin miqdar bəndədən razı olar ki, yemək yeyərkən və su içərkən şükrünü yerinə yetirsin (və əlbəttə, bundan da mühüm şükür odur ki, bunlar (yemək və içmək) halaldan olsun).

◘Allah bəndəsinə verdiyi nemətlərin əlamətlərinin zahir olmasını sevir. Allah elmi sinələrdən almır, alimləri aparmaqla elm aradan gedir. Allah axirət məqsədi üçün dünya verir, lakin dünya məqsədi üçün isə axirət vermir. Allah ona tərəf qalxan əli boş qaytarmağa həya edir. Allah torpağı mənim üçün səcdəgah və paklayıcı qərar verib.

◘Allah yer üzünü mənə elə göstərdi ki, məşriqdən məğribə qədər hər yeri gördüm və gözümlə müşahidə etdiyim hər yerdə ümmətim hakimiyyət edəcək. Allah mənim ümmətimi nəfsinin xatalarına görə məzəmmət etməz. Yalnız o zaman qınanarlar ki, həmin xatalar əməl donu geyib dilə keçsin. Allah ədalət əsasında rahatlıq və rifahı yəqinin və öz müqəddər etdiyinə razı olmağın kölgəsində, qəm-qüssəni isə şəkk-şübhə və narazılıqda qərar verib. Allah, günü (yeni arvad) narahatlığını qadından, cihadı da kişidən ötrü qərar verib, onlardan hər hansı buna səbr etsə şəhid savabı əldə edər. Allah hər danışanın dili yaxınlığındadır.

◘Allah bir kəsin danışığını bəyənmədikcə əməlini qəbul etməz. Allah hər hansı bir millətə xeyir vermək istəsə onları imtahan edər (ki, təcrübəli və çalışqan olsunlar və öz hüquqlarını müdafiə edə bilsinlər). Qiyamət günü ən pis əzab əməlsiz alimlərdən ötrüdür. Qiyamət günü Allah hüzurunda duracaq ən pis insan o kəsdir ki, camaat onun dilindən qorxsunlar. Qiyamət günü ən pis insanlardan biri də axirətini başqasının dünyasına satan bəndədir.

◘İnsanların ən bədbəxti o kəsdir ki, dünyada fəqir, axirətdə də əzab əhli olsun. Bağışlanmağa səbəb olan işlərdən biri də mömin qardaşı sevindirməkdir. Şirindil olub salam vermək bağışlanmağa səbəb olan işlərdəndir. Dünya şirin və cəlbedicidir. Allah sizi keçmişdəkilərin yerində oturdub ki, görsün nə edirsiniz. İslamın ədəblərindəndir ki, ev sahibi qonağı evin qapısına qədər yola salsın.

◘Ruhul-qüds mənim qəlbimə belə ilham etdi: "Heç kəs nə qədər ki, öz müəyyən olunmuş ruzisinin hamısını yeməyib dünyadan getməz. Elə isə Allahdan qorxun və ruzi kəsb edərkən xoşrəftar olun." Camaatın keçmiş peyğəmbərlərdən yadda saxladığı sözlərdən biri də budur ki, əgər həya yoxundursa hər nə istəyirsən et. Mənim ən xoşuma gələn məşğuliyyət namazdır. Namazqılan bütün cahan səltənətinin sahibinin evinin qapısını döyür və hər kəs döyməyi davam etdirsə, ümid var ki, qapını üzünə açarlar. Allah mənə göstəriş verib ki, danışığım zikr, sükutum təfəkkür, baxışım isə ibrət olsun.

◘Mən Allahın öz bəndələrinə hədiyyə etdiyi rəhmətəm. Nadanlığın şəfası soruşmaqdır. Fazillərin qədrini fəzilət sahibləri bilər. Mən gözəl əxlaqı təkmilləşdirməkdən ötrü məbus olmuşam. Mən öz ümmətim üçün onları azdıracaq rəhbərlərdən qorxuram.

◘Əməllər niyyətə və nəticəyə bağlıdır. Dünyadan bəla və fitnədən başqa bir şey qalmayıb. Qəlblər də (dəmir kimi) pas atır. Soruşdular: Bəs qəlbin cilası nədir? Buyurdu: Ölümü çox yad etmək və Quran oxumaq. Cənnəti qazanmaq yolu təpəni qalxmaq kimi çətin və ağırdır. Cəhənnəmi (başqa bir rəvayətdə dünyanı) qazanmaq yolu asan və ləzzətlidir.

## YEDDİNCİ FƏSİL

## *Peyğəmbəri –Əkrəmin (s) digər tərzdə olan hikmətli kəlamları*

◘Eşitmək görmək kimi deyil. Fasiq üçün qeybət yoxdur. Zülm əsasında yerdə bitən kök haqq cücərtməz. Yaltaqlıq mömin xüsusiyyəti deyil.

◘Öləndən sonra üzürxahlıq yoxdur. O kəs ki, Allah ona imkan verib, o isə ailəsini pis dolandırır, bizdən deyil. Başqalarına oxşayan (yəni əxlaq və əməldə kafirlərə bənzəyən) şəxs bizdən deyil. Böyüklərə hörmət, kiçiklərə mərhəmət və nəhy əz münkər və əmr be məruf etməyən şəxs bizdən deyil.

◘Hər kəs iki nəfəri barışdırmaq məqsədi ilə həqiqətə uyğun olmayan bir söz desə yalançı hesab olunmur. İmkanlı olmaq sərvətin çoxluğu ilə deyil, qəlbin genişliyi ilədir. Qəhrəmanlıq güləşməklə deyil, qəzəb zamanı özünü ələ almaqladır. Allah yanında heç bir şey dua qədər əziz və dəyərli deyil. Heç bir günahın əzabı zülmünkü kimi tez yetişmir.

◘Sən mal-dövlətdən yeyib aradan aparmaqdan, geyib köhnəltməkdən və sədəqə verib özündən əvvəl göndərməkdən başqa bəhrə görə bilməzsən. Bir çox gecə namazı qılanlar var ki, yuxusuz qalmaqdan başqa bəhrəsi yoxdur, nə çox oruc tutanlar ki, aclıq və susuzluqdan başqa fayda görmür! Nə çox yeyib şükür edənlər var ki, savabları səbirlə oruc tutanlardan çoxdur!

## SƏKKİZİNCİ FƏSİL

## *Rəsuli-Əkrəmin (s) ən gözəl şeyləri tanıtdıran digər hikmətli kəlamları*

◘Zikrlərin ən yaxşısı gizli zikrdir. Ruzilərin ən yaxşısı odur ki, kifayət qədər olsun. İbadətlərin ən üstünü onun ən gizlində olanıdır. Ən gözəl məclis ən geniş məclisdir.

◘Sizin dininizin ən gözəl işi ən asan olanıdır. Ən gözəl evlənmək odur ki, daha sadə və daha asan olsun. Ən gözəl sədəqə odur ki rifah halında verilmiş olsun. Elmlərin ən üstünü ən faydalı olanıdır. Hidayətin ən üstünü odur ki, əməl mərhələsinə çatsın.

◘Qəlbə olan ilhamların ən yaxşısı yəqindir. İnsanların ən üstünü o kəsdir ki, başqalarına faydası hamıdan çox olsun. Dostların ən yaxşısı dostu üçün ən yaxşı olanıdır. Dostları ən yaxşı sayı dörddür. Sizlərdən ən yaxşınız Quranı öyrənib başqalarına öyrədəninizdir.

◘Sizdən ən üstününüz ailəsi üçün ən yaxşı olanınızdır. Sizlərdən ən üstününüz o kəsdir ki, camaat xeyrinə ümidvar və şərindən amanda olsun. Sizin evlərinizdən ən yaxşısı odur ki, orada yetimə ehtiram olunsun. Qadın üçün ən yaxşı məscid evin küncüdür. Ən gözəl libas ağ paltardır.

Sizin cavanlarınızın ən üstünü o kəslərdir ki, (əql, tədbir və nəfsani istəkləri ilə müxalifət etməkdə) özünü yaşlılara oxşatsın, yaşlılarınızın ən pisi o kəslərdir ki, (yelbeyinlik və boş-boş istəklərdə) özünü cavanlara oxşatsın. Kişilər üçün səflərin ən yaxşısı birici ən pisi axırıncısıdır. Qadınlar üçün isə səflərin ən yaxşısı axırıncı ən pisi isə birincisidir. Verən əl alan əldən daha üstündür. Az və kifayət qədər olan mal çox və insanı qəflətə düçar edən maldan daha yaxşıdır.Ən yaxşı möminlər qənaətkarlar (yəni qane olanlar) və ən pis möminlər isə tamahkarlardır.

◘Dünya, ehtiyacları ödəyəcək vəsaitlər yeridir və orada olanların ən yaxşısı isə ləyaqətli qadındır. Tənhalıq pis yoldaşdan daha yaxşıdır. Yaxşı dost tənhalıqdan yaxşıdır. İnsanın əməl dəftərində yazılacaq gözəl danışıq sükutdan, sükut isə pis danışıqdan daha gözəldir. Yaxşı və xeyir işi təkmilləşdirmək onu başlamaqdan daha üstündür. Dinə və sünnəyə uyğun olan az əməl bunlara müxalif olan çox əməldən üstündür.

◘Sizin ən yaxşınız günaha düşən zaman tövbə edəninizdir. Sizin ən yaxşınız öz borcunu daha yaxşı ödəyəninizdir. Mənim ümmətimin ən yaxşıları alimlərdir. Alimlərin də ən yaxşısı camaatla təmkinlə davrananlarıdır. Mənim ümmətimin ən yaxşı kəsləri qəzəblənən zaman tez sakitləşə bilən tündxasiyət şəxslərdir. Sədəqənin ən yaxşısı dilin sədəqəsidir.

◘Sədəqələrin ən yaxşısı insanlar arasında mehribanlıq yaratmaqdır. Ən gözəl sədəqə səninlə düşmənçilik edən qonşuna verilən sədəqədir. İbadətlərin ən yaxşısı Ali-Muhəmmədin fərəcinin intizarında olmaqdır. Mənim ümmətimin ibadəti Quran oxumaqdır. Elm ibadətdən üstündür.

◘Acı doydurmaqdan böyük ibadət yoxdur. Allaha yaxınlaşmağa səbəb olan axırıncı səcdə kimi ibadət yoxdur. Heç bir ata öz övladına ədəbdən də gözəl töhfə verməmişdir. Hikmətli söz nə gözəl hədiyyədir! Qıtlıq və kasıblıq vaxtı xurma ağacının gül açmağı nə gözəl maldır!

◘Saleh mal nə gözəldir! Sərvət təqvaya riayət etmək üçün nə gözəl köməkçidir. Sirkə-çörək yemək yaxşıdır. Ev müsəlman üçün yaxşı ibadətgahdır. Sözlərin ən doğru-düzgün olanı Allahın kitabıdır, ən möhkəm bəhanə təqva kəlməsidir və ən yaxşı hidayət peyğəmbərlərin hidayətidir.

◘Ən şərəfli ölüm şəhidlikdir. Ən gözəl ətir müşkdür. Çörəklə birlikdə yeməkdən ötrü ən yaxşı şey duzdur. Qaib olan şəxs üçün edilən dua tez qəbul olunar.

## DOQQUZUNCU FƏSİL

### *Peyğəmbəri-Əkrəmdən (s) olan bənzətmələr*

◘Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Hər kəs ona minsə nicat tapar, hər kəs onunla müxalifətçilik etsə qərq olar. Mənim əshabım ümmətim üçün duzun yeməyə olan nisbəti kimidir. Yemək də duzsuz

düzəlməz. Mənim ümmətim yağışa bənzəyir; başdan ayağa xeyirdir. Məlum deyil əvvəli yaxşıdır yoxsa axırı. Mömin bal arısına bənzəyir; pak qidalar yeyər və pak bəhrələr verər.

◘Möminnin hekayəti küləyin yolu üstündə duran sünbülə bənzəyir. Gah yıxılır, gah durur (Mömin dövranın fitnələri nəticəsində titrəyib büdrəyir, lakin sınmır; yenidən hərəkət edir). Kafirin halı düyünün sünbülünə bənzəyir; həmişə tərpənməz olaraq dik qalır, yerindən dartıb çıxarılanlar qədər. Möminlər dostluq və mehribanlıqda bədənin üzvləri kimidirlər. Biri ağrıyan zaman o birilər də oyaq qalıb narahat olurlar. Qəlb, küləyin yolu üstündə olan yarpağa bənzəyir (nəfsani istəklər hər an onu o tərəfə-bu tərəfə çevirir.) Quran bağlı dəvəyə bənzəyir, onu bağlasalar qalar, boş buraxsalar qaçar.

◘Qadın əyri qabırğa kimidir. Əgər düzəltmək istəsən sınar. Lakin həmin əyriliklə onu düzəltsən bəhrə apararsan. Saleh yoldaş ətir satan kimidir. Sənə ətir verməsə də onun ətrinin xoş iyi sənə hopar. Pis yoldaş isə dəmirçi kimidir. Atəşinin qığılcımı sənə çatmasa da pis iyi sənə əziyyət verər. Vacib namaz tərəziyə bənzəyir. Əgər tamam versələr, tamam götürərlər. Dünya ilə bizim məsəlimiz süvari kimidir: İsti gündə ağac kölgəsində dincəlib sonra hərəkət edər və kölgəni tərk edər. Dünya ilə axirətin fərqi barmağın ucunda olan sümüyün dərya ilə müqayisəsi qədərdir. Barmağını dəryaya sal gör nə qədər su götürə bilirsən?

## ONUNCU FƏSİL

## *Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) hikmətli kəlamları*

◘Şəxsin imanı andlarından məlum olar. Qardaş odur ki, çətinlikdə qardaşlıq etsin. İmkanı zahir etmək şükürün bir hissəsidir. Kişinin ədəbi onun qızılından üstündür.

◘Borcu ödəmək dindarlıqdan irəli gəlir (dindarlığın əlamətidir.) Öz qadın və övladına ədəb öyrətməklə onlara fayda ver. Pis insanlara yaxşılıq etməklə onların pisliklərinin qarşısını al. Bu dövrün qardaşları eyiblərin casusudurlar. İnsanların asayişi (insanların malından) ümidsiz olamaqdadır.

◘Çətinlikləri gizli saxlamaq kişilikdir. Ata-anaya yaxşılıq insanın əvvəlcədən özü üçün göndərdiyi yaxşılıqdır. Səbirdən sonra özünə

qələbə müjdəsi ver. Malın bərəkəti zəkat verməklə artar. Öz dünyanı axirətə sat ki, xeyir götürəsən.

◘Möminin Allah qorxusundan ağlaması gözünün nurunu artırar. Xeyir işi tez yerinə yetir ki, arzuna çatasan. İnsanın qarnı onun düşmənidir. Cümə axşamı və şənbə günlərinin səhəri bərəkətdir.

◘Ömrün bərəkəti yaxşı işdədir. İnsanın bəlası dilinin altındadır. Ömrün qalan hissəsinin qiyməti yoxdur. Yaxşı işi minnət qoymaqla aradan aparma. Bəxşiş zamanı xoşüzlü olmaq ikinci bəxşişdir.

◘Allaha təvəkkül et sənə bəs edər. İşi təxirə salmaq bədbəxtlikdir. Ömrünün əvvəlində əldən verdiklərinin yerini ömrünün qalan hissəsində doldur. Namazda halsız və tənbəl olmaq imanın azlığından irəli gəlir. Süfrəyə çox əlin uzanması bərəkətdir.

◘Yaramaz işlərdən uzaq ol ki, möhtərəm olasan. Öz zirəklik və oyaqlığını günahın tərkində işlət. İnsanın təvazökarlığı onun kərəmindən irəli gəlir. Hərislik quyusunu torpaqdan başqa heç nə doldurmaz. Dində itki alimlərin ölümü ilədir.

◘Salamatlıq libası köhnəlməz. Hakimiyyətin davamlı olması ədalətə əsaslanır. Üzürxahlıq vasitəsilə yaxşılığı təkrarla (əgər yaxşılıq etdiyin kəsin ona layiq olmadığını bildirsən ona ikinci dəfə yaxşılıq etmiş olarsan). Axirət savabı dünya nemətlərindən üstündür. Canın davamı yeməklədir, ruhun davamı isə fəna ilə (yəni, bu dünyadan getməklə).

◘Kərəm əhlinə sitayiş etmək, onların ətalarının artmasına səbəb olar. Nə qədər varındır əliaçıqlıq et (əlbəttə, özün başqalarına möhtac olacaq qədər yox). İnsanın gözəlliyi onun həlimliyi ilə ölçülür. Kasıbın verdiyi az bəxşiş də çoxdur. Pis yoldaş şeytandır.

◘Batilin cövlan etməsi bir saatdır, haqq-ədalət dövləti isə qiyamətəcən. Sözün gözəlliyi onun qısa və müxtəsər olmasındadır. Yaxşı yoldaş qənimətdir. Kasıblarla yoldaşlıq et ki, hörmətin artıq olsun. O kəsin ki, ölüm (və yoxluq) yoxudur, böyük insandır.

◘İnsanın elmi onun dostudur. Qadınların zinəti qızıldır. İnsanın həyası (pis əməllərindən ötrü) pərdədir. Yeməyin turşuluğu sözün turşuluğundan yaxşıdır. Tündxasiyyət olmaq kişini fəlakətə aparır.

◘Əsil-nəcabəti olmayan adamdan vəfa gözləmək olmaz. İnsanın məşğuliyyəti xəzinədir. Xoşxasiyyət olmaq qənimətdir. Allahdan qorxsan, başqalarından amanda qalarsan. Ən yaxşı dost odur ki, səni xeyir işlərə doğru istiqamətləndirsin.

◘Nəfsinlə mübarizə et ki, azad olasan. Dinin dünyaya satıldığı alver başdan-ayağa ziyandır. İnsanın dostu onun əqlinin nişanəsidir. Qəlbin (qüssədən) xali olması kisənin dolu olmasından yaxşıdır. Allahdan qorxmaq qəlbi cilalayar (qəsavəti aradan aparar).

◘Dostluqda xalis olmaq xoşpeymanlıqdandır. Qadınların ən yaxşısı uşaq doğan və mehriban olanıdır. Ən yaxşı mal Allah yolunda sərf olunanıdır. Qəlbin dərmanı qəza və qədərə razı olmaqdır. Nəfsin dərdi hərislik, dərmanı isə onun qarşısını almaqdır.

◘Danışıq insan əqlinin göstəricisidir. İnsanın dyərinin göstəricisi onun rəftarıdır. Xoş yaşayışın davamı dostlarla görüşməkdədir. Nalayiq və alçaq adamların dövləti kişilərin afətidir (bəlasıdır). Paxılların dinarı[1](1) daşdır.

◘İnsanın dini onun danışığıdır. Padşahların dövləti ədalətə bağlıdır. Həmişə qəzəbini yatırt ki, yaxşı nəticə əldə edəsən. Tüğyankarları boşla ki, qoy öz tüğyanlarında qalsınlar (Yəni sənin nəhy əz münkərdən başqa vəzifən yoxdur). Bir günah çoxdur, min itaət az.

◘Şahların “əraqəsi”[2] (2)dodaqları yandırar. İnsanın zilləti tamahındadır. Fəqirlik zillətinə düçar olan şəxs Allah yanında əzizdir. Cavanlığı yad etmək həsrətdir. Rəvan danışıq sərmayədir.

◘Ölümü yad etmək qəlbin cilasıdır. Dostla görüşmək gözün cilasıdır. Atana ehtiram et ki, oğlun da sənə ehtiram etsin. Rifah halında olan yaşayış əmniyyət sayəsindədir. Rütbələrin ən böyüyü elm rütbəsidir.

◘Rahat ol! Ruzi özü sənin arxanca qaçır. Doğum ölümün qasididir. Hədis nəql etmək insanı Peyğəmbərə (s) yaxınlaşdırar. Həvayi-nəfsə qələbə zamanı haqqa riayət et. Hər kəsin dostu onun əqlinin göstəricisidir.

---

[1] Dinar-pul vahidi.
[2] Zəraqə xoş ətlirli bitkidir. Burada məqsəd budur ki, şahlarla əlaqə xətərlidir.

◘Camaatı öz tərəziləri ilə ölçün (yəni, hər kəslə onun əql və mərifətinə uyğun tərzdə rəftar edin). Saleh insanların zəhməti rəhmətdir. Elmin aradan getməsi alimin ölümündən yaxşıdır. (Yəni əgər bir elmi kitab aradan getsə alimlərin tədqiq və təhqiqi nəticəsində yenidən yazılar. Lakin, alim dünyadan getsə elmi kitabların elə də faydası olmaz). Hər kəsə sənə etdiyi hörmət qədər ehtiram göstər. Dünyanın küncləri müsibətlərlə doludur.

◘Dostla görüşmək ona məhəbbətin əlamətidir. Zəiflərlə görüşmək təvazökarlıq əlamətidir. Daxili gözəllik zahiri gözəllikdən yaxşıdır. Bədgümanlıq haram işlərdəndir. Dünyanın xoşluqları hiylədir.

◘Bəd xasiyyət çıxış yolu olmayan bir dəhşətdir. Hər kəsin getdiyi yol onun batini mərifətinə bağlıdır. İnsanın salamat qalmağı dinini saxlamağındadır. Sükut insanın salamatlığıdır. (O halda ki, danışmaq lazım olmasın). Ümmətin böyükləri fəqihlərdir.

◘Zəiflərin silahı şikayətdir. İnsanın yüksəlişi təvazökarlıqladır. Elmin eybi özünübəyənməklikdir. Behişti ələ gətirməkdən ötrü himmət ətəyini kəmərinə sanc.

◘Ağ tük ölümün qasididir. Qəlbin şəfası Quran oxumaqdır. Simic imkanlı səxavətli kasıbdan da kasıbdır. Dostluğun şərti əziyyət və buyuruğu tərk etməkdir. İnsanların ən pisi odur ki, camaatdan qorxur.

◘Sədəqə nicat tapmağa səbəb olar. Bədənin sədəqəsi orucdur. Səbr etmək zəfər əldə etməyə səbəb olar. Gecə namazı, gündüzün aydınlığıdır. İnsanın məsləhəti dilini qorumaqdır.

◘Yaxşı insanlarla dostluq et ki, şər insanların şərindən amanda qalasan. Nadan insanın sükutu onun eyib örtüyüdür. Qohumlarına yaxşılıq et ki, himayədarın çox olsun. Dinin islahı təqva, fəsadı (xarab olmağı) tamahdır. Hər kəs Allahdan başqasına ümid etsə boşuna əziyyət çəkib.

◘Allah hər kəsin ruzisinə zamindir. Dostun kötəyi daha dərdlidir. Qəlbin nurlu olması halal yeməkdəndir. Dilin zərbəsi nizənin zərbəsindən daha ağırdır. Şər insanlara etimad edən şəxs yolunu azıb. Dinini dünyaya satan insan yolunu azıb.

◘Qəlbin aşağı olması (kasıblığı) əlin aşağı olmağından daha çətindir. Qəlbi simic olanın özü də simic olar. Dünya kin-küdurət əhli üçün dardır. Xoş o kəsin halına ki, ona salamatlıq (sağlamlıq) nəsib olub. İbadətdə keçən uzun ömür Peyğəmbərin (s) imtiyazlarındandır.

◘Əziyyəti az olanın ömrü uzun olar. Ədəb sahibi olmaq qızıl sahibi olmaqdan üstündür. Ümidi qısa olanın ömrü uzun olar. Düşmənə itaət məhv olmaq deməkdir. Xoş o kəsin halına ki, ailəsinin yaramaz üzvü yoxdur.

◘Allaha itaət qənimətdir. Zülm insanı həlak edər. Məzlumlara edilən zülm aradan getməz. Zülm zülmkarı məhv edər. Var-dövlət susuzluğu suya olan susuzluqdan çoxdur.

◘Zülm imanı zülmətə salar. Haqq rəhbərlərin kölgəsi Allahın kölgəsidir. Zülmkar ömrünün kölgəsi qısadır. Kərim insanların kölgəsi genişdir. Qənaətlə yaşa ki, padşahlıq edəsən.

◘Yüksək iradə və himmətli olmaq imandan irəli gəlir. Danışığın eybi onun uzun-uzadı olmasındadır. Zülmün axırı təhlükəlidir. Nadan dostdan çox ağıllı düşmən barədə fikirləşmək lazımdır. Axirət çətinlikdəri ağırdır, özünə tədarük gör!

◘Elmi qorumaq üçün çalış, nəinki, kitab yığmaq üçün. Zülmkarın cəzası qəfil ölümdür. Hər gecənin gündüzü var. Sağlam olan hər kəs qənimət əldə edib. Allaha təvəkkül edənlərin dəyəri böyükdür.

◘Ölüm çətinliyi cinssiz (pis) yoldaşdan asandır. Ağıllı cavan axmaq qocadan üstündür. Sənin bədrəftar olmağına səbəb olan şəxs səni aldadıb. Səni yersiz əsəbləşdirən kəs sənə xəyanət edib. Haqq sözdən acığı gəlmək pisdir.

◘Möminin qəniməti hikmət əldə etməkdir. Hər kəs din əldə edibsə nicat tapacaq. Fəzilətlə iftixar etmək, nəsillə fəxr etməkdən üstündür. Nəfsinin şərindən amanda olan şəxs qurtular. İnsanın zirəkliyi onun əsli-nəcabətinə bağlıdır.

◘Nicat düzgünlükdədir. Hər bir ürək bir şeyə məşğuldur. Onun nemətinə naşükür olmağın axırı yoxdur. Hər kəsin sözləri onun şəxsiyyətini tanıtdıran əvəzləyicidir. Haqqı qəbul etmək dindəndir.

◘Qəlbin qüvvəti səhih imanın nəticəsidir. Hərislik həris insanın qatilidir. Hər bir işi tədbir və ölçüb-biçməklə gör ki, xoşagəlməzliklərdən uzaq olasan. Hər kəsin dəyəri onun elmi, biliyi qədərdir. Hər kəsin yoldaşı onun dininin göstəricisidir.

◘Şər insanlara yaxın olmaq ziyan gətirər. Qəlbin bərkliyi toxluqdandır. Hər kəsin dəyəri onun himməti qədərdir. Allah kəlamı qəlblərin dərmanıdır. Səxavətli kafir behiştə paxıl mömindən daha yaxındır.

◘Naşükürlük neməti aradan aparır. Qoca üçün qocalıq dərdi bəsdir. Paxıldan ötrü paxıllıq dərdi bəsdir. Elmin kamalı helm (həlimlik, xoşrəftarlıq) ilədir. Üzürxahlıq bağışlanmağı təkmil edir.

◘Dünyadan ötrü bu nöqsan bəsdir ki, vəfası yoxdur. Ölümün olduğunu bilmək qəm-qüssə üçün kifayətdir. Ağ tük ölümün elanı üçün kifayətdir. Əgər rəhm etsən sənə də rəhmət edərlər. Sən bekar və işsiz olduğun müddətdə xoşagəlməzsən.

◘Yumşaq və xoş danışıq qəlblərin zənciridir. Xoş söz danış ki, sevimli olasan. Qocalıq dövrü ömrün tərkib hissəsi deyil. Paxıl rahat olmaz. Elm səltənəti yıxılmaz.

◘Paxılın düşmənçiliyindən başqa hər bir düşmənçilik səbəb və məsləhətə əsaslanır. Himməti ali olanın qüssəsi də uzun olar. Çoxdanışanı qınayıb danlayanı da çox olar. Saf və təmiz içməli suya hücum çox olar. (Yəni kamal sahiblərinin hüzurunda olmağa can atanlar çoxdur). Elm məclisi behişt bağıdır.

◘Şər yoldaşlar dəryada səfər etmək kimi təhlükəlidirlər. Dodağını dodağının üzərinə qoyan peşmanlıq görməz. Böyük insanların məclisi gözəl sözlər öyrənmək yeridir. İnsanın fəziləti dilinin altında gizlənib. Müxtəlif qruplar və dəstələrlə oturub durmaq insanın dinini xarab edər.

◘Möminin nuru gecə namazındadır. Ölümü unutmaq qəlbin pasıdır. Qəlbi qaranlıqdan namaz qılmaqla nurani et. Elə ki, başının tükü ağardı, bil ki, ölüm xəbərin gəlib çatıb. Yatmaq üçün ən yumşaq yataq əmin-amanlıqdır.

◘Arzulara çatmaq qüdrət və imkan sayəsində mümkündür. Ayrılıq atəşi qəlbi cəhənnəm atəşindən daha çox yandırıb yaxır. Üzün təravət

və şadlığı düzdanışmaqlığın əsəridir. Yersiz yaxşılıq zülmdür. Minnət qoyulmuş yaxşılığın günahı savabından çoxdur.

◘Axmaq rəhbər çox qalmaz. Vay o kəsə ki, əxlaqı pis, üzü çirkindir. Tək qalmaq pis yoldaşla oturub-durmaqdan yaxşıdır. Sənin ona etdiyin pisliyinə göz yuman kəs sənə qardaşlıq edib. Səninlə düşmənçilik etməyən kəs səni dost tutub.

◘Paxıllığının şərinə görə vay olsun paxıla! Allah uşağı himayə edənin ruzisini yetirər. Vay o kəsə ki, azad insanlara zülm edir. Hər kəsin qəmi onun himməti qədərdir. Heyhat, düşmənin nəsihətindən!

◘Xoşbəxtin səy və himməti axirət üçündür, bədbəxtin səy və himməti isə dünya üçün. Özünübəyənmək insanı xarab edər. Özündən (yəni həvayi-nəfsin istəklərindən və günah arzulardan ) qaçmaq aslandan qaçmaqdan daha faydalıdır. Həris elə həlak olub ki, ondan xəbər də yoxdur. Malik olduğun hər şeyi gətir ki, tanınasan. Hər kəsin qiyməti onun himmətinə bağlıdır. Müqəddər olunan şeylər gəlib çatacaq. Sözgəzdirən bir neçə aylıq fitnəni bir saatın içində bərpa edər. Sədəqə ruzini artırar. Sən ruzi dalınca qaçdığın kimi o da sənin dalınca qaçır.

◘Xətər baş verən zaman qorxağın ürəyi aram olar. Səbr edən öz muradına çatar. Doğruçuluqla insan böyüklərin dərəcəsinə çatar. Öz qəbiləsinə yaxşılıq etməsi nəticəsində onların mehtəri olar. Ümidsizlik can rahatlığıdır. Səadət sahibləri ilə yoldaşlıq etmək tərəqqiyə səbəb olar.

## *Həzrət Əlinin (ə) başqa növ kəlamları*

◘Helm elə bir dostdur ki, heç vaxt səhv etməz. Qənaət elə bir qılıncdır ki, küt olmaz. Çətin gündən ötrü ən yaxşı ehtiyat səbirdir. Hər kəs səbri özünün yavəri etsə heç bir hadisədən qorxusu olmaz.

◘Mömin dünyada düzdanışan və oyaq qəlblidir. (İlahi) hədlərə riayət edər. O, elm sandığıdır. Onun əqli kamil, qəlbi səlim, helmi sabitdir. Əli açıq və bağışlayandır. Evinin qapısını ehsan etməkdən ötrü açıq qoyar. Dodaqlarındakı təbəssüm çox, daxilindəki qəm-qüssəsi isə həmişəlikdir. Mütəfəkkir (dərindən fikirləşən), az yatan, az gülən və xoş təbiətlidir. Tamahını öldürmüş, nəfsani istəklərini aradan aparmışdır. Dünyaya meyilsiz, axirətə isə meyillidir. Qonaqpərvər və yetimlərə nəvaziş edəndir. Kiçiklərlə mehribanlıq, böyüklərlə ehtiramla davranar. Dilənçini əliboş qaytarmaz. Xəstələrə baş çəkər, dəfndə

iştirak edər. Quranın hörmətini saxlayar. Allahla raz-niyaz (gizlində yalvarıb-yaxarma) edər, öz günahlarına ağlayar. Əmr be məruf və nəhy əz münkər edər. Acımayınca yeməz, susamayınca içməz. Ədəblə hərəkət edər. Sözünü ciddiyyətlə deyər. Xoşluq və mehribanlıqla nəsihət edər. Allahdan başqasından əsla qorxmaz, Ondan başqasına ümidvar olmaz. Allaha həmd və səna etməkdən başqa ödəyəcəyi borcu yoxdur. Namazda əsla süst olmaz. Təkəbbürlü deyil, var-dövlətə meyli yoxdur. Başı öz eyiblərinə elə qarışıb ki, başqalarının eyiblərinə heç fikir vermir. Gözünün nuru namaz, peşəsi oruc, adəti doğruçuluq, bərəkətinin əsası isə şükürdür. Onun rəhbəri əql, azuqəsi təqvadır. Dünya onun dükanı, qəbr isə mənzilidir. Sərmayəsi gecə-gündüz (yəni ömrü), pənahgahı isə behiştdir. Quran onun üns tutduğu dostu, Məhəmməd (s) günahlarının şəfaətçisi, Allah isə onun qəlb dostudur.

## ON BİRİNCİ FƏSİL

## *Alimlərin dediklərindən bəziləri*

◘Dini onun vaizi olmayan kəsə moizə fayda verməz. Fəsadı sevən qiyaməti sevməz. Hər kəs öz əkdiyini biçər və öz əməlinin cəzasını çəkər. Öz bədəninin sağlamlığı və dünəninin asayişi səni məğrur etməsin, çünki, ömrün müddəti qısa, bədənin sağlamlığının həmişəlik olması isə mahal (yəni qeyri-mümkün).

◘Nəfsani istəklərinə uyan şəxs dinini dünyasına satıb. Elmin səmərəsi əməldir. İnsanların ən yaxşısı odur ki, şəhvəti dinini xarab etməsin. İnsanların ən yaxşısı odur ki, hərisliyi qəlbindən çıxarsın və Allaha itaət yolunda öz həvayi-nəfsi ilə müxalifət etsin. Paxıl öz nemətlərinin qoruqçusu, varisin isə anbardarıdır. Tamahkar şəxs təqvadan bəhrələnməz.

◘Nemət əlinə gələn zaman çox sevinən şəxs müsibətə tab gətirməz. Lazımsız danışıqdan çəkin ki, gizlin eyibləri aşkar edər, yatmış düşməni isə oyadar. Hər kəsin danışığı onun əql və fəzilətini məlum edər. Elə isə gözəl söz danışana köməklik göstər və az sözə qane ol. Kişini danışığı ilə tanıyarlar, əməli ilə tanıtdırarlar. Sözünü möhkəm, əməlini tərifə layiq et. Çoxdanışan adam ürək sıxıcı olar, simic dilənçi isə məhrum.

◘Dostlarını təhqir edən tənha qalar. Sultana qarşı cürətli olan öldürülər. Qonşularını xar edən kəs izzət tapmaz, qardaşlarını məhrum edən isə xoşbəxt olmaz. Ən həyalı bəxşiş odur ki, istənilmədən verilsin.

Dilənməyə (bir şey istəməyə) üzü olmayan kəs hamıdan ləyaqətlidir. Xoş təbiətli insan dostluq və rəfaqətə layiqdir.

◘Səni məzəmmət etməklə qəzəbləndirən şəxsi həlimliklə (gözəl bir helmlə) moizə et. Mal-dövlətini özü üçün xərcləməyə simiclik edən kəs, səxavətlə onu arvadının əri üçün qoyub gedər. Başqasına etdiyin yaxşılığı gizli saxla, başqasının sənə etdiyi yaxşılığı isə aşkar et. Kərim insanlarla qonşu olan şəxs kasıbçılıqdan uzaq olar. Əsli pak olanın özü də pak olar.

◘İnsanların ona etdiyi yaxşılıqları inkar edən kəsdə yaxşılıq olmaz. Yaxşılıq edərkən minnət qoyan şəxsə təşəkkür lazım deyil. Ücbə (özünübəyənməyə) səbəb olan işin mükafatı yoxdur. Özünün bəd əməlindən razı olan kəs özünün alçaq olmasına şahid durur. Əta etdiyini (bağışladığı bir şeyi) geri alan kəs xəsislikdə həddini aşıb.

◘Himmət nərdivanı ilə yuxarı qalxan kəs camaatın gözündə böyüyər. Bədxasiyyət adamın ruzisi az olar. Mal-dövlətindən keçən şəxs əziz olar, hər kəs abır-həyasından keçsə zəlil olar. Ən gözəl sərvət odur ki, halal yolla ələ gəlib, halal yerə xərclənsin.

◘Ən pis sərvət odur ki, haram yolla əldə olunsun və günah işlərə xərclənsin. Ən yaxşı xeyir iş dəryada çağıranların dadına çatmaqdır. Mərd xasiyyəti kamilləşdirən xüsusiyyət odur ki, öz haqqını unudub başqaları haqqında fikirləşəsən; belə ki, bir kəsə pislik etsən bunu ən böyük, əgər sənə pislik edilsə bunu kiçik hesab edəsən. Səxavət dostların sənə qarşı məhəbbətinə, simiclik isə düşmənçiliklərinə səbəb olar. Sənə yaxşılıq edənə pislik etmə, heç kəsə də zərər yetirmə. Zülmü və başqalarının haqqını tapdalamağı uzun müddət davam edən şəxsin həlakı da yaxınlaşır.

◘İnsanların ən pisi zülmkara kömək edib məzlumu tərk edəndir. Qardaşına quyu qazan, quyuya özü düşər. İnsana heç bir zərər yetirməyən pəltəklik, peşmançılıq gətirən gözəl nitq qabiliyyətindən üstün və xeyirlidir. Nalayiq söz danışan xoşagəlməz şey eşidər. Şəhvətini boğan şəxs öz alicənablığını artırır. Düşmənçilik qılıncı çəkənin qılıncı başında qınına girər. Bəxşişi çox olanın dostu da çox olar. Zülmdən çəkin! Çünki o, kişiləri bir-birinə qarşı qaldırar və ömürləri azaldar. Qənaət (qane olmaq) bədənin asayişidir. Təcrübənin çoxluğu əqlin artmasına səbəb olar.

◘Uzaq da, yaxın da sözgəzdirəndən uzaq gəzər. Qadınlarla məşvərət edənin əqli xarab olar. Helmi olan şəxs böyük olar. Öz izzətini istəyən şəxs gərək pulu xar etsin. Yol ilə düz gedənin ayağı büdrəməz.

◘Haqqın bəndəsi azaddır. Yaxşılığından sənə bir pay ayırana sən təşəkkürünün hamısını ver. Səbr və tələsməməklik arzuya çatmağa səbəb olar. Elmi qorumaqdan ötrü onu əhlinə tapşırmaqdan gözəl şey yoxdur. Bəzən əta xətadır, inayət (xeyirxahlıq) cinayət.

◘Əgər qılınc olmasaydı tərslik çox olardı. Əgər doğruçuluq cism şəklinə düşsə aslan olar, yalan cism şəklinə düşsə tülkü. Əgər nadanlar və cahillər sussa, ixtilaf aradan gedər. İşlərini dərrakə ilə yoluna qoyan şəxs sirlərə varar. Bir xoşagəlməz sözü eşitməyə dözməyən bir neçəsini eşidər.

◘Öz eyiblərini axtaranın ruhu pak olar. Arzuların sonuna çatan şəxs nigarançılığın da sonunu gözləsin. Dünyanın izzətində sultanlarla şərik olan axirət zillətində də onlara şərikdir. Fəqirlik zirək insanın dilini bağlayar. Xəstəlik bədənin zindanıdır, qüssə isə ruhun.

◘Hədiyyə dünya bəlasını qaytarar, sədəqə isə axirət bəlasını. Tamah azad insanı qul edər, qənaət isə (qane olmaq) qulu azad. Fürsət tez keçir, lakin gec ələ düşür. Dilin həcmi kiçikdir, günahı isə böyük. Ədalət gününün zalım üçün çətinliyi, zülm gününün məzlum üçün çətinliyindən daha artıqdır.

◘Peyğəmbər (s) sünnəsinə tabe ol və bidət yaratma. Səni heç bir ehtiyacı olmadan qoruyanın dediklərinə riayət et. O kəslərdən olma ki, aşkarda şeytana lənət edib, gizlində ona tabe olsunlar. Sənin dostun sənə düz söz deyəndir, nə inki, səni təsdiq edən. İsrafda xeyir olmadığı kimi, xeyirdə də israf yoxdur.

◘Özünün qiyməti olmayan malını Allah yolunda sərf edən kasıb, öz yaxşı imkanından az miqdarda sərf edib minnət qoyan dövlətlidən üstündür. Tamah fəqirlik, qənaət isə dövlətdir. Camaatın dövlətinə göz dikməyən şəxsin onlara ehtiyacı olmaz. Həyat keçib gedən saatlardan və xoşagəlməz hadisələrin təkrarından ibarətdir.

◘İbn Məsud deyir: Hər gün bir mələk fəryad edib deyir: “Ey Adəm övladı! Kifayət qədər olan az, tüğyana səbəb olan çoxdan üstündür.

◘Üveys Qərəni deyib: Hikmət sahiblərinin sözlərindən heç biri mənə bu cümlə qədər fayda verməyib: Bir üzlə həmahəng ol ki, başqa üzlərdən ehtiyacsız olasan; Allahla həmdəm ol ki, səni başqalarına möhtac olmağa qoymasın.

## ON İKİNCİ FƏSİL

## *Hikmət sahiblərinin dediklərindən*

◘Bir həkim (hikmət sahibi) başqasına yazıb: "Öz hesabını çəkən kəs fayda əldə edər, hər kəs özündən qafil olsa zərər görər.

◘Loğmana dedilər: "Sən filan qəbilənin nümayəndəsi deyilsənmi? Dedi: "Bəli." Dedilər: "Nə səbəbə bu məqama çatmısan?" Dedi: "Düzdanışmaq, əmanətdarlıq, boş-boş işlərdən çəkinmək, göz yummaq, dilini saxlamaq və möhkəm xasiyyətli olmaqla. Hər kəs bunlardan azına malik olsa məndən aşağıdır. Hər kəs bunlardan çoxuna malik olsa məndən yuxarıdır. Hər kəs bu dərəcədə olsa mənimlə bərabərdir."

◘Öz oğluna vəsiyyətində belə buyurur: "Oğlum! Şər şər vasitəsi ilə sakit olmaz, necə ki, atəş atəş vasitəsi ilə sönməz. Əksinə, şər xeyir vasitəsi ilə, atəş isə su vasitəsi ilə sakitləşər."

Heç kəsin ölümünə sevinmə, işi çətinə düşənə məsxərə etmə. Öz xeyrin üçün həsrət çəkmə.

Ey oğul! Əmanətdar ol ki, imkanlı olasan. Ey əziz övlad! Sən dünyaya gələn gündən dünya sənin arxanda, axirət isə qarşındadır. Ömrünün günləri keçdikcə dünyadan daha da uzaqlaşır və axirətə yaxınlaşırsan.

Ey oğul! Təqvanı öz ticarətin et ki, əlində heç bir sərmayə olmadan çoxlu xeyir sənin başına tökülsün. Səhv edən zaman isə arxasınca sədəqə göndər ki, bununla onun şöləsini yatırasan.

Ey oğul! Moizə qəbul etmək ağılsız insanlar üçün taqətdən düşmüş qocanın üzü yuxarı getməsi kimi çətindir.

Əziz övlad! Zülm etdiyin kəsə etdiyin pisliyə görə deyil, ona zülm etməklə öz törətdiyin cinayətin üçün nalə et. Əgər bir gün əlində olan qüdrət səni zülmə tərəf çəksə, Allahın qüdrətini yad et.

Ey oğul! Bilmədiyin şeyi alimlərdən öyrən. Bildiklərini də camaata öyrət."

◘Başqa bir vəsiyyətində də öz oğluna belə deyib:

“Ey oğul, çətinliklər zamanı özünü ələ al. Xoşagəlməz hadisələr zamanı səbirli ol. Rifah zamanı isə şükür et. Namazlarını xüsusi ilə yerinə yetir və onları təxirə salma. Haqqa itaət edəni təhqir etmə, günahkarlara isə ehtiram etmə. Sənin olmayan bir şey üçün iddia etmə. Sənin üzərində olan haqları inkar etmə. Batilə öz etirazını bildir. Haqdan utanma. Bilmədiyin şeyi demə. Bacarmayacağın işi öhdənə götürmə.

Ey oğul! Elm öyrən! Baxmayaraq ki, ondan o qədər də bəhrələnməyəcəksən. Ruzigarı (fürsət verməməkdə) pisləsələr də, bu, sənin öz dövründə xəcalətli olmandan daha üstündür.

◘İmam Sadiqdən (ə) nəql olunur ki, Loğmanın öz oğluna etdiyi moizələrdən biri də budur: “Səndən qabaq yaşayan kişilər övladları üçün mal-dövlət ələ gətirdilər, lakin bunlar həmişəlik qalmadı. Sən muzdla işləyən bəndəsən. Sənə iş sifariş veriblər və bu işə görə də haqqını alacaqsan. İşi tamam yerinə yetir, haqqını da kamil al. Dünyanı körpü hesab et ki, keçirsən keçirsən və əbədi olaraq bir daha qayıtmırsan.”

◘İmam Sadiqdan (ə) Loğmanın hikməti barəsində belə nəql olunur: “And olsun Allaha, Loğmanın hikməti cah-cəlal, var-dövlət, əhl-əyal və ya gözəl surət və boy-buxuna görə deyildi. Onun hikmət sahibi olması buna görə idi ki, o, Allaha aid olan işlərdə qüvvətli, dində pərhizkar, aram və vüqarlı, dərin fikirli, nəzər sahibi, dəqiq görüşlü idi. Heç vaxt gündüzlər yatmazdı, dostların cəm olduğu yerdə yuxuya getməzdi. Çox danışmazdı. Bir kəsin eyblərini axtarmazdı. Heç kəs onu təxəlli (tualet) və qüsl zamanı görməzdi. Həyalı, dərin düşüncəli, işlərində dəqiq idi. Heç vaxt gülməz və qəzəblənməzdi. Günah iş görməkdən çox qorxurdu. Heç kəslə zarafat etməzdi. Nə dünyanın əvvəlinə görə narahat olurdu, nə də axırına görə qüssələnirdi. Bir kəsdən bir söz eşidəndə əgər bəyənsəydi izah və açıqlanmasını istəyərdi. Çox zaman hikmət sahiblərinin cəm olduğu yerdə olar, onlar qarşısında təvazökarlıq edərdi. Sultanlar və qazilərlə oturub-durardı, lakin qazilərin (qəzavət edənlərin, hakimlərin) halına ağlayardı ki, öhdələrinə təhlükəli vəzifə götürüblər. Sultanlara Allahın onlar üçün qoyduğu möhlətə görə qürurlanıb dünyaya arxayın və meyilli olduqlarına, dünyaya aldandıqlarına görə onlara ürəyi yanar, özü isə bu barədə fikirləşər və bunlardan ibrət götürərdi.

Bu təcrübələr ona öz nəfsi ilə mübarizə və şeytanla müxalifət etməkdə qüvvət verərdi. Faydalı sözdən başqa heç nəyə qulaq asmazdı. Lazım olduğu qədər danışardı. Bu səbəbdən hikmət məqamına və ismət

feyzinə sahib oldu. Gecə yarısı gözlər yuxuya gedən zaman Allah-təalanın göstərişi ilə bir dəstə məlaikə onu çağırıb dedilər: (Loğman onların səsini eşidir, lakin özlərini görmürdü) “Ey Loğman istəyirsənmi ki, Allah səni öz canişini etsin və sən də camaata hakim olasan (onlara hökumət edəsən)?” Dedi: “Əgər Allahın fərmanıdırsa və əgər O özü kömək olub fəryada yetişəcəksə, işin tərzini öyrədəcəksə və xatalardan qoruyacaqsa sözsüz itaət edirəm. Yox əgər ixtiyar mənimlədirsə, mən asayiş və salamatlığı seçirəm.” Dedilər: “Niyə?” Dedi: “Ona görə ki, camaat arasında hökumət etmək dinə görə ən aşağı məqamdır, fitnə və çətinliyi çoxdur. Hakimin dostu, yavəri yoxdur. Zülm onun ətrafını əhatə edər, o, isə iki yol ayrıcında qalar; əgər haqla hökm etsə mümkündür salamat qalsın, yox, əgər xata etsə behişt yolundan çıxmış olar. Dünyada insanlar arasında xar və dəyərsiz olan şəxs axirətdə bundan da aşağı olar. Hər kəs dünyanı axirətdən üstün tutsa hər ikisini uduzar. Biri əlindən çıxar, ikincisinə də çatmaz.”

Məlaikələr Loğmanın hikmətindən heyrətə gəldilər. Allah da onun məntiqini bəyəndi. Gecənin bir aləmi yatağında uzandığı zaman Allah ona hikmət nazil etdi. Belə ki, bu onun bütün vücudunu bürüdü. Yuxudan ayılan zaman yer üzündə olan insanların ən həkimi (hikmətlisi) oldu.”

◘İmam Məhəmməd Baqirdən (ə) nəql olunur ki, Loğman oğluna belə nəsihət edib: “Mən dünyaya ayaq qoyan vaxtdan arxası dünyaya, üzü axirətə olmuşam; üzü ona tərəf getdiyin ev sənə, arxada qalıb səndən uzaqlaşan evdən daha yaxındır.”

“Ey oğul! Əlindən çıxan işin arxasınca düşmə və sənə tərəf gələn işdən də üz döndərmə! Əgər belə etsən bu rəyi xarab, əqli nöqsanlı edər.

“Ey oğul! Düşmənə qalib gəlməkdən ötrü bu göstərişlərdən istifadə et; günahdan uzaq ol və öz alicənablığını qoru. Öz pak ruhunun qədrini bil və onu Allahın itaətindən çıxmaqla, pis əxlaqla və pis rəftarla çirkinləşdirmə. Öz başını bağla. Öz daxilini və rəftarını gözəlləşdir. Əgər belə etsən Allahın amanında olarsan. Düşmənin sənin sərhədinə yaxınlaşıb səni çaşdırmaq qüdrəti yoxdur. Amma eyni zamanda onun məkr və hiyləsindən də arxayın olma. Çox mənfəəti az hesab et, az zərəri isə çox.”

“Ey oğul! Camaatla onların təfəkkür tərzlərinin ziddinə rəftar etmə. Onlara bacarmayacaqları şeyi yükləmə. Bu iş sənin ən yaxın dostlarını da səndən uzaqlaşdırar və camaat arasında tənha qalarsan; nə sənə həmdəm olacaq dostun olar və nə də sənə kömət edəcək qardaşın. Tənha qalsan sığınacaqsız və zəlil olarsan. Üzrünü qəbul etməyəcək kəsdən üzürxahlıq istəmə. Öz işlərində dostu olmayan və muzd alan

şəxsdən kömək istəmə. Çünki, muzd alan şəxs sənin işini öz işi kimi ciddi şəkildə yerinə yetirməyəcək. Həmin muzd onun üçün dünya mənfəəti, sənin üçün isə axirət ehtiyatıdır. Kömək aldığın dostların və qardaşların gərək məhəbbət əhli, ehtiyaclarını ödəyə biləcək, abırlı və pakdamən (pis işlərdən uzaq), sənin hüzurunda sənə təşəkkür edib, sən olmayanda səni yad edən kəslər olsun."

"Ey oğul! Əgər bir dəstə insanla səfərə çəxsan onlarla çox məşvərət et, üzlərinə gül. Dəvətlərini qəbul et. Yaxşı işlərdə, namaz və səxavətdə onlardan qabağa düş. Öz minik, mal-dövlət və yükünü onların ixtiyarında qoy. Hərəkət etdikləri vaxt sən də hərəkət et. Əgər iş görsələr sən də iş gör. Ən böyük və yaşlı olana itaət et. Əgər bacarsan öz yeməyindən başqalarına verməmiş yemə. Minikdə olduğun müddətdə Quran oxu. İşə məşğul olduğun müddətdə Allahı yada sal və ona həmd-səna et. İşin olmadığın müddətdə isə dua et.

"Ey oğul! Tez küsən, bədxasiyyət və səbirsiz olma. Bu xüsusiyyətlərlə sənin heç bir dostun qalmaz. Özünü işlərdə səbirli olmağa vadar et."

"Ey oğul! Əgər qohumları yoluxub, dostlarını başa çıxmaqdan ötrü pulun olmasa da xoşxasiyyət və gülərüzlü ol. Hər kəs belə olsa (yəni xoşxasiyyət) yaxşı insanlar onun dostu olar, pis insanlar isə öz mal-dövlətlərini ondan gizlətməzlər. Allahın qismətinə razı ol ki, yaşayışının çətinliyi aradan getsin. Əgər dünyada olan bütün izzəti əldə etmək istəyirsənsə camaatın əlindən gözünü çək. Peyğəmbərlər və siddiqləri bu məqama məhz, tamahı boğmaq çatdırıb.

Səfərə çıxmağın qaydaları barəsində Loğmandan bir hədis də nəql olunub. O, bu hədisdə öz övladına belə buyurur: "Elə ki, karvanla səfərə çıxdın öz işlərində onlarla çox məşvərət et. Onlara çox təbəssüm et. Öz yol tədarükünü səxavətlə onların arasında qoy. Dəvətlərini qəbul et. Əgər səndən kömək istəsələr onlara kömək et. Üç şeydə onlardan üstün olmağa çalış: çox namaz qılmaqda, öz minik, tədarük və malından keçməkdə. Əgər səndən haqq şahidliyi istəsələr onlardan əsirgəmə. Öz rəyindən istifadə et, məşvərət zamanı düşünmədən cavab vermə. Əgər yoldaşların hərəkət etsələr, sən də onlara qoşul. Əgər bir işlə məşğul olsalar onlara kömək göstər. Sədəqə versələr sən də onlarla birlikdə sədəqə ver. Ən yaşlı olana tabe ol."

"Ey oğul! Namazın vaxtı yetişəndə onu təxirə salma, öz vəzifəni yerinə yetirməklə özünü asudə et. Dini vəzifələri gərək yerinə yetirəsən. Süvari olan zaman yatma. Mənzil üçün elə yer seç ki, təbiəti gözəl, torpağı yumşaq, yaşıllığı çox olsun. Elə ki, mənzil salmaq üçün dayandın, iki rəkət namaz qıl. Yola düşən zaman həmin yerin əhalisi ilə

vidalaş və onlara salamatlıq dilə. Çünki hər bir yerdə məlaikələr cəm olurlar. Əgər bacarsan yeməyindən bir miqdarını sədəqə verməmiş və Quran oxumamış yemə. Hər hansı bir iş görərkən zikr deməklə məşğul ol. Bekar olan zaman isə dua et."

◘Bozorcmehrdən soruşdular: "Elə bir nemət bilirsənmi ki, onun üçün paxıllıq etməsinlər və elə bir bəla bilirsənmi ki, öz sahibinə rəhm etməsin?" Dedi: "Bəli, həmin nemət təvazökarlıq, bəla isə təkəbbürdür."

Ölüm zamanı Bozorcmehrə dedilər: "Vəsiyyət et." Dedi: " Nə vəsiyyət edim? Dünyaya cahil gəldim, ikrahla da gedirəm. Yaxşı olar ki, bəndənin cahil daxil olub, ikrahla çıxdığı evə ürək bağlanılmasın."

◘Bir həkim (hikmət sahibi) deyib: "Uşaqlara dünya işləri ilə məşğul olmazdan qabaq təhsil verin."

◘Aristotel deyib: "Kərim insanları şirin dillə aldatmaq olar. Hər kəs qorxduğu şeydən qaçar, lakin Allahdan qorxanlar isə ona pənah aparar. Axmaq adamı öyrətmək ömrü hədər yerə sərf etməkdir."

◘Loğman deyib: "Yeməyini azalt ki, xəstəlikdən amanda qalasan."

Cəlyanus deyib: "Öz ehtiyacından imtina etmək, onu ləyaqətsiz insandan itəməkdən yaxşıdır."

◘Bir filosofdan soruşdular: "Təvazö nədir?" Dedi: "İmkanlı şəxslərə təkəbbür etmək." Başqa bir yerdə deyib: "Məşvərət rahatlıq və başqalarının əziyyətidir."

◘Sokrat deyib: "Yaxşıya-pisə fərq qoymayan şəxs dördayaqlıdan fərqlənmir." Başqa bir yerdə deyib: "Hikmətin əvvəli xoş xasiyyətdir."

◘Pluton deyib: "İnsanlarla bədrəftar olub dostluqda onlara xəyanət etmə. Yoxsa, sənə minnət qoyarlar, həm də onların şərindən amanda olarsan." Yenə də deyib: "Qocalıq xəstəliklə dolu buluddur."

◘Hippokrat deyib: "Təəccüb edirəm özünü böyük tutan şəxslərə ki, iki dəfə sidik yolundan keçiblər. (Bir dəfə atasının belindən, ikinci dəfə isə anadan olanda.)"

◘Bir filosof deyib: “Təəccüblüdür o kəslər ki, pulla qul alırlar, kərəm vasitəsilə azad insan almırlar.”

◘Hippokrat deyib: “Səxavətli o kəsdir ki, öz malını havayı verir və başqalarının malında da gözü yoxdur.”

◘İbn Sina deyib: “Dünya istəyən şəxs elm öyrənsin, axirət istəyən şəxs əmələ girişsin.”

◘Hippokrat deyib: “O kəsdən olma ki, aşkarda şeytana lənət edib gizlində ona itaət edirlər.”

◘Bir filosof deyib: “Rəhbərlərin ən pisi odur ki, kasıblardan uzaqdır. Kasıbların ən pisi odur ki, rəhbərlərə yaxındır.”

◘Sokrat deyib: “Qəzəbin dərmanı susmaqdır.”

◘Hippokrat deyib: “Nacins insanlarla yoldaşlıq etmək ruhun qızdırmasıdır. Qadınlar kişiləri (istər böyük şəxsiyyət olsun istərsə də alçaq) tez ələ alırlar. Sağlamlıqdan gözəl dost, xəstəlikdən pis düşmən yoxdur. Sağlamlığın şirinliyini xəstəliyin acılığı ilə dərk edərlər. Özünün az bəxşişindən utanma. Çünki, məhrumiyyət (yoxsulluq) ondan da aşağıdır. İşlərin nəticəsini göstərən ayna insanların əli ilə təcrübə olunmuşdur.”

◘Bir filosof deyib: “Dərmanın acılığına dözməyən şəxs şəfanın şirinliyini dadmaz.”

◘Bozorcmehr deyib: “Simic öz dövlətinin qoruqçusu, öz varisinin isə anbardarıdır.”

◘Loğman deyib: “Özünə qarşı pis olanın ruzisi az olar. Hər kəsin yalanı çox olsa, dostu az olar.”

◘Digər bir filosof deyib: “Sükutun faydası sözün faydasından, sözün zərəri sükutun zərərindən çoxdur. Ağıllı adamın əlaməti çox sükut etməkdir. Cahilin əlaməti isə çox danışmaqdır. Necə ki, istəmirsən sənin sirrinin üstü açılsın, sən də başqalarının sirrinin üstünü açma.”

◘Pluton deyib: “İnsanların ən zəifi öz sirrini saxlaya bilməyən, ən güclüsü isə öz qəzəbini boğan kəslərdir. İnsanların ən səbirlisi öz

yoxsulluğunu gizlədəndir.Cahil özü özünün düşmənidir, başqasının dostu necə ola bilər?! Kişini əsəbləşdiyi vaxt yoxla, nəinki xoşhal olan zaman. Bir də qüdrət vaxtı yoxla, nəinki zillət vaxtı.”

◘Loğman deyib: “Allahın zikrindən başqa heç bir sözün faydası yoxdur. Axirət barəsində fikirləşməkdən başqa da heç bir sükutun faydası yoxdur. Allaha, Onun dostlarına qarşı mehriban, düşmənlərinə qarşı sərt olmaqla yaxınlaş. Neməti danmaq alçaqlıqdır. Cahil yoldaş nəhslik gətirər. Müsibətlərin ən pisi düşməni şad etməkdir, ondan da pisi düşmənə möhtac olmaq.”

## *Hikmətamiz məsəllər*

◘Gecə qaçmışların qalxanıdır. Qələm ikinci dildir. Ədəb öyrənməyən kəsə soy-kökü fayda verməz. Bir saat elm öyrənmək çətinliyinə dözməyən şəxs bir ömür nadanlıq çətinliyinə dözməli olar. Dua rəhmət kilididir.

◘Dünya şirinliyi axirət acılığı, dünya acılığı isə axirət şirinliyidir. Şairlərdən qaç, çünki yalandan ötrü muzd tələb edər. Dünya izzətində sultanlara şərik olanlar axirət zillətində da onlarla şərikdir. Doğruçuluq sərmayəsiz faydadır.

◘Elə paltar geyin ki, abrın getməsin. Ən gözəl pərəstiş odur ki, sahibinin halına uyğun olsun. Əgər ət bahadırsa, səbr ucuzdur. Müsibətə səbr etmək bu müsibətə şad olanlardan ötrü müsibətdir. Xoş xasiyyəti olanın həm özü rahatdır, həm də yaxınları.

◘Dünyada böyük insan səxavətlilər, axirətdə isə pərhizkarlar hesab olunur. Kərim insan azdan ötrü də minnətdar olar, ləyaqətsiz insan isə çoxa da təşəkkür etməz. Zarafat insanın heybətini aparar. Qəzəbə itaət edən ədəbdən üz döndərib. Qəzəbin əvvəli dəlilik, axırı isə peşmançılıqdır. Ən çətin cihad qəzəblə mübarizədir. İnsanların ən zülmkarı odur ki, birinə başqasının mənfəətinə görə əzab-əziyyət versin. Xəyanətkarın dəyəri yoxdur.
◘Dostlarla əlaqəni möhkəmləndir, çünki onlar asayiş və rahatlıq zinəti, çətinlik ehtiyatıdırlar. (Çətinlikdə köməyə gələrlər.) Dostları başa çıxmaq, xəstələrin şəfasıdır. Plutondan soruşdular: “Düşməndən hansı vasitə ilə intiqam almaq olar?” Dedi: “Fəzl və kərəmlə.”

◘Bir filosofdan soruşdular: “O nədir ki, bütünlüklə sənin xeyrinədir?” Dedi: “Şər insanlardan uzaq gəzmək.” Başqa birindən soruşdular:

“Dördayaqlını nə kökəldər? “Dedi: “Sahibinin gözü.” Bir filosof deyib: “İnsanlıq dövlətli olan zaman təvazö etmək, qüdrət zamanı əfv etmək, əli aşağı olan zaman səxavətli olmaq və minnətsiz əta etməkdən ibarətdir. Alimlər və elm əhli ilə oturub-duran barlı-bəhrəli, ağılsızlarla oturub-duran isə dəyərsiz olar.

◘Əqli az olanın zarafatı çox olar. Ədəb dövlətdir, onu işlətmək kamal. Nadanlıq ziyanla dolu olan dostdur. Dünyasını abad edən dövlətini bada verib, axirətini abad edən isə öz arzusuna çatıb. Öz hesabını çəkən şəxs salamat qalar, dinini qoruyan şəxs isə qənimət əldə edər.

## *Hikmət sahibləri deyiblər:*

◘Fəqirlik utancdır. Dövləti az olanın yaxını da az olar. Batil yay buluduna oxşayır, axırı yoxdur. Hər kəs öz görüşü qədər görər.

◘Əqli sağlam olan həqiqəti görər. Heyvani nəfsə malik olanlar isə hər şeyi özünə sərf edən tərzdə görər.

◘Bir şair deyib: “Ulduz kiçik bir gözə bənzəyir. Lakin bu gözün günahıdır ki, ulduzu kiçik görür, nəinki ulduzun günahı.

## *Yenə də hikmət sahibləri deyiblər:*

◘Dostu çox olanın düşmənləri boynuna minər. Yağışlı bulud ildırım çaxan zaman yağar, düzdanışan kişi isə vədə zamanı. Alicənab insanlar üçün vədə borc kimidir.

◘Kərim gec də olsa bağışlayar. Dünya izzəti səxavət və kərəmlə, axirət səadəti isə səcdə ilə əldə olur.

◘Calyənus ölən zaman cibindən bir kağız tapdılar. Həmin kağızda yazılmışdı: “Qazanıb yediyin bədənə, sədəqə verdiyin ruha, qoyub getdiyin isə başqalarına aid olar. Yaxşı insan bir evdən başqa evə getsə də (dünyasını dəyişsə də) diridir. Bədrəftar insan isə dünyada olsa da ölüdür. Qənaət (qane olmaq) fəqirlik yolunun üzərində olan səddir. Tədbir azı çox edər. Adəm övladının Allaha təvəkkül etməkdən faydalı bir şeyi yoxdur.

# İKİNCİ BÖLMƏ

## *İki tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Peyğəmbərdən (s) nəql olunan şiə hədisləri*

◘Hər gün günəş doğan zaman iki mələk onun kənarında fəryad edib deyir: "Camaat! Allaha tərəf tələsin! Az, lakin kifayət edəcək qədər olan mal-dövlət çox və qəflətə səbəb olacaq çoxlu mal-dövlətdən yaxşıdır.

◘İki iş var ki, onları yerinə yetirərkən kimsənin mənə kömək etməsindən xoşlanmıram – biri dəstəmaz, digəri isə öz əlimlə dilənçiyə verdiyim sədəqə. Çünki sədəqə Allahın əlinə çatır.

◘İki söz var ki, həmişə eşidilməz (yəni, gözlənilməzdir). Bu iki sözə gərək riayət edilsin. Bunların biri ağılsızın dediyi gözəl sözdür. Bunu qəbul edin. Digəri isə, ağıllı insandan eşitdiyiniz ağılsız sözdür. Bu sözə isə etina etməyin.

◘Mənim ümmətimdən iki zümrə var ki, əgər onlar ləyaqətli olsalar hamı ləyaqətli olar. Yox əgər ləyaqətsiz olsalar hamı ləyaqətsiz olar.

Soruşdular: "Ey Allahın rəsulu, onlar kimlərdir?"

Buyurdu: "Rəhbərlər və fəqihlər."

◘Behiştin xoş ətri beş yüz illik məsafədən hiss olunur. Lakin bu iy bir valideynlərinə əziyyət verib onları incidənlərə, bir də dəyyuslara qismət olmaz.

Soruşdular: "Dəyyus kimlərdir?"

Buyurdu: "Dəyyus, qadınlarının başqa kişilərlə əlaqə saxladığını bilib, buna qarşı heç bir çarə fikirləşməyən biqeyrət kişilərdir."

◘İkiüzlü insanlar qiyamət səhnəsinə başı üstə, ikidillilər isə üzləri üstə süründürülərək gətirilərlər. Atəş onların bədənindən elə püskürər ki, bədən üzvləri əriyib tökülər. Onları belə tanıtdırarlar: "Bunlar dünyada ikiüzlü və ikidilli olanlardır!"

◘Dünyada ikiüzlü olanların Qiyamət günü atəşdən iki dili olar.
İnsanlar ölən zaman iki dəstə olurlar. Bir dəstə rahat olur, digəri isə başqalarını rahat edir. Birinci dəstə möminlərdir ki, dünya çətinliklərindən azad olurlar. İkinci dəstə kafirlərdir ki, ölməkləri ilə bitkilər, heyvanlar və insanlardan bir çoxu onların şərindən rahat olurlar.

◘Həqiqi mömin o kəsdir ki, öz varını kasıblarla bölüşdürsün və insanlar barəsində insaflı olsun.

◘Mömin o kəsdir ki, yaxşı işindən xoşhal, pis işindən narahat olsunlar.

◘Həzrət Əlidən (ə) rəvayətdir ki, Peyğəmbər (s) söhbət əsnasında buyurdu: "Alimlər iki zümrədirlər. Onlardan birincisi elminə əməl edən şəxslərdir; bunlar nicat tapanlardır. Digəri isə bildiklərinə əməl etməyənlərdir; Bunlar nicat tapmazlar. Cəhənnəm əhli onların pis iyindən əziyyət çəkər. Ən böyük peşmançılıq və həsrət o alimə məxsusdur ki, camaatı haqqa tərəf dəvət edir və camaat da onun sözünə baxıb Allaha itət etməklə behiştə varid olur, lakin həmin alim öz elm və biliyinin əksinə əməl etmək və nəfsani istəklərinə uymaq vasitəsi ilə cəhənnəmə gedir."

◘Həzrət Əli (ə) bu barədə belə buyurub: "Sizin üçün iki şeydən çox qorxuram. Onlardan biri nəfsani istəklərə uymaq, ikincisi isə uzun-uzadı arzu və xəyallardır. Nəfsani istəklərə uyub onun ardınca getmək haqq yolunun üzərində olan bir səddir. Uzun-uzadı arzu və xəyallar isə axirəti insanın yadından çıxarar. Dünya getməkdə, axirət isə gəlməkdədir. Bunların hər birinin özünün övladları var. Hər birinin övladları da onun arxasınca gedir. Əgər bacarsanız dünyanın yox, axirətin övladı olun. Siz bu gün hesabsız əməl evindəsiniz. Sabah isə əməlsiz hesab evinə gedəcəksiniz."

◘Üzürsüz olaraq ayaq üstə bövl etmək və sağ əllə özünü yumaq cəfakarlıq (və İslam əxlaqına qarşı nəzakətsizlikdir).

◘Yenə də o Həzrətdən (ə) nəql edirlər ki, buyurub: "Həya iki qisimdir. Birincisi insanın zəifliyindən, ikincisi isə imanın qüvvətindən irəli gəlir. Birincisi lazım olan məsələləri öyrənməkdən irəli gələn, ikincisi isə günah zamanı Allah qarşısında edilən həyadır."

◘Yenə də buyurub: “İki nəfər mənim şəfaətimdən faydalanmaz. Biri zülümkar padşahın qapısını qoruyan şəxs, ikincisi isə dində ifrata varmaqla həddini aşan təəssübkeş dindar.”

◘Yenə də buyurub: “Adəm övladı qocalsa da iki xislət onda cavan qalar; hərislik və uzun-uzadı xam-xəyal və arzular.”

◘İmam hüseyn (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Dünyaya məhəbbət bəsləmək qəm-qüssəni artırar, zahidlik və pərhizkarlıq isə qəlb və bədənə aramlıq bəxş edər.”

◘Yenə də buyurub: “İnsanın iki şeydən xoşu gəlmir. Biri ölümdür. Baxmayaraq ki, ölüm möminin çətinliklərdən qurtarıb səadətə qovuşmasına səbəb olur. Digəri isə var-dövlətin azlığı.”

◘İki xislət heç vaxt müsəlmanın qəlbinə daxil olmaz. Biri xəsislik, digəri isə bədəxasiyyətlik. Xəsisliklə iman heç vaxt bir qəlbə yerləşməz.

◘Yenə də buyurub: “İki şey var ki, onlardan başqa heç nəyə paxıllıq etmək olmaz. Biri budur ki, Allah bir kəsə bol var-dövlət verib, o da həmin var-dövləti Onun yolunda paylayır. Digəri isə budur ki, bir kəsə Quranla ünsiyyət yaradıb, ona yaxşı bələd olmaq kimi böyük bir nemət qismət olub və həmin kəs də gecə-gündüz onu oxuyur.”

◘Həzrət Fatimeyi-Zəhra (ə) öz atasına ərz etdi: “Həsən (ə) və Hüseyn (ə) sənin övladlarındır. Onlara bir şey əta et.” Peyğəmbər (s) buyurdu: “Həsənə (ə) öz heybət, zəhm və alicənblığımı, Hüseynə (ə) isə kərəm və şücaətimi əta etdim. (Yəni, Allahdan istədim ki, onları bu xüsusiyyətlərlə zinətləndirsin.”

◘Səfvan Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Həsənə (ə) heybət və gözəl davranışımı, Hüseynə (ə) isə səxavət və mehribanlığımı (əta etdim).”

◘Peyğəmbər (s) buyurub: “İşa namazından sonra yalnız iki nəfər oyaq qala bilər; namaz qılan və müsafir.”

◘Mənim ümmətimin cəhənnəmə getməsinə səbəb olacaq əsas şey ağız və cinsiyyət üzvü arasındakı nahiyədir. Onları cənnətə aparacaq ümdə şey isə xoş xasiyyət və günahlardan çəkinməkdir.

◘Allah-təala buyurub: “And olsun Öz izzət və cəlalıma! Bəndəmin qəlbində nə iki qorxu, nə də iki arxayınlıq hissi yerləşdirmərəm! Dünyada Məndən qorxan şəxsə axirətdə qorxu yoxdur və onun qəlbini aramlıqla dolduraram. Dünyada məndən qorxmayıb özünü qəzəbimdən amanda hiss edən şəxsin qəlbini isə axirətdə qorxu ilə dolduraram və onun üçün heç bir aramlıq yoxdur.”

◘Mənim ümmətimin islah olması üçün əvvəlinci iki əsas şey günahlardan çəkinmək və yəqindir.
Onların həlak olması üçün isə ən axırıncı iki şey isə paxıllıq və tamahkarlıqdır.

## İKİNCİ FƏSİL

## *Peyğəmbəri-Əkrəmdən (s) olan əhli-sünnət hədisləri*

◘Hər kim ki, özünü iki şeydən qorusa Allah da bunun müqabilində onu iki şeydən qoruyub hifz edər: Dilini camaatın abır və heysiyyətini aradan aparmaqdan qoruyan şəxsi Allah da düz yoldan azmaqdan qoruyar. Qəzəbinin qarşısını alan kəsdən isə Allah Öz qəzəbini götürər. Dünya məhəbbəti ilə Allahı sevmək heç vaxt bir qəlbdə yerləşməz.

◘Qəlbləri nurlandıran şey Allahı yad etmək və Quran oxumaqdır.

◘Rəvayət olunur ki, Peyğəmbərin (s) süfrəsində çörəklə yeməkdən ötrü iki növ xörək olardısa, Peyğəmbər (s) onların birindən qənaətlə istifadə edər, digərini isə ehtiyacı olana verərdi.

◘Kifayət edəcək qədər olan az var-dövlət insanı qəflətə salacaq çox var-dövlətdən yaxşıdır. İki dirhəm sahibindən çəkiləcək haqq-hesab bir dirhəm sahibindən çəkiləcək haqq-hesabdan uzundur.

◘Orta həddə yaşayan şəxs heç vaxt möhtac olmaz. Qənaət bitib-tükənməyən dövlətdir.

◘Tamahı az olan kəsin bədəni sağlam, qəlbi isə səfalı olar. Tamahkar insanın isə bədəni xəstə, qəlbi isə narahat olar.

◘Dünyadan ötrü elə çalış ki, sanki əbədi olaraq dünyada qalacaqsan, axirət üçün isə elə çalış ki, sanki ömrünün axırıncı günüdür. (Yəni,

dünya işlərini təcilə, axirət işlərini isə təxirə salma. Çünki, əgər sabaha saxlasan, mümkündür, əcəl imkan verməsin.)

◘Peyğəmbər (s) öz səhabələrinə buyurub: "İstəyirsinizmi ki, sizə ən böyük günahın nə olduğunu deyim?" Dedilər: "Bəli, ey, Rəsuləllah!" Buyurdu: "Allaha şərik qoşmaq, valideynlərə zülm və əziyyət vermək."
Sonra oturub dedi: "Diqqət edin! Bir də ki, yalan danışmaq və yalandan şahidlik etmək." Peyğəmbər (s) bu sözləri o qədər təkrar etdi ki, dedilər: "Kaş bu qədəri kifayət edəydi."

◘Ümmətimin iki təbəqəsi mənim şəfaətimdən məhrumdurlar; zülmkar hökmdar və aşkar günahkar.

◘Əli və Fatimə iki dərin elm dəryasıdır.[1] (1)Onlar arasında sədd var ki, qarışmazlar,[2] (2) o, mənəm. Onlardan ləl-cəvahir və mərcan çıxar ki, onlar da Həsən (ə) və Hüseyndir.[3] (3)

◘İman və həya bir kökdəndir. Əgər biri aradan getsə digəri də gedər.

◘Hər kəs elm öyrənməkdən ötrü iki addım atsa, iki saat alimin hüzurunda otursa və ondan iki kəlmə eşitsə Allah ona hər biri dünyanın iki bərabərində olan iki behişt əta edər.

◘Öz dinlərinə əhəmiyyət verən kəslər iki dəstədir: Alim və tələbə. Digər insanlar ağcaqanada bənzəyirlər ki, onların vücudunda heç bir xeyir yoxdur. (Yəni o kəslər ki, öz dinlərinə arxa çeviriblər.)

◘Hər kim elm dalınca olsa behişt də onun dalınca olar. Hər kim də ki, dünya malı əldə etmək dalınca olsa, atəş də onun dalınca olar. (Dünya malı əldə etmək dalınca gedənlər o kəslərdir ki, bütün fikri-zikri, səyləri dünya malı əldə etməkdir və halal-haram bilmirlər.)

◘İki ibdət var ki, onların savabı digər ibadətlərin savabından daha tez gəlib çatar: 1. Qohumlara yaxşılıq etmək. 2. Məzlum (zülm görmüş) insanın köməyinə yetişmək.
İki günahın da cəzası bütün günahların cəzasından daha tez yetişər: 1. Qohumlardan əlaqəni tamamilə kəsmək. 2. İnsanlara zülm etmək.

---

[1] Ər-Rəhman surəsi, ayə 19
[2] Ər-Rəhman surəsi, ayə 20
[3] Ər-Rəhman surəsi, ayə 22

◘Ən aşağı dərəcə də olsa təqvaya riayət et, Allahla da aranda pərdə saxla, hətta nazik də olsa. (Yəni pərdəni tamamilə aradan götürmə.)

◘Ləzzəti gedib günahı qalan iş ilə əziyyəti aradan gedib savabı qorunub saxlanan iş arasında fərq çoxdur! (Birinci işlər haram, ikinci işlər isə saleh əməllərdir.)

◘Məzlumun harayına yetişmək, qüssəli adamın qəmini aradan aparmaq günahların kəffarəsindən də böyükdür.

◘Xeyir işlər yerinə yetirən xeyirin özündən daha yaxşıdır. Şər işlər görən isə şərin özündən də pisdir.

◘Axmaq adamla dostluq etməkdən çəkin. Çünki o, sənə xeyir yetirmək istədiyi halda ziyan verər. Yalançı insanla da dostluq etmə. O, ilğım kimi sənə uzağı yaxın, yaxını isə uzaq göstərər.

◘Hər kəs təvazö etsə Allah onu göyün yeddinci qatına qədər ucaldar. Hər kəs də ki, təkəbbür etsə Allah onu yerin yeddinci qatına qədər alçaldar.

◘Təvazökarlar qarşısında təvazö, təkəbbürlülər qarşısında isə təkkəbbür edin. Bu cür təkəbbürün özü ibadətdir.

◘Ən böyük təvazökarlıq budur ki, hər bir müsəlmana salam verib məclisin aşağı tərəfində oturasan.

◘Camaat təvazö sahiblərindən başqa hər bir nemət sahibinə həsəd aparar. Özünü aşağı tutmaq peyğəmbərlərin xüsusiyyətlərindəndir. Təkəbbür isə kafirlər və firon xasiyyətli adamların xüsusiyyətlərindəndir.

◘Heç vaxt imkanlı, var-dövlətli adamlar qarşısında (onların var-dövlətinə görə) əyilmə. Hər kəs belə etsə behişt əlindən çıxar.

◘Camaatın onun qarşısında itaətkarcasına dayanmasından xoşlanan kəs cəhənnəm atəşində öz yerini hazırlayıb.

◘Qiyamət günü əməl tərəzisinə xoş xasiyyətdən də üstün bir əməl qoyulmaz. Məni behiştə tərəf çəkən ən üstün əməl pəhrizkarlıq və xoş xasiyyətdir.

◘Xoş xasiyyət və yaxşı qonşuluq etmək evləri abad, ömürləri uzun edər.

◘Mən ağzı və övrəti ixtiyarında olan şəxsin behiştə getməsindən ötrü zaminəm.

◘Adəm övladının yalnız "əmr be məruf və nəhy əz münkərdən" və Allahı zikr etməkdən başqa danışdıqlarının hamısı onun zərərinədir.

◘Allahın asqıraqdan xoşu gəlir, lakin əsnəməkdən yox.

◘İnsanların çoxu iki nemət üçün qəmgindirlər; sağlamlıq və asudə vaxt. (Yəni onlardan istifadə etməsə də əldən verəcək.)

◘İki göz cəhənnəm odundan amandadır; biri gecə yarısı Allah qorxusundan ağlayan göz, digəri isə Allah yolunda gecə keşik çəkərək yumulmayan göz.

◘Əbu Səid Xidri deyir: "Peyğəmbər (s) xütbələrinin birində buyurdu: "Camaat! Mən sizin aranızda iki dəyərli əmanət qoyuram. Əgər onlardan yapışsanız heç vaxt yolunuzdan azmazsınız. Onlardan biri Allahın kitabıdır ki, asimanlardan yerə tərəf çəkilmiş ipə bənzəyir. Digəri isə itrətim yəni, ailəmdir. Bu iki əmanət Kövsər hovuzunun kənarında mənə qovuşanadək əsla bir-birindən ayrı düşməz."[1](1)

◘İki xislət var ki, hər kəsdə olsa Allah insanları mühakimə edərkən onlar səbir və şükür edənlərdən hesab olunar; din işlərində ali himmətli olub yüksək əməllər arxasınca getmək və dünya işlərini əhəmiyyətsiz bilib əldə olan nemətlərin şükrünü yerinə yetirmək. Dünya işlərini mühüm hesab edib, din işlərinə əhəmiyyət verməyənləri isə Allah səbir və şükür edənlərdən hesab etməz.

◘Adəm övladı qocalsa iki xislət onda cavan qalar; mal-dövlət eşqi və əbədiliyə olan hərislik. İnsanın fitrətində var ki, ona yaxşılıq edənləri sevir, ona pislik edənlərdən isə acığı gəlir.

---

[1] Bu hədisi sünni hədisçilərindən Sələbi və Əhməd Hənbəl də nəql etmişdir.

◘Dünya və axirət qərb və şərq kimidir. Hansına tərəf getsən o birisindən uzaqlaşacaqsan.

◘Çalışqan hərislə qənaətli (qane) pəhrizkar öz ruzilərini artırıb-əskilmədən yeyərlər. Bəs elə isə pərvanə kimi özünü atəşə atmaq nəyə lazım?

◘Nəql edirlər ki, bir gün Peyğəmbər (s) Bəqi qəbristanlığından keçirdi. Bir qəbrin baş tərəfində dayandı və buyurdu: "Elə indicə bunu oturdub ondan bəzi suallar soruşdular. And olsun məni haqq olaraq peyğəmbərliyə seçən Allaha, yuxarıdan ona atəşdən olan bir gürzlə elə vurdular ki, odun şölələri qəlbindən zəbanə çəkdi."

Sonra başqa bir qəbrin baş tərəfində dayandı və həmin dediklərini bir də təkrarladı və buyurdu: "Əgər ürəkləriniz partlamasaydı, Allahdan istəyərdim ki, bu əzabların səsini mənim eşitdiyim kimi sizin də qulaqlarınıza çatdırsın."

Soruşdular: "Ey Allahın rəsulu, bunlar nə günahın sahibi idilər?" Buyurdu: "Biri sözgəzdirən idi, digəri isə sidikdən sonra istibra etmirdi. (Yəni, natəmiz idi.)

◘Ruzi ələ gətirməkdə orta həddə riayət edin. Sizin qismətiniz sizdən də sürətlə arxanızca gəlir. Sizin qismətiniz olmayacaq bir şey üçün nə qədər çalışsanız da onu əldə edə bilməyəcəksiniz.

◘Dünyada mənim Əhli-beytimə (ə) bir karat kömək göstərənlərə axirətdə bunun əvəzində bir qəntar (bir inək dərisi dolu qızıl) kömək edəcəyəm.

◘İki qardaş iki əl kimidir. Biri o birisini yuyar.

◘Allah bir kəsə xeyir vermək istəsə ona ləyaqətli bir dost yetirər, həmin dost da ona Allahı unudarsa Allahı xatırladar, yad edən zaman isə daha da kömək edər.

◘Əməl tərəzisinə qoyulacaq ilk şey xoş xasiyyət və səxavətdir. Allah imanı yaradan zaman o, Allahdan onu qüvvətləndirməsini istədi. Allah da xoş xasiyyət və səxavət vasitəsilə onu daha da gücləndirdi. Allah küfrü yaradan zaman o da Allahdan onu qüvvətləndirməsini istədi. Allah da onu pis xasiyyət və simicliklə qüvvətləndirdi. (İman və küfrün

istəməsi bir növ misaldır. Yəni, yuxarıda qeyd olunan xüsusiyyətlər iman və küfrün zərurətlərindəndir.)

◘Günəş buzu suya döndərdiyi kimi, xoş xasiyyət də günahı əridər.

◘Xoş xasiyyət dəvənin burnuna taxılan dəmir halqa kimi sahibinin burnuna taxılıb. Bir mələk də həmin halqadan tutub onu səadət yolu ilə aparır. Səadət yolu da behiştə tərəf gedir. Pis xasiyyət də həmin halqa kimidir. Lakin bu halqa şeytanın əlindədir və şeytan da onu bədbəxtlik yolu ilə aparır. Həmin bədbəxtlik yolu isə cəhənnəm oduna tərəf gedir.

◘Sübh çağı hər kimin ata-anası ondan razıdırsa cənnətin iki qapısı onun üzünə açıq olar. Bu, axşam çağı da belədir. Əgər valideynlərdən təkcə biri ondan razı olsa cənnətin də bir qapısı onun üzünə açıq olar. Lakin, hər kimin ata-anası sübh çağı ondan narazı olsa cəhənnəmin də iki qapısı onun üzünə açıq olar. Əgər onlardan biri ondan narazı olsa cəhənnəmin də bir qapısı onun üzünə açıq olar.

◘Behiştin xoş ətri beş yüz illik yoldan hiss olunur. Lakin bu iy ata-anaya əziyyət edənlərin və qohum-əqrəbalardan əlaqəni tamamilə kəsənlərin burnuna dəyməz.

◘Hər kim bilmək istəyirsə Allah yanında olan məqamı nə dərəcədədir, qoy baxıb görsün Allahın məqamı onun yanında nə dərəcədədir. Dünya və axirət işinin hər ikisi birdən qarşıya çıxa, axirət işini seçərsə bilsin ki, Allahını sevir. Yox əgər, dünya işini seçərsə bilsin ki, Allaha qarşı etinasızlıq etmişdir.

◘Ləzzətləri məhv edib aradan aparanı (yəni ölümü) çox yad edin. Əgər həyatın sıxıntı anlarını yaşayırsınızsa sizi rahatladıb qəlbinizə aramlıq verər. Əgər sərvətli və rifah halında olsanız var-dövlətə qarşı nifrət hissi oyadaraq sizi infaq (sədəqə) verməyə məcbur edib savaba çatdırar. Çünki ölüm arzuların kökünü qırıb atar, ömrün gecələri isə əcəli yaxınlaşdırar.

◘İnsan iki günün arasındadır; əvvəldəki günün əməlləri yazılıb və möhürlənib, qarşıdakı günə də ki, bəlkə çatmadı.

◘İnsan canını əldən verib torpaq altına qoyulan zaman başa düşür ki, özündən qabaq göndərdiyi işlərin əvəzi hazırdır və qoyub gəldiklərinin

isə heç bir faydası yoxdur. Xüsusi ilə də ki, qeyri-şəri yolla ələ gətirdiklərinin və haqlarını ödəmədiklərinin.

## ÜÇÜNCÜ FƏSİL

## *Peyğəmbərdən (s) olan digər şiə hədisləri*

◘Əgər bir alim və yaxud bir tələbə hər hansı bir müsəlmanlar yaşayan kənddən, yaxud da şəhərdən keçərsə və hətta dayanmadan bir tərəfindən daxil olub digər tərəfindən xaric olarsa və yaxud da orada dayanaraq heç bir su və azuqədən istifadə etməzsə də Allah qırx gün onlardan qəbir əzabını götürər.

◘Bu ümmətin alimləri iki təbəqədən ibarətdir: Biri Allahın onlara verdiyi elmi heç bir tamahları olmadan yeyir, öz biliklərini çörəyə və suya satmırlar. Dəryadakı balıqlar, qurudakı heyvanlar havadakı quşlar bu cür alimlərdən ötrü istiğfar edirlər. Onlar Allah dərgahına böyük hörmət və şərafətlə gedər, peğəmbərlərlə bir yerdə oturub durarlar. Digəri isə elmlə möhtəkircəsinə davranar (yəni, onu cəm edib saxlayar, münasib fürsət ələ keçdikdə onu baha qiymətə satır). Onu (elmi) pula, dövlətə dəyişər. Qiyamət günü bu cür alimlərin ağızlarına atəşdən yüyən vurular. Bir nəfər fəryad edib car çəkər: “Bunlar Allahın onlara elm əta etdiyi kəslərdir. Onlar isə həmin elmi yaymaqda simiclik edir və onu dünya malına satırdılar!” Bu səda insanlardan hesab çəkilib qurtarana qədər davam edir. (Bu alimlərdən məqsəd qəzavət işlərinə rüşvətxor alimlərdir ki, qəzavət etməkdən ötrü müəyyən məbləğ pul tələb edirlər. Yaxud da məqsəd dinin zəruri məsələlərini pulsuz öyrətməyənlərdir. Lakin moizə edib rövzə oxumaqdan ötrü muzd almağın eybi yoxdur, xüsusilə də, həmin şəxsin ehtiyacı varsa.)

◘Elm iki növdür: Biri odur ki, qəlbdə özünə yer alıb. Bu elm fayda verən elmdir. Digəri isə təkcə dildədir. Bu elm də sahibi üçün höccətin tamam olması deməkdir.

◘Mən öz ümmətimdən ötrü mömінin və müşrikin şərindən qorxmuram. Ona görə ki, mömінin imanı onun fəsadının qarşısını alır. Müşriki də öz şirki məhv edəcək. Təkcə qorxduğum şey münafiq alimlərdir ki, danışıqları gözəl, rəftarları isə pisdir.

◘Şər insanların ən şəri şər alim, xeyir insanların ən xeyirlisi gözəl alimdir.

◘Özü əməl edib, başqalarına da öyrətmək üçün iki hədis öyrənən şəxs bu işə başlayan kimi onun üçün yazılan savab altmış illik ibadətdən üstündür.

◘Allahın məni məhz onun üçün göndərdiyi elm və hidayət müxtəlif yerlərə yağan yağışa bənzəyir. Bu yerlərin də bəziləri münbitdir. Suyu özünə çəkir, gözəl yaşıllıqlar yetirir. Eyni zamanda sudan müəyyən miqdarını özünə çəkib müəyyən qablarda onu su anbarı şəklində qoruyub saxlayır. Beləliklə də Allah insanlara mənfəət yetirir;  həmin su anbarlarından içməli su kimi və əkin biçin işlərində istifadə edirlər. Bu yerlərin bəziləri isə yararsız torpaqlara bənzəyir. Nə bəhrəsi var, nə də suyu özündə qoruyub saxlayır. İnsanların da bəzisi din elmlərini öyrənib ona əməl edir və eyni zamanda onu həm də yayırlar. Bəziləri də nə əməl edirlər, nə də tədris.

◘İki kəsdən başqa heç kəsə qibtə etmək olmaz: Biri yaxşı insandır ki, Allah ona var-dövlət verib, o da onu Allah yolunda sərf edir. Digəri də odur ki, Allah ona hikmət əta edib, o da həm onu insanlara öyrədir, həm də onun vasitəsi ilə düzgün qəzavət edir.

◘Hər kim ki, insanları haqqa dəvət edir, haqqa gələnlərin əməlləri miqdarında onun üçün savab yazılar və eyni zamanda haqqa gələnlərin də savabları öz yerində qalar. Hər kim də ki, insanları haqq yoldan azdırır, azğınlığa gedənlərin günahları qədər də həmin şəxs üçün günah yazılar və eyni zamanda onların öz günahları da yerində qalar.

◘Elm öyrənən və elmi öyrədənin hər ikisinin Allah yanında əcri var. Digər insanlarda isə xeyir yoxdur.

◘Elm öyrənib zöhdə riayət etməyən kəs Allahdan uzaq düşməkdən başqa bir şey əldə etməyib. (Zöhd odur ki, əlinə gələn şey üçün sevinməyib əldən verdiyin şey üçün heyfislənib təəssüflənməyəsən.)

◘Səhl ibn Səd deyir: “Bir kişi Peyğəmbərin (s) hüzuruna gəlib ərz etdi: “Mənə elə bir əməl öyrət ki, həm Allah yanında, həm də camaat nəzərində sevimli olsun. Buyurdu: “Dünyaya könül bağlama, Allah yanında əziz olarsan. Camaatın da malına göz dikmə, camaat səni sevsin.”

◘Qiyamət günü Allah mənim ümmətimin hər birinə qanadlar verər ki, qəbirlərdən behiştə doğru pərvaz etsinlər, orada istədikləri şəkildə dövrə vursunlar və müxtəlif nemətlərdən bəhrələnsinlər. Məlaikələr onlardan soruşar: "Siz kimin ümmətindənsiniz?" Cavab verərlər: "Məhəmməd (s) ümmətindən." Soruşarlar: "Siz Allah, sizin dünyadakı əməliniz nə idi?" Cavab verərlər: "İki xüsusiyyət səbəb oldu ki, Allah Öz fəzl və rəhməti ilə bizə bu məqamı əta etdi; xəlvətdə də olsaq Allah qarşısında günah etməkdən çəkinərdik və aza da qane olardıq." Məlaikələr deyər: "Bəli, siz bu məqama layiqsiniz."

◘Sizin aranızda sizə nəsihət edəcək iki şey qoyuram; biri danışan, biri sakit. Danışan Qurandır, sakit isə ölüm.

## DÖRDÜNCÜ FƏSİL

## *Əli ibn Əbitalibdən (ə) nəql olunan şiə hədisləri*

◘Həzrət Əli (ə) buyurub: "İnsanların iki qismi var ki, onların yoldan azmasına mən səbəb olaram, halbuki, məndə təqsir yoxdur: Biri (mənim barəmdə) qabağa gedən (həddi aşan) dost, biri də geri qalan (məndən üz döndərən) düşmən."

(Şeyx Səduq "Əmali" kitabında bu hədisi nəql etdikdən sonra yazır: "Bu sözü Həzrət (ə) üzürxahlıqla, onun barəsində həddi aşanlar və ifrata varanlardan ötrü deyib ki, bilsinlər ki, o Həzrət (ə) onların bu əqidəsinə nifrət edir.")

Bunun ardınca Həzrət (ə) buyurur: "And olsun öz canıma! Əgər İsa da (ə) nəsranilərin ifratçı sözləri qarşısında sükut etsəydi Allah ona əzab verərdi."

◘Səbir iki növdür: Biri bəla gələn zaman dözümlü olmaq. Bu çox yaxşıdır. Lakin bundan da üstünü haram iş qarşıya çıxarkən səbirli olmaqdır.

◘Allahı zikr (yad) etmək də iki növdür: Biri müsibət üz verən zaman, digəri - bundan da üstün olanı - insanı günahdan saxlayıb onu harama düşməkdən çəkindirən zikr.

◘Həzrət Əlidən (ə) soruşdular: "Xeyir nədir?" Buyurdu: "Xeyir bu demək deyil ki, var-dövlətin və övladın çox olsun. Xeyir budur ki, elmin çox, əməlin kamil olsun, Allah da sənin ibadətinlə fəxr etsin. Allah da sənin o ibadətinlə fəxr edər ki, yaxşı iş görən zaman Allaha şükür, edəsən, pis iş görən zaman isə tövbə edəsən.

◘Dünyada iki qisim insandan başqa heç kəsdə xeyir yoxdur. Biri günahlarını tövbə vasitəsi ilə aradan aparanlar, digəri isə xeyir işlər görməyə sürətlə tələsənlər. Təqva vasitəsilə görülən heç bir ibadət az deyil. Bir əməl ki, Allah dərgahında qəbul olunur, az ola bilər?!

◘Məhəmmədin (s) dostu o kəsdir ki, onunla qohum olmasa da, Allahın fərmanlarına itaət etsin. Düşməni o kəsdir ki, qohum olsa da günahkar olsun.

◘Əli (ə) oğlu Həsənə (ə) buyurub: “Allahdan elə qorx ki, sanki, bütün insanların ibadəti ilə Onun dərgahına getmisən, lakin səndən qəbul edəcəyinə arxayın deyilsən və Onun rəhmətinə elə ümidvar ol ki, sanki, bütün insanların günahları ilə Onun dərgahına getmisən və ümidvarsan ki, səni bağışlayacaq.”

◘Dünya keçid yeridir. Axirət isə mənzil. Dünyada olan insanlar iki firqədir. Biri özünü dünyaya satır və həlak edir. Digəri isə öz canını dünyadan alır və azad edir.

◘Dünya və axirət iki barışmaz düşmən və iki müxtəlif yoldur. Dünyanı dost bilən axirətə düşməndir. Dünya və axirət şərq və qərb kimidir. Hansına tərəf yaxınlaşsan o birisindən uzaqlaşırsan.

◘Qənaət (qane olma) və itaət izzət və ehtiyacsızlığa, hərislik (tamah) və günah isə zillət və bədbəxtliyə səbəb olur.

◘And olsun Allaha, mən əlimi əjdəhanın ağzına apararam, lakin heç dünyaya yeni gəlmişin də qabağında açmaram; o ki qalsın hər əlinə gələni dəyərsiz hesab edib tərəddüd etmədən əta edənin qabağından. Günəş bulud arxasında olsa da hamı onun işığından istifadə edir.

◘Əli (ə) öz səhabələrindən birinə buyurub: Məbada ümdə səy və himmətini arvad-uşağına sərf edəsən. Əgər onlar Allahın dostlarıdırlarsa, Allah heç vaxt öz dostlarını başlı-başına buraxmaz. Əgər Allahın düşmənləridirlərsə nəyə görə Allahın düşmənlərindən ötrü təlaş göstərirsən?! (Yəni, dini və əxlaqi vəzifələrindən qabaq onlar barəsində düşünmə.)

◘Oğlu İmam Həsənə (ə) buyurub: “Oğul! Var-dövlət yığmaqdan ötrü səy göstərmə! (Məqsəd onu qeyri-şəri olaraq cəm etməkdir.) Çünki

sənin varisin bu iki nəfərdir: Ya həmin var-dövləti Allaha itaət yolunda sərf edib sənin əzab-əziyyətinə səbəb olmuş şeyi öz xoşbəxtliyi üçün istifadə edəcək, ya da günah işlərə sərf edib, sənin yığdığın var-dövləti öz itaətsizliyi yolunda xərcləyəcək. Hər bir halda yaxşı deyil ki, bu iki halı özündən artıq tutasan və bu yükü öz üzərinə götürəsən.

◘Dünya barəsində buyurub: "Dünya barəsində nə deyim ki, əvvəli əziyyətdir, axırı yoxluq. Halalının haqq-hesabı var, haramının əzabı. Onda ehtiyacsız olanlar əziyyət çəkir, möhtaclar qəm-qüssə. Arxasınca gedəndən qaçır, ondan üz döndərənə tərəf gedir. Bəsirət gözünü açanları görən, ona gözünü dikənləri isə kor edir.

◘Əql artdıqca danışıq azalar.

◘Əql iki növdür: Firti (yəni yaradılışdan insanın zatında olan) və kəsbi (yəni təcrübə vasitəsilə əldə olunan). Günəş işığı kor insanın halına fayda vermədiyi kimi fitri olan əqli də işlətməsən kəsbi olan əqlin faydası olmaz.

◘Cahilanə danışıqda xeyir olmadığı kimi, hikmətamiz danışıqdan da çəkinməkdə xeyir yoxdur.

## BEŞİNCİ FƏSİL

### *Sünni və şiələrin Həzrət Əlidən (ə) nəql etdikləri hədislər*

◘İki nəfər mənim belimi sındırdı; fasiq alim və cahil abid. Biri insanların əqidəsini korlayır, digəri isə öz ibadəti ilə camaatı aldadır.

◘Hər şeydən dəyərsiz ən cahil insandır. Hər kəsin dəyəri onun elmi, biliyi qədərdir.

◘Elmin şərafətində bunu qeyd etmək kifayətdir ki, ona malik olmayanlar da malik olduqlarını iddia edir və onu (elmi) hər kəsə aid etsələr xoşhal olar. Cəhalətin rəzilliyində də bunu qeyd etmək kifayətdir ki, ona malik olanlar da ondan imtina edir və hər kəsə aid etsələr qəzəblənər.

◘Əql iki növdür; zati və təcrübi. Hər ikisi faydalıdır. Lakin dindar (dini olan) əql sahibinə etibar daha çoxdur. Əql və kərəmini əldən verən kəsin sərmayəsi günahdır.

◘Hər kəsin dostu onun əqli və hər kəsin düşməni onun cəhalətidir.

◘Ağıllı və müdrik təkcə o deyil ki, xeyir və şəri tanısın. Həm də o kəsdir ki, iki şərin arasında nisbətən yüngül olanını seçsin.

◘Müdrik insanlarla oturub-durmaq insanın şərəfini artırar. Kamil əql tüğyankar nəfsi cilovlayar. Ağıllı insan gərək özünün dini, fikri, əxlaqi və ədəbi eyiblərini bir-bir yadda saxlasın, yaxud yazsın və onları aradan qaldırmaqdan ötrü çalışsın.

◘İnsanın istəkləri iki növdür. Bir qismi onun imkanı xaricindədir. (Yəni, onları ələ gətirmək qeyri-mümkündür.) Nə qabaqlar onu əldə edə bilib, nə də sonralar əldə edə biləcək. Digər qismi isə yeməlidir, lakin onun da müəyyən vaxtı var. Əgər yer və göy əhli nə qədər kömək edib səy göstərsələr də vaxtı çatmamış ələ gəlməz. Elə isə bu insanın işi nə qədər təəccüblüdür?! Bir şey əldə edib tapanda elə sevinir ki, sanki heç vaxt əldən verməyəcək. Və bir şey əldən verib itirəndə də elə qəmgin olur ki, sanki bir daha heç vaxt əlinə gəlməyəcək. Əgər açıq gözlə baxsa görüb dərk edər ki, hər şeyin tədbiri Allahın əlindədir. Belə olan halda əlinə gələnə qane olub, əliçatmaz şeylərə də əl uzatmağa çalışmaz. Beləliklə də qəlbi bütün əzab-əziyyətlərdən aram olar.

◘Azla da olsa işləri yoluna qoy, lakin öz ehtiyac və kasıblığını bildirmə.

◘Daxilən sadə, zahirən isə varlı olun. Allah-taala Öz bəndələrinə gözəl ədəb öyrədərək (kasıb, həyalı bəndələrinin xüsusiyyətləri barəsində) buyurub: "Onların şiddətli heysiyyətləri olduğuna görə qafil insanlar onları ehtiyacsız hesab edərlər. Onları sən üzlərindən tanıyarsan. Camaatdan israrla bir şey istəməzlər."

## ALTINCI FƏSİL

### *Hədislərdən digər nümunələr*

◘Əli (ə) buyurur: "İnsanların amanda qalmasının iki yolu var; biri Peyğəmbərdir (s) ki, əldən çıxıb, digəri isə tövbə və istiğfardır ki, hələ də əldədir."

◘Əli (ə) buyurub: “Peyğəmbər (s) sünnəsi iki növdür. Biri dinin vacibatlarıdır ki, hər kəs onlara əməl etsə hidayət olar və hər kəs də onlardan əl çəksə zəlalətə uğrayıb yolunu azar. Digəri isə müstəhəbbi əməllərdir ki, onlara əməl etmək savabdır. Lakin tərk olunması günah deyil.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Bəsrə şəhərindən bir nəfər həzrət Əlinin (ə) hüzuruna gəlib ondan mömin dostlar və qardaşların hüquqları barədə soruşdu. Həzrət (ə) buyurdu: “Dost iki cürdür; xalis və həqiqi, səthi və zahiri. Həqiqi və xalis dost müxtəlif hadisələr müqabilində möhkəm bir pəncəyə bənzəyir. Belə adamlar insandan ötrü qol, qanad, ailə, var-dövlətdir. Əgər hər hansı bir dosta etibar edib ona arxayın oldun, öz can və malından onun yolunda fəda etməkdən çəkinmə. Dostluq elədiyi kəslərlə sən də dost ol, düşmən olduğu kəslərlə də düşmən ol. Eyiblərini və sirlərini gizli saxla. Gözəllik və yaxşılıqlarını zahir et. Lakin, bil ki, belə insanlar qırmızı yaqut kimi nadirdirlər.

Səthi və zahiri dosta gəldikdə isə ondan uzaq gəzmə. Lakin, öz daxilində olan gizli sirləri də onun üçün açma. Sən də ondan ötrü onun sənin üçün olduğu kimi şirindil və gülərüzlü ol.”

◘Əli (ə) buyurub: “İki şey insanları həlak edib; yoxsulluqdan qorxmaq, fəxr və öyünmək arzusu.”

◘Yenə buyurub: “İki kəs mənim belimi qırıb: Fasiq və dilli-dilavər alim, işi-peşəsi ibadət olan cahil. Biri dili ilə günahının üzərini örtür, digəri isə ibadəti ilə cəhalətinin. Alimlər arasında olduğunuz zaman fasiqdən, abidlər arasında cahildən uzaq gəzin. Lakin təəssüf ki, qafil insanlar bunlara tez aldanırlar. Peyğəmbər (s) buyurub: “Ey Əli! Bu ümmətin məhvi dilli-dilavər münafiqlərin əli ilə olacaq!”

◘Öz övladlarına buyurub: “Camaatla düşmənçilik etməkdən çəkinin. Əgər düşmən ağıllı olsa məkr və hiyləyə əl atar. Yox əgər nadan olsa ləyaqətsiz işlərə əl atar. Axmaq insanlarla ağız-ağıza verməyin. Çünki onların danışığı erkək, onlara verilən cavab isə dişidir. Elə ki, bir-birinə yetişdilər, ədavət və kin doğular.

◘Alimlərdən biri nəql edib deyir: “Həccac ibn Yusif Səqəfi (Allahın lənəti olsun ona!) dörd alimə − Hüseyn Bəsri, Əmr ibn Übeyd, Vasil ibn Əta və Amir Şöbiyə yazdı ki, “Qəza və qədər” barəsində bildikləri

hər bir məlumatı yazıb ona göndərsinlər. (Bu həmin dövrdə gündəlik məsələlərdən olan cəbr və ixtiyar məsələsi idi. Bu məsələ barəsində çoxlu mübahisə və dava-dalaş olurdu. Bir qrup insan etiqad bəsləyirdi ki, insan ixtiyar sahibi deyil və gördüyü hər bir günah, yaxud savab əməl də usta əlində olan baltaya bənzəyir. Əslində Allahın iradəsidir ki, insanı o tərəf bu tərəfə çəkir.)

Hüseyn Bəsri cavabında yazdı: "Bu məsələnin ən gözəl cavabını mən həzrət Əlidən (ə) eşitmişəm. O, buyurub: "Sən elə bilirsən ki, Allah səni qadağan etdiyi işi görməyə məcbur edər?! Əsla! Səni pis işlərə vadar edən sənin qarnın və fərcindir (övrətindir)!"

Əmr cavabında yazdı: "Bu barədə eşitdiyim ən ali məlumat həzrət Əlinin (ə) sözüdür. O, buyurub: Əgər günah və cinayət Allahın müqəddər etdiyi mütləq və məcburi işlərdən olsaydı, o zaman cani və günahkardan qisas alıb onu cəzalandırmaq zülm olardı."

Vasil də cavabında yazdı: "Bu şübhəli məsələnin ən nəfis həlli həzrət Əlinin (ə) göstərdiyi yoldur ki, buyurur: "Məgər mümkündürmü ki, Allah Özü yol göstərsin, sonra yüz yol müəyyən etsin?! Bu ağlasığmaz bir təsəvvürdür."

Şöbi də cavabında yazdı: "Bu məsələnin cavabından ötrü Əlinin (ə) sözündən gözəl söz eşitməmişəm. O, belə buyurub: "Tövbə edilməli hər bir iş bəndə tərəfindən, şükür olunmalı hər bir iş isə Allah tərəfindəndir."

Elə ki, məktublar Həccaca çatdı həzrət Əliyə (ə) qarşı bəslədiyi bütün kin, ədavət və düşmənçiliyə baxmayaraq dedi: "Həqiqətən bu cavablar saf çeşmədən qaynaqlanır."

## YEDDİNCİ FƏSİL

## *İmam Sadiqdən (ə) olan şiə hədisləri*

◘İmam Cəfər Sadiq (ə) buyurur: "İki bacarıqsız (zəif) məxluq barəsində Allahdan qorxun! Onlardan biri yetimlər, digəri isə qadınlardır."

◘İki qız övladını, yaxud iki bibini, yaxud da iki xalanı dolandıran şəxs atəşdən amanda olar.

◘Atası İmam Baqirdən (ə) nəql edir ki, buyurur: "Allah-təala Musaya (ə) vəhy etdi: "Mal-dövlətin çoxluğuna sevinmə və Məni heç bir halda yadından çıxarma. Mal-dövlət çoxluğu günahları insanların yadından çıxarar. Allahdan qafil olmaq isə qəlbi qaraldıb möhkəmlədər."

◘Yenə İmam Cəfər Sadiq (ə) buyurur: “Hər cümə günü dırnaq tutub, bığları düzəltmək insanın xora (cüzam) xəstəliyindən amanda qalmasına səbəb olar.”

◘Musa ibn Əkil deyir: “İmam Cəfər Sadiq (ə) buyurdu: “Fəqahətə yalnız o kəslər çatar ki, geyimdən iki köhnə paltardan birinə və yeməkdən qarının aclığını aparacaq hər hansı bir şeyə qane olsun (və bütün səy və himmətini dini elmləri öyrənməyə sərf etsin.)

◘Yenə buyurub: “Dünyanın iki kəsdən başqa heç kəsə xeyri yoxdur. Biri odur ki, hər gün öz ehsan və yaxşı işlərini artırmaqla məşğuldur, digəri isə keçmiş günahlarından tövbə etəklə onların əvəzini yaxşı işlərlə bərpa etsin. Amma, nə tövbə? And olsun Allaha! Səcdəni tövbə məqsədilə boynu sınana qədər uzatmağına baxmayaraq bizim vilayətimizi qəbul etməsə, Allah onun tövbəsini qəbul etməz.

◘Hər hansı bir ticarətçi barəsində onun satdığı şeyin pis və yaxşı olmasından asılı olaraq camaat iki dua edər. Əgər malı keyfiyyətli olsa deyərlər: “Allah sənin və bunu sənə satanın bərəkətini artırsın!” Yox, əgər, malı keyfiyyətsiz olsa deyərlər: “Allah sənin və bu malı sənə satanın malından bərəkətini çəksin!”

◘Əgər müsəlman papağını qarşısına qoyub Allahın haqqına nə dərəcədə əməl edib-etməməsi barəsində fikirləşib müəyyən etsə, Allah ona bunun müqabilində iki mükafat verər. Biri qane olduğu miqdarda ruzi və hidayətinə səbəb olacaq rizayət (razılıq).

◘Elə ki, Həzrət Nuh (ə) gəmidən düşdü, şeytan ona yaxınlaşıb dedi: “Yer üzərində mənim boynumda sənin qədər minnəti olan yoxdur. Bircə nifrin etməklə məni bütün fasiq və facirlərin əlindən azad etdin. Bunun müqabilində sənə iki nəsihət edirəm. Biri budur ki, həsəddən çəkin, çünki mənim başıma nə gəldi, həsəddən gəldi. İkincisi isə budur ki, hərislik və tamahdan çəkin, çünki, Adəmin də başına nə gəldi, bundan gəldi.

◘Müfəzzəl ibn Yəzidə buyurub: “Səni insanları həlakətə sürükləyən iki xasiyyətdən çəkindirirəm; batili öz dininə daxil etmə, bilmədiyin hökm barəsində fətva vermə.

◘İki ac heç vaxt doymaz; elm acı, var-dövlət acı.

◘İki şey həqiqi imandan irəli gəlir; hər yerdə və hər zaman haqqı batildən üstün tutmaq; baxmayaraq ki, haqq sənin zərərinə, batil isə xeyrinədir; bir də danışığının biliyindən təcavüz etməməsi.

◘Qabları yumaq və evin qapısını süpürmək ruzini artırar.

◘Atalarınıza yaxşılıq edin ki, övladlarınız da sizə yaxşılıq etsin və camaatın namusuna xəyanət etməyin ki, sizin də namusunuza xəyanət olunmasın.

## SƏKKİZİNCİ FƏSİL

### *Hikmət sahibləri, zahidlər və abidlərin nəsihətləri*

◘Bir abiddən soruşdular: "Nə haldasan?" Cavab verdi: "İki nemətin arasındayam; bol ruzi və örtülmüş günahlar."

◘Başqa birisi deyir: "Ağıllı adamın gərək iki güzgüsü olsun. Biri ilə öz pis işlərini görüb özünü kiçik hiss etsin və bacardığı qədər özünü islah etsin. Digəri ilə isə başqalarının yaxşılıqlarını görüb bacardığı qədər yaxşı iş əldə etməklə özünü bəzəsin.

◘İki şey var ki, var olduqca qədrini bilmirlər; biri sağlamlıq, digəri cavanlıq.

◘Bir həkimdən (hikmət sahibindən) soruşdular ki, "Sahibinə paxıllıq edilməyən nemət və sahibinə ürək yanmayan bir bəla tanıyırsanmı?" Dedi: "Bəli. Həmin nemət təvazökarlıq və həmin bəla isə təkəbbürdür."

◘Əbdüllah Cəfər bir dirhəmdən ötrü alverçi ilə çənə-boğaz olmuşdu. (Yəni, ondan satdığı şeydən bir dirhəm də düşməsini istəyirdi.) Ona dedilər: "Sən bu qədər səxavət və bəxşişinlə bir dirhəmdən ötrü çənə-boğaz olursan?!" Dedi: "Orda malımdan bağışlayıram, burda ağlıma simiclik edirəm ki, aldanmayam.

◘Bir zahiddən soruşdular: "(Allahın təqdirinə) razı kimdir?" Dedi: "Əlinə gələn şeydən ötrü şad olmayan və əlinə gəlməyən şeydən ötrü qəm çəkməyən."

◘Başqasından soruşdular: “Zahid kimdir?” Dedi: “Az vasitəsi ilə özü üçün qüvvət əldə etsin (yəni, qüvvətlənəcəyi miqdarda olan aza qane olsun) və ölümə hazır olsun.”

◘İmam Zeynəlabidindən (ə) soruşdular: Zahid kimdir? Buyurdu: Lazım olan miqdardan azı ilə keçinsin və ölümə hazır olsun.

◘İmam Məhəmməd Baqir (ə) buyurur: “Yaxşı əməl sahibi və xoşxasiyyət olmaq şəhərləri abad, ömürləri uzun edər.”

◘Yəhya ibn Məaz deyir: “Təvazökarlıq hər şeydən yaxşıdır, lakin varlı-dövlətlilərdə olmağı daha yaxşıdır. Təkəbbür hər şeydən pisdir, lakin fəqirlərdə olmağı daha pis.”

◘Hədisi-qüdsidə buyurulur: “Mənim yanımda oruc və (boş-boş danışıqdan) sükut etməkdən də gözəl ibadət yoxdur. Oruc tutub sükuta riayət etməyən kəs namaz qılıb namazında heç bir şey oxumayan şəxsə bənzəyir. Belə şəxs də təkcə ayaq üstə durmağın əvəzini alacaq, nəinki ibadətin.”

◘Başqa bir hədisi-qüdsidə buyurulur: “And olsun izzət və cəlalıma! İbadətin əvvəli sükut və orucdur. Bəndə gərək boş-boş danışıqdan (lazımsız sözlərdən) çəkinsin. Mən saleh və sükut edənlərin qəlblərini abad, boş-boş, mənasız danışanlarınsa qəlblərini viran edərəm.”

◘Başqa bir hədisdə Allah buyurur: “Elə ki, bəndə qarnını boş, dilini isə (lazımsız, yersiz və günah) danışıqdan qıfıllayır Mən ona hikmət öyrədirəm.”

◘İbn Əbi deyir: “Hind oğlu Davud ailəsinin də xəbəri olmadan qırx il oruc tutmuşdu. O, xəz dəri satmaqla məşğul idi. Gündüzlər evdən özü ilə yemək götürür, yolda onu fəqir və yoxsullara verirdi. Axşam iftar vaxtı isə qayıdır, öz ailəsi ilə yemək yeyirdi.

◘Harisin oğlu Bişr deyirdi: “Moizə (ibrət almaqdan) ötrü bu kifayətdir ki, bir qrup insan dünyadan gedib, lakin onları anmaq qəlblərə ruh verir və eyni zamanda, bir qrup insan da var ki, diridirlər, lakin onların xatirəsi qəlbləri öldürür.” O, belə bir məzmunda şer də oxuyurdu: “And olsun Allaha! Xurma tumunun ununu yeyib dərin quyuların şor suyunu içmək simiclikdən və qaş-qabaqlı və tutqun üzlərdən bir şey istəməkdən qat-qat əfzəldir. Allaha təvəkkül et!

Həqiqətən bu iş, sözün həqiqi mənasında, ehtiyacsızlıq və faydalı bir ticarətdir. Tamahı boğmaq izzətə səbəb olar. Tamah isə insanı rüsvay və zəlil edər."

◘Yenə də Bişr deyir: "İki xüsusiyyət insanları həlak etdi: "Qeybət və özünübəyənmək."

◘Pluton deyir: "Aclıq buluddur, elm və helm isə yağış. Toxluq da buluddur, cəhl və axmaqlıq yağış. Nadan öz-özünün düşmənidir. Necə başqalarına dost olsun?! Himmət və səyi qarnı olan şəxsin mükafatı qarnının boşaltdığıdır."

◘Bir hikmət sahibindən soruşdular: "Hansı xüsusiyyətin nəticəsi yaxşıdır?" Dedi: "Allaha iman və ata-anaya yaxşılıq etməyin."

◘Hippokrat deyir: "Bir şəxsin axmaqlığı iki şeydən məlum olar. Biri yersiz söz deməkdən və soruşmamış cavab verməkdən."

◘Hikmət sahibləri deyiblər: "Faydasız sözlərdən çəkin. Bu iş gizlin eyibləri aşkar edər və yatmış düşmənçilikləri oyadar."

◘Çox danışan adamın səhvi də çox olar. Başqalarına da həqarətlə baxanlar kor olar.

◘Ağlın əlaməti az danışmaq, fəzilətin nişanəsi helm və böyük hövsələdir.

◘İsa (ə) buyurur: "Dünyanı üzü üstə yıxıb arxasına minən mənəm! Nə övladım var ki, ölsün və nə də evim var ki, xarab olsun.

◘Əbuzər deyir: "İki məclisdən başqa məclisdə oturma. Biri odur ki, orada Allahdan halal ruzi dilənir, digəri isə axirətdən ötrü təşkil olunub. Başqa məclislərdə oturma, çünki heç bir faydası yoxdur. Sözünü (danışığını) iki yerə böl. Bir hissəsini axirət işlərinə, digərini isə halal ruzi tələb etməyə sərf et. Bu ikisindən başqa heç bir sözün faydası yoxdur. Malını da iki yerə böl. Bir hissəsini dolanışığın, digərini isə axirətin üçün sərf et. Başqa heç bir xərcin faydası yoxdur. Dünyanı keçmiş və gələcək arasında olan bir zaman hesab et. Keçmiş sənin əlindən çıxıb, gələcək də məlum deyil ki, əlinə gələcək, ya yox. İş görmə anı, elə əlində olan andır. İndi özün üçün qazan, əldə et və günahdan qorun. Əgər belə etməsən həlak olacaqsan."

◘İmam Məhəmməd Baqir (ə) buyurur: “And olsun Allaha! Allah camaatdan iki şey istəyib. Biri odur ki, Onun nemətlərini iqrar etsinlər, O da həmin nemətləri artırsın və öz günahlarını etiraf etsinlər və O da bağışlasın.”

◘Loğman oğluna buyurdu: “Oğul, sinəndə iki ürəyin olsun. Biri heç bir təqsirin olmadığın halda da olsa Allah qorxusu ilə dolu, digəri, səni məğrur edib əməldən saxlamayacaq ümidlə dolu.”

◘Həzrət Davud (ə) Bəni-İsrailə buyurdu: “Qarnınıza pakdan başqa bir şey salmayın və ağzınızdan pakdan başqa bir şey çıxartmayın. (Birincisi halal yemək, ikincisi isə ləyaqətli sözə işarədir.)

◘İmam Riza (ə) buyurur: “Əli (ə) buyurub: “Həya və din əql ilə yanaşıdır. Əql hara getsə onlar da onu təqib edərlər.”

◘İshaq ibn Əmmar deyir: “Həmişə İmam Sadiqin (ə) məhzərinə gedəndə bizə tapşırırdı: “Düz danışın və əmanəti sahibinə qaytarın. Yaxşı, yaxud pis iş gördünüz bilin ki, bunların hər biri ruzinin açarıdır.”

◘Altıncı imam (ə) Səfvan Suriyə buyurdu: “Səfvan! İki xüsusiyyət var ki, hər kəsdə olsa o, behişt əhlidir. Biri odur ki, özünün xoşlamadığı işi Allahın xoşu gəldiyi üçün yerinə yetirir, digəri isə budur ki, özünün xoşladığı işi Allahın xoşuna gəlmədiyi üçün tərk edir. Sən bu iki halı əlindən buraxma. Mən də səninlə şərikəm.”

◘Bir nəfər İmamdan (ə) ona moizə etməsini istədi. İmam (ə) buyurdu: “İki fikri başınızdan çıxarın; fəqirlik və uzun ömürlüyü. (Yoxsulluqdan qorxmaq insanın fikri dağınıqlığına və fəaliyyət süstlüyünə səbəb olar. Ömrün uzunluğuna olan ümid isə əməlin təxirə düşməsinə və uzun-uzadı arzulara səbəb olar.)”

◘İmam Səccad (ə) buyurur: “Dünya yuxu, axirət isə oyaqlıqdır. Bu iki şeyin arasında insan röya və dağınıq yuxulara bənzəyir.”

◘İmam Cəfər Sadiq (ə) buyurur: “Böyüklərə hörmət, kiçiklərə mərhəmət etməyənlər bizdən deyil.”

◘İmam Məhəmməd Baqir (ə) buyurur: “İki mömin görüşən zaman elə ki, bir-birinə əl verirlər, Allah da öz (rəhmət) əlini onların əllərinin

arasına daxil edir. Onlardan hansı daha istiqanlılıq və məhəbbətlə əl tutarsa Allahın da rəhməti ona daha çox şamil olar.”

◘Həsən Bəsri deyir: “Bu iki daş (qızıl və gümüş) keçib gedənləri həlak etdi. Sizi də həlak edəcək. Ayılın! Nə edirsiniz?”

◘O, yenə də deyir: “Öz dünyanı axirətə sat ki, hər ikisindən bəhrələnəsən. Əgər axirəti dünyaya satsan hər ikisində zərər çəkərsən.”

◘Hazim ibn Xüzeymə xütbə əsnasında deyib: “Yaxşılıqları (çətinliyin şiddətindən) məst edən, az yaşlıları isə qocaldan gün elə ağır və çətin bir gündür ki, şəri hamını bürüyəcək. (Yəni qiyamət günü.)”

◘Başqa birisi deyib: “Tamah ürəyə bitişmiş ipdir. Hərislik ayağa bağlanmış zəncirdir. Həmin ipi qəlbindən qıran şəxs bu zəncirdən də xilas olar.”

◘Başqa birisi də deyib: “Doğru danışmaq izzət, yalançılıq isə zillətdir.”

◘Başqa birisi deyib: “Alicənab insanlar mülayim xasiyyətli, xahiş və üzr qəbul edən, alçaqlar isə daşürəkli və kobuddurlar.”

◘Altıncı imam (ə) buyurur: “İki iş var ki, hər bir imanlı şəxsə vacibdir; elm öyrənmək və ruzi üçün çalışmaq. Elm dinin islahı, qazanc isə dünya dolanışığı üçündür. Elm axtarıb qazanc əldə etməyə səy göstərməyənlər Qiyamət səhnəsinə müflis və əliboş halda daxil olarlar.”

◘İbn Abbas yoxsulluğun məzəmməti və ehtiyacsızlığın mədhi barədə deyir: “Camaat imkanlı şəxslərin ardınca daha çox gedib onlara daha çox etimad və itaət edir. Sanki, günəş nurunun arxasınca gedirlər, hətta, bəlkə, ondan da artıq! Varlı adam onların nəzərində sudan təravətli, səmadan uca, baldan şirin, güldən pakizədir. Onun səhvi düzgün, danışığı qəbul, məclisi əzəmətli, sözləri ürəyəyatandır. Lakin onların nəzərində yoxsul, biçarə, fəqir və miskinlər suya bənzər ilğımdan daha aldadıcı, qurğuşundan ağırdır. Daxil olanda salamını almazlar, görünməsə onu heç kəsdən soruşmaz, axtarıb-aramazlar, dalınca qeybət, üz-üzə gəldikdə məzəmmət edərlər, qəzəbini vecə almazlar, onunla əl verib görüşməyi dəstəmazın, həmd-surə oxumasını namazın batil olması hesab edərlər.”

◘İmam Sadiqdən (ə) rəvayətdir: “Dünyada “həsənə” (mənası “yaxşı”, “gözəl”dir və Quranda “rəbbəna atina fid-dünya həsənəh və fil-axirəti həsənəh” (Pərvərdigara, bizə dünyada da, axirətdə də yaxşılıq əta et) şəklində təkrarlanıb) iki şeydir; pak ruzi və gözəl xasiyyət. Axirətdə də “həsənə” iki şeydir; Allahın razılığı və behişt.”

◘İmam Həsən Müctəba (ə) buyurur: «“Həsənə” dünyada elm və ibadət, axirətdə isə behiştdən ibarətdir.»

◘Əli (ə) buyurur: «“Həsənə” dünyada ləyaqətli qadın, axirətdə isə behiştdən ibarətdir.»

◘Əli (ə) buyurur: «Dünyanı ona görə belə adlandırıblar ki, hər şeydən alçaqdır.» (“Dənaət” ərəb dilində alçaqlıq mənasındadır və “dünya” sözünün kökü də həmin sözdəndir.) O biri dünyanı da ona görə axirət adlandırıblar ki, “axırda” gəlir. (Yəni, bu aləmdən sonra gəlir.)

◘Dünyadan özünü dolandıracaq miqdarla qane olan şəxsə ən sadə yaşayış tərzi kifayət edər. Artıq istəyəni bütün dünya doydurmaz.

◘Biçarə Adəm övladının bir qarnı var ki, ona deyir: “Məni doldur, yoxsa səni rüsvay edərəm!” Elə ki, dolur, deyir: “Məni boşalt, yoxsa abrını bərbad edərəm!” Zavallı Adəm övladı ömrünü bu iki təhlükə arasında keçirir.

◘Əbu Hazimdən soruşdular: “Var-dövlətin nədən ibarətdir?” Cavab verdi: “İki şeydən; Allahdan razılıq və camaatdan ehtiyacsızlıqdan.”

◘Bax gör, axirətdə səninlə olmağını istədiyin şeyi elə bu gün də göndər; o şeyi də ki, istəmirsən axirətdə səninlə olsun, elə bu gün də tərk et.

◘Dünyanı tanıyan hər kəs nə onun vüsət və rifahından xoşhal olar, nə də bəla və kiriftarçılıqlarına üzülər.

◘Bu aləmdə olan bütün xoşluqların yanında bir xoşagəlməzlik var.

◘Etdiyin yaxşı işləri pis işlərindən daha artıq gizlət.

◘Mömindən gözlənilən ən üstün xüsusiyyət budur ki, özündən daha artıq qorxub, camaata daha artıq ümidvar olsun (yəni, özünü pis, başqalarını isə yaxşı bilsin.)

◘Bir hikmət sahibi deyir: "Dünyadan öz yaxşı əməllərinin bəhrəsini götürə bilməyən kəs axirətdən götürəcək."

◘İmam Cəfər Sadiq (ə) buyurub: "Bəzən bir bəndə özünün Allah yanındakı yüksək məqamına var-dövlətinin tələf olması və bədəninin xəstəliyi vasitəsi ilə çatmalı olur."

◘Peyğəmbərin (s) yanında biri hər namazından sonra oturub camaata dinin hökmlərini öyrədən, digəri isə gecə-gündüz namazla məşğul olan iki nəfərdən söz düşdü. Peyğəmbər (s) buyurdu: "Bunlardan birincisinin digərindən üstünlüyü, mənim sizin aranızda ən aşağı həddə olanınızdan üstünlüyüm kimidir."

◘Yenə də buyurub: "Elm iki cürdür. Biri əməl donu geyinməyən dildə olan elm. Belə elm öz sahibindən ötrü höccətdir. (Yəni, nəyə görə bilirdin, amma əməl etmirdin?) Digəri isə qəlbə aid olan elmdir. Faydası olan elm də məhz budur ki, arxasınca əməl gəlir."

◘Ariflərdən biri deyir: "İki sifət var ki, ondan da üstün sifət yoxdur: Allaha iman və müsəlmanlara fayda yetirmək. İki sifət də var ki, daha ondan alçaq sifət yoxdur; Allaha şərik qoşmaq və müsəlmanlara zərər yetirmək.

◘Peyğəmbər (s) buyurub: "Behişt kimi xoş bir şey görmədim ki, arxasınca olanlar (onun şövqündən) yuxuya dalmış olsunlar. Cəhənnəm kimi də qorxulu bir şey görmədim ki, ondan qaçanlar (onun qorxusundan) yatmış olsunlar."

◘Bir arif deyir: "Asimandan aşağı gələn ən nəfis şey tövfiqdir (müvəfəqiyyət). Asimana gedən ən nəfis şey isə ixlasdır."

◘Digəri deyir: "Üzü qara olsun dünyanın! Hər kimə ehtiram göstərsə başqalarının yaxşılıqlarını ona mənsub edər, hər kimdən də üz döndərsə yaxşılıqlarını ondan alar."

◘Pluton deyir: “Güzgüyə bax. Əgər üzün gözəldirsə, öz surətinə uyğun işlər gör. Yox, əgər üzün qeyri-mütənasibdirsə nalayiq işlərlə üzünü daha da eybəcərləşdirmə.”

◘Bir filosofdan soruşdular: “Hal və mal cəhətdən hamıdan pis vəziyyətdə olan kəs kimdir?” Dedi: “Bədgümanlığı ucbatından heç kəsə etibar etməyən və bədrəftarlığı ucbatından ona etibar olunmayan kəs.”

◘Nuh (ə) buyurur: “Dünyanı iki qapılı ev kimi tanıdım; birindən gəldim, digərindən gedirəm.”

◘Sələbi öz təfsirində nəql edir: “Bəxtişu” Harun ər-Rəşidin nəsranilərdən olan xüsusi məharətli təbibi idi. Bir gün Harun ər-Rəşidin hüzurunda Əli ibn Vaqidə dedi:

“Sizin Quranınızda tibb elmi barəsində heç bir söz yoxdur. Halbuki, elm iki qismə ayrılır: 1. Din elmi. 2. Bədən elmi.”

Vaqid dedi:

– Allah-taala bütün tibb elmini yarım dənə Quran ayəsində xülasələndirib və buyurub:

[Yeyin, için, israf etməyin.]

Təbib dedi:

– Peyğəmbərinizdən tibb barəsində hədis varınızdır?

– Əlbəttə! Peyğəmbər (s) bütün tibb elmini bir neçə qısa cümlə ilə bəyan edib: “Mədə bütün xəstəliklərin evidir. Pərhiz isə bütün sağlamlıqların başı. Hər bir bədənə adət etdirdiyinizi çatdırın!”

Həmin nəsrani təbib dedi:

– Sizin Quran və Peyğəmbəriniz, daha Calyənus üçün tibb qoymayıb.

## DOQQUZUNCU FƏSİL

## *İmam Həsən Müctəbadan (ə) olan hədislər*

◘Köhnə paltarda və pərişan halda olan bir yəhudi İmam Həsəni (ə) bahalı paltar və xoş görkəmdə görüb dedi: “Məgər sizin peyğəmbəriniz deməyib ki, dünya möminin zindanı, kafirinsə behiştidir?” Həzrət (ə) buyurdu: “Əlbəttə!” Dedi: “Elə isə, bu nə behiştdir ki, mənim varımdır və bu nə zindandır ki, sənin varındır?” İmam (ə) buyurdu: “Yəhudi! Hədisi səhv başa düşmüsən! Əgər, Allahın mənə vəd etdiyi savab və məqamı və sənə vəd etdiyi əzab və işgəncəni bilsən dərk edərsən ki, mən indi zindandayam, sən isə behiştdə!”

◘Öz elmini camaata öyrət. Başqalarının elmini də özün öyrən. Belə olan halda bilikləri infaq etmiş, bilmədiklərini də öyrənmiş olarsan.

◘Bir adamın görüşünə yalnız sileyi-rəhm, yaxud, duasının bərəkətindən istifadə etməkdən ötrü get. (Yəni, zərurət olmadıqca dünya tamahından ötrü heç kəsin qapısına getmə.)

◘Əgər dünya malından bir şey axtarıb tapmasan onu yadından elə apar ki, sanki heç bu fikirdə olmamısan. Bil ki, imkansızlıq halında səxavət və alicənab olmaq və Allahın təqdirinə razı və qane olmaq rifah zamanı alicənablıq göstərib səxavətli olmaqdan üstündür. Əta, bəxşiş və yaxşılığı axıra çatdırmaq onu başlayıb yarımçıq qoymaqdan yaxşıdır.

◘İndi camaat qəflət və bixəbərlik evində yaşayırlar. Əməl edirlər, lakin, onun nəticəsindən xəbərləri yoxdur. Elə ki, axirətə çatdılar yəqin evinə daxil olarlar. Aqibətlərini görərlər, lakin, heç bir əməl görə bilməzlər.

◘Yeməkdən qabaq əlləri yumaq fəqirliyi, yeməkdən sonra əlləri yumaq isə qəm-qüssəni aradan aparar.

◘Bir gün bir nəfər İmam Həsənin (ə) hüzurunda əllərini yumadı. Həzrət buyurdu: “Yu! Birinci dəfə yumaq (yəni yeməkdən əvvəl) bizdən ötrüdür, (çünki, yeməyi bir yerdə yeyirik), ikinci dəfə isə (yeməkdən sonra) özün üçün, əgər istəməsən də yuma.

◘Hafiz Əbunəim “Hilyə” adlı kitabında deyir: “Əmirəlmöminin (ə) oğlu İmam Həsəndən (ə) dostluq və rəfaqət barəsində müəyyən suallar soruşdu, o həzrət də (ə) belə cavab verdi:
– Doğruçuluq və düzgünlük nədir?
– Pisliyi yaxşılıqla aradan aparmaq.
– Şərəf nədir?
– Qohum-əqrəba ilə xoş davranmaq və bir kəsin boynuna düşən qan bahasına səbr etmək.
– Alicənablıq nədir?
– İffətli olub malı pak və halal saxlamaq.
– Yersiz zirəklik nədir?
– Dəyərsiz şeylərdə hər xırdalığa fikir vermək və qiymətsiz mal-dövlətdə simiclik etmək.
– Alçaqlıq nədir?

–Özünü düşünüb həyat yoldaşını düşünməmək.
– Kərəm nədir?
– Rifah və imkansızlıq zamanı bəxşiş vermək.
– Simiclik nədir?
– Əlində olanı şərəf, infaq etdikləri tələf hesab etmək.
– Qardaşlıq nədir?
– Çətinlikdə də asanlıqda da bərabərlik.
– Xeyir nədir?
– Dostlara əvəz verib düşməni cəzalandırmaqdan daşınmaq.
– Qənimət nədir?
– Pəhrizkarlığa meyl, dünyaya qarşı meylsizlik. Bu ən gözəl və bəyənilmiş qənimətdir.
– Helm nədir?
– Qəzəbi udub özünü saxlamaq.
– Ehtiyacsızlıq nədir?
– Az olsa da Allahın qismətinə razı olmaq. Ehtiyacsızlıq gözütox olmaqdır.
– Fəqirlik nədir?
– Hər şeyə qarşı həris və acgöz olmaq.
– Qüdrət nədir?
– Döyüşdə şücaətli və ürəkli olmaq.
– Zillət nədir?
– Bəlaya tab gətirməmək.
– Cürət nədir?
– Həmsöhbət və tay-tuşlarla həmahəng olmaq.
– Təkəllüf (özünə əziyyət vermək) nədir?
– Lazımsız danışıq.
– Böyüklük və alicənablıq nədir?
– Borcu ödəmək və başqalarının xətalarından keçmək.
– Əql nədir?
–Əqli nümayiş etdirən mətləblərdən (danışıqlardan) uzaq olmaq.
– Nur nədir?
– Yaxşı işlər görüb pis işlərdən çəkinmək.
– Ehtiyat nədir?
– İşi tələsmədən yerinə yetirmək və hakimlərlə xoş keçinmək.
– Axmaqlıq nədir?
– Alçaqların arxasınca getmək və yolunu azmışlarla yoldaşlıq etmək.
– Qəflət nədir?
– Məscidi tərk etmək və fəsad törədən günahlara itaət.
– Məhrumiyyət nədir?
– Sənə üz gətirən bəxti əldən vermək.

– Ağa (möhtərəm) kimdir?

– Mal-dövlətdə ağıldan kəm insanlar kimi olan (yəni, tez malından keçən) və söyüş eşidərkən cavab verməyən və öz qohum-əqrəbasının vəziyyəti ilə məşğul olan.

◘Həsən Bəsri deyir: "Mömin iki qorxu arasındadır. Biri keçmiş günahlarından olan qorxudur ki, bilmir Allah onunla bu barədə necə rəftar edəcək. İkincisi isə gələcəkdən olan qorxudur ki, qarşıda onu hansı təhlükələrin gözlədiyini bilmir.

◘Yenə də Həsən Bəsri deyir: "Allah İsaya (ə) vəhy etdi: "Bəni-İsrailə de ki, Mənim bu nəsihətimi yadda saxlasınlar; dünya malından az hissəsinə qane olsunlar ki, dünyaları salamat olsun; necə ki, dünya əhli din barəsində azla qənaət olurlar ki, dünyaları məhfuz (hifz olunmuş) qalsın.

Ey İsa! Camaatı öz əməlinlə moizə et, danışıq və söz-söhbətlə yox. Allah Adəm övladını ölüm və ehtiyac vasitəsilə ram edib. Buna baxmayaraq yenə də harınlıq edir. Gözəl işlər qəlbi nurani, bədəni qüvvətli edər. Günah isə qəlbi zülmət, bədəni zəif edər.

◘İmam Məhəmməd Baqir (ə) oğluna buyurur: "Halsız və biqərar olmaqdan çəkin. Çünki bu iki şey bütün şərlərin açarıdır. Halsızlıq və tənbəlliklə yaxşı və haqq işlər görməyi bacarmazsan. Biqərarlıq və iztirablı halda isə öz vəzifələrini rahatlıq və hövsələ ilə yerinə yetirə bilməzsən."

◘Peyğəmbər (s) buyurub: "Əgər mömin bilsə ki, Allah axirətdə necə aqibətlər qərar verib, heç vaxt behişt tamahında olmaz və əgər kafir də Allahın rəhmətindən xəbərdar olsa heç vaxt naümid olmaz."

◘Dünyada ikiüzlü olanlar qiyamət səhnəsinə iki odlu dillə daxil olarlar.

◘Hər kim Allahla görüşməyi sevirsə Allah da onunla görüşməyi sevir və eyni zamanda, hər kəs Allahla görüşməyi sevmirsə, Allah da onunla görüşməyi sevmir.

Bu hədis zahirən buna dəlalət edir ki, həqiqi mömin ölümə qarşı ikrah hissi keçirmir, əksinə, ona meyllidir. Əmirəlmöminin Əlidən (ə) nəql olunur ki, buyurdu: "Əbutalibin oğlunun ölümə olan meyli körpənin öz anasının döşünə olan meylindən daha artıqdır." İbn Mülcəmin zərbəsi

ona (ə) yetişən zaman buyurdu: “And olsun Kəbənin rəbbinə, nicat tapdım.”

◘Sünni-şiə səhih yolla Peyğəmbərdən (s) nəql ediblər ki, buyurdu: “Hər kəs ki, Allahla görüşü sevir, Allah da onun görüşünü sevir və hər kəs də ki, Allahla görüşməkdən xoşlanmır, Allah da onunla görüşməyi istəmir.” Dedilər: “Ey Rəsuləlah! Bizim heç birimizin (Allahla görüş hesab olunan) ölümdən xoşumuz gəlmir.” Buyurdu: “Belə deyil. Ölüm zamanı möminə Allahın rizayət və lütfünü müjdə verərlər. O da artıq qarşıda onu gözləyən nemətdən başqa bir şey istəməz və beləliklə, Allahın görüşünə qarşı onda məhəbbət oyanar və eyni zamanda Allah da onun görüşünü sevər. Kafiri də ölüm zamanı ilahi əzabla müjdələyərlər. Buna görə də ondan ötrü onu qarşıda gözləyən şeydən də artıq xoşagəlməz şey olmur və o, Allahla görüşdən xoşlanmır və Allah da onunla görüşmək istəmir.

◘Hədisdə nəql olunur ki, bir nəfər Peyğəmbərə (s) ərz etdi: “Var-dövlətim əlimdən çıxıb, bədənim isə zəifləyib.” Peyğəmbər (s) buyurdu: “Malına və canına zərər dəyməyən bəndədə xeyir yoxdur. Allah sevdiyi bəndəsini giriftar etməklə ona səbir öyrədir. (Eyni zamanda, günahlarının cəzasını axirətə saxlamır və onun axirət məqamını ucaldır.)

◘Əmirəl-möminin (ə) Peyğəmbərdən (s) nəql edib deyir: “Allah buyurur: “Ey Adəm övladı! Sənin heç insafın yoxdur! Mən Öz nemət və ehsanlarımla sənə qarşı məhəbbət göstərirəm, sən isə günah və itaətsizliklərinlə Mənə qarşı düşmənçilik nümayiş etdirirsən. Mənim xeyrim sənə tərəf aşağı enir, sənin şərin isə Mənə tərəf yuxarı qalxır.

## ONUNCU FƏSİL

## *Həzrət Əlinin (ə) fəzilətləri barəsində olan ikili hədislər*

◘Peyğəmbər (s) Əliyə (ə) buyurur: “Səni sevən hər bir kəs mömindir (yaxud səni möminlərdən başqa bir kəs sevməz.) Sənə düşmən olan hər bir kəs də münafiqdir.”

◘Cəbrail Allah tərəfindən Peyğəmbərə (s) vəhy gətirib dedi: “Allah sənə salam göndərib buyurdu: “Qardaşın Əliyə müjdə ver ki, Mən onu sevənə əzab verməyəm. (Bu şərtlə ki, dünyadan səhih imanla gedib özü üçün bağışlanmağa bir yol qoysun.) Düşmənlərinə isə rəhm etmərəm.”

◘Əli mənim canımdır. Ona itaət etmək mənə itaətdir. Onun göstərişindən çıxmaqsa mənim göstərişimdən çıxmaqdır.

◘Əli ilə müharibə Allahla müharibədir. Onunla sülh isə Allahla sülhdür.

◘Əlinin dostu Allahın dostu, düşməni isə Allahın düşmənidir.

◘Əli Allahın höccəti və canişinidir.

◘Əli ilə dostluq iman, düşmənçilik isə küfrdür.

◘Əlinin dəstəsi Allahın dəstəsi, düşmənlərinin dəstəsi isə şeytanın dəstəsidir.

◘Əli haqq ilə, haqq da Əli ilədir. Bu ikisi Kövsər hovuzunun yanında mənə qovuşana qədər bir-birindən ayrılmaz.

◘Əli cənnət və cəhənnəm əhlini ayırandır.

◘Əlidən ayrılan məndən ayrılıb, məndən ayrılan isə Allahdan uzaq düşüb.

◘Ey Hüzeyfə! Məndən sonra Allahın sizə olan hüccəti Əli ibn Əbutalibdir. Onu tanımamaq Allahı tanımamaqdır. Xilafət məsələsində ona şərik qərar vermək Allaha qarşı şirkdir. Onun barəsində şəkk etmək Allah barəsində şəkk etməkdir. Ondan üz döndərmək Allahdan üz döndərməkdir. Onu inkar etmək Allahı inkar etməkdir. Ona etiqadlı olmaq Allaha mötəqid olmaqdır. O, Peyğəmbərinizin qardaşı və vəsisi, ümmətin imamı, haqqa qovuşmaqdan ötrü vasitə, möhkəm və qırılmaz tutacaqdır.

◘Tezliklə onunla əlaqədar olan iki dəstə həlak olacaq və təqsir də onda olmayacaq; ifrata varan dostlar və təfritə varan düşmənlər.

◘Ey Hüzeyfə! Əlidən əl çəkmə. Əgər belə etsən məndən ayrılmış olarsan. Onunla müxalifət etsən mənimlə müxalifət etmisən. Əli məndəndir, mən də Əlidən. Onun qəzəbi mənim qəzəbim, onun razılığı mənim razılığımdır.

◘Hər kəs Əlini sevsə və ona qoşulsa Allah onu əzizləyib Özünə yaxınlaşdırar. Əli ilə düşmən olan kəsə qarşı isə Allah da ədavət bəsləyib onu rüsvay edər.

◘Əlinin dostu zatı pak insandır. Düşmənləri isə Qiyamət günü peşmançılıq və həsrətdə olarlar.

◘Əlini sevən hər bir kəs hidayət olub. Hər kəs onun düşməni olsa zülm edib.

◘Ey Əli! Səni sevən hər kəs məni sevib. Məni sevən hər bir kəs də Allahı sevir. Hər kəs qəlbində sənə qarşı düşmən olsa mənə qarşı kin bəsləyib. Mənə qarşı kin bəsləyən hər bir kəs də Allahla düşmənçilik edir. Allahın düşmənlərinə də Allah, məlaikələr və bütün insanlar lənət edərlər.

◘Şafeidən (əhli-sünnənin dörd məzhəbindən birinin imamı) nəql edirlər ki, deyib: “Əli ibn Əbitalibin vücudunda elə fəzilətlər və üstün xüsusiyyətlər cəm olub ki, belə xüsusiyyətlər yalnız barmaqla sayıla biləcək kəslərdə müşahidə olunur. Onun vücudunda elm və əməl öz kamal həddində birləşib. Çox az alim var ki, elmi miqdarında əməli olsun. Həm fəqir həm də kamil səxavətə malik idi. Şücaət və incə qəlbli, zahid və xoş əxlaqlı, iftixarlı və təvazökar idi. Yüksək əsil-nəcabətə malik olub. Bu sifətlər çox nadir insanlarda bir araya gəlib.

◘Şafeidən soruşdular: “Əlinin barəsində nəzərin nədir?” Dedi: “Nə deyim, o kəsin barəsində ki, dostları onun fəzilətlərini qorxudan gizlətmiş, düşmənləri tərəfindən isə həsəd üzündən o qədər fəzilət bəyan olunmuşdur ki, məğribdən məşriqə qədər olan ərazini doldurub.”

◘Əmirəl-möminin (ə) buyurub: “Mənim şiələrimin iki əlaməti var ki, onlar bunun vasitəsilə tanınarlar. Biri odur ki, namaz vaxtlarında dəqiq olarlar (ki, namazın əvvəl vaxtını əldən verməsinlər). İkincisi isə öz var-dövlətlərini mömin qardaşları ilə paylaşarlar. Hər kəsdə bu iki xüsusiyyət olmasa ondan qaç! Yenə də ondan qaç!”

## ÜÇÜNCÜ BÖLMƏ

### *Üç tərkibli nəsihətlər*

## BİRİNCİ FƏSİL

### *Mütəal Allahın moizələri*

◘Allah-təala Musaya (ə) xitab edərək buyurdu: "Ey Musa! Mən səndən ötrü üç şey yerinə yetirirəm və sən də bunun müqabilində üç əməl yerinə yetir." Dedi: "Onlar hansılardır?"

Buyurdu: "Mən sənin ixtiyarında minnətsiz olaraq çoxlu nemətlər qoymuşam. Sən də əgər bir kəsə nə isə verdin minnət qoyma. Mən sənin üzr və tövbəni qəbul edirəm, baxmayaraq ki, bir çox itaətsizliyi bilərəkdən yerinə yetirmişsən. Sən də cəfakarların üzrünü qəbul et. Mən səndən sabahın əməlini bu gün tələb etmirəm, sən də sabahın ruzisini Məndən bu gün istəmə."

◘Başqa bir hədisi-qüdsidə deyilir: "Hər hansı bir bəndə haram tikəni tamam-kamal iştahası olduğu halda ağzından qaytarsa Mən ona üç mükafat dünyada, üç mükafat da axirətdə əta edərəm. Dünyada onun ömrünü bərəkətli, ruzisini bol, qəbrini nurani edərəm. Axirətdə isə çöhrəsini ağ edərəm, tələbkarları ondan uzaqlaşdıraram, Öz mübarək üzümü ona göstərərəm (yəni, ona çoxlu rəhmət əta edərəm.)"

Allah-təala Musaya (ə) buyurdu: "Heç bu vaxta qədər xalis bir əməl yerinə yetirmisən?" Dedi: "Bəli. Namaz qılmışam, oruc tutmuşam və zikr demişəm." Buyurdu: "Namaz sənin siratdan keçməyin üçündür. Oruc cəhənnəm atəşi qarşısında qalxanındır. Zikr isə behiştdəki dərəcələri qaldırır. Bəs elə isə, bütün bunlar sənin özün üçün olub." Musa (ə) ağladı və ərz etdi: "Pərvərdigara! Mənə elə bir iş öyrət ki, yalnız Səndən ötrü olsun." Xitab olundu: "Zülm görmüşə kömək göstərmisən? Çılpağı geyindirmisən? Susuza su vermisən? Alimə ehtiram etmisən? Bunlar xalis əməllərdir."

◘Başqa bir hədisdə deyilir: "Mən qiyamət günü üç qrup insanla düşmənçilik edərəm. Biri odur ki, Mənimlə əhd-peyman bağladıqdan sonra onu sındırır. İkincisi odur ki, azad bir insanı satır, pulunu da yeyir. Üçüncüsü də odur ki, fəhləni işlədir, lakin pulunu vermir."

◘Allah-təala Üzeyir peyğəmbərə vəhy edib buyurdu: “Elə ki, kiçik bir günah etdin, o günahın kiçikliyinə baxma. Allahın böyüklüyünə bax ki, Onun fərmanını ayaq altına almısan. Elə ki, sənə kiçicik bir xeyir yetişdi, o xeyrin kiçikliyinə baxma, Onu sənə əta edən nemət sahibinin əzəmətinə bax. Elə ki, bəlaya düçar oldun Məndən camaata şikayət etmə. Çünki Mən sənin günahlarından məlaikələrə şikayət etmirəm (və sənin sirlərini onlar üçün açmıram).”

◘Allah-təala başqa bir peyğəmbərə vəhy edib buyurdu: “Mənim görüşümə eşq və məhəbbətlə gələni behiştə daxil edərəm, qorxu ilə gələni əzabdan xilas edərəm, xəcalətli və utanan halda gələnin isə günahlarını əməlləri yazan məlaikələrin zehnindən silərəm.”

## İKİNCİ FƏSİL

## *Peyğəmbərdən (s) olan hədislər*

◘Baxmayaraq ki, behiştin ətri beş yüz illik məsafədən hiss olunur, ancaq üç dəstə insan onu hiss etməz; minnət qoyan simic, şərab içən və aqq-valideyn (yəni, valideynlərin hüququnu tapdalayıb onlara zülm edən).

◘Yerlər və göylər, məlaikələr, gecə və gündüz üç dəstə insan üçün Allahdan bağışlanmaq istəyərlər; alimlər, tələbələr və səxavətli insanlar.

◘Üç nəfərin duası rədd olunmaz; səxavətli insanın, xəstənin və tövbəkarın.

◘Atəş üç nəfərin bədənini yandırmaz; ərinə itaət edən qadının, ərinin çətinlikdə və yoxsul olan vaxtında səbr edən qadının və valideynlərinə yaxşılıq edən kəsin.

◘Üç dəstə insan şeytanın şərindən amandadır; gecə-gündüz Allahı yad edənlər, gecə yarısı bağışlanma diləyənlər və Allah qorxusundan ağlayanlar.

◘Qiyamət günü üç dəstə insandan əzab götürülər; Allahın təqdirinə razı olanlardan, müsəlmanların xeyrini güdənlərdən və xeyir dəllallarından.

◘Qiyamət günü üç dəstə insan müşkdən də ətirli təpənin üstündə qərar tutaraq məhşərin vahiməsindən, haqq-hesabdan amanda olarlar; Allah xatirinə Quran oxuyanlar, namaz qılanların ondan razı olduğu imam-camaat və məsciddə Allah rizasından ötrü azan deyənlər.

◘Üç nəfər hesabsız behiştə daxil olar. Birincisi, (fəqirliyin şiddətindən) köynəyini yuyub, geyinməyə başqa bir paltar tapmayan şəxs, digəri odur ki, mətbəxində iki növ xörək bişirməsin. Üçüncüsü isə odur ki, bu gün yeməyə bir şeyi var, sabahın dərdini çəkmir.

◘Üç nəfər hesabsız cəhənnəmə gedər; başı ağarmış zinakar, aqq-valideyn və şərab içən.

◘Əgər Allah bir bəndəyə xeyir vermək istəsə onun dünyaya olan rəğbətini azaldar, ona din elmi verər və ona eyiblərini göstərər. Hər kəsə bu üç xüsusiyyət verilsə ona həm dünya, həm də axirət xeyri verilib.

◘Dünyaya könül bağlayan hər bir kəs üç şeyə düçar olar; sonsuz qəm-qüssəyə, (heç vaxt baş tutmayacaq) xam-xəyallara və çata bilməyəcəyi ümidlərə.

◘Üç şey həlakətə, üç şey isə nicata səbəb olar. Həlakətə səbəb olan şeylər bunlardır: paxıllıq, həvayi-nəfsə itaət etmək və özünü bəyənmək. Nicata səbəb olan şeylər isə bunlardır: gizlində və aşkarda Allahdan qorxmaq, yoxsulluq və varlılıq zamanı orta həddə riayət etmək, qəzəb və xoşhal olan zaman ədalətli olmaq (yəni, nə qəzəb onu haqq yolundan yayındırsın və nə də fərəh və sevinc).

◘Peyğəmbərdən (s) soruşdular: “Fəqirlik nədir?” Buyurdu: “Allahın xəzinələrindən biri.” Yenə də soruşdular: “Fəqirlik nədir?” Buyurdu: “Haqq-təala tərəfindən olan bir lütf.” Üçüncü dəfə də təkrar etdilər. Buyurdu: “Elə bir şeydir ki, Allah onu risalət məqamına malik olan peyğəmbərdən və Allah yanında xüsusi hörmətə malik olan möminlərdən başqasına verməz.”

Sonra yenə də buyurdu: “Fəqirlik ölümdən daha şiddətlidir. Həzrət İbrahimə (ə) vəhy oldu: “Biz səni yaratdıq və Nəmrudun atəşi vasitəsi ilə səni imtahan etdik. Əgər fəqirliklə imtahan edib səndən səbri alsaq onda nə edəcəksən?” İbrahim peyğəmbər (ə) ərz etdi: “Pərvərdigara! Məgər fəqirlik Nəmrudun atəşindən də yandırıb-yaxandır?” Xitab olundu: “And olsun Öz izzət və cəlalıma! Göylərdə və yerdə

fəqirlikdən də şiddətli bəla yaratmamışam.” Soruşdu: “Ac insanı doyuran kəsin mükafatı nədir?” Buyurdu: “Bağışlanma.”

Sonra Peyğəmbər (s) əlavə etdi: “Əgər Allahın rəhməti mənim ümmətimin fəqirlərinin əlindən tutmasa, onlar küfr sərhədlərini aşarlar. (Bu hədisdən belə nəticəyə gəlmək olur ki, fəqirlik çox çətindir, lakin səbir və lazımı vəzifələri yerinə yetirməklə yanaşı olsa yüksək və dəyərli məqama səbəb olar.)

◘Fəqirlər Peyğəmbərə (s) ərz etdilər: “Varlılar behişti özlərinə nəsib etdilər. Çünki, həcc və ümrə ziyarətlərini yerinə yetirirlər, sədəqə verirlər, bizim isə bu ibadətə imkanımız çatmır.” Peyğəmbər (s) buyurdu: “Sizlərdən hər hansı biriniz Allaha xatir fəqirliyə səbr etsə ona heç bir varlının sahib olmadığı üç mükafat əta olunar. Birincisi budur: Behiştdə bir mənzil var. Həmin mənzil behişt əhli üzərində parlaq bir ulduz kimi saçır. Bu mənzilə daxil olmaqdan ötrü peyğəmbər, fəqir, fəqir şəhid, ya da fəqir mömindən başqa heç kəsə icazə verməzlər. İkincisi budur: Fəqirlər varlılardan beş yüz il əvvəl behiştə daxil olarlar. Üçüncüsü isə budur: (Allah fəqirlərin ibadətlərinə daha artıq savab verər.) Məsələn, əgər fəqir və varlı hər ikisi “Sübhanəllahi-vəlhəmdu lillahi-və la ilahə illəllahu-vallahu əkbər” desə, on min dirhəm pul infaq etsə də varlının savabı fəqirdən azdır. Həmçinin digər yaxşı işlər də bu cür.

Fəqirlər dedilər: “İndi razı olduq.”

◘Qiyamət günü peyğəmbərlərdən başqa üç dəstə insan da şəfaət edər; alim, mömin və imanlı xidmətçi (yəni, camaatın xidmətində duran) və səbirli fəqirlər.

◘Atalar üç cürdür. Biri insanın yaradılış vasitəsi olan (doğma ata), ikincisi qayınata, üçüncüsü isə insana elm öyrədən müəllim, ya ustad.

◘Dünyanın zinəti üç şeydir; var-dövlət, övlad və qadın. Axirətin də zinəti üç şeydir; elm, pəhrizkarlıq və sədəqə. Bədənin də zinəti üç şeydir; az yemək, az yatmaq və az danışmaq. Qəlbin də zinəti üç şeydir; səbr, sükut və şükür.

◘Gün ərzində bir dəfə yemək yeyən ac deyil (yəni, ac hesab olunmur), iki dəfə yeyən abid deyil, üç dəfə yeyəni dördayaqlıların yanına bağlayın. (Burada məqsəd ətdən hazırlanmış xörəkdir. Red.)

◘Allah mənə üç imtiyaz verib, Əli  onların üçünə də şərikdir. Üç imtiyaz da Əliyə verib, lakin mən onlara şərik deyiləm. Soruşdular: “Müştərək olan üç imtiyaz hansılardır?” Buyurdu: “Biri “Həmd” bayrağıdır ki, Əli onun bayraqdarıdır. Digəri “Kövsər” hovuzudur ki, Əli onun saqisidir. Üçüncüsü isə behişt və cəhənnəmin ixtiyarıdır ki, Əli onları ayırandır. Əliyə məxsus olan üç imtiyaz isə bunlardır: Mənim kimi qayınatası var, Fatimə kimi həyat yoldaşı var, Həsən və Hüseyn kimi övladları var ki, mən bunların heç birinə sahib deyiləm.

◘Əql üç hissədən ibarətdir; üçünə də sahib olan aqildir, heç birinə malik olmayan axmaq. Həmin üç hissə bunlardır; Allahı səhih və doğru-düzgün şəkildə tanıma, Allaha gözəl itaət və Allah barəsində xoş gümanda olmaq.

◘Üç şey hafizəni qüvvətləndirər; misvak (dişləri yumaq), oruc və Quran oxumaq.

◘Hər kəs bığını qısaltsa Allah ona üç nur əta edər. Biri üzündə olar, digəri qəbrində, üçüncüsü isə qiyamətdə ona verilər. Eyni zamanda, üç əzabı da ondan götürər; birincisi qəbir əzabı, ikincisi Nəkir və Münkərin əzabı, üçüncüsü isə Qiyamət çətinliyini.

◘Əllər üç cürdür; alan, verən, qoruyan. Bunların ən üstünü verən əldir.

◘Əllər üç qismdir. Birincisi Allahın əlidir, bəxşiş əta edəndir və hamıdan yüksəkdədir. İkincisi kərimlərin əlidir və bu ikinci dərəcəlidir. Üçüncüsü isə hamısından aşağı olan əldir. Bəs elə isə bacardığınız qədər dilənməkdən özünüzü saxlayın. And olsun canım əlində olduğu Allaha! Bir kəs ip götürüb həmin ipin arasında ucları bir-birinə çatmayacaq qədər odun toplayıb aparıb onu bazarda xurmanın dörddə birinə satsa camaat qarşısında əlini açıb dilənməkdən (bir şey verəcəklər, ya yox) qat-qat yaxşıdır.

◘Quran öyrənənlər üç dəstədir. Bir hissəsi Quranı özləri üçün qazanc vasitəsi qərar veriblər. Bu vasitə ilə padşahların hüzuruna yol tapıb var-dövlət ələ keçirirlər, yaxud da onu təkəbbür və böyüklük vasitəsi qərar verirlər. Digər hissəsi diqqətlərini yalnız onun (Quranın) sözlərinin düzgün oxunuşuna yönəldirlər, mənalarına isə fikir vermirlər. Üçüncü dəstə isə Quranı öz dərdlərinin dərmanı qərar veriblər. Onun təlimlərinin kölgəsi altında gecələr oyaq, gündüzlər susuz olar,

məscidlərdə namaz qılarlar. Bunlar bəla qarşısında sipərdirlər. Bunların bərəkəti sayəsində Allah düşməni dəf edib göydən yağış nazil edər. And olsun Allaha! Bu tayfa Quran qariləri arasında qırmızı yaqutdan da az tapılandır.

◘İnsan öz ailəsinə, var-dövlətinə (yaxud, malına) və əməlinə münasibətdə üç qardaşı olan insana bənzəyir. Ölüm vaxtı o, bir qardaşına deyər: "Bu çarəsiz vəziyyətimdə sən mənə nə fayda verə bilərsən?" Deyər: "Mən yalnız sən həyatda olduğun müddətdə sənə mənfəət verə bilərəm. Hələlik hər nə bəhrə istəsən məndən götür ki, tezliklə mən başqasına bağlanacağam və sənin xoşlamadığın bir kəs məni özünə aid edəcək." Həmin vaxt Həzrət (s) üzünü öz əshabına tutub dedi: "Bu necə qardaşdır?" Dedilər: "Faydasız qardaş." Buyurdu: «Bu mal-dövlətdir.» Sonra o, digər qardaşına deyər: "Bəs sən mənim bu çətin və şiddətli anımda mənə nə köməklik göstərə bilərsən?" Cavab verər: "Mən indi sənə şəfqət göstərərəm. Ölümündən sonra isə bədəninə qüsül verib kəfənə bükərəm və camaatla birgə qəbrə yola salaram." Həzrət (s) yenə də soruşdu: "Bəs bu necə qardaşdır?" Cavab verdilər: "Səmərəsi olmayan qardaş." Buyurdu: «Bu ailə kimidir.» Nəhayət, o, üçüncü qardaşdan soruşar: "Bəs sən mənə necə mənfəət verə bilərsən və ya hansı bəlanı dəf edə bilərsən?" Deyər: "Mən sənin tənha vaxtlarında yaxın dostun, qorxulu anlarında sənin yoldaşınam. Qəlbindəki qəm-qüssəni aradan apararam, qəbirdə səni müdafiə edərəm. Öz son qüdrətimi də sənin üçün sərf edərəm." Yenə, Həzrət (s) üzünü əshabına tutub soruşdu: "Bəs bu necə qardaşdır?" Dedilər: "Bu ən yaxşı qardaşdır." Buyurdu: "Bu da əməldir."

◘Bilin ki, zülm üç cürdür. Birincisinin bağışlanmaq qabiliyyəti yoxdur. İkincisinə göz yummaq mümkün deyil. Üçüncüsünün isə bağışlanma qabiliyyəti var və sorğu-sual olunmayacaq. Birincisi Allaha şərik qoşmaqdır. Çünki Quran buyurur: "Allah ona şərik qoşanları bağışlamaz. (yəni, əgər tövbəsiz dünyadan getsə). Bundan başqa günahları isə istədiyi şəxsdən ötrü bağışlayar." İkincisi Allah bəndələrinə olunan zülmdür. Bu işin aqibəti çox çətindir. Bunun cəzası bıçaqlamaq, şallaq vurmaq deyil. Bıçaq vurmaq və şallaq vurmaq bu işin cəzasının yanında heç nədir. Üçüncüsü isə özünə olunan zülmdür. Bu sair günahlardır ki, onların zərəri insanın özünə qayıdır.

◘Əbuzərə buyurdu: "Hər kəs üç xüsusiyyətlə məhşərə daxil olmasa ömrünü bada verib." Əbuzər soruşdu: "O, hansı xüsusiyyətlərdir?"

Buyurdu: "İnsanı haramdan çəkindirən təqva, axmaqların nadanlığını rədd edə bilən əql, camaatla keçinə bilən xasiyyət.

Ey Əbuzər! Əgər hamıdan qüvvətli olmaq istəyirsənsə Allaha təvəkkül et. Əgər hamıdan hörmətli olmaq istəyirsənsə, pəhrizkar ol. Əgər hamıdan daha artıq ehtiyacsız olmaq istəyirsənsə Allahın evlərinə öz qazanıb yığdıqlarından daha çox etibar et.

◘Sədaqətli aşiqin əlaməti üç şeydir: Məhbubla danışmağı camaatla danışmaqdan daha önəm verir. Onunla yoldaş olmağı başqaları ilə yoldaşlıq etməkdən üstün tutur. Onun üçün məhbubun razılığı başqalarının razılığından daha mühümdür.

◘Adəm övladı var-dövləti bəsləyib "sənin malın", "mənim malım" deyir. Məgər dövlətdən sənə bunlardan başqa bir şey qalırmı?!; Sədəqə verirsən sənə qalır, yeyirsən aradan gedir və ya geyirsən cırılır.

◘Üqbə ibn Amir deyir: "Peyğəmbər (s) üç vaxtda müstəhəb namaz qılmağı və ölünü dəfn etməyi qadağan edib; gün çıxan vaxtdan günortaya qədər, günortanın əvvəlində, qüruba yaxın vaxtdan qüruba qədər. (Bu üç vaxtda həm namaz qılmaq məkruhdur, həm də dəfn işi.)

◘Yenə də buyurub: "Üç kəsə Allah Qiyamət günü nəzər salmaz, onlarla danışmaz və onları dərdli əzab gözləyir. Biri zinakar qoca, digəri yalançı rəhbər, üçüncüsü isə təkəbbürlü fəqir (ki, öz dini vəzifələrini yerinə yetirməkdən imtina edir). Bəzi hədislərdə yalançı rəhbər yerinə yalançı padşah qeyd olunub.

## ÜÇÜNCÜ FƏSİL

## *Peyğəmbərdən (s) olan sünni hədisləri*

◘Üç şey qəlbi daşa döndərər: "Şən mahnılara qulaq asmaq, ov etmək və padşahların yanına gedib-gəlmək.

◘Merac gecəsi gördüm behiştin qapısı üzərinə üç sətir yazılıb. Birinci sətirdə "Bismillahir-rəhmanir-rəhim, Məndən başqa Allah yoxdur, rəhmətim qəzəbimi üstələyib.", ikinci sətirdə "Bismillahir-rəhmanir-rəhim. Sədəqənin savabı on qat, borcun savabı on səkkiz qat, sileyi-rəhmin savabı isə otuz qatdır.", üçüncü sətirdə isə "Hər kəs Mənim qədir və məqamımı tanısa və Mənim Allahlığım barəsində mərifətə sahib olsa heç vaxt Məni ruzi barəsində müttəhim etməz. (Yəni, heç vaxt Mənə qarşı bədgüman olmaz.)

◘Həzrət Əliyə (ə) buyurub: “Ey Əli! Sənin Mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Fərq yalnız bundadır ki, məndən sonra peyğəmbər yoxdur. Mən sənə bir tövsiyyə edirəm. Əgər ona əməl etsən gözəl həyat sürərsən, şəhid olub dünyadan gedərsən və Qiyamət günü fəqih və alim kimi məhşur olarsan.

Bil ki, möminin üç əlaməti var; oruc, namaz və sədəqə. Münafiqin də üç əlaməti var; danışığında yalan sözlər işlədər, vədinə əməl etməz və əmanətə xəyanət edər və moizə ona təsir qoymaz. Riyakarın da üç əlaməti var; xəlvətdə namazın ruku və səcdələrini kamil şəkildə yerinə yetirməz, camaat arasında Allaha zikr deyər, tənha olanda Allahı unudar.

Ey Əli! Zalımın üç əlaməti var; öz əlaltıları ilə sərt və qəzəblə davranar, bacardığı qədər insanların payından və malından oğurlayar və onu qorxmadan harda olsa yeyər.

Paxılın da üç əlaməti var; üzdə (üzbəüzdə) yaltaqlıq edər, arxadan dalca danışar və yersiz şəhadət verər (şahidlik edər).

Tənbəlin də üç əlaməti var; Haqqa itaət etməkdə süstlük göstərər, ibadətə yüngül yanaşar ki, əldən çıxsın, namazın da vaxtını o qədər təxirə salar ki, vaxtı keçsin.

Tövbəkarın da üç əlaməti var; günahdan uzaq gəzər, elm əldə etmək üçün çalışar və süd bir daha döşə qayıtmadığı kimi o da keçmiş günahlarına qayıtmaz.

Ağıllı insanın da üç əlaməti var; dünyaya qarşı etinasız olar, cövr və cəfaya qarşı dözümlü, çətinliklərə səbirli olar.

Hövsələli adamın üç əlaməti var; onunla əlaqə kəsən adamla əlaqə yaradar, (küsənlə barışar) onu məhrum edənə kərəm göstərər və zülmdən şikayət etməz.

Axmağın üç əlaməti var; dinin vacibatlarında süstlük göstərər, Allah bəndələrini məsxərə edər, çoxdanışan olar amma, heç, Allaha zikr deməz.

Ləyaqətli insanın üç əlaməti var; saleh əməl vasitəsi ilə Allahla öz arasını islah edər, dinini elm vasitəsi ilə islah edər, özü üçün bəyəndiyi şeyi başqaları üçün də bəyənər.

Pəhrizkar insanın da üç əlaməti var: yalançı dostlardan və pis yoldaşlardan uzaq gəzər, heç kəsin qeybətini etməz. Harama düşməməkdən ötrü bir sıra halallardan da imtina edər.

Daşürəkli adamın da üç əlaməti var; zəiflərə rəhm etməz, aza qane olmaz, öyüd nəsihət ona təsir etməz.

Siddiqin də (sözü ilə əməli uyğun gələn adam) üç əlaməti var; sədəqəni gizli şəkildə vermək, müsibəti bildirməmək, ibadəti məxfi saxlamaq.

Fasiqin (dinsiz) üç əlaməti var; fəsad yaymaq, camaata ziyan vermək, haqq yoldan azmaq.

Alçaq adamın üç əlaməti var; Allahın itaətindən çıxmaq, qonşuya əziyyət etmək, inadkarlıq və iğtişaş yaratmağa meyl.

Abidin üç əlaməti var; Allahdan ötrü özü-özünə qəzəblənər (ki, nəyə görə öz bəndəlik vəzifələrini lazımınca yerinə yetirmirsən), Allah yolunda şəhvətlərə qarşı düşmən olar, namazın qiyamını uzadar.

Müxlis bəndənin üç əlaməti var; mala, var-dövlətə qarşı düşmən olar, dünyaya qarşı düşmən olar, günaha qarşı kin bəsləyər.

Alimin də üç əlaməti var; düzdanışmaq, haramdan qorunmaq, camaat arasında təvazökar olmaq.

Səxavətli adamın üç əlaməti var; əlində qüdrət olduğu halda əfv etmək, zəkatı ödəmək, sədəqə verməyi xoşlamaq.

Yaxşı dostun üç əlaməti var; səndən qabaq xərcləyər, sənin abır-həyanı özününkündən mühüm bilər, öz canını sənə fəda edər. Bunlardan əlavə sənin sirlərini gizli saxlayar.

Facirin (yaramaz adamın) üç əlaməti var; yalandan and içər, qadınları aldadar, günahsızlara töhmət vurar.

Kafirin üç əlaməti var; Allahın dininə şəkk edər, Allahın bəndələri ilə düşmənçilik edər, Allaha itaətə qarşı laqeydlik və saymazyanalıq göstərər.

Bədrəftar adamın üç əlaməti var; Allahın məkrindən amanda olduğunu hiss edər, Allaha qarşı naümid olar, Peyğəmbərlə (s) müxalifətçilik edər. (Peyğəmbərin (s) Əliyə (ə) olan nəsihətlərinin sonu.)

◘Qadın və kişi olmağından asılı olmayaraq namazlarında səhlənkar olan kəslərə Allah on səkkiz cəza verər. Onun altısı dünyada, üçü ölüm zamanı, üçü qəbirdə, üçün Qiyamətdə, üçü də Siratdan keçəndə verilər. Dünyada olanlar bunlardır: Ruzi və güzəranından bərəkət alınar, üzündəki nur aradan gedər, İslamdan heç bir bəhrəsi olmaz, saleh insanların onun barəsində etdiyi dualar qəbul edilməz, onun öz duaları da müstəcab olmaz.

Ölüm anında olanlar bunlardır: Zillətlə can verər, özündə elə ağırlıq hiss edər ki, sanki üzərinə böyük bir dağ düşüb və o qədər zəif olar ki, sanki onu şallaqlayırlar. İkincisi odur ki, elə susuz olar ki, sanki dünyanın suyunu içsə doymaz. Üçüncüsü, elə ac olar ki, sanki dünyanın yeməyini yesə doymaz.

Qəbirdə olanlar bunlardır: Şiddətli qəm-qüssə və qaranlıq, qəbir sıxıntısı və qiyamətə qədər əzab, üçüncüsü isə rəhmət mələikələrinin bəşarət və müjdəsindən məhrum olmaq.

Məhşərdə olanlar bunlardır; Heyvan surətində məhşur olar, əməl dəftəri sol əlinə verilər, haqq-hesabı da uzun çəkər.

Sirat körpüsündə olanlar da bunlardır: Allah ona öz rəhmət nəzərlərini salmaz və onu günahlardan paklaşdırmaz, onun səhvlərindən keçməz və üzrlərini qəbul etməz, min il haqq-hesab çəkməkdən ötrü saxlanılar, sonra cəhənnəmə salınar. Bu barədə Allah Quranda belə buyurur: “(Cəhənnəm əhlindən soruşarlar:) “Sizi cəhənnəmə aparan nə oldu?” Cavab verərlər: “Biz namaz qılanlardan deyildik.”

◘Allah-təala üç kəsə öz ərşinin kölgəsində yer verməz: Birincisi mütəkəbbir (yəni, təkəbbürlü adam), ikincisi qeybət edənin üzünə gülən (yəni, onun qeybətinə razı ola n), üçüncüsü isə malı müştərini aldatmaqdan ötrü bəzəyən.

◘Allah-təala Qiyamət günü üç kəslə danışmaz, onları (günahlardan) paklaşdırmaz və onları dəhşətli əzaba düçar edər: Onlardan birincisi bir

kəsə bir şey verən zaman minnət qoyan, ikincisi andı öz qazanc mənbəyi edən, üçüncüsü isə təkəbbür üzündən geyimini uzadan kəsdir.

◘Üç nəfər Peyğəmbərin (s) qadınlarından onun ibadəti barəsində soruşdular. Elə ki, onun ibadətindən xəbərdar oldular, birincisi dedi: “Amma mən, hər gecə sübhə qədər namaz qılacağam.” İkincisi dedi: “Mən günlərimin hamısını oruc tutacağam.” Üçüncüsü isə dedi: “Mən heç vaxt qadınla yaxınlıq etməyəcəyəm.”
Peyğəmbər (s) onların bu qərarlarından agah olduğu zaman onların yanına gəlib buyurdu: “Bu sözləri siz demisiz? Elə isə bilin! And olsun Allaha! Mən Allahdan sizin hamınızdan çox qorxuram və təqvaya da sizin hamınızdan çox riayət edirəm. Eyni halda bəzən oruc tuturam, bəzən yox. Həm namaz qılıram, həm də gecənin müəyyən miqdarını yatıram. Qadınlarla da yaxınlıq edirəm. Hər kəs ki, mənim yolumdan çıxsa mənim ümmətimdən deyil.

◘Üç xüsusiyyəti qarğadan öyrənin: gizli şəkildə yaxınlıq etməyi, sübh tezdən ruzi dalınca getməyi, düşməndən ehtiyatlı olmağı.

◘Möminin nişanəsi üç şeydir; az yeyər (çünki oruc tutar), az danışar (çünki, Allahı zikr etməklə məşğuldur), az yatar (çünki namaz qılmağa məşğul olar).

◘Mən özümdən sonra ümmətimdən ötrü üç şeydən qorxuram; hidayət olduqdan sonra azmaqdan, insanı azdıran fitnələrdən, qarın və fərc şəhvətpərəstliyindən.

◘Yeddi qat yer və  yeddi qat asiman onlarda olanlarla birlikdə, müqərrəb məlaikələr, gecə və gündüz üç dəstə insandan ötrü bağışlanma diləyərlər; alimlərdən, tələbələrdən və əməl sahiblərindən ötrü.

◘İnsanların əli ölümdən sonra üç şeydən başqa bütün əməllərdən kəsilər: Birincisi, uzun müddətli sədəqə (məsələn, yol çəkmək, körpü salmaq, məscid tikdirmək və s. kimi əsəri həmişəlik qalan xeyir işlər) digəri insanların faydalandığı xeyir əməllər (məsələn, tədris, kitab yazmaq və s.), üçüncüsü isə valideyni barəsində dua edən saleh övlad.

◘Allahın kölgəsindən başqa heç bir sığınacağın olmadığı Qiyamət günündə üç dəstə insan Allahın ərşinin kölgəsində olarlar. Soruşdular: “Onlar kimlərdir?” Buyurdu: “Birincisi, müsəlman bir şəxsin qəlbindən

qəmi dağıdan kəslər, ikincisi mənim sünnəmi diri saxlayanlar, üçüncüsü isə mənə çoxlu salavat göndərənlər.”

◘Mənim ümmətimin ən fəzilətli olanları üç dəstə insandır. Biri elm kəsb etməklə məşğul olanlar; onlar Allahın dostlarıdır. İkincisi döyüş meydanının əsgərləri; onlar Allahın sevimli bəndələridir. Üçüncüsü isə öz qolları gücünə ruzi qazananlardır ki, onlar da Allahın xalis dostlarıdır.

◘Qiyamət günü üç dəstə insan şəfaət edər; peyğəmbərlər, alimlər, şəhidlər. Alimlərin rütbəsi peyğəmbərlərdən aşağı, şəhidlərdən yuxarıdır.

◘Hər kəs üç xüsusiyyətə malik olsa imanın şirinliyini dadar. Biri budur ki, Allah və peyğəmbərini hamıdan çox sevsin. İkincisi budur ki, hər hansı bir bəndəyə qarşı sırf Allaha görə məhəbbət bəsləsin. Üçüncüsü budur ki, iman gətirdikdən sonra küfrə qayıtmağa elə nifrət etsin ki, sanki oda daxil olur.

◘Allah hər kəsdən daha çox üç nəfərə nifrət edir. Biri Allahın hərəminə qarşı ehtiramsızlıq edib oranın hörmətini sındıran, ikincisi hər hansı bir müsəlmandan cahiliyyətə xas olan davranış tələb edən, üçüncüsü isə qanını tökməkdən ötrü günahsız insanı təqib edən kəs.

◘Üç yerdən öz ehtiyacınızı ödəməkdən ötrü (ayaqyolu kimi) istifadə etməyin ki, camaatın lənətinə düçar olarsınız; suyu içməli olan yerdən, yolun ortasından bir də kölgəlikdən yaxud, ağac (və ya meyvə ağacının) kölgəliyindən, (çünki belə kölgəlikdə adətən, dincəlirlər.)

◘Üç kəs Allahın himayəsindədir (yaxud, Allah üç kəsdən ötrü zamindir). Onlardan biri Allaha xatir döyüş meydanına gedən şəxsdir. Həmin şəxs öldürülüb behiştə gedənə qədər, yaxud da savab və düşməndən ələ keçirdiyi qənimətlə öz vətəninə dönənə qədər Allahın nəzarəti altında olar.

İkincisi məscidə tərəf gedən şəxs, üçüncüsü isə Allah evinə salamat daxil olan şəxsdir.

◘Gecə namazını tərk etməyin ki, o, sabiq ləyaqətli insanların adətidir. O, Allaha yaxınlaşmağa, günahların bağışlanmasına və insanın günahdan çəkinməsinə səbəb olar.

◘Allah üç kəsdən çox razıdır; biri gecənin bir aləmi namaz qılan, digəri camaat namazı sıralarında duran, üçüncüsü İslam döyüşçülərinin arasında döyüşdə iştirak edən.

◘Yalan yalnız üç yerdə caizdir; qadının razılığından ötrü, döyüş meydanında və (küsülülərin arasını) düzəltməkdən ötrü.

◘Qiyamət günü Allah tərəfindən bəndəyə xitab olunar: “Ey Adəm oğlu! Mən xəstələndim nə üçün Mənə baş çəkmədin?” Cavab verilər: “Pərvərdigara! Sən Aləmlərin rəbbi olduğun halda mən sənə necə baş çəkim?” Buyurar: “Məgər bilmədin ki, mənim filan bəndəm xəstələnmişdi? Nə üçün onu ziyarət etmədin? Məgər bilmirdinmi ki, onu ziyarət etsəydin Məni onun yanında görərdin?

Ey Adəm oğlu! Mən səndən yemək istədim, nə üçün vermədin?” Deyər: “İlahi! Sən hamının Allahı olduğun halda mən necə Sənə yemək verə bilərdim?” Buyurar: “Filan fəqir səndən yemək istədi, nə üçün ona vermədin? Məgər bilmirdinmi ki, ona yemək versəydin, indi həmin yeməyi Mənim yanımda görəcəkdin? (Sanki, yeməyini mənə vermiş kimi idin?)

“Ey Adəm oğlu! Mən səndən su istədim nəyə görə vermədin?” Yenə də bəndə həmin sualı təkrar edər. Cavab gələr: “Filan bəndə susuz idi və səndən su istədi, sən isə vermədin. Məgər bilmirdinmi ki, ona verdiyin suyu indi Mənim yanımda tapacaqdın?”

◘İşlərin ən yaxşısı üçdür; varlı olduğun halda təvazökarlıq etmək, qüdrətli olduğun halda əfv və güzəşt etmək və minnətsiz bəxşiş vermək.

◘Mən Qiyamət günü üç kəsə düşmən münasibəti bəsləyərəm. Biri odur ki, Mənim adımla bir adama aman verib sonra xəyanət edər. Digəri odur ki, azad bir şəxsi qul kimi satıb pulunu yeyər. Üçüncüsü odur ki, fəhləni işlədib pulunu verməz.

◘Üç kəsdən başqa heç kəsə dilənmək rəva deyil. Biri odur ki, öhdəsində diyə (qan bahası) var, onu ödəməkdə acizdir və məqsədi həmin miqdarda caamatdan pul yığmaqdır. İkincisi odur ki, mal-dövləti əlindən çıxıb və nə qədər ki, əlinə kifayət qədər pul gəlməyib müəyyən qədər camaatdan yığa bilər. Üçüncüsü odur ki, səfalət və yoxsulluğa düçar olub və qohum-əqrəbasından da üç nəfər aqil şəxs onun bu hala, bu vəziyyətə düşməsini təsdiq edir. Bu halda həmin şəxsin dilənməyi caizdir.

◘Əbuzərə buyurub: “Təfəkkür və düşünmə vasitəsilə qəlbini diri və ayıq saxla, yuxunu azalt və öz Allahından qorx.

◘Üç şey hafizəni qüvvətləndirər və bəlğəmi aradan aparar, Quran oxumaq, bal və kündür çeynəmək.

◘Əql üç hissədən ibarətdir. Hər kim bunların üçünə də sahib olsa aqil hesab olunur, əks təqdirdə ağılsızdır; Allahı düzgün tanıma, ona yaxşı itaət etmək və Ona qarşı xoş güman bəsləmək.

◘Hər kim dünyaya məhəbbət şərbətini içsə və ürəyini bu fani aləmə bağlasa üç bəlaya mübtəla olar; əzab-əziyyət gətirən məşğuliyyət, sonsuz arzular, çarəsiz hərislik.

◘Üç şey insana nicat bəxş edər və üç şey də insanı həlak edər. Nicat verən şeylər bunlardır; gizlində və aşkarda Allahdan qorxmaq, fəqirlik və varlılıq arasında olan orta həddə yaşamaq, qəzəb və xoşhallıq zamanı mötədil vəziyyətdə olmaq. Həlak edən şeylər isə bunlardır; simiclik və ona tabe olmaq, həvəs (nəfsin istəkləri) və onun ardınca getmək və xudpəsəndlik (özünübəyənmək).

◘Qiyamət günü üç kəs Allahın ərşinin kölgəsində qərar tutar. Biri odur ki, dəstəmazı pozulan kimi (yaxud, ayaqyolundan çıxan kimi) dərhal yenidən dəstəmaz alır, digəri odur ki, gecə qaranlığında məscidə gedir, üçüncüsü isə odur ki, acları doyurur.

## DÖRDÜNCÜ FƏSİL

## *Sünni və şiələrin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘İbadət edənlər üç dəstədir. Bir qismi Allahdan qorxduqları üçün ibadət edirlər. Belə ibadət qulların ibadətidir. Bir qismi də öz əməllərinin mükafatını almaq tamahı ilə ibadət edirlər. Bu ibadət də muzdurların ibadətidir. Üçüncü qisim isə ixlas üzündən Allaha məhəbbət bəslədiklərindən ötrü ibadət edirlər. Bu ibadət azad və hürr insanların ibadəti və bu ibadətlərin ən əfzəlidir.

◘Hər kəs günah zillətindən xaric olsa itaət izzətinə daxil olar. Allah onu heç bir malı olmadan ehtiyacsız edər, heç bir qoşunu olmadan qalib edər, heç bir qohum-əqrabası olmadan əziz (izzət sahibi) edər.

◘Bir gün öz səhabələrindən soruşdu: “Nə haldasız?” Dedilər: “Allaha iman və etiqad halındayıq.” Buyurdu: “İmanınızın əlaməti nədir?” Dedilər: “Bəla zamanı səbirli, rifah halında şükür edən və Allahın təqdirinə razıyıq.” Buyurdu: “Bəli, And olsun Kəbənin Allahına ki, siz möminsiniz!”

◘Allaha qarşı məhəbbət və eşq bəsləmək mərifətin əsası doğru-düzgünlük, yəqinin nəticəsi və ən üstün yəqin Allahın təqdirinə razı olmaqdır.

◘İşlər üç növdür: Bəziləri mütləq hidayət və irşaddır. Bu işlərin ardınca get. Bəziləri mütləq azğınlıq və zəlalətdir. Bunlardan özünü qoru! Müəyyən qismi də ixtilaflıdır. Onları Allaha tapşır və onlar barəsində özündən rəy vermə.

◘Allah üç şeyi sizin üçün bəyənib və üç şeyi bəyənməyib. Bəyənib ki, Ona pərəstiş edəsiniz və heç bir şeyi Ona şərik qoşmayasanız, hamılıqla ilahi ipə sarılıb bir-birinizdən ayrılmayasınız və sizin üçün təyin etdiyi rəhbərlərə qarşı xeyirxah olasınız. Bunun qarşısında bəyənməyib ki, ixtilaf və qarışıqlıq salasınız, çox üz vurasınız (ondan-bundan çox xahiş edəsiniz) və mal-mülkü zay edəsiniz.

◘Allah ehtiyacsız tanınmayan (adı məşhur olmayan) pəhrizkar bəndəni sevir. (Ehtiyacsız odur ki, tamah əlini heç kəsə tərəf açmasın, tanınmayan odur ki, yersiz şəhvətlərdən uzaq gəzsin.)

◘İmanın faydası üç şeydir; Allah yolunda dostluq etmək, Allah yolunda düşmənçilik etmək, Allahdan utanaraq günah etməmək.

◘Kərəm və alicənablıq təqvadan, şərəf tavazödən, Allah qarşısında təslim olmaq isə yəqindən irəli gəlir.

◘Peyğəmbər (s) Cəbraildən soruşdu: “Məlaikələr də gülüb-ağlayırlarmı?” Dedi: “Bəli. Üç nəfərə təccüblənib gülürlər və üç nəfərə də mərhəmət və ürəyiyananlıq edib ağlayırlar. Güldükləri kəslərdən birincisi odur ki, bütün gün ərzində pis-pis danışır, axşam olanda da elə ki, işa namazını qılır, yenə boş-boş və lazımsız söhbətlərə başlayır bu zaman məlaikələr ona gülüb deyirlər: “Ey bixəbər! Səhərdən axşama qədər doymadın, indi doyacaqsan?!”

İkincisi əlinə bel və külüng götürüb torpağını şumlamaqdan ötrü öz tarlasına gedən tamahkar kəndlidir. O, öz payını artırmaq məqsədilə

qonşu tarla ilə öz tarlasını ayıran torpaq sahəsini də belləyib öz sahəsinə qatmaq istəyərkən məlaikələr ona gülüb deyərlər: “Bu genişlikdə torpaqdan gözün doymadı, bu kiçik hissədən doyacaq?!” Üçüncüsü özünü naməhrəm kişilərdən örtməyən qadın barəsindədir. Elə ki, ölən zaman onu kəfənə büküb qaranlıq və gözlərdən gizlin olan yerə – qəbirə qoyarlar, məlaikələr gülüb deyərlər: “Rəğbətə səbəb olduğu zaman onu gizlətmirdiniz, indi gizlədirsiniz?! Halbuki, indi ona yalnız nifrət və ikrah olunar.

Məlaikələrin ağladıqları kəlsər isə bunlardır: Biri elm ardınca gedərkən yolda ölən qəribdir. İkincisi övladları olmayan və ömürləri boyu övlad həsrəti ilə yaşayan yaşlı kişi və qadındır. Elə ki, yaşlı çağlarında övladları olar, onlar sevinər ki, bu yaşımızda bizim xidmətimizdə durar, öləndən sonra da bizi dəfn edər. Həmin vaxt həmin övladları ata-anasından qabaq dünyasını dəyişər. Məlaikələr ata-anadan qabaq həmin övladın halına ağlayarlar. Üçüncüsü gecənin bir aləmi oyanıb (yuxulu olduğu üçün) anasının yoxluğundan xəbəri olmayan, ağlayaraq onun dalınca getmək istəyən yetimdir. O, ağlayan zaman dayə onun üstünə acıqlanıb deyər: “Nə ağlayırsan?!” Həmin an anasının olmamağı uşağın yadına düşər və ümidsiz halda susar. Həmin vaxt məlaikələr onun qəribliyinə ağlayarlar.

◘Münafiqin (ikiüzlü) üç əlaməti var; qəlbi ilə dili düz gəlmir, danışığı ilə əməli müxalifdir və aşkarı ilə gizlini bir-birindən fərqlənir. Paxılın da üç əlaməti var; dalca (pis sözlər) danışar, üzdə yaltaqlanar, adama müsibət və bəla üz verən zaman isə sevinib şad olar.

◘Allah-təala üç qadını qəbir əzabından amanda saxlayıb Qiyamət günü Fatimeyi Zəhra (ə) ilə məhşur edər. Həmin qadınlar bunlardır; ərinin əli aşağı olan zaman səbr edən (və ondan ayrılmayan) qadın, ərinin bəd əxlaqına səbr edib ondan boşanmayan qadın və mehriyyəsini ərinə bağışlayan qadın.

◘Üç xüsusiyyət var ki, bunlar behişt əhlinin sifətlərindəndir və alicənab insanlardan başqa heç kəs bunlara malik olmaz. Həmin xüsusiyyətlər bunlardır: Pislik edənə yaxşılıq etmək, zülm edənə güzətş etmək və təvəqqösü olmayan adama bəxşiş vermək.

◘Üç kəs Allahın ərşinin kölgəsindədir. Biri odur ki, qohumları ilə xoşrəftar olar. İkincisi əri öləndən sonra ikinci dəfə ərə getməyərək onun yetim qalmış uşaqlarını tərbiyələndirməklə məşğul olan qadın. Üçüncüsü isə yoxsula və ya əsirə yemək verən kişi.

◘Əbləhin üç əlaməti var; günah, qonşuya əziyyət vermək, əhd-peyman sındırmaq. Zöhdün (zahidliyin) də üç əlaməti var; pis yoldaşdan uzaq gəzmək, yalandan çəkinmək və günahı tərk etmək. Bədbəxtin də üç əlaməti var; haram tikə yemək, alimlərdən uzaq gəzmək və əlinin altında işləyənlərə rəhm etməmək. Ağıllı insanın da üç əlaməti var; dünyanı tərk etmək, camaatın əziyyətinə dözmək, çətinliklər zamanı səbr etmək.

◘Həzrət Əliyə (ə) buyurub: "Xoşbəxt insanın üç əlaməti var; öz vətənində halal ruzi, alimlərlə yoldaşlıq və beş ədəd gündəlik vacibi namazları camaatla qılmaq. Bədbəxt adamın da üç əlaməti var; haram yemək, alimlərdən uzaq gəzmək və namazı tək qılmaq."

◘Qəlblər üç növdür; dünyaya bağlı olan qəlb, axirət tələbində olan qəlb və Allaha aşiq olan qəlb. Dünyaya bağlı olan qəlb daim çətinlik və bəla içərisində olar. Axirət tələbində olan qəlb uca dərəcələrə çatar. Allaha aşiq olan qəlbin də ki, həm dünyası var, həm axirəti, həm də Allahı.

## BEŞİNCİ FƏSİL

### *Digər tərzdə olan hədislər*

◘Allah-təala Peyğəmbərə (s) vəhy edib buyurdu: "Ey Məhəmməd! Dünyada Məndən ötrü sevimli olan üç şey var; şakir qəlb, zakir qəlb, bəla və müsibətlər qarşısında sabir olan bədən."

◘Başqa bir hədisdə də var ki, Allah Öz bəndələrində üç xüsusiyyəti sevir; imkan və qüdrət daxilində bəxşiş, günahdan peşman olan zaman ağlamaq, fəqirlik və yoxsulluq zamanı səbr etmək.

◘Cəbrail (ə) buyurub: “Mən dünyada üç şeyi sevirəm; yolunu azmışa (itən şəxsə) yolu göstərmək, zərər çəkmişə kömək, zavallı insanlarla dostluq edib onlara məhəbbət göstərmək.”

◘Başqa bir hədisdə var ki, Cəbrail (ə) buyurub: “Mən sizin dünyanızdan üç şeyi sevirəm; yolunu azanları hidayət etmək, qəriblərlə ülfət yaratmaq və ailə sahibi olan kasıblara kömək göstərmək.”

◘Peyğəmbər (s) buyurub: “Mən sizin dünyanızdan üç şeyi sevirəm; ətir, qadın və gözümün işığı olan namazı.” (Dünya dedikdə məqsəd dünyada həyata keçən əməllərdir. Baxmayaraq ki, Allah və axirət qəsdi ilə yerinə yetirilir.)

◘Mənim dünyada üç işdən xoşum gəlir; yayda oruc tutmaq, (Allah yolunda) qılınc vurmaq və qonaq qəbul etmək.

◘Mənim üç əməldən xoşum gəlir; məscidə getməkdən, alimlərin məclisindən və meyyit namazından.

◘Dindən zülal və saf olanları götür (yəni dindən olub-olmadığı məlum olmayan məsələləri dindən hesab etmə), həyat və yaşayışından kifayət qədərini götür, zülm və sitəmdən isə uzaq gəz. Çünki ömür qısa, əməllərin sərrafı isə görəndir.

◘Allah üç şeyi sevir; az danışmaq, az yatmaq və az yemək.

◘Allahın üç şeydən acığı gəlir; çox danışmaq, çox yatmaq və çox yemək.

Allah-təalanın üç işdən xoşu gəlir; dini vəzifələri yerinə yetirmək, camaatla təvazökar olmaq və Allah bəndələrinə yaxşılıq etmək.

◘Üç şey peyğəmbərlərin sünnə və qanunlarındandır; təharət və paklıq, evlənmək və pəhrizkarlıq.

◘Üç şey axmaqlıq əlamətidir; həddindən çox zarafat etmək, lazımsız şeylərə baş qarışdırmaq, tünd xasiyyətli və acıqlı olmaq.

◘Üç şey cəhənnəm əhlinin xüsusiyyətlərindəndir; təkəbbür, özünübəyənmə, bədxasiyyətlik.

◘Üç iş dostluq və rəfaqəti xalis və tərtəmiz edər; dostun eyiblərini ona bildirmək, o, olmayanda onun abır və heysiyyətini qorumaq və çətinlik zamanı ona yardım göstərmək.

◘Üç kəs Qiyamətdə qorxmaz; xalis mömin, yaxşılığın əvəzini verən, ədalətli rəhbər.

◘Üç kəslə bədbəxt insanlardan başqa heç kəs müxalifətçilik etməz; biliyinə əməl edən alim, dərrakəli və düşüncəli aqil və ədalətli rəhbər.

◘Üç kəsdən ötrü qeybət yoxdur (yəni, qeybət üç kəsə aid edilməz); zalım rəhbər, aşkar fasiq, şərab içən.

◘Qiyamət günü Allah üç kəsə nəzər salmaz, onlarla danışmaz və onları dərdli əzaba düçar edər. Biri elmindən mal-dövlət cəm etməkdən ötrü istifadə edən, harama şübhə yaratmaqla əməl edən, (məsələn, qeybət edir sonra öz qeybətinə bəraət qazandırır, yalan deyir sonra belə məsləhət olduğunu bildirir və s.) və qonşunun arvadı ilə zina edən.

◘Üç kəs hamıdan birinci behiştə gedər; Allah yolunda şəhid olan kəs, qul olduğu dövrdə də öz dini vəzifələrini yerinə yetirən qul, ailə sahibi olan həyalı fəqir.

◘Allah üç kəsi özünə düşmən bilir; biri sədəqə verərkən minnət qoyan şəxs, ikincisi rifah halında olmasına baxmayaraq simiclik göstərən şəxs, üçüncüsü isə israfçı fəqir.

◘Üç nəfər hamıdan öncə oda daxil olar; camaata zülm və sitəm hesabına hakim olan hökmdar, zəkat verməyən varlı, günaha adət edən yoxsul.

◘Üç vəzifə var ki, bir nəfər də olsun ondan azad deyil; istər kafirlə, istərsə də müsəlmanla bağlanılan əhd və peymana vəfa etmək, istər kafir olsun, istərsə də müsəlman ata-anasına yaxşılıq etmək, istər müsəlman olsun, istərsə də kafir, əmanəti sahibinə qaytarmaq.

◘Hər kəsdə bu üç xüsusiyyət olsa onun imanı kamildir; ilahi vəzifələri yerinə yetirməkdə camaatın tənəsindən qorxmasın, heç bir işdə riya və təzahürə yol verməsin, axirət işlərini dünya işlərindən üstün tutsun.

◘Üç iş bütün ibadətlərdən üstündür; nəfslə cihad, həva-həvəsə hakim olmaq və dünyaya qarşı etinasızlıq.

◘Üç işi təxirə salmaq olmaz; namazın əvvəl vaxtını, meyitin dəfnini və münasib həyat yoldaşı tapıldıqda evlənməni.

◘Üç kəsin haqqını münafiqdən başqa heç kəs tapdalamaz. Onlardan biri tüklərini müsəlmançılıqda ağardan qoca, digəri ədalətli rəhbər və üçüncüsü isə insanları xeyrə dəvət edən kəsdir.

◘Allah-təala üç kəsi hurul-eynlə evləndirər. Onlardan biri camaatın şahid olmadan ona verdikləri əmanətini qaytaran şəxs, digəri öz qatilini əfv edən, üçüncüsü isə hər namazdan sonra on dəfə İxlas surəsini oxuyan şəxsdir.

◘Üç kəsin qeybəti günah sayılmır; aşkar şəkildə günah edən şəxsin, zülmkar qazinin və dediyi ilə əməli uyğun gəlməyən münafiqin.

◘Təkcə o alimlə oturub-durun ki, sizi üç pis xislətdən üç ali xüsusiyyətə – təkəbbürdən təvazöyə, etinasızlıqdan xeyirxahlığa və nadanlıqdan elm və biliyə dəvət etsin.

◘İnsan nəfsini xarab edən üç şeydir; təkəbbür, hərislik və həsəd. Təkəbbür dini xarab edər, necə ki, şeytanı lənətə düçar etdi. Hərislik canın düşmənidir və Adəmi behiştdən çıxartdı. Həsəd bədbəxtlik gətirər və məhz həsəd Qabili Habilin qatili etdi.

◘"Həfat" (هفات), "həfat" (حفات) və "nəfat"( نفات) kişidən Allaha pənah! Birincisi odur ki, dildə dostdur, qəlbdə düşmən. İkincisi yerli-yersiz çox danışan adamdır. Üçüncüsü isə deyib əməl etməyəndir.

◘Əvvəli "Bismillahir-rəhmanir-rəhim"lə başlayan dua geri qaytarılmaz (əlbəttə ki, sair şərtləri ilə). Mənim ümmətim Qiyamət günü dillərində "Bismillah" olduğu halda daxil olarlar. Buna görə də yaxşı əməl tərəzilərinin gözü ağır olar. Deyərlər: "Məhəmməd (s) ümmətinin əməlləri nə ağır gəlir?!" Peyğəmbərlər cavab verib deyərlər: "Bu ümmətin hər sözünün əvvəli Allahın üç müqəddəs adı ilə başlanıb (yəni Allah, Rəhman və Rəhim). Əgər bu adlar tərəzinin bir gözünə, camaatın günahları isə digər gözünə qoyulsa bu müqəddəs adlar daha ağır gələr.

◘İbn Abbas deyir ki, bir gün Peyğəmbər (s) Kəbə evinə nəzər salıb buyurdu: “Afərin sənə! Nə böyük əzəmət və ehtirama maliksən! Lakin mömінin hörməti Allah qarşısında səndən daha artıqdır. Allah sənə qarşı bir ehtiram vacib bilib, lakin möminə qarşı üç ehtiram; canı möhtərəmdir, malı da möhtərəmdir və onun barəsində bəd gümanda olmaq qadağandır.”

◘Hər kəs Allahı tanısa ağzını haram sözlərdən qoruyar, qarnını haram yeməkdən saxlayar və bədənini də namaz və oruc vasitəsilə əziyyətə salar.

◘Qonşu üç cürdür; Bəzisinin bir haqqı var, bəzisinin iki haqqı, bəzisinin də üç haqqı. Birinci qonşu müşrikdir, ikincisi biganə müsəlman, üçüncüsü isə müsəlman qohum-əqraba.

◘Hər kəsdə üç xüsusiyyət olsa Allah ona Öz pənahında yer verər və Öz rəhmətini onun üçün genişləndirər. Soruşanda ki, bu hansı xüsusiyyətlərdir. Buyurdu: “Nemət zamanı şükür, qüdrət zamanı əfv, üçüncüsü isə qəzəblənən vaxt soyuqqanlı olmaq.”

◘İmanın ləzzətini o kəs dadar ki, Allahın allahlığını, İslamın həqqaniyyətini və Məhəmmədin (s) peyğəmbərliyini qəbul etsin.

◘Üç kəsin əcri (mükafatı) iki qatdır. Biri Məhəmmədə (s) iman gətirən əhli-kitabdır. (yəhudi və ya xristian), digəri Allahın və öz sahibinin haqqını yerinə yetirən qulam, üçüncüsü isə bir yataqda yatdığı kənizi gözəl tərbiyələndirib azad edən, daha sonra onunla evlənən kişi.

◘Üç kəs Qiyamət günü Allahın ərşinin kölgəsində qərar tutar; adil rəhbər, müntəzəm olaraq azan verən (və onu tərk etməyən) müəzzin və gün ərzində Qurandan iki yüz ayə oxuyan kəs.

◘Sənin dostun üç kəsdir; öz dostun, dostunun dostu və düşməninin düşməni. Düşmənin də üç nəfərdir; öz düşmənin, dostunun düşməni və düşməninin dostu.

◘Allah-təala buyurur: “Əgər bir bəndəmi xəstəliyə düçar etsəm və o da bir kəsə şikayət etməsə onun bədəninin ətini, dərisini və qanını əvvəlkindən daha yaxşısı ilə əvəz edərəm. Əgər həmin halda ölsə Mənim rəhmətimə qovuşar, yox əgər yaşasa günahlarını bağışlayaram.”

◘Əql üç qismdir. Hər kim hamısına sahibdirsə əqli kamildir. Hər kəs də heç birinə sahib deyilsə ağılsızdır. Onlar bunlardır; Allahı doğru-dürüst tanımaq, Ona yaxşı itaət etmək və vəzifəni yerinə yetirən zaman gözəl səbr etmək.

◘Üç şey işlərin ən üstünüdür; camaata qarşı insaflı olmaq, əldə olan mal-dövləti müsəlman qardaşlarla bölüşmək və hər bir halda Allahı yad etmək.

◘Üç günah var ki, onun cəzasını elə dünyadaca verərlər, axirətə saxlamazlar; ata-anaya əziyyət vermək, camaata zülm etmək və yaxşılıq müqabilində pislik etmək.

◘Üç şeyi çox yad edin ki, bəla və müsibətlər sizə asan görünsün; ölüm, qəbirdən çıxarılacaq vaxt və haqq-hesabdan ötrü Allah qarşısında dayanacağın gün.

## ALTINCI FƏSİL

## *Şiələrin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘Üç şey insanı xarab edər; əhd-peyman sındırmaq, sünnəyə müxalif olmaq və müsəlmanlardan uzaq gəzmək.Üç şey də insanın nicat tapmasına səbəb olar; dili saxlamaq, günahlardan ötrü ağlamaq və fitnə zamanı evdə oturmaq.

◘Üç dəstə insan var ki, sən onlara əziyyət etməsən də onlar sənə əziyyət verərlər; (ləyaqətsiz) qadınlar, nökərlər, alçaqlar. (Ona görə ki, bunlar rəftar qaydalarında orta həddə deyillər ki, başqalarının da hüquqlarını qorusunlar. Bunlar o kəsə oxşayırlar ki, vurmaq və ya öldürmək qəsdi ilə digərlərinə hücum edir, tərəf müqabili də məcburdur ki, ya vurub öldürsün, ya da ki, döyülüb öldürülsün.)

◘Behiştdə elə bir dərəcə var ki, həmin dərəcəyə adil rəhbər, qohumlarına yaxşılıq edən və səbirli ailə sahibi çatar.

◘Qiyamət günü üç gözdən başqa bütün gözlər ağlayar; Allah qorxusundan ağlayan göz, naməhrəmə baxmaqdan yumulan göz və Allah yolunda gecə yatmayan göz.

◘Həzrət Əliyə (ə) buyurub: “Qorxaqla məşvərət etmə, çünki yolu səndən ötrü çətinləşdirər. Simic insanla da məşvərət etmə, çünki o, səni

məqsədinə çatmağa qoymaz. Həris insanla da məşvərət etmə ki, səni hərisliyə və tamahkarlığa sövq edər. Bil, ey Əli! Qorxu, simiclik və hərislik (tamah) üçün də Allaha qarşı bədgüman olmaqda xülasələnən bir qərizədir. (yəni, Allaha qarşı bədgüman olmaq bu üç xüsusiyyətin mənşəyidir.)

◘Üç xüsusiyyət var ki, hər kəsdə olsa o, imanın bütün sifətlərinə malikdir; xoşhal olan zaman batil işlərə meyl etməsin, qəzəbli olan zaman Allahın qoyduğu hüdudları aşmasın və qüdrətli olduğu zaman da öz həddini aşmasın.

◘Üç nəfər var ki, Qiyamət günü Allah onlarla danışmaz, onları günahlardan paklaşdırmaz və onlara dərdli-qəmli əzab verər. Biri odur ki, təkcə dünyadan ötrü hər hansı bir rəhbərə beyət etsin və sonradan əgər məqsədinə çatarsa əhdinə əməl etsin, yox əgər çatmazsa peymanından boyun qaçırsın. Digəri odur ki, qaranlıqda hər hansı bir malı satarkən and içərək müştərini aldatsın və müştəri də ona inanıb həmin malı alsın. Üçüncüsü isə odur ki, biyabanda yol gedərkən suyu ola-ola yoldaşlarından gizlətsin.

◘Ehsan və yaxşılığın əvəzi hər bir ibadətin mükafatından tez verilər və zülmün cəzası da hər bir günahın cəzasından tez çatar. Təkcə bu eyib kifayət edər ki, sənin özündə ola-ola onu özündə görməyib başqalarında görəsən, camaatı özünün tərk edə bilmədiyin naliyiq əmələ görə danlayasan və yoldaşını bihudə sözlər və səmərəsiz işlər vasitəsilə yorub ona əziyyət verəsən.

◘Mənim əhli-beytimi sevməyən şəxs bu üç naqislikdən hansınasa sahibdir; münafiqdir, ya haramzadədir (yəni, haram yolla dünyaya gəlib), ya da nütfəsi heyz halında bağlanıb.

◘Üç haldan başqa gecə oyaq qalmaq yaxşı deyil; Quran oxumaqdan ötrü, elm öyrənməkdən ötrü və toy vaxtı.

◘Üç dua şübhəsiz qəbuldur; məzlumun duası (yəni, zalım barəsində etdiyi nifrin), müsafirin duası (əlbəttə, halal və səhih bir işdən ötrü səfər edən şəxsin duası) və ata-ananın övlad barəsində etdikləri dua.

◘Dünyanın bəzəyi üç şeydir; mal, övlad və qadın. Axirətin də zinəti üç şeydir; elm, pəhriz və sədəqə. Bədənin də yaraşığı üç şeydir; az

danışmaq, az yemək və az yatmaq. Əqlin də zinəti üç şeydir; səbir, şükür, sükut.

◘Əgər Adəm övladından ötrü üç bəla və giriftarlıq olmasaydı, heç bir şey onun başını əyməzdi; xəstəlik, fəqirlik və ölüm. Təəccüblü burasıdır ki, bunların olmasına baxmayaraq yenə dikbaşlıq edib boyun qaçırır.

◘Merac gecəsi Allah-təala Əli (ə)  barəsində mənə üç şey vəhy etdi: "Əli pəhrizkarların imamı, möminlərin başçısı, namaz qılanların öndə gedənidir."

◘Ya alim ol, ya tələbə, ya da alimləri özünə dost tut. Alimlərin düşməni olma ki, həlak olarsan.

## *Şiələrin Peyğəmbərdən (s) nəql etdikləri digər hədislər*

◘Həzrət Əliyə (ə) buyurub: "Ey Əli! Çox pis olan üç xüsusiyyətdən səni çəkindirirəm; həsəd, hərislik və yalan."

◘"Ey Əli! İşlərin ən üstünü üç şeydir; başqalarına qarşı insaflı olmaq, malını mömin qardaşlarla bölmək və həmişə Allahı yad etmək.

◘Ey Əli! Mömin dünyada üç şeylə şad olar; qardaşların görüşü ilə, oruc tutanda iftar zamanı və gecənin axırında etdiyi ibadətlə.

◘Ey Əli! Üç xüsusiyyət var ki, hər kəsdə olmasa işləri nizama düşməz: Günahdan çəkindirən təqva, camaatla keçindirən xoş xasiyyət və nadan insanları ağıllandıran hövsələ.

◘Ey Əli! Üç şey həqiqi imanın əlamətlərindəndir: Əl aşağı olan zaman infaq etmək, başqalarına qarşı insaflı olmaq və elm öyrənmək istəyənlərə elm öyrətmək.

◘Ey Əli! Üç xüsusiyyət şərəfli və üstün əxlaqdan irəli gəlir; səni naümid edənə bəxşiş vermək, səndən əlaqə kəsənlə əlaqə yaratmaq və sənə zülm edəni əfv etmək.

◘Ey Əli! Üç xüsusiyyət var ki, hər kim onlarla dünyadan getsə camaatın hamısından əfzəldir: Bütün vacibatlarını yerinə yetirən, insanların ən abidi olan (yəni, ən çox ibadət edən) və haram işləri tərk

edən. Belə şəxs insanların ən pəhrizkarıdır. Allahın ona nəsib etdiyinə razılaşan şəxs isə insanların ən varlısıdır.

◘Ey Əli! Üç iş var ki, bu ümmətin ona taqəti çatmır; əlində olanı mömin qardaşlarla bölmək, camaata qarşı insaflı olmaq və həmişə Allahı yad etmək (yəni, günahla rastlaşdığı zaman Allahı yad etməklə həmin günahı tərk etmək.)

◘Ey Əli! Üç dəstə insanla oturub durmaq qəlbi öldürər; alçaqlarla, valılarla və qadınlarla.

◘Ey Əli! İnsanların həlakətinə üç şey səbəb olar; həsəd, hərislik və təkəbbür.

◘Ey Əli! Üç şey qəlbi daşa döndərər: Musiqiyə qulaq asmaq, ov etmək, şahların və sultanların hüzuruna gedib-gəlmək.

◘Ey Əli! Dünyanın ləzzəti üç şeydədir; gen-geniş ev, gözəl kəniz və yaxşı minik.

◘Cəbrail mənim yanıma gəlib dedi: "Biz məlaikələr üç şey olan evə daxil olmarıq; it, heykəl və içinə sidik axıdılan qab."

◘Əmr be məruf və nəhy əz münkər edən, yaxud da xeyir dəllallığı ilə məşğul olan kəs əməl edənin savabı ilə şərikdir.

◘Yer üzərində baş verən işlərin heç birindən üç işdən şikayət etdiyim kimi Allaha şikayət etmirəm; qərib və yad adamın qanının tökülməsindən, zinadan sonra edilən qüsuldan və günəşdən qabaq olan yuxudan (yəni, sübh namazını qəzaya verən yuxu).

◘Mən bu kəslər üçün behiştin yuxarısında, ortasında və aşağısında üç evə zaminəm; müzakirə zamanı höcət etməyən, hətta zarafatla da olsa yalan danışmayan və xasiyyəti gözəl olan.

◘Allah üç şeyi möhtərəm bilib və hər kim də onların hörmətini qorusa Allah da onun din və dünyasını hifz edər və hər kim onların haqqına riayət etməsə Allahın hifzindən binəsib olar. Birincisi İslam, ikincisi mən və üçüncüsü isə mənim əhli-beytimdir.

◘Peyğəmbər (s) səfərlərinin birində bir karvana rast gəldi. Salam verdi və buyurdu: "Sizin dininiz nədir?" Dedilər: "Möminik." Buyurdu: "İmanınızın əlaməti nədir?" Ərz etdilər: "Allahın qəza və qədərinə razılıq, Onun qarşısında təslim olmaq və işlərimizi Onun öhdəsinə qoymağımız (yəni, Ona təvəkkül etməyimiz). Buyurdu: "Sizlər alim və hikmət sahiblərisiniz. Hikmətinizin çoxluğundan peyğəmbərlərə bənzəyirsiniz. Elə isə, əgər doğru deyirsinizsə həmişəlik qalmayacağınız evə bel bağlamayın, yeyə bilməyəcəyiniz şeyi cəm etməyin və axır dönüşünüz Ona tərəf olacaq Allahdan qorxun!"

◘Üç dəstə insan şəfaət edər və onların şəfaəti də qəbul olunar; peyğəmbərlər, şəhidlər və alimlər.

◘Abdullah Məsud deyir ki, Peyğəmbərdən (s) soruşdum: "Allah yanında ən sevimli əməl hansıdır?" Buyurdu: "Əvvəl vaxtda qılınan namaz." Dedim: "Ondan sonra?" Buyurdu: "Ata-anaya yaxşılıq." Dedim: "Ondan sonra?" Buyurdu: "Allah yolunda cihad.

◘Mənim öz ümmətimdən ötrü ən çox qorxduğum üç şey var; alimin xatası, münafiqin (mübahisə zamanı) Qurandan dəlil gətirməsi və boynunuzu sındıracaq dünyaya meyl etməyiniz. Elə isə, dünyaya ittiham gözü ilə nəzər yetirin (və ona ürək bağlamayın).

◘Allaha və axirət aləminə imanı olan şəxs üzərində şərab olan süfrə kənarında oturmasın, hər kəsin Allaha və cəza gününə imanı varsa (çılpaq) fitəsiz hamama getməsin və hər kəsin Allaha və Qiyamətə imanı varsa arvadını hamama getməyə qoymasın (əxlaqi fəsadlara səbəb ola biləcək xüsusi hamamlara).

◘Özümdən sonra ümmətim üçün üç şey barəsində nigaranam; Quranın yanlış təvili (açıqlanması), alimin səhvinə itaət etmək, tüğyan və əyyaşlığa səbəb olacaq mal çoxluğu. Mən bu təhlükələrdən nicat tapmağın yolunu göstərirəm. Quran barəsində; onun möhkəm (mənası açıq-aşkar) ayələrinə əməl edin, mütəşabih (məzmunu aydın olmayan) ayələrinə iman gətirin. Alimlər barəsində; elmlərindən bəhrələnin səhvlərini araşdırmaqla məşğul olmayın. Dünya malı barəsində; bunun çarəsi budur ki, Allaha nemətlərinə görə şükr edin və onun (yəni, mal-dövlətin) vacib hüquqlarını (xums-zəkatını) yerinə yetirin.

◘İman ibarətdir: qəlbən etiqadlı olmaqdan, dillə təsdiq etməkdən və bədən üzvlərilə əməl etməkdən.

◘Ey Ənəs! (Həzrətin (s) xidmətçisi olub) dəstəmazı sevinc və həvəslə al ki, sirat körpüsündən asan keçəsən, hamıya salam ver ki, evində xeyir-bərəkət artsın və gizli sədəqə çox ver ki, Allahın qəzəbini sakitləşdirər.

◘Ey Əbuzər! Məbada dilənəsən! (Yəni, bir kəsdən bir şey istəyəsən,) bu həqiqi zillətdir! Elə bir fəqirlikdir ki, özün ona tələsmisən. Bu iş Qiyamət günü hesabın uzanmasına səbəb olar. Əbuzər! Sən tənha yaşayacaqsan, tənha öləcəksən və tənha behiştə varid olacaqsan. İraq əhlindən olan bir dəstə insan sənin bərəkətindən səadətə nail olacaqlar. Onlar sənə qüsul verib kəfənə bükəcək və torpağa tapşıracaqlar.

◘Ey Əbuzər! Əlini camaat qarşısında irəli uzatma. Amma əgər bir nəfər sənə ehsan etsə (yaxşılıq məqsədilə bir şey versə) onu geri qaytarma.

Daha sonra əshabına buyurdu: "İstəyirsinizmi ki, ən pis insanların kim olduğunu sizə göstərim?" Dedilər: "Bəli, ey Allahın rəsulu!" Buyurdu: "Onlar o kəslərdir ki, söz gəzdirirlər, dostların arasını vururlar və günahsızlara böhtan atırlar."

◘Xoş o kəsin halına ki, özünü kiçik tutur, malının çox hissəsini infaq edir və sözünün çox olmasından özünü qoruyur.

◘Qədim zamanlarda üç dost düzənlikdə yol gedirdilər. Birdən yağış başladı. Dağın çatlaq hissəsinə pənah apardılar. Həmin çatlaq yer bir parça daş vasitəsilə örtüldü. Onlar bir-birlərinə dedilər: Bura elə bir yerdir ki, düzlükdən başqa bir şey insana nicat verməz. Hər birimiz gərək dua edək və sırf Allah xatirinə yerinə yetirdiyimiz ən xalis əməlimizi yada salaq, ola bilsin ki, Allah fərəc yetirsin. Biri dedi: "İlahi, sən bilirsən ki, mənim bir işçim var idi ki, onun əl muzdu bir qab düyü idi. Müəyyən səbəblər üzündən həmin düyünü götürməyib getdi. Mən o düyünü əkdim və məhsulundan bir inək sürüsü aldım. Bir müddətdən sonra həmin işçi gəlib öz muzdunu tələb etdi. Mən ona dedim: "Bu inək sürüsü sənin muzdundur. Mənim səy və təlaşım sayəsində bu yerə çatıb. Götür, get." Həmin şəxs onu götürüb getdi. Pərvərdigara, sən bilirsən ki, mən bu işi səndən qorxduğum üçün yerinə yetirdim. Elə isə sən də bizim üçün fərəc yetir." O zaman bir az yol açıldı. İkincisi dedi:" Pərvərdigara, sən bilirsən ki, mənim qoca ata-anam var idi. Axşamlar qoyunlarımın südünü onlara aparırdım. Bir gecə gec getdim. Onlar artıq yatmışdılar. Öz arvad-uşağım da aclıqdan

nalə edirdilər. Lakin mənim adətim bu idi ki, ata-anam yeməsəydi, onlara yemək verməzdim. Bir tərəfdən ata-anamı oyatmaq istəmirdim, digər tərəfdən də qayıtmaq istəmirdim ki, birdən ayılıb süd içmək istəyərlər. Bu minvalla oturub gözləməyə başladım. O qədər gözlədim ki, səhər açıldı. Pərvərdigara! Əgər bilirsənsə mən bunu sənin qorxundan yerinə yetirmişəm, yolumuzu aç.” Yenə də daş bir az geri getdi və asiman göründü. Üçüncüsü dedi: “İlahi sən bilirsən, bir əmim qızı var idi ki, məni hamıdan çox istəyirdi. Mən ondan (zina yolu ilə) kam almaq istədim. O, qəbul etmədi. Yalnız yüz dinar ödəyəcəyim təqdirdə buna razı olduğunu bildirdi. Min bir zəhmətlə həmin miqdar pulu toplayıb ona təqdim etdim. O, hazır oldu. Məqsədimə çatmaq üçün ona yaxınlaşanda dedi: “Allahdan qorx və mənim mehriyyəmi rəva olmayan şeydən ötrü sındırma.” Yerimdən qalxdım. Yüz dinardan da gözümü çəkdim. İlahi! Əgər bilirsənsə ki, bu işi sənin qorxundan yerinə yetirdim, bizim üçün yol aç!” Onun sözü qurtaran kimi yol açıldı və onlar mağaradan çıxdılar. (Bu hədisi əhli-sünnə də fərqli ibarələrlə nəql etmişdir.)

◘Allah yanında işlərin ən sevimlisi namaz, ehsan (yaxşılıq) və cihaddır.

## YEDDİNCİ FƏSİL

## *Əmirəl-mömininindən (ə) nəql olunan şiə hədisləri*

◘Həzrət Əli (ə) buyurur: «İnsanlar üç cürdür; ağıllı, axmaq və dinsiz. Ağıllı insanın ayini din, xasiyyət və təbiəti mülayim, fitrəti isə rəydir. (Zahirən, məqsəd budur ki, işlərində məqsədyönlü fikrə və səhih rəyə malikdir.) Əgər soruşsalar cavab verər. Elə ki, ağzını açar düz söz deyər, qulaq asan zaman başa düşər. Söz danışanda yalan danışmaz. Ona arxayın olana xəyanət etməz. Lakin axmağa xeyirli bir iş təklif etsələr diqqət yetirməz, yaxşı iş göstərsələr tərk edər. Onu cahil-cahil işlərə dəvət etsələr qəbul edər. Danışanda yalan danışar, sözü düz başa düşməz, dərk etsə də diqqət yetirməz. Dinsiz insan isə əmanətə xəyanət edər. Ləyaqətsiz işləri sevir. Ona etibar edən şəxsdən ötrü xeyirxah niyyəti olmaz.»

◘Əql elə bir ağacdır ki, kökü təqva, budaqları həya, meyvəsi zöhd və pəhrizkarlıqdır. Təqva üç şeyə dəvət edir; dini öyrənməyə, dünyaya qarşı etinasız olmağa və Allahdan başqa hər şeydən qırılmağa. Həya da insanı üç xüsusiyyətə tərəf çəkir; yəqinə, xoş əxlaqa və təvazöyə.

Pəhrizkarlıq da insanı üç işə dəvət edir; doğru danışmağa, xeyir işə tələsməyə və şübhəli işləri tərk etməyə.

◘Üç şey insanı həlak edər: Padşah qarşısında öz gücünü göstərməyə cürət etmək, xainə əmanət tapşırmaq və sınaqdan keçirmək üçün zəhəri içmək.

◘Qadın üç yolla insana halal olur: Daimi əqdlə, müvəqqəti əqdlə və kənizlik vasitəsilə.

◘Üç şey müsəlmanı kamal həddinə çatdırar: Dini öyrənib başa düşmək, öz güzəranında müəyyən ölçüyə riayət etmək və xoşagəlməz hadisələr müqabilində səbr etmək.

◘İbn Bəbaveyh "Xisal" kitabında nəql edir ki, bir kişi Həzrət Əlinin (ə) yanına gəlib ərz etdi: "Öz Allahını necə tanıdın?" Həzrət (ə) buyurdu: "İstək, iradə və qərarlarımın aradan getməsi ilə. Bəzən hər hansı bir iş görmək istədikdə gözlənilmədən bir qüdrət mənim və məqsədimin arasına daxil olur. Qərar qəbul edirəm təqdir əli onu qarışdırır. Bu yolla dərk edirəm ki, işlərin idarəsi başqa bir əl vasitəsi ilə həyata keçir." Soruşdu: "Allahın nemətlərinin şükrünü necə yerinə yetirirsən?" Həzrət (ə) buyurdu: "Fikir verib görürəm ki, məni başqalarının düçar olduğu bəlalardan qurtarıb və başa düşdüm ki, bu Allahın nemətidir. Beləliklə də vəzifəmin şükr etmək olduğunu bildim." Soruşdu: "Allahın görüşünə müştaq olmağın necədir?" Həzrət (ə) buyurdu: "Gördüm ki, məndən ötrü din, məlaikələr və peyğəmbərlər seçib. Başa düşdüm ki, mənə belə bir iftixar nəsib edən məni heç vaxt unutmaz; beləliklə də, Onun görüşünü sevdim."

◘Üç şey öldürəndir; simiclik, həvəs və özünübəyənmə. İmanın üçdə biri həya, üçdə biri əhdə vəfa və üçdə biri də səxavətdir.

◘Məhəmməd ibn Hənəfiyyəyə öz nəsihətnaməsində buyurur: "Özünübəyənmədən, bədxasiyyətli olmaqdan və səbirsizlikdən çəkin. Bu xüsusiyyətlər səndə olsa özünə heç bir dost tapa bilməzsən və camaat da həmişə səndən uzaq gəzər. Özünü camaatı sevməyə, onlarla xoş davranmağa məcbur et, onlara kömək etməyə daim hazır ol. Malını və canını dostundan əsirgəmə. Hamı ilə xoş üzlə və məhəbbətlə davran. Düşməninə qarşı ədalətli və insaflı ol. Hamının qarşısında dininə və abır-heysiyyətinə qarşı simic ol ki, həm dinin salamat qalsın, həm də dünyan.

◘Bir hədisdə nəql olunur ki, Osman öldürüldükdən sonra və xilafət həzrət Əliyə (ə) çatan zaman bir səhra ərəbi imamın (ə) hüzuruna gəlib dedi: "Ey Əmirəlmöminin! Üç xəstəliyə düçar olmuşam: bədən ağrıları, kasıbçılıq və avamlıq." Həzrət (ə) buyurdu: "Ey qardaş! Bədəninin xəstəliyindən ötrü gərək təbibə müraciət edəsən, kasıbçılığından ötrü isə kərəm sahibinə. Cəhalət xəstəliyindən ötrü də ki, gərək alimə müraciət edəsən." Dedi: "Ey Əmirəlmöminin, sən həm təbibsən, həm kərimsən, həm alim." Həzrət (ə) göstəriş verdi ki, beytül-maldan ona üç min dirhəm pul versinlər və buyurdu: "Min dirhəmi bədənin müalicəsi üçün, min dirhəmi fəqirliyindən ötrü və min dirhəmi də savadlanmağından ötrü xərclə."

◘Bir nəfər Əlini (ə) qonaq dəvət etdi. Həzrət (ə) buyurdu: "Bir şərtlə ki, üç işdən ötrü öhdəçilik qəbul edəsən: Evində olmayan bir şey alıb hazırlamayasan, nəyin var əsirgəməyəsən və ailənə sıxıntı verməyəsən." Ərz etdi: "Qəbul etdim." Həzrət də qəbul etdi.

◘İbn Bəbaveyh həzrətdən (ə) müfəssəl bir hədis nəql edib. Münasib məqam olduğuna görə biz də onun bir hissəsini nəql edirik: "Məsciddə Əli (ə) buyurdu: "Nə qədər ki, sizin aranızdan getməmişəm, hər nə istəyirsiniz məndən soruşun." Məscidin axırından bir kişi qalxıb yaxına gəldi və ərz etdi: "Ey Əmirəlmöminin, məni elə bir işə hidayət et ki, onu yerinə yetirsəm Allah mənə oddan nicat versin." Buyurdu: "Ey kişi! Qulaq as, düzgün başa düş və yəqinin olsun. Dünyanın davamı üç kəsin varlığından asılıdır: Elminə əməl edən bəlağətli nitqi olan alim, dövlətinin müəyyən hissəsini müsəlmanların istifadəsindən əsirgəməyən varlı və fəqirliyinə qarşı səbirli və dözümlü olan kasıb. Elə isə əgər alim öz elmini yaymadı, dövlətli simiclik etdi və kasıb səbrini əlindən verdi, həlakət zamanı çatmışdır. Həmin zaman Allahı tanıyanlar dövranın geri getdiyini, küfrün yenidən meydana gəldiyini dərk edərlər. Həmin dövrdə məscidlərin çoxluğuna, bədənlərin yaxın, qəlblərinsə uzaq olduğu cəmiyyət çoxluğuna aldanma!

İnsanlar üç dəstədir: Mömin, hövsələli və dünyaya həris. Mömin nə dünyanın ona üz tutmasından sevinər, nə də ondan üz döndərməsindən qəmgin olar. Hövsələli adamın ürəyində dünya təmənnası var, lakin əlinə gələndən gözünü çəkməyi də bilir. Çünki dünya malının axırının nə olduğunu bilir. Lakin hərisin heç bir qorxusu yoxdur ki, dünya malını halaldan əldə edib, ya haramdan." Soruşdu: "Həmin dövrdə mömininin əlaməti nədir?" Buyurdu: "Diqqətlə baxar, Allahın göstəriş

verdiyi hər bir hökmü yerinə yetirər, Onun razılığına xilaf olan işlərdən isə özünün xoşu gəlsə də çəkinər.” Doğru dedin, ey Əmirəl-möminin.”

Həmin kişi “doğru dedin, ey Əmirəl-möminin” deyib qeyb oldu. Nə qədər axtardılarsa da onu tapmadılar. Həzrət təbəssüm etdi və dedi: “Kimin dalınca gəzirsiniz? Bu mənim qardaşım Xızr idi.”

◘Əmirəl-möminin (ə) buyurur: “Üç şey insanı əldən salar: Kasıbçılıq, qorxu və qəm-qüssə. Üç şey də ruhu dirildər: alimlərin söhbəti, dostlarla görüş və heç bir sıxıntı olmadan güzəran keçirmək.”

◘Bütün xeyirlər üç şeydə cəm olub: Təfəkkür, sükut və danışıqda. Lakin təfəkkür ibrətalma olmazsa heçdir, fikir və düşüncəsiz sükut qəflətdir və Allahın zikri olmazsa danışıq da faydasızdır.

◘Allah üç nəfərin qazancından bərəkəti götürüb: İnsan satanın, dişi inək kəsib satanın və ağac kəsənin.

◘Üç halda dostunun haqqını yerinə yetirməyənə dost demək olmaz: Çarəsizlik halında, qeybəti olunan zaman və ölümündən sonra.

◘Biz vəzifəyə təyin olunmuş sülaləyik: Gərək acları doyuraq, miskinlərə kömək edək və camaat yuxuya gedəndə də namaz qılaq.

◘Allah yanında hamıdan üstün ol, öz gözündə hamıdan pis. Camaatın nəzərində isə bu ikisindən biri kimi ol.

◘Abdullah ibn Məsud o həzrətdən nəql edir: “Allahın vacibatını yerinə yetir ki, hamıdan daha abid olasan, günahları tərk et ki, hamıdan daha zahid olasan və Allahın qismətinə razı ol ki, hamıdan daha artıq ehtiyacsız olasan.

◘Hər kəsə yaxşılıq etsən onun sərvərisən, hər kəsə ehtiyacın olmasa onunla bərabərsən və hər kəsdən öz ehtiyacını istəsən onun əlaltısısan.

◘Üç şey hafizəni qüvvətləndirər və bəlğəmi aradan aparar: Misvak, oruc və Quran oxumaq.

◘Dünya aldadar, ziyan verər və keçib gedər.

◘Ey elm tələbində olan! Hər bir şeyin nişanəsi həmin şeyin (varlığının) şahididir. Dinin əlaməti üç şeydir: İman, Allaha etiqad, məlaikələr və peyğəmbərlər.

◘Elmin üç nişanəsi var: Allahı tanımaq, Allahın istədiyi şeyləri tanımaq və Onun istəmədiklərini tanımaq.

◘Əməlin də üç nişanəsi var: Namaz, oruc və zəkat.

◘Mənliyi olmayan şəxsin üç əlaməti var: Özündən üstün olan şəxslə mübahisə və höcət edər, bilmədiyi sözü danışar və heç vaxt çata bilməyəcəyi şeylərin ardınca gedər.

◘Münafiqin üç əlaməti var: Dili qəlbindən fərqlidir, danışığı əməli ilə düz gəlmir və gizlini aşkarı ilə uyğun deyil.

◘Zülmkarın üç əlaməti var: Özündən böyüyün göstərişinə itaət etməz əlaltılarını sıxışdırar və zülümkarlara kömək edər. Riyakarın da üç əlaməti var: Təklikdə tənbəl və süst, camaat arasında isə fərəhli və gümrahdır və camaatın xoşladığı hər bir işi böyük həvəslə yerinə yetirər.

◘Qafilin üç əlaməti var: İnsanı oyadan şeylərə diqqət yetirməz, başı həmişə qarışıq olar və unutqan olar.

◘Allahın hər gecə üç qoşunu olur. Birinci qoşun ataların belindən anaların rəhminə daxil olur, ikincisi rəhmlərdən dünyaya gəlir, üçüncüsü isə dünyadan axirətə köçür.

◘Dünya üç gündür. Onun dünənində olan hər bir şey keçib gedir və heç vaxt qayıtmır. Bu gününü gərək qənimət biləsən. Sabahına da ki, məlum deyil çatacaqsan ya yox. Dünən ədəb öyrədən həkimdir. Gərək onun təcrübəsi bu günü işıqlandırsın. Bu gün vida halında olan dostdur. Sabahsa, sadəcə olaraq, bir arzudur. Ona da ki, bəlkə çata bildin.

◘Qadınların ən yaxşı xüsusiyyətləri kişilərin ən pis xüsusiyyətləridir. Yəni, kibr, qorxu və simiclik. Bu xüsusiyyətlər qadında olarsa onun öz iffətini və ərinin malını qorumasına, kişidə olarsa onun bədbəxtliyinə və geridə qalmışlığına səbəb olar.

◘Rəiyyətə və əlaltılarına qarşı xoşniyyət və tamahsız ol və pəhrizkar ol ki, ədalətlə davrana biləsən.

◘Elə bir dövr gələr ki, hakimiyyət yalnız dava-dalaş və zülmlə əldə olunar. Sərvət yalnız simicliklə cəm olunar. Dostluq yalnız dostun istəklərini qəbul etmək və dini göstərişləri tərk etməklə müyəssər olar. Hər kim ki, bu dövrə yetişib sərvət toplamağa qüdrəti olduğu halda kasıbçılığa razı olsa, qeyri-şəri yolla izzət sahibi olmaq imkanı olduğu halda bundan imtina etsə və müəyyən şəxslərin məhəbbətini cəlb etməkdənsə onların qəzəbinə üstünlük versə, Allah-mütəal ona əlli siddiqin əcrini (savabını) əta edər. (Siddiq o şəxslərə deyilir ki, peyğəmbərlərin danışığını təsdiq edir və öz rəftarlarını onların davranışları ilə uyğunlaşdırırlar.)

◘Hər kəs ki, uzun ömür sürmək istəyirsə sübh tezdən yemək yesin, yüngül paltar geyinsin və qadınlarla az yaxınlıq etsin.

◘Ümid bəsləmədiyin şeyə intizarında olduğun şeydən daha çox ümidvar ol. Musa (ə) yoldaşı üçün od götürməyə getdi, Allah onunla danışdı və onu peyğəmbərliyə seçdi. Səba şəhərinin mələkəsi Süleyman peyğəmbərlə (ə) görüşməyə getdi, ona iman gətirdi və azğınlıqdan nicat tapdı. Fironun cadugərləri onun səltənətini qüvvətləndirmək məqsədi ilə getdilər, Allaha əqidə ilə geri döndülər.

◘Kumeylə vəsiyyətində buyurur: “Bu qəlblər qabdır. Hamısından yaxşısı tutumu çox olanıdır. Dediklərimi yadında saxla! İnsanlar üç dəstədir: Allahpərəst alimlər, nicat yolun yolçusu olan elm öyrənən və hər hansı sədanın dalınca getsə də, hər hansı bir küləyin ardında əssə də elm nuru əldə edə bilməyən və möhkəm bir dayağa söykənməyən dəyərsiz axmaq. Ey Kumeyl! Elm maldan üstündür. Elm səni qoruyur, malı isə sən qoruyursan. Bəxşiş və əliaçıqlıq malı azaldır, elmi isə artırır. Alim hökmü icra edəndir, mal da hökmün məcrası. Alimlə dostluq etmək dinin bir hissəsidir və Allah bu iş müqabilində insana savab verir. Elm dünyada camaatın itaətinə, öləndən sonra yaxşı ada səbəb olar. Ey Kumeyl! Sərvət yığanlar yaşasalar da ölüdürlər, elm tələbində olanlar isə ölümdən sonra da yaşayırlar. Onların bədənləri gözlərin önündən gedirsə də görkəmləri və qiyafələri qəlblərdə mövcuddur. Ah! Ah! Bura (mübarək sinəsinə işarə edərək buyurdu) elmlə doludur. Kaş liyiqli kəslər tapaydım ki, onu qəbul edəydilər. Lakin elə insanlara düçar olmuşam ki, ya tez öyrənirlər, lakin arxayın kəslər deyillər, dindən dünya işləri üçün istifadə edirlər, Allahın

hökmlərindən onun bəndələri ilə mübarizədə istifadə edirlər, Allahın nemətlərindən onların (həmin nemətlərin) ziddinə istifadə edirlər, yaxud da elə insanlardırlar ki, haqq əhli müqabilində ramdırlar, amma kordurlar, görmürlər və bəsirət sahibi deyillər. Kiçicik şübhə olduqda şəkkə düşürlər. Nə birinci dəstənin təlimdən ötrü ləyaqəti var, nə də ikinci dəstənin. Üçüncü bir dəstə də var ki, yalnız istəklərinə nail olmaqdan ötrü çalışırlar. Öz cilovlarını şəhvətlərinə tapşırıblar. Onlar mal-dövlət dəlisidirlər ki, dinin hörmətini saxlamırlar və adamlıqları yoxdur, özləri də dördayaqlılar kimidirlər. Bəli! Elmin yoxluğu belədir! Alim ki, olmadı elm öləcək. Lakin belə deyil ki, yer Allahın hüccətindən xali olsun. Hər bir əsr və zamanda elə kəslər var ki, sayları azdır, lakin, Allah yanında olan qədir-qiymətləri çox. Bunlar haqqın nişanələrinin keşikçiləridir. Allah Özünün aşkar dəlillərini onlar vasitəsilə qoruyar və beləliklə, onlar da digər hüccətlərə çatdırar, həmin toxumları onların pak qəlblərinə səpərlər. Onların elmi işlərin həqiqətindən agahdır və onlar yəqin ruhuna malikdirlər. Çətinliklər əyyaşların nəzərincə çətin, lakin onlar üçün asandır. Ağılsızlardan ötrü qorxu və dəhşətə səbəb olan şeylər onlar üçün üns və ülfət vasitəsidir. Bədənləri dünyadadır, lakin ruhları isə ən ali məkanlardadır. Bunlar yer üzərində Allahın canişinləri və dinin mübəlliğləridirlər. Ah! Ah! Onları necə də görmək istəyirəm! Allah məni də, səni də bağışlasın. İndi isə, əgər istəyirsənsə qalxa bilərsən.

◘Alimin üç nişanəsi var: Elm, səbr və sükut.

## SƏKKİZİNCİ FƏSİL

## *İmam Sadiqdən (ə) nəql olunan hədislər*

◘Üç kəs hesabsız behiştə daxil olar: Ədalətli rəhbər, doğrucul tacir və əziz ömrünü Allaha itaətdə keçirən qoca. Üç kəs də ki, hesabsız cəhənnəmə varid olar: Zülümkar rəhbər, yalançı tacir və zinakar qoca.

◘Qiyamət günü Allah mömindən üç şeyin hesabını çəkməz: Yediyi yeməyin, geyindiyi paltarın və həyatı boyu ona kömək edən və onu haramdan qoruyan qadının. (Əlbəttə, bunların halaldan olduğu halda.)

◘Üç kəs Qiyamət günündə Allahın ərşinin kölgəsində olar. Biri odur ki, başqalarına qarşı insaflı olsun. Digəri odur ki, Allahın razı olub-olmadığını bilmədiyi bir işdən ötrü heç bir addım atmır. Üçüncüsü isə odur ki, nə qədər ki, bir eyibi özündə aradan qaldırmayıb, başqalarını həmin eyibə görə qınamaz. Belə bir kəs özünün hər hansı bir eyibini aradan qaldıran kimi digər bir eyibi gözünə görünür və beləliklə, başı

həmişə öz eyiblərinə qarışmış olur və başqalarının eyiblərini axtarmaqla məşğul olmur.

◘Üç iş var ki, əgər mömin onları öyrənsə ömrü uzun, neməti davamlı olar. Soruşdular: “Bu üç iş nədir?” Buyurdu: “Namazın ruku və səcdələrini uzatmaq, qonağı olan zaman süfrə başında çox oturmaq və ailə ilə xoşrəftar olmaq.”

◘Üç kəs Qiyamət gününün haqq-hesabı qurtarana qədər Allaha hamıdan yaxın olar. Birincisi qəzəblənən zaman əlində qüdrət olduğuna baxmayaraq əlaltılarına zülm etməyən, digəri iki nəfər arasında vasitəçilik edən zaman zərrə qədər də tərəfkeşlik etməyən, üçüncüsü isə zərər, yaxud xeyir görəcəyinin fərqinə varmadan haqqı deyəndir.

◘Elə ki, Allah qorxusundan və günahlarını yad etməklə bədənin titrədi, gözünün yaşı töküldü və ürəyin qorxdu, bu halı qənimət bil, çünki məqsədin yaxındır.

◘Bir kişinin ki, paxıllığı, həsədi və qorxusu var, onun imanı yoxdur. Mömin nə qorxaqdır, nə həris nə də simic.

◘Hər kəsdə üç xüsusiyyət olsa Allah istədiyi hər xüsusiyyətinə görə ona bir hurul-eyn nəsib edər. Birincisi budur ki, qəzəbini uda bilsin, ikincisi odur ki, Allah yolunda döyüşərkən aldığı qılınc yaralarına səbr etsin, üçüncüsü isə odur ki, əlinə haram mal düşsə Allaha görə onu yeməsin.

◘Mənim üç kəsə ürəyim yanır (və bunun yeri də var): Zillətə düşən əziz, dilənçiyə çevrilən dövlətli, axmaqlar və öz ailə üzvləri tərəfindən təhqir olunan və alçaldılan alim.

◘Allah üç şəxsi özünə düşmən bilir; zülmkar dövlətlini, zinakar qocanı və malı olan lakin təkəbbürlük üzündən onu Allah yolunda sərf etməyən kəsi.

◘Hər kəsin dili düz desə, əməli pak olsa və xoşniyyət olsa Allah onun ruzisini bol edər. Hər kəs də ki, ailəsi ilə xoş davransa Allah onun ömrünü uzadar.

◘Dünyaya bel bağlayan hər bir kəs üç şeyə mübtəla olar: Sonsuz qüssəyə, həyata keçməyən arzuya və qət olmayan ümidə.

◘Üç xüsusiyyət Allahın qəzəbinə səbəb olar: Gündüz yatmaq (gecə də yatarsa), səbəbsiz gülmək və tox halda yemək.

◘Hədiyyə üç cürdür: Biri hədiyyə müqabilində, digəri tərəf müqabili ilə xoş əlaqə yaratmaqdan örtü, üçüncüsü isə Allahın rizayətindən ötrü.

◘Küfrün üç kökü var: Hərislik, təkəbbür və həsəd (paxıllıq). Hərislik Adəmi Allahın ona qadağan etdiyi ağacdan meyvə yeməyə vadar etdi, təkəbbür şeytanı Adəmə səcdə etməyə qoymadı, həsəd isə Adəmin oğlunu öz qardaşını öldürməyə təhrik etdi.

◘Əhməd ibn Hənbəl deyir ki, İmam Sadiqdən (ə) soruşdum: "İnsan üçün ən üstün xüsusiyyət nədir?" Buyurdu: "Heç bir qorxunun əmələ gəlməsinə yol verməyən vüqar və böyüklük, əvəzinin intizarı olunmayan səxavət və bəxşiş və qeyri-dünyəvi işləri yerinə yetirmək üçün çalışmaq. (Yəni, insanın əsas məqsədi, hətta dünya işlərində də o biri aləmin xoşbəxtliyini təmin etmək olmalıdır.)

◘Üç iş israfdır: İşləyən zaman təzə paltar geyinmək, toxumu sağa-sola səpmək və suyun artığını tullamaq.

◘Nəhslik üç şeydədir: Qadında, dördayaqlıda və evdə. Qadının nəhsliyi mehriyyəsinin çoxluğunda və əri ilə yola getməməsindədir. Heyvanın nəhsliyi harınlıqda və minilməkdən imtina etməyindədir. Evin nəhsliyi isə onun darlığında, çoxlu çatışmazlığında və qonşuların pisliyindədir.

◘Üç kəs Qiyamət gününün hesabı qurtaranadək Allahın pənahında olar. Biri odur ki, heç vaxt zina fikrində olmayıb, digəri odur ki, heç vaxt malını ribaya bulaşdırmayıb və üçüncüsü odur ki, heç vaxt riba və zina üçün vasitəçilik etməyib.

◘Hər kəs üç halda olsa üç şeydən məhrum olmaz: Hər kəs dua etmək tövfiqi əldə edibsə nemət icabəti varıdır, hər kəsdə ki, təşəkkür etmək xasiyyəti varsa nemət çoxluğuna sahibdir və hər kəsdə ki, təvəkkül etmək xüsusiyyəti varsa, Allahın himayəsini əldə edib. Allah-təala buyurub: "Hər kəs Allaha təvəkkül etsə Allah ona bəsdir, əgər şükr etsəniz, sizə olan nemətlərimi artıraram." "Məni çağırın, Mən də sizə cavab verim."

◘Hər kəsdə bu üç xüsusiyyət olsa, imanın bütün sifətlərinə malik olar: Səbr, qəzəbi udmaq və xatalardan keçmək. Belə bir kəsi Allah hesabsız behiştə daxil edər və onun bir çoxları barəsində etdiyi şəfaəti qəbul edər.

◘Paltarına yamaq vuran, ayaqqabısını təmir edən və öz yükünü özü daşıyan şəxs təkəbbürdən uzaqdır.

◘Şeytan öz qoşununa dedi: "Əgər üç işdə Adəm övladına hakim ola bilsəniz daha qorxum olmaz, çünki bundan sonra onun heç bir əməli Allah dərgahında qəbul olunmaz. Bunlar xeyir işi böyük hesab etmək, günahı unutmaq və özünü bəyənməkdir."

◘Mütəal Allah buyurub: "Mən bəndələrimə üç nemət verməklə onların boynuna minnət qoymuşam. Biri budur ki, öləndən sonra onların bədəninə pis iy vermişəm. Əgər belə olmasaydı heç kəs öz yaxınlarını dəfn etməzdi. Digəri budur ki, bəla və müsibətləri onların yadından silirəm. Əgər belə olmasaydı həyat onlar üçün dözülməz olardı. Üçüncüsü isə budur ki, arpa və buğdaya həşərat daraşdırıram ki, səltənət sahibləri qızıl-gümüş yığdıqları kimi onları da yığıb saxlamasınlar.

◘Allah-təala Musaya (ə) belə vəhy göndərdi: "Bəndələrimin Mənə yaxınlaşma vasitəsi olan əməllərindən üçü Mənim üçün daha sevimlidir." Ərz etdi: "Onlar hansılardır?" Buyurdu: "Zöhd və dünyaya qarşı etinasızlıq, günahdan pəhriz etmək və Mənim qorxumdan ağlamaq." Ərz etdi: "İlahi, əgər birində bu üç xüsusiyyət olsa onun əcri nədir?" Vəhy olundu: "Zahidlər behiştdədirlər, ağlayanlar ən ali məqamda, pəhrizkarlarsa bütün insanlar arasında əməllərin təftişindən amandadırlar."

◘İmamət və rəhbərlik üç xüsusiyyətə malik olmayanlardan başqa heç kəsə layiq deyil: Günahdan qoruyan təqvaya, qəzəbi sakitləşdirə bilən helm və mehriban ata kimi rəiyyətin halına yanmaq.

◘Həzrət Yusifin köynəyində üç nişanə var idi ki, Quranda da bunlar yad olunub. Biri yalançı qan idi. Allah-təala buyurur: "(Qardaşları) onun köynəyini yalançı qana bulaşmış halda atalarının yanına gətirdilər." İkincisi arxadan cırılmağı idi ki, bu da Onun günahsızlığına dəlalət edirdi. Bu barədə də Quranda belə buyurulur: "(Misir hakiminin yaxınlarından biri dedi:) Əgər köynəyi öndən cırılıbsa qadın düz deyir

(və Yusif yalan, yox əgər arxadan cırılıbsa qadın yalan deyir, Yusifsə doğru). Üçüncüsü (Yaqubun iylədiyi zaman onun gözünə təsir qoyduğu) iydir ki, bu barədə də Quranda belə buyurulur: "(Yusif dedi:) Mənim bu köynəyimi aparın (və atamın) üzünə çəkin ki, gözü açılsın.

◘Ali-Davudun hikmətində yazılıb: "Hər bir kəs yalnız üç şeydən ötrü səfər edər; axirət tədarükündən ötrü, yaşayışını təmin etmək üçün, izzət və ləzzətdən ötrü." Sonra Həzrət Sadiq (ə) buyurdu: "Hər kim qəlbini dünyaya bağlasa xar olar."

◘Loğman oğluna dedi: "Ey oğul! Hər şeyin əlaməti var ki, sənə onları bəyan edirəm. Dinin üç nişanəsi var; elm, etiqad və əməl. İmanın üç nişanəsi var; Allahı tanımaq, onun bəyəndiyi şeyləri tanımaq və Onun bəyənmədiyi şeyləri tanımaq. Ağıllı adamın üç əlaməti var; namaz, oruc və zəkat. Mütəzahirin (elmi Allahdan başqasından ötrü öyrədən) üç əlaməti var; özündən üstünlə çəkişər, heç bir elmi və məlumatı olmadan söz deyər və çata bilməyəcəyi şeylərin ardınca gedər. Zülümkarın üç əlaməti var; özündən üstün olana itaət etməz, əlaltılarını incidər və zülümkarlarla həmkarlıq edər. Münafiqin də üç əlaməti var; ürəyindəki ilə danışığı əməli ilə ürəyi və gizlini ilə aşkarı, bir-birinin ziddinədir. Günahkarın üç əlaməti var; zülm, yalan və sözünə xilaf çıxmaq. Riyakarın üç əlaməti var: Təklikdə (ibadətdən ötrü) halsızdır, camaat arasında fərəhlidir və hər bir işində gözü camaatın tərifindədir.

◘Paxılın üç əlaməti var: Dalca danışar (qeybət edər), üzdə yaltaqlıq edər, bəla və müsibət üz verən zaman isə insanı məzəmmət edər.

◘İsrafkarın üç əlaməti var: Lazımsız şeylər alar, öz şənindən yuxarı paltarlar geyər və özünə uyğun olmayan xörəklər yeyər.

◘Tənbəlin üç əlaməti var: Səhvə yol verənə qədər süstlük edər, iş əlindən çıxana qədər səhlənkarlıq edər və öz vəzifələrini o həddə qədər tərk edər ki, günaha mürtəkib olar.

◘Qafilin üç əlaməti var: Səhv (və faydası olmayan) işlərə baş qatmaq, yanlışlıq və unutqanlıq.

◘Sonra İmam Cəfər Sadiq (ə) buyurdu: "Bu əlamətlərdən hər birinin də ayrı-ayrılıqda şöbələri var ki, onların da elmi minə, minə, minə çatır. Elə isə ey Himad, (hədisi nəql edənə xitab) gecə və gündüz elm dalınca ol. Əgər gözünün aydınlığını, dünya və axirət xeyrini istəyirsənsə

gözünü onun-bunun əlinə dikmə və tamahı kökündən qır at. Özünü ölənlərin sırasında hesab et və özünü bir nəfərdən də olsun yuxarı sayma, malını hifz etdiyin kimi dilini də qoru!”

◘Üç iş var ki, heç kəs bu barədə üzürlü hesab olunmur: Pis adamın da yaxşının da əmanətini qaytarmaq, ataya–pis əməl sahibi də olsa, yaxşı əməl sahibi də olsa– yaxşılıq etmək, pislə də olsa, yaxşı ilə də olsa bağladığın əhd-peymana riayət etmək.

◘Hər gecə və gündüz Allahın bir məlaikəsi fəryad edib deyir: “Ey Allahın bəndələri! Günah etməkdən çəkinin! Əgər otlayan heyvanlar, südəmər körpələr və beli bükülmüş qocalar olmasaydı başınız üzərinə elə bir bəla nazil olardı ki, sümükləriniz bir-birinə keçib qırıq-qırıq olardı.

◘Üç vəzifə insanlar üçün olduqca ağırdır: Başqalarına güzəştə getmək, malı mömin qardaşlarla bölmək və Allahı çoxlu yad etmək.

◘Əməllərin ən yaxşısı üç şeydir: İnsanlara qarşı insaflı olmaq; bir həddə ki, özün üçün bəyəndiyin şeyləri onlar üçün də bəyənəsən. Öz malını mömin qardaşlarla bölmək və hər bir halda Allahı yad etmək. (Nəinki, hər bir halda “Subhanallahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər” demək, əksinə, zikrdə məqsəd vacibatı yerinə yetirib haramlardan çəkinməkdir.)

◘Üç şey olmazsa ehsan həqiqi hesab olunmaz; onu kiçik hesab etmək, gizlətmək və təcili yerinə yetirmək. Nə qədər kiçik hesab etsən tərəf müqabilinin gözündə o qədər böyük görünəcək, onu izhar etməsən kamil həddə çatacaq və nə qədər də tez yerinə yetirsən daha da gözəlləşər. Bu halların heç biri olmasa ehsan öz səfa və dəyərini itirəcək.

◘Osman Mədinə məscidinin qapısında oturmuşdu. Oradan bir fəqir keçirdi. Göstəriş verdi ki, ona beş dirhəm pul versinlər. Fəqir dedi: “Mənə bir yol göstər.” Dedi: “Məscidin küncündə oturan cavanların yanına get.” Orada İmam Həsən (ə), İmam Hüseyn (ə) və Abdullah Cəfər oturmuşdu. Fəqir onlara yaxınlaşıb köməklik istədi. İmam Həsən Müctəba (ə) buyurdu: “Dilənmək üç haldan başqa hallarda rəva deyil: Ağır qanbahası ödəməkdən ötrü, böyük borcdan ötrü və insanı taqətdən salan fəqirlik səbəbi ilə. Sən bunların hansına düçar olmusan? “ Dedi: “Onlardan birinə.” İmam Həsən (ə) göstəriş verdi ki, ona əlli dinar

versinlər. İmam Hüseyn (ə) da ona qırx doqquz dinar, Abdullah Cəfər də qırx səkkiz dinar əlavə etdi. Fəqir qayıtdı. Osman soruşdu: "Nə etdin?" Dedi: "Mən səndən istədim, sual-cavabsız mənə beş dirhəm verdin. Lakin o uzun saçlı cavandan istədim aramızda belə bir söhbət oldu." Osman dedi: "Bunlar kimi cavan haradan tapa bilərsən?! Bunların elmlə dolu sinələri, xeyir və hikmətlə dolu qəlbləri var."

◘Dilənməkdən çəkinin, çünki o, dünyada xar olmağa, tez gəlib yetişən fəqirliyə və Qiyamət günü haqq-hesabın uzun çəkilməsinə səbəb olar.

◘Üç şey möminin asayişinə səbəb olar: Eyib və sirləri örtən geniş ev, dünya və axirət işlərində ona kömək edəcək qadın, ölüm və ya evlənmək vasitəsi ilə evdən çıxıb gedən bacı və ya qız. (Çünki onların evdə qalmağı narahatçılığa səbəb olar.)

◘Vəlid ibn Səbih deyir: İmam Sadiqin (ə) xidmətində idim. Onun qabağında böyük bir qabda xurma var idi. Bir dilənçi gəldi. Xurmanın bir miqdarını ona verdi. Sonra bir dilənçi də gəldi. Ona da bir qədər xurma verdi. Üçüncüsü də gəldi. Həzrət (ə) buyurdu: "Allah artıq etsin." Sonra buyurdu: "Əgər bir nəfərin otuz-qırx mini (dirhəmi, yaxud dinarı) olsa və hamısını da düzgün və səhih yolda məsrəf etsə, yoxsul həddinə çata bilər. Lakin o, üç nəfərdən biri olacaq ki, onların da heç birinin duası qəbul olunmaz." Dedim: "Sənə qurban olum, onlar kimlərdir?" Buyurdu: "Biri odur ki, Allah ona kifayət qədər mal-dövlət verir və onu xərcləyib deyir: "İlahi, mənə ruzi ver!" Cavab gələr ki, məgər sənin ruzini vermədimmi?" İkinsici odur ki, öz arvadına nifrin edər. (Yəni, bir yerdə dolanmaq heç cür mümkün olmadığı halda ona talaq verib boşamaq əvəzinə nifrin edir.) Allah-təala buyurar: "Məgər onun talağını sənin əlinə verməmişəmmi?" Üçüncüsü odur ki, evdə oturub Allahdan ona ruzi verməsini diləyir. Xitab olunar: "Məgər ruzi kəsb etmək yolunu sənin ixtiyarında qoymamışammı?!"

◘Allahın bir bəndədən xoşu gəlsə ona nəzər edər və elə ki, nəzər etdi ona üç töhfədən birini hədiyyə edər; qızdırma, göz ağrısı, baş ağrısı. Peyğəmbər (s) buyurur: "Allah mənimlə danışdı və buyurdu: "Ey Məhəmməd! Elə ki, mənim bir bəndədən xoşum gəldi ona qarşı üç iş görərəm; qəlbini qəmgin, bədənini xəstə, əlini isə dünya malından xali edərəm." (Şübhəsiz, bu işlər bəndənin günahlarının bağışlanmasına və beləliklə də onun dərəcəsinin qalxmasına səbəb olar ki, bu da ilahi lütfün bir əlaməti hesab olunur.)

◘Əbu Həmzə deyir: “İmam Sadiqdən (ə) soruşdum: “Oruc barəsində Peyğəmbərin (s) sünnəsi nədir?” Buyurdu: “Hər ay üç gün; ayın birinci cümə axşamı günü, ayın ortadakı çərşənbə günü və ayın axırıncı cümə axşamı günü. Bu üç gündə oruc tutmağın savabı bir ömür oruc tutmağın savabına bərabərdir, çünki Allah-təala buyurdu: “Hər kəs bir yaxşı iş görsə, əvəzi on qatdır.” Əgər bir kəs zəiflik üzündən oruc tutmağa qadir olmasa sədəqə versin, çünki bir dirhəm sədəqə bir gün oruc tutmaqdan əfzəldir.

## DOQQUZUNCU FƏSİL

## *Şiə və sünnilərin İmam Sadiqdən (ə) nəql etdikləri hədislər*

◘Mədinənin fəqihi olan Malik ibn Ənəs (Əhli-sünnənin dörd məzhəbindən birinin imamı) deyir: “Mən İmam Sadiqin (ə) xidmətinə gedirdim. O, mənim üçün mütəkkə qoyur və ehtiram edərək deyirdi: “Mənim səndən xoşum gəlir.” Mən bu lütfdən çox xoşhal olur və Allaha şükür edirdim. O Həzrət həmişə üç haldan birində olurdu; ya oruc tuturdu, ya namaz qılırdı, ya da zikr edirdi. Zahid və abidlərin böyüyü idi və Allahdan hamıdan çox qorxurdu. Çoxlu hədis deyərdi. Çox faydalanmalı bir şəxsiyyət və yaxşı həmsöhbət idi. Hər zaman Peyğəmbərin (s) adı çəkilən zaman halı tanınmayacaq qədər dəyişilərdi, rəngi ya sarı olardı, ya da yaşıl. Bir il onunla Həccə getdim. Elə ki, Miqata (Məkkədə ehram bağlanılan yer) çatdı, nə qədər istədi “ləbbeyk” desin, mübarək səsi qəhər içində tutuldu və az qaldı ki, minikdən yıxılsın. Dedim: “Ey Allah rəsulunun övladı! Çarə yoxdur gərək “Ləbbeyk” deyilsin.” Buyurdu: “Ey Əbu Amirin oğlu! Hansı cürətlə “Ləbbeyk, Allahummə Ləbbeyk” (yəni, “Pərvərdigara, sənin dəvətinə cavab verirəm”) deyim?! Qorxuram “la ləbbeyk və la sədik” cavabı gələr və Allah məni qəbul etməz.”

◘Süfyan Suri deyir: “Həzrət İmam Sadiqə (ə) ərz etdim: “Mənə nəsihət edin!” Buyurdu: “Süfyan! Kim qövm və qəbiləsi olmadan izzət sahibi, heç bir malı olmadan ehtiyacsız və heç bir qüdrəti olmadan cəlal sahibi olmaq istəyirsə, gərək günah zillətindən itaət izzətinə daxil olsun.” Dedim: “Ey Allah rəsulunun övladı! Daha artıq buyurun!” Buyurdu: “Atam məni üç şeydən çəkindirərək buyurdu: “Övladım! Hər kim pis dostla oturub-dursa salamat qalmaz, hər kim münasib olmayan yerlərə getsə müttəhim olunar və hər kim dilini saxlamasa günaha düşər.” Sonra aşağıdakı məzmunda bir şer oxudu:

Dilini haqq və doğru söz danışmağa adət etdir ki, haqq əhli olasan, çünki dili hər nəyə adət etdirsən ona da alışar. Dil hər hansı bir yaxşı və ya pislə tanış olsa onu da tələb edəcək. Buna görə də bax ki, nəyə adət edirsən.”

◘Hər zaman üç mömin başqa bir mömin qardaşlarının yanına getsələr, elə bir mömin ki, ondan onlara qarşı heç bir şər və məkrli iş baş verməz, həmin məclisdə hər nə dua etsələr Allah cavab verər, bir şey istəsələr Allah əta edər, artırılacaq bir nemət istəsələr Allah artırar, əgər bir şey istəməsələr duasız Allah onlara inayət edər. (Yəni, möminlərin ictiması bəyənilib və cəm halda etdikləri dua da qəbul olunmağa çox yaxındır.)

◘Hər kim ki, sənin əlindən üç dəfə qəzəbləndi və sənə heç bir pis söz demədi, onunla dost olmaq planı barədə fikirləş.

◘Camaatla tanışlığını azalt, tanışların barəsində də özünü elə apar ki, sanki onları tanımırsan. Əgər yüz nəfər dostun olsa onun doxsan doqquzunu kənara qoy, birindənsə kənar gəz. (Əlbəttə, bunların əksəriyyəti fasid zəmanə əhlindən və haqdan uzaq olanlardan olarsa.)

◘Möminin kamalı üç şey vasitəsi ilə məlum olar; bəsirət, hadisələr müqabilində səbr və yaşayışda müəyyən ölçülərə riayət etmək.

◘Üç kəsin əməlini Allah yüksəltməz: Müharibədən qaçmış bəndə (fərari), əri ondan qəzəbli olan qadın və mütəkəbbir.

◘Üç şey hər bir dövrdə çətin tapılandır; Allah yolunda qardaşlıq edən şəxs, din işlərində əri ilə həmkarlıq edən ləyaqətli qadın və (atasının meylləri ilə müvafiq olan) rəşid övlad. Hər kim bu üç nemətdən birini əldə etsə dünya xeyrinə və uca bir bəxtə sahib olub.

◘Üç xüsusiyyət var ki, hər kəsdə olmazsa onda xeyir olmasını ümid etmək olmaz; Allahdan xəlvətdə qorxmaq, qoca yaşında günah etməkdən qayıtmaq və eyiblərdən utanmaq.

◘Qiyamət günü üç gözdən başqa bütün gözlər ağlayar; harama baxmayan göz, Allaha itaət yolunda yatmayan göz və gecənin bir aləmi Allah qorxusundan ağlayan göz.

◘Üç şey var ki, əgər mömin onları öyrənsə ömrünün uzanmasına və nemətlərin davamlı olmasına səbəb olar; namazın rüku və səcdələrini uzatmaq, qonağı olan zaman süfrəsinin başında oturmağını uzatmaq və ailəsinə və qohumlarına ehsan və yaxşılıq etmək.

◘Haramzadənin üç əlaməti var; pis yoldaşlıq, zinaya meyl və biz Əhli-beytlə (ə) düşmənçilik.

◘Təqva üç cürdür. Biri Allah yolunda Allaha xatir olan təqva. Bu nəinki şübhəli şeylərdən, hətta halallardan da çəkindirən təqvadır. Bu təqva sırf xalis təqvadır. İkincisi Allah xatirinədir. Bu nəinki haramlardan, hətta şübhəli şeylərdən də çəkindirən təqvadır. Bu təqva xalis təqvadır. Üçüncüsü əzabdan və oddan qorxmaqdan irəli gələn təqvadır. Yəni, yalnız haramlardan çəkindirən təqva. Bu ümumi camaata aid olan təqvadır. Təqva axar çaya bənzəyir. Yuxarıda qeyd olunan dərəcələr də həmin çayın kənarında əkilmiş rəngarəng ağaclar kimidir. Bu ağacların hamısı bir yerdən su içirlər, lakin bunların həqiqəti, lətafəti, meyvələrinin dadı müxtəlifdir. İnsanların da faydalanmağı onlar kimidir.

◘Şiələr üç dəstədir; sevimli dostlar - bunlar bizdəndirlər; bizi öz zinətləri qərar verənlər–əlbəttə, biz də onların zinətiyik; üçüncüsü bizi qazanc və iş vasitəsi qərar verənlər. Hər kəs bizi özü üçün alət etsə bədbəxt olar.

◘Bizim şiələri üç şeylə yoxlayın. Birincisi namaz vaxtı ilə. Baxın görün namaz vaxtına dəqiq yanaşırlar, ya yox. İkincisi sirr saxlamaları ilə. Baxın görün, sirlərini bizim düşmənlərimiz qarşısında açırlar, ya yox. Üçüncüsü maliyyə işlərində. Baxın görün, öz mallarını mömin qardaşları ilə bölüşürlər, ya yox.

## ONUNCU FƏSİL

## *Sair imamlardan (ə) nəql olunan hədislər*

◘İmam Riza (ə) buyurur: "Bir gün Əbu Hənifə (Əhli-sünnə məzhəblərindən birinin imamı) İmam Sadiqin (ə) hüzurundan qayıdırdı. Yolda Musa ibn Cəfər ilə (ə) rastlaşdı. Ərz etdi: "Oğul! Günah kimin tərəfindəndir?"[1](1) Buyurdu: "Bu məsələ üç hal çərçivəsindən xaricdə

---

[1] Bu sual "cəbr və ixtiyar" məsələsi barəsində idi. Bu mövzu əsrlər boyu İslam mütəkəllimlərinin mübahisəli məsələlərindən biri olmuş, bir qrup mütəkəllim Allaha layiq olmayan şeylər aid etmiş, bir qrupu da Allahın bəndələrin işlərinə müdaxiləsini

deyil: Ya təkcə Allah tərəfindəndir və bəndənin buna heç bir müdaxiləsi yoxdur. Bu halda Kərim Allahın bəndəni günaha görə cəzalandırması layiq deyil. Çünki ixtiyar bəndənin əlində olmayıb. Ya Allahla bəndənin iştirakı ilə baş verib. Yenə də layiq deyil ki, qüvvətli şərik zəif tərəf müqabilini incitsin. Ya da təkcə bəndə tərəfindəndir. (Əlbəttə ki, bəndə tərəfindəndir, çünki Allah günaha razı deyil.) Bu halda əgər Allah bəndəni cəzalandırarsa, bu bəndənin yol verdiyi nöqsan və səhvlərinə görədir, yox əgər bağışlasa da, bu, Allahın kərim və bağışlayan olmasına dəlalət edir.

◘Həzrət Riza (ə) buyurub: "Bir kəsdə üç xüsusiyyət olmasa onu mömin adlandırmaq olmaz; Allahın bəndələrlə davranma üslubu, Peyğəmbər (s) sünnəsi, imamların (ə) rəftar tərzi. Allahın üslubu gizlilik və sirr saxlamaqdır. Quranda buyurulur: "(Allah) qeybi (gizlində olanları) biləndir və sevdiyi peyğəmbərlərdən başqa heç kəsə də qeybdən bir şey bildirməz." Peyğəmbərin sünnəsi xoş davranmaqdır. Allah bu barədə ona göstəriş verib buyurur: "Əfv etməyə adət et, yaxşı işlər görməyə əmr et və nadan insanlardan çəkin." İmamların rəftar tərzi isə müharibə, çətinlik və xəstəlik zamanı səbr etməkdir. Bu barədə də Allah-təala buyurur: "Bunlardır doğru danışanlar və bunlardır pəhrizkarlar."

◘Yeddinci imam (ə) buyurur: "Allaha itaətin kökü üç şeydir; qorxu, ümid və sevgi. Qorxunun nişanəsi günahı tərk etməkdir. Ümidin əlaməti ona itaət etməyə meyl etməkdir. Allahı sevməyin əlaməti şövq və tövbədir."

◘Həzrət İmam Məhəmməd Təqi (ə) buyurdu: "Məhəbbəti cəlb edəcək üç şey var; insanlarla ünsiyyət zamanı onlara qarşı insaflı olmaq, çətinlik zamanında insanlarla həmdərd olub onlara təskinlik, ürək-dirək vermək, insanlarla üz-üzə gələn zaman pak və sağlam qəlbə malik olmaq. (Yəni, onlara qarşı heç bir kin-küdurət bəsləməmək.)"

◘Həzrət Baqir (ə) buyurub: "Allah möminə üç imtiyaz bəxş edib; dünya izzəti, axirət səadəti və zülmkarların qəlbində əzəmət."

◘Həzrət Baqir (ə) buyurub: "Allahın bir behişti var ki, üç kəsdən başqa heç kəs ora yol tapa bilməz. Biri odur ki, zərərinə tamamlanacaq

---

tamamilə inkar etmişdir. Bu ifrat və təfrit müqabilində Əhli-beyt imamları (ə) üçüncü bir yol bəyan etmişlər. Bu hədisdə də həmin məsələyə işarə olunmuşdur.

olsa belə haqqı deyər, digəri odur ki, Allah xatirinə mömin qardaşını görməyə gedər və üçüncüsü odur ki, bir mömini Allaha xatir özündən qabağa salar. (Yəni, onun manafeyini öz mənafeyindən üstün tutar.)”

◘Həzrət Musa ibn Cəfər (ə) buyurdu: “Ey Hişam ibn Həkəm! Hər kəs üç şeyi üç şeylə əvəz etsə, elə bil ki, öz əqlini əldən verməkdən xilas olar. Fikirləşmə nurunu uzun-uzadı arzularla, hikmətli mətləbləri zay və bihudə sözlərlə, ibrət və nəsihət nurunu şəhvətlərin ardınca düşməklə aradan aparan kəs öz əqli vasitəsilə həvəslərini döyəcləməklə batil edər. Hər kəsin əqli xarab olsa dini də xarab olar, dünyası da.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Üç şey uca məqamlılıq bəxş edər, üç şey günahın kəffarəsidir, üç şey həlak edər, üç şey də nicat verər. Uca məqam bəxş edən şeylər hamıya salam vermək, qonaqlıq vermək və gecə namazı qılmaqdır. Günahın kəffarəsi qışdı fərəhlə və həvəslə dəstəmaz almaq, gecə-gündüz məscidə getmək və camaata qarşı diqqətli olmaqdır. (Yəni, onların haqqına riayət etmək). Həlak edən şeylər simiclik, nəfsani arzu və istəklər və xudpəsəndlikdir. (Yəni, özünübəyənmə). Nicat bəxş edən şeylər isə gizlində də, aşkarda da Allahdan qorxmaq, istər varlı, istərsə də kasıblıq halında orta həddə riayət etmək, həm qəzəb və həm də sevinc halında ədalətlə danışmaq.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Bəndə həmişə üç şeyin arasındadır; bəla, qəza və qədər və nemətin. Allah tərəfindən gələn bəla müqabilində səbr etmək, qəza və qədər müqabilində təslim olmaq və nemət qarşısında isə şükr etmək vacibdir.”

◘Həzrət Musa ibn Cəfər (ə) buyurub: “Allah peyğəmbərlərə, onların övladlarına və ardıcıllarına üç imtiyaz verib; xəstəlik,[1](2) sultanlardan qorxu və yoxsulluq. (Onlar haqq fərmanına itaət etməkdə heç bir qorxu olmadan hamıdan qabağa düşdüklərinə görə bu işlərə düçar olurlar).”

◘Həzrət Riza (ə) buyurub: “İnsan üçün onun həyatının üç ən qorxulu anı var. Biri doğulan vaxt gözünü dünyaya açdığı zaman, digəri ölən vaxt o biri aləmin varlıqlarını görən zaman, üçüncüsü isə Qiyamət günü qəbirdən qalxıb yeni səhnələr müşahidə etdiyi zaman. Allah-təala Yəhya peyğəmbərə (ə) bu üç vaxtda salam göndərib buyurub: “Salam olsun ona doğulduğu gün, ölüm zamanı və (Qiyamət günü yenidən) diriləcəyi zaman.” Eyni zamanda bu üç mərhələdə İsa Məsih də (ə)

---

[1] Bunun mənası səkkizinci fəslin axırıncı hədisində izah olundu.

özünə salam göndərərək həmin dəhşətli anlardan ötrü özünə təskinlik vermişdir: "Salam olsun mənə doğulduğum gün və öləcəyim vaxtda və bir də dirilib ayağa qalxacağım gün."

◘Həzrət Riza (ə) buyurub: "Hər kim məni qürbətdə ziyarət etsə Qiyamət günü üç anda onun köməyinə gələrəm və onu qorxudan xilas edərəm; sağdan və soldan əməl dəftərlərinin verildiyi zaman, sirat körpüsündən keçən zaman və əməllər haqq-hesab olunan zaman."

◘Həzrət Səccad (ə) buyurub: "Zülmkar, ona kömək edən və onların işinə razı olanın hər üçü edilən zülmdə şərikdirlər."

◘Həzrət Səccad (ə) buyurub: "Xızr peyğəmbərin (ə) Musaya (ə) verdiyi göstərişlərdən biri də bu idi: Heç kəsi günahda ittiham etmə. Allah yanında ən sevimli əməl üçdür; varlı olduğun zamanda orta həddə yaşamaq, qüdrətli olduğun zamanda əfv edib güzəştə getmək və Allah bəndələri ilə dostcasına davranmaq. Elə bir kəs yoxdur ki, Allahın bəndələri ilə dostcasına davransın, lakin Allah onunla axirətdə dostcasına davranmasın. Bütün hikmətlərin başı Allahdan qorxmaqdır."

◘Əbu Malik deyir: "Bir gün həzrət Səccada (ə) ərz edib dedim: " Dinin bütün proqramlarını bəyan edin!" Buyurdu: "Haq söz danışmaq, ədalətli hökm vermək, əhd-peymana vəfa etmək dinin bütün proqramlarının əvvəlidir."

◘Yenə də İmam Səccad (ə) buyurub: "Həyatın ən çətin vaxtları üç andır; ölüm mələyi görünən zaman, qəbirdən hərəkətə gələn zaman və Allahın hüzurunda dayanıb ya cənnət fərmanının sadir olmasını, ya da cəhənnəm göstərişinin verilməsini gözləmək."

◘İmam Məhəmməd Baqir (ə) buyurub: "Bu ümmətdən bizim haqqımızı tanıyıb qəbul edənlər üçün nicat yolu var. Yalnız üç kəsdən - zülümkar padşahların qapısında işləyən, həva və həvəsə (nəfsani istəklərə) tabe olan və açıq-aşkar günaha qurşananlardan başqa."

◘Həzrət Baqir (ə) buyurub: "Nuh (ə) öz ümmətinə nifrin etdikdən sonra şeytan onun yanına gəlib dedi: "Sən mənə yaxşılıq etmisən, mən də gəlmişəm onun əvəzini verim." Nuh (ə) buyurdu: "Sənə xidmət etməkdən Allaha pənah! Mən sənə nə yaxşılıq etmişəm?!" Dedi: "Sən nifrin etdin, Allah da sənin qövmünü qərq etdi və artıq mən çalışıb onları yoldan azdırma əziyyətindən xilas oldum. Bir də növbəti qövm

gələnə qədər rahatam.” Həzrət Nuh (ə) buyurdu: “İndi mənə nə əvəz verəcəkdin?” Dedi: “Məni üç yerdə yad et. Bu üç yerdə mən insana hər zaman olduğundan daha yaxınam; qəzəblənən zaman, iki nəfər arasında hökm verən zaman və naməhrəm bir qadınla heç kəsin olmadığı bir yerdə oturduğun zaman.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Allah-təala buyurur: “Ey Adəm oğlu! Mən sənin barəndə üç lütf həyata keçirmişəm; sənin günahlarının üstünü örtmüşəm və əgər yaxınların bilsəydi səni dəfn etməzdilər, ikincisi sənə imkan verib sonra borcumu istəmişəm, amma sən axirət tədarükündən əsirgəyirsən, üçüncüsü də mal-dövlətinin üçdə birini ölümündən sonra sənin ixtiyarında qərar vermişəm, amma sən özündən qabağa göndərmirsən.”

◘Yenə də İmam Məhəmməd Baqir (ə) buyurub: “Allah möminə üç imtiyaz verib; dünya izzəti, axirət səadəti, ürəklərdə əzəmət.” Sonra bu ayələri oxudu: “İzzət Allaha, Onun peyğəmbərinə və möminlərə məxsusdur”,[1](1) “Həqiqətən möminlər nicat tapdılar...”[2](2)

◘Həzrət Riza (ə) buyurub: “Allah üç şeyi üç şeylə birlikdə vacib buyurub: “Namazı zəkatla və hər kim namaz qılıb zəkat verməsə namazı qəbul deyil. İkincisi öz şükrünü ata-ananın şükrü ilə bərabər və hər kim ki, öz ata-anasına minnətdarlıq və təşəkkür etməsə Allaha etdiyi şükrü də qəbul olmaz. Üçüncüsü də təqvanı sileyi-rəhm ilə birlikdə. Qohumlarına qarşı xoşrəftar olmayanın təqvası da yoxdur.

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Mömin üç vaxtda şad olar; qadından kam alan zaman, mömin qardaşları ilə zarafatlaşan zaman və gecə namazı vaxtı.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: “Zülm üç cürdür. Birincisi özünə olunan zülm. Bu Allah ilə öz arasında etdiyi günahdır. İkincisi, şirk vasitəsilə Allaha edilən zülm. Üçüncüsü isə camaatın haqlarını tapdalamaqla onlara olunan zülm.

---

[1] “Münafiqun”, ayə 8.
[2] “Muminun”, ayə 1.

## *Hikmət sahiblərinin, zahidlərin və s. bu kimilərinin dediklərindən*

◘Loğman öz oğluna buyurub: “Oğul!” İnsan üç hissədən ibarətdir; Allaha məxsus olan hissə, özünə məxsus olan hissə və qurda məxsus olan hissə. Allaha aid olan hissə Ona tərəf yüksələcək ruhdur. Öz payı elmdir ki, ondan ləzzət aparar. Qurdun payı isə bədəndir.”

◘Bir hikmət sahibi deyib: “Dostlar üç dəstədir. Bir dəstə qida kimidir ki, onlarsız keçinmək olmur. Onlar din qardaşlarıdır. Digər dəstə dərman kimidir ki, onlara bəzi vaxtlarda ehtiyac duyulur. Üçüncü dəstə isə heç vaxt dərdə dəymir. Onlar tamahkarlardır.”

◘Bir zahid deyib: “İnsanlar üç dəstədirlər; tamam kişi, yarım kişi, nakişi. Birincisi odur ki, özünün rəyi var və onun rəyindən istifadə olunur. İkincisi odur ki, özünün rəy və qərarı yoxdur, lakin nəzər və təfəkkür sahiblərindən yararlanır və onların yolunu gedir. Nakişi odur ki, nə özünün rəy və nəzəri var, nə də mütəfəkkirlərdən bəhrələnir.”

◘Digəri deyib: “Dünyanın üç şeyindən başqa heç nə üçün təəssüflənmirəm. Biri eyiblərimi pərdəsiz mənə göstərən mömin qardaşır. Digəri uğursuz əyriliyimi düzəldən və nadanlıq etdiyim zaman mənə xəbərdarlıq edən alim, üçüncüsü isə nə məxluqun minnəti, nə də Xaliqin qəzəbi olan ruzidir.”

◘Səhl ibn Abdullah deyir: “Bir kəsdə üç xüsusiyyət cəm olmayınca onun rəhbər olma ləyaqəti yoxdur; camaatla nadan və axmaqcasına rəftar etməsin, onların nadanlığına göz yumsun və onların mal-dövlətinə göz dikməsin, əksinə, öz var-dövlətindən onlara versin.”

◘Bir hikmət sahibi deyib: “Əgər bir kəsin vəfalı olub-olmadığını bilmək istəyirsənsə bax gör dostları onun yadına düşür, ya yox, vətən həsrəti çəkir, ya yox və keçmişi üçün ağlayır, ya yox.

◘Digəri deyib: “Xoş xasiyyətli olmaq, az danışmaq və mötədil yol getmək peyğəmbərlərin xüsusiyyətlərindəndir. Bədxasiyyət olmaq, çox danışmaq (çox danışmaqda məqsəd faydasız və şəriətə zidd olan sözlərdir) və təkəbbürlə yol getməksə bədbəxtlərin xüsusiyyətlərindəndir.

◘Başqa birisi deyir: “Üç şeyin sonu yoxdur; əmniyyət, salamatlıq və dolanmaq üçün kifayət edəcək qədər ruzi.” (Şübhəsiz, bunlarda məqsəd budur ki, bu nemətlərin əzəməti ölçüyə gəlmir.)

◘Bir hikmət sahibi deyir: “Heç bir möhtərəm şəxs, üç yerdə padşah belə olsa, böyüklük etməməlidir; ata-ana qarşısında, axirət işindən ötrü istifadə etdiyi alimin hüzurunda və qonaq qəbul edən zaman.”

◘İbn Abbas deyir: “Həmsöhbətimin mənim boynumda üç haqqı var: Üçünü mənə tutsa gözümü üzünə dikərəm, otursa ona yer verərəm, danışan zaman sözlərinə qulaq asaram. Axmaq həmsöhbət xətərlidir, ondan uzaqlaşmaq isə uğur və müvəffəqiyyət.

◘İbn Abbas deyir: “Şeytan heç vaxt üç anda etdiyi kimi nalə və fəryad qopartmayıb; Allahın lənəti gələn zaman və asimandan qovulanda, Peyğəmbər (s) dünyaya gələndə və birinci ayəsi “Bismillahir-rəhmanir-rəhim” olan “Fatihə” surəsi nazil olanda.”

◘Qəzali deyir: “Tövbə üç şərtlə qəbul olunar; günahları tərk etməklə, gələcəkdə də onu tərk etmək qərarına gəlməklə və keçmiş günahları yumaqla.” (Saleh əməl vasitəsi ilə, yaxud qəzaya verilmiş əməlləri yerinə yetirməklə və s.)

◘Peyğəmbər (s) bir qrup səhabəsindən soruşdu: “Siz nəsiniz?” (Yəni, hansı məsləkə xidmət edirsiniz?”) Dedilər: “Möminik!” Buyurdu: “İmanınızın nişanəsi nədir?” Dedilər: “Çətinlikdə səbr edirik, rifah halında şükr edirik, qəza və qədərə boyun əyirik.” Buyurdu: “And olsun Kəbənin rəbbinə siz möminsiniz!”

◘Peyğəmbər (s) buyurub: “Üç həddi-büluğa çatmamış övladını itirən kişi və üç həddi-büluğa çatmamış övlad dağı görən qadın cəhənnəmdən amandadırlar.” (Bu şərtlə ki, müsəlman olub müsəlman da dünyadan getsinlər.)

◘Əbuzər Peyğəmbərdən (s) nəql edir ki, üç həddi-büluğa çatmamış övladını itirən hər bir müsəlman ata-ananı Allah öz fəzl və kərəmi ilə behiştə daxil edər.”

◘Müaviyə Xalid ibn Müəmmərdən soruşdu: “Əlini (ə) nəyə görə sevirdin?” Dedi: “Çünki üç imtiyaza malik idi; qəzəb vaxtı səbirli idi, danışanda düz danışardı, hökumət və xilafət zamanında ədalətli idi.”

◘Həsən Bəsri deyir: “Müaviyə üç iş gördü ki, bu işlər onu həlak etdi; xilafəti qəsb etdi. Halbuki, xilafətə ondan da layiq Peyğəmbər (s) səhabəsi var idi. İkincisi, həmişə şərab içib məst olan oğlu Yəzidi camaata hakim təyin etdi. Üçüncüsü isə ipək paltar geyinir, saz çalırdı və Ziyadı özünün qardaşı adlandıraraq İraqa hakim təyin etdi.”

◘Bir hikmət sahibi deyir: “Dünyanı üç şeydən birindən ötrü tələb edirlər; ehtiyacsızlıq, izzət və rahatlıqdan ötrü. Halbuki, izzət dünyadan üz döndərməkdə, ehtiyacsızlıq qənaətdə, asayiş isə azacıq əziyyət çəkməyin kölgəsindədir.”

◘Əhnəf ibn Qeys deyir: “Hər kimin mənimlə arası dəysə onunla üç müamilədən birini edirəm. Əgər böyük adam olsa onun məqamına görə ehtiram edib yalnız ondan üz döndərirəm. Yox, əgər məndən aşağı olsa öz abrımı qorumaqdan ötrü onu öz başına buraxıram. Əgər mənimlə bərabər olsa ona minnət qoyuram.

◘Məhəmməd ibn Simak deyir: “İllərlə var-dövlət dalınca qaçdım. Bir gün Qarun yadıma düşdü (ki, o qədər var-dövlətinin olmasına baxmayaraq aqibəti necə oldu!). Gördüm üç şeydən artıq heç nə məni Allaha yaxınlaşdırmayacaq; pəhrizkar qəlb, doğrudanışan dil və səbrə adət etmiş bədən.”

◘Yəhya ibn Məaz deyir: “Hərislik şirə bənzəyir. İnsanlar da ona münasibətdə üç cürdür: Bir dəstəsi onu azad buraxıb. Bunlar dünyapərəstlərdir. Digər dəstəsi onu bağlayıblar. Bunlar zahidlərdir. Bir dəstəsi də ki, onun başını kəsib atıb. Bunlar Allahın dostları, o cümlədən, peyğəmbərlər və onların ardıcıllarıdır.”

◘Keçmişdə insanlar üç şeyi bir-birinə göstəriş verər və yazışmalarında da bunu qeyd edərdilər; hər kim axirəti üçün çalışsa, dünyasını Allah yoluna qoyar, hər kim batinini islah edərsə Allah da onun zahirini gözəlləşdirər və hər kəs də Allahla öz arasını düzəltsə Allah da onunla camaatın arasını düzəldər.”

◘İbn Abbas deyib: “Zöhd” kəlməsi (ərəb qrafikasına əsasən) 3 hərfdən ibarətdir; د , ه , ز. «ز» (z) yəni, zadul-məad (yəni, axirət azuqəsi), «ه» (h) yəni hidayət (dində) və «د» (d) yəni, davamlılıq (Allaha itaətdə.)”

◘İbn Abbasdan soruşdular: “Günlərin ən yaxşısı, ayların ən yaxşısı və əməllərin ən yaxşısı hansıdır?” Dedi: “Günlərin ən yaxşısı Cümə günüdür. Ayların ən yaxşısı Ramazan ayıdır. Əməllərin ən yaxşısı isə beş namazı əvvəl vaxtında qılmaqdır.” Bu sualı Həzrət Əlidən (ə) də soruşdular, buyurdu: “Məğribdən məşriqəcən bütün alimlərdən bu sualı soruşsanız bu cavabı verəcəklər. Amma mən deyirəm ki, əməllərin ən yaxşısı Allah dərgahında qəbul olunanı, ayların ən yaxşısı tövbə etdiyin ay, günlərin ən yaxşısı isə imanla Allaha tərəf getdiyin aydır.”

◘Yunan filosoflarından biri deyib: “Üç şey heç kəsdən ötrü biabırçılıq deyil; xəstəlik, fəqirlik və ölüm.”

◘Vəhəb deyir: “Tövratda yazılıb: “Həris adam dünyaya da sahib olsa fəqirdir, Allaha müti olan qul da olsa (azad insan olmasa da) itaətkardır və qane insan isə ac olsa da ehtiyacsızdır.”

◘Allah peyğəmbərlərdən birinə vəhy edib buyurdu: “Xaşe (və kövrək) qəlb, təvazökar ruh və ağlar göz gətir və dua et Mən də müstəcab edim.”

◘Deyirlər ki, bir kişi bir filosofun yanına gedib dedi: “Filan dostunuz sizin barənizdə xoşagəlməz bir söz dedi.” Filosof dedi: “Qardaş! Sən mənim yanıma gələndən mənim haqqımı üç dəfə tapdalayıb mənə zülm etdin; dostumu mənim gözümdən saldın, pak qəlbimi bulaşdırdın, özün də sui-zənnə uğradın. (Yəni, bilmirəm düz deyirsən, ya yox və bu söz gəzdirməkdə məqsədin nədir?!)”

◘Bir hikmət sahibi deyir: “Üç xüsusiyyət var ki, hər kəsdə olsa əqli kamildir; dilinin ixtiyarı özündə olsun, zəmanənin vəziyyətindən xəbərdar olsun və öz işi ilə məşğul olsun (ömrünü boş-boşuna keçirməsin).”

◘Başqa birisi Allahla münacat edən zaman deyib: “(Pərvərdigara!) Mənim qəlbimin ən böyük itaəti ümidimi sənə qarşı yönəltməyimdir, ən şirin sözüm səni mədh edib şəninə tərif deməyimdir və nəzərimdən ən üstün vaxt səninlə görüşdüyüm vaxtdır.”

◘Hədisdə deyilir ki, bir gün Cəbrail (ə) Peyğəmbərə (s) ərz etdi: “Əgər bizim ibadətimiz yer üzərində olsaydı üç əməli heç vaxt tərk etməzdim; müsəlmanlara su verməyi, (böyük və ehtiaclı) ailə sahiblərinə kömək etməyi və camaatın günahlarının üstünü örtməyi.”

◘Bir kişi İmam Həsən Müctəbadan (ə) hacətini istədi. İmam (ə) söykənib oturmuşdu. Düzəlib buyurdu: "Peyğəmbər (s) buyurub ki, hər kəsi özünəməxsus yerdə oturdun (yəni, hər kəslə onun səviyyəsinə uyğun rəftar edin.)

Mən indi səndən üç sual soruşacağam. Əgər cavab verə bilsən sənə üç yüz dinar verəcəyəm." Dedi: "Soruşun, Allahın qüdrətindən başqa qüdrət yoxdur." Buyurdu: "

–Kişinin bəzəyi nədir?

–Helm ilə bir yerdə olan elm.

–Əgər olmasa?

–Təqva ilə bir yerdə olan kərəm.

–Əgər o da olmasa?

–Səbr ilə bir yerdə olan fəqirlik.

–Əgər o da olmasa?

–Göydən bir atəş gəlib dəri və sümüklərini yandırıb kül etsin.

Həzrət (s) təbəssüm etdi və dediyinin iki bərabərində ona pul verdi.

◘Bir hikmət sahibi deyib: "Hər kəs üç şeyə sahib olmamış üç şey iddiasında olsa bil ki, şeytan ona məsxərə edir; dünyanı tərk etməmiş zikrin şirinliyini dadmaq, özünə qəzəblənməmiş Allah razılığını tələb etmək və camaata sitayiş etməyi tərk etməmiş ixlas sahibi olmaq."

◘İbrahim Ədhəmə dedilər: "Nəyə görə zöhdü bəyəndin? "Dedi: "Üç səbəbdən ötrü:

1.Gördüm qəbir dəhşətlidir, heç bir dost da yoxdur.

2. Gördüm yol uzundur, azuqə yoxumdur.

3. Gördüm Qiyamət məhkəməsinin qazisi Cabbar Allahdır, mənim isə heç bir üzrüm yoxdur."

◘Həzrət İbrahim Xəlil peyğəmbərdən (ə) soruşdular: "Nə səbəb oldu ki, Allah səni özünə dost seçdi? "Buyurdu: "Üç səbəbə görə; Allahın göstərişini başqalarının istəklərindən üstün tutdum, Allahın öhdəsinə aldığı işlərdən ötrü (ruzi və s.) çox da təlaş etmirdim (yəni, kafayət qədərindən artığını tələb etmir, haramlarının dövrəsində dolanmırdım) və heç vaxt qonaqsız yemək yemirdim.

◘Bəziləri deyib: "İnsanların ən xoşbəxti odur ki, bilikli qəlb, səbirli bədən və qane ruha malik olsun."

◘Yenə də deyiblər: “Üç xüsusiyyət hər kimdə olmazsa fəzl və kamalı da yoxdur. Biri cahil və ağılsızlara dözəcək helm, digəri günahdan çəkindirəcək təqva və camaatla keçinəcək xoş xasiyyət.”

Və yenə də deyiblər: “Üç kəs var ki, onları üç yerdən başqa yerdə tanımaq olmaz; səxavətli insanı qıtlıq zamanı, şücaətlini döyüş zamanı və səbirli insanı qəzəb vaxtı.”

◘Bəziləri deyib: “Əqlin üç əlaməti var; pəhrizkarlıq, doğrudanışmaq və bihudə işləri tərk etmək.”

◘Həzrət Rəsuldan (s) soruşdular: “Mömini necə tanıyaq?” Buyurdu: “Vüqarı, mülayim xasiyyəti və düz danışığı ilə.”

◘Bir ədib sultanın yanına getdi. Danışmaq icazəsi istədi. Sultan dedi: “Bir şərtlə.” Dedi: “Nə şərt?” Dedi: “Mənim üzümə məni tərifləmə, çünki mən özümü səndən yaxşı tanıyıram, ürəyində olanların əksinə söz demə və heç kəsin qeybətini etmə.”

◘Bəziləri deyib: “Üç şeydən kənar gəzmək hikmət və ağılın əlamətidir; cahilin nadanlığından, aqilin yanılmasından və qafilin səhvindən.”

◘Yenə də deyiblər: “Üç kəsi üç yerdə tanımaq olar; səbirlini qəzəb vaxtı, şücaətlini qorxu vaxtı və qardaşı ehtiyac vaxtı.”

◘Həzrət İsa (ə) buyurub: “Hər kəsin elmi olsa, ona əməl etsə və onu başqalarına öyrətsə asimanlarda hörmətli olar.”

◘Bəziləri deyib: “Dindarlar atəşdən, böyüklər biabırçılıqdan, ağıllı insanlar isə şərdən qorxurlar. Hər kimin dini, böyüklüyü və ağlı varsa atəşdən, biabırçılıqdan və şərdən amandadır.”

◘Bir yunan alimi deyib: “Əgər bədən yazmağa, oxumağa və öyrənməyə mane olan xüsusiyyətlərdən sağlam, ağıl eyibsiz və ruzi də kifayət qədər olarsa, başqa şeylərdən ötrü qüssələnmək yersizdir.”

◘Əhməd ibn Məhəmməd Zahiddən nəql edirlər ki, deyib: “Ağıllı insanın əlamətləri saya gəlmir, amma axmaq insanın mənim nəzərimcə üç əlaməti var; ömrünün hədərə getməsindən qorxmur, boş-boş

danışmaqdan doymur, eyiblərini ona deyən adamla oturub-durmağı xoşlamır.”

◘Bir arif deyir: “Üç şey qəlbi bərkidər: Yersiz gülmək, tox halda yemək və lazımsız sözlər danışmaq.”

◘Əflatun deyib: “Sənə qarşı etinasızlıq göstərən kəslə görüşə getmə, sözünü təkzib edən şəxslə söhbət etmə və sözünə qulaq asmayan kəsə söz demə.”

◘Yenə də Əflatun deyib: “Adamların ruhiyyəsi üç yerdə əvəz olar; sultanlara yaxınlaşan zaman, evlilikdən sonra və əlinə var-dövlət gələn zaman. Əgər bir kəs bu üç hallarda dəyişməsə və özünü itirməsə qəzavəti düzgün, müamiləsi də səhihdir.”

◘Bir hikmət sahibi deyib: “Elmin sahəsi üç qarışdır. Birinci qarışa daxil olana təkəbbür gələr, ikinci qarışa daxil olan təvazökar olar, üçüncü mərhələyə daxil olansa başa düşər ki, heç nə bilmir.”

◘Müəllif deyir: “Allah üç qəribə mətləbi Quranın üç surəsində bir-birinin ardınca bəyan edib: “Bəni-İsrail” surəsində Peyğəmbərin (s) cismani meracına işarə edərək buyurur ki, Məkkədən Əqsa məscidinə hərəkət etdi, “Kəhf” surəsində əshabi-Kəhfin üç yüz neçə il yatmasını nəql edir və ”Məryəm” surəsində Həzrət İsanın (ə) atasız dünyaya gəlməsindən danışır.”

◘Bir hikmət sahibi deyib: “Üç şey barəsində fikirləşmə; kasıblıq və yoxsulluq fikrində olma ki, qəm-qüssən çox olar, uzun ömür sürmək fikrini də başında çox dolandırma ki, bütün ömrünü bir yerə yığsan malını xarab edərsən və sənə zülm edənlərdən də əvəz çıxmağa çalışma ki, qəlbin daşlaşar, qəzəbin isə artar.”

◘Əbuzər buyurdu: “Dünya üç saatdır; keçən saat, mövcud saat, ona çatıb-çatmayacağın məlum olmayan gələcək saat. Elə isə, əslində, bir saatdan başqa əlində heç bir şey yoxundur. Çünki, ölüm də saatbasaat yaxınlaşır.”

◘Bir hikmət sahibi deyir: “Üç şey var ki, hər bir şeydən üstündür; həyat, həyatın iki bərabəri və həyatdan da yaxşı olan şey. Həyat ibarətdir asayiş və xoşluqdan, həyatın iki bərabəri ibarətdir yaxşı addan, həyatdan da yaxşı şey isə Allahın razılığı və behiştdir. Üç şey də var ki,

hər şeydən daha pisdir; ölüm, ölümün iki bərabəri və ölümdən də pis olan şey. Ölüm fəqirlik və yoxsulluqdur, ölümün iki bərabəri bədnam olmaqdır, ölümdən də pis olan şey isə Allahın qəzəbidir. Allaha pənah!"

◘Loğman öz oğluna deyib: "Oğul" elə ki, mədə doldu fikir yuxuya gedər, hikmət işdən düşər, bədən də ibadətdən qalar."

Mərhum Mühəqqiq özünün "Əxlaqi-Nasiri" kitabında nəql edib deyir ki, ibadət üç cürdür: 1. Bədənin ibadəti, yəni, oruc, namaz və ibadətgahlara getmək, 2. Ruhun ibadəti, yəni, tövhidə və Allahın sifətlərinə, Onun vucuduna, Allahın hikmətinə və din göstərişlərinə düzgün əqidə bəsləmək. 3. Camaatla ünsiyyətdəki ibadət, yəni, alver, evlənmə, əmanəti qaytarma, xeyirxahlıq, müsəlmanlara kömək, düşmənlərlə cihad, namusu qorumaq, din və elmi mərkəzləri himayə etmək."

◘"Səbr" sözünün lüğətdəki mənası "dözümsüzlükdən çəkinmək və qeyri-mülayim hallara tab gətirməkdir." Bu səbr üç qismdir; 1. Ümumi camaatın səbri. Bu insanların camaat arasında öz abır və heysiyyətlərini qorumaqlarından ibarətdir. 2. Zahidlərin və abidlərin səbri. Bu axirət savabı qazanmaqdan ötrü olunan səbrdir. 3. Ariflərin səbri. Bu da Allahın razılığı olduğu halda rastlaşdıqları acı hadisələr müqabilində etdikləri səbrdir. Bu səbr barədə Allah-təala Quranda yetmişdən çox yerdə söz açmış və bu haqda saysız hədislər rəvayət olunmuşdur.

◘Peyğəmbər (s) buyurub: "Hər kəsə üç şey verilibsə ona hər iki dünyanın xeyri verilib; Allahın qəza və qədərinə razı olmaq, bəla zamanı səbirli olmaq və rifah zamanı dua etmək."

◘Həzrət Sadiq (ə) buyurub: "Üç şeyin azı da çoxdur; atəş, fəqirlik və borc."

◘Xalid ibn Səfvan deyir: "Üç şeyin çarəsi yoxdur; tənbəlliyə qarışmış yoxsulluğun, həsəd və paxıllığa qarışmış düşmənçiliyin və qocalıq zamanında xəstəliyin."

◘Bəziləri deyiblər: "Həyatın səfası üç şeydədir; geniş evdə, çoxlu xidmətçidə və ürəyəyatan qadında. Üç kəslə gərək mülayim, xoşrəftar və üzügülər olasan; sultan, xəstə və qadınla."

◘Üç şey asayiş üzərindən xətt çəkir; dişağrısı, tərs xidmətçi və sözə baxmayan qadın.

◘Xəlil ibn Əhməd Nəhvi deyir: "Var-dövləti üç kəsdən ötrü yığırlar ki, üçü də düşməndir; arvadın əri, oğulun arvadı və qızın əri."

◘Haris Mühsaibi deyib: "Üç şey aztapılan, yaxud da tapılmayandır; iffətli gözəllik, dindarlıqla bir yerdə xoş xasiyyət və əmanətdarlıqla birgə qardaşlıq vəzifəsini yerinə yetirə bilmək."

◘Bir filosof deyib: "Fəlsəfə nəzərindən birinci vacib Allaha itaət, sonra ata-anaya, daha sonra isə camaata ehtiram göstərməkdir. Hər kim bu üç vacibatı yerinə yetirsə Allah onu möhtərəm, böyük və əzəmətli insan edər."

◘Peyğəmbərdən (s) nəql olunur ki, hər kim dünya istəyirsə ticarət etsin, hər kim axirət istəyirsə zahid olsun və hər kim də ki, dünya və axirət istəyirsə elm öyrənsin.

◘Şafeiyə (dörd sünni məzhəbindən birinin imamı) dedilər: "Əli (ə) barəsində nə deyə bilərsən?" Cavab verdi: "Nə deyim o kəsin barəsində ki, üç sifət üç xüsusiyyətlə birgə onun vücudunda cəm olub və heç kəsdə belə bir şey yoxdur; fəqirlik səxavətlə, şücaət əqllə, elm əməllə."

# DÖRDÜNCÜ BÖLMƏ

## BİRİNCİ FƏSİL

### *Şiələrin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘Peyğəmbər (s) buyurub: "Qiyamət günü mən bütün insanların günahlarını etmiş olsalar da dörd kəsə şəfaət edəcəyəm: Mənim əhli-beytimə kömək edən kəsə, ya çarəsiz qaldıqları zaman onların istəklərini yerinə yetirən kəsə, yaxud dildə və ya qəlbdə onları sevən kəsə və yaxud da əl ilə onları müdafiə edən kəsə." Bu hədisi Əli (ə) nəql edib.

◘Həzrət Əliyə (ə) vəsiyyətində buyurub: "Hər kim öz arvadına itaət etsə Allah onu üzü üstə atəşə atar." Əmirəlmöminin (ə) ərz etdi: "Hansı işlərdə?" Buyurdu: "Əxlaqi fəsadlara səbəb olacaq hamamlara getməkdə, toylara getməkdə, şer məclislərinə getməkdə və nazik paltarlar geyinməkdə."

◘Yenə də həzrət Əliyə (ə) vəsiyyətində buyurur: "Allah dörd kəsin duasını geri qaytarmaz; adil imamın duasını, atanın övladı üçün etdiyi duanı, möminin mömin qardaşından ötrü etdiyi gizli duanı və məzlumun duasını. Məzlum dua edərkən nida gələr: "And olsun izzət və cəlalıma, sənin intiqamını bir neçə müddət keçsə də alacağam."

◘İmanın əsası dörd şeydən ibarətdir; Allahı tanıma, Onun nemətlərini tanıma, dinin hökmlərini anlayıb dərk etmək və insanın dindən çıxmasına səbəb olacaq şeyləri bilmək.

◘Küfrün əsası da dörd şeydir; tamah, qorxu, narazılıq və qəzəb. Allahın bəndələrinə qarşı tamah mövhumi qüvvələrdən, qorxu xoşagəlməz təqdirlərdən, narazılıq və qəzəbin ardınca getmək isə küfrə (çəkib aparacaq.)

◘Bir kəs dörd şeyə iman gətirməyincə mömin hesab olunmaz; Allahın yeganəliyinə, mənim peyğəmbərliyimə, ölümdən sonrakı həyata və Allahın qəza və qədərinə.

◘Allah mənə dörd imtiyaz verib: 1. Yeri mənim üçün səcdəgah və paklayıcı qərar verib. Mənim ümmətimdən bir nəfər namaz vaxtı (dəstəmaz və ya qüsl üçün) su tapa bilməsə torpağa təyəmmüm edə

bilər. 2. Qorxu vasitəsi ilə mənə kömək edib. Çünki hər vaxt bir yerə hərəkət etsəydim qorxu məndən qabaqda gedib ürəkləri yerindən qoparırdı. 3. Müharibədən əldə olunan qəniməti ümmətimdən ötrü halal etdi. 4. Məni bütün insanları dəvət və hidayət etmək üçün göndərdi.

◘Qiyamət günü Allah dörd kəs üzərində rəhmət nəzəri salmaz; ata-anasının haqqını tapdalayan kəsə, minnət qoyana, qəza və qədəri təkzib edənə və şərab içənə.

◘Peyğəmbər (s) buyurub: "Behişt qadınlarının ən üstünü dörd nəfərdir; Xüveylidin qızı Xədicə (ə), Məhəmmədin (s) qızı Fatimə (ə), İmranın (ə) qızı Məryəm (ə) və Məzahimin qızı, Fironun arvadı Asiya.

Həzrət Əliyə (ə) buyurub: "Dörd şey insanın belini qırar: camaatın itaət etdiyi günahkar rəhbər, ərinin onu qoruduğu, onun isə ərinə xəyanət etdiyi qadın, heç bir çarə və əlacı tapılmayan fəqirlik və daimi evdə yaşayan pis qonşu.

◘Yenə də həzrət Əliyə (ə) buyurub: "Ey Əli! Allah-Təala dünyaya nəzər edib insanların hamısından üstün olaraq məni seçdi. İkinci dəfə nəzər salıb səni bəyənib seçdi. Üçüncü dəfə nəzər salıb sənin nəslindən olan imamları seçib bəyəndi. Dördüncü dəfə nəzər salanda aləmin bütün qadınlarından üstün olaraq Fatiməni (ə) bəyənib seçdi."

◘Hər kimdə dörd xüsusiyyət olsa Allahın nuruna qərq olar: 1. Allaha və Onun peyğəmbərinə iman gətirdiyinə görə özünü günahdan qoruyan. 2. Müsibətlər zamanı "inna lillahi və inna iləyhi raciun" (Biz Allaha məxsusuq və Ona tərəf də dönəcəyik) cümləsini yadından çıxarmayan. 3. Ona hər hansı bir xeyir yetişən zaman, "Əlhəmdu lillahi rəbbil-aləmin" deyən (yəni bütün xeyirlərin mənbəyinin Allah olduğunu bilsin). 4. Günaha düşdüyü zaman da "Əstəğfirullahə və ətubu iləyh" deyib dərhal tövbə edən.

◘Şaban ayının axırıncı cümə gününün xütbəsində buyurub: "Ey camaat! Sizin başınız üzərinə elə bir ay kölgə salıb ki, onun gecələrindən biri min aydan üstündür. Bu Ramazan ayıdır. Bu ayda sizin dörd əməli yerinə yetirməyə ehtiyacınız var. Bunlardan ikisi Allahın razılığını qazanmaqdan ötrü, digər ikisi isə öz məqsəd və hacətlərinizə yetişməyinizdən ötrüdür. Əvvəlincisi iki əməl Allahın yeganəliyindən və Məhəmmədin (s) peyğəmbərliyindən ötrü şəhadət

verməyinizdir. Digər ikisi isə Allahdan hacət, behişt, salamatlıq istəyib, cəhənnəm atəşindən Ona pənah aparmağınızdan ibarətdir.

◘Öz əshabına buyurub: “İstəyirsinizmi, sizə elə bir əməl öyrədim ki, şeytan sizdən məğribdən məşriqə qədər olan məsafə qədər uzaqlaşsın?” Dedilər: “Bəli, ey Allahın Rəsulu!” Buyurdu: “Oruc şeytanın üzünü qaraldar, sədəqə belini sındırar, Allah yolunda dostluq və xeyir işdən ötrü həmkarlıq etmək onun kökünü kəsər, tövbə və istiğfar etməyə qəlbinin damarlarını qırar. Hər bir şeyin zəkatı var. Bədənin zəkatı da orucdur.” (Bəlkə də ola bilsin ki, bu əməldə məqsəd şeytanın bərk narahat olmasıdır.)

◘Mənim ümmətimdən olan hər hansı bir kişi dörd şeydən uzaq olsa behişt əhlindəndir: Dünyaya qərq olmaq, nəfsani istəklərə uymaq, qarınqululuq və (cinsi işlərdə) şəhvətpərəstlik. Eyni zamanda ümmətimin qadınlarından da hər kəs dörd şeyi yerinə yetirsə behişt əhlindəndir: İffətini qorumaq, ərinə itaət etmək, gündəlik beş vacib namazları yerinə yetirmək və Mübarək Ramazan ayının orucunu tutmaq.

◘Dörd şey qəlbi öldürər: Ardıcıl günah, qadınlarla çox söhbət etmək, axmaq adamla mübahisə etmək və ölülərlə oturub durmaq. Soruşdular: Ölülər kimlərdir?” Buyurdu: Əyyaş varlılar.

◘Həzrət Əliyə (ə) buyurub: “Ey Əli! Dörd günahın cəzası bütün günahların cəzasından tez yetişər; yaxşılıq müqabilində pislik etməyin, günahsıza zülm etməyin, vəfalı adama xəyanət etməyin və xoşrəftar qohumlarla əlaqəni kəsməyin.

◘Cəhənnəm əhlinin qaynar su içmələrinə, cəhənnəm əzabının təsirindən ah-nalə və fəryad qoparmalarına baxmayaraq, bundan əlavə, dörd nəfər insan da onların əziyyətinə səbəb olar. Birincidən soruşarlar: “Sən bədbəxt nə etmisən ki, belə əzaba düçar olmusan?” Deyər: “Camaatın malından yemişəm, onları qaytarmağa etinasız yanaşmışam (yaxud, yaddan çıxarmışam).” İkincisindən əzabın səbəbini soruşanda cavab verər: “Mən sidiyi yüngül tutub ondan çəkinmirdim (yəni, namaz və ibadətlə də işim yox idi). “Üçüncüdən soruşanda deyər: “Mən pis sözlərlə camaatı məsxərəyə qoyurdum (yəni, camaatın abır və heysiyyətinə təcavüz edirdim).” Dördüncüdən soruşanda deyər: “Mənim işim isə qeybət və sözgəzdirmək idi.”

◘Başın qabaq hissəsində ağ tük olması mübarək bir şeydir. Sağ və sol tərəflərdə olması səxavət nişanəsidir. Alının iki tərəfində olması şücaət əlamətidir. Başın dalında olması isə namübarək bir şeydir.

◘Mənim ümmətim gərək dörd halda haqqa riayət etsin; tövbəkarı dost tutsun, bacarıqsıza rəhm etsin, yaxşı iş görənlərə kömək etsin, günahkarlardan ötrü isə Allahdan bağışlanma istəsin.

◘Qadınlar dörd dəstədir: 1. Xeyir-bərəkətlə dolu və üzüçörəkli; 2. Qucağında və qarnında uşağı olan; 3. Ərinə qarşı bədxasiyyət; 4. Əziyyətcil.

◘Dörd şey peyğəmbərlərin sünnə və rəftarlarındandır: Ətirlənmək, evlənmək, misvak (dişləri təmizləmək) və həna qoymaq.

◘Dörd şey bədbəxtliyin nişanəsidir; gözün quruluğu, qəlbin bərkliyi, ruzi qazanmaqdan ötrü həris olmaq və bilərəkdən ardıcıl olaraq günah etmək.

◘Həzrət Əliyə (ə) buyurub: “Ey Əli! Dörd xüsusiyyət bədbəxtliyin əlamətlərindəndir; gözün quruluğu, qəlbin bərkliyi, arzuların uzunluğu və dünyaya olan sonsuz məhəbbət.

◘Yenə buyurub: “Ey Əli! Üç şey alan zaman qiymət saldırmaqdan ötrü çənə boğaz olma; qurbanlıq alan zaman, kəfən alan zaman, qul alan zaman və Məkkəyə səfər etməkdən ötrü minik kirayəyə götürdüyün zaman.”

◘Xəstəliyin dörd üstün cəhəti var; xəstələnənin üzərindən qələm götürülər (yəni, tərk etdiyi vaciblər və istəmədən düçar olduğu günahlara görə haqq-hesab olunmaz), Allah da göstəriş verər ki, sağlam olduğu vaxtda yerinə yetirdiyi əməlləri yenə də onun üçün yazsınlar, günahlardan təmizlənər, ölsə də bağışlanar, sağ qalsa da. (Bağışlanmada “həqqullah” Allah-təalaya aiddir, xəstəlik “həqqunnas”Allah-təala aid olan günahların bağışlanmasına səbəb olmaz.)

◘Qiyamət günü dörd suala cavab verməmiş bir adamı da addım atmağa qoymazlar: Ömrünü hansı işlərə sərf etdin?”, “Cavanlığını hansı işlərə sərf etdin?”, “Əlində olan mal dövləti hansı yolla ələ

gətirdin və hansı yolda xərclədin?” Və bir də Əhli-beytə (ə) nə dərəcədə məhəbbət bəslədin?”

◘Bir gün Peyğəmbər (s) buyurdu: “Allah göstəriş verib ki, əshabımdan dörd nəfəri sevim və Allah Özü də onları sevir.” Soruşdular: “Ey Allahın Rəsulu, onlar kimlərdir? Biz hər birimiz onlardan biri olmaq istərdik.” Buyurdu: “Əli onlardan biridir.” Sonra bir az gözlədi və yenidən buyurdu: “Onlardan biri Əlidir. O biriləri Əbuzər, Salman və Miqdaddır.”

◘Əli (ə) buyurur: “Paxılların şərindən Peyğəmbərə (s) şikayət etdim, buyurdu: “Sən sevinmirsən ki, behiştə daxil olacaq ilk dörd dəstə mən, sən, arxamızca bizim övladlarımız, sağ və solumuzda bizim şiələrimizdir?”

◘Qiyamət günü dörd nəfər elə ki, qəbirdən qalxar, haqq-hesabsız cəhənnəm atəşinə gedər; sübh vaxtı yatan, gecəni qəflətdə keçirən, zəkat verməyən və davamlı olaraq günah edənlər. (Sübh vaxtı yatmaqdan məqsəd sübh namazını tərk etmək, gecəni qəflətdə keçirənlərdən məqsəd isə səhərə qədər oyaq qalıb günahla məşğul olmaqdır.)

◘Dörd şeyin azı da çoxdur; fəqirlik, dərd, düşmənçilik və atəş.

◘Dinin möhkəm qalması dörd nəfərə bağlıdır; əməl sahibi olan alimə, sual soruşmağa təkəbbür etməyən savadsız adamlara, minnətsiz bəxşiş edənlərə və axirətini dünyasına satmayan fəqirə.

◘Pis xasiyyət namübarək bir şeydir, qadına itaət etmək peşmançılığa səbəb olar, gözəl əxlaq zinət və əzəmətdir, sədəqə isə pis ölümün qarşısını alar.

◘İnsanlar dörd dəstədir; səxavətli, kərim, simic və ləim. Səxavətli odur ki, yeyir və bağışlayır. Kərim odur ki, özü yemir, başqalarına verir. Simic odur ki, özü yeyir başqalarına vermir. Ləim o kəsdir ki, nə özü yeyir, nə də başqalarına verir.

◘Dörd xüsusiyyət və ya onlardan biri hər kimdə olsa həmin şəxs münafiqdir; yalan, vədə xilaf, əhd-peymanı sındırmaq, düşmənçilik və toqquşmada heç bir iyrənc günahdan çəkinməmək.

◘Hər hansı bir mömin dörd xasiyyəti tərk etməyincə Allahın əzabından amanda ola bilməz; simiclik, yalan, Allaha qarşı bədgüman olmaq və təkəbbür.

◘Peyğəmbər (s) dualarından birində belə deyir: Pərvərdigara! Mənə qarşı hiylə işlədən, gözünü mənə dikən, qəlbi mənim barəmdə (mənfi işlər haqda) fikirləşən, yaxşılıq görən kimi gizlədən, pislik görən zaman isə faş edən dostdan Sənə sığınıram!"

## İKİNCİ FƏSİL

## *Əhli-sünnənin Peyğəmbərdən (s) nəql etdiyi hədislər*

◘Sözlərin ən yaxşısı dörddür: "Sübhanəllah" ; "Əl-həmdu lillah", "La ilahə illəllah", "Allahu əkbər."

◘Mənim və keçmiş peyğəmbərlərin dedikləri ən yaxşı söz "la ilahə illəllah" kəlməsidir. Hər bir bəndə bu sözü qəlbi təsdiq, təzim, şirinlik və ehtiramla yanaşı tələffüz etməlidir.

◘Allah dörd şeyi dörd şeydə qərar verib: Elmin bərəkətini ustada ehtiramda, imanın davamlılığını Allaha təzimdə, həyatın ləzzətini ata-anaya yaxşılıqda və cəhənnəmdən azad olmağı camaata əziyyət etməməkdə.

◘Allah dörd kəsi özünə düşmən bilir: And içən ticarətçini, təkəbbürlü fəqihi, zinakar qocanı və zülmkar rəhbəri.

◘Hər kimdə dörd xüsusiyyət olsa, Allah-təala behiştdə onun üçün bir ev qərar verər: "La ilahə illəllah" kəlməsi onun pənahgahı olsun (ki, onun sayəsində günahdan çəkinsin.), əlinə nemət gələn zaman şükrünü yerinə yetirsin, günaha düşən zaman istiğfar etsin, müsibət və bəla ilə üzləşdiyi zaman "inna lillah və inna iləyhi raciun, (biz Allaha məxsusuq və Ona tərəf də dönəcəyik) desin.

◘Qiyamət günü Allah-təala Öz rəhmət nəzərini dörd kəs üzərinə salar və onları paklaşdırar: Bir kəsin qəlbindən qəmi aradan aparanı, mömin bir qulu azad edəni, cavan subay oğlanı evləndirəni və birinci dəfə həccə gedəni (yəni, öz vacib həcci yerinə yetirəni).

◘Hər kim dörd əməli yerinə yetirsə Allah-təala behiştdə onun üçün bir bulaq (yaxud, çay) axıdar; oruc tutsa, xəstəni yoluxsa, dəfn mərasimində iştirak etsə və yoxsula sədəqə versə.

◘Allah öz bəndələrindən ötrü dörd lütf və mərhəməti həyata keçirib. Bu dörd lütf ola-ola bədbəxt adamdan başqa heç kəs həlak olmaz:

1. Bir kəs hər hansı bir xeyir iş görmək istəsə, lakin onu yerinə yetirə bilməsə Allah onun üçün bir savab yazar.
2. Əgər yerinə yetirə bilsə ondan ötrü on savab yazılar.
3. Günah bir iş görmək istəsə, lakin həyata keçirməsə onun üçün heç bir günah yazılmaz.
4. Lakin günahı həyata keçirsə ona yeddi saat möhlət verilər. Onun yaxşı əməllərini yazmaqdan ötrü təyin olunmuş mələklər günah işləri yazmaqdan ötrü məmur olunmuş mələklərə deyər: “Bu işi yazmağa tələsmə. Çünki ola bilsin ki, hər hansı bir yaxşı iş vasitəsi ilə bu günahı aradan aparar. Çünki, Allah-təala buyurub: “Yaxşı işlər, pis işləri aradan aparar.” Əgər yeddi saat gözlədikdən sonra da bəndə heç bir xeyir əməl yerinə yetirməsə, yaxud həmin günahından tövbə etməsə, savab işləri yazan mələk günahları yazana deyər: “İndi artıq bu məhrum bədbəxtin günahını yaz.”

◘Riya barəsində Allahdan qorxun. Çünki, riya Allaha şərik qoşmaqdır. Riyakarları Qiyamət günündə dörd adla səsləyib deyərlər; “Ey kafir! Ey facir! (yəni, günahkar) Ey xəyanətkar! Ey ziyankar! Əməllərin xarab, savabın batil oldu. Bu gün heç bir payın yoxdur. Kimin üçün iş görmüsənsə, get əvəzini də ondan al!

◘Dörd şey insan üçün xoşbəxtlikdir: Ləyaqətli qadın, xeyirli övladlar, yaxşı dostlar və öz vətənində ruzi.

◘Bədbəxtliyin nişanəsi dörd şeydir: Keçmiş günahları unutmaq (halbuki, həmin günahlar ilahi dəftərdə qorunub saxlanılır.), yerinə yetirdiyi yaxşı işləri yadda saxlamaq (halbuki, məlum deyil qəbul olunub, ya yox), dünya işlərində yüksəkdən getmək və onlara önəm vermək, axirət işlərini isə yüngül tutub, onlara əhəmiyyətsiz sanmaq.

◘Xoşbəxtliyin də dörd əlaməti var: Daim keçmiş günahları xatırlamaq, gördüyü xeyir işləri unutmaq, dünya işlərində çox da yuxarıdan getməmək, axirət işlərini də yüngül tutmamaq.

◘Əql və şüura sahib olan məxluqat dörddür: Məlaikələr, şeytanlar, cinlər və insanlar. Bu dörd qrupun doxsan faizi mələklər, on faizi şeytan, cin və insanlardan ibarətdir. Həmin bu üç dəstədən də doxsan faizi şeytandan ibarətdir, on faizi cinlərdən və insanlardan. Bu iki dəstənin də doxsan faizi cinlər, on faizini isə insanlar təşkil edir.

◘Dörd şey orucu və görülən hər bir xeyir işi xarab edər: Qeybət, yalan, söz gəzdirmək və naməhrəmə baxmaq. (Yəni, qəbul olunmasının qarşısını alar, nəinki, onun səhihliyini batil edər).

◘Yeməkdə dörd şey cəm olsa, yemək kamil olar: Halal yolla ələ gəlsin, həmin yeməyə çox əl uzansın, əvvəlində "Bismillah", axırında isə "Əlhəmdulillah" deyilmiş olsun.

◘Yer üzərində olan evlərin dörd ən möhtərəm olanı bunlardır: Kəbə, Beytül-müqəddəs, içində Quran oxunan ev və məscidlər. Bütün məscidlərdən ən üstünü isə Peyğəmbər (s) məscidi və Kufə məscididir. Allah yanında ən üstün kəslər peyğəmbərlər, onların vəsiləri və günahdan peşman olan tövbəkarlardır. Qadınların ən yaxşısı ərlərinə itaət edən və evlərində oturan möminə qadınlardır. Günahı tərk edərək, Allahdan bağışlanma diləmək və bir daha həmin günaha qayıtmamağı qərara almaq tövbədir. Hər kəs Allah qorxusundan və Onunla görüşmə xofundan ağlasa behiştə daxil olar.

◘Peyğəmbər (s) bəzən bu duanı oxuyardı: "İlahi dörd şeydən Sənə sığınıram; faydası olmayan elmdən, ram olmayan qəlbdən, doymayan nəfsdən və qəbul olunmayan duadan.

◘Öz bığını qısaltmayan kəs dörd əzaba mübtəla olar: Mənim şəfaətimə nail olmaz, Kövsər hovuzundan içməz, qəbir əzabına düçar olar, Nəkir və Münkər də onun qəbrinə qəzəbli halda daxil olar. (Hədisdə batil əqidəli sufilərin özbaşına və cəlbedici görünməkdən ötrü bığ saxlama tərzinə işarə olunub.)

◘Mömin dörd şeyi tərk etməyincə əzabdan amanda ola bilməz: Simiclik, yalan, Allaha qarşı bədgüman olmaq və təkəbbür.

◘Dörd gövhər var ki, dörd şey vasitəsi ilə xarab olar: Əql qəzəblə, din həsəd və paxıllıqla, həya tamahla, saleh əməl də qeybət vasitəsilə.

◘Dörd şey səbəb olar ki, insan Qiyamət gününün dəhşətli qorxusundan amanda qalar: Nemət vaxtı şükür etmək, günahdan istiğfar etmək, müsibət və bəla zamanı "inna lillah və inna iləyhi raciun" (biz Allaha məxsusuq və Ona tərəf də dönəcəyik), ehtiyac və qorxu anlarında Allaha üz tutmaq.

◘Hər kəs dörd nemətə sahib olubsa, ona dünya və axirət xeyri verilib və hər iki dünyadan bəhrələnib: Onu günahdan qoruyan təqva, camaatla keçinə biləcək xoş xasiyyət, insanların nadanlıq və axmaqlığını dəf edə biləcək səbir və həlimlik və nəhayət, işlərində ona kömək edən ləyaqətli qadın.

◘Hər kəs dörd şeyə malikdirsə ona hər iki dünyanın xeyri əta olunub: Şükür edən qəlb, zikr edən dil, qüvvətli və möhkəm bədən və ləyaqətli qadın.

◘Qiyamət günü Allah dörd kəsi dörd təbəqədən ötrü höccət qərar verər; (nümunə göstərər) Süleymanı (ə) varlı və dövlətlilərə, İsanı (ə) kasıb və yoxsullara, Yusifi (ə) qullara, Əyyubu (ə) isə xəstələrə. Ən uca salamlar olsun bu pak peyğəmbərlərə!

◘Dörd şey dörd məqsəddən ötrü yaradılıb: Mal-dövlət yığıb saxlamaqdan ötrü yox, xərcləməkdən ötrü yaradılıb, elm mübahisə və höcət aparmaqdan ötrü yox, əməl etmək üçün yaradılıb, bəndə xoş ömür güzəran keçirməkdən ötrü deyil, dünya da bəndəlikdən ötrü yaranıb, nəinki, abad etməkdən ötrü deyil, ibrət almaqdan ötrü yaradılıb.

◘Bir gün Peyğəmbər (s) buyurdu: "Dörd şey möminlər üçün vacib məsələlərdəndir: Gözəl minik, geniş ev, yaraşıqlı paltar və parlaq çırağ." Soruşdular: "Ey Allahın rəsulu, bunlardan bizim yoxumuzdur. Sənin bu söylədiklərində məqsəd nədir?" Buyurdu: "Gözəl minik əql, geniş ev səbir, yaraşıqlı paltar həya və nəhayət, işıqlı çıraq isə elmdir."

◘Dörd şey var ki, onlardan hər hansı biri bir evdə olsa ev xarabaya çevrilər və xeyir-bərəkət üzü görməz: Xəyanət, oğurluq, şərab və zina.

◘Əbuzərə buyurdu: "Ey Əbuzər, dörd xüsusiyyət var ki, mömindən başqa heç kəsdə tapılmaz, ibadətin əvvəli hesab olunan sükut (lazımsız və faydası olmayan sözlərdən), Allahdan ötrü təvazö, hər zaman və hər bir halda Allahı yad etmək və kasıbçılığa səbr etmək."

◘Yenə də Əbuzərə buyurub: "Gəmini saz vəziyyətə sal, çünki dərya dərindir. Azuqəni bol elə, çünki yol uzaqdır, yükünü az et, çünki dağ keçidi çətindir və əməllərini də xalis et ki, əməl sərrafı dəqiq və açıq gözlüdür."

◘Dörd kəsə Allah ərşin yuxarısından lənət edər, mələklər də "amin deyər: Uşaq olmaq qorxusundan arvad və kəniz almayan kişiyə (yəni, öz şəhvətini haram yolla söndürən kişiyə), Allahın onu kişi yaratmasına baxmayaraq özünü qadına bənzədən kişiyə (ləvatla məşğul olana), Allahın onu qadın yaratmasına baxmayaraq, özünü kişiyə bənzədən qadına və camaatı məsxərəyə qoyana; məsələn, bir müsəlmana " bura gəl sənə bir şey verəcəyəm" deyib, o, gəldikdə isə "bağışlayın heç nəyim yoxdur" deyənə, yaxud, məsələn, yolu üstündə heç nə olmayan kora muğayat ol, heyvana dəyərsən" deyənə, yaxud da, hər hansı bir evin sorağında olana səhv yol göstərənə.

◘Allah hər kəsi Öz yaxın dostlarından və sirdaşlarından etmək istəsə ona dörd xislət əta edər: Heç bir qohum-əqrəbası olmadan izzət və hörmət, təhsil almaq əziyyəti olmadan elm, var-dövlət olmadan ehtiyacsızlıq və təklikdə olarkən aramlıq.

◘Dörd şeydən ötrü sevinən dörd yerdə də qüssələnər: Uzun ömürə sevinən ölən zaman qüssələnər, evinin genişliyinə sevinən qəbrin darlığından qəmgin olar (bu iki sevincdə məqsəd Allahı unutmaqdır), günaha sevinən onun cəzası zamanı kədərlənər və haram yemək yeyən zaman fərəhlənən kəs hesab çəkilən zaman hüznlənər.

◘Hər kəsdə dörd xüsusiyyət olsa dünyada hər nə əlindən çıxsa qüssələnməz: Əmanətdarlıq, düzdanışmaq, xoş xasiyyət və yemək zamanı iffətə riayət etmək (yəni, qeyri-şəri şeylərdən çəkinmək).

◘Dörd şey dünyada qəribdir: Zülümkarın qəlbində olan Quran ayəsi, namaz qılmayanlar arasında olan məscid, evdə oxunmamış qalan Quran, bədrəftar insanlar arasında olan saleh kişi.

◘Həzrət Peyğəmbərə (s) ərz etdilər: "Münafiqin əlamətləri nədir?" Buyurdu: "Yalandan and içmək, əhd-peymanı sındırmaq, yalan və vəd verib yerinə yetirməmək."

◘Dörd dəstə insanın adı aradan getməz: Peyğəmbərlərin, şəhidlərin, alimlərin və Quranı əzbər bilib ona əməl edənlərin.

◘Hər kim çoxlu istiğfar etsə (bağışlanmaq diləsə) - Allah onu hər bir qəm-qüssədən azad edər, hər sıxıntıdan qurtarar, hər qorxudan amanda edər və gümanı gəlmədiyi yerdən ruzisini yetirər.

◘Mənim ümmətimi dörd dəstə insan islah edə bilər: Sultanlar, alimlər, ibadət edənlər və tacirlər.

Soruşdular: “Necə ola bilər ki, bunlardan başqa heç kəs onları islah edə bilməsin?” Buyurdu: “Sultanlar bu ümmətin çobanlarıdır. Əgər çoban canavar olsa qoyunları kim otarar? Alimlər xalqın həkimləridir. Əgər həkimlər özləri xəstələnsə, xəstələri kim müalicə edər? İbadət edənlər əməl vasitəsi ilə ümmətə yol göstərirlər. Əgər yol göstərənlərin özləri yollarını azsalar, yol gedənlərə kim rəhbərlik edər? Tacirlər Allah bəndələrinin əmanətdarlarıdır. Əgər əmanətdar xəyanət etsə daha kimə etibar etmək olar?”

## ÜÇÜNCÜ FƏSİL

### *Şiələrin Əmirəl-mömininindən (ə) nəql etdikləri hədislər*

◘Dinin möhkəm qalması dörd kəsdən asılıdır: Öz elminə əməl edən dilli-dilavər alim, öz var-dövlətindən qohum-əqrəbasına paylayan dövlətli, öz axirətini dünyasına satmayan fəqir və elm öyrənməkdən ötrü təkəbbür etməyən cahil. Bəs elə isə alim öz elmini yaymasa, dövlətli xəsislik etsə, fəqir axirətini dünyasına satsa və cahil də elm öyrənməyə təkəbbür etsə dünya geri dönər (yəni, cahiliyyət dövrü yenidən başlayar). Həmin zaman məscidlərin çoxluğuna və orada olan qəlbləri bir-birindən uzaq olan insan kütlələrinə aldanmayın.

Soruşdular: “Ya Əli! Həmin dövrdə necə yaşayaq?” Buyurdu: “Zahirdə camaata qarışın, batində isə müxalif olun. Eyni zamanda Ali-Məhəmmədin (s) fərəcinin də intizarında olun.

◘Allah dörd şeyi dörd şeydə gizlədib: 1. Öz rizasını Ona edilən itaətlərdə. Heç bir itaəti yüngül tutmayın. Çünki, ola bilər ki, Allahın razılığı məhz həmin itaətdə olsun. 2. Öz qəzəbini günahlarda. Heç bir günahı kiçik bilməyin. Mümkündür məhz həmin günah Allahın qəzəbinə səbəb olsun. 3. İsticabəti (bəndələrinə cavab verməyi) dualarda. Heç bir duanı faydasız bilməyin. Mümkündür məhz həmin dua müstəcab olsun. 4. Öz dostlarını da bəndələrinin arasında. Heç bir

bəndəyə etinasız yanaşmayın, çünki ola bilər ki, məhz həmin bəndə Allahın dostu olsun və sadəcə siz onu tanımamış olasınız.

◘Duanın dörd şərti var: Hüzuri-qəlb, ixlas, Allahı tanımaq və duada istədiyi şey barəsində insaf (yəni, puç və bihudə (ağıla uyğun olmayan şeylər istəməsin.)

◘Həzrət Musaya (ə) vəhy olundu ki, ey Musa, dörd şey barəsində Mənim tapşırığımı yadında saxla! 1. Günahlarının bağışlandığını bilməyincə başqalarının eyblərinə baş qoşma. 2. Nə qədər ki, Allahın xəzinələrinin boşaldığını bilmirsən ruzidən ötrü qəm yemə. 3. Nə qədər ki, Mənim hakimiyyət və səltənətimin aradan getdiyini bilmirsən başqasına ümid bağlama. 4. Nə qədər ki, şeytanın öldüyünü görməmisən məkrindən amanda qalma.

◘İşlərin ən çətini dörddür: Qəzəbli halda əfv etmək, az miqdarda olan maldan bəxşiş vermək, xəlvətdə iffətli olmaq və qorxduğun və ya qorxmadığın hər bir kəsin qarşısında haqq söz danışmaq.

Bir gün Əli (ə) evdən bayıra çıxdı. Salman onunla rastlaşdı. Həzrət (ə) soruşdu: "Halın necədir?" Salman cavab verdi: "Bir haldayam ki, dörd qəmim var; ailəm çörək və sair ehtiyaclarını istəyir, Allah itaət istəyir, şeytan günah etməyimi istəyir, ölüm mələyi isə canımı istəyir." Həzrət buyurdu: "Ey Salman, bu dörd qəmin hər birinə görə Allah yanında bir dərəcən var."

◘Həzrət Əlidən (ə) soruşdular: "Elm nədir?" Buyurdu: "Elm budur ki, Allaha ibadəti ehtiyacın olan qədər edəsən, günahı cəhənnəm atəşinə dözəcəyin qədər edəsən, çalışmağını ömrün boyu davam etdirəsən və axirət xoşbəxliyi qədər də əməl sahibi olasan."

◘Dörd şeyin qədrini dörd kəs qədər heç kəs bilməz: Cavanlığın qədrini qoca, rahatlıq və asayişin qədrini giriftarçılığa mübtəla olan, sağlamlığın qədrini xəstə və həyatın qədrini ölü.

◘İmam Həsən Müctəbaya (ə) buyurub: "Ruzi dalınca gedəni məzəmmət etmə. Çünki hər kim yemək tapmasa günahı çoxalar. Oğul! Fəqirin dəyəri yoxdur. Sözünə qulaq asmazlar, qədrini bilməzlər, düz söz desə yalançı adlandırarlar, əgər zahid olsa onu cahil bilərlər. Oğul! Fəqirliyə giriftar olan şəxs dörd müsibətə düçar olar; yəqinində süstlük

əmələ gələr, əqli məhdudlaşar), dini zəifləyər və həyası azalar. Fəqirlikdən Allaha pənah!"

◘Yenə də oğlu İmam Həsənə (ə) buyurub: "Oğul! Əgər sənə çətinlik üz verdi, dostlarınla məsləhətləş, çünki bunun dörd nəticəsi var; ya işi öz öhdələrinə alarlar, ya sənə kömək edərlər, ya yol göstərərlər, yaxud da səndən ötrü dua edərlər, həmin dua da müstəcab olar."

◘"Oğul! Dörd şeyi və bundan əlavə də dörd şeyi məndən yadigar saxla və heç vaxt unutma." Ərz etdi: "Onlar hansılardır?" Buyurdu: "Ən böyük və ən üstün sərvət əqldir, ən böyük yoxsulluq axmaqlıq, ən şiddətli dəhşət özünübəyənmə və ən gözəl əsil-nəcabət xoş xasiyyət." Ərz etdi: "Atacan, bu birinci dörd şey, bəs ikincisi nədir?" Buyurdu: "O biri dörd şey bunlardır: Axmaqla dostluq etməkdən çəkin, çünki, sənə bir yaxşılıq etmək istəsə ziyan verər. Yalançı ilə də dostluq etmə. Çünki, o, öz yalanları ilə uzağı sənin üçün yaxın, yaxını isə uzaq göstərər. Xəsislə də dostluq etmə. Çünki o, ən çətin anlarında öz köməyini səndən əsirgəyər. Bir də dinsiz insandan uzaq gəz. O, da səni nifaqı ucbatından satar."

◘"Oğul! İstəyirsənmi sənə dörd əməl öyrədim, sən də bunlara əməl etməklə heç vaxt həkimə möhtac olmayasan?" Ərz etdi: " Bəli." Buyurdu: "Acmamış süfrə kənarında oturma, doymamış yeməkdən əl çək, yeməyi yaxşı-yaxşı çeynə və həmişə yatmazdan qabaq ayaqyoluna gedib özünü boşalt. Əgər bu dörd şeyə əməl etsən həkimə ehtiyacın olmayacaqdır."

◘Bir nəfər Həzrət Əlinin (ə) yanına gəlib ərz etdi: "Dörd sual soruşmaq istəyirəm." Əli (ə) buyurdu: "İstəyirsən qırx sual soruş." Dedi: "Vacib nədir, daha vacib olan nədir? Yaxın nədir, daha yaxın nədir? Təəccüblü nədir, daha təəccüblü olan nədir? Çətin nədir, daha çətin olan nədir? Buyurdu: "Vacib Allaha itaətdir, daha vacib olan şey günahdan çəkinməkdir. Yaxın Qiyamətdir, ondan da yaxın ölüm. Təəccüblü dünyadır, ondan da təccüblü onu sevmək, çətin qəbirdir, ondan da çətini ora azuqəsiz getmək."

◘Hər kəsin dəyər və qiyməti onun səy və çalışqanlığı qədər, doğru danışmaqlığı comərdliyi qədər, şücaəti mənlik və heysiyyəti qədər, həyası isə qeyrəti qədər.

◘Hər kəs bir əməli öz öhdəsinə alsa mən dörd şeydə onun üçün zaminəm: Daim sileyi-rəhm etməyi öhdəsinə alan şəxsə söz verirəm ki, qohumları onu sevər, var-dövləti çox, ömrü uzun olar və Allahın behiştinə varid olar. (Üsuli əqidəsi düz olan halda.)

◘Ya alim ol, ya tələbə, ya onlara qulaq asan, ya da bu dəstə insanları sevən biri. Bunların beşincisi olsan həlak olacaqsan.

◘Müəllif deyir: "Beşincisi dedikdə elm əhlinin düşməni nəzərdə tutulur. Çünki başqa bir hədisdə həzrət (ə) buyurur: "Nə qədər bacarırsan alim ol, yaxud elm öyrən, yaxud onları sev, əgər bunların heç biri olmasan heç olmazsa onların düşməni olma.

◘Tövratı, İncili, Zəburu və Quranı oxudum və hər birindən bir cümlə seçdim: Tövratdan "hər kim sükut etsə nicat tapar", İncildən "Qənaət edən tox olar", Zəburdan "Meyillərini tərk edən bəlalardan amanda olar", Qurandan isə "Hər kəs Allaha təvəkkül etsə Allah ona bəs edər" cümlələrini.

◘İnsanlar bir-birindən fərqlənən dörd qrupdan ibarətdir və onların hər birinin xüsusiyyətləri aşkardır: Dünyası yaxşı olmayanların gözəl axirəti var, dünyası sevinc və şadlıq içində olanların axirətdə payı yoxdur, bir qrupu hər ikisinə yiyələnib, dördüncü dəstə də bunların hər ikisini zay edib, nə dünyaları var, nə də axirətləri.

◘İnsanların xəlq olunmasında məqsəd onların xoş xasiyyət və gözəl əxlaqa yiyələnməsidir. İnsan öz əməllərinə əsasən ya rəğbət qazanır ya da töhmət: İnsanı ucaldan şey dörd xüsusiyyətdir: Səbir, elm, ehsan və bağışlamaq.

◘Riyakar və ikiüzlünün dörd xüsusiyyəti var: Təklikdə tənbəl və süstdür. Camaat arasında zirək, təriflənən zaman daha fəal olur, təriflənməyən zaman da əməldən bezər.

◘Hədisdə var ki, dörd xristian rahibi Həzrət Əlini (ə) yoxlamaqdan ötrü onun yanına gəldilər. Öz aralarında qərara aldılar ki, bir sualı hər biri ayrı-ayrılıqda ondan soruşsunlar, əgər hamımıza bir cavab versə deməli elmi naqisdir. Əvvəl birincisi onun yanına daxil olub soruşdu:

–Mal-dövlət toplamaq əfzəldir, yoxsa elm öyrənmək?

Buyurdu:

–Elm öyrənmək daha yaxşıdır. Çünki, malı sərf etdikdə azalır, elmi sərf etdikdə isə artır.

Sonra ikincisi daxil olub həmin sualı soruşdu. Həzrət (ə) buyurdu:

– Elm öyrənmək. Çünki, elm öz sahibini qoruyur, mal isə öz sahibi tərəfindən qorunmağa möhtacdır.

Sonra üçüncüsü daxil olub həmin sualı soruşdu. Həzrət (ə) cavab verdi:

–Elm öyrənmək. Çünki, elm cəm edənin təvazökarlığını, mal isə təkəbbürünü artır.

Daha sonra isə dördüncüsü daxil olub, yenə də həmin sualı verdi. Həzrət (ə) onun cavabında belə buyurdu:

–Elm cəm etmək yaxşıdır. Çünki, elm cəm edənin dostu, mal cəm edəninsə düşməni çoxalar.

◘Dörd şey bədəni qüvvətləndirər: Cinsi yaxınlıq olmadan alınan qüsül, ətir iyləmək, ət yemək və kətan paltar geyinmək. Dörd şey də bədəni arıqladar; dolu qarınla hamama getmək, qurumuş ət yemək, şor xörək yemək və ac qarına su içmək.

## DÖRDÜNCÜ FƏSİL

### *Şiələrin İmam Sadiqdən (ə) nəql etdikləri hədislər*

◘Hər kəsə dörd tövfiq verilsə dörd şeydən məhrum olmaz: Hər kəsin dua etməyə halı olsa duanın müstəcab olmasından naümid olmaz. Hər kəs istiğfar etmək tövfiqi qazansa tövbədən bəhrələnər, hər kəs şükür etmək səadətinə qovuşsa nemətin çoxluğundan məhrum edilməz və hər kəs səbirli ruha malik olsa əcr və savabdan binəsib olmaz.

◘Dörd varlıq camaatın onlar barəsində etdikləri duanın səsini eşidər: Peyğəmbər (s), hurul-eyn, behişt və cəhənnəm. Hər kəs Peyğəmbərə (s) salavat göndərsə və ya ona salam versə o həzrətə (s) çatar. Hər kəs desə ki, Pərvərdigara, məni hurul-eynlə evləndir, onlar onun səsini eşidər və deyərlər: "Pərvərdigara, filan kəs Səndən bizi istəyir, bizi onunla evləndir." Hər kəs dua etsə ki, Pərvərdigara məni behiştə daxil et, behişt onun səsini eşidər və deyər: "Pərvərdigara məndə onun üçün yer ayır." Hər kəs də cəhənnəm atəşindən Allaha pənah aparsa cəhənnəm deyər: "Pərvərdigara, ona pənah ver."

◘Üç xüsusiyyətə malik olan şəxs cəmiyyət arasında dörd imtiyaza sahib olar. Hər kəs yalan danışmasa, zülm etməsə və vədəsinə xilaf çıxmasa camaat arasında ədalətli şəxs kimi tanınar, məhəbbəti

qəlblərdə özünə yer alar, qeybəti haram olar və onunla qardaşlıq vacib olar.

◘Dörd şey behişt xəzinələrindəndir: Müsibəti gizlətmək, xəstəliyi gizlin saxlamaq (yəni, hamıya şikayət etməsin. Müalicə etməkdən ötrü heç bir eybi yoxdur.), gizli sədəqə və öz ehtiyacını gizlətmək.

◘Behişt əhlinin dörd əlaməti var: Gülərüzlülük, şirindillilik, mehriban qəlblilik və əli açıqlıq.

◘Özünün barəsində nə desələr və özü də başqaları barəsində hər nə desə vecinə gəlməyən, camaatın özünə qarşı pis fikirdə olmasından qorxmayan, zinaya meyli olan və heç bir səbəb olmadan kin-küdurət səbəbilə qeybət edən kəsin nütfəsinə şeytan şərik olub.

◘Zinadan doğulan uşağın dörd əlaməti var: Peyğəmbərin (s) Əhli-beyti (ə) ilə düşmənçilik, zinaya meyl, dini yüngül tutmaq, bədrəftar olmaq.

◘Hər kəs mənə dörd şeyi öhdəsinə alacağı barədə söz versə, mən də behiştdə dörd ev ona zaminəm: Fəqirlikdən qorxmadan infaq edəcək, camaata qarşı insaflı olacaq, hamıya salam verəcək və haqq onun tərəfində olsa da höcət etməyəcək (yəni, boş-boşuna söz güləşdirməyəcək).

◘Dörd şey dörd şeydən doymaz: Yer yağışdan, göz baxmaqdan, qadın kişidən və alim elmdən.

◘"Ey Səmaə! Mömin dörd bəladan asudə olmaz: Əziyyət edən qonşudan, azdıran şeytandan, eyibləri axtaran münafiqdən və paxıl mömindən. Ey Səmaə, bu axırıncı bəla hamısından daha pisdir." Səmaə soruşdu: "Nəyə görə o, hamısından daha pisdir?" Buyurdu: "Çünki O, kimin barəsində bir söz desə camaat inanıb qəbul edər."

◘Peyğəmbər (s) buyurub: "İstəyirsinizmi sizə cəhənnəm odunun kimlərə haram olduğunu xəbər verim?" Dedilər: "Bəli, ey Rəsuləllah!" Buyurdu: "Mülayim, yumşaq təbiətli və dostlarının səhvlərinə göz yuman kəslərə."

◘İnsana faydası olan elm dörd hissədən ibarətdir: Allahı tanımaq, Onun nemətlərini tanımaq, ilahi vəzifələri tanımaq və insanın dindən xaric olmasına səbəb olan şeyləri tanımaq.

◘Fəzl ibn Əyyaz deyir ki, bir gün İmam Sadiqdən (ə) soruşdum: "Cihad vacib əməldir, yoxsa müstəhəb?" Buyurdu: "Cihad dörd növdür: ikisi vacib, üçüncüsü vacib vasitəsi ilə həyata keçən müstəhəb, dördüncüsü isə sırf müstəhəbdir. Vacib cihadlar: Birincisi nəfsə qarşı aparılan cihaddır. Bu cihad insanı günahdan saxlayır və cihadların ən üstünüdür. İkinci vacib cihad isə müsəlmanlarla qonşu olan kafirlərə qarşı aparılan müharibədir. Bu cihad o halda vacib olur ki, onlar tərəfindən hər hansı bir təhlükə baş versin. Üçüncü növ cihad imamdan ötrü müstəhəbdir ki, düşmənin sorağını alıb onunla müharibəyə getsin. Elə ki, bu müstəhəb cihad haqqında onun hökmü elan olundu, bu cihad ümmətə vacib olur və əgər bu işdən imtina etsələr ilahi əzaba düçar olarlar. Buna görə də bu cihada vacib vasitəsi ilə həyata keçən müstəhəb cihad deyilir. Sırf müstəhəb olan dördüncü növ cihad isə hər hansı bir şəsxin gözəl bir sünnə və yaxud, ənənəni icra etmək, yaxud onu təsis edərək yaşatmaq məqsədi ilə göstərdiyi səydir. Onun bu yolda olan zəhmət və çətinliklərə səbr etməsi əməllərin ən əfzəlidir." Peyğəmbər (s) buyurub: "Hər kəs özündən sonra gözəl bir ənənə qoyub getsə Allah ona həm bu işin savabını, həm də buna əməl edən bütün insanların savabı qədər savab əta edər. (Buna əməl edənlərin öz savabları da özlərində qalmaqla.)

◘Dörd kəsin namazı Allah dərgahında qəbul deyil: Zülümkar rəhbərin, camaatın istəmədiyi imam-camaatın, heç bir ehtiyac və zərurət olmadığı halda öz sahibinin yanından qaçan qulun və ərinin icazəsi olmadan evdən çıxan qadının.

◘Dörd günah artıb hər yeri bürüyən zaman dörd bəla meydana gələr; zina artan zaman zəlzələ çoxalar, zəkat verilməsə dördayaqlı ev heyvanları qırılar, qazılar (şəri hakimlər) haqqa zidd olan hökm çıxarsalar yağış kəsilər və əhd-peyman sındırılan zaman kafirlər müsəlmanlara qalib gələr.

◘Qazi dörd növdür. Biri odur ki, heç bir elmi olmadan haqlı hökm çıxarır. Bu od əhlindəndir. (Çünki, haqlı hökm çıxarmasına baxmayaraq, elmi olmadığına və haqla batili ayırma qüdrəti olmadığına görə hökm çıxarmaq haqqına malik deyildi,) ikincisi odur ki, emli olmadan batil hökm verən. Bu da cəhənnəm əhlidir. Üçüncüsü elmi

olduğu halda batil hökm verən. Bu da cəhənnəm əhlidir. Dördüncüsü isə haqq söz deyən alim qazidir. Qazilər arasında yeganə cənnət əhli olan da məhz odur.

◘Səbr, yaxşılıq, xoş rəftar və xoş xasiyyət peyğəmbərlərin xüsusiyyətlərindəndir.

◘Bir kəs müsafir olsa da dörd müqəddəs məkanda namazını bütöv qıla bilər: Məkkədə, Mədinədə, Həzrət Əlinin (ə) hərəmində (Məqsəd Kufə məscididir) və İmam Hüseynin (ə) hərəmində.

◘Quranın vacibi səcdə ayəsi olan surələri dörddür: Ələq, Nəcm, Fussilət və Səcdə.

◘Şeytan dörd dəfə nalə və fəryad edib: Lənət olunduğu gün, Adəmin (ə) yerə gəldiyi gün, Məhəmmədin (s) besət günü (Peyğəmbərliyə seçildiyi gün) və "Həmd" surəsi nazil olan vaxt. İki dəfə də lovğalanmışdır: Adəm ağacdan meyvə yeyən və behiştdən qovulan zaman.

◘Dörd şey hədər yerə gedər: Şoranlığa əkilmiş toxum, gündüz yandırılan çıraq, tox olan vaxt yeyilən yemək və başa düşməyən kəslərə yaxşılıq.

◘Müfəzzəl ibn Ömər deyir ki, İmam Sadiqdən (ə) müsəlmanların neçə bayramı olduğunu soruşdum. Buyurdu: "Dörd." Dedim: "Qurban, Fitr və Cüməni bilirəm, bəs dördüncüsü hansıdır?" Buyurdu: "Hamısından daha böyük və daha şərəflisi zil-hiccə ayının on yeddisidir. Bu gündə Peyğəmbər (s) Əlini (ə) insanlara imam və rəhbər olaraq tanıtdırıb." Dedim: "Həmin gündə biz nə etməliyik?" Buyurdu: "Gərək bu günün şükrünü yerinə yetirməkdən ötrü oruc tutasınız, hər bir saat gərək şükr edəsiniz. Hər bir peyğəmbər öz vəsisini camaata rəhbər təyin etdiyi gün ona oruc tutmaq və həmin günü bayram etmək göstərişi verib. Qədir-xum bayramı günü tutulan oruc altmış aylıq ibadətdən əfzəldir."

◘İbrahim peyğəmbərə (ə) vəhy olunan və Quranda gələn "Dörd quşu öz yanında tikə-tikə doğra, daha sonra onu dörd hissəyə bölüb hər hissəni bir dağın üstünə qoy" ayəsi barəsində belə buyurub: "Həzrət İbrahim (ə) şanapipik, sərçə, tovuzquşu və qarğanın başını kəsib ayırdı. Bədəninin qol-qanadını, ətini, sümüyünü doğrayıb bir-birinə qatdı. Bu

qatışığı dörd hissəyə ayırdı və hər hissələri on dağın üstünə qoydu. Sonra öz yanına dən və su qoydu və onların dimdiklərini barmaqları arasında tutub dedi: “Allahın izni ilə tez bura gəlin!” Birdən bu ət, sümük və qol-qanad bir-birinə yapışdı, bədənlər təkmil oldu və hər bədən də gəlib öz başına yapışdı. Həmin an həzrət İbrahim (ə) başları buraxdı. Quşlar orada olan dənləri yeyib, sudan içməyə başladılar. Sonra dilə gəlib dedilər: “Ey Allahın peyğəmbəri! Bizi diriltdin, Allah da səni diriltsin.” İbrahim (ə) buyurdu: “Dirildən də, öldürən də Allahdır!”

Bu ayənin zahiri təfsiridir. Lakin bunun batini mənası budur ki, sən dörd nəfəri elmləndir, onları ətraf ərazilərə göndər ki, sənin tərəfindən insanlardan ötrü höccət olsunlar. Sən də onları görmək istəsən ismi-əzəm oxuyub onları çağır Allahın izni ilə onlar tez sənin yanına gələcəklər.

◘Şeyx Səduq (r) buyurur: “Mənim nəzərimcə hər ikisinin olması mümkündür.” (Həm quşların hər də nümayəndələrin göndərilməsinin).

◘Bəziləri deyib: “Burada İbrahimin (ə) məqsədi insanların iman gətirməsindən ötrü keçmiş peyğəmbərlər kimi möcüzə göstərmək idi. Buna görə də Allahdan ona ölüləri necə diriltməsini göstərməsini istədi. Allah tərəfindən göstəriş gəldi ki, sən dirini öldür (yəni, İsmaili qurban kəs), Biz də ölüləri dirildək. Sonra Allah tovuzquşu, kərkəs, xoruz və ördəyin başını kəsmək göstərişini verdi. Tovuzquşu dünyanın bər-bəzəyinə, kərkəs isə uzun-uzadı arzulara, ördək hərisliyə, xoruz isə şəhvətə işarə idi. Yəni, əgər qəlbini diri saxlamaq və yəqin əldə etmək istəyirsənsə bu dörd xüsusiyyətdən uzaq ol, çünki, bunlar qəlb aramlığını aradan aparar.

◘Həzrət Adəmə (ə) vəhy olundu: “Mən bütün hikməti sənin üçün dörd kəlmədə xülasələndirirəm. Biri Mənə məxsusdur, digəri sənə, biri Mənimlə sənin aranda, axırıncısı da səninlə camaat arasındadır. Mənə aid olanı budur ki, Mənə ibadət et və heç kəsi Mənə şərik qoşma. Sənə aid olanı budur ki, ən çətin anında Mən sənin payını verəcəyəm. Səninlə mənə aid olanı budur ki, səndən dua, Məndən qəbul etmək. Səninlə camaata aid olanı isə budur ki, özün üçün istədiyin hər bir şeyi camaat üçün də istə.

◘Dörd kəs behiştə daxil olmaz: Falçı, şərabxor, münafiq və sözgəzdirən. (Lakin, tövbə edib keçmişdəki pisliklərini yaxşı işlərlə əvəz etməkləri istisnadır.)

◘Dünyada dörd tapılmayan şey var ki, insan onlara olduqca möhtacdır: Əməl sahibi olan alim, riyasız əməl, şübhəsi olmayan yemək və eyibsiz dost. Bunların ardınca gəzsən heç birini tapa bilməzsən. (Məqsəd bunların çox az olmasıdır.)

◘Dörd nəfərin duası müstəcab olmaz. Biri evdə oturub Allahdan ruzi istəyən kişinin. O, dua edərkən belə cavab gələr: "Məgər Mən kəsb etməkdən ötrü çalışmaq göstərişi verməmişəm?!" İkincisi, öz qadınına nifrin edən kişinin. Ona da cavab verilər ki, talaqın ixtiyarı sənin əlində deyilmi?! (Bu o hala aiddir ki, onunla yaşamaq istəmir, talaq vermək əvəzinə ona nifrin edir.)

Üçüncüsü öz mal-dövlətini aradan aparıb, sonra Allahdan ona ruzi verməsini istəyən kişinin. Onun da cavabında belə deyilər: "Məgər mən sənə israfa yol verməməyini və malını islah etməyi bildirməmişdimmi?!"

Dördüncüsü isə öz malını heç bir şahid olmadan borc verib şahidinin də onu inkar edənin. Ona da cavab verilər ki, məgər mən şahid tutmaq göstərişi vermədimmi?!

Başqa bir hədisdə dördüncünün pis qonşusuna nifrin edən kəsin olduğu qeyd olunur. Halbuki, o, evini satıb ondan xilas ola bilər.

◘Dörd vaxtda edilən dua müstəcab olar: Vətr namazında (gecə namazının axırıncı rəkətində, sübh namazından sonra, zöhr namazından sonra və məğrib namazından sonra.

Başqa bir rəvayətdə də var ki, hər kəs məğrib namazından sonra səcdəyə gedib dua etsə, duası müstəcab olar.

◘Mömin üçün həqiqi aramlıq yoxdur. Yalnız ölümdən sonra öz Allahına qovuşduğu zaman ondan ötrü həqiqi aramlıq hasil olar. Bundan başqa hallarda əgər, onun üçün aramlıq təsəvvür olunsa bunu dörd şeydə tapmaq olar: 1. Qəlbin və ruhun Allah barəsində düşüncəyə qərq olduğu sükut. 2. Dövrün gizlin və aşkar zərərlərindən amanda olan xəlvət. 3. Şəhvəti və şeytanın vəsvəsələrini öldürən aclıq. 4. Qəlbi nurani, təbiəti saf və ruhu pak edən gecə oyaqlığı.

◘Mənsur Abbasi İmam Cəfər Sadiq (ə) üçün xəbər göndərib bildirdi: "Nəyə görə siz də başqaları kimi bizim qapımıza get-gəl etmirsiniz?" Həzrət belə cavab verdi: "Bizim nə dünyamız var ki, onu müsadirə edəcəyindən qorxaq, nə sənin axirətin var ki, bu barədə sənə ümidvar olaq (sənin mənəviyyatından və ruhaniyyətindən bəhrələnək), nə nemət içindəsən ki, səni təbrik edək və nə də ki, əlində olanları bəla bilirsən

ki, gəlib sənə təsəlli verək. Elə isə, bəs nəyə görə sənin qapına gəlib gedək?” Mənsur yenidən xəbər göndərdi ki, bizə nəsihət verib tərbiyələndirməkdən ötrü gəlin.” Həzrət buyurdu: “Dünya istəyənlər səni nəsihət etməzlər, çünki öz hədəflərindən yayınarlar. Axirət istəyənlər də səninlə oturmazlar çünki, Allahı yaddan çıxararlar.”

◘Bu fani dünyada camaat dörd şeyin ardınca qaçır: Varlı olmaq, asayiş, qəm-qüssədən xilas olmaq və izzət. Varlılıq qənaətdədir, hər kəs axtarsa tapmaz. Rahatlıq zəhmətdən, çətinlikdən uzaq olmaqdadır. Hər kəs çox şey istəsə rahatlıq tapmaz. Qəm-qüssənin azlığı məşğuliyyətlərin və giriftarçılıqların az olmasındadır. Hər kəsin məşğuliyyəti və giriftarçılığı çox olsa qəm-qüssədən azad olmaz. İzzət isə Allaha itaətdədir. Hər kəs bunu insanlara itaətdə axtarsa tapmaz.

◘Təəccüb edirəm o kəslərə ki, dörd şeydən qorxduğu halda dörd şeyə pənah aparmır:

1. O kəs ki, pislikdən qorxur, lakin bu ayəyə pənah aparmır:

Həsbunəllahu və niməl vəkil.

[Allah bizə bəsdir və O, çox gözəl vəkildir]

Allah bu cümləni deyən kəslər barəsində buyurur: “Allahın nemət və fəzli ilə qayıtdılar və heç bir zərər də onlara toxunmadı”

2. Qəm-qüssə içində olan şəxs Yunis peyğəmbərin (ə) dilindən olan bu ayəyə pənah aparmır:

La ilahə illa ənt, inni kuntu minəz-zalimin.

[Səndən başqa Allah yoxdur, Sən paksan, zülümkarlardan olan isə mən idim.]

Allah bu ayənin ardınca buyurur: “Biz onun duasını müstəcab etdik və onu qəm-qüssədən azad etdik və Biz möminlərə belə nicat veririk.”

3. Başqalarının məkrindən qorxan kəs isə bu ayəyə pənah aparmır:

Və ufəvvizu əmri iləllah, innəllahə bəsirun bil-ibad.

[İşimi Allaha tapşırıram. O, bəndələrini görür və onlara nəzarət edir.]

Bu ayənin ardınca Quranda belə deyilir:

“Allah onu onların hiyləsindən qurtardı.”

4. Dünyanın bər-bəzəyini istəyən şəxs isə bu ayəni oxumur:

Ma şaəllahu la qüvvətə illa billah.

[Hər nə Allah istəsə o da olacaq, Allahın qüvvətindən başqa qüvvət yoxdur.]

Allah bu cümləni deyən şəxsə kömək edəcəyini vəd edib.

◘Təqvadan da gözəl azuqə yoxdur. Sükutdan da gözəl şey yoxdur. (Yəni, bihudə və qeyri-şəri sözlərdən edilən sükut). Nadanlıqdan da ziyan verən düşmənçilik olmaz və yalandan da böyük dərd mövcud deyil.

◘Süfyan Suri deyir: "İmam Sadiqdən (ə) mənə nəsihət etməsini xahiş etdim. Həzrət (ə) buyurdu: "Yalandan heç vaxt comərdlik gözləmək olmaz, başqalarına əziyyət edənin dostu olmaz, paxıl rahatlıq tapmaz, bədxasiyyət adam da böyüklük əldə etməz." Dedim: "Bir az da buyurun." Buyurdu: "Allaha etimad et. Çünki, iman məhz elə budur. Onun verdiklərinə razı ol. Çünki, ehtiyacsızlıq da elə budur. Qonşunla xoş davran ki, müsəlman hesab olunasan. Dinsiz insanla da dostluq etmə. Çünki, fasiqliyini sənə keçirdər və Allahdan qorxan kəslə məşvərət et.

## BEŞİNCİ FƏSİL

## *Şiələrin sair imamlardan (ə) nəql etdikləri hədislər*

◘İmam Məhəmməd Baqir (ə) buyurub: "Hər kəsdə dörd xüsusiyyət olsa dini kamil, günahları bağışlanmış və ölüm zamanı da Allah ondan razı olar. Biri odur ki, camaatla əhd-peyman bağladığı zaman Allaha xatir ona riayət etsin. İkincisi, dili həmişə doğru söz danışsın. Üçüncüsü, Allah yanında və camaat nəzərində pis hesab olunan işdən çəkinsin. Dördüncüsü, ailəsi və övladlarına qarşı xoş xasiyyət olsun."

◘İmam Məhəmməd Baqir (ə) buyurub: "Hər kəsdə dörd xüsusiyyət olsa Allah behiştdə ona bir ev əta edər: Yetimə qarşı nəvaziş göstərmək, zəiflərə qarşı mərhəmətli olmaq, ata-ana ilə mehriban davranmaq və qul ilə dostcasına rəftar etmək.

◘İmam Məhəmməd Təqi (ə) buyurub: "İşlərini yerinə yetirməkdə dörd şey insana kömək edər: Sağlam bədən, sərvət, elm və tövfiq."

◘Həzrət Baqir (ə) uşaqların divar altında qalmış xəzinələri barəsində buyurub: And olsun Allaha! Orada qızıl-gümüş yox idi. Sadəcə olaraq, bir lövhə var idi ki, orada dörd cümlə yazılmışdı:

1. Mənəm Allah! Məndən başqa məbud yoxdur və Məhəmməd (s) mənim elçimdir.
2. Əcəba, qəza və qədərə inanan şəxs ruzi tələb etməkdə nəyə görə tələsir?

3. Təəccüblüdür ki, bir kəs dünyanın vəziyyətini görür, lakin axirəti inkar edir.

4. Ölümə yəqini olan şəxs necə fərəhlənir?

◘Dörd namazı istənilən vaxtda qılmaq olar: Qəza namazını, vacibi təvaf namazını, günəş tutulan zaman qılınan namazı və meyyit namazını. (Yəni, bunlar müəyyən səbəblərə bağlıdır, nəinki, məhdud saatlara).

◘Allah dörd peyğəmbərdən başqa heç kəsə padşahlıq verməyib: Nuh peyğəmbərdən (ə) sonra gəlmiş Zülqərneyn (ə), Davud (ə), Süleymana (ə) və Yusifə (ə). Zülqərneyn (ə) şərqdən qərbə qədər olan əraziyə padşahlıq edib. Davud (ə) və Süleyman (ə) keçmiş Şam və Fars körfəzinə qədər olan ərazidə padşahlıq etmişlər. Yusif (ə) isə Misirin hakimi olmuşdur.

◘Günəş doğan zaman dörd mələk onunla birlikdə olar. Onlardan biri fəryad edib deyər: “Ey xeyirxahlar, öz işlərinizi sona çatdırın və sevinc içində olun.” Digəri səslənər: “Ey şər insanlar, əl çəkin və tərk edin.” Üçüncüsü deyər: “İlahi, infaq edənlərin savabını ver, simiclik edənləri isə tələf et.” Dördüncü mələk isə günəşin istiliyindən azaldar. Çünki, əgər azaltmasa günəş yeri yandırar.

◘Dörd peyğəmbərdən (ə) dörd söz qalıb: Həzrət Musadan (ə) “Hər kim pis dostdan qırılsa, sanki Tövrata əməl edib”, həzrət Davuddan (ə) “Hər kəs nəfsani istəklərdən uzaq olsa sanki Zəbura əməl edib”, həzrət İsadan (ə) “Hər kəs Allahın qismətinə razı olsa sanki İncilə əməl edib”, həzrət Məhəmməddən (s) isə “Hər kəs dilinə hakim olsa sanki bütün Qurana əməl edib.”

## ALTINCI FƏSİL

### *Alim və hikmət sahiblərinin dediklərindən*

◘Hamid deyir: “Dörd şeyi dörd yerdə axtardıq tapmadıq, sonradan başqa dörd yerdə tapdıq: Ehtiyacsızlığı sərvətdə axtardıq, qənaətdə tapdıq, izzəti əsil-nəcabətdə axtardıq, təqvada tapdıq, rahatlığı var-dövlətdə axtardıq, az malda tapdıq, neməti paltar, yemək və s. istəklərdə axtardıq, bədənin sağlamlığında tapdıq.”

◘Alimlərdən biri deyib: "Dörd şeyi gizli saxlamaq yaxşılıq xəzinələrindəndir: Ehtiyacı, sədəqəni, ağrını və bəlanı" (yəni, onlardan şikayət edilməsin, nəinki çarə dalınca gedilməsin.)

◘Başqa birisi də deyib: "Dörd şey bədbəxtlik əlamətidir: Qəlbin bərkliyi, gözün quruluğu, simiclik və uzun-uzadı arzular."

◘Başqa birisi deyib: "Dörd şey kərəm və böyüklük əlamətidir; bəxşiş, kimsəyə əziyyət etməmək, yaxşılığın əvəzini verməkdən ötrü tələsmək və cəza verməyi təxirə salmaq. Dörd şey dörd məqama çatmaq vasitəsidir; əql rəyasətə çatmaq, tədbir siyasətə çatmaq, elm üstünlük qazanmaq və helm isə vüqarlı olmaq vasitəsidir. Dörd kəsi dörd şey vasitəsi ilə tanıyarlar: Yazıçını yazısı vasitəsi ilə, alimi cavabı vasitəsi ilə, hikmət sahibini əməli vasitəsi ilə və hövsələli adamı səbr və dözümü vasitəsi ilə."

◘Dörd şey xoşbəxtliyə dəlalət edir; elmi sevmək, həlim olmaq, düzgün cavab vermək və işlərində səhvə yol verməmək."

◘Dörd şey zirəklik əlamətidir; qüssəni udmaq (yəni, qəm-qüssə zamanı dözümsüzlük göstərməmək), fürsətdən istifadə, camaatın tərəfdarlığından istifadə etmək və düşmənə qarşı mehriban və nəzakətli olmaq.

◘Dörd şey insanı dörd şeyə çatdırar; səbr arzu olunana, çalışmaq hədəfə, zahidlik təqvaya və qənaət var-dövlətə.

◘Əgər dörd xüsusiyyətə sahib olsan bir çox qəm-qüssə və danlaqları özündən uzaqlaşdırmış olarsan; xoş xasiyyət, qənaət, doğru danışmaq və əmanətdarlıq.

◘Bir arif deyib: "Dörd şeyi dörd şey vasitəsi ilə yuyun; üzü göz yaşı ilə (yəni, Allah xofu və günah qorxusundan), dili zikr vasitəsilə, qəlbi Allah qorxusu ilə və günahı da tövbə vasitəsi ilə."

◘Bir alim deyib: "Elm ağacının meyvəsi dörd şeydir: 1. Allahdan qorxu. Bu alim və Pərvərdigar arasındadır. 2. Mehribanlıq. Bu alimlə camaat arasındadır. 3. Səbr. Bu alimlə özü arasındadır. 4. Zöhd. Bu isə alimlə dünya arasındadır."

◘Bəziləri deyib: “Camaat dörd dəstədir: 1. Bəziləri bilir, lakin, bildiyini bilmir. Beləlℓəri unutqanlardır, onların yadına salın. 2. Bəziləri bilmir və bilir də ki, bilmir. Beləlℓəri cahillərdir, onlara təlim-tərbiyə verin. 3. Bəziləri bilmir və bilmir ki, bilmir (yəni, bilmədiyini də bilmir) bunlar nadanlardır, belələrini başlı-başına buraxın. 4. Bəziləri də ki, bilir və bildiyini də bilir. Bunların ardınca gedin, bunlar alimlərdir.”

◘Hippokrat deyib: “Bəla dörd şeydədir; ailənin çoxluğunda, malın azlığında, pis qonşuda və xəyanətkar qadında.”

◘Dörd şey ömrü xarab edər; yemək üstündən yemək, acqarına su içmək, hamamda cinsi yaxınlıq və qoca qadınla cinsi yaxınlıq.

◘Bir filosof deyib: “Dörd şey kimi heç nə hədərə getmir; vəfasıza qarşı məhəbbət, qanmayana yaxşılıq, ədəbdən faydası olmayana ədəb öyrətmək, sirr saxlamayana sirr vermək.”

◘Hər kəs dörd şey vasitəsilə dörd şey istəsə, mümkün olmayan şey tələb etmiş olacaq; riya vasitəsi ilə savab, düşmənçilik vasitəsi ilə dostluq, vəfasızlıq vasitəsi ilə vəfa və rahatlıq vasitəsi ilə elm.

◘Fars filosofları deyib: “Dörd şey dörd şeydən doymaz; göz gözəl üzdən, qulaq fəsih sözdən, qəlb nəsihətdən və müsafir sərin mehdən.”

◘Rum filosofları deyib: “Dörd şey dörd şeydən doymaz; göz baxmaqdan, qulaq xəbərdən, yer yağışdan və qadın kişidən.

◘Ərəb filosofları deyib: “Dörd kəs dörd şeydən doymaz; şücaətli kəs müharibədən, səxavətli kəs bəxşiş verməkdən, pəhrizkar şəxs duadan və xeyirxah mədhdən.”

◘Hikmət sahibləri dörd asimani kitabın hər birindən bir cümlə seçiblər. Tövratdan “Hər kəs Allahın verdiklərinə razı olsa dünyada da, axirətdə də rahat olar”, Zəburdan “Camaatdan uzaq gəzən kəs dünyada və axirətdə nicat tapar”, İncildən “Hər kəs istəklərindən əl çəksə hər iki dünyada əziz olar”, Qurandan isə “Dilini saxlayan hər bir kəs hər iki dünyada salamat olar.” (Əlbəttə, bu məzmunda bir şey Quranda yoxdur, yəqin ki, müxtəlif ayələrdən istifadə edilərək belə nəticəyə gəlmişlər.)

◘Bir filosof deyib: “Dörd kəsdən başqa heç kəslə dostluq etmə: 1. Xeyrinə ümidvar olduğun kəslə. 2. Şərindən amanda olduğun kəslə. 3. Əməlindən bəhrələndiyin kəslə. 4. Duasının bərəkətindən istifadə etdiyin kəslə.”

◘Bir hikmət sahibi deyib: “İslam filosoflarının şüarı dörd şeydir; təqva, həya, şükr və səbr.

◘Loğman öz oğluna deyib: “Oğul! Bil ki, Allah hüzurunda dayandığın zaman səndən dörd şey barəsində soruşacaqlar: 1. Cavanlığını hansı yolda keçirdin. 2. Ömrünü hansı yolda keçirdin. 3. Malını hansı yolla əldə etdin. 4. Malını harada sərf etdin. Bu suallara cavab hazırla.

◘Oğul! Bil ki, mən dörd yüz peyğəmbərlə görüşdüm, onların dediklərindən dörd cümləni seçdim: 1. Namaz halında qəlbini qoru, (yəni, hüzuri-qəlblə namaz qıl.) 2. Süfrə başında boğazına nəzarət et (yəni, nə yediyinə və nə qədər yediyinə diqqət et.) 3. Camaatın evində gözünə hakim ol. 4. Camaat arasında dilini qoru.

◘Hippokratdan soruşdular: “İnsaniyyət nədir?” Dedi: “Rifah zamanı təvazökarlıq, qüdrət zamanı əfv etmək, kasıbçılıq vaxtı səxavətli olmaq və minnətsiz bəxşiş.”

◘Əbu Əli Səqəfi deyib: “Ağıllı insan gərək dörd şeyə mütləq riayət etsin; əmanət, doğrudanışmaq, ləyaqətli dost, öz daxili aləminə.”

◘Bir alimdən soruşdular: “Giriftarçılıq anında nə edirsən?” Dedi: “Dörd şeyə etimad edirəm, çətinlik asanlaşır. Öz-özümə deyirəm Allahın qəza və qədərinə çarə yoxdur, səbr etməyib nə edəcəyəm, bundan da pis hal mövcuddur və olsun ki, fərəc yaxındır.”

◘Bəziləri deyib: “İnsan dörd şeyi öz nəzərində bərabər bilməyincə kamil olmaz; vermək və verməmək (yəni, ona bir şey versələr də, verməsələr də onun üçün fərqi olmasın), izzət və zillət.”

◘Bilal ibn Səid deyib: “Ey Allahın bəndələri! Sizin günahkar olmağınıza baxmayaraq Allah dörd mərhəməti sizdən əsirgəməyib; ardıcıl olaraq sizə ruzi verir, Öz rəhmətini əsirgəmir, eyiblərinizin üzərindən pərdə götürmür, bu gün siz nə istəyirsiniz danışırsınız Allah

sizə heç bir söz demir, elə bir gün də gələcək ki, Allah danışacaq və siz susacaqsınız.”

## YEDDİNCİ FƏSİL

### *Naməlum şəxslər tərəfindən söylənilən nəsihətlər*

◘Ərəblə əcəm dörd şey barəsində müttəfiqdirlər; ürək tab gətirmədiyi şeyi öz üzərinə alma, var-dövlətə görə məğrur olma, qadına arxayın olma və bir də bihudə iş görmə.

◘Alimlər dörd kitabdan dörd cümlə seçiblər; Tövratdan “Qənaətcil adam tox olar”, Zəburdan “Sükut edən salamat qalar”, İncildən “Çəkilib bir küncdə oturan nicat tapar”, Qurandan “Allaha tərəf gedən hər bir kəs hidayət olub.”

◘Allah-təala həzrət Davuda (ə) vəhy edib buyurdu: “Ağıllı insan gücünü dörd hissəyə bölməlidir; bir hissəsini Allahla münacata, bir hissəsini öz haqq-hesabını çəkməyə, bir hissəsini eyiblərini ona göstərməkdən ötrü dostlarla görüşə və digər hissəsini də rahatlıq və halal ləzzətlərə.”

◘Qəlbin nuraniliyi dörd vasitə ilə əmələ gəlir; ac qarından, saleh dostdan, keçmiş günahları xatırlamaqdan və arzuların azaldılmasından.

◘Düz danışmaq dörd növdür; vacib, haram, məkruh, müstəhəb. Vacib şahidlik edən zamandır. Haram söz gəzdirən zaman, məkruh camaatı üzünə tərifləmək, müstəhəb isə dalca tərifləmək.

◘Dörd xüsusiyyət pisdir, onun dörd şəxsdə olması lap pisdir; simiclik varlıda, həyasızlıq qadında, qəzəb alimdə və yalan qazidə.

◘Ağıllı adamın dörd xüsusiyyəti var; nadanlara qarşı helm, batildən üz çevirmək, lazım olan yerdə xərcləmək və mal sərf etmək, bir də dostu düşməndən seçə bilmək.

◘Beytül-Müqəddəsin dağlarında bir daş tapmışdılar, onun üzərində yazılmışdı; günahkar səksəkəlidir, sözə baxan arxayındır, qane olan əzizdir, həris isə zəlil.

◘Cəfər ibn Yəhyanın məktublarının birində dörd cümləni qızılla yazdığını gördülər: 1. Ruzi müəyyən olunub. 2. Həris məhrumdur. 3. Simic üzü danlaqlıdır. 4. Paxıl da qəmgindir."

◘Bir hədisi-qüdsidə Allah-təala buyurub: "Mən dörd şeyi dörd yerdə qərar vermişəm, lakin camaat onu başqa yerdə axtarır və tapmır: Elmi aclıq və qürbətdə qərar vermişəm, camaatsa onu başqa yerdə axtarır. İzzəti Mənə bəndəlikdə qərar vermişəm, camaatsa onu padşahların qapısında axtarır. Varlılığı qənaətdə qərar vermişəm, camaat isə onu çoxlu mal-dövlətdə axtarır, əldə edə bilmirlər. Rahatlığı behiştdə yaratmışam camaatsa onu dünyada axtarır."

## SƏKKİZİNCİ FƏSİL

## *Fars filosoflarının hikmətli sözləri*

◘Dörd şey dörd şey almamış yoluna düşməz; səltənət ədalət olmazsa davamlı olmaz, dost olmadan düşməni məhv etmək olmaz, camaatın sevgisini qazanmaq təvazödən başqa bir şeylə müyəssər olmaz, hədəflərə çatmaq da səbirdən başqa bir şeylə mümkün olmaz.

◘Dörd iş görmək heç kəsə layiq deyil; xahişi qəbul etməyəndən xahiş, yaxşılıq bilməyənə yaxşılıq, mühüm işlərdə tələsmək və bir də günah.

◘Dörd kəsə qarşı nəzakətli olmaq lazımdır; zülümkar padşaha, xəstəyə, nadanlıq girdabına qərq olmuş məstə və xoşrəftar və xeyirxah dosta qarşı.

◘Dörd şey xoşbəxtliyə dəlalət edir; pak nəsil, pak qəlb, pak əl və düzgün rəy.

◘Dörd şeyə heç bir kəs arxayın olmasın; padşaha yaxınlaşmağa, uşaqlarının dindarlığına, paxılların nəsihətinə və qadınların dostluğuna.

◘Dörd işə hər kəs bulaşsa uçuruma yuvarlanar: 1. Təkəbbür və özünübəyənmə. 2. Camaatın eyiblərini danışıb, onlara töhmət vurana. 3. Malını simicliklə camaatdan əsirgəyənə. 4. Alçaqlardan təvəqqö etmək.

◘Dörd şey xoşbəxtlik əlamətidir; əhd-peymana vəfa etmək, təvazökarlıq, halal ruzidən ötrü çalışmaq, ləyaqətli, ağsaqqala ehtiram göstərmək.

◘Dörd şey bədbəxtlik əlamətlərindəndir; nadanlarla oturub durmaq, fasiq və günahkarlarla yoldaşlıq etmək, çoxdanışan adamların nəsihətlərinə qulaq asmaq və qadınların dediyinə əməl etmək.

◘Dörd şeydən uzaq gəzmək lazımdır; səbirsizlik və iş görməkdə tələsmək, qəzəb, simiclik, təkəbbür və xudpəsəndlikdən.

◘Dörd şey varlanmağa səbəb olar; dostlarla məşvərət, düşmənlərlə nəzakət, nəfs istəklərini tərk etmək və Allahın təqdiri müqabilində səbirli olmaq.

◘Dörd işin axırı dörd şeylə nəticələnər; qəzəbin axırı peşmançılıq, tərsliyin axırı rüsvayçılıq, pis sözün axırı düşmənçilik və tənbəllik və süstlüyün də axırı xarlıq.

◘Dörd şey dörd şey vasitəsi ilə kamil olar; elm əql vasitəsilə, itaət zahidlik və təqva ilə, əməl ixlas vasitəsi ilə və nemət şükr vasitəsi ilə.

◘Dörd şey dörd şeyə səbəb olar; sükut rahatlığa, boş-boş sözlər danlağa, səxavət kamal və tərəqqiyə, şükr isə ruzinin bolluğuna. Allah-təala buyurub: "Əgər şükr etsəniz sizə olan nemətlərimi artıraram."

◘Dörd şey adamı zəiflədər; düşmənin çoxluğu, borcun çoxluğu, günahın çoxluğu və ailə üzvlərinin çoxluğu.

◘Dörd şey dörd şeyə gülər; təqdir tədbirə, ölüm arzuya, qəza və qədər ehtiyata, ruzi də həris adama.

◘Dörd şey ömrün qısalmasına və onun xarab olmasına səbəb olar; çox cinsi yaxınlıq etmək, isti suyun içində çox oturmaq, qurumuş ət yemək və qoca qadınla yaxınlıq etmək.

◘Dörd kəsin dörd şeyi yoxdur; yalançının mərdliyi, paxılın rahatlığı, simicin səadəti və bədəxasiyyətin uca məqamı.

◘Dörd şey hər iki dünyanın xoşbəxtliyinə səbəb olar; Allaha, Peyğəmbərə (s) və imamlara (ə) itaət etmək, ata-anaya itaət etmək, alimlərə xidmət etmək və camaata qarşı mehriban olmaq.

◘Dörd şey dörd şeyə möhtacdır; şərəf ədəbə, xoşluq əmniyyətə, qohumluq dostluğa, əql də təcrübəyə.

## BEŞİNCİ BÖLMƏ

### *Beş tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Şiələrin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘Beş şey əməl tərəzisini qat-qat ağırlaşdırar: “Subhənallah”, “Əlhəmdu lillah”, “La ilahə illəllah”, “Allahu Əkbər” və Allah xatirinə saleh övladın ölümünə səbr etmək.

◘İslamın əsası beş şeydən ibarətdir: “La ilahə illəllah”, namaz, zəkat, həcc və Ramazan ayının orucu.

◘Beş iş var ki, hər kəs onları yaxud, birini yerinə yetirsə cənnət əhlidir. (Bir şərtlə ki, etiqad və əməli tamam-kamal olsun); susuza su vermək, acı doyurmaq, çılpağa paltar geyindirmək, piyadanı mindirmək və qul azad etmək.

◘Tövratda beş cümlə var ki, qızıl su ilə yazılsa yenə azdır:

1. Evdə qəsbi bir daşın olması həmin evin xaraba qalmasına səbəb olar.
2. Zülmlə qalib gələn məğlubdur.
3. Günah vasitəsilə qələbə çalan qalib deyil.
4. Allahın haqqını yerinə yetirməyin ən az həddi odur ki, verdiyi nemətləri günah qazanma vasitəsi etməyəsən.
5. Sənin abrın donmuş su (buz) kimidir. Yalvarma və xahiş zamanı əriyər. Bax gör abır-heysiyyətini kimin yanında tökürsən.

◘İbn Abbas deyir ki, bir gün Peyğəmbərdən (s) soruşdum: “Adəmin Allahdan öyrəndiyi və tövbə etmə vasitəsi olan sözlər hansılardır?” Buyurdu: “Allahı Məhəmmədə (s), Əliyə (ə), Fatiməyə (ə), Həsənə (ə) və Hüseynə (ə) and verdi, tövbəsi də qəbul oldu.”

◘Həyatımın sonuna qədər bu beş əməli əldən verməzəm; qullarla bir yerdə torpaq üzərində oturub yemək yemək, ulağa minmək (çünki, bu iş təvazökarlıq əlamətidir), keçini öz əli ilə sağmaq, yundan hazırlanan paltar geyinmək (o zamanlar yundan hazırlanan parça ən kobud parça idi) və uşaqlara salam vermək. (Mən bu işləri heç vaxt tərk etməyəcəyəm ki,) qoy, məndən sonra bunlar sünnə olsun.

◘Alış-verişlə məşğul olan kəs gərək beş şeydən uzaq olsun. Əks təqdirdə, alveri tərk etsin; riba almaq, and içmək, malın nöqsanını örtmək, satış zamanı malı tərifləmək, alış zamanı malı pisləmək.

◘Beş nəfərdən hər bir halda uzaq gəzmək lazımdır; xora xəstəliyinə tutulandan, natəmiz və çirkin adamdan, dəlidən, haramzadədən və ərəblərdən. (yəni, biyabanda həyat sürüb ictimai və dini ədəblərdən xəbəri olmayan bədəvilərdən).

◘Bir kişi Peyğəmbərə (s) ərz etdi: "Ya Rəsuləllah, mən bu oğluma yazı yazmaq öyrətmişəm, indi onu hansı peşəyə qoyum?" Həzrət buyurdu: "Allah sənin atana xeyir versin! Hansı işə istəyirsən qoy, beş işdən başqa; kəfən satan, zərgərlik, qəssablıq, buğda satan və qul satan. Çünki, kəfən satan həmişə camaatın ölməyini arzulayar, halbuki, mənim ümmətimdə yeni doğulan körpə günəşdən və onun saçdığı bütün şeylərdən üstündür. Zərgər müamilə zamanı hiylə və fırıldaq işlədər, qəssab daşqəlbli olar, buğda satan möhtəkir[1](1) olar. Qul alveri ilə məşğul olan adama gəldikdə isə, Cəbrail (ə) mənə xəbər verdi ki, insanların ən pisi Allahın qullarını satanlardır."

◘Allah mənə üç üstün xüsusiyyət vermişdir ki, məndən öncə bunları heç kəsə verməmişdir; yer üzərini (torpağı) mənim üçün səcdəgah və paklayıcı qərar vermişdir, mənə düşmənlərimin qəlbində dəhşət və qorxu yaratmaqla daim kömək etmişdir, döyüş qənimətlərini mədən ötrü halal etdi, mənə mükəmməl, hərtərəfli nitq və bəlağət verdi və mənə şəfaət məqamı nəsib etdi.

◘Allah-təala beş xüsusiyyət mənə və beş xüsusiyyət də Əliyə (ə) verib; mənə mükəmməl sözlər, Əliyə isə mükəmməl elm əta edib, mənə peyğəmbərlik, Əliyə (ə) isə imamlıq verib, mənə Kövsər hovuzunu, Əliyə (ə) isə Səlsəbili bəxş edib, mənə vəhy göndərib, Əliyə (ə) isə ilham, məni göyə apardı, Əlidən (ə) ötrü isə göyün qapılarını açıb gözləri önündən pərdələri götürdü.

◘Allahdan necə lazımdır utanın;
1.Əgər əməl etmək qərarınız varsa yatmayın.

---

[1] Möhtəkir–baha satmaqdan ötrü mal alıb yığan adam.

2-3. Beyinə və onun fikirlərinə və qarına və onun möhtəvasına düzgün riayət edin. 4. Qəbiri və bədəninizi örtməyi yaddan çıxarmayın. 5. Axirəti istəyəndə dünya bər-bəzəyindən əl çəkin.

◘Hər kəs beş şeyi öz öhdəçiliyinə alsa, mən də behiştdən ötrü ona zamin olaram; Allaha, Peyğəmbərə (s), Qurana, Allahın dininə, İslam cəmiyyətinə qarşı xeyirxah və ürəyiyanan olsun.

◘Peyğəmbər (s) əmr verib ki, beş heyvanı öldürsünlər; qarğa, sağsağan, ilan, əqrəb və quduz it.

◘Beş şey fitri dindən irəli gəlir; dırnaq tutmaq, bığları azaltmaq, qoltuğun tüklərini və qarının aşağı hissəsindəki tükləri azaltmaq və sünnət etmək.

◘Həzrət Əliyə (ə) etdiyi nəsihətlərində belə buyurur: "Əbdül-Müttəlib cahiliyyət dövründə beş qanunu adət halına saldı ki, Allah-təala onları İslamda da saxladı:

1) Atanın arvadını oğula haram bildi. Bu barədə Allah-təala buyurub: "Atalarınızın evləndiyi qadınlarla evlənməyin."

2) Xəzinə tapan şəxs beşdə birini sədəqə verməli idi. Allah da belə buyurub: "Bilin ki, döyüşdə ələ keçirdiyiniz qənimətlərin beşdə bir hissəsi Allahındır."

3) Zəmzəm suyunun adına "Siqayətül-Həcc" yəni, "Hacılara verilən su" adını qoymuşdur.

4) Qan bahasını yüz dəvə qərar verdi.

5. Qüreyş nəzərində təvafın xüsusi miqdarı yox idi. Əbdülmüttəlib onun sayını yeddi qərar verdi. Bu hökm də İslamda olduğu kimi qaldı."

◘Ey Əli! Əbdülmüttəlib nə qumar oynadı, nə bütə sitayiş etdi, nə də ki, bütlərdən ötrü kəsilən qurbanlıq heyvanların ətindən yedi. O, belə deyirdi: "Mən İbrahimin (ə) dinindəyəm."

◘Beş münasibətdən başqa ziyafət verməyə lüzum yoxdur; toy, övlad dünyaya gələrkən, uşağı sünnət edərkən, Məkkədən qayıdarkən və ev alarkən.

◘Ey Əli! Mən sənin barəndə Allahdan beş şey istədim, hamısını da verdi:

1. Mən qəbirdən qalxacaq əvvəlinci kəs olum, Əli də mənimlə olsun.
2. İcazə versin əməllərin haqq-hesabı çəkilən yerdə ikimiz də olaq.

3. Qiyamət günü səni mənim bayraqdarım etsin.
4. Mənim ümmətimə sənin vasitənlə Kövsər hovuzundan su içirsin.
5. Behiştə gedən zaman səni ümmətin rəhbəri qərar versin. Allaha şükürlər olsun ki, bütün bunları qəbul etməklə mənim boynuma minnət qoydu.

◘Cümə günü günlərin ən üstünüdür və Allah yanında fitr və Quban bayramlarından da üstündür. Cümə gününün beş üstün xüsusiyyəti var:
1) Adəm bu gündə yaranıb.
2) Bu gündə də yerə enib.
3) Vəfatı da bu gündə olub.
4) Cümə günündə bir saat var ki, hər kəs Allahdan öz hacətini həmin saatda istəsə qəbul olunar. Bu şərtlə ki, haram bir şey istəməsin.
5) Müqərrəb mələklər, yer, göy, küləklər, dağlar, su, quru hamısı nigarandırlar ki, olmaya qiyamət günü də bu gündə olsun. (Yəni, çox ehtimal var ki, Qiyamət günü də bu gündə olsun.)

◘Yəzid ibni Sabitə buyurdu: “Evlənmisən?” Dedi: “Xeyr.”Buyurdu: “Evlən ki, pakdamən qalasan və heç vaxt “şəhirə”, “ləhirə”, “nəhirə”, “hidərə” və “ləfut”la evlənmə! Yəzid dedi: “Ya Rəsuləllah, mən bilmirəm sənin bu buyurduqların nə deməkdir.” Buyurdu: “Ərəb deyilsənmi? Şəhirə göy rəngli, acıdil və həyasızdır, “ləhirə” hündür boylu və arıqdır, “nəhirə” balaca boylu və pis görkəmlidir, “hidərə” yaşı keçmiş qocadır, “ləfut” isə başqa ərdən uşağı olan qadındır.”

◘İnsanların ən yaxşısı o kəslərdir ki, yaxşı iş görən zaman sevinər, pis iş görən zaman peşman olar və istiğfar edər, nemət zamanı şükür, bəla və müsibət zamanı isə səbir olar və bir də acığı tutanda güzəştə gedir.

◘Ramazan ayında mənim ümmətimə beş imtiyaz verilib ki, məndən öncə heç bir ümmətə verilməyib:
1. Birinci gecədə Allah hamıya rəhmət nəzərilə baxar və hər kəsə ki, Allah rəhmət nəzəri ilə baxsa heç vaxt ona əzab verməz.
2. Ağızlarından gələn iy Allah yanında müşkdən də ətirlidir.
3. Mələklər gecə-gündüz onlardan ötrü istiğfar edər.
4. Allah behiştə əmr edər ki, özünü bəzəyib bəndələrimdən ötrü rəhmət diləsin. Çünki, tezliklə onlar dünyanın əzab-əziyyətindən xilas olub behiştə, mənim onları şərəfləndirəcəyim yerə daxil olacaqlar.
5. Ayın axırıncı gecəsi hamını bağışlayar.

Bu zaman bir nəfər soruşdu: "Qədr gecəsi bağışlayar, yoxsa axırıncı gecə? " Həzrət buyurdu: "Məgər görməmisənmi ki, işçilərin maaşını işin axırında verirlər?"

(Zahirən bunlar o kəslərə aiddir ki, bu ayın orucunu üzürsüz sındırmır və günah etməklə həya pərdələrini yırtmırlar.)

◘Məaz deyir ki, bir gün Peyğəmbərə (s) ərz etdim: " Mənə elə bir əməl öyrət ki, onun vasitəsi ilə atəşdən xilas olub cənnətə daxil olum." Buyurdu: "Ey Məaz, böyük bir şey istədin, lakin, Allah hər kəs üçün istəsə işləri asanlaşdırar. Allaha itaət et və heç bir şeyi ona şərik qoşma, namaz qıl, zəkat ver, Ramazan ayının orcunu tut və bir də nə qədər bacardın Allah evinin ziyarətinə get."

◘Beş xüsusiyyətə yiyələnməmiş heç bir bəndənin imanı kamil olmaz; Allaha təvəkkül, işləri ona tapşırmaq, fərmanına itaət etmək, təqdirinə razı olub, bəlalarına səbr etmək. Bir də hər kəsin dostluğu və düşmənçiliyi, verməyi və əsirgəməyi Allaha görə olsa imanı kamil olar.

## **İKİNCİ FƏSİL**

## ***Sünnilərin Peyğəmbərdən (s) nəql etdikləri hədislər***

◘Hər kəs yeddi tayfa insanla düz gəlməsə zərər görər; Alimlərlə düz gəlməyən dinini, rəhbərlərlə düz gəlməyən dünyasını, qonşusu ilə düz gəlməyən mənafeyini, qohumlarla düz gəlməyən alicənablığını, həyat yoldaşı ilə düz gəlməyən isə həyatın şirinliyini və ləzzətini əldən verər.

◘Allah hər kəsə beş işdə tövfiq versə, ondan ötrü beş mükafat hazırlayıb; hər kəsə şükr etmə tövfiqi versə onun üçün çoxlu nemət hazırlayıb, hər kəsə dua etmək tövfiqi versə ondan ötrü icabət hazırlayıb, hər kəsə tövbə və istiğfar tövfiqi versə ondan ötrü bağışlama hazırlayıb, hər kəsə sədəqə vermə tövfiqi veribsə ondan ötrü əvəz hazırlayıb və o kəsə ki, iman verib ona behişt də verəcək.

◘Beş şeydən qabaq beş şeyi qənimət bil; qocalıqdan qabaq cavanlığı, fəqirlikdən qabaq dövlətliliyi, məşğul olmaqdan öncə asudəliyi, xəstəlikdən öncə sağlamlığı və ölümdən öncə diriliyi.

◘Beş əməlin nəticəsi beş şeydir:

1) Allah əhd-peymanlarını sındıran millətə düşmənləri hakim edər.

2) Allahın hökmlərindən başqa qanunlar qəbul edən və onlar əsasında hökm verən camaata fəqirlik və yoxsulluq üz verər.

3) Hər hansı bir millət arasında zina artdıqca ölüm də artar.

4) Çəkidə aldadılan yerdə bitki bitməz, yaşıllıq olmaz və həmin yerə qıtlıq üz verər.

5) Zəkat verilməyən yerdə də yağış yağmaz.

◘Hər kəs beş iş görsə beş şeyə giriftar olar və hər kəs də bu beş şeyə giriftar olsa şübhəsiz atəşə daxil olar:

1) Hər kəs qaynadılmış üzüm suyu içsə şəraba qurşanar. Şərab içənin də cəhənnəmdən çarəsi yoxdur.

2) Hər kəs naməhrəm qadınlarla oturub-dursa zinaya qurşanar və zinakar cəhənnəm əhlindəndir.

3) Şən və vəzifəsinə uyğun olmayan bahalı paltarlar geyən şəxs getdikcə təkəbbürlü olar. Mütəkəbbirin də yeri cəhənnəmdir.

4) Hər kəs sultanın xalçası üzərində otursa gərək onun xoşuna gələn sözlər danışsın. Bu işin də sonu cəhənnəmdir.

5) Hər kəs İslam əhkamından xəbəri olmadan alış-veriş etsə ribaya düçar olar. Ribaxor da od əhlindəndir.

◘Sizi beş bataqlıqdan çıxarıb beş mərhələyə yüksəldən hər bir alimlə yoldaşlıq edin; şəkdən yəqinə, riyadan ixlasa, dünyapərəstlikdən zahidliyə, təkəbbürdən təvazöyə, düşmənçilikdən dostluğa.

◘Elə bir dövr yetişər ki, mənim ümmətim beş şeyə könül bağlayar və beş şeyi unudar, Dünyaya könül bağlayıb axirəti unudar, var-dövlətə, pula bağlanıb haqq-hesabı unudar: qadınlara bağlanıb hurul-eyni yaddan çıxarar, qəsrlərə bağlanıb qəbirləri unudar və özünü sevib Allahı unudar. Onlar məndən bezardır, mən də onlardan bezaram.

◘Sizə beş şeyi əmr edirəm; cəm halda olmağı (cəmiyyəti), haqq sözü eşitməyi və ona itaət etməyi, (ilahi elmləri və hökmləri öyrənməkdən ötrü) vətəni tərk etmək və Allah yolunda cihad etməyi. Hər kəs bir qarış İslam cəmiyyətindən uzaq düşsə və qayıdıb ona qoşulmasa İslamdan xaric olmuşdur. Hər kəs başında cahiliyyət fikirləri dolandırsa cəhənnəmdə dizi üstə çökmüş kəslərdəndir, baxmayaraq ki, namaz qılıb oruc tutmaqla özünü müsəlman hesab edir.

## ÜÇÜNCÜ FƏSİL

### *Sünni və şiələrin hər ikisinin Peyğəmbərdən nəql etdikləri hədislər*

◘Əli (ə) barədə mənə beş imtiyaz verilib ki, onları dünyadan və dünyada olanlardan daha artıq sevirəm:

1) Bəndələrin əməl və xüsusiyyətləri barədə olan Allahın kitabı bəndələrin haqq-hesabı bitənə qədər onun yanındadır.

2) Qiyamət günü həmd bayrağı onun əlində olacaq.

3) "Kövsər" hovuzunun saqisidir, mənim ümmətimdən də kimi istəsə sirab edəcək.

4) Məni kəfənə büküb, Allaha tapşıracaq (yəni, qəbrə qoyacaq).

5) Onun paklıqdan sonra çirkaba bulaşacağı imandan sonra küfrə düşəcəyi barədə zərrə qədər də olsun nə bir qorxum var, nə də bir narahatçılığım.

◘Həzrət Əliyə (ə) etdikləri nəsihətlərində buyurur: Ey Əli! Beş şey qəlbi öldürər; çox yemək, çox yatmaq, çox gülmək, çoxlu qəm-qüssə və haram yemək. Bu, imanı da aradan aparır.

◘Beş şey unutqanlığa səbəb olar; siçan yeyən bir şeydən yemək, üzü qibləyə idrar etmək, axarı olmayan suya, yaxud da kül üzərinə idrar etmək, biti diri halda yerə atmaq və haramçılıqla yaşamaq.

◘Beş şey qəlbi işıqlandırar: "İxlas" surəsini çox oxumaq, az yemək, alimlərlə oturub-durmaq, gecə namazı, məscidlərə getmək.

◘Beş şey qəlbə səfa bəxş edər və qəsavəti aradan aparar; alimlərlə oturub-durmaq, yetimin başına sığal çəkmək, gecə yarısı istiğfar etmək, gecə az yatmaq və oruc tutmaq.

◘Ey Əli! Beş şey gözün nurunu artırar: Kəbəyə baxmaq, Quranın xəttinə baxmaq, ata-ananın üzünə baxmaq, alimin üzünə baxmaq və bir də axar suya baxmaq.

◘Bir qurtum şərab içən adamı Allah beş bəlaya düçar edər; qəlb bərkliyi, Cəbrail, Mikail, İsrafil və bütün mələklərin bezarlığı, peyğəmbərlərin bezarlığı və cəhənnəm atəşi.

◘Hər kəs beş yerdə Allaha xəyanət etsə Qiyamət günü Allahın rəhməti ona nəsib olmaz və aqibəti də cəhənnəm odudur; dəstəmaz, namaz, oruc, həcc və zəkat. Hər kəs peyğəmbərlərin göstərişlərinə itaət etməsə Allaha xəyanət etmiş hesab edilir və sonluğu da cəhənnəm əzabıdır.

◘Allah beş qrup insana görə mələklər yanında fəxr edər; cihad edənlər, fəqirlər, Allaha xatir alnını torpağa qoyan cavanlar, çoxlu sayda minnətsiz infaq edən dövlətlilər və xəlvət yerdə Allah qorxusundan ağlayan kəs.

◘Beş şey beş kəsdə görünəndə daha gözəl olur; əməl alimdən, ədalət padşahdan, səxavət varlılardan, səbr fəqirlərdən və həya da qadınlardan. Əməlsiz elm tavanı olmayan otaq kimidir. Ədalətsiz padşah susuz arx kimidir. Səxavətli olmayan dövlətli meyvəsi olmayan ağac kimidir. Səbri olmayan fəqir işıq saçmayan çıraq kimidir. Həyasız qadın da duzsuz xörək kimidir.

◘Hər bir müsəlmanın digər müsəlman boynunda beş haqqı var; salama cavab, xəstə olanda yoluxmaq, dəfn mərasimində iştirak etmək, dəvətini qəbul etmək, asqıran zaman ona "yərhəməkumullah" demək.

◘Əbuzər deyir ki, Peyğəmbər (s) belə buyurdu: "Kimdir ki, mənim sözlərimi öyrənsin və ona əməl etsin, yaxud da başqalarının əməl etməsindən ötrü onlara öyrətsin?"

Dedim: "Mən!" Həmin vaxt Həzrət (s) əlimdən tutub mənim üçün beş şey saydı: "Günahdan çəkin ki, insanların ən abidi hesab olunasan, Allahın qismətinə razı ol ki, hamıdan daha varlı olasan, qonşuna yaxşılıq et ki, mömin olasan, özün üçün istədiyin şeyləri başqaları üçün də istə ki, müsəlman olasan və bir də çox gülmə ki, çox gülmək qəlbi öldürər.

◘Uşaqları beş şeydən ötrü çox istəyirəm; çox ağlayırlar, toz-torpağa bulaşırlar (yəni, təkəbbürdən tamamilə uzaqdırlar), anlaşılmazlıq olanda kin saxlamırlar, sabahdan ötrü ehtiyat saxlamırlar, tikirlər və sökürlər (yəni, öz tikdiklərinə qarşı məhəbbətləri yoxdur."

◘İmam Hüseynə (ə) buyurub: "Vacibləri yerinə yetir ki, hamıdan təqvalı olasan, Allahın qismətinə razı ol ki, hamıdan daha ehtiyacsız olasan, günahdan çəkin ki, hamıdan daha zahid olasan, qonşunla xoş

rəftar et ki, mömin olasan və yoldaşınla da yaxşı davran ki, İslamın şərtlərindəndir.”

◘Dünyanın beş çətinliyi var; bir dirhəm də olsa borc, fəraq (uzaq düşmək), bir xardal qədər də olsa dilənmək, bir mil də olsa səfər və qız, baxmayaraq ki, bir dənədir.

◘İnsanların ən simici odur ki, İslamdan simiclik etsin, ən tənbəli odur ki, bekar oturub Allaha zikr demir, ən oğrusu odur ki, namazdan bəzi şeylər oğurlayır və bu namazı köhnə əski parçası kimi necə gəldi büküb onun üzünə vurarlar, ən zalımı odur ki, mənim adımı eşidib salavat demir, ən bacarıqsızı da odur ki, dua etməkdə aciz olsun.

◘“Layiqli elm” təhsilindən ötrü sərf olunmayan ömür hədərə gedib, xeyir işdən ötrü sərf olunmayan elm batil olub, ixlasla yerinə yetirilməyən əməl bərbad olub, davamlı olaraq qorunmayan ixlas zay olub, aqibəti xeyirli olmayan davamiyyət də puç olub. Çünki hər bir əməlin xeyirli olub olmamasının meyarı onun aqibəti ilə ölçülür.

◘Bilin ki, qəbir beş sözlə fəryad edir:
1) Ey Adəm övladı! İndi mənim belimdə gəzirsən, lakin son mənzilin bətnimdədir.
2) Ey Adəm övladı! Belimdə şadsan, lakin, bətnimdə qəmgin olacaqsan.
3) Belimdə günah edirsən, bətnimdə əzaba düçar olacaqsan.
4) Belimdə gülürsən, qarnımda isə ağlayacaqsan.
5) Belimdə haram yeməklər yeyirsən, bətnimdə isə oddan, atəşdən yeməklər yeyəcəksən.

◘Qəbrin beş nidası var:
1) Mən tənhalıq eviyəm, özünüzlə dost gətirin.
2) Mən ilanlar mərkəziyəm, özünüzlə onları zərərsizləşdirən vasitə gətirin.
3) Mən qaranlıq bir mənziləm, özünüzlə çıraq gətirin.
4) Mən döşəməsi torpaq olan bir mənziləm, özünüzlə xalça gətirin.
5) Mən fəqirlik eviyəm, özünüzdən qabaq xəzinə göndərin.

◘Nə qədər ki, bir kəsdə beş xüsusiyyət cəm olmayıb heç vaxt imanı kamil olmaz; Allaha təvəkkül, Onun qarşısında təslim, bəlaya səbr, Allahın təqdirinə razılıq və camaatla mehribanlıq.

◘Möminin beş əlaməti var; xəlvətdə də təqvalı olmaq, kasıb halında da sədəqə vermək, müsibət və bəla zamanı səbr, qorxu zamanı düz danışmaq, qəzəb zamanı mülayim olmaq.

◘Mal toplamağın beş eybi, nöqsanı var; cəm etmək əziyyəti, Allahı yad etməkdən qəflət, əldə edən zaman onu əldən vermək qorxusu, simiclik, ləyaqətli və saleh insanlardan uzaq düşmək. Mal-dövləti xərcləməyin də beş nəticəsi var; can rahatlığı, Allahı yad etməkdən ötrü asudə olmaq, oğrudan və s. əldən vermə vasitələrindən olan qorxunun olmaması, kərim və səxavətli insan kimi tanınmaq və saleh insanlarla dostluq.

◘Hər kəs özünü göstərməkdən ötrü elm öyrənərsə dünyadan cahil kimi gedər, hər kəs əməldən ötrü yox, danışmaqdan, söhbət etməkdən ötrü elm öyrənərsə münafiq kimi ölər, hər kəs mübahisə və mücadilə etməkdən ötrü elm öyrənərsə fasiq kimi can verər, hər kəs var-dövlət toplamaqdan ötrü elm öyrənərsə dinsiz halda dünyadan gedər və hər kəs əməldən ötrü elm öyrənərsə arif və Allahı tanıdığı halda dünyadan gedər.

◘Beş şey axirət müsibətlərindəndir; namazı əldən vermək, alimin ölməyi, səndən bir şey istəyəni naümid etmək, ata-anaya itaətsizlik etmək və zəkat verməmək.

◘Beş şey də dünya müsibətlərindəndir; dostun ölümü, mal-dövlətin tələf olmağı, düşmənin məzəmməti, işləməmək və pis qadın.

◘Bir kəs sübh namazını qılmadığı vaxt göydən bir mələk onu səsləyib deyər: “Ey ziyankar!” Əgər zöhr namazını da qılmasa ona deyilər: “Ey xəyanətkar!” Əgər əsr namazını da tərk etsə ona deyilər: “Ey günahkar!” Əgər məğrib namazını da tərk etsə ona deyilər : “Ey kafir!” Elə ki, işa namazını da tərk edər ona belə deyilər: “Səndə heç bir xeyir və fayda yoxdur!”

◘Allah qiyamət günü beş nəfəri öz ərşinin kölgəsi altında saxlayar; namaz qılanı, zəkat verəni, oruc tutanı, Allah yolunda cihad edəni və Kəbənin ziyarətinə gedənləri.

## DÖRDÜNCÜ FƏSİL

### *Həzrət Əlidən (ə) nəql olunmuş hədislər*

◘Beş şey olmasaydı, insanlar hamısı saleh və ləyaqətli olardılar; nadanlıq və savadsızlığa qane olmaq, dünya hərisliyi, bolluqda simiclik, riya və ikiüzlülük, öz rəy və fikirlərində xudpəsəndlik.

◘Mən dili saxlamaqdan gözəl dostluq, təqvadan gözəl libas, qənaətdən dəyərli dövlət və mərhəmətli və mehriban olmaqdan gözəl ehsan və səbrdən də dadlı yemək görmədim.

◘Tövratın sonunda beş cümlə var ki, hər sübh tezdən mən onları oxumağı xoşlayıram:

1) Əməlsiz alim şeytana bərabərdir.
2) Ədalətsiz sultan Firona bərabərdir.
3) Dövlətli qarşısında müti olan tamahkar fəqir itə bərabərdir.
4) Faydası olmayan dövlət kərpicə bərabərdir.
5) Heç bir zəruri ehtiyac olmadan evdən çıxan qadın kənizə bərabərdir.

◘Mənim beş nəsihətimi heç vaxt unutmayın. Əgər bunları əldə etmək məqsədilə dəvəyə minib dünyanı dövr etsəniz dəvə əldən düşər, lakin siz məqsədinizə çatmazsınız:

1) Heç kəs Allahdan başqasına ümid bağlamasın.
2) Günahdan başqa bir şeydən qorxmayın.
3) Heç bir cahil sual soruşmaqdan utanmasın.
4) Səbrin imana nisbəti, başın bədənə olan nisbəti kimidir.
5) Səbri olmayanın imanı da olmaz.

◘Həzrətdən soruşdular: “Bəndəlik nədir?” Buyurdu: “Bəndəlik beş şeydə özünü biruzə verir; qarını boş saxlamaq, Quran oxumaq, gecə namazı qılmaq, sübh çağı ah-zar edib yalvarmaq və Allah qorxusundan ağlamaqda.”

◘Allah bizə beş imtiyaz verib; fəsahət, camal, kərəm, alicənablıq və camaat arasında ehtiram.

◘Elm beş şeydən başqa heç cür ələ gəlməz; çoxlu sual soruşmaq, çoxlu məşğul olmaq, rəftarın paklaşdırılması, alimlərin xidmətində durmaq və Cəlal sahibi olan Allahdan kömək istəməklə.

◘Cəhənnəmdə bir dəyirman var ki, hey fırlanır. Bilmək istəyirsinizmi ki, nə üyüdür?” Dedilər: “Nə üyüdür?” Buyurdu: “Günahkar alim, fasiq fəqir, zalım rəhbər, xain vəzir və yalançı şəhər hakimi.”

◘O həzrət öz fərmanı altında olan böyüklərə yazır: “Qələmlərinizi nazik edin, sətirlərin də arasında az məsafə qoyun. Artıq kəlmələri atın, ümdə diqqətiniz mənaya yönəlsin və artıq (ifrat) şeylərdən çəkinin. Çünki, müsəlmanların beytül-malının bütün bunlara dözümüyoxdur.

◘Hər kəs gününü bu beş şeydən birinə sərf etməsə o günün haqqını tapdalayıb: Haqqı əda etmək, ya vacibləri yerinə yetirmək, ya yaxşı ad qazanmaq, ya xeyirli bir işin əsasını qoymaq və yaxud da elm kəsb etmək.

## BEŞİNCİ FƏSİL

## *İmam Sadiqdən (ə) nəql olunan hədislər*

◘Beş şeyin beş kəsdən görünməyi qeyri-mümkündür: paxıldan nəsihət, düşməndən mehr, fasiqdən ehtiram, qadından vəfa, fəqirdən də heybət.

◘Beş şeyə heç kəs etiraz etmir: Simicin aramlığı yoxdur, paxıl heç vaxt ləzzət görməz, küsəyən adamın vəfası olmaz, yalançının comərdliyi, ağılsızın da alicənablığı olmaz.

◘Ən çox ağlayanlar beş nəfər olub: Adəm (ə), Yəqub (ə), Yusif (ə), Fatimə (ə) və dördüncü imam Həzrət Səccad (ə).

Adəm behiştdən uzaq düşdüyünə görə elə ağlayırdı ki, gözünün suyu sel kimi axırdı. Yəqub Yusifin ayrılığına görə o qədər ağladı ki, ona dedilər: “Vallah sən belə ağlamaqla ya möhkəm xəstəliyə tutulacaqsan, ya da öləcəksən.” Yusif (ə) atasından uzaq düşdüyünə görə o qədər ağladı ki, zindandakılar bezib dedilər: “Ya gecə ağla, gündüz aram qal, ya da gündüz ağla, gecə sakit qal.” O da, nəhayət, bunların birini qəbul etdi. Fatimə (ə) atasının ayrılığına görə o qədər ağladı ki, bütün Mədinə əhli bundan narahat oldular. Çarəsiz qalıb gedib şəhidlərin qəbri üzərində ağladı. Həzrət Səccad (ə) iyirmi il (yaxud, qırx il) atasından ötrü daim ağlar halda idi.

◘Həzrət Əlinin (ə) yazısında gördük ki, böyük günahların sayı beş qeyd olunub: Allaha şərik qoşmaq, ata-anaya zülm etmək, Allahın hökmündən xəbərdar olduğu halda faizə pul yemək, döyüşdən qaçmaq, müsəlmanların şəhərinə mühacirət etdikdən sonra kafirlərin şəhərinə geri dönmək (dinin vacib hökmlərini yerinə yetirə bilmədiyi halda.)

◘Əbid ibn Zürarə deyir ki, bir gün Həzrət Sadiqə (ə) ərz etdim: "Böyük günahları bəyan edin." Buyurdu: "Beş günah var ki, Allah onlardan ötrü cəhənnəm atəşi vəd edib:

1) Yetimin malını yemək; Bu barədə buyurub: "Yetimlərin mallarını yeyənlər qarınlarını odla doldururlar, tezliklə onlar cəhənnəmə daxil olacaqlar.

2) Riba; Bu barədə buyurub: "Ey möminlər! Allahdan qorxun və faizli puldan əl götürün..."

3) Döyüşdən qaçmaq; Bu barədə belə buyurub: "Ey möminlər! Döyüşdə kafirlərlə üz-üzə gəldiyiniz zaman dönüb qaçmayın..."

4) İffət sahibi olan ərli qadınlara böhtan atmaq;

5) Qəsdən mömini öldürmək.

(Böyük günahlar çoxdur. Lakin, hər bir münasib anda şəxs və məkan nəzərə alınaraq onlardan bir neçəsi bəyan olunub.)

◘Dostluğun şərtləri və hədləri var. Bu həddi-hüduda riayət etməyənləri kamil dost hesab etmə. Hər kəs də ki, ümumiyyətlə, bu şərtlərdən xaric oldu, ona heç dost demə. Şərtlər və hüdudlar bunlardır; gizlini də aşkarı da bir olsun. (Heysiyyəti sənin heysiyyətin, xiffəti də sənin xiffətin olsun), malı pulu onun dostluğuna heç bir təsir göstərməsin, qüdrəti çatan heç bir şeyi əsirgəməsin, çətinliklər zamanı səni tək qoymasın.

◘Hər kəsdə bu beş xüsusiyyətdən biri olmasa heç kəs ondan faydalana bilməz; vəfa, tədbir, həya, xoş xasiyyət və azadlıqsevən.

◘Hər kəs bu beş nemətdən birinə sahib olmasa həyatın şirinliyini dadmaz və həmişə fikri ayrı yerdə (qarışıq) olub daim özü ilə məşğul olar; bədənin sağlamlığı, əmniyyət, geniş ruzi və münasib munis. Ravi deyir: "Soruşdum, münasib munis kimdir? " Buyurdu: "Saleh qadın, saleh övlad və saleh dost. Beşincisi isə bunların dördünə də sahib olmaqdır."

◘İnsanlar arasında paylanan ən az şey beşdir: yəqin, qənaət, səbr, şükür və bunların hamısına sahib olan əql.

◘Şeytan deyib: "Beş nəfərdən başqa hamı mənim əlimdədir:
1) Səhih niyyətlə bütün işlərdə Allaha təvəkkül edənlər;
2) Gecə-gündüz çoxlu zikr deyənlər;
3) Özü üçün istədiyi hər bir şeyi mömin qardaşından ötrü də istəyənlər;
4) Müsibət zamanı səbr edənlər;
5) Öz qismətinə razı olub ruzi dərdi çəkməyənlər.

◘Zəkatı beş kəsə vermək olmaz; övlada, ataya, anaya, qadına və nökərə.

◘Behişt meyvələrindən beşi dünyada da var; nar, alma, heyva, üzüm və rütbə (xurma növü)

◘Əbu Üsamə deyir ki, Həzrət Sadiq (ə) belə buyurdu: "Allahdan başqa heç kəsin bilmədiyi beş şeyi sənə söyləyimmi?" Dedim: "Bəli." Həzrət bu ayəni oxudu:
1) Qiyamətin qopacağı vaxtı Allahdan başqa heç kəs bilmir.
2) Allah yağış göndərir.
3) Bilir ki, bətinlərdə nə var.
4) Heç kəs bilmir ki, sabah nə edəcək.
5) Heç kəs harada öləcəyini də bilmir. Allah bunların hamısını bilir."

◘İmam Səccad (ə) buyurub: "Dinin kamil olmasının beş əlaməti var; faydası olmayan sözlərdən çəkinmək, söhbət zamanı mücadilə, höcət etməmək, səbr, dözümlülük və xoş xasiyyət.

◘Mənim şiəm o kəsdir ki , öz qarnını və cinsiyyət üzvünü qorusun, din yolunda möhkəm və çalışqan olsun, işlərini yalnız Allaha görə etsin, Onun savabına ümidvar olsun və əzabından qorxsun. Əgər bu xüsusiyyətdə bir adam görsən bil ki, İmam Cəfər Sadiqin (ə) şiəsidir.

◘İmam Zamanın (ə) zühurundan qabaq beş şey mütləq baş verəcək:
1) Bir Yəmənli kişinin meydana çıxması.
2) Əbu Süfyan nəslindən olan bir kəsin meydana çıxması.
3) Asimandan gələn səs.
4) Məkkə və Mədinə arasında olan "Biyda" adlı bir məkanın bir hissəsinin yerə batması.
5) Pak bir kişinin öldürülməsi.

◘Dinin məsləhət icazəsi verdiyi işlərdə beş xüsusiyyətə malik olan insanlarla məşvərət et; ağıl, elm, təcrübə, xeyirxahlıq və təqva. Əgər belə bir adam tapmasan sən özün bu beş cəhətə riayət et, sonra qərar qəbul et və Allaha təvəkkül et, mütləq yol tapacaqsan.

## ALTINCI FƏSİL

## *Sair imamlardan (ə) olan hədislər*

◘İmam Məhəmməd Baqir (ə) buyurub: "İslamın beş əsası var; namaz, zəkat, həcc, ramazan ayının orucu, biz əhli-beytin vilayətini və dostluğunu qəbul etmək. Bunlardan dördü müəyyən hallarda rüsxətlidir. Yəni, fəqirə zəkat düşmür, imkanı müəyyən həddə çatmayan həccdən azaddır, xəstə adam namazını oturduğu halda da qıla bilər və oruc tutmaya bilər. Lakin vilayət heç kəsin boynundan götürülmür. Bu xəstəyə də, sağlama da, varlıya da, yoxsula da vacibdir.

◘Həzrət Baqir (ə) Əbi-Bəkr Həzrəmiyə buyurub: "Bilirsənmi ki, ölüyə necə namaz qılınır?" Dedi: "Xeyr." Buyurdu: "Beş təkbir gündəlik beş namazdan götürülüb. Beş gündəlik namazlardan da yalnız təkbir götürülüb. (Elə hesab etmək olar ki, beş namaz qılınıb.)

◘Həzrət Sadiq (ə) buyurub: "Həzrət Adəm (ə) meyvə yemək istədi. Oğlu Hibətullah meyvə ardınca yola düşdü. Yolda Cəbrail onunla qarşılaşıb dedi: "Hara gedirsən? " Dedi: "Adəm xəstədir, ürəyi meyvə istədi." Cəbrail dedi: "Qayıt, Allah ruhunu aldı." Hibətullah qayıdıb atasının vəfat etdiyini gördü. Sonra mələklər ona qüsul verdi. Sonra Cəbrail Hibətullaha göstəriş verdi ki, qabağa keçib atasının bədəninə namaz qılsın, mələklər də ona iqtida etsin. Allah tərəfindən vəhy nazil oldu ki, beş təkbir desin, sonra aram-aram bədəni qaldırıb qəbirə qoysun və qəbri hamarlasın. Daha sonra göstəriş verdi ki, bütün ölüləri bu cür etsinlər.

◘Həzrət Baqir (ə) buyurub: "Bir qrup müşriki Peyğəmbərin (s) hüzuruna gətirdilər, göstəriş verdi ki, birindən başqa hamını öldürsünlər. Həmin müşrik soruşdu: "Nə üçün məni azad etdiniz? " Buyurdu: "Cəbrail mənə xəbər verib bildirdi ki, sən Allahın və Peyğəmbərin sevdiyi beş xüsusiyyətə maliksən; öz namusuna qarşı çox qeyrətlisən, səxavətlisən, xoşxasiyyətsən, doğrudanışan və şücaətlisən." Müşrik bu sözləri eşidən kimi dönüb müsəlman oldu. O, ömrünün

axırına qədər İslama sadiq qaldı və nəhayət, Peyğəmbərin (s) apardığı döyüşlərin birində şəhid oldu.

◘Həzrət Musa ibn Cəfər (ə) buyurub: "Həzrət Əli (ə) "Özünün dünyadakı bəhrəni yaddan çıxarma" ayəsinin təfsirindən buyurub: "Yəni, bədənin sağlamlığı, asudə vaxt, cavanlıq və fərəhindən axirətindən ötrü istifadə etməyi unutma."

◘Həzrət Riza (ə) buyurub: "Var-dövlət beş xüsusiyyət olmasa toplanmaz: "Möhkəm simiclik, uzun-uzadı arzular, hərislik, qohumlarla əlaqəni kəsmək və dünyanı axirətdən üstün tutmaq."

◘Allah-təala peyğəmbərlərdən birinə vəhy edib buyurdu: "Sabah səhər qarşılaşdığın birinci şeyi ye, ikincini gizlət, üçüncünü qəbul et, dördüncünü naümid etmə və beşincidən özünü qoru."

Sabahısı gün səhər hərəkət etdi. Elə ilk mərhələdə böyük, qara bir dağla üzləşdi. Heyrətlə donub yerində qaldı. Sonra öz-özünə dedi: "Allah boş yerə göstəriş verməz." Dağı yemək məqsədilə irəli getdi." Hər nə qədər irəli gedirdisə dağ getdikcə kiçilirdi. Nəhayət, həmin dağ kiçik bir tikəyə çevrildi. Elə ki yedi, gördü çox dadlı bir tikədir. Oradan keçib qızıldan bir teşt gördü, göstərişə uyğun olaraq yeri qazıb teşti orada basdırdı. Bir az gedib dönüb arxaya baxdı. Gördü ki, teşt öz-özünə torpağın altında çıxıb. Öz-özünə dedi: "Mən öz üzərimə düşəni yerinə yetirdim." Sonra bir quşa rast gəldi. Həmin quşun ardınca ov qızılquşu düşmüşdü. Quş gəlib onun ətrafında fırlanmağa başladı. Peyğəmbər dedi: "Mənə əmr olunub onu qəbul edim." Əbasının yaxasını araladı. Quş ora daxil oldu. Qızılquş ona dedi: "Neçə gün idi bu ovun arxasınca düşmüşəm, sən isə onu məndən oğurladın." Öz-özünə dedi: "Allah mənə bunu da naümid etməməyi tapşırıb." Ovun bud hissəsindən bir tikə qoparıb ona atdı. Bir az getmişdi ki, gördü bir parça ət yerə düşüb. Ət iylənmiş və qurd basmışdı. Vəzifəsinə uyğun olaraq ondan uzaqlaşdı. Bundan sonra qayıtdı. Gecə yatarkən yuxuda ona belə dedilər: "Sən boynuna düşən vəzifəni yerinə yetirdin. Məqsədin nə olduğunu başa düşdün?" Dedi: "Xeyr." Dedilər: "O dağ qəzəb idi. İnsan qəzəblənən zaman özünü dağın qarşısında görür. Əgər insan özünü ələ alsa qəzəb yavaş-yavaş aramlaşar. Nəticədə dadlı bir tikə kimi onu udar. Qızıl teşt saleh və xeyir əməl idi. Nə qədər gizlətsən də Allah onu aşkar edib sahibini tanıtdırar. Axirətdə də özünəməxsus savabı var. Quş nəsihət edənə işarə idi. Gərək onun göstərişinə əməl edəsən. Qızılquş isə hacəti olandır ki, onu naümid etmək olmaz. İylənmiş ət isə qeybətdir. Ondan uzaq ol."

◘Həzrət Sadiq (ə) buyurub: "Möminin beş əlaməti var; xəlvətdə Allahdan qorxu, yoxsulluq zamanı sədəqə, müsibət zamanı səbr, qəzəb zamanı helm və qorxu zamanı doğru danışmaq.

◘Beş xüsusiyyət hər hansı bir mömində cəm olsa layiqdir ki, Allah onu behiştə varid etsin; qəlbin nuraniliyi, İslami məsələlərin fəhmi, təqva, camaatı sevmək və xoş sima (elə bir sima ki, kamal və salehlik əlamətləri onda açıq-aşkar görünsün.)

◘Həzrət Musa ibn Cəfər (ə) buyurub: "İslamın baş barədə beş göstərişi; sair üzvlər barədə də beş göstərişi var. Baş barəsində olan göstərişləri bunlardır; dişləri yumaq, bığı qısaltmaq, saçları daramaq, məzməzə (ağızı yumaq), istinşaq (burunu yuyub təmizləmək). Sair üzvlər barədə olan göstərişlər isə bunlardır; sünnət etmək, qarının aşağı hissəsinin tüklərini təmizləmək, qoltuğun tüklərini təmizləmək, dırnaq tutmaq və istinca (ifrazat yerini yuyub təmizləmək).

◘Həzrət Baqir (ə) buyurub: "Namazı yalnız beş halda yenidən qılmaq lazımdır; təharət pozulan zaman, qiblə, rüku və səcdə düz olmadıqda. Həmd və surə sünnətdir, təşəhhüd də sünnətdir, bunlar namazı batil etmir. (Yəni, əvvəlki beş şey namazın əsas vaciblərindəndir. Bunların hansına xələl gəlsə namaz batildir. Sair vaciblər isə Peyğəmbərin (s) sünnəsidir ki, əgər səhvən icra olunmasa namazı batil etmir.)"

◘Həzrət Baqir (ə) buyurub: "Ulul-əmr (yəni, müstəqil dinə sahib olub, din gətirməklə öncəki dini qüvvədən salan) peyğəmbərlər beş nəfərdir; Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Məhəmməd (s)."

◘Həzrət Səccad (ə) buyurub: "Xoş danışıq mal-dövlətin artmasına, ruzinin çoxalmasına, ömrün uzanmasına, ailədə məhəbbətə və behiştə səbəb olar."

◘Yeddinci imam (ə) buyurub: "Mömin həmişə beş şeyə sahibdir; diş fırçası, daraq, səccadə, otuz dörd dənəli təsbeh, əqiq üzük." (Yəni, bunlar möminin zinətlərindəndir, nəinki, bir kəs bunlara sahib olmasa mömin hesab edilmir.)

◘İmam Həsən Əsgəri (ə) buyurub: "Möminin beş əlaməti var; gecə-gündüz əlli bir rəkətlik namaz (vacib və müstəhəb hər ikisi daxil

olmaqla), “Ərbəin” ziyarəti, sağ əlinə üzük taxmaq, alnını torpağa qoymaq, “Bismillah” sözünü ucadan demək.”

◘Bir nəfər İmam Həsənə (ə) ərz etdi: “Mən günah qarşısında acizəm, günahdan çəkinməyə qüdrətim çatmır. Mənə moizə edin.” Buyurdu: “Beş işi yerinə yetir, ondan sonra hər nə günah istəyirsən et; Allahın ruzisini yemə, elə bir xəlvət yer tap ki, Allah səni orada görməsin, Allahın qüdrət və hakimiyyətindən kənara çıx, Əzrail gələn zaman onu özündən uzaqlaşdır və cəhənnəmin məmuru səni oda tərəf çəkmək istəyərkən sən getmə. Əgər bu işləri yerinə yetirmə qüdrətinə maliksənsə hər nə qədər istəyirsən günah et.”

◘Həzrət İmam Hüseyn (ə) Cabir ibni yəzid Cofiyə buyurdu: “Ey Cabir! Sənə beş nəsihət edirəm. Sənə zülm etsələr sən zülm etmə, sənə qarşı xəyanət etsələr sən əmanətdarlığını əldən vermə, səni təhqir etsələr qəzəblənmə, onun-bunun səni mədh etməsinə xoşhal olma, məzəmmətlərindən narahat olma, sənin barəndə deyilən bu sözləri özünlə tutuşdur. Əgər düz deyirlərsə, o zaman nahaq yerə qəzəblənmisən. Çünki haqq sözdən inciməklə Allahın nəzərindən düşmək, camaat gözündən düşməkdən daha böyükdür. Yalan deyirlərsə sən heç bir əziyyət çəkmədən savaba nail olmusan.”

◘İmam Məhəmməd Baqir (ə) buyurub: ”Atam mənə tapşırdı ki, hətta yol yoldaşı da olsa beş dəstə insanla dostluq və yoldaşlıq etmə:

1. Fasiqlə; Çünki fasiq səni bir tikəyə, hətta, bəlkə ondan da aza satar. Soruşdum: Atacan tikədən də kiçik nədir? Buyurdu: Heç, bəlkə də çata bilməyəcəyi tikənin tamahına.
2. Simiclə; Simic ən çətin anlarında əlində olanı səndən əsirgəyər.
3. Yalançı ilə; Yalançı ilğıma bənzəyir. O, uzağı sənə yaxın, yaxını isə uzaq göstərər.
4. Axmaqla; Axmaq sənə xeyir vermək istədiyi halda zərər verər.
5. Qohumları ilə yola getməyən kəslə. Çünki, Allah Quranda üç yerdə onlara lənət edib.

## YEDDİNCİ FƏSİL

## *Meracnamədən olan hədislər*

◘Allah-təala Peyğəmbərə (s) xitab etdi: “Ey Əhməd! Bilirsənmi ki, bir bəndə Allaha nə vaxt həqiqi ibadət edir? “ Peyğəmbər (s) ərz etdi: “Xeyr, Pərvərdigara!” Allah-təala buyurdu: “Yalnız beş xüsusiyyətə

yiyələndiyi halda; onu günahdan qoruyan təqvaya, boş-boş sözlərdən çəkindirən sükuta, hər gün ağlamağını artıran qorxuya, təklikdə onu Allahdan utanmağa vadar edən həyaya, dünya ilə düşmənçiliyə və Mənim sevdiyim kəslərə qarşı tutduğu dostluq mövqeyinə sahib olduğu vaxt."

◘Hər kəs beş xüsusiyyətə sahib olsa, bunlar onun zərərinədir; beyət sındırmaq, təcavüz, hiylə, fırıldaq, zülm. Beyət sındıran barədə Allah buyurur: "Hər kəs beyət sındırsa öz zərərinə sındırıb." Hiylə barəsində də buyurur: "Hiylə yalnız öz sahibinin ayağını dolaşdırar." Təcavüz barədə də buyurur: "Ey insanlar! Təcavüzünüz zərərinizədir." Fırıldaq barəsində buyurub: "Allah və peyğəmbərinə qarşı hiylə işlədirlər, halbuki, bu fırıldaqları onların öz əleyhinədir." Zülm barədə isə buyurur: "Biz onlara zülm etmədik, onlar özləri özlərinə zülm etdilər."

## SƏKKİZİNCİ FƏSİL

## *Alimlər, zahidlər və filosofların dediklərindən*

◘Bir alim deyib: "Təqvalı insanın beş əlaməti var:

1) Dinini islah etməkdə ona kömək edənlərdən başqa heç kəslə oturub-durmaz.

2) Öz dilini və şəhvətini idarə edər.

3) Dünyanın böyük bəla və müsibətlərini günahın cəzası bilər və dinə aid olan kiçicik bəlaya görə qəmgin olar.

4) Qarnını halalla doldurmaz ki, birdən harama düşər.

5) Camaatı haqq, özünü isə nahaq (təqsirkar) bilər."

◘Başqa bir alim buyurub: "Allah Adəmi (ə) seçdi və ona beş üstün xüsusiyyət əta etdi; fövqəladə gözəllik, adların təlimi, mələklərin onun müqabilində səcdəsi, behiştdə məskən, bütün bəşər övladının atası olmaq şərəfi.

Nuha da (ə) beş imtiyaz verdi:

1) Onu ikinci əbül-bəşər (bəşərin atası) adlandırdı. Çünki, onun nəslindən başqa bütün insanlar batdı.

2) Ömrünü uzatdı. Çünki, deyirlər, xoş o kəsin halına ki, ömrü uzun və əməli salehdir.

3) Onun möminlər barəsindəki duasını və kafirlər barəsindəki nifrinini müstəcab etdi.

4) Onu gəmiyə mindirdi.

5) Və ilk olaraq müstəqim bir dini onun əlinə verdi.

Həzrət İbrahimi (də) beş imtiyaz vasitəsi ilə şərəfləndirdi:

1) Özündən sonra bütün peyğəmbərlərin atası oldu. Çünki, hədislərdə var ki, İbrahim (ə) ilə Həzrət Məhəmməd (s) arasında min peyğəmbər mövcud olmuşdur.
2) Allahın dostu–Xəlilullah məqamı.
3) Atəşdən nicat.
4) İnsanlara imamət və rəhbərlik məqamı. (Onun bəzi sünnələri həmişə ehtirama və icraya səbəb olmuşdur.
5) Hamısından müvəffəqiyyətlə çıxdığı imtahanlar."

◘Bəziləri deyib: "Xüsusiyyətlərin ən pisi beş sifətdir: qocaların eşqbazlığı, padşahların tündxasiyyət olması, əsil-nəcabətli insanların yalan danışması, varlıların simicliyi və alimlərin hərisliyi."

◘Bir alim deyir: "Təfəkkür beş növdür:
1) Allahın yeganəliyi barədə insana yəqin gətirən, onun ayət və nişanələri barədə olan təfəkkür.
2) Allaha qarşı insanın şükr və məhəbbəti artıran, onun nemətləri barədə olan təfəkkür.
3) Allahdan qorxunu artıran və Onun əzabı barəsində olan təfəkkür.
4) Allaha qarşı rəğbətə səbəb olan və Onun savabları barədə olan təfəkkür.
5) Allahın bütün bu lütfləri müqabilində itaətdə yol verilən nöqsan və təqsirlərə görə həya və utancaqlığa səbəb olan təfəkkür."

◘Başqa birisi deyib: "Elm arzusunda olan kəs gərək beş şeyə ciddi riayət etsin:
1) Aşkarda da, gizlində də təqvalı və pəhrizkar olmaq.
2) "Ayətəl-kürsi" oxumaq.
3) Daim dəstəmazlı olmaq.
4) İki rəkət də olsa gecə namazı qılmaq.
5) Qarını doldurmaqdan ötrü deyil, yalnız qüvvətlənməkdən ötrü yemək."

◘Süfyan Suri deyir: "İndiki dövranda beş şey olmasa mal-dövlət toplamaq olmaz; uzun-uzadı arzular, hərislik, simiclik, təqva azlığı və axirəti unutmaq."

◘Zahidlərdən olmuş Hatəm Əsəm deyir: "Beş vaxt istisna olmaqla – bunlar Peyğəmbər (s) sünnəsidir – tələsmək şeytan əməlidir; qonaq üçün yemək gətirən zaman, cənazənin dəfni, həddi-büluğa çatmış qızı ərə vermək, borcu düz vaxtında qaytarmaq və günahdan tövbə üçün.

◘Məhəmməd Dövri deyib: "İblis beş şeyə görə bədbəxt oldu; günahını iqrar etmədi, etdiyi günahdan peşman olmadı, özünü danlamadı, tövbə etmək qərarına gəlmədi və Allahın rəhmətindən naümid oldu. Adəm (ə) beş şeyə görə səadətə qovuşdu; günahını iqrar etdi, peşman oldu, özünü danladı, tövbə etməyə tələsdi və Allahın rəhmətinə ümid bağladı."

◘Əbu Zeyd deyib: "Ayıq-sayıq olmağın beş əlaməti var: Özünə nəzər salan zaman ehtiyac hiss etsin, Allahı xatırlayarkən bağışlama diləsin, dünyaya nəzər saldıqda ibrət götürsün, yadına axirət düşən zaman isə şad olsun, Allahın qulu olduğunu nəzərində canlandıran zaman da iftixar etsin."

◘Şəqiq Bəlxi deyir: "Beş xüsusiyyətə riayət edin: Allaha ehtiyacınız olduğu qədər ibadət edin, dünyadan ömrünüz qədər uzaq gəzin, əzaba dözəcəyiniz qədər günah edin, nə qədər bacarırsınız qəbirdən ötrü ehtiyat götürün və behiştdə qalmaq istədiyiniz qədər çalışın."

◘Yoxsullar (yoxsulluğun təqdirinə və az fəqirliklərinə razı olan kasıblar) beş şey seçmiş, varlılar da beş şey seçmişlər. Yoxsulların seçdiyi beş şey bunlardır; can rahatlığı, qəlb asudəliyi, Allaha bəndəlik, hesabın asanlığı və ən ali dərəcə.

Varlıların (halal-haram bilmədən bütün səy və himmətini var-dövlət toplamağa sərf edən varlılar) seçdiyi beş şey isə bunlardır; can bəlası, fikir dağınıqlığı, dünyaya qul olmaq, hesabın çətinliyi və ən alçaq dərəcə."

◘Şəfiq ibn İbrahim deyir: Beş məsələni yeddi yüz alimdən soruşdum, hamısı eyni cavabı verdi. Soruşdum: Aqil (ağıllı) kimdir? Dedilər: Dünyaya könül bağlamayan kəs. Soruşdum: Zirək kimdir? Dedilər: O kəs ki, dünya onu məğrur etməyib. Soruşdum: Ehtiyacsız kimdir? Dedilər: Allahın verdiyinə razı olan kəs. Soruşdum: Fəqir kimdir: Dedilər: Daim artırmaq fikrində olanlar. Soruşdum: Simic kimdir? Dedilər: Allahın haqqını ödəməyən kəs.

◘Dünyada beş şeydən başqa hər şey artıqdır. (Yəni, zəruri olan yalnız beş şeydir.); aclığı aradan aparan miqdarda çörək, susuzluğu aradan aparan miqdarda su, bədəni örtən paltar, yaşamaqdan ötrü ev və istifadə olunan (əməl olunan) elm.

◘Zün-Nun Misri deyir: “Behişt əhlinin beş əlaməti var; xoş sima, xoş xasiyyət, qohumlara ehsan, şirin dil və günahdan uzaq olmaq. Od əhlinin də beş əlaməti var; bədxasiyyət, daş ürəkli olmaq, günahkarlıq, acı dilli olmaq, qaş-qabaqlı üz.”

◘Əntaki deyir: “Beş şey qəlbin dərmanıdır; ləyaqətli insanlarla yoldaşlıq etmək, Quran oxumaq, qəlbin asudə olması, gecə namazı qılmaq və sağlam olan zaman Allah dərgahında ahu-zar etmək.”

◘Bir filosof deyib: “Allahdan qorxmayan kəs dilin xatalarından nicat tapmaz, hər kəs Allah hüzuruna qaytarılacağından qorxmasa haram və şübhələrdən xilas olmaz, hər kəs camaatdan naümid olmasa tamahdan azad olmaz, hər kəs öz ibadət və rəftarına nəzarət etməsə riyadan amanda olmaz və hər kəs də qəlbinin qorunmasında Allaha təvəkkül etməsə həsəddən amanda qalmaz.”

◘Başqa birisi deyir: “Hikmət sahibləri müəyyən ediblər ki, dünyanın əziyyət və müsibəti beş şeydədir; qürbət yerdə xəstələnmək, qocalıqda yoxsulluq, cavan halda ölmək, görən olduqdan sonra kor olmaq, şöhrətdən sonra itib-batmaq.”

◘Başqa birisi deyib: “Hind, Roma və İran təbibləri bu fikirdə həmrəydirlər ki, bütün xəstəliklər beş şeydən irəli gəlir; çox yemək, çoxlu cinsi yaxınlıq etmək, gündüz həddindən artıq yatmaq, gecə az yatmaq, gecə yarısı su içmək.”

## DOQQUZUNCU FƏSİL

## *Müxtəlif məsələlər*

◘Deyirlər Ənuşirəvanın evində bir lövhə tapdılar ki, onda beş sətir yazı yazılmışdı:

1) Oğlu olmayanın gözünün nuru yoxdur.
2) Qardaşı olmayanın bazu sümüyü yoxdur.
3) Evlənməyən ləzzət nə olduğunu bilməz.
4) Pulu olmayanın məqamı olmaz.
5) Bunların heç birinə sahib olmayanın qəm-qüssəsi olmaz.

◘Kəsra deyib: “Hər kəs beş şeydən çəkinə bilsə onun bu qərarının heç bir eyib və nöqsanı yoxdur; hərislik, arzu, xudpəsəndlik, nəfsani istəklərə uymaq və süstlük. Hərislik həyanı aparar, xudpəsəndlik

düşmənçiliyə səbəb olar. Nəfsani istəklərə uymaq rüsvayçılıq gətirər, süstlük isə peşimançılığa səbəb olar.”

◘Həsən Bəsri deyir: “Tövratda bu beş ifadə yazılmışdır;

1) Ehtiyacsızlıq qənaətdədir.

2) Salamatlıq pis insanlardan uzaq gəzməkdədir.

3) Azadlıq tərki-dünyalıqdadır.

4) Bəhrələnmə uzun müddətə başa gəlir. (Yəni, axirət əməllərin nəticəsidə qazanılar.)

5) Səbr isə az bir müddətdədir (yəni, dünyadadır.)

◘Bir nəfər deyib: “Qənaət can rahatlığıdır, çoxlu təcrübə əqlin kamala çatmasına səbəb olar, söz gəzdirmək yaxınların və uzaqların təhdidinə səbəb olar, qadınla məşvərət hər şeyin alt-üst olmasına səbəb olar və xoşxasiyyət insan da böyük insan olar.

◘“Ər-riyazüz-zahirə” kitabında belə yazılıb: “Həzrət Adəm (ə) oğlu Şeysə beş vəsiyyət verib tapşırdı ki, o da bunları öz oğluna vəsiyyət etsin:

1) Dünyaya bel bağlamayın, çünki, əbədi olan behiştə bel bağladım, Allah bunu bəyənmədi və məni oradan çıxardı.

2) Qadınların rəyinə əsasən iş görməyin. Çünki, mən qadının sözünə qulaq asıb ağacdan yedim, sonra isə peşman oldum.

3) Görmək istədiyiniz hər bir işin nəticəsini əvvəlcdən düşünün. Mən əvvəlcədən düşünmədiyimə görə bu müsibətə düçar oldum.

4) Qəlbin narahat olduğu işi görməyin. Mən həmin meyvəni yeyən zaman qəlbim əsirdi. Lakin etina etmədim, nəticədə peşman oldum.

5) İşlərinizdə məşvərət edin, əgər mən mələklərlə məşvərət etsəydim bu bəlaya düçar olmazdım.

◘Sədəqə verənlərin beş imtiyazı var: Hacətlərin həyata keçməsi, çətinliklərin aradan qalxması, ruzinin genişlənməsi, pis ölümdən nicat, günahların bağışlanması və bol ruzili uzun ömür.

◘Peyğəmbərdən (s) nəql olunur ki, Həzrət buyurdu: Sədəqə barəsində şeytandan soruşdum: Nə üçün sədəqənin qarşısını almağa çalışırsan? Dedi: Ey Məhəmməd (s) elə ki, sədəqə verildiyini görürəm sanki, mişarı götürüb boynumu kəsirlər. Soruşdum: Nə üçün? Dedi: Sədəqənin beş xüsusiyyəti var; var-dövləti artırar, xəstənin şəfa tapmasına səbəb olar, bəlanı qaytarar, sədəqə verən kəs Sirat

körpüsündən ildırım kimi keçər və hesabsız behiştə daxil olar. Dedim: Allah əzabını daha da artıq etsin!

◘Başqa bir hədisdə deyilir ki, Peyğəmbər (s) belə buyurdu: "Elə ki, sədəqə sahibinin əlindən çıxar beş söz deyər: "Fani idim, məni əbədi etdin, kiçik idim, məni böyütdün, düşmənin idim, məni özünə dost etdin, bu vaxta qədər sən məni qoruyurdun, bundan sonra Qiyamətə qədər mən səni qoruyacağam."

◘**Səqədə beş qisimdir:**

1) Malın sədəqəsi.

2) Hörmətin, məqamın sədəqəsi. (Müxtəlif insanlardan ötrü şəfaət etmək, vasitəçi durmaqdan ötrü.) Peyğəmbər (s) buyurub ən gözəl sədəqə dilin sədəqəsidir." Soruşdular: "Dilin sədəqəsi nədir?" Buyurdu: "Şəfaət. Onun vasitəsi ilə əsiri əsirlikdən qurtarmaq olur, qan tökülməsinin, hər hansı bir müsəlmana zərər yetişməsinin qarşısı alınır."

3) Əql və təfəkkürün sədəqəsi, yəni, məşvərət. Bu barədə Peyğəmbər (s) buyurub: "Mömin qardaşınıza ona yol göstərəcək biliyiniz vasitəsi ilə sədəqə verin."

4) Dilin sədəqəsi. Yəni, fitnə odunu yatırmaqdan ötrü vasitəçilik etmək, yaxud, insanları barışdırmaq. Allah-təala buyurur: **"Onların qulağına sədəqə vermək, yaxşı iş görmək və insanları barışdırmaqdan başqa heç bir söz təsir göstərmir."**

5) Elmin sədəqəsi. Yəni onu öyrənmək istəyənlərə paylamaq. Peyğəmbər (s) buyurub: «Sədəqənin bir növü də elmi öyrənib başqalarına tədris etməkdir.» Yenə də buyurub: «Zəkat, cahilə elm öyrətməkdir.»

◘Hər bir dində riayət olunması vacib olan əsas məsələlər beşdir: Qisas vasitəsi ilə canı təhlükədən qorumaq, dindən çıxanı öldürməklə dini təhlükədən qorumaq, oğrunun əlini kəsməklə malı təhlükədən qorumaq, şərabxoru cəzalandırmaqla əqli təhlükədən qorumaq və zinakarı cəzalandırmaqla əsil-nəsəbi qorumaq.

◘**Dinin əsası beşdir:** Allahı tanıma, əldə olana qane olmaq, dinin həddi-hüdudlarını aşmamaq, əhdə vəfalı olmaq, itirilmiş şeyə səbr etmək.

◘Bir hədisdə deyilir ki, hər kəs behişt istəyir, gərək beş şeydən əl çəkməsin:

1) Allahın qorxusundan günahı tərk etməkdən; Quranda belə buyurulur: “Hər kəs öz Pərvərdigarının məqamından qorxsa və nəfsani istəklərinin qarşısını alsa onun yeri behiştdir.”

2) Dünyada qarını doyduran və bədəni örtən şeyə qane olmaq. Çünki deyiblər, behiştin qiyməti dünya matahını tərk etməkdir.”

3) İtaət və ibadətə, Allahın və Peyğəmbərin (s) razı olduğu hər bir şeyə həvəslə yanaşmaq.

4) Elm əhli və saleh insanlarla yoldaşlıq, fəqir və yoxsulları sevmək.

5) Dua, ah-zar, yalvar-yaxar etmək. Hədislərdə var ki, hər kəs Allahdan üç dəfə behişt istəsə, behişt Allaha belə deyər: “Pərvərdigara! Məni ona, onu da mənə qovuşdur.”

◘Başqa bir hədisdə belə deyilir ki, bir şəxs Peyğəmbərdən ona elə bir əməl öyrətməsini istədi ki, həmin əməl vasitəsi ilə o, behiştə gedə bilsin. Peyğəmbər (s) buyurdu: “Gündəlik beş vacibi namazı qıl, Ramazan ayının orucunu tut, cənabət qüsulu al, Əlini (ə) və onun məsum övladlarını (ə) sev, ondan sonra behiştin hansı qapısından istəyirsən daxil ol. And olsun məni peyğəmbərliyə təyin edib mənə vəhy göndərən Allaha, əgər min namaz qılıb min dəfə həccə getsən, lakin qəlbində Əlinin (ə) və onun məsum övladlarının (ə) məhəbbəti olmasa sair cəhənnəm əhli kimi oda daxil olacaqsan. Hazırlar qaiblərə xəbər versinlər ki, mən bu sözü yalnız və yalnız Cəbrailin göstərişi ilə, o da Allahın göstərişi ilə deyib. Cəbrail aləmdə Əlidən (ə) başqa bir qardaş seçməyib. İndi, hər kəs istəyir onu sevsin, hər kəs də istəyir onunla düşmən olsun. Allah-təala and içmişdir ki, nə qədər ki, Əlinin (ə) dostları cənnətdə məskunlaşıb, nemətlərdən istifadə edir, onun düşmənləri də cəhənnəmdə olacaq.”

## ALTINCI BÖLMƏ

### *Altı tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Peyğəmbərdən (s) nəql olunan hədislər*

◘Ey müsəlmanlar, zinadan çəkinin! Zinanın altı cəzası var. Onun üçü dünyada, üçü isə axirətdədir. Dünyada olan cəzaları bunlardır; gözəlliyi aradan aparar, fəqirlik gətirər və ömrü qısaldar. Axirətdə olan əzabları isə bunlardır; Allahın qəzəbinə səbəb olar, hesabı çətinləşdirər və əbədi atəşə səbəb olar.

◘Sizə sədəqəni tövsiyə edirəm. Onun altı xüsusiyyəti var. Onun üçü dünyada, üçü isə axirətdədir. Dünyadakı xüsusiyyətləri bunlardır; ömrü uzadar, ruzini artırar və şəhərləri abad edər. Axirətdəki xüsusiyyətləri bunlardır; övrəti örtər, Qiyamət günü baş üzərinə kölgə salar və insanı cəhənnəm odundan qoruyar.

◘Siz altı şeyi yerinə yetirməyi öz öhdənizə alın, mən də behiştə getməyinizdən ötrü sizə zamin dururam; yalan deməyin, vədinizə xilaf çıxmayın, əmanətə xəyanət etməyin, haramdan gözünüzü yumun, iffətsizlik etməyin, əlinizi və dilinizi qoruyun. Bunlar elə işlərdir ki, hər kəs yerinə yetirsə behiştə daxil olar.

◘Məndən sonra peyğəmbər yoxdur, sizdən sonra da ümmət. Bəs elə isə, Allaha tapının, gündəlik beş vacib namazlarınızı yerinə yetirin, Ramazan ayının oruclarını tutun, Allah evinin ziyarətinə gedin, malın zəkatını rəğbətlə verin, imamlara itaət edin ki, behiştə varid olasınız.

◘Altı xüsusiyyət mərd insanlara məxsusdur. Bunların üçü səfərə, üçü isə vətənə aiddir. Vətənə aid olanlar; Quran oxumaq, Allahın məscidlərini abadlaşdırmaq və Allaha xatir yaxşı insanlarla dostluq. Səfərə aid olanları isə bunlardır: azuqəni dostların ixtiyarında qoymaq, xoş xasiyyət və halal zarafat.

◘Allah-təala altı işi məndən, canişinlərimdən və ardıcıllarımdan ötrü bəyənməyib; namaz halında bir şeylə oynamaq, oruc halında qadınla yaxınlıq etmək, sədəqə verdikdən sonra minnət qoymaq, cunub halda

məscidə getmək, camaatın evinə girmək və qəbristanlıqlara gülmək. (Bu altı işin birinci və altıncısı məkruh, qalanları isə haramdır.)

◘Peyğəmbər hər gün altı şeydən Allaha pənah aparırdı; şəkk, şirk, yersiz təəccüb, qəzəb, zülm və həsəd. (Şəkdə məqsəd üsuli-əqaiddə olan şəkk, şirkdə isə məqsəd məbud və ibadətdə şirkdir.)

◘Allaha qarşı itaətsizlik göstərmənin əvvəli altı şeydən başladı: Dünya məhəbbəti, böyüklük istəyi, qarınquluLuq, qadınlara meyl, yuxuya ifrat meyl və rahatlığa can atma.

◘Dördayaqlının öz sahibi boynunda altı haqqı var; elə ki, bir yerdə dayandı birinci gərək ona ot versin, suya çatanda birinci ona içirsin, üzünə vurmasın (çünki, Allaha təsbih deyir), dayanarkən belində oturmasın (yalnız Allah yolunda, yəni, cihad meydanında və s.) gücü çatdığı qədər yükləsin və ondan bacardığından artıq sürət tələb etməsin.

◘Bir gün Peyğəmbər (s) bir yerdən keçirdi. Gördü ki, bir dəstə insan bir yerə yığışıb. Soruşdu: Nə olub? Dedilər: Burada biri var dəli olub, onu cin vurub. Buyurdu: Bu dəli deyil, xəstədir. İstəyirsinizmi ki, sizə həqiqi dəlinin kim olduğunu bildirim? Dedilər: Bəli, ey Allahın rəsulu! Həzrət (s) buyurdu: Həqiqi dəli o kəsdir ki, təkəbbürlə yol gedir, hamıya yuxarıdan baxır, o tərəf-bu tərəfə yekəxanalıqla dönür, günah edir, amma behişt arzusundadır, nə şərindən amandadırlar, nə də xeyrinə ümidvardırlar. Belə adam həqiqi mənada dəlidir.

◘Altı dəstə insana Allah və bütün peyğəmbərlər lənət etmişlər; Allahın kitabına bir şey artıran kəslər, qəza və qədəri inkar edənlər, mənim sünnəmi tərk edənlər, Allahın mənim xanədanıma qarşı haram bildiyi işləri halal bilənlər, camaata zor gücünə hakim kəsilərək Allahın əziz etdiyi kəsləri zəlil etməklə özünün əziz olmağından ötrü çalışan kəslər və müsəlmanların malını halal bilib özünə aid edən kəslərə.

◘Təqvalı alimin əcri İsa ibn Məryəmin (ə) əcrinə bənzəyir, səxavətli varlının əcri İbrahim Xəlil peyğəmbərin (ə) əcrinə bənzəyir, səbirli fəqirin əcri Əyyubun (ə) əcrinə bənzəyir, ədalətli rəhbərin əcri Süleyman ibn Davudun (ə) əcrinə bənzəyir, tövbəkar cavanın əcri Yəhya ibn Zəkəriyyanın (ə) əcrinə bənzəyir, məhrum qadının əcri Məryəmin (ə) əcrinə bənzəyir.

◘Münafiq verdiyi vədə xilaf çıxar, rəftarı pis olar, danışığı yalan olar, əmanətə xəyanət edər, pulu çox olanda bərk gedər, az olanda da səsi çıxmaz.

## İKİNCİ FƏSİL

## *Sünnilərin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘Beş dəstə insan beş əmələ görə cəhənnəmə gedər; padşah zülmünə görə, çöl-biyaban camaatı təəssübünə görə, kənd sahibləri yalanlarına görə, tacirlər xəyanətlərinə görə, kəndlilər nadanlıqlarına görə və mütəfəkkirlər paxıllıqlarına görə.

◘Hər bir müsəlmanın digər müsəlman boynunda altı haqqı var; görüşən zaman salam vermək, dəvətini qəbul etmək, ona qarşı xeyirxah olmaq, ona nəsihət etmək, asqıran zaman ona "yərhəməkumullah" demək, xəstə olan zaman onu yoluxmaq, öləndən sonra dəfn mərasimində iştirak etmək.

◘Altı şey altı yerdə qəribdir; məscid namaz qılmayanlar arasında, Quran onu oxumayanların evində, Quran fasiqin qəlbində, müsəlman qadın dinsiz, zülümkar və bədxasiyyət ərin evində, müsəlman kişi əxlaqsız və alçaq qadının evində və alim sözünə qulaq asmayanların arasında.

◘Bir kişi Peyğəmbərə (s) ərz etdi: "Mənə elə bir əməl öyrət ki, onun vasitəsi ilə həm Allah, həm də bəndələri məni sevsin, var-dövlətim çox, bədənim sağlam, ömrüm uzun olsun və Qiyamət günü də səninlə məhşur olum." Peyğəmbər (s) buyurdu: "Sənin bu istədiklərin altı şeyə bağlıdır. Ona görə də gərək həmin altı şeyə riayət edəsən. Allahın səni sevməyini istəyirsənsə Ondan qorx və təqvalı ol. Camaatın səni sevməsini istəyirsənsə onların malına tamah salma. Əgər istəyirsənsə var-dövlətin çox olsun çoxlu sədəqə ver. Bədəninin sağlam olmağını istəyirsənsə çoxlu oruc tut. Əgər uzun ömürlü olmaq istəyirsənsə qohumlarınla mehriban və xoşrəftar ol. Qiyamət günü də mənimlə məhşur olmaq istəyirsənsə Qəhhar Allah qarşısında çox səcdə et."

◘Elə ki, Allah behişti yaratdı, üç dəfə buyurdu: "Xoş möminlərin halına." Ərşi saxlayan mələklər də bunu eşitcək təkrar etdilər. Daha sonra xitab olundu: "Hər kəs altı xüsusiyyətə sahib olsa mömin hesab olunur; düz danışmaq, vədəyə vəfalı olmaq, əmanətə xəyanət etməmək, ata-anaya yaxşılıq etmək, sileyi-rəhm, günahdan tövbə.

◘Şəhidin Allah yanında altı mükafatı var; torpağa yıxılan kimi günahları bağışlanar, özünün behiştdəki yerini görər, qəbir əzabından amanda olar, Qiyamət gününün qorxusundan amanda olar, başına elə bir tac qoyulub ki, bircə yaqutu bütün dünyadan üstündür, onunla yetmiş iki huri evləndirərlər və qohumlarından yetmiş nəfər barədə şəfaəti qəbul olunar.

◘Allah-təala buyurur: "Ey mənim bəndələrim! Altı şey sizdəndir, altı şey Məndən; tövbə sizdəndir, bağışlamaq Məndən, itaət sizdəndir, behişt Məndən, şükr sizdəndir, ruzi Məndən, riza (razılıq) sizdəndir, qəza (təqdir) Məndən, səbr sizdəndir, bəla Məndən, dua sizdəndir qəbul etmək Məndən.

## ÜÇÜNCÜ FƏSİL

## *Peyğəmbərin (s) Əliyə (ə) nəsihətləri*

◘Ey Əli! Elə ki, gördün camaat müstəhəbbi əməllə məşğuldur, sən vaciblərlə məşğul ol. Elə ki, gördün camaat dünya işləri ilə məşğuldur, sən axirət işləri ilə məşğul ol. Elə ki, gördün camaat başqalarının eyiblərini axtarmaqla məşğuldur, sən öz eyiblərini axtarmaqla məşğul ol. Elə ki, gördün camaat öz dünyasını bəzəməklə məşğuldur, sən öz axirətini zinətləndirməklə məşğul ol. Elə ki, gördün camaat əməlini artırmaqla məşğuldur, sən əməllərinin ixlası ilə məşğul ol. Elə ki, gördün camaat məxluqatın ətəyindən tutub, sən Xaliqin ətəyindən yapış.

◘Ey Əli! Bir neçə şeyi şəxsən sənin özünə tapşırıram. Onları heç vaxt unutma! Allahdan istəyirəm onları yerinə yetirməkdə sənə yardımçı olsun.

1. Doğru danışmaq, məbada ağzından yalan söz çıxsın!
2. Təqva, məbada xəyanət etmək cəsarətində olasan!
3. Allahdan elə qorx ki, sanki onu görürsən.
4. Allah qorxusundan çox ağla. Belə etsən behiştdə səndən ötrü min ev hazırlanar.
5. Malını və canını din yolunda fəda et.
6. Namaz, oruc, sədəqə və mənim sünnəmə ciddi riayət et!

Sonra üç dəfə buyurdu: "Gecə namazını əldən vermə!" Sonra üç dəfə də buyurdu: "Zöhr namazını da əldən vermə! Hər bir halda Quran oxu! Namaz halında əllərini qaldır, dəstəmaz alan zaman dişlərini yumağı unutma. Xoş xasiyyət ol və pis xasiyyətləri özündən uzaqlaşdır. Əgər

mənim bu dediklərimə riayət etməsən, özündən başqa heç kəsi günahlandırma!"

◘Hər kəs gününü bu işləri yerinə yetirməmiş başa vursa həmin günə zülm edib və Allahın əzabına düçar olar; hər hansı bir haqqı yerinə yetirmək, hər hansı vacib bir əməli yerinə yetirmək, elm öyrənmək, xeyir bir işin təməlini qoymaq, yaxşı ad qazanmaq, böyük bir iş həyata keçirmək.

◘Allah-təala buyurub: "Ey Adəm övladı! Hər gün ruzin çatır, lakin qəmginsən. Hər gün ömründən azalır, lakin şadsan. Sənə kifayət edəcək miqdarın çatır, sənsə tüğyanına səbəb olacaq artığın arxasınca gedirsən. Nə aza qane olursan, nə də çoxdan doyursan."

## DÖRDÜNCÜ FƏSİL

## *Əmirəlmöminindən (ə) nəql olunan hədislər*

◘Hər kəsdə altı xüsusiyyət olsa behiştin hansı qapısından istəsə içəri daxil olar və cəhənnəmin bütün qapıları üzünə bağlanar; Allahı tanıyıb ona itaət etmək, şeytanı tanıyıb ona qarşı müxalifətçilik etmək, haqqı tanıyıb ardınca getmək, batili seçə bilib ondan uzaq gəzmək, dünyanı tanıyıb tərk etmək və axirəti tanıyıb arzusunda olmaq.

◘Kufə məscidində Şam əhlindən olan bir kişi Həzrət Əliyə (ə) yaxınlaşıb ondan bir neçə sual soruşdu: "Ana bətni görməyən altı məxluq kimlərdir?" Buyurdu: "Adəm (ə), Həvva (ə), İbrahimə (ə) göndərilən qurbanlıq qoç, Musanın (ə) əsası, Salehin (ə) dəvəsi, İsanın (ə) düzəltdiyi yarasa." (İsa (ə) onu düzəltdi, ona üfürdü və o da Allahın izni ilə cana gəlib uçdu."

◘Allah-təala altı qrup insanı altı xüsusiyyətə görə əzaba düçar edər; çöl-biyaban əhlini təəssübünə görə, kənd-qəsəbə böyüklərini təkəbbürə görə, rəhbərləri zülmə görə, fəqihləri həsədə görə, tacirləri xəyanətə görə, kənd-qəsəbə əhalisini də cəhalətə görə.

◘Ölü heyvanın pulu, itin pulu, şərabın pulu, zinakarın mehriyyəsi (yəni, ona verilən pul), məhkəməyə verilən rüşvət, qeybət edənə verilən muzd haramdır.

◘Kişinin kamalı beş şeydədir; iki kiçik üzvündə, iki böyük üvzündə və ikisi də sair ona aid olan şeylərdə. İki kiçik üzvü bunlardır; ürək və

dil, döyüşdə ürək lazım olur, danışıqda dil. İki böyük üzvü bunlardır: əql və iman. Ona aid olan digər iki şey də bunlardır; malı və üzü.

◘Altı gözəl xüsusiyyət var, lakin bu altı xüsusiyyət altı nəfərdə olsa daha gözəldir; ədalət yaxşıdır, lakin rəhbərdə olsa daha yaxşıdır. Səbr yaxşıdır, lakin yoxsulda olsa daha yaxşıdır, təqva çox gözəldir, lakin alimlərdə olsa daha gözəldir. Səxavət hamı üçün yaxşıdır, lakin dövlətlidən ötrü daha yaxşıdır. Tövbə hər bir günahkardan baş versə yaxşıdır, lakin cavanlardan baş versə daha yaxşıdır. Həya hər kəsdə olsa yaxşıdır, lakin qadınlarda olsa daha yaxşıdır. Ədalətsiz rəhbər yağışsız bulud kimidir. Səbirsiz fəqir nursuz çıraq kimidir, təqvasız alim bəhrəsiz ağaca bənzəyir, simic dövlətli otsuz torpağa bənzəyir, tövbəsiz cavan susuz arxa bənzəyir və həyasız qadın duzsuz yeməyə bənzəyir.

◘Hər kəsdə altı xüsusiyyət olsa onunla dostluq etməyin heç bir xeyri yoxdur; yalan, başqalarının sözünü təkzib etmək, əmanətə xəyanət, təmiz adama böhtan atmaq, başqalarının yaxşılıqlarına qiymət verməmək və öz etdiyi yaxşılığa minnət qoymaq.

## BEŞİNCİ FƏSİL

## *Həzrət İmam Sadiqdən (ə) olan hədislər*

◘Altı kəsə salam vermək olmaz; yəhudi, məcusi, nəsrani (yalnız zərurət olan hallar və ya onları hidayət etmək məqsədi istisnadır), ayaqyolunda olan kəsə, şərab süfrəsi kənarında oturan kəs, ərli qadınlara nalayiq sözlər deyən şairlərə və camaatla onların anasını söyməklə zarafat edən kəslərə.

◘Süleyman deyib: "Altı şey məni heyrətə gətirir. Onun üçü ağlamalıdır, üçü gülməli. Ağlamalı şeylər bunlardır: "Məhəmmədin (s) dostları və əshabından uzaq düşmək, qəbrin dəhşətli qorxusu, Allah qarşısında dayanmaq (Qiyamət günü). Gülməyə səbəb olan şeylər bunlardır: Gözü doymayan tamahkarlar dünya arxasınca qaçır, ölüm də onun arxasınca. Qafil insan özü Allahdan qafildir, Allah isə ondan yox. Çox gülən adama nə vaxt baxırsan gülür, amma bilmir ki, Allah ondan razıdır, ya yox.

◘Məhəmmədin (s) sadə və asan dini bunlardan ibarətdir: Namaz, ramazan ayının orucu, həcc, imama itaət və möminlərin haqqına riayət etmək.

◘Mömin dünyanın altı şeyindən öldükdən sonra da yararlanar; ondan ötrü bağışlanma diləyən saleh övlad, ondan yadigar qalan və camaatın oxuduğu Quran, əkdiyi ağac, davamlı sədəqə (Məs. kitabxana, məscid və s.) və ondan yadigar qalan gözəl bir adət.

## ALTINCI FƏSİL

## *Sair imamlardan (ə) nəql olunan hədislər*

◘İmam Səccad (ə) buyurub: ”Bizim dövrün insanları altı təbəqəyə bölünüb; şirlər, canavarlar, tülkülər, itlər, donuzlar və qoyunlar. Şirlər sultanlardır ki, kimə istəsələr qalib gəlir və məğlub olmurlar. Canavarlar tacirlərdir ki, alanda yalandan pisləyirlər, satanda isə yalandan tərifləyirlər. Tülkülər riyakarlardır ki, camaatdan istifadə etməkdən ötrü özlərini hiyləgərcəsinə müsəlman kimi göstərirlər, əslində isə onların içində imandan əsər-əlamət yoxdur. Donuzlaar arvadsifətlər və şəhvətpərəstlərdir ki, hər çirkin işə getməkdən çəkinməzlər. İtlər acıdil insanlardır ki, camaat onlara dillərinin qorxusundan hörmət edirlər. Qoyunlar möminlərdir ki, yununu qırxırlar, ətini yeyirlər, sümüklərini də sındırırlar. Biçarə qoyun, bir sürü şirin, canavarın, tülkünün, donuzun və itin arasında nə etsin?”

◘İmam Musa ibn Cəfər (ə) buyurub: “Elə ki, İbrahimi (ə) mancanağa qoydular, Cəbrail qəzəbləndi. Allah tərəfindən vəhy nazil oldu: “Nə üçün qəzəblisən?” Ərz etdi: “İlahi, sənin dostun – yer üzərində ondan başqa bir kəsin Sənə ibadət etmədiyi bir dostun - indi Sənin və özünün düşməninin əlindədir.” Cavab gəldi: “Sakit ol. Sənin kimi bəndələr qorxar ki, birdən fürsət əlindən çıxar. Amma mən hər bir an istəsəm ona nicat verə bilərəm.” Cəbrail sevindi. Üzünü İbrahimə (ə) tutub dedi: “Köməyə ehtiyacın varmı?” Buyurdu: “Bəli, var, amma sənin köməyinə yox.” Bu zaman Allah İbrahimdən (ə) ötrü bir üzük göndərdi ki, onda altı kəlmə yazılmışdı: “La ilahə illəllah”, Məhəmmədən rəsulullah”, “La hövlə və la qüvvətə illa billahil əliyyil-əzim”, “Fəvvəztu əmri iləllah” (İşimi Allaha tapşırdım), “Əsnədtu zuhri iləllah” (Allaha etimad etdim) “Həsbiyəllah” (Allah mənə bəsdir).

Bundan sonra vəhy nazil oldu: “Bu üzüyü barmağına tax. Mən odu səndən ötrü sərin edəcəyəm.”

◘Məhəmməd Hənəfiyyə deyib: “Biz altı imtiyaza malikik. Bizdən əvvəl heç kəs bu imtiyaza sahib olmayıb və bizdən sonra da belə bir şey olmayacaq: Peyğəmbərlərin sərvəri olan Məhəmməd (s) bizim

nəsildəndir. Həmçinin övsiyaların sərvəri Əli (ə) də bizdəndir. Bundan başqa şəhidlərin sərvəri Həmzə (ə), behişt cavanlarının ağası olan Həsən (ə) və Hüseyn (ə), Allahın ona behiştin istədiyi yerinə uçmasından ötrü iki qanad verdiyi Cəfəri-Təyyar (ə) və İsa ibn Məryəmin (ə) onun arxasında namaz qılacağı Məhdi (ə) də bizim nəsildəndir.

◘Həzrət Musaya (ə) vəhy oldu: "Altı şey altı yerdədir, lakin camaat onu başqa yerdə axtarır və (belə etsələr) heç vaxt tapmayacaqlar; Mən asayişi və rahatlığı behiştdə qərar vermişəm, lakin camaat onu dünyada axtarır. Elmi aclıqda qərar vermişəm, camaatsa onu toxluqda axtarır. İzzəti gecə oyaq qalmaqda qərar vermişəm, camaatsa onu padşahların qapısında axtarır. Ucalığı təvazödə qərar vermişəm, camaatsa təkəbbürdə axtarır. Duanın müstəcab olmasını yeməyin halal olmasında qərar vermişəm, camaat onu səs-sədada axtarır. Ehtiyacsızlığı da qənaətdə (qane olmaqda) qərar vermişəm, lakin camaat onu mal-dövlətin çoxluğunda axtarır."

◘Həzrət Davuda (ə) vəhy oldu: "Ey Davud! Hər kəs Məni tanısa Məni yad edər, hər kəs Məni yad etsə Mənə diqqət yetirər, hər kəs Mənə diqqət yetirsə Məni axtarar, hər kəs Məni axtarsa tapar, hər kəs Məni tapsa qoruyub saxlayar və hər kəs də Məni qoruyub saxlasa həmişə başqalarından üstün tutar."

◘Əmirəl-möminin (ə) buyurub: «Mən altı nəfərin behiştə getməsinə zaminəm; sədəqə verən yerdə ölən, xəstəni yoluxmağa gedən yerdə ölən, Allah yolunda cihada gedən yolda ölən, Həcc səfərində ölən, Cümə namazına gedərkən yolda ölən və hər hansı bir müsəlmanın dəfn mərasimində onun cənazəsini müşayiət edərkən ölən kəsin.»

◘Bir nəfər Həzrət Əlinin (ə) yanında "Əstəğfirullah" yəni, "Allahdan bağışlanma istəyirəm" dedi. Həzrət ona belə buyurdu: "Anan sənə ağlasın! Heç bilirsənmi ki, "istiğfar" nədir? İstiğfar ali-məqam kişilərin dərəcəsidir. Bu sözün altı şərti var:

1. Keçmiş günahlara görə peşman olmaq.
2. Gələcəkdə də bir daha günah etmək qərarına gəlməmək.
3. Camaatın haqqını ödəmək və bundan sonra heç bir kəsin haqqı ölənədək boynunda qalmasın.
4. Keçmişdə yerinə yetirmədiyi vacib əməlləri icra etmək.
5. O qədər qəm-qüssədə olmaq ki, bədənin günah zamanı əmələ gələn ətləri əriyib aradan getsin.

6. Günahın şirinliyini daddığın kimi ibadətin də əziyyətini dadmaq.

Yalnız bütün bunları yerinə yetirdikdən sonra "əstəğfirullah" de. (Əvvəlki dörd şərt vacib, axırıncı iki şərt isə müstəhəbdir. Bu altı şərt birlikdə tövbənin ali dərəcəsini bildirir.)

◘Deyirlər ki, bir gün həzrət Adəm (ə) oturmuşdu. Altı nəfər ona yaxınlaşdı. Üçü sağ tərəfində, üçü isə sol tərəfində oturdu. Adəm (ə) ağlardan birindən soruşdu:

–Sən kimsən?

Cavab verdi:

–Əql.

Soruşdu:

–Sənin yerin haradır?

–Beyin.

Adəm (ə) ikincidən soruşdu:

–Sən kimsən?

–Məhəbbət.

–Sənin yerin haradır?

–Ürək.

Həzrət Adəm (ə) üçüncüdən soruşdu:

–Sən kimsən?

Dedi:

–Həya.

–Sənin yerin haradadır?

–Göz.

Sonra Adəm (ə) üzünü sol tərəfə tutub qaralardan birindən soruşdu:

–Sən kimsən?

Cavab verdi:

–Təkəbbür.

–Sənin yerin hardadır?

–Beyin.

Adəm (ə) soruşdu:

–Əql ilə bir yerdəsiniz?

Dedi:

–Elə ki, mən gəldim əql gedir.

İkincidən soruşdu:

–Sən kimsən?

–Həsəd.

Soruşdu:

–Yerin hardadır?

–Ürək.

–Məhəbbətlə bir yerdəsiniz?
–Mən gəldimsə, məhəbbət gedəcək.
Adəm üçüncüdən soruşdu:
–Bəs, sən kimsən?
Cavab verdi:
–Tamah.
–Bəs sənin yerin hardadır?
–Göz.
–Həya ilə bir yerdəsiniz?
Dedi:
–Mən daxil olan kimi, həya xaric olur.

(Mümkündür ki, bu altı nəfər Adəmi (ə) təlimatlandırmaqdan ötrü bu surətdə gələn mələklər olmuşdur. Yaxud da mətləbi başa salmaqdan ötrü aydın bir yuxu olmuşdur.

## YEDDİNCİ FƏSİL

### *Hikmət sahiblərinin, zahidlərin və abidlərin dediklərindən*

◘Bir hikmət sahibi deyib: Altı şey nadanlıq əlamətidir; yersiz qəzəb, boş-boş danışmaq (yəni, faydasız sözlər işlətmək), yersiz bəxşiş, sirri açmaq, hər kəsə etibar etmək və dostu düşməndən seçə bilməmək.

◘Loğman öz oğluna vəsiyyətində deyib: Ey oğul! Sənə altı şey vəsiyyət edirəm. Bu altı şeydə əvvəldəkilərin və axırdakıların elmi xülasələnib:

1. Dünyada qalacağın müddətdən artıq bu aləmə bağlanma.
2. Axirət üçün orada qalacağın qədər iş gör.
3. Allaha Ona ehtiyacın olduğu qədər itaət et.
4. Bütün qüdrət və bacarığını atəşdən nicat tapmağa sərf et.
5. Atəşə dözməyə qüdrətin çatdığı qədər günah et.
6. Günah edərkən elə bir yer seç ki, heç kəs səni görməsin. (Yəni, hətta, Allah və mələklər də.)

◘Yunan filosoflarından biri belə deyib: “Altı şey bütün dünyaya bərabərdir. (Yəni, hər kəs bu altı şeyə sahib olsa, sanki bütün dünyaya sahibdir.); dadlı yemək, saleh övlad, yaxşı qadın, mətin və qətiyyətli söz, kamil əql və sağlam bədən.”

◘Bəzi tarix kitablarında belə yazılıb: “Kəsra Bozorgmehrə qəzəbləndi. Əmr etdi onu zəncirləyib, qaranlıq bir otaqda həbs etsinlər. Bir neçə gündən sonra bir nəfəri onun yanına göndərdi ki, halından

xəbərdar olsun. Həmin şəxs Bozorgmehrin yanına gəlib, onu aram, fikri rahat bir halda görüb təəccüblə soruşdu: Necə olur ki, bu çətinlik və sıxıntıda da belə xoşhal oturmusan? Dedi: Altı tərkibdən ibarət bir məcun düzəldib istifadə etdim və həmin məcun mənim şad olmağıma səbəb oldu. Həmin şəxs dedi: Onun tərkibini bizə də öyrət, biz də ondan istifadə etməklə çətinliklərdə ondan yararlanaq. Bozorgmehr dedi: Allaha etimad və təvəkkül, Allahın təqdirinin mütləqliyini bilmək, çətinliklərin ən yaxşı dərmanı olan səbir, səbir edə bilməsəm dözümsüzlük göstərməklə bəlanı daha da şiddətləndirmirəm. Bilirəm ki, bundan daha da çətin bəla ola bilər, hər bir an fərəc və düyünlərin açılmasının intizarındayam.” Elə ki, bu sözlər Kəsraya çatdı, onu azad edib yanında izzət sahibi etdi.

◘Bir filosof deyib: “Hər kəs dünyanı axirətdən üstün tutsa altı ilahi cəzaya mübtəla olar. Onun üçü dünyada, üçü isə axirətdədir. Dünyada olanlar bunlardır; sonsuz arzu, hərislik və heç bir şeyə qane olmayan şiddətli acgözlük. Axirətdə olanlarsa bunlardır; Qiyamət gününün dəhşətli qorxusu, haqq-hesabın çətinliyi və bitib-tükənməyən həsrət.”

◘Aristotel deyib: “Padşahla yoldaşlıq etməkdən çəkin, dostunla təvazökar ol, düşməninə qarşı bədgüman, başqaları ilə xoş keçin, özün barədə nəfsani və dinin ziddinə olan istəklərinə qarşı müxalif ol, Allah qarşısında isə təqvalı ol.

◘Bir hikmət sahibi deyib: “Altı xislət var ki, yalnız ali-şərafətli insanlarda olar və sair insanlarda olması qətiyyən mümkün deyil; böyük bir nemətə çatan zaman aramlıq və soyuqqanlılıq, ağır müsibət və bəlalar üz verən zaman səbr, şəhvət həyəcana gələn zaman ağıldan yapışmaq, dost və düşməndən sirlərini gizlətmək, aclığa dözüm və qonşunun əziyyətinə təhəmmül etmək.”

◘Başqa birisi deyib: “Allah altı şeyi altı şeydə gizlədib: Öz razılığını itaətdə, qəzəbini Ona qarşı çıxmaqda, İsmi-əzəmi Quranda, Öz dostlarını camaat arasında, ölümü ömürdə, Qədr gecəsini Ramazan ayında və “vusta” (ən üstün) namazı da gündəlik beş vacibi namazda.

◘Yəhya ibn Məaz deyir: “Elm əməlin nişanəsi, fəhm elmin qabı, əql xeyrin yol göstərəni, həvəs günahın miniyi, arzu mütəkəbbirlərin azuqəsi və dünya da axirətin bazarıdır.”

◘Əhnəfdən soruşdular: Bəndəyə verilən ən gözəl şey nədir? Dedi: Fitri əql Dedilər: Əgər o olmasa? Dedi: Gözəl ədəb. Dedilər: Əgər o da olmasa? Dedi: Münasib dost. Dedilər: Əgər o da olmasa? Dedi: Allaha bağlı olan qəlb. Dedilər: Əgər o da olmasa? Dedi: Uzun uzadı sükut. Dedilər: Əgər o da olmasa? Dedi: Nəqd ölüm.

◘Əbu Salman Darani deyir: “Həddindən artıq yeməyin altı ziyanı var; ibadətin şirinliyini dada bilməmək, hikmətli mətləbləri başa düşməkdə acizlik, aclara qarşı rəhimsiz olmaq (çünki, hamını özü kimi tox bilər.), ibadət zamanı ağırlıq, şəhvətin çoxluğu və nəhayət, möminlər məscidlərdə olduqları halda, çox yeyənlər zibillikdə hərlənər.”

◘Əllamə Dəvani öz risalələrinin birinin axırında belə yazır: “Altı şeyi gizlin saxla, çünki bu, saleh insanların əməllərindən və təqvalıların gövhərlərindəndir:

1. Yoxsulluğunu elə gizlət ki, səni dövlətli hesab etsinlər.
2. Sədəqəni elə gizli saxla ki, səni simic hesab etsinlər.
3. Düşmənçiliyini elə gizli saxla ki, səni dost hesab etsinlər.
4. Qəzəbini qəlbində elə gizlət ki, səni razı hesab etsinlər.
5. Nafilə namazlarını və sair müstəhəb işləri elə gizlət ki, səni təqsirkar bilsinlər.
6. Nəhayət, xəstəliyini elə gizlət ki, səni sağlam hesab etsinlər.

◘Bir filosof deyib: “İnsan müsafirdir və gərək altı mənzildən keçsin. Onun üçünü keçib, üçü isə hələ qarşıdadır. Keçdiyi mənzillər bunlardır:

1) Atanın beli; Allah-təala buyurur: “(Sperma) kişilərin bel sümüyündən xaric olar.”

2) Ana bətni; Allah-təala buyurur: “Allahdır ki, sizə analarınızın bətnində surət verir.”

3) Dünya.

Onu qarşıda gözləyən üç mənzil də bunlardır:

1) Qəbir; Hədislərdə var ki, “qəbir dünyanın axırıncı, axirətin isə birinci mənzilidir.”

2) Qiyamət; Allah-təala buyurur: “...Allahın qarşısında sıraya düzülmüş halda durarlar.”

3) Ya behişt, ya cəhənnəm. Bu barədə də Allah-təala buyurur: “Bir hissəsi cənnətdə, bir hissəsi də cəhənnəmdədir.”

İndi biz dördüncü mənzilə gedən yoldayıq. Ötməli olduğumuz zaman müddəti ömrümüz qədərdir. Hər bir gün bir fərsəxdir, hər saat bir mil və hər bir nəfəs də bir addım. Bir qrup insanın bir neçə fərsəxi qalıb, bir qrup insanın da bir neçə addımı.

◘Xalid deyir: “Mömini bir-biri ilə müxalif olan altı xüsusiyyətlərdə görərsən; iffətli və çox üz vuran, əziz və zəlil, ehtiyacsızlıq və ehtiyac. Camaat qarşısında iffətli, Allah qarşısında çox şey istəyəndir. (Yəni, yalvarıb-yaxarandır), öz-özlüyündə əziz (yəni, özünü xar etməz), haqq qarşısında isə zəlildir, camaatdan ehtiyacsız, Allah qarşısında isə ehtiyaclıdır.”

◘İbrahim Ədhəm: “Çox danışan adam qəlb yumşaqlığına ümid bəsləməsin. Çox yatan şəxs gecə namazı tamahında olmasın. Camaatla çox qaynayıb-qarışan adam ibadətin şirinliyini arzulamasın. Zülümkarlarla yoldaşlıq edən dində davamlı olmaq intizarında olmasın. Qeybət və yalana adət edən kəs imanla dünyadan gedəcəyinə ümidvar olmasın. Hər kəs camaatın rəğbətini güdsə, Allah razılığı arzusunda olmasın.”

◘Həsən Bəsri deyir: “Qəlbin qəsavət və bərkliyi altı şeydən irəli gəlir; tövbə etmək ümidi ilə günah etmək, elm öyrənib ona əməl etməmək, ixlassız əməl, yeyib şükür etməmək, Allahın təqdirinə razı olmamaq, ölüləri dəfn edib bunlardan ibrət götürməmək.”

## YEDDİNCİ BÖLMƏ

### *Yeddi tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Peyğəmbərdən (s) nəql olunan hədislər*

◘Əbuzərə nəsihətində buyurur: "Həmişə səndən aşağıda olana bax, səndən yuxarı olana yox, yoxsulları sev və onlarla yoldaşlıq et, acı olsa da haqqı de, qohumların səndən uzaqlaşsalar da sən onlarla əlaqəni kəsmə, Allaha aid olan işlərdə heç kəsi danlamaqdan qorxma, "La hovlə və la quvvətə illa billahil əliyyil əzim" zikrini çox de, çünki, bu zikr behişt xəzinələrindəndir.

◘Həzrət Əliyə (ə) nəsihətlərində buyurur: "Ey Əli! Yeddi xüsusiyyət var ki, hər kəsdə olsa imanını kamil etmişdir və behiştin qapıları onun üzünə açıqdır; fərəhlə dəstəmaz almaq, gözəl namaz qılmaq, malın zəkatını vermək, qəzəbi boğmaq, dilini saxlamaq, günahdan istiğfar etmək və Peyğəmbərin (s) Əhli-beytinə (ə) qarşı xeyirxah olmaq."

◘Elə bir mömin yoxdur ki, ramazan ayında Allaha görə oruc tutsun, Allah ona yeddi imtiyaz verməsin; bədənində haramdan əmələ gəlmiş ət əriyib gedər, Allahın rəhmətinə yaxınlaşar, bu ayda oruc tutmaq günahlarının kəffarəsi hesab olunar, ölümün çətinlikləri onun üçün asanlaşar, Qiyamət gününün aclığından və susuzluğundan amanda olar, Behiştin ləziz və dadlı yeməklərindən bəhrələnər və Cəhənnəmin atəşindən amanda qalar.

◘Mən yeddi nəfərə lənət etmişəm, Allah da onlara lənət edib və məndən əvvəlki peyğəmbərlər də onlara lənət etmişlər. Onlar bunlardır: Allahın kitabına bir şey artıran kəslər, qəza-qədəri təkzib edənlər, mənim sünnə və dinimə müxalif olanlar, əhli-beytimə (ə) qarşı düşmən münasibətdə olanlar, Alalhın dostlarını zəlil, düşmənlərini isə əziz etmək məqsədi ilə hakimiyyəti zorla ələ alanlar, camaatın ümumi malını öz çənginə keçirən qəddar hakim və bir də Allahın halallarını haram, haramlarını isə halal bilənlər.

◘Bir gün bir neçə yəhudi alimi Peyğəmbər (s) ilə mübahisəyə gəlirlər. Söhbət əsnasında Həzrətdən (s) soruşurlar: Allahın yalnız sənə verdiyi yeddi xüsusiyyət hansılardır? Həzrət (s) buyurdu:

1. Həmd surəsi.
2. Azan.
3. Məsciddə cəm olma və Cümə günü.
4. Meyit namazı.
5.Üç namazı ucadan qılmaq.
6.  Xəstə və səfərdə olan zaman ibadətlərin güzəşti.
7. Ümmətimdən böyük günahlara mürtəkib olanlar üçün şəfaət.

Dedilər: Düz dedin.

◘Allah bir qövmə qarşı qəzəblənib əzab göndərsə, onların malları baha, ömürləri qısa, ticarətləri xeyirsiz, meyvələri dadsız olar; məskunlaşdıqları yerə yağış yağmaz, gölləri quruyar və şər insanlar onlara hakim kəsilər.

◘Mənimlə və mənim əhli-beytimlə dostluq dəhşətli qorxuya səbəb olan yeddi yerdə dada çatar; ölüm vaxtı qəbirdə, (Qiyamət günü) qəbirdən qalxan zaman, əməl dəftərləri paylananda, haqq-hesab çəkiləndə, əməllər ölçüləndə və sirat körpüsündən keçən zaman.

◘Həzrət Əliyə (ə) buyurub: Mən peyğəmbər olduğuma görə səndən üstünəm. Çünki, məndən sonra peyğəmbər yoxdur. Sən də yeddi xüsusiyyətə görə başqalarından üstünsən və bu xüsusiyyətlərə görə Qüreyşdə bir nəfər də sənə qarşı çıxa bilməz. Həmin xüsusiyyətlər bunlardır:

1. Hamıdan birinci iman gətirmisən.
2. Əhd-peymanda hamıdan vəfalısan.
3. Allaha aid olan işlərdə hamıdan möhkəmsən.
4. Bölüşdürmə zamanı hamıdan ədalətlisən.
5. Rəiyyət arasında ən çox dada yetişənən.
6. Qəzavət zamanı hamıdan daha müdriksən.
7. Allah yanında hamıdan daha əzizsən.

◘Cəbrail mənə nazil oldu və dedi: “Allah sənə salam göndərib buyurur. Mənimlə sənin ümmətin arasında yeddi qərar var:

1. Əgər mənə itaət etsələr, müqəssir də  olsalar itaətlərini qəbul edərəm. Çünki, Mən Kərim olan Allaha məxsus olanı yerinə yetirərəm, bəndə isə zəif olan bəşərə layiq olan bir iş yerinə yetirər.

2. Tövbə etsələr və bir daha günaha geri dönməsələr, onları anadan olduqları gündəki kimi pak-pakizə dünyadan apararam.

3. Onların yeddi bədən üzvlərindən olan dil, qulaq, göz, əl, ayaq, qarın və cinsiyyət üzvünün altısı günahkar, biri isə günahsız olsa, həmin bir üzvə görə o birilərinin də günahından keçərəm.

4. Bir kəs günah etsə və bilsə ki, Allah bağışlayandır, onun günahlarından keçərəm.

5. Onları müxtəlif xəstəliklərə düçar etməklə günahlarını yuyub apararam.

6. Hər qış və yayda onlara soyuq və istilik göndərməklə onları Qiyamətin isti-soyuğundan qoruyaram.

7. Onlar üçün fəzilətlə dolu olan aylar və günlər müəyyən edərəm ki, həmin vaxtlarda ibadətlərinin savabını qat-qat artırım, günahlarını bağışlayım və Öz rəhmətimlə onları behiştə daxil edim.

## İKİNCİ FƏSİL

## *Peyğəmbərdən (s) nəql olunan əhli-sünnə hədisləri*

◘Allah yolunda öldürülənlərdən başqa yeddi qrup insan da şəhid hesab olunur; ürək xəstəliyinə tutulan, yanmış, uçqun və dağıntı altında qalmış, suda batmış, plevrit (ağ ciyər qabığının iltihabı) xəstəliyindən ölən, vəba xəstəliyindən ölən və doğuş zamanı ölən qadın. (Yəni, Allah bu kəslərə şəhid olanların savabını əta edər.)

◘Yeddi evə rəhmət nazil olmaz; talaq verilmiş qadın olan evə, sözə baxmayan qadın olan evə, camaatın əmanətinə xəyanət olunan evə, zəkatı verilməyən mallar olan evə, vəsiyyətinə əməl olunmayan şəxsin vərəsələrinin evinə, şərab olan evə, ərinin malından oğurlayan qadının yaşadığı evə.

◘Qiyamət günü Allah-təala yeddi dəstə insana nəzər salmaz və əmr verər ki, onları atəşə salsınlar; ləvat verən, əli ilə istimna edən, heyvanla yaxınlıq edən, ləvat edən, öz arvadının qızı ilə zina edən, qonşunun arvadı ilə zina edən və qonşusunu incidib ona əziyyət verən.

◘Allah-təala yeddi tayfaya üç dəfə lənət edib; ləvatla məşğul olana, heyvanla yaxınlıq edənə, ata-anasını söyənə, torpaq oğrusuna, qaynanası ilə zina edənə, özünü atasına deyil, başqa kişiyə nisbət verənə və heyvanın başını kəsərkən Allahdan başqasının adını çəkənə.

◘Yeddi əməlin savabı öləndən sonra da davamlı olaraq yazılar; ağac əkmək, quyu qazmaq, axar suyun özülünü qoymaq, məscid tikdirmək,

Quran yazmaq, elm yadigar qoymaq, özündən sonra ata-anasından ötrü istiğfar edən saleh övlad qoyub getmək.

◘Yeddi yerdə danışmaq məkruhdur; dəfn mərasimində (cənazəni müşayiət edərkən), qəbristanlıqda, xəstənin başı üstündə, elm məclisində, məsciddə, cinsi yaxınlıq edən zaman, bəla və müsibət üz verən zaman (çünki, bəla və müsibətin müddəti gərək ibrət almağa sərf olunsun)

◘Ey Əli! Yeddi əmələ görə Cəbrail bəni-adəmdən olmaq arzusu edir; camaat namazı, alimlərlə oturub-durmaq, camaatın ixtilaflarını həll etmək, yetimə nəvaziş göstərmək, xəstəni yoluxmaq, cənazəni müşayiət etmək və hacılara su vermək. Elə isə, sən də ey Əli, bu işlərə xüsusi diqqət yetir.

◘Ey Əli! Allah sənin şiələrinə yeddi məziyyət əta edib; ölüm zamanı rahatlıq, vəhşət zamanı aramlıq, qaranlıqlarda aydınlıq, iztirab zamanı əmniyyət, əməllərin hesabı zamanı ədalət (ola bilsin, bunda məqsəd fəzl və ehsandır), sirat körpüsündən keçid və başqalarından qırx il əvvəl behiştə daxil olmaq.

◘Allah-təala bizə yeddi xislət əta edib ki, bizdən sonra heç kəsdə olmayacaq; camal, fəsahət, kərəm, şücaət, elm, səbr və qadınlara qarşı məhəbbət.

◘Yeddi iş var ki, mənim ümmətimdən hər kəs onları yerinə yetirsə Allah-təala onu peyğəmbərlər, şəhidlər, siddiqlər və salehlərlə məhşur edər: Bir adamı həccə göndərmək, kömək istəyənin harayına yetişmək, yetim saxlamaq, yolunu azmışı hidayət etmək, acı doyurmaq, susuzu sirab etmək və isti gündə oruc tutmaq.

◘Allah tərəfindən belə vəhy gəldi: «Ey Əhməd! Bilirsənmi ki, bəndə nə vaxt abid olur?» Ərz etdi: «Xeyr, Pərvərdigara!» Buyurdu: «Yeddi xislət bir bəndədə cəm olsa, həmin vaxt o, abid hesab olunar. Həmin yeddi xüsusiyyət bunlardır:

1. Onu günahdan çəkindirən təqva.
2. Faydasız sözlər danışmaqdan çəkinmək.
3. Onu ağlamağa vadar edən Allah qorxusu.
4. Təklikdə onu Allahdan utanmağa vadar edən həya.
5. Zəruri miqdarda olan yeməyə qane olmaq.

6. Dünya ilə düşmənçilik, çünki Mən də onu (dünyanı) düşmən tuturam.

7. Yaxşı insanlarla dostluq.»

◘Hər kəs öz meyl və rəğbəti ilə zəkat versə və zəkat verməkdə Allahın razılığından başqa bir məqsədi olmasa onu, göyün birinci qatında səxavətli, ikinci qatında bağışlayan, üçüncü qatında itaətcil, dördüncü qatında xoşrəftar, beşinci qatında əta edən, altıncı qatında mübarək və zəmanət verilmiş, yeddinci qatında isə bağışlanılmış deyə çağırarlar.

Zəkat verməyən kəsi isə, göyün birinci qatında simic, ikinci qatında acgöz və tamahkar, üçüncü qatında qəzəbə düçar olmuş, beşinci qatında üz-gözünü turşutmuş, altıncı qatında xeyir-bərəkətsiz, yeddinci qatında isə namazdan üz döndərmiş adlandırarlar.

◘Cəbrail mənə qadınlar barədə o qədər tapşırdı ki, onlara talaq verməyin haram olmasını zənn etdim, qullar barədə o qədər tapşırdı ki, müəyyən vaxtdan sonra onların öz-özlərinə azad olacağını düşündüm, qonşu barədə o qədər tapşırdı ki, onların da vərəs olduğunu güman etdim, misvak barədə o qədər tapşırdı ki, onun vacib olmasını fikirləşdim, camaat namazı barədə o qədər tapşırdı ki, ondan başqa bir namazın Allah dərgahında qəbul olmadığını düşündüm, zikr barədə o qədər tapşırdı ki, zikrdən başqa heç bir danışığın faydalı olmadığını zənn etdim və nəhayət, gecə namazı barədə o qədər tapşırdı ki, gecə yatmağın qadağan olmasını güman etdim.

## ÜÇÜNCÜ FƏSİL

## *Həzrət Əmirəl-mömінindən (ə) olan hədislər*

◘Mömin o kəsdir ki, qazancı halal, xasiyyəti gözəl, qəlbi sağlam olsun, malının artığını bağışlasın, artıq sözü saxlasın, camaat onun şərindən amanda olsun və özü də başqaları barədə insaflı davransın.

◘Yoldaş istəyirsənsə Allah, dünya istəyirsənsə ibrət dərsi, dost istəyirsənsə əməli yazan mələklər, qazanc istəyirsənsə ibadət, həmdəm istəyirsənsə Quran, moizə istəyirsənsə ölüm. Əgər, ölüm bəs deyilsə, atəş bəs edər.

◘Həzrət Əlidən (ə) soruşdular: Asimandan ağır, yerdən geniş, dəryalar qədər ehtiyacsız, daşdan da möhkəm, atəşdən də qaynar, şiddətli şaxtadan da soyuq və zəhərdən də acı olan nədir? Buyurdu:

Asimandan da ağır günahsıza vurulan töhmətdir, yerdən də geniş haqqın ətəyi, dəryalar qədər ehtiyacsız qane olan kişinin qəlbi, daşdan da möhkəm münafiqin qəlbi, oddan da isti zülümkar padşah, sərt şaxtadan da soyuq simicə ağız açmaq, zəhərdən də acı səbrdir.

◘Elmin (dini elm və maarifin) var-dövlətdən yeddi üstün cəhəti var; elm peyğəmbərlərin mirasıdır, var-dövlətsə fironların, elmi bağışlayıb əta etdikcə artır, var-dövlət isə azalır, elm alimin qoruyucusudur, var-dövlətsə özü qorunmağa möhtacdır, elm kəfəndə olarkən də insana yoldaşdır, var-dövlət isə yox, var-dövlət kafirə də məxsus ola bilər, möminə də, lakin, elm yalnız möminlərə məxsusdur, alim dini məsələlərdə hamının müraciət nöqtəsidir, lakin, dövlətli isə belə deyil, elm sirat körpüsündən keçərkən sahibinə qüdrət bəxş edər, mal-dövlət isə öz sahibinin qüdrətini əlindən alar.

## DÖRDÜNCÜ FƏSİL

## *İmam Sadiqdən (ə) hədislər*

◘Müəlla ibn Xənis deyir ki, bir gün Həzrət Sadiqdən (ə) soruşdum: Möminin mömin boynunda nə haqqı var? Buyurdu: Möminin mömin boynunda yeddi vacib haqqı var ki, əgər o bunlardan birini yerinə yetirməsə, Allahın vilayətindən xaric olmuş və Allaha itaətdən boyun qaçırmış hesab edilir. Dedim: Bu haqlar hansılardır? Buyurdu: Mənim səndən xoşum gəlir, qorxuram bunlara əməl etməyəsən. Dedim: La hövlə və la quvvətə illa billahil-əliyyil-əzim (yəni, Allahın qüdrət və qüvvətindən başqa qüdrət və qüvvət yoxdur. Red.) Buyurdu: Möminin Mömin boynunda olan ən kiçik haqqı budur ki, özü üçün hər nə istəyirsə, onun üçün də istəsin və hər nəyi özü üçün bəyənmirsə, onun üçün də bəyənməsin. İkincisi budur ki, onun ehtiyaclarını ödəməkdən ötrü səy göstərsin, razılığını əldə etsin və sözündən çıxmasın. Üçüncüsü odur ki, canı, malı, əli, ayağı və dili ilə ona yaxşılıq etsin. Dördüncüsü odur ki, onun görən gözü, yolgöstərəni, aynası və eyiblərinin örtüyü olsun. Beşincisi odur ki, sən tox olmayasan, o isə ac, sən geyimli olmayasan, o isə çılpaq, sən sirab olmayasan, o isə susuz. Altıncısı odur ki, sənin qulluqçun varsa, onun yoxdursa, qulluqçunu göndər onun paltarını yusun, yeməyini bişirsin və yatağını düzəltsin. Yeddinci odur ki, ona and versə, gərək xahişini yerinə yetirsin, dəvətini qəbul etsin, xəstə olanda ona baş çəkməyə getsin, öldükdən sonra cənazəsini müşayiət etsin və dəfn mərasimində iştirak etsin, ehtiyacını həyata keçirməkdən ötrü özünü əziyyətə salsın, onun istəyini ağız açmamışdan

yerinə yetirsin. (Bunlar yalnız o haldadır ki, o eynilə mömin qardaşı kimi həqiqi mömin olsun. Yoxsa, bunlar fəsadsız ötüşməz.)

◘Əmmar ibn Əbil-Əhvəs deyir ki, bir gün İmam Sadiqə (ə) ərz etdim: Bizim aramızda elələri var ki, Əlini (ə) başqalarından üstün tutaraq onu Əmirəl-möminin deyə çağırırlar, lakin, onlar bizim siz barədə malik olduğumuz əqidədə deyillər. Biz bunlarla dost münasibətdə ola bilərikmi? Həzrət (ə) buyurdu: Bəli, Allah İslamı yeddi hissəyə bölüb: səbr, doğruçulluq, yəqin, ümid, vəfa, elm və helm. Bu yeddi hissəni camaat arasında bölüb. Ən kamil iman bu yeddi hissənin hamısına sahib olanlardadır. Bu kəslərdən başqaları isə ya bir, ya iki, ya üç, ya dörd, ya beş, yaxud da altı paya sahibdirlər. Bir payı olanlara iki pay yükləməyin və eyni zamanda iki paya sahib olmayanlara üç pay yükləməyin və s. çünki, bu yükləmələr ağırlıq və nifrətə səbəb olar. Camaatla dostcasına və mehribanlıqla rəftar edin. Yolu onlara asan göstərin. Bundan ötrü bir məsəl çəkim ki, qoy güc və taqətdən artıq yüklənmənin axırının nə olduğu sənin üçün aydın olsun. Bir müsəlmanın mülayim və yumşaq təbiətli bir qonşusu var idi. Müsəlman həmin kafir qonşusuna İslamı təbliğ etdi. Nəticədə həmin şəxs müsəlman oldu və öz keçmiş əqidəsindən üz döndərdi. Sübh çağı müsəlman həmin qonşusunu özü ilə birlikdə məscidə aparmaqdan ötrü onun qapısına gəldi. Camaat namazı qurtardı, müsəlman üzünü qonşusuna tutub dedi: Yaxşı olar ki, gün çıxanadək elə buradaca zikrlə məşğul olaq. Elə ki, gün çıxdı yenə üzünü qonşusuna tutub dedi: Çox yaxşı olar ki, bu günü oruc tutub, günorta azanına qədər oturub Quran əzbərləyəsən. Beləliklə, onlar günorta azanına qədər məsciddə orurdular. Zöhr və əsr namazlarını qıldıqdan sonra, yenə üzünü qonşusuna tutub dedi: Yaxşı olar ki, elə birdəfəlik məğrib azanına qədər də oturub gözləyək, sonra gedək. Yenicə müsəlman olmuş zavallı kişi oturub gözlədi, məğrib və işa namazlarını da qıldı. Lakin artıq taqəti kəsilmişdi və bütün bunlar onun qüdrətindən artıq idi. Sabahısı gün həmin mömin yenidən onu özü ilə birlikdə məscidə aparmağa gəldiyi zaman qonşusu üzünü ona tutub dedi: Get. Mən sənin dininə tab gətirə bilmərəm.

Camaatı azdırmayın. Bizim imamətimiz dostluq, mehribanlıq, vüqar, təqiyyə, xoş rəftar, təqva və çalışqanlıq kimi əsasların üzərində durur. Camaatı öz din və əqidənizə qarşı meyilləndirin.

## *Xatimə*

◘Həzrət Riza (ə) buyurur: "Yeddi nəfər özünü məsxərəyə qoyub: Dildə istiğfar edib qəlbində peşman olmayan, Allahdan tövfiq istəyib

özü isə çalışmayan, behişt arzusunda olub çətinliklərə səbr etməyən, cəhənnəm odundan Allaha pənah aparıb dünya ləzzətlərindən əl çəkməyən, ölümü xatırlayıb özünü ona hazırlaşdırmayan, Allahı yad edib Onunla görüşməyə müştaq olmayan və günahda davamlı olaraq tövbə etmədən Allahdan onu əvf edib bağışlamasını diləyən kəs."

◘Salman Farsi deyir: "Simic yeddi bədbəxtlikdən birinə düçar olar: Ya ölər var-dövlətini isə vərəsələrindən ötrü qoyar və o da Allahdan başqasından ötrü xərcləyər, ya hər hansı bir zalım zorla və biabırçılıqla ondan alar, ya başına düşər və bütün varını daha artıq qazancdan ötrü əlindən çıxarar, ya da evini yenidən təmir etmək fikrinə düşüb əlində olanı da bada verər, ya hər hansı bir bədbəxt hadisə nəticəsində əlindən verər, ya yanğın vasitəsilə əlindən çıxar, ya oğruya nəsib olar, ya müalicəsiz bir xəstəliyə mübtəla olub bu yolda sərf etməklə əlindən verər, yaxud da bir yerdə torpağa basdırar və sonradan isə yadından çıxar."

◘Bir hikmət sahibi deyib: "Təəccüb edirəm o kəslərə ki, Allahı tanıyır, lakin, itaət etmir, savaba ümidi var, lakin iş görmür, Allahın əzabından qorxur, amma günahdan çəkinmir. Elmin şərəfini bilir, lakin, cahilliklə razılaşır, dünyaya bel bağlamamalı olduğunu bilir, lakin bütün səy və himmətini dünyaya sərf edir, axirətə gedəcəyini bilir lakin ondan qəflət edərək onu bərbad edir, ölüm ona doğru gəlməkdədir, o isə uzun-uzadı arzulardadır."

◘Başqa birisi deyib: "Yeddi şey sədəqəni zinətləndirir və onu yuxarı aparır:

1. Halaldan olsun.
2. Kasıbçılıq zamanı olsun.
3. Ölüm gəlməmişdən qabaq olsun.
4. Gizlin olsun.
5. Yaxşı maldan olsun.
6. Minnətsiz olsun.
7. Həddi-hüdudu aşmasın."

◘Həzrət Sadiqdən (ə) aşağıdakı məzmunda bir şer rəvayət olunub: "Qəməri aylarının yeddi günü nəhsdir: üçüncü, beşinci, on üçüncü, on altıncı, iyirmi birinci, iyirmi dördüncü, iyirmi beşinci günləri. (Bu günlərin nəhsliyi sədəqə verməklə aradan qalxır.)

◘Bir hikmət sahibi deyib: “Özünü batil şeylərdən qorumaq oruc, haqqı ödəmək namaz, başqalarına fayda vermək zəkat, haqq əhlinin arxasınca düşmək həcc, camaata əziyyət verməkdən çəkinmək sədəqə, bədən üzvlərini nalayiq işlərdən qorumaq ibadət, nəfsani istəkləri tərk etmək isə cihaddır.

## SƏKKİZİNCİ BÖLMƏ

### *Səkkiz tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Peyğəmbərdən (s) hədislər*

◘Səkkiz iş var ki, mənim ümmətimdən hər kəs onları yerinə yetirsə, peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə birlikdə həşrdə olar: bir kəsin həcc səfərindən ötrü lazım olan xərclərini ödəmək, bir cavana qız vermək, fəryad çəkənin dadına yetişmək, yetim saxlamaq, yolunu azmışı hidayət etmək, aca yemək vermək, susuza su vermək və yayın isti günlərində oruc tutmaq.

◘Allahın bir kəsdən xoşu gəlsə, ona səkkiz xüsusiyyət ilham edər: naməhrəmdən göz yummaq, Allahdan qorxmaq, həya, salehlərin əxlaqı, səbr, əmanətdarlıq, doğruçulluq və səxavət.

◘İnsanların ən abidi odur ki, vacibatı yerinə yetirir, ən zahidi odur ki, haramlardan çəkinir, ən təqvalısı odur ki zərərinə də olsa, xeyrinə də, həmişə haqqı deyir. Ən pəhrizkarı odur ki, haqlı da olsa mücadilə etməsin, hamıdan çalışqan odur ki, günahları tərk etsin, hamıdan daha artıq əziz olanı ən təqvalı olanıdır, ən dəyərlisi odur ki, boş-boş sözlər danışmasın və ən xoşbəxti odur ki, şərəfli insanlarla oturub-dursun.

◘Hər kəs səkkiz dəstə insanla oturub-dursa, Allah onun vücudunda səkiz şeyi artırar: Dövlətli ilə yoldaşlıq etsə, Allah onun qəlbində dünya məhəbbətini artırar, kimsəsiz salehlərlə yoldaşdlıq edənin Allah səbr və rizayətini artırar, sultanlarla yoldaşlıq edənin Allah qəsavət və təkəbbürünü artırar, qadınlarla oturub-duranın Allah nadanlıq və şəhvətini artırar, uşaqlarla oturub-duran günah etməkdən ötrü cürəti artar və tövbə etməyi təxirə salar, (çünki, uşaqlar şəri nöqteyi-nəzərdən mükəlləf olmadıqları üçün onların ruhiyyəsinin onlarla oturub-duran böyüklərə də keçməsi labüddür), salehlərlə yoldaşlıq edənin itaətə rəğbəti artar, alimlərlə yoldaşdıq edənin elmi çoxalar və nəhayət, zahidlərlə yoldaşlıq edənin axirətə meyl və rəğbəti artar.

◘Səkkiz şey səkkiz şeydən doymaz: Göz baxmaqdan, yer yağışdan, qadın kişidən, alim elmdən, dilənçi dilənməkdən, həris mal toplamaqdan, dərya sudan və atəş odundan.

## İKİNCİ FƏSİL

## *Həzrət Əmirəl-mömininindən (ə) hədislər*

◘Qəlbi aramlıqlar və ruhi hazırlıqla qılınmayan namazda xeyir yoxdur. Boş-boş və faydasız şeylərdən çəkindirməyən orucun da faydası yoxdur. Təfəkkür və düşüncəsiz oxunan Quranın faydası yoxdur. Təqvasız elmin heç bir xeyri yoxur. Eləcə də, səxavətsiz dövlət, günahdan çəkinilməyən xəlvət, davamsız nemət, ixlassız duanın heç bir faydası yoxdur.

◘Əgər səkkiz kəs özünə hörmətsizlik və təhqir görsə, özündən başqa heç kəsi qınamasın: Dəvətsiz gəlib süfrə arxasında oturan, ev yiyəsinə ağalıq edən, düşmənlərdən xeyir gözləyən, alçaqlardan alicənablıq intizarında olan, camaatın məhrəm söhbətlərinə soxulan, sultanların ünvanına pis sözlər deyən, özünə uyğun olmayan məclisdə iştirak edən və qulaq asmayandan ötrü danışan.

◘Bir gün Həzrət Əli (ə) Peyğəmbərin (s) hüzuruna getdi. Peyğəmbər (s) ondan soruşdu: "Ey Əbəlhəsən, vəziyyətin necədir? "Həzrət Əli (ə) cavab verdi: "Elə bir haldayam ki, səkkiz tələbkar məndən öz tələblərini gözləyir. Allah vacibatı tələb edir, siz müstəhəbat, əməl yazan mələklər doğruçulluq, ölüm mələyi ruh, ailəm yemək, şeytan günah, nəfs ləzzət, dünya isə meyl və rəğbət."

◘Hər kəs daim məscidə get-gəl etsə, səkkiz şeydən faydalanar: Allah yolunda olan qardaşlarla dostluq edər, yeni-yeni biliklər əldə edər, Quran ayələri ilə tanış olar, rəhmətə qovuşar, ona nicat verəcək nəsihətlər eşidər, hidayətinə səbəb olan söhbətlərə qulaq asar, ya qorxu, yaxud da həya üzündən günahı tərk edər.

## ÜÇÜNCÜ FƏSİL

## *İmam Sadiqdən (ə) hədislər*

◘Bir nəfər Həzrət Sadiqə (ə) ərz etdi: "Siz bütün insanları adam surətində görürsünüzmü? " Həzrət cavab verdi: "Səkkiz dəstə insanı kənara at. Həmin kəslər bunlardır:

1. Dişlərini yumayan.
2. Dar yerdə bardaş qurub oturan.
3. Lazımsız və heç bir faydası olmayan işlərə girişən.
4. Heç bir məlumatı olmadan mübahisə edən.
5. Heç bir ağrısı olmayıb nalə edən.

6. Heç bir bəla üz verməmiş pərişan olan.
7. Dostlarının müttəfiq olduqları hər hansı bir məsələdə onlara müxalif olan.
8. Ata-babaları heç bir iftixara layiq olmadığı halda onları öyən.
Belə kəslər barədə Allah-təala buyurur: “Onlar heyvan kimidirlər, bəlkə ondan da aşağıdırlar.”

◘Məhəmməd ibn Müslim deyir: Bir gün İmam Sadiqə (ə) ərz etdim: “Sənə fəda olum, necə olur ki, biz, kafirlərin cəhənnəm əhli olduqlarını iddia edirik, lakin özümüzün cənnət əhli olduğumuzu iddia edə bilmirik.” O həzrət buyurdu: “Bu sizin özünüzün (dini məsələlərdə) zəif olduğunuzdan irəli gəlir. Əgər böyük (kəbirə) günahları yerinə yetirmirsinizsə, siz də behişt əhli olmağınızı iddia edə bilərsiniz.” Mən soruşdum: “ Böyük günahlar hansılardır?” Həzrət (ə) buyurdu: “Allaha şərik qoşmaq, ata-anaya zülm etmək, İslam şəhərinə mühacirət etdikdən sonra küfr şəhərinə qayıtmaq, pakdamən bir qadına böhtan atmaq, döyüşdən qaçmaq, yetimin malını zorla yemək, İslamın hökmündən xəbərdar olduğu halda riba (faizə pul) almaq və mömini öldürmək.” (Böyük günahların sayı qırx və bir az da çoxdur. Lakin burada səkkizi göstərilib.)

◘Məscidləri alqıdan, satqıdan, dəlidən, günahdan, itmiş bir şeyi elan etməkdən, qəzavətdən , hədd icra etməkdən (yəni, günahkarı cəzalandırmaqdan) və səs-küydən qoruyun.

◘Çox gözəl olar ki, mömin bu səkkiz xüsusiyyətə malik olsun; pərişanlıq zamanı soyuqqanlı, dəyişməz və mətanətli olsun, müsibətlər zamanı səbirli və dözümlü olsun, nemət zamanı şükürlü olsun, Allahın verdiyi ruziyə qane olsun, düşmənlərə zülm etməsin, dostlarının boynuna ağır vəzifələr qoymasın, bədəni onun əlindən əziyyətdə olmasın, camaat onun tərəfindən amanda olsun. Elm mömininin dostudur. Helm isə silahdaşı və vəziri, səbr qoşununun əmir və sərkərdəsi, mehribanlıq və mərhəmət qardaşı, mülayimlik və yumşaqlıq isə atası.

◘Bir gün İmam Cəfər Sadiq (ə) şagirdlərinin birindən soruşdu: Mənim məktəbimdə nə öyrənmisən? Şagird dedi: Səkkiz məsələ. İmam buyurdu: Bir-bir say görüm hansılardır. O dedi: Birincisi, başa düşdüm ki, ölüm zamanı hər kəs istədiyi və sevdiyi şeydən ayrılır. Ona görə də bütün səy və himmətimi ölüm vasitəsilə ayrılmayacağım şeylərə sərf etdim. Yəni, tənhalığın həmdəmi olan xeyir əməllər qazanmağa

çalışdım. Bu barədə Quran buyurur: Hər kəs etdiyi yaxşı işin mükafatını alacaq. Həzrət buyurdu: Əhsən sənə, vallah! O yenə dedi: İkincisi, fikir verib gördüm ki, insanların bəzisi var-dövləti ilə fəxr edir, bəzisi qohumları ilə, bəzisi övladları ilə. Halbuki, bunların heç biri iftixar olunmağa layiq bir şey deyil. Ən böyük iftixar olunacaq şey təqvadır. Çünki Allah-təala Quranda buyurur: Sizin Allah yanında ən üstününüz ən təqvalı olanınızdır. Buna görə də, Allah yanında əziz olmaqdan ötrü çalışdım. Həzrət buyurdu: Əhsən sənə, vallah! Şagird davam elədi: Üçüncüsü budur ki, bir yandan insanların nəfsani istəklərə uymasını müşahidə edib, digər tərəfdən də Quranın "Hər kim Allahın məqamından qorxub öz nəfsinin istəklərindən çəkinsə, behişt onun yeridir" buyurduğunu görüb öz nəfsani istəklərimdən uzaq olmağa, ona uymamağa çalışdım ki, Allahın razılığı yolunda sabitqədəm olum. İmam buyurdu: Əhsən sənə, vallah! Şagird: Dördüncüsü budur ki, gördüm hər kəs malik olduğu dəyərli şeylərin əlindən çıxmamasından ötrü var-gücü ilə çalışır və Allah buyurur: Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin, Allah da həmin borcu ona iki qat edib daha da dəyərlisini ona qaytarsın. Mən də iki bərabər əvəzi seçdim və Allahın sandığından daha etibarlı sandıq görmədim. Buna görə də nəzərimdə dəyərli olan hər bir şeyi həmin sandıqda ehtiyat saxlamağı qərara aldım. İmam buyurdu: Əhsən sənə, vallah! Şagird daha sonra dedi : Beşincisi budur ki, camaat ruzi barədə bir-birinə paxıllıq edir, halbuki Allah Quranda buyurur: Biz dünya həyatında onların ruzilərini öz aralarında bölüşdürdük və bir iddə insanı başqalarından üstün etdik ki, bir-birilərinə nisbətən imtiyaz sahibi olsunlar və sənin Pərvərdigarının rəhməti onların cəm etdiklərindən üstündür. Buna görə də heç vaxt heç kəsə paxıllıq etmədim və heç vaxt da əlimdən çıxan bir şeydən ötrü təəssüflənmədim. İmam buyurdu: Əhsən sənə, vallah! Şagird: Altıncı budur ki gördüm camaat bir-birinə düşmənçilik edir, kin bəsləyərək intiqam almağa çalışır, Allah isə Quranda buyurur: Şeytan sizin düşməninizdir, elə isə siz də onu düşmən tutun. Mən də şeytanla düşmən olmağı qərara aldım. Həzrət buyurdu: Əhsən sənə, vallah! Şagird dava elədi: Yeddinci budur ki, gördüm camaat halal-harama baxmadan ruzi əldə etməkdən ötrü özünü oda-közə vurur, halbuki, Allah-təala buyurur: «Mən insanları və cinləri yalnız Mənə ibadət etmələrindən ötrü yaratdım. Onlardan ruzi tələb etmirəm və onlardan yemək istəmirəm. Əksinə, ruzi verən də, əzəmətli qüdrət sahibi olan da Allahdır.» Başa düşdüm ki, Onun vədəsi haqq və dedikləri doğrudur və buna görə də Onun vədəsinə və sözünə arxayın olub haram dalınca getmədim. Bütün səy və himmətimi öz vəzifəmi icra etməyə sərf etdim. Həzrət buyurdu: Əhsən sənə, vallah! Şagird sözünün sonunda dedi:

Səkkizinci budur ki, gördüm insanların bəzisi bədənlərinin sağlamlığına, bəzisi var-dövlətinə, bəzisi də özləri kimi insanlara arxayın olur. Allah-təala isə Quranda belə buyurur: “Hər kəs Allah qarşısında təqvalı olsa, Allah onun üçün düşdüyü çətin vəziyyətlərdən çıxış yolu açar və güman etmədiyi yerdən onun ruzisini yetirər və hər kəs Allaha təvəkkül etsə, Allah ona bəsdir.” Buna görə də mən Allaha etimad göstərib Ona təvəkkül etdim və gözümü başqa şeylərə yumdum. Həzrət (ə) buyurdu: And olsun Allaha! Tövrat, İncil, Zəbur, Quran və bütün asimani kitablar məhz bu səkkiz məsələni ehtiva edir.

## DÖRDÜNCÜ FƏSİL

### *Zahidlərin dediklərindən*

◘Bir zahid bir qaziyə deyir: “Mən istərdim sən bu vəzifədən uzaq olasan. Lakin indi ki, bunu öz öhdənə almısan, onda səkkiz şeyə riayət et: Danlaqdan qorxma, tərifə ürək bağlama, işdən çıxarılmaqdan qorxma, hökmü bilsən də məşvərət etməkdən imtina etmə, haqq sənə məlum olsa, onu bəyan etməkdən ötrü bir an da yubanma, qəzəbli halda qəzavət etmə, nəfsani istəklərə uyma və nə qədər ki münaqişə tərəflərinin hər ikisi hazır olmayıb, bir tərəfə qulaq asma.”

◘Səkkiz şey səkkiz şeyin bəzəyidir: heysiyyət, izzəti-nəfs fəqirliyin, şükr var-dövlətli olmağın. Səbr bəlanın, təvazö nəcabətin, helm alimin, özünü kiçik tutmaq elm öyrənənin, ağlamaq qorxunun, xüşu da namazın.

◘Hər kəs səkkiz şeyi tərk etsə, səkkiz şey əldə edər. Boş-boş və faydası olmayan danışığı tərk edən hikmət əldə edər, yersiz baxışları tərk edən qəlbin xüşusunu əldə edər, çox yeməkdən çəkinən şəxs ibadətin ləzzətini dadar, dünya məhəbbətini qəlbindən çıxaran kəsə axirət məhəbbəti nəsib olar, başqaların eyiblərini axtarmaqdan çəkinən şəxsin diqəti öz eyiblərinə yönələr və onları islah etməklə məşğul olar, Allahın zatı barədə düşünməkdən çəkinən kəs nifaqdan amanda olar, camaatla düşmənçilik etməyən kəs onların məhəbbətinə nail olar və hər kəs bədənini bəsləməkdən əl çəksə, asayiş əldə edər.

◘Səkkiz xüsusiyyətin ardınca gəzdim, bütün dünya və axirət xeyrini həmin şeylərdə tapdım:

1. Qüdrət və məqam əldə etmək istədim, onu elmdən başqa bir şeydə görmədim. Elm və bilik ardınca gedin ki, həm dünyada, həm də axirətdə əzəmət sahibi olasınız.

2. Böyüklük axtardım, bunu təqvadan başqa bir şeydə görmədim. Təqvalı olun ki, böyüklük əldə edəsiniz.

3. Var-dövlət əldə etmək istədim, bunu qənaətdən başqa bir şeydə görmədim. Qənaət edin ki, ehtiyacsız olasınız.

4. Asayişi əldə etmək istədim. Bunu nalayiq və fərsiz insanlardan uzaq olmaqda gördüm. Bu cür insanlarla yoldaşlıq etməkdən uzaq olun ki, rahatlıq əldə edəsiniz və Allahın əzabından amanda qalasınız.

5. Salamatlıq ardınca gəzdim, bunu Allaha itaətdən başqa bir şeydə görmədim. Allaha itaət edin ki, salamat qalasınız.

6. Xüzu və təvazö ardınca gəzdim, bunu haqqı qəbul etməkdən başqa bir şeydə görmədim. Haqqı qəbul edin ki, təkəbbürdən uzaq olasınız.

7. Həyatın ləzzətini axtardım, bunu nəfsani istəkləri tərk etməkdə gördüm. Nəfsin istəklərini tərk edin ki, həyatın ləzzətini da dadasınız.

8. Camaatın tərifinin ardınca getdim, bunu səxavətdən başqa bir şeydə görmədim. Səxavətli olun ki, yaxşı ad qazanasınız.

◘Rum hakimi Qeysər bir keşişdən soruşdu:

–Ən böyük hikmət nədir?

–Keşiş cavab verdi:

–Öz qədir-qiymətini bilmək.

–Ən kamil əql hansıdır?

–Elmin hüdudlarını aşmamaq.

–Ən böyük helm nədir?

–Söyüş qarşısında səbr etmək.

–Heysiyyətin ən böyük qoruyucusu nədir?

–Abırı qorumaq.

–Ən kamil mal-dövlət hansıdır?

–Haqqı ödənilmiş mal (yəni, vacib vergiləri ödənilmiş mal)

–Ən yaxşı səxavət nədir?

–Təqva və ixlas.

–Ən yaxşı sultan kimdir?

–Qüdrətli olduğu halda helmi hər kəsdən artıq, qəzəb halında cəhli hər kəsdən az və qüdrətin davamlı olmasını yalnız və yalnız ədalətli olmaqda görən sultan.

## NƏTİCƏ

### *Dili qorumaq barədə*

◘Əziz qardaş! Dilinin bacardığın qədər qoru! Bu üzv Allahı zikr etməkdən ötrü, Quran oxumaq, insanları irşad etmək, dini və dünyəvi

məsələlər barədə öz hacətlərini ödəmək üçün ötrü yaradılmışdır. Əgər dildən yaradılış hədəflərindən başqa şeylərdən ötrü istifadə etsən, böyük ziyana uğramış olarsan. Dilini səkkiz şeydən qoru:

1. Yalan söz danışmaqdan. İstər ciddi olsun istərsə də zarafatyana. Əgər yalan zarafata adət etsən, tədricən yalan deməklə həddi aşacaqsan. Bil ki, yalan kəbirə günahlardandır.

2. Verdiyin vədə xilaf çıxmaqdan. Məbada, yaxşılıq vədəsi verib, sonra ona xilaf çıxasan! Gərək yaxşılığın əməldə olsun, dildə yox. Əgər naçar qalıb vədə vermiş olsan, heç vaxt ona xilaf çıxma. Yalnız, zəruri hallar istisnadır. Vədəyə xilaf çıxmaq münafiqlik əlamətidir. İkiüzlülük də napak əxlaqdan irəli gəlir.

3. Qeybətdən. Bir çox hədislər əsasında məlum olmuşdur ki, qeybət etməyin çox böyük günahları var.

4. Camaatın narahatlığına və incikliyinə səbəb olan höcət və mücadilə etməkdən. Bil ki, bu, cəhl və nadanlıq əlamətidir.

5. Özünü təriflməkdən. Bu çox pis xüsusiyyətdir. Allah-təala buyurur: "Özünüzü təriflməyin ki, Allah təqvalıları daha yaxşı tanıyır." Bir hikmət sahibindən soruşdular: "Xoşa gələn düz, lakin pis söz nədir? "Cavab verir: "Özünü təriflmək."

6. Müsəlmana lənət etməkdən. Bu işdən var gücünlə çəkin!

7. Allahın yaratdıqlarına nifrin etməkdən. Hətta, əgər sənə zülm etmiş olsa da. Çünki, hədislərdə gəlib: "Məzlum şəxsin intiqam üçün zalım barəsində etdiyi duanı Allah qəbul edər. Lakin gördüyü zülmdən artıq nifrin edərsə, həmin miqdarda zalımın onun boynunda haqqı var."

8. Nalayiq zarafat və məsxərədən. Dilini bu cür narəva sözlərdən qoru. Çünki bu, insanın abrını aparar, onun alçalmasına, düşmənçiliyə, qəlblərdə kin və ədavətin cücərməsinə səbəb olar. Heç kəslə zarafat etmə, əgər səninlə də zarafat etsələr cavab vermə ki, qoy söhbətin mövzusu dəyişsin. O kəslərdən ol ki, özünü ağır apararaq ləğv və bihudə işlərdən uzaq gəzir.

Bütün bunlar dilin afətləridir. Bunlardan xilas olmaqdan ötrü təklikdə olmaq və zəruri hallardan başqa bir söz deməkdən çəkinmək üçün ciddiyyət göstərmək lazımdır. Bu dildən özünü möhkəm qoru! Bu dil vasitəsi ilə hər iki dünyanın həlakətinə məruz qalarsan.

## DOQQUZUNCU BÖLMƏ

### *Doqquz tərkibli nəsihətlər*

### BİRİNCİ FƏSİL

### *Şiələrin Peyğəmbərdən (s) nəql etdikləri hədislər*

◘Doqquz şeyin doqquz afəti var: danışığın afəti yalan, elmin afəti unutmaq, helmin afəti ağılsızlıq, ibadətin afəti süstlük, xoş təbiətli olmağın afəti boşboğazlıq, şücaətin afəti zülm, səxavətin afəti minnət, gözəlliyin afəti lovğalıq, əsil-nəcabətin afəti iftixardır.

◘Peyğəmbər (s) Xeybərin fəthindən sonra üzünü müsəlmanlara tutub onları doqquz şeydən çəkindirdi: zina müqabilində muzd ödəmək, heyvanları pul müqabilində cütləşdirmək, qızıl üzük taxmaq, itə qiymət qoymaq (ov iti, çoban iti, evi və bağ-bostanı qoruyan itlər istisnadır.), ipək paltar geymək, yırtıcı heyvanların ətindən istifadə etmək, qızılı qızıla, gümüşü gümüşə satarkən artıq-əskikliyə yol vermək, uğur və nəhs işləri və s. məsələləri təhqiq etməkdən ötrü astronomik araşdırmalar aparmaq.

◘Mənim ümmətimə doqquz şeydən günah yazılmaz: Səhv, unutqanlıq, zorla məcburiyyət, qüdrəti çatmadığı şeydən ötrü, zərurət, ürəyə pis şey gəlmək (məqsəd budur ki, bu cür şeylərin, məsələn, səfərə çıxarkən qarşısında qara pişik keçməyin və s. bu kimi işlərin günahı bağışlanmışdır, lakin, bunlara etina etmək olmaz.) və qəlbə gələn vəsvəsələr, məsələn, hər hansı bir şəxs barədə pis fikirləşmək, bu da nə qədər ki dilə gəlməyib, günah hesab olunmaz.

◘Allah-təala İslamı mənim əlimlə rövnəqləndirdi, Quranı mənə nazil etdi. Kəbəni mənim əlimlə açdı, məni bütün insanlardan üstün etdi, dünyada məni bəşərin sevinc və şadlıq vasitəsi, Qiyamət günündə isə məhşərdə toplaşan insanların ziynəti qərar verdi, məndən qabaq behiştə daxil olmağı bütün peyğəmbərlərə, eləcə də, bütün ümmətlərə mənim ümmətimdən qabaq haram etdi. Məndən sonra canişinliyi Qiyamətə qədər əhli-beytimə həvalə etdi və mənim dediyim hər bir şeyə qarşı çıxan şəxs Allaha qarşı kafir olmuşdur.

◘Cabir deyir: “Bir gün Həzrət Peyğəmbərin (s) hüzurunda idim. Üzünü Əliyə (ə) tutub buyurdu: “Ey Əbəlhəsən! İstəyirsənmi ki, sənə

bir müjdə verim?” Əli (ə) ərz etdi: “Bəli, əlbəttə, ya Rəsuləllah!” Peyğəmbər (s) buyurdu: “Elə indicə Cəbrail nazil olub Allah tərəfindən xəbər gətirdi ki, sənin şiələrinə doqquz imtiyaz verilib: ölüm zamanı rahatlıq və xoş münasibət, vəhşət zamanı qəlbi aramlıq, (axirət və qəbir) qaranlığından nur, (Qiyamət) qorxusundan amanda olmaq, əməllər haqq-hesab olunarkən fəzl və kərəm, Sirat körpüsündən asanlıqla keçmək, behiştə digər insanlardan qabaq daxil olmaq və nəhayət, nurları öndən və sağdan onlara doğru tələsər.”

◘Allah-təala mənə doqquz şey tapşırıb, mən də onları sizə tövsiyə edirəm: gizlində də, aşkarda da ixlaslı olmaq, qəzəbli olanda da, halın xoş olduğu vaxtda da ədalətli olmaq, yoxsul olanda da, varlı olanda da iqtisada riayət etmək, zalımı bağışlamaq, məni məhrum edənə əta etmək, məndən əlaqəni kəsənlə əlaqə yaratmağa çalışmaq, sükutumun təfəkkür, danışığımın zikr və baxışımın ibrət olmasını.

◘Bir gün bir yəhudi öz dostuna dedi: “Gedək bu peyğəmbəri görək.” Dostu dedi: “Peyğəmbər demə. Çünki eşitsə öz-özünə fəxr edər.” Onlar Peyğəmbərin (s) hüzuruna gəlib soruşdular: “Doqquz açıq-aşkar hökmü olan ayə hansılardır? “Peyğəmbər (s) buyurdu: “Allaha şərik qoşmayın, israf etməyin, zina etməyin, Allahın möhtərəm bildiyini nahaqdan öldürməyin, günahsızı öldürmək üçün qoluzorluların çənginə verməyin, cadu ilə məşğul olmayın, pakdamən qadınlara böhtan atmayın, döyüşdən qaçmayın və xüsusən, siz israillilər, şənbə günü həddi aşmayın.” Yəhudilər Peyğəmbərin (s) əlindən öpüb onun peyğəmbərliyinə şəhadət verdilər.

## İKİNCİ FƏSİL

### *Əmirəl-mömininindən (ə) hədislər*

◘And olsun Allaha! Allah mənə doqquz imtiyaz vermişdir ki, bu imtiyazları məndən və İslam Peyğəmbərindən (s) başqa heç bir kəsə verməmişdir: Səbəblərin yollarını üzümə açıb (yəni, bütün işlərin səbəblərindən xəbərdaram), bulud məndən ötrü hərəkət etmişdir, ölümlərdən və giriftarçılıqlardan xəbərdaram, haqq və batili tanıyıram, Allahın izni ilə mələkut aləminə baxıb keçmişdən və gələcəkdən

xəbərdar oldum və heç bir şey məndən örtülü deyil, Allah mənim vilayətimlə bu ümmətin dinini kamil etdi və onlara öz nemətini tamamladı və dinlərini qəbul etdi. Bunu Allah Qədir-Xum günündə Peyğəmbərə (s) vəhy olaraq bu ayədə göndərdi: "Bu gün sizin dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim." Bütün bunlar Allahın mənə əta etdiyi nemətlərdir. Əlhəmdulillah.

◘Şəbi deyir: "Əli (ə) doqquz misli görünməmiş fəsahət və bəlağətli cümlə işlətmişdir ki, bütün insanlar bir yerə cəm olsalar da bunların bir cümləsi kimi cümlə işlədə bilməzlər. Bu cümlələrin üçü o həzrətin (ə) münacatlarından, üçü hikmətli sözlərindən, üçü də ədəb və əxlaq mövzusunda olan kəlamlarındandır. Münacatlarından olan üç cümləsi bunlardır:

"İlahi, mənim başucalığımdan ötrü Sənə bəndə olmağım və iftixar etməyimdən ötrü, Sənin kimi bir Allahımın olmağı mənə bəsdir. İlahi, Sən mənim sevdiyim kimisən və məni də elə et ki, sənin sevdiyin kimi olum."

◘Hikmətli sözlərindən olanlar bunlardır:

"Hər kəsin qədir-qiyməti onun elmi və (Allaha qarşı olan) mərifəti qədərdir. Hər kəs öz qədrini bilsə həlak olmaz. Hər kəs dilinin arxasında gizlənmişdir."

◘Ədəb barəsində olan sözlərindən olanlar isə bunlardır:

"Hər kəsi yaxşılıqlara tutsan, onun əmiri olarsan. Hər kəsə tərəf ehtiyac əlini uzatsan, onun əsiri olarsan. Hər kəs qarşısında öz ehtiyaclılığını gizlətsən, onunla bərabər və həmtay olarsan."

## *Həm şiələrin, həm də sünnilərin nəql etdikləri hədislərdən*

◘Həzrət Sadiq (ə) buyurub: "İslam Peyğəmbəri (s) doqquz şeydən ötrü zəkat qərar verib: buğda, arpa, xurma, kişmiş, qızıl, gümüş, inək, qoyun və dəvə."

◘Harun ibn Həmzə deyir ki, bir gün həzrət Sadiqdən (ə) soruşdum: "Həzrət Musanın (ə) doqquz möcüzəsi hansılar idi?" Həzrət (ə) buyurdu: "Çəyirtkə, gənə, qurbağa, qan, tufan, dərya, daşı çatlatmaq, əsa və öz əli."

◘Dünya bir surətə bənzəyir ki, başı təkəbür, gözü hərislik, qulağı tamah, dili riya, əli şəhvət, ayağı xudpəsəndlik, qəlbi qəflət, varlığı fəna

və hasilatı zavaldır. Onu sevən təkəbbürə düçar olar. Gözü önündə dünya cilvələnən tamahkar olar. Arxasınca gedən hərisliyə düçar olar. Ona pərəstiş edən riya donu geyər. Onu ələ keçirən xudpəsənd olar. Ona arxayın olan qəflətə düçar olar. Dünyanın bər-bəzəyini gözü önündə canlandıran ona aldanar. Dünya malı cəm edən kəs xəsisliyə düçar olar və cəhənnəmə yuvarlanar.

◘Hədislərdə buyurulur ki, kamil bəndənin imanının doqquz xüsusiyyəti var: şadlıq və fərəh onu batil yola çəkməz, qəzəb onu haqq yoldan çıxarmaz, qüdrəti təcavüzə səbəb olmaz, artıq danışıqlardan uzaq olar, malının artığını infaq edər, yaşayışında iqtisadçı olub orta həddə yaşayar, düşmənlərinə qarşı mülayim, xoş xasiyyət və səxavətli olar.

◘Sünnilər həzrət Peyğəmbərdən (s) nəql edirlər ki, buyurub: ”Həzrət Musanın (ə) Tövratında gəlmişdir ki, bütün günahlar üç pis xüsusiyyətdən qaynaqlanır: təkəbbür, hərislik və həsəd. Bu üç xüsusiyyətdən də altı bəyənilməmiş xüsusiyyət meydana gəlir ki, bunların da cəmi doqquz ədəddir: çox yemək, çox yatmaq, var-dövlət hərisliyi, tərifdən və yaltaqlardan xoşu gəlmək və rəyasət (böyüklük) eşqi.”

◘Əli (ə) buyurub: “Faydası olan ağlamaq üç cürdür: Allah qorxusundan ağlamaq, günahdan utanmağa görə ağlamaq və Allahdan ayrı düşmək qorxusu ilə ağlamaq. Bu ağlamaqların birincisi günahların kəffarəsidir, ikincisi eyiblərdən paklanmağa səbəb olar, üçüncüsü isə Allaha və onun razılığına qovuşmaq vasitəsidir. Günahın kəffarəsinin verilməsi əzabdan xilas olmağa, eyiblərdən paklanma nemətlərin davamlı olmasına, Allaha və Onun razılığına qovuşmaq isə onun tərəfindən daha artıq mərhəmət və lütfə səbəb olar.”

## ***Son***

◘Peyğəmbərin (s) səhabələrindən biri deyib: “Beş vacib namazı əvvəl vaxtında qılan kəsə Allah doqquz inayət göstərər: Allahın məhbubuna çevrilər, bədəni sağlam olar, onu mələklər qoruyar, evi bərəkətlə dolar, üzü saleh insanların surətini alar, ürəyi yumşalar, sirat körpüsündən ildırım surəti ilə keçər, atəşdən xilas olar, Allah dərgahında heç bir qorxusu və qəm-qüssəsi olmayanlarla bir yerdə olar.”

◘Başqa birisi deyib: “Ağlı olmayanın dini də yoxdur, dini olmayanın əməli də yoxdur, əməli olmayanın səhih fikri olmaz, qane olmayanın

rahatlığı da olmaz, batini çirkin olanın tövfiqi də olmaz, ehtiyatla addım atan salamat qalar, hər kəs tənbəlliyin əsiri olsa, ətrafını peşmançılıq alar, günahdan çəkinməyən şəxsin Allahdan qorxusu yoxdur, nəfsinin istəklərindən boyun qaçırmayan kəs əqlə itaət edə bilməz, əxlaqi rəzilətlərdən acığı gəlməyən kəsin əxlaqi fəzilətlərdən də xoşu gəlməz.”

◘Bil ki, sözgəzdirən gərək həmişə qəzəb və kinə tuş gəlsin və belə adamların dostluq və yoldaşlıqdan ötrü heç bir etibar və etimadı yoxdur. Çünki, onun vücudundan doqquz çirkin xüsusiyyət var: yalan, qeybət, peyman sındırmaq, xəyanət, hoqqa, paxıllıq, nifaq, fitnə yaratmaq və məkr. Sözgəzdirən o kəsdir ki, Allahın göstərişi əsasında insanlar arasında mövcud olan dostcasına ünsiyyət və rabitələri bir-birinə vurur, insanlar arasındakı xoş münasibətləri korlayır.

◘Deyirlər Bozorgmehr öldükdən sonra onun kəmərində doqquz cümlə yazıldığını görürlər:

1. Əgər Allah ruziyə zamindirsə, bəs qəm-qüssə nə üçün?
2. Əgər ruzi təqsim olunubsa, bəs hərislik nə üçün?
3. Əgər dünya aldadandırsa, bəs ona etimad nədir?
4. Əgər behişt haqdırsa, onda ibadətdən boyun qaçırmaq nədir?
5. Əgər qəbir haqdırsa, bəs möhkəm tikililər nə üçündür?
6. Əgər cəhənnəm haqdırsa, onda bütün bu gülüşlər nədir?
7. Əgər haqq-hesab haqdırsa, var-dövlət toplamaq nə üçündür?
8. Əgər Qiyamət günü varsa, bəs lərzəyə gəlməmək nə üçün?
9. Əgər şeytan insanın düşmənidirsə, onda ona itaət etmək nə deməkdir?

# ONUNCU BÖLMƏ

## *On tərkibli nəsihətlər*

## BİRİNCİ FƏSİL

## *Peyğəmbərdən (s) hədislər*

◘Sədəqəni heç vaxt yaddan çıxarmayın. Çünki onun on xüsusiyyəti var. Bunların beşi dünyaya, beşi isə axirətə aiddir. Dünyaya aid olanlar bunlardır: malı və canı paklaşdırar, xəstələrə şəfa olar, qəlblərə şadlıq bəxş edər, var-dövləti çoxaldar və ruzini artırar. Axirətə aid olan xüsusiyyət isə bunlardır: Qiyamət günü baş üzərinə kölgə salar, haqq-hesabın asan çəkilməsinə səbəb olar, savabları artırar, Sirat körpüsündən asanlıqla keçməyə kömək edər və insanı ali dərəcələrə çatdırar.

◘Elə ki, mənim ümmətim arasında on xüsusiyyət meydana gəldi, onlar on əzaba düçar olarlar; elə ki, dua etmək azalar, bəla nazil olar, elə ki, sədəqə vermədilər, xəstəliklər çoxalar, zəkat verməkdən boyun qaçırsalar, heyvanlar qırılar, padşahlar zülm etsə, yağış yağmaz, zina artsa, qəfil ölümlər çoxalar, riya və ikiüzlülük, özünügöstərmə artarsa, zəlzələlər çoxalar. Allahın hökmü əsasında deyil, özlərindən hökm versələr, düşmən onlara müsəllət olar, əhd-peyman sındırmaq artsa, adam öldürmək rəvac tapar, satış zamanı çəkini azaltsalar, onlara qıtlıq üz verər.

◘Allahdan qorxun, qohumlarınızla əlaqə yaradın. Bu iki xüsusiyyət dünyada xeyir-bərəkət, axirətdə isə bağışlanmağa səbəb olar. Sileyi-rəhmin isə (qohumlarla əlaqə saxlamağın) on özünəməxsus xüsusiyyəti var: Allahın razılığı, qəlblərin şadlığı, mələklərin sevinci, camaatın (bir-birinə) təşəkkür və razılığı, şeytanın xar olması, ömrün uzanması, ruzinin genişlənməsi, ölülərin ruhunun şadlığı, alicənablığın artması və savabın çoxluğu.

◘Bir gün bir kişi Peyğəmbərin (s) hüzuruna gəlib ərz etdi: “Olarmı mən ölümü arzulayım? “ Peyğəmbər (s) buyurdu: “Ölümə çarə yoxdur. Lakin bu, uzun bir səfərdir. Bu səfəri arzulayan gərək öz yanında on töhfə aparsın.” Kişi soruşdu: “Nə töhfə?” Peyğəmbər (s) buyurdu: “Əzraildən ötrü, qəbirdən ötrü, Nəkir və Münkərdən ötrü, mizan tərəzisindən ötrü, Sirat körpüsündən ötrü, Cəhənnəmin qapıçısından

ötrü, behiştin qapıçısından ötrü, Peyğəmbərdən (s) ötrü və Mütəal Allahdan ötrü. Əzraildən ötrü dörd töhfə aparmalıdır: boynunda haqqı olanların razılığı, namazların qəzası (yəni, yerinə yetirilmiş qəza namazları). Allaha qarşı şövq və ölüm arzusu. Qəbirdən ötrü də dörd töhfə aparmalıdır: söz gəzdirməyi tərk etmək, sidiyin istibrası, Quran oxumaq və gecə namazı. Nəkir və Münkərdən ötrü də dörd töhfə aparmalıdır: doğru danışmaq, qeybəti tərk etmək, hamı barədə haqq danışıq və təvazökarlıq. Mizan tərəzisindən ötrü də dörd töhfə aparmalıdır: qəzəbi udmaq, həqiqi təqva, ictimai məsələlərdə (camaat namazı kimi) iştirak etmək, camaatın xeyir işlərdən ötrü dəvətini qəbul etmək. Sirat körpüsündən ötrü də dörd töhfə aparmalıdır: ixlas, xoş xasiyyət, çoxlu zikr və başqalarının əziyyətinə dözmək. Cəhənnəmin qapıçısından örtü də gərək dörd töhfə aparsın: Allah qorxusundan ağlamaq, gizli sədəqə, günahı tərk etmək və ata-ana ilə xoş rəftar etmək. Cənnətin qapıçısından ötrü də dörd töhfə aparmalıdır: xoşagəlməz hadisələr müqabilində səbr, nemətlərin şükrü, malın-pulun Allah yolunda sərf olunması, vəqf olunmuş əmlakda əmanətə riayət etmək. Peyğəmbər (s) üçün də dörd töhfə aparmalıdır: o Həzrəti (s) sevmək, onun (s) sünnəsinə tabe olmaq, əhli-beytinə (ə) məhəbbət və dilin iffəti. Cəbraildən ötrü də dörd töhfə aparmalıdır (Cəbrail əvvəldə gəlməyib); az yemək, az yatmaq, nemətin şükründə davamlı olmaq (dördüncüsü hədisdə gəlməyib). Mütəal-Allahdan ötrü də dörd töhfə aparmalıdır: əmr be məruf, nəhy əz münkər, camaata qarşı xeyirxah olmaq və hamıya mehribanlıq.”

◘Qiyamət günündə mənim ümmətimdən olan on dəstə Allahın qəzəbinə düçar olar və Cəhənnəmə vasil olar. Həmin insanlar bunlardır: zinakar qoca, yolunu azmış rəhbər, şərabxor, ata-anası ilə bədrəftar olan, günahsız qadına haqsız töhmət vuran, söz gəzdirən, yalançıya şahidlik edən, zəkata mane olan, zalım və namazı tərk edən. Bilin ki, Qiyamət günü namazı tərk edənin əzabı ikiqatdır. Məhşərə gələn zaman əlləri boynuna qandallanmış halda olar və bu vəziyyətdə olduğu halda əzab mələkləri odlu gürzlərlə onun alnına və yanaqlarına vurarlar. Behişt ona deyər: “Nə sən məndənsən, nə də mən səndən.” Cəhənnnəm isə ona deyər: “Yaxın gəl, sənə dəhşətli işgəncə verəcəyəm!” Həmin an Cəhənnəm fəryad çəkib həmin bədbəxti öz içinə alar və o, Qarunun yanına gedər. (Bu məsələdə yalnız o kəslər istisnadır ki, tövbə edərək namaza başlayıb və keçmişdə əldən verdiyi vacib namazlarının da qəzasını yerinə yetirir.)

◘Allaha əqldən başqa bir şeylə ibadət etmək olmaz və nə qədər ki, bir adamda on xislət cəm olmayıb, heç vaxt əqli kamil olmaz: camaat onun xeyrinə ümidvar olsun, şərindən amanda olsun, özünün çoxlu xeyir işini az hesab etsin, başqalarının az xeyir işini çox hesab etsin, öz ehtiyacları üçün çalışmaqdan yorulmasın, ömrü boyu elm öyrənməkdən bezməsin, yoxsulluğu varlılıqdan və zilləti izzətdən üstün tutsun (yəni, qəlbində batil böyüklük məhəbbəti olmasın), dünya malında əsla gözü olmasın və nəhayət, onuncu budur ki, hamını özündən üstün tutsun (yaxşı bilsin).

◘Abdullah Abbas deyir ki, bir gün Peyğəmbər (s) camaat arasında dayanıb xütbə oxudu. Daha sonra buyurdu: "Allah-təala biz Əhli-beytin vücudunda on fəzilət qərar verib ki, bizdən başqa bu fəzilətləri heç kəsdə cəm etməyib. Həmin fəzilətlər bunlardır: Hökumət etmək haqqı, helm, elm, peyğəmbərlik, səxavət, şücaət, ədalət, paklıq, iffət və təqva. Bizik təqva kəlməsi (təqva mücəssiməsi), hidayət yolu, ən ali bəşər nümunəsi, Allahın ən böyük höccəti, möhkəm əltutan və qırılmaz ip! Bizik ki, Allah məhəbbətimizi vacib edib! Elə isə haqdan başqa yol zəlalət deyilmi?! Hara gedirsiniz?!

## İKİNCİ FƏSİL

## *Əhli-sünnənin Peyğəmbərdən (s) nəql etdiyi hədislər*

◘Misvakı (dişlərinizi fırçalamağı) unutmayın. Çünki misvak on xüsusiyyətə malikdir: ağızı tər-təmiz və pakizə edər, Allahı razı salar, Şeytanı qəzəbləndirər, insana təhkim olunan mələklərin məhəbbətini cəlb edər, dişin ətini möhkəmləndirər, bəlğəmi dəf edər, ağızı xoş iyli edər, üzün sarılığını aparar, gözün nurunu artırar, dişlərin ağarmasına səbəb olar. Başqa bir hədisdə gəlmişdir ki, dişin çirkini aradan aparar və bu iş, Peyğəmbərin (s) sünnəsindəndir.

◘Bu ümmətdən on tayfa özünü mömin hesab edir, lakin əslində isə elə kafirdirlər. Onlar bunlardır: nahaqdan bir kəsi qətlə yetirən, dəyyus (qeyrətsiz), zəkata mane olan, şərabxor, imkanı ola-ola Həcc əməlini tərk edən, fitnə törədən, düşmənə silah satan, naməhrəm qadınla qeyri-təbii yolla yaxınlıq edən heyvanla yaxınlıq edən və (ana, bacı, bibi, xala və bu kimi) öz məhrəmi ilə yaxınlıq edən.

◘Bəndə yerdə və göylərdə mömin adlanmaqdan ötrü fəzl və kərəmə sahib olmalıdır, fəzl və kərəm sahibi olmaqdan ötrü müsəlman olmalıdır, müsəlman olmaqdan ötrü gərək camat onun əlindən və

dilindən rahat olsun, camaatın ondan asudə olmasından ötrü alim olmalıdır, alim olmaqdan ötrü öz elminə əməl etməlidir, öz elminə əməl etməkdən ötrü zahid olmalıdır. Zahid olmaqdan ötrü günahdan çəkinməlidir, günahdan çəkinməkdən ötrü təvazökar olmalıdır, təvazökar olmaqdan ötrü özünü tanımalıdır, özünü tanımaqdan ötrü ağıllı olmalıdır.

◘Xoş və uğurlu aqibət on şeydədir. Onun beşi dünyaya, beşi isə axirətə aiddir. Dünyaya aid olanlar bunlardır: din elmlərinin təhsili ibadətləri yerinə yetirmək, halal ruzi, çətinliklər zamanı səbr və nemətlər içində olarkən də şükr etmək. Axirətə aid olanlar isə bunlardır: ölüm mələyinin insana mərhəmət və nəzakətlə yaxınlaşması, qəbrdə Nəkir və Münkərdən amanda olmaq, Qiyamət gününün vəhşətindən amanda olmaq, günahların aradan getməsi və ibadətlərin qəbul olması, Sirat körpüsündən ildırım sürəti ilə keçmək və salamatlıqla behiştə daxil olmaq.

◘On sünnə var ki, onlar İbrahim peyğəmbərdən (ə) yadigar olaraq qalmışdır. Bunlardan beşi başa, beşi isə bədənə aiddir. Başa aid olanlar bunlardır: misvak (dişləri fırçalamaq), məzməzə (ağıza su alıb qarışdırmaq), burunu yumaq, bığların üst dodağın üstünə tökülən tüklərini kəsmək, saqqalı çox saxlamaq. Bədənə aid olanlarsa bunlardır: sünnət etmək, nurə qoymaq, bövl və qaitin məxrəcini paklamaq, qoltuğun altındakı tükləri qırxmaq və dırnaq tutmaq.

◘Mənim ümmətimdən on tayfa nə qədər ki tövbə etməyib, behiştə daxil olmaz:

1. (Zalım dövlət məmurları və) hökumət başçılarına cangüdənlik edənlər.
2. Qəbir açan.
3. Söz gəzdirən.
4. Qeyrəti, namusu olmayan dəyyus.
5. Təbil çalan.
6. Saz çalan.
7. Camaatın təqsirindən keçməyən və onlara zülm etməyi rəva görən.
8. Həddi-büluğa çatdıqdan sonra yolunu azmış haramzada.
9. Qeybət edən.
10. Ata-anası ilə bədrəftar olan.

◘On kəsin namazı qəbul olmaz: furada (tək halda) namaz qılarkən qiraəti tərk edənin namazı, zəkat verməyənin namazı, camaatın narazı

olduğu imam camaat, sahibindən qaçmış qulun namazı, şərab içənin namazı, ərini qəzəbləndirib gecəni səhər edən qadının namazı, başını örtməmiş namaz qılan qadının namazı, zülmkar rəhbərin namazı, ribaxorun namazı, pis və çirkin işlərin qarşısını almayan kişinin namazı.

◘Nazam dinin sütunudur. Namaz on məziyyətə sahibdir: üzün gözəlliyini artırar, qəlbin nurani olmasına, bədənin rahatlığına səbəb olar, qəbrdə insanın həmdəmidir, rəhmət nazil olma məhəllidir, göydən baxan mələklərə işıqlı çıraq kimi görünər, mizanın ağırlığını artırar, Allaha xoş gedər, Behiştə səbəb olar, Cəhənnəmlə bəndə arasında səddə çevrilər. Hər kəs namazı dirçəltsə, dini dirçəldər. Hər kəs də namazı tərk etsə, dini tərk edər.

◘Allah behişt əhlini behiştə daxil etmək istəyərkən bir mələyi bir töhfə və bir behişt libası ilə onlara göndərər. Behişt əhli behiştə daxil olmaq istəyərkən mələk onlara deyər: “Dayanın, mən Aləmlərin Pərvərdigarı tərəfindən sizin üçün töhfə gətirmişəm.” Soruşarlar: “O nə töhfədir?” Mələk deyər: “On üzükdür. Birincisinə “Siz artıq paksınız, həmişəlik olaraq ora daxil olun!”, ikincisinə [Həmişəlik olaraq] salamat və əmniyyətlə [ora daxil olun]”, üçüncüsünə “sizin qəm-qüssəniz, artıq bitdi”, dördüncüsünə, “sizi bər-bəzəyə bürüyəcəyik”, beşincisinə, “Sizdən ötrü pak-pakizə qadınlar–Hurilər hazır etmişik”, altıncısına, “Etdikləriniz səbrə görə bu gün Mən onların mükafatlarını verəcəyəm”, yeddincisinə, “Elə bir cavanlığa qovuşdunuz ki, [həmin cavanlığın] qocalığı yoxdur (yəni əbədi cavanlıqdır)”, səkkizincisinə, “Peyğəmbərlər, şəhidlər və salehlərlə yoldaşsınız”, doqquzuncusuna, “Elə bir əmin-amanlığa qovuşdunuz ki, heç bir qorxu və narahatlıq görməyəcəksiniz”, onuncusuna isə “Siz əzəmətli ərşin sahibi olan mehriban və bağışlayan Allahın yanındasınız” yazılıb.” Mələk daha sonra deyər: “Buyurun, daxil olun!” Onlar behiştə daxil olub deyərlər: “Şükr olsun Allaha ki, qəm-qüssəni qəlbimizdən çıxartdı. Bizim Allahımız bağışlayan və mehribandır. Şükr olsun Allaha öz vədəsinə əməl etdi və bizi buranın varisləri etdi ki, ürəyimiz istədiyi yerə gedib orada məskən salaq. Əməl sahibi olanların nə gözəl mükafatı var!!!”

◘Elə ki, Cəhənnəm əhlinin cəhənnəmə salınma vaxtı yetişdi, yenə də, Allah-təala bir mələyii on üzüklə onlara göndərər. Həmin üzüklərə belə yazılıb: Birincisinə «Cəhənnəmə daxil olun. Orada nə ölmək var, nə də oradan çıxmaq imkanı», ikincisinə «Əzaba qərq olun. Sizin üçün heç bir asayiş yoxdur», üçüncüsünə «Mənim rəhmətimdən naümid olun»,

dördüncüsünə «Qəm-qüssəyə batın», beşincisinə «Geyiminiz, yeməyiniz, suyunuz, yatağınız hamısı atəşdən hazırlanmışdır», altıncısına «Siz atəş içində olduğunuz müddətdə daim Mənim qəzəbimə uğrayacaqsınız», yeddincisinə «Bütün bunlar etdiyiniz günahların cəzasıdır, səkkizincisinə «Etdiyiniz böyük günahlara görə nə tövbə edirdiniz, nə də etdiklərinizə görə peşman olurdunuz, Mənim lənətim olsun sizə!», doqquzuncusuna «Şeytanın ardınca getdiniz, dünya həyatını daha üstün saydınız, axirətinizə əhəmiyyət vermədiniz. Buna görə də dadın əzabı!», onuncusuna isə «Yalnız özünüzü danlayın. Çünki sizə deyilənləri qəbul etmədiniz, günahlara davam etdiniz, bütün bu üzdöndərmələrinizə görə əzaba düçar olun!»

◘Bir gün Peyğəmbər (s) İblisdən soruşdu: "Mənim ümmətimdən olan dostların nə qədərdir?" İblis cavab verdi: "On dəstə: zalım rəhbərlər, lovğa dövlətlilər, hardan gəlib, hara sərf olunmasının ondan ötrü heç bir fərqi olmayan haramyeyən, rəhbərin zülmü ilə müvafiqət edən alim, xain (camaatı aldadan) tacir, möhtəkir (yəni, bir şeydən çox miqdarda alıb qıtlıq zamanında da onu baha satmaqdan ötrü saxlayan kəs), zinakar, ribaxor (sələmçi), simic və bir də hardan gəldi mal toplamağa çalışan kəs." Sonra Həzrət (s) soruşdu: "Bəs mənim ümmətimdən olan düşmənlərin kimlərdir?" İblis cavab verdi: "On beş dəstə insan. Birincisi, sən özün, ikincisi, əməl sahibi olan alim, üçüncüsü, Quran qiraət edib ona əməl edənlər və beş dəfə azan deyənlər, dördüncüsü, yoxsulları, kimsəsizləri və yetimləri sevənlər, beşincisi insanları sevib onlara qarşı mehriban olanlar, altıncısı, haqq qarşısında təvazökar olanlar, yeddincisi, ömrünün baharını Allaha itaətdə keçirərək gecənin bir aləmi bütün gözlər yuxuda olarkən namazla məşğul olan cavanlar, səkkizincisi, haramdan qorunan kəslər, doqquzuncusu, Allah yolunda xeyirxahlıq edənlər, (başqa bir hədisdə "qəlbində heç bir kin qoymayaraq mömin qardaşından ötrü dua edənlər"), onuncu, daim dəstəmazlı olanlar, on birincisi səxavətlilər, on ikinci xoş xasiyyət olanlar, on üçüncüsü, Allahın vədələrini təsdiqləyənlər, on dördüncü, pakdamən və örtülmüş qadınlar, on beşincisi də, ölümə hazır olan kəslər."

## ÜÇÜNCÜ FƏSİL

## *Şiələrin Peyğəmbərdən (s) və Həzrət Əlidən (ə) nəql etdikləri hədislər*

◘Peyğəmbər (s) buyurub: "Allaha ağıldan da artıq heç bir şeylə ibadət etmək olmaz. Mömin də nə qədər ki, on xüsusiyyətə yiyələnməyib onu

ağıllı hesab etmək olmaz. Həmin xüsusiyyətlər bunlardır: camaat onun xeyrinə ümidvar olsun, şərindən amanda olsun, başqalarının xeyir işini az olsa da, çox hesab etsin, öz yaxşı işlərini isə çox olsa da az hesab etsin, ömrü boyu elm öyrənməkdən yorulmasın, ona ehtiyaclarını bildirənlərin işlərini yoluna qoymaqdan usanmasın, tanınmamağı şöhrət və ehtiramdan daha artıq sevsin, yoxsulluğu varlılıqdan daha artıq xoşlasın, dünyadan yalnız zəruri ehtiyaclarını ödədiyi qədər istifadə etsin və nəhayət, onuncu və eyni zamanda ən mühümü budur ki, hər kəs barədə onun özündən üstün olduğu fikrində olsun. Çünki camaat ona nisbətən iki dəstədir: ya ondan üstündür, ya da üstün deyil. Üstün olan barədə təvazökar olsun ki, ona çata bilsin. Xoşu gəlmədiyi şəxs barəsində də belə fikirləşsin: "Ola bilsin ki, batini məndən daha yaxşıdır", yaxud "ola bilsin ki, inhirafdan qayıdar və aqibəti xeyirlə tamamlanar." Hər kəs bu on xüsusiyyətə riayət etsə əzəmətə və insaniyyətin yüksək dərəcəsinə yiyələnmiş olar və bu şəxs öz dövrünün bütün insanlarından üstündür.

◘Məaz deyir ki, bir gün Peyğəmbərdən (s) Qiyamətin dəhşətli qorxuları barədə soruşdum. Həzrət (s) buyurdu: "Böyük bir şey barədə soruşdun: "Sonra mübarək gözlərindən yaş axmağa başladı və buyurdu: "Mənim ümmətimdən on tayfa məhşərə müxtəlif sifətlərdə daxil olar. Bəziləri meymun, bəziləri isə donuz sifətində həşr olunar. Bəziləri ayaqları yuxarı, başı aşağı, üzləri də yerlə sürünə-sürünə məhşərə gələr, bəziləri kor, kar və lal halda həşr olar. Bəziləri dilləri ağızlarından çıxıb sinələrinə qədər sallanar dilindən üfunətli çirk axaraq hamıya əziyyət verər. Bəzilərini qolları və ayaqları kəsilmiş halda, bəziləri isə atəşdən olan dar ağacından asılmış halda həşr olunar. Bəziləri əyinlərində dərilərinə yapışmış qır köynəklər olduğu halda pis iy verə-verə məhşərə gələrlər. Meymun sifətində olanlar sözgəzdirənlərdir. Donuz sifətində olanlar haram yeyənlərdir. Başayaqlar riba yeyənlərdir. Korlar zülmkar qazilər, korlar və lallar isə özlərini bəyənənlərdir. Dilləri sallanaraq ondan üfunətli çirk axanlar qeybət edənlərdir. Qolları və ayaqları kəsilmiş halda həşr olunanlar qonşularına əziyyət edənlərdir. Odlu dar ağaclarından asılmış vəziyyətində olanlar camaatı qaniçən zalımların çənginə verməyə səy göstərənlərdir. Dərilərinə pis iyli qır köynəklər yapışmışlar isə şəhvətbazlar, əyyaşlar və ilahi hüquqları ödəməkdən çəkinən şəxslərdir. Axırıncı dəstədən olanlar isə Allah bəndələrinə böyüklük edən lovğalar və mütəkəbbirlərdir."

◘Əliyə (ə) verdiyi göstərişlərində belə buyurur: "Ey Əli! Sən öz xalis şiələrini on imtiyazla müjdələ:

1. Halalzadəlik.
2. Səhih iman.
3. Allahın onları sevməyini.
4. Qəbr genişliyini.
5. Sirat körpüsünün aydınlığını.
6. Fəqirlikdən qorxmamaq və qəlb ehtiyacsızlığı.
7. Onların düşmənləri ilə Allahın da düşmən olması.
8. Xora xəstəliyindən amanda olmaq.
9. Günahlarının bağışlanması.
10. Mənimlə behiştdə yanaşı olmaq."

◘Həzrət Əli (ə) buyurur: "Peyğəmbərdən (s) mənə on iftixar ediləcək şey qalıb ki, bütün dünyadan və günəşin saçdığı hər bir şeydən daha dəyərlidir. O həzrət mənə buyurdu: "Ey Əli! Sən dünya və axirətdə mənim qardaşımsan, məhşərdə mənə hamıdan yaxınsan, sən mənim vəzirim və vəsimsən, ailə və malımda mənim canişinimsən, dünya və axirətdə mənim bayraqdarımsan, sənin dostun mənim dostum, düşmənin də mənim və Allahın düşmənidir."

◘Bir gün Peyğəmbərdən (s) soruşdular: "Nə üçün bizim dualarımız qəbul olunmur? Halbuki, Allah-təala buyurur: "Məni çağırın, Mən də sizə cavab verim." Həzrət (s) buyurdu: "On şey sizin qəlbinizi öldürüb:

1. Allahı tanıyıb öz bəndəlik vəzifələrinizi yerinə yetirməmisiniz.
2. Quranı oxuyub ona əməl etməmisiniz.
3. Peyğəmbərlə dost olduğunuzu iddia edirsiniz, lakin övladları ilə düşmənçilik etdiniz.
4. Şeytanla düşmən olduğunuzu deyirsiniz, lakin onun ardıcıllarındansınız.
5. Dediniz ki, behişti istəyirik, lakin heç bir əməl yerinə yetirmədiniz.
6. Dediniz oddan qorxuruq, lakin bədənlərinizi ora atdınız.
7. Camaatın eyiblərini araşdırmaqla məşğul oldunuz, lakin öz eyiblərinizdən xəbərsiz oldunuz.
8. Dünyaya düşmən olmağınızı dilə gətirdiniz, lakin var-dövlət toplamaqla məşğul oldunuz.
9. Ölümü iqrar etdiniz, lakin ona hazırlaşmadınız.
10. Ölüləri torpağa tapşırdınız, lakin bundan ibrət almadınız. Bütün bunlara görə də dualarınız qəbul edilmir."

◘On şeydə möhtəkirlik etmək qadağandır: buğda, arpa, xurma, kişmiş, qarğıdalı, yağ, bal, pendir, qoz, zeytun.

◘Mənim dediklərim şəriətdir, rəftarım təriqət, halətim həqiqətdir, əqlimin üstünlüyü mərifət, ləyaqət və səlahətim elmdir, geyimim təvəkküldür, xəzinəm qənaətdir, mənzilim doğruçulluq, məskənim yəqin, iftixarım fəqirlikdir və elə məhz bu da mənim başqa peyğəmbərlər yanında fəxrimdir.

◘Əli (ə) buyurub: ”Elm ən gözəl irsdir, əql ən gözəl (ilahi) bəxşişdir, ədəbən gözəl məşğuliyyətdir, təqva ən gözəl ehtiyat azuqəsidir, ibadət ən faydalı sərmayədir, saleh əməl ən gözəl rəhbərdir, xoş xasiyyət ən gözəl dostdur, səbrli olmaq ən mənfəətli yoldaşdır, qənaət (qane olmaq) ən böyük dövlətdir və tövfiq ən yaxşı köməkçidir.”

## DÖRDÜNCÜ FƏSİL

## *İmam Məhəmməd Baqir (ə) və İmam Sadiqdən (ə) hədislər*

◘Peyğəmbər (s) şərab barəsində on kəsə lənət edib: (şərab əldə etmək məqsədi ilə) ağac əkənə, ona qulluq edənə, üzümünü sıxana, şərabı içənə, paylayana, daşıyana, təhvil alana, satana, müştərisinə və pulunu yeyənə.

◘İslamın on sütunu var: tövhidi iqrar etmək, gecə-gündüz vacibi namazlar, cəhənnəm odu qarşısında sipər olan oruc, zəkat, həcc, müsəlmanların izzəti olan cihad, imanı qoruyub saxlayan əmr be məruf, günahkar əleyhinə höccət olan nəhy əz münkər, cəmiyyət və ismət (yəni, nəfsi çirkinliklərdən qorumaq)

◘On şey var ki, hər kəs ölüm zamanı onlara malik olsa, behiştə gedər: tövhid və nübüvvətin iqrarı, səmavi kitabları tanıyıb etiraf etmək, namaz, zəkat, oruc, həcc, Allahın dostları ilə dostluq, düşmənləri ilə düşmənçilik və hər cür günahdan uzaq olmaq.

◘On kəs on şeyin intizarında olmasın: lovğa yaxşı adın, hiyləgər çoxlu dostun, ədəbsiz şərəfin, simic sileyi-rəhmin, məsxərəçi həqiqi dostluğun, təhsili olmayan qəzavətin, qeybətcil xoşagəlməz hadisələrə düçar olmaqdan salamat qalmağın, paxıl qəlb rahatlığının, xırdaçı böyüklüyün, özünübəyənən təcrübəsiz isə hakimliyin.

◘Bir gün bir kişi İmam Sadiqin (ə) hüzuruna gəlib dedi: “Atam-anam sənə fəda olsun, mənə mövizə et.” Həzrət (ə) buyurdu: “Əgər Allah-təala ruziyə zamindirsə, qüssələnmək nə üçün? Əgər ruzi bölünübsə, hərislik nə üçün? Əgər Qiyamət haqq-hesabı həqiqətdirsə (haram yolla)

dövlət toplamaq nə üçün? Əgər Allah infaqın əvəzini verəcəksə, simiclik nə üçün? Əgər Allahın əzabı atəşdirsə, günah nə üçün? Əgər ölüm haqdırsa, (günah və batil işdən ötrü) sevinmək, şadlanmaq nə üçün? Əgər, əməllər barədə Allaha səhih hesabat veriləcəksə, özünü aldatmaq nədir? Əgər Sirat körpüsündən keçmək haqdırsa xudpəsəndlik nə üçün? Əgər hər şey müqəddər olunubsa, qəmlənmək nə üçün? Əgər dünya fanidirsə, ona etimad nə üçün?

◘Ali insani keyfiyyətlər ondur. Bacarırsansa, bu keyfiyyətlərin hamısını əldə et. Bu xüsusiyyətlər bəzən atada olur, lakin oğulda olmur, bəzən də əksinə, oğulda olur, atada olmur, bəzən qulda olur, azad insanda isə olmur. Həmin keyfiyyətlər bunlardır: camaatla rəftarda doğrucul olmaq, düz danışmaq, əmanətdarlıq, sileyi-rəhm, qonaqpərvərlik, dilənçiyə yemək vermək, yaxşılığın qədrini bilmək, qonşuluq haqlarına riayət etmək, dostluq haqlarına riayət etmək və nəhayət, bütün bu xüsusiyyətlərin başı olan həya.

◘Allah-təala öz Peyğəmbərini (s) ali əxlaqi keyfiyyətlər vasitəsi ilə üstün etmişdir. Siz özünüzü yoxlayın. Görsəniz ki, bu xüsusiyyətləri Allah sizə də verib, onların daha da kamala çatmasından ötrü çalışın: yəqin, qənaət, səbr, şükr, razılıq, xoş xasiyyət, səxavət, qeyrət, şücaət və alicənablıq.

◘"Qəsəsül-ənbiya" kitabında Peyğəmbərin (s) meracı barədə uzun və müfəssəl bir hədis nəql olunub. Biz onun bir hissəsini nəql edirik:

–Ey Məhəmməd! İstə ki verim.

–Pərvərdigara! boynumuza ağır və bizi əldən salacaq yük qoyma. Çünki mümkündür biz onları (ağırlığı səbəbindən) həll etməkdən boyun qaçıraq və bu günahın nəticəsində Bəni-İsrailə etdiyin kimi öz halallarını bizə haram edəsən.

Xitab oldu:

–Çətinlik və sıxıntını sənin ümmətinin üzərindən götürdüm. Allah dininizi sizdən ötrü asanlaşdırmış, sizin üçün asayiş və rahatlıq istəmişdir. Bəni-İsrailin boynunda on ağır vacibat var idi:

1. Günah etdikləri zaman halal yeməklər onlara haram olurdu. Bu barədə Quranda belə buyurulur: "Yəhudilərin özlərinə etdikləri zülm nəticəsində onlardan ötrü halal etdiyimiz pak-pakizə yeməkləri onlara haram etdik."

2. Əlli rəkət vacib namazları var idi.

3. Zəkatları mallarının dörddə-biri qədər idi.

4. Əgər cunub, ya heyz, yaxud da nifas halında olub su tapmasaydılar, o halda da gərək su tapana qədər gözləməli idilər. Çünki onlardan ötrü sudan başqa bir paklayıcı qərar verilməmişdi. (Lakin İslamda torpağa təyəmmüm etmək də paklayıcı qismindədir)

5. Məsciddən başqa bir yerdə namaz qılmaq haqları yox idi.

6. Oruc tutan zaman əgər məğrib namazını qılsaydılar, yaxud onları yuxu aparsaydı, növbəti gecəyə qədər bir şey yeməyə haqları yox idi. (Yalnız, məğrib namazından qabaq, yaxud yatmamışdan qabaq yemək yeyə bilərdilər).

7. Namazdan sonra və yatandan sonra Ramazan ayında cima onlara haram idi.

8. Sədəqələri qəbul edilməsəydi, bu onların rüsvayçılığına səbəb olardı. Çünki qəbul olunduğu halda atəş gəlib onun (yəni onların sədəqələrinin) bir hissəsini yandırar, qalan hissəsi ilə yoxsullara paylanılardı. Əgər, sədəqələri qəbul edilməsəydi, o zaman yanmırdı və sahibi camaat arasında rüsvay olurdu. 9. Paltarları nəcis olsaydı, həmin hissəni kəsib atmaqdan başqa çarəsi yox idi. 10. Günahları onların biabırçılığına səbəb olurdu. Çünki gecə günah etsəydilər, səhər çağı qapıları üzərinə yazılmış olurdu.

Bu on məsələ Musanın (ə) dininin ən çətin hökmlərindən idi. Bu hökmlər İslam Peyğəmbərinin (s) duası ilə bu ümmət üzərindən götürüldü. Bunun əvəzində on asan hökm müəyyən olundu. Xitab olundu:

Ey Məhəmməd! Sənin dualarına görə günah səbəbinə halalları sənin ümmətinə haram etmədim və Bəni-İsrailə haram etdiklərimi sənin ümmətinə halal etdim.

Bu barədə Quranda belə buyurulur: “Adı və əlamətləri Tövratda və İncildə göstərilmiş məkkəli Peyğəmbər onları yaxşı işlərə sövq edir və pis işlərdən çəkindirir. Pak-pakizə şeyləri onlara halal, çirkinlikləri isə haram edir.”

Ey Məhəmməd! Sənin etdiyin dualar səbəbinə ümmətindən ötrü əlli rükət namazı vacib etmirəm və Öz fəzl və kərəmimə əsasən torpağı sənin ümmətindən ötrü paklayıcı qərar verdim ki, qüsullu halda olub su tapmadıqları təqdirdə pak torpaqla təyəmmüm etsinlər.

Bu barədə Quranda buyurulur: “Əgər xəstə, ya cunub, yaxud səfərdə olsanız, yaxud hər hansı bir səbəb üzündən dəstəmaz, yaxud qüsul almalı olsanız, su tapmadığınız halda torpağa təyəmmüm edin.

Ey Məhəmməd! Sənin duanın bərəkətinin səbəbinə sənin ümmətindən ötrü onların məscidlərdən başqa yerdə qıldıqları namazlarını batil qərar vermədim. Harda namaz qılırlarsa qılsınlar, Öz fəzl və kərəmimlə onların bu namazlarını qəbul edərəm.

Ey Məhəmməd! Sənin duanın bərəkəti səbəbinə Ramazan ayında namazdan və yatdıqdan sonra yeməyi sənin ümmətinə haram etmirəm və Öz fəzl və kərəmimlə sübh azanına qədər yemək-içməyi onlara mübah edirəm.

Ey Məhəmməd! Sənin duanın bərəkətli səbəbinə Ramazan ayının gecələrində yaxınlıq etməyi sənin ümmətindən ötrü mübah edirəm.

Ey Məhəmməd! Sənin ümmətinin sədəqələrini onların rüsvayolma səbəbi etmirəm.

Ey Məhəmməd! Suyu sənin ümmətindən ötrü paklayıcı qərar verdim. Sənin ümmətinin Bəni-İsrail kimi paltarlarının nəcis olmuş yerlərini kəsmələrinə ehtiyac yoxdur (həmin hissəni su vasitəsi ilə paklaya bilərlər.)

Ey Məhəmməd! Sənin ümmətinin günahlarını qapıları üzərinə yazmaram və onları biabır etmərəm. Öz fəzl və rəhmətimlə onların günahlarını mələklərin və digər məxluqatın gözündən gizli saxlayaram.”

## BEŞİNCİ FƏSİL

## *Duanın ədəbləri barədə*

◘Duanın on ədəbi vardır:

1. Şərəfli məqamları qənimət hesab etmək. Məsələn, ərəfə günü, ramazan ayı, cümə günü, gecənin axırları (yəni, gecənin sübh namazından qabaqkı hissəsi) və s. Peyğəmbər (s) buyurub: Gecənin axırıncı üçdə bir hissəsində Allah-təala bir mələyi dünya səmasına göndərər ki, uca səslə car çəkib deyər: Kimdir ki, dua etsin və duası qəbul olunsun? Kimdir ki, xahiş etsin və ona əta olunsun? Kimdir ki, bağışlanma diləyir və bağışlanır?

2. Münasib anlardan yararlanmaq. Məsələn, hədislərdə gəlmişdir ki, göyün qapıları mücahidlərin Allah yolunda döyüşmək üçün sıraya düzüldükləri vaxt, vacib namaz vaxtları açıq olur. Elə isə, bu vaxtları dua etməkdən ötrü qənimət bilin. Bir hədisdə Peyğəmbər (s) buyurur: “Oruc tutan şəxsin duası rədd olunmaz.” Eləcə də, buyurub: “Bəndə səcdədə olarkən Allaha yaxın olduğu qədər heç bir anda Ona bu qədər yaxın olmur. Elə isə, səcdədə olarkən çox dua edin.”

3. Dua edərkən üzü qibləyə oturulsun və əlləri o qədər göyə qaldırsın ki, qoltuqları görünsün. Salman Farsi Peyğəmbərin (s) belə buyurduğunu deyir: “Sizin Allahınız kərim və həyalıdır. Elə ki, bəndəsi dua etməkdən ötrü əllərini qaldırar, həya edər ki, Öz bəndəsinin əllərini boş qaytarsın.” Peyğəmbər (s) hər zaman dua etdikdən sonra əllərini mübarək üzünə sürtərdi.

4. Dua gərək aram və gizli şəkildə edilsin. Quranda buyurulur: "Öz Pərvərdigarınızı gizli şəkildə və ah-zar edərək yalvardığınız halda çağırın."

5. Hacətlər dilə gətirilsin. İmam Cəfər Sadiq (ə) buyurub: "Allah-təala dua edən bəndələrinin hacətlərindən xəbərdardır, amma Allahın xoşu gəlir ki, bəndəsi öz hacətlərini dilə gətirsin və eləcə də, duanı cəm halda edin ki, qəbul olunmağa daha yaxındır."

6. Dua gərək ümid və qorxu halında edilsin; dua edərkən ali istəklərdə olsun. Çünki, heç bir şey Allahdan ötrü çətin deyil və duanın qəbul ediləcəyinə yəqini olsun, çünki, qəflətdə olan qəlbdən dua qəbul edilməz.

7. Dua edərkən gərək israr edilsin və öz istəyini üç dəfə dilə gətirsin. Məsud deyir ki, Peyğəmbər (s) dua və istəklərini üç dəfə təkrar edərdi. Dua edərkən gərək tələsmək lazım deyil. Peyğəmbər (s) bu barədə belə buyurur: "Dua qəbul olunar, lakin, siz tələsməyin və deməyin ki, mən dua etdim, lakin qəbul olmadı. Çox dua edin, çünki, siz Kərim olan Allahı çağırırsınız.

9. Duadan qabaq Allaha zikr deyilsin. Bir hədisdə deyilir ki, Peyğəmbəri-Əkrəm (s) buyurub: "Dua etmək istəyərkən əvvəl mənə salavat göndərin. Allah böyük kərəm sahibidir. Allah belə deyil ki, iki istəyin birini qəbul edib, digərini geri qaytarsın. Çünki, salavat qəti olaraq qəbul edilən duadır.

10. Duanın batini qaydaları yerinə yetirilsin. Bu, yuxarıda qeyd olunan bütün şərtlərin əsası və kökündür. Məsələn, günahlardan tövbə etsin, camaatın haqqını ödəsin, Haqqın müqəddəs zatına kamil surətdə diqqət yetirsin və s.

Duanın qəbul olunmasından ötrü ən mühüm şərtlər bunlardır.

## ALTINCI FƏSİL

## *Hikmət sahiblərinin dediklərindən*

◘Bir hikmət sahibi deyib: "Ağıllı insanın on xüsusiyyəti var. Bunlardan beşi zahirdə, beşi isə batindədir. Zahirdə olanlar bunlardır: sükut, xoş xasiyyət, təvazökarlıq, doğru danışmaq və yaxşı əməl. Batində olan xüsusiyyət isə bunlardır: təfəkkür, ibrət almaq, xüzu, özünü kiçik tutmaq və ölümü yad etmək."

◘Başqa birisi isə deyib: "Allah on xüsusiyyətin on kəsdə olmasını xoşlamır: Dövlətlidə xəsislik, fəqirdə təkəbbür, alimdə tamah, qadında həyasızlıq, qocada dünyapərəstlik, cavanda tənbəllik, sultanda

tündxasiyyətlik, döyüşçüdə qorxu, zahiddə xudpəsəndlik (özünübəyənmə) və abiddə riyakarlıq.

◘Loğman öz oğluna deyib: “Oğlum! Hikmətin on hünəri var; insanların qəlbini dirildər, dərvişi sultanların məclisində oturdar, qədri bilinməyəni şərəfləndirər, qulu azad edər, qəribə yer verər, möhtacı ehtiyacsız edər, şəriflərin şərəfini, böyüklərin böyüklüyünü və əzəmətini artırar, qorxunu cürətə çevirər, döyüş meydanının zirehi, sülh zamanı mənfəətlə dolu sərmayədir, yəqin yolunu qət etməkdən ötrü bir çıraqdır, eyibləri örtən bir libasdır.”

◘Bir hikmət sahibi deyib: “Dünyanın sonu zaval, həyatın sonu ölüm yeməyin sonu zibillik, mal toplamağın aqibəti haqq-hesab, abadlığın sonu viranlıq, zalımın aqibəti əzab, ictimanın axırı pərakəndəlik, tövbənin nəticəsi bağışlanmaq, günahın sonu biabırçılıq, zöhdün sonu Allahın razılığı, hər bir mövcudun sonu ölümdür. Yalnız Allahın müqəddəs vücudundan başqa.”

◘Əflatun deyir: “On şəxs həmişə xardır: borclu, sözgəzdirən, yalançı, paxıl, aşiq, möhtac, tamahkar, əsir, müttəhim və nadan.

## YEDDİNCİ FƏSİL

## *Zahidlərin dediklərindən*

◘Bir zahid deyir: “Ən faydasız şey ondur; istifadəsiz alim, əməl olunmayan elm, qəbul edilməyən səhih rəy, işlədilməyən silah, istifadəsiz məscid, oxunulmayan Quran, infaq olunmayan mal, minilməyən at, dünyapərəstin qəlbində olan elm, axirət tədarükü görülməyən uzun ömür.”

◘Hər kəs on şeydən sağlam olsa, hər şeydən sağlam olar; xəsislik, təkəbbür, özünübəyənmə, riya, həsəd, şiddətli əsəbilik, yeməyə qarşı həris olmaq, cinsi yaxınlığa qarşı hərislik, var-dövlət hərisliyi və cah-cəlal və şöhrət hərisliyi.

◘Hər kəs insana nicat verən on xüsusiyyətə yiyələnsə onun üçün kafidir; günahdan peşimanlıq, bəlalara səbr, təqdirə razılıq, nemətin şükrü, ümid və qorxu arasında etidal, dünyada zahidlik, ibadətdə ixlas, camaata qarşı xoşxasiyyət olmaq, Allaha məhəbbət, Onun qarşısında müti olmaq.

Bu iyirmi xüsusiyyət bütün yaxşı və pis xüsusiyyətlərin kökü və əsasıdır.

◘Mövlana Cəlaləddin Rumi öz yaxınlarından birinə belə deyib: "Sənə tapşırıram; gizlində də, aşkarda da Allahdan qorx, az ye və az yat, artıq danışıqdan çəkin, günahdan uzaq ol, şəhvətlərə qurşanma, oruca mühüm yer ver, heç vaxt namazı əlindən vermə, camaatın əziyyətinə səbr et, adi camaatdan olan ağılsızlardan uzaq gəz, saleh və kərim insanlarla dostluq et."

◘Bəni-İsraildən olan bir abid deyib: "Allahı tanı, başqalarını tanıma, Onun dostlarını dost, düşmənlərini də düşmən bil, dünyaya qarşı etinasız, axirətə qarşı meyilli ol, dünya malında səxavətli ol, axirət işlərində isə xəsis (yəni, heç bir savabdan imtina etmə), haqqa itaətdə şücaətli ol, günah etməkdə isə çox zəif."

## ON BİRİNCİ BÖLMƏ

### *On bir tərkibli nəsihətlər*

◘Peyğəmbərdən (s) bir hədis: "Bilin! Hər kəs Məhəmməd (s) və Ali-Məhəmməd (ə) məhəbbəti ilə ölsə şəhiddir. (Məqsəd budur ki, bu məhəbbət özünü əməldə və haqqa itaətdə də göstərsin), hər kəs Ali-Məhəmməd (ə) məhəbbəti ilə ölsə bağışlanmış halda dünyadan gedər, hər kəs Ali-Məhəmmədi (ə) sevdiyi halda ölsə tövbəkar kimi dünyadan gedər, hər kəs Ali- Məhəmməd (ə) məhəbbəti ilə ölsə kamil imanlı mömin kimi dünyadan gedər, hər kəs Ali-Məhəmməd (ə) məhəbbəti ilə ölsə ölüm mələyi, Nəkir-Münkər ona cənnət müjdəsi verər, hər kəs Ali-Məhəmməd məhəbbəti ilə dünyadan getsə Allah onun qəbrinə behiştdən bir qapı açar, hər kəs Ali-Məhəmməd (ə) məhəbbəti ilə dünyadan getsə qəbri rəhmət mələklərinin ziyarətgahına çevrilər, hər kəs Ali-Məhəmməd (ə) məhəbbəti ilə ölsə sünnədən və cəmaətdən (yəni, İslam ümmətindən) ayrılmamış halda dünyadan getmiş hesab olunar, hər kəs Ali-Məhəmmədlə (ə) düşmən olduğu halda dünyadan getsə Qiyamət günü alnına belə yazılar: "Allahın rəhmətindən naümiddir", hər kəs Ali-Məhəmmədlə (ə) düşmən olduğu halda ölsə kafir olaraq dünyadan gedib, hər kəs Ali-Məhəmmədlə (ə) düşmən olduğu halda dünyadan getsə behiştin iyini hiss etməz.

### *Alimlərin dediklərindən*

◘On bir yerdə salam vermək məkruhdur; yəhudi və nəsraniyə, cümə namazında imam cümə xütbə söylədiyi və camaatın da qulaq asdığı vaxt, hamamda və başqa halda çılpaq vəziyyətdə olana, azan və ya iqamə deməklə məşğul olana, Quran oxuyana, hədis, yaxud elmi məsələ barəsində danışmaqla məşğul olana, qumarbaza, mahnı oxuyana, günah halında olan hər bir kəsə, ayaqyolunda olana və naməhrəm qadına.

◘On bir şey hafizəni qüvvətləndirər; halal yemək, şirniyyat, ət, mərci, Ayətəl-Kürsi oxumaq, həmişə dəstəmazlı olmaq, üzü qibləyə oturmaq, ata-anaya itaət etmək, əməl sahibi olan alimin üzünə baxmaq, alimin sözünə qulaq asıb ona əməl etmək və gecə namazı.

◘On bir şey ölümü gecikdirər; çoxlu sədəqə, çoxlu dua, ata-anaya itaət, gecə namazı, dan yeri açılmamışdan (yəni, fəcrdən, sübh azanından qabaq) istiğfar etmək, gecə-gündüz nafilələrinə riayət etmək,

camaat namazı, möminlərdən ötrü dua, çoxlu Quran oxumaq, gizlində də, aşkarda da Allahı yad etmək və salavat göndərmək.

◘Xoşagəlməz xüsusiyyətlərin kökü on bir şeydir; çox yemək, çox danışmaq, qəzəb, paxıllıq, mal-dövlət məhəbbəti, şöhrətpərəstlik, təkəbbür, özünəpərəstiş, riya, lovğalıq, özünübəyənmə və bir də xəsislik.

◘Bəyənilmiş əxlaqın da on bir kökü var; tövbə, Allahdan qorxmaq, ümid, zahidlik, səbr, şükür, ixlas, doğru danışmaq, təqdirə razılıq, camaatı sevmək, ölümü yad etmək.

# ON İKİNCİ BÖLMƏ

## *On iki tərkibli nəsihətlər*

◘Həzrət Peyğəmbər (s) buyurub: ”Hər kəs gündəlik vacib namazları camaatla qılmaqda süstlük etsə Allah onu on iki əzaba düçar edər. Bunlardan üçü dünyada, üçü ölüm zamanı, üçü qəbirdə, üçü də Qiyamət günü verilər. Dünyada olanlar bunlardır: qazancının bərəkəti çəkilər, xeyir siması üzündən alınar, iman əhli onun düşməni olar. Ölüm zamanı olan əzablar bunlardır: ac, susuz və şiddətli qorxu ilə can verər. Qəbirdə olanlar bunlardır: Nəkir və Münkər onun hesabını çətin çəkər, qəbri qaranlıq olar və onun üçün darlaşar. Qiyamətdə olanlar bunlardır: çətinliklə haqq-hesab verər, Allahın qəzəbi və atəşlə üz-üzə gələr.

◘Həzrət Əli (ə) vəsiyyətində buyurur: “Yaxşı olar ki, süfrə başında on iki şeyə riayət olunsun; yeməyin halal və haram olmasını bilmək, “Bismillah” demək, şükr etmək, Allahın təqdirinə razılıq, ağırlığı ayağın üzərinə salmaq, üç barmaqla yemək, öz qabağından yemək və yeməkdən sonra barmaqları yalamaq, tikələri kiçik götürmək, yeməyi yaxşı çeynəmək, başqalarına az baxmaq və yeməkdən sonra əlləri yumaq.”

◘Həzrət Əli (ə) buyurub: ”Təqvalıların xüsusiyyətləri bunlardır; doğru danışmaq, əmanətdarlıq, əhdə vəfa, fəxr etməmək, səbr, sileyi-rəhm, kimsəsizlərə qarşı mərhəmət, qadınlarla az uyğunlaşmaq (yəni, batil və lazımsız işlərdə onlarla az müvafiqət etmək), ehsan, xoşxasiyyətlilik, təmkin, Allaha yaxınlaşdıran işlərdə elm və bilik ardınca getmək.”

◘Yenə də Həzrət Əli (ə) buyurur: “Tövratdan on iki ayə seçib ərəb dilinə tərcümə etdim və gündə üç dəfə onlara nəzər salıram:

1. Ey Adəm övladı! Nə qədər ki, Mənim səltənətim əbədidir rəhbərlərdən, rəislərdən qorxun olmasın.
2. Ey Adəm övladı! Nə qədər ki, Mənim xəzinələrim doludur, başqasına ümidvar olma.
3. Ey Adəm övladı! Nə qədər ki, Məni tapırsan, başqası ilə ülfət yaratma, çünki, istənilən vaxt çağırsan sənə yaxın və sənə qarşı mehribanam.
4. Ey Adəm övladı! Mən səni sevirəm, sən də Məni sev.

5. Ey Adəm övladı! Nə qədər ki, Sirat körpüsündən keçməmisən arxayın olma.

6. Ey Adəm övladı! Hər şeyi sənin üçün yaratmışam, səni isə Özüm üçün, Məndən necə qaçırsan?!

7. Ey Adəm övladı! Səni ilk öncə torpaqdan, sonra nütfədən yaratdım, nütfəni çeynənmiş ət parçasına çevirib səni xəlq etdim.

8. Özünə xatir Mənə qəzəblənirsən, lakin, Mənə görə özünə qəzəblənmirsən.

9. Mənim qoyduğum vəzifələri icra etmək sənin öhdənə düşür, sənin ruzin isə Mənim öhdəmə. Sən vəzifələrini yerinə yetirməkdən boyun qaçırsan da, Mən öz öhdəmdə olanı–bəndəmin ruzisini verməyi daim yerinə yetirirəm.

10. Ey Adəm övladı! Hamı səni özləri üçün istəyir, Mən isə səni sənin özündən ötrü istəyirəm. Elə isə Məndən qaçma.

11. Necə ki, Mən səndən sabahın vəzifələrini tələb etmirəm, sən də Məndən sabahın ruzisini tələb etmə.

12. Əgər, öz qismətinə razı olsan, sənin qəlbini və bədənini rahat edərəm, yox əgər, narazı olsan səndə dünyaya qarşı tamah yaradaram. Nə qədər ardınca qaçsan da öz qismətindən başqa bir şey ələ gətirə bilməzsən.

## ON ÜÇÜNCÜ BÖLMƏ

### *On üç tərkibli nəsihətlər*

◘Həzrət Əli (ə) deyir ki, bir gün Peyğəmbərdən (s) soruşdum: "Məsx edilmiş (şəkli dəyişdirilmiş) heyvanlar hansılardır?" Buyurdu: "On üç heyvan; fil, ayı, donuz, meymun, ilanbalığı, kərtənkələ, yarasa, qara qurd, əqrəb, hörümçək, dovşan, süheyl və zöhrə (sonuncu iki heyvan dənizdə yaşayan su heyvanlarıdır.)" Soruşdum:

"Bunların məsx olmasının səbəbi nədir: Buyurdu: Fil «ləvatla məşğul olan» bir kişi idi. Ayı «mərde mabuni» idi ki, kişiləri özünə çağırırdı. Donuz olanlar bir dəstə nəsrani idi ki, Allahdan onlara asimandan bir yemək göndərmələrini istədilər və bu istəkləri həyata keçdi, lakin, bu hadisə onların küfrlərini daha da artırdı. Meymun olanlar öz dinlərinin şənbə günü barədə onlara verdiyi göstərişə boyun əyməyənlər idi. İlanbalığı öz arvadını başqa kişilərin ixtiyarında qoyan bir dəyyus idi. Kərtənkələ köçəri həyat tərzi yaşayan bir nəfər idi ki, Həccə gedənlərin yolu üstündə gizlənib onların mallarını oğurlayardı. Yarasa da xurma oğrusu idi ki, camaatın xurmasını elə ağacların üstündən oğurlayardı. Qara qurd dostların arasını vurmaqla məşğul olan sözgəzdirən bir şəxs idi. Əqrəb acıdilin biri idi ki, dili ilə hamını sancardı. Hörümçək ərinə xəyanət edən qadın idi. Dovşana çevrilən də bir qadın idi ki, heyz və s. qüsullar almazdı. Süheyl yəmən əhlindən olan bir nəfər idi. Zöhrə isə Harut və Marut adlı mələkləri aldadan nəsrani qadın idi."

Mərhum Şeyx Səduq buyurur ki, məsx olan insanlar üç gündən artıq yaşamırlar və onların nəsil artırma qabiliyyətləri də olmur. Yuxarıda qeyd olunan məsx olunmalar şərti xarakter daşıyır. Yəni, məsx olunan insanlar sadəcə olaraq adları çəkilən heyvanlar şəklinə çevrilmişlər, nəinki, həmin heyvanların mənşəyi bu məsx olunmadan başlanır.

## *Əmirəl-mömininin (ə) on üç fəziləti*

◘Cabir ibn Əbdüllah Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Əlidə (ə) bir sıra fəzilətlər var ki, əgər onların biri sair insanlarda olsa onlara bəs edər. Bunlar aşağıdakılardır:

1. Hər kəsin rəhbəri mənəmsə Əli də onun rəhbəridir.
2. Əlinin mənə nisbəti Harunun Musaya olan nisbəti kimidir.
3. Əli məndəndir, Mən də Əlidən.
4. Şəxsən mənim öz yerimdədir–ona itaət mənə itaətdir, ona itaətsizlik mənə itaətsizlikdir.
5. Əli ilə müharibə Allahla müharibə, onunla sülh Allahla sülh deməkdir.
6. Əlinin dostu Allahın dostu, düşməni isə Allahın düşmənidir.
7. Əli Allahın höccəti və bəndələri arasında Onun canişinidir.
8. Əli ilə dostluq iman, düşmənçilik isə küfr əlamətidir.
9. Əlinin dəstəsi Allahın dəstəsi, düşmənlərinin dəstəsi isə Şeytanın dəstəsidir.
10. Əli haqqilədir, haqq da Əli ilə. Kövsər hovuzuna qədər bir-birindən ayrılmazlar.
11.Əli Cənnət və Cəhənnəmi ayırandır.
12. Əlidən ayrılan məndən ayrılıb, məndən ayrılan isə Allahdan ayrılıb.
13.Qiyamət gününün nicat tapanları Əlinin şiələridir.

## ON DÖRDÜNCÜ BÖLMƏ

◘İmam Cəfər Sadiq (ə) buyurub: ”On dörd qüsul var: “Meyyit qüsulu, cənabət qüsulu, məssi-meyit qüsulu, cümə qüsulu, Qurban və Fitr bayramlarının qüsulu, Ərəfə gününün qüsulu, ehramdan ötrü alınan qüsul, Kəbə evinə daxil olmaqdan ötrü alınan qüsul, Mədinəyə daxil olarkən alınan qüsul, hərəmə daxil olmaqdan ötrü alınan qüsul, ziyarətdən ötrü alınan qüsul, Mübarək Ramazan ayının on doqquz, iyirmi bir və iyirmi üçüncü gecələrində alınan qüsul. (Qeyd olunan ilk üç qüsul vacib, qalanları isə müstəhəb qüsullardandır. Bunlardan əlavə üç vacib qüsul da var ki, yalnız qadınlara məxsusdur.)

## ON BEŞİNCİ BÖLMƏ

◘Əli ibn Əbutalib (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Mənim ümmətim on beş günaha aludə olduğu zaman onlardan ötrü bəla nazil olar; müharibədə əldə olunan qənimət xüsusi şəxslərin cibinə axar, camaatın əmanəti qənimət hesab olunar, zəkatı özlərinə zərər bilərlər, kişi öz qadınına itaət edər, ata-anaya zülm olunar, lakin dostlarla xoş rəftar olunar, rəhbərlər ən alçaq insanlardan ibarət olar, camat onlara qorxudan hörmət edər, məscidlərdə səs-küy olar, ipək paltarlar geyərlər, xanəndə kənizlər hazırlanar, saz çalınar və nəhayət, ümmət özlərindən əvvəlkilərə lənət edər. Belə bir zamanda qırmızı küləklərin yeri xaraba qoymasının və xilqətdə (məsx) əvəzolunmaların intizarında olun.”

◘Həzrət Sadiq (ə) buyurub: ”Nurədən istifadə etməyin müddəti on beş gündən birdir. Bu bir sünnədir. Hər kəs iyirmi bir gün keçdikdən sonra, nurə puluna malik olmazsa, Allahın hesabına borc alsın. Lakin, hər kəs qırx gün keçməsinə baxmayaraq nurə qoymazsa onun kəraməti yoxdur.”

## ON ALTINCI BÖLMƏ

◘Əsbəğ ibn Nəbatə Həzrət Əlinin (ə) belə buyurduğunu deyir: "Düz danışmaq əmanət, yalan xəyanət, ədəb böyüklük, uzaqgörənlik zirəklik, orta həddə yaşayış dövlət, israf yoxsulluq, yüngüllük zillət, səxavət tanışlıq, alçaqlıq qürbət, qəlbin yumşaqlığı təvazökarlıq, bacarıqsızlıq acizlik, nəfsani istəklərə itaət azğınlıq, vəfadarlıq meyar (yəni, bir kəsin dəyərini müəyyən etməkdən ötrü ölçüdür), xudpəsəndlik (özünübəyənmə) həlakət və səbr həyatın əsası və mehvəridir."

## ON YEDDİDƏN OTUZA QƏDƏR OLAN BÖLMƏ

◘Bir gün Həzrət Əli (ə) buyurdu: “İstəyirsinizmi ki, sizə ruzinin bol olmasından ötrü lazım olan səbəbləri bildirim?” Dedilər: “Bəli, ya Əmirəlmöminin! Həzrət (ə) buyurdu: “İki namazı (zöhr və əsr, məğrib və işa) ardıcıl qılmaq və həmçinin sübh və əsr namazlarından sonra təqibat oxumaq, sileyi-rəhm, evin qabağını süpürmək, Allaha xatir din qardaşları ilə yoldaşlıq etmək, sübh tezdən qazanc dalınca getmək, bağışlanma diləmək, əmanətdarlıq, haq söz danışmaq (yəni, nahaq danışmaqdan uzaq olmaq), azan verənə cavab vermək (burada məqsəd ya, müəzzinin ardınca azanın cümlələrini təkrar etmək, ya da namazı əvvəl vaxtında, özü də camaatla birgə qılmaqdır. Çünki, müəzzin hamını namaza çağırdığı üçün namazı da camaatla əvvəl vaxtında qılmaq ona cavab hesab olunur.), ayaq yolunda olarkən sükut etmək (yəni, danışmamaq,) həris olmamaq, nemət sahibinə şükr etmək, yalandan and içməkdən uzaq olmaq, yeməkdən qabaq əlləri yumaq, süfrə üzərində olan çörək qırıntılarını yemək və hər kəs gündə otuz dəfə Allaha təsbih desə Allah da ondan yetmiş bəlanı uzaqlaşdırar ki, bu bəlaların da ən kiçiyi fəqirlikdir.

◘Əbu Səid Xidri Peyğəmbərin (s) belə buyurduğunu belə nəql edir: “Allah hər kəsə mənim əhli-beytimin məhəbbətini qismət edibsə, ona dünya və axirət xeyrini əta edib. Heç bir şübhə yoxdur ki, belə şəxslərin yeri behiştdir. Mənim əhli-beytimin dostlarının iyirmi xüsusiyyəti var ki, bu xüsusiyyətlərin onu bu dünyaya, onu isə axirətə aiddir. (Zahirən, burada məqsəd dostluq və məhəbbətlə yanaşı əməlin və vəzifələrin də yerli-yerində icra olunmasıdır.) Dünyaya aid olanlar bunlardır; zahidlik, elmə qarşı hərislik, təqva, ibadətə meyl, ölməmişdən qabaq tövbə, gecə namazını xoş halla qılmaq, camaatdan ümidi kəsmək, Allahın əmr və qadağalarına riayət etmək, dünyaya qarşı rəğbətsiz olmaq və səxavət. Axirətə aid olanları isə bunlardır; əməl dəftərini utanmamasından ötrü (sair insanların yanında.) açmazlar, ondan ötrü mizan qurulmaz, əməl dəftərini sağ tərəfdən verərlər, ona atəşdən xilas olma kağızı verərlər, üzü ağ olar, əyninə behişt paltarları geyindirilər, qohumları və yaxınlarından olan yüz nəfər barədə şəfaəti qəbul olunar, Allahın rəhmət nəzəri onun üzərində olar, başına behişt tacı qoyular və hesabsız behiştə daxil olar. Xoş Əhli-beyt (ə) dostlarının halına!!!”

◘Həmran ibn Əyn İmam Baqirdən (ə) İmam Cəfər Sadiq (ə) barədə onun gözəl və ali xislətlərindən iyirmi üçünü nəql etmişdir:

1. Həzrət (ə) gecə-gündüz min rükət namaz qılardı. Onun da Həzrət Əli (ə) kimi beş yüz xurma ağacı var idi ki, hər birinin altında iki rükət namaz qılardı.

2. Namaz halında olarkən rəngi dəyişərdi.

3. Namazda Allah qarşısında zəlil bir qulun əzəmətli bir padşah qarşısında dayandığı kimi dayanardı.

4. Namaz halında bədəni titrəyərdi.

5. Namazını elə qılardı ki, sanki bu, onun axırıncı namazıdır.

6. Bir gün namaz halında olarkən əbasının bir tərəfi çiynindən sürüşdü. Namazını elə həmin halda da sona çatdırdı. Səhabələrindən biri ondan soruşdu: "Nə üçün əbanızı düzəltmədiniz?" Buyurdu: "Bilirsənmi kimin qabağında idim?" Bəndənin namazından yalnız hüzuri-qəlblə qıldığı miqdarı qəbul olunar." Həmin şəxs dedi: "Elə isə, biz həlak olduq!" Həzrət buyurdu: "Əsla! Allah bu nöqsanları nafilələr vasitəsilə ört-basdır edər."

7. Hər gecə qaranlıq düşən zaman ya dirhəm və dinarlarla dolu olan pul kisələri, ya yemək, ya da odunla dolu xurcunları çiyninə atar, yoxsul və kimsəsizlərin evinə gəlib qapını döyər və onları qapıya gələn şəxsə verərdi.

8. Fəqir və yoxsul kəslərə bir şeylər verərkən üzünü örtürdü ki onu tanımasınlar. Fəqir və yoxsullar o həzrətin (ə) vəfatından sonra onlara infaq edənin kim olduğunu başa düşdülər.

9. Vəfatından sonra Həzrətə qüsul vermək istəyərkən gördülər ki, mübarək kürəkləri dəvənin dizləri kimi qabar bağlayıb. Bu fəqir və yoxsulların evlərinə daşıdığı yüklərin nəticəsində əmələ gəlmişdi.

10. Bir gün həzrət (ə) xəz dəridən hazırlanmış bir əbanı çiyninə atıb harasa gedirdi. Yolda bir fəqir gəlib əbadan tutdu. Həzrət (ə) əbanı buraxıb yoluna davam etdi.

11. Qışda xəzdən hazırlanmış paltarlar alar, istifadə edər, yayda isə onları satıb pulunu sədəqə verərdi.

12. Ərəfə günü gözü dilənməklə məşğul olan bir dəstə insana düşdü. Üzünü onlara tutub buyurdu: "Vay olsun sizə! Belə bir gündə siz Allahdan başqasındanmı bir şey istəyirsiniz? Bu günlərdə Allahın lütf və rəhməti hər bir insana və hətta, ümid var ki, bətnlərdə olan körpələrə də şamil olar və onlar xoşbəxt olarlar.

13. Anası ilə xörək yeməkdən həmişə çəkinərdi. Bir gün o həzrətdən (ə) soruşdular: "Ey Allah rəsulunun övladı! Siz hamıdan daha artıq ananıza qarşı xoş münasibətdə olursunuz. Bəs nə üçün onunla birlikdə yemək yemirsiniz?" Həzrət (ə) buyurdu: "Fikirləşirəm ki, birdən anamın meyli olduğu tikəni götürüb yeyərəm."

15. İyirmi dəfə etdiyi həcc səfərində bir dəfə də olsun dəvəyə qamçı vurmadı. Dəvə ölən zaman dəvənin basdırılmasına göstəriş verirdi ki, yırtıcılar onun cəsədini yeməsin.

16. Bir kənizdən o həzrət (ə) barədə soruşdular. Kəniz dedi: "Müxtəsər deyim, ya müfəssəl?" Dedilər: "Müxtəsər." Dedi: "Heç vaxt onun üçün nə yemək apardım, nə də yataq hazırladım."

17. Bir gün həzrət (ə) onun qeybətini edən bir dəstəyə yetişdi. Dayandı və buyurdu: "Əgər düz deyirsinizsə Allah məni bağışlasın, yox əgər yalan deyirsinizsə sizi bağışlasın."

18. Əgər bir kəs onun hüzuruna elm öyrənməkdən ötrü getsəydi buyurardı: «Peyğəmbərin (s), qayğısına qalmağı tapşırdığı şəxslərə əhsən!»

19. Mədinə əhlindən olan yüz ailəli fəqiri öz himayəsi altına almışdı.

20. Yetim, kor, miskin və binəva olan hər kəs süfrəsi başında oturarkən çox sevinərdi. Əgər, həmin kəs ailəli olsaydı həzrət (ə) onun ailəsindən ötrü də yemək göndərərdi.

21. Həmişə yeməmişdən öncə əvvəl yediyi miqdarda səqədə verib sonra yeməyə başlayardı.

22. Hər il yeddi səcdə üzvünün hər birindən bir qat dəri ayrılardı. Çünki, çox namaz qılmaqdan bu üzvlərinin dərisi sərtləşib qabar halına düşərdi. Həzrət (ə) dünyadan gedərkən də həmin hissələri onunla birgə dəfn etdilər.

23. Həzrət (ə) iyirmi il atasından ötrü ağladı. Nə zaman qarşısına yemək qoysaydılar Həzrətin mübarək gözlərindən yaş axmağa başlayardı. Bir gün xidmətçilərindən biri Həzrətdən soruşdu: "Ey Allah rəsulunun oğlu! Sizin bu qəm-qüssəniz bitmədimi?!" Buyurdu: "Vay olsun sənə! Yəqub peyğəmbərin on iki oğlu var idi. Allah birini gözünün qabağından apardı, ağlamaqdan gözləri kor oldu, saçı ağardı və beli büküldü. Halbuki, oğlu sağ-salamat idi. Mən isə öz gözümlə atam, qardaşım, əmim və on yeddi nəfərə yaxın qohumumun necə öldürülüb torpaq üzərinə düşməyini müşahidə etdim. Belə olduğu halda necə qəm-qüssəm sona yetsin?"

◘Zeyd ibn Suhan Əbdi Həzrət Əmirəlmömininə (ə) ərz etdi:
–Hansı qüdrət daha güclüdür?
–Nəfsin istəkləri.
–Hansı xarlıq daha zillətdir?
–Dünyaya həris olmaq.
–Hansı yoxsulluq daha çətindir?
–Dindarlıq və imandan sonra küfr və dinsizlik.
–Ən azdırıcı dəvət hansıdır?

–Mümkün olmayan şeyə dəvət.
–Ən üstün əməl hansıdır?
–Təqva və pəhrizkarlıq.
–Ən nicat verən əməl hansıdır.
–Mütəal Allahın yanında olanların arzusunda olmaq.
–Ən pis yoldaşlıq hansıdır?
–Allaha itaətsizliyi və Onun qarşısında günah etməyi sənin üçün yaxşı qələmə verən kəslə yoldaşlıq.
–Yaradılmışların ən bədbəxti hansıdır?
–Öz dinini dünyasına satan şəxs.
–Yaradılmışların ən qüvvətlisi hansıdır?
–Səbr və təmkinli şəxs.
–Yaradılmışların ən xəsisi hansıdır?
–Dinin icazə verməduiyi yollarla qazanc əldə edib onu dinin icazə verməduiyi yerlərdə də sərf edən.
–Camaatın ən zirəki hansıdır?
–Özünün səhv, yaxud düz yolda olduğunu dərk edib yanlışlıqdan hidayətə üz tutan.
–Ən təmkinli və ən dərrakəli kəs kimdir?
–Qəzəblənməyən kəs.
–İnsanlardan kim daha güclü və möhkəm fikir və rəyə malikdir?
–Camaatın onu özünübəyənən, xudbin və lovğa hesab etmədiyi və dünyanın aldadıcı bər-bəzəyinə, ləzzətlərinə uymayan şəxs.
–İnsanların ən axmağı kimdir?
–Dünyanın fani və müvəqqəti olduğunu bilə-bilə ona bel bağlayıb məftun olan kəs.
–Ən əfsuslanacaq insan kimdir?
–Dünyasını da, axirətini də əldən verən kəs. Həqiqətdə də bu, açıq-aşkar bir zərərdir.
–İnsanların ən koru kimdir?
–Allahdan qeyrilərindən ötrü əməl edib mükafatı Allahdan almaq arzusunda olanlar.
–Ən üstün qənaət (qane olma) hansıdır?
–Dinə bağlı olan müsibət.
–Allah-təala yanında ən sevimli əməl hansıdır?
–Ali-Məhəmmədin fərəcinin intizarında olmaq.
–Allah yanında insanların ən üstünü kimdir?
–Allahdan ən çox qorxan və ən təqvalı və bir də dünyaya qarşı ən rəğbətsiz olan.
–Allah yanında ən bəyənilmiş söz hansıdır?

–Onu çox yad etmək, dua və münacatla məşğul olmaq, Onunla razü-niyaz və təvazö edərək qarşısında öz acizliyini etiraf etmək.

–Ən düz söz nədir?

–Allahdan başqa bir məbud olmadığını iqrar etmək (yəni, "La ilahə illəllah" kəlməsi).

–Allah-təala yanında ən böyük əməl hansıdır?

–Təslim (yəni, Allahın göndərdiyi bütün qanunlara "niyə-nə üçün" demədən sözsüz tabe olmaq və başı aşağı salaraq ona itaət etmək) və zöhd (yəni, zahidlik.)

–İnsanların ən düz danışanı kimdir?

–Hər yerdə və hər bir danışığında düz danışan kəs.

◘İmam Cəfər Sadiq (ə) Həzrət Peyğəmbərin (s) ümmətə belə tapşırdığını buyurur: "Ey ümmət! Allah-təala iyirmi dörd xisləti sizin üçün bəyənməyib və sizdən ötrü bu xislətlərə qadağa qoyub. Həmin xislətlər bunlardır: namaz halında olarkən (bir şeylə, yaxud bədənin hər hansı bir üzvü ilə məsələn barmaqla, yaxud saqqalın tükü ilə) oynamaq, sədəqə verərkən minnət qoymaq, qəbristanlıqda gülmək, icazə olmadan evlərə daxil olmaq, həyat yoldaşının övrətinə baxmaq, cinsi əlaqədə olarkən danışmaq, işa namazını qılmamış yatmaq, övrətini örtməmiş açıq havada qüsul almaq, sübh namazı qılarkən azan və iqamə arasında danışmaq, tufan zamanı dəniz səfərinə çıxmaq, ətrafı daşla tikilməyən damın altında yatmaq, bir otaqda tək yatmaq, heyz halında olan qadınla yaxınlıq etmək, cünub olduqdan sonra qüsul almamış yenidən yaxınlıq etmək, cüzam xəstəliyinə tutulmuş şəxslə bir zira (dirsəkdən barmaqların ucuna qədər olan miqdar) ara verməmiş söhbət etmək, axar suyun kənarında idrar etmək, ayaqqabını ayaq üstə geyinmək, qaranlıq otağa çıraqsız girmək və namaz məkanını aradan aparmaq. (Bütün bu işlərin hamısı məkruhdur, yalnız iki məsələdən başqa. Bu iki məsələ dində haram edilmişdir: 1) Evlərə icazəsiz daxil olmaq. 2) Heyz halında olan qadınla yaxınlıq etmək.

◘Zümrət ibn Həbib deyir ki, bir gün Peyğəmbərdən (s) namaz barədə soruşdum. Həzrət (s) belə buyurdu: "Namaz dinin vacib əməllərindəndir, Allahın bu əməldən xoşu gəlir və Onun razılığına səbəb olar, peyğəmbərlərin təriqətindəndir, mələklərin məhəbbətini cəlb edər, iman və hidayətdir, mərifət nurudur, ruzini bərəkətli edər, bədənin rahatlığıdır, şeytanın bu əməldən heç xoşu gəlmir, kafirlər müqabilində bir silahdır, duanın müstəcab və əməllərin qəbul olmasına səbəb olar, möminin axirət azuqəsidir, ölüm mələyi yanında insanın şəfaətçisidir, qəbirdə insana həmdəm və bədənin altında fərşdir, Nəkir

və Münkərin cavabıdır, məhşərdə bəndənin başının tacı, üzünün nuru, bədəninin libası, atəşlə onun arasında həm pərdə, həm hüccətdir, onun Cəhənnəmdən nicat tapmasına və Sirat görpüsündən asan keçməsinə səbəb olar, Behiştin açarı, onun qiymətidir, Hurul-eynin mehr və məhəbbətinə səbəb olar, bəndələri ən uca məqamlara çatdırar. Çünki, namaz ibadətin bir çox növlərini, o cümlədən, təsbih, təhlil, təkbir, təmcid və təqdis kimi zikrləri, Allahla münacat dua və s.ni özündə birləşdirir.

◘Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edirlər: "Elm öyrənin (Məqsəd üsuli-əqaid, əxlaq və əhkam kimi dini elmləri öyrənib onlara əməl etməkdir.) çünki, onu öyrənmək həsənə, mütaliəsi təsbih, bəhsi cihad, öyrədilməsi sədəqə, onu əhlinə əta etmək ibadətdir. Çünki, elm halalı haramdan ayırma vasitəsidir; onu öyrənəni Behiştə aparar, tənhalıqda insanın dostu, qorxu zamanı həmdəmi, çətinliklər zamanı yol göstərəni, düşmən müqabilində silahı, dostlar arasında ziynətidir. Allah elm vasitəsi ilə bəzi insanları yüksəldib xeyir işlərdə insanların rəhbəri və müqtədası qərar verər. Gözlər həmin insanların əməllərinə dikilər, onların getdiyi yol hamı üçün nümunə olar, mələklər onlarla dostluq etməyə rəğbət bəsləyər, namaz qılarkən qanadlarını onlara sürtər; elm qəlblərin həyatı, gözlərin nuru və bədənlərin qüvvətidir. Allah alimləri dünyada da, axirətdə də yaxşı insanların cəmiyyətində qərar verər və onları yaxşı əməl sahibləri ilə dost edər; elm Allaha ibadət və itaət etməyə, Onun yeganəliyini iqrar etməyə, Ona doğru mərifətə, sileyi-rəhmə səbəb olar, elm əməlin rəhbəri, əməl isə onun ardıcılıdır, Allah elmi xoşbəxtlərə nəsib edər, bədbəxtləri isə ondan məhrum edər.

◘Əbuzər deyir: "Bir gün Peyğəmbər (s) məsciddə oturmuşdu. Məscidə daxil oldum. Fürsəti qənimət bilib həzrətə (s) yaxınlaşdım. Üzünü mənə tutub buyurdu:

–Əbuzər, məscidin təhiyyəti var.

Ərz etdim:

–Məscidin təhiyyəti nədir, ya Rəsuləllah?

Buyurdu:

–İki rəkət namaz.

Ərz etdim:

–Ya Rəsuləllah, siz bizə namazı tövsiyə edirsiniz. Bilmək istəyirəm ki, namaz nədir?

Həzrət buyurdu:

–Namaz əməllərin ən üstünüdür. Hər kəs istəyir az yerinə yetirsin, hər kəs də istəyir çox yerinə yetirsin.

–Ya Rəsuləllah, Allah yanında ən sevimli əməl hansıdır?

–Allaha iman və Onun yolunda cihad.

–Gecənin hansı vaxtı daha fəzilətlidir.

–Namazın ən fəzilətli hissəsi hansıdır?

–Gecə yarısıö

–Uzun qunutu.

–Hansı sədəqə daha üstündür?

–Yoxsul olan vaxtında ehtiyaclı olan qocaya verilmiş sədəqə.

–Ya Rəsuləllah, oruc nədir?

–Allahın qat-qat artıq əvəzini verəcəyi və dinin yerinə yetirilməsi vacib olan əməllərindən biri.

–Bəs, hansı bəndənin azad edilməsi daha artıq savaba malikdir?

–Qiyməti ən baha olub, sahibi yanında ən nəfis hesab edilən qulun.

–Ən əfzəl cihad hansıdır?

–Atından salınaraq qanı tökülən cihad.

–Quranın ən üstün ayəsi hansıdır?

–Ayətəl-kürsi.

–Ya Rəsuləllah, peyğəmbərlərin sayı neçədir?

–Yüz iyirmi dörd min.

–Mürsəl peyğəmbərlərin sayı neçədir?

–Üç yüz on üç nəfər.

–Birinci peyğəmbər kim olub?

–Həzrət Adəm (ə)

–Ya Rəsuləllah, həzrət Adəm (ə) də mürsəl peyğəmbər olub?

–Bəli, Allah-təala onu Öz qüdrət əli ilə yaradıb Öz ruhundan ona ruh verdi. Əbuzər, peyğəmbərlərdən dörd nəfəri–Adəm, Şiys, Əxnux, yəni İdris (birinci dəfə yazı yazan şəxs) suriyalı olmuşdur. Dörd nəfəri də ərəb olmuşdur; Hud, Saleh, Şüeyb və sənin peyğəmbərin Məhəmməd. İsrailli peyğəmbərlərin birincisi Musa (ə), axırıncısı da, İsa (ə) olmuşdur. Bu iki peyğəmbər arasında da Bəni-İsrailə altı yüz peyğəmbər göndərilmişdir.

–Ya Rəsuləllah, Allah tərəfindən neçə kitab nazil olmuşdur?

–Dörd kitab. Əlli səhifə Şeys peyğəmbərə, otuz səhifə İdris peyğəmbərə, iyirmi səhifə İbrahimə, Tövrat, İncil, Zəbur və Quran.

–Ya Rəsuləllah, İbrahimin səhifəsi nə idi?

–Orada olanların hamısı məsəl və öyüd-nəsihətlərdən ibarət idi. O cümlədən orada belə yazılmışdı: “Ey məğrur padşah! Mən səni dünya malı cəm etməkdən ötrü göndərməmişəm, Mən səni bu vəzifəyə qoymuşam ki, qoymayasan məzlumların ahı Mənim dərgahıma ucalsın.

Mən məzlumun duasını kafir də olsa geri qaytarmaram. Ağıllı insan heç bir üzrü olmadığı halda gərək öz vaxtının bir hissəsini öz Pərvərdigarı ilə münacata, özündən haqq-hesab çəkməyə, yaradılış aləmi barədə təfəkkür və düşüncəyə, halal ləzzətlərdən istifadə etməyə sərf etsin. Eləcə də, ağıllı şəxs gərək öz zəmanəsinin vəziyyətindən agah olsun, öz işləri ilə məşğul olsun, dilini artıq danışıqdan və faydasız sözlərdən qorusun. Ağıllı insan gərək daim üç şeyin ardınca olsun; yaşayışının rifahı və islahı, axirət tədarükü və halal ləzzətlər ardınca."

–Musanın kitabı hansı dildə idi.

–İbrani dilində. Orada belə yazılmışdı: "Təəccüb olunmalı şəxs o kəsdir ki, öləcəyini yəqin bilir, lakin şadlıq edir və o kəs ki, atəşin mövcudluğuna yəqini var, lakin gülür və o kəs ki, dünyanın insanları tar-mar etdiyini görür, lakin ona bel bağlayır və etibar edir və o kəs ki, qəza-qədərə imanı var, lakin yersiz təlaş edib çalışır və o kəs ki, sabahın haqq-hesabına yəqini var, lakin əməl etmir."

–Ya Rəsuləllah, sizə nazil olan Quranda elə bir şey varmı ki, İbrahimin və Musanın da səhifələrində olmuş olsun?

Həzrət (s) bu ayələri oxudu:

**[Öz nəfsini paklayan, Rəbbinin adını zikr edib namaz qılan nicat tapdı. Siz dünya həyatını seçirsiniz, axirət isə daha xeyirli və əbədidir. Həqiqətən bunlar əvvəlki səhifələrdə də var idi. İbrahimin və Musanın səhifələrində.]**

–Ya Rəsuləllah, mənə bir nəsihət ver.

–Sənə təqvalı olmağı tapşırıram. Bu bütün işlərin başıdır.

–Bir az da artırın.

–Quran oxumağı əldən vermə və Allahı çox yad et. Belə etsən, səni də asimanda yad edərlər və nurani olarsan.

–Bir az da əlavə edin.

–Cihadı unutma, çünki o, mənim ümmətimin dünyaya arxa çevirməsidir.

– Bir az da əlavə edin.

–Sənə uzun-uzadı sükutu tövsiyə edirəm. Çünki, bu əməl şeytanı uzaqlaşdırar, sənə din işlərində kömək edər.

–Bir az da artırın.

–Çox gülməkdən çəkin. Bu iş qəlbi öldürər və üzün təravətini aparar.

–Bir az da əlavə edin.

–Həmişə özündən aşağıdakılara nəzər sal, özündən yuxarıdakılara yox. Əgər belə etsən Allahın sənə verdiyi nemətləri dəyərsiz hesab etməzsən.

–Bir az da əlavə edin.

–Öz qohumlarınla sənə qarşı bədrəftar olsalar da, xoş rəftar et.

–Bir az da əlavə edin.
–Yoxsulları və onlarla yoldaşlığı sev.
–Bir az da əlavə edin.
–Acı olsa da həmişə haqqı de.
–Bir az da əlavə edin.
–İlahi işlərdə heç kəsin danlağından qorxma.
–Bir az da əlavə edin.
–Özündə olan eyibləri başqalarında axtarma, öz etdiyin işlərə görə başqalarına qəzəblənmə. Kişi üçün bu eyib bəsdir ki, bu üç xislət onda olsun; eyni bir eybi özündə görmür, başqalarında görür, özündə pis və qəbih işlər var, lakin, həmin işləri başqalarında görəndə utanır və nəhayət, üçüncüsü budur ki, boş-boş məsələlər üstündə öz yoldaşını incidir. Ey Əbuzər! Tədbir kimi əql, günahdan çəkinmək kimi təqva və pəhrizkarlıq və gözəl əxlaq kimi də əsil-nəcabət yoxdur."

# OTUZ-QIRX TƏRKİBLİ NƏSİHƏTLƏRƏ QƏDƏR OLAN BÖLMƏ

◘Həzrət Sadiq (ə) buyurur: "Atamdan Quranda və Peyğəmbər (s) sünnəsində haram olan cinsi yaxınlıqlar barədə soruşdular. Buyurdu: Bunlar otuz dörddür, on yeddisinin adı Quranda, on yeddisinin adı isə Peyğəmbər (s) sünnəsində göstərilib. Quranda buyurulanlar bunlardır:

Zina; atanın arvadı ilə evlənmək; ana ilə yaxınlıq; öz qızı ilə yaxınlıq; bacı ilə yaxınlıq; bibi ilə yaxınlıq; xala ilə yaxınlıq; qardaşın qızı ilə yaxınlıq; süd anası ilə yaxınlıq; süd bacısı ilə yaxınlıq; qayınana ilə yaxınlıq; yaxınlıq etdiyi qadının qızı ilə yaxınlıq; doğma oğulun arvadı ilə yaxınlıq; iki bacı ilə yaxınlıq (biri öldükdən sonra ikincisi ilə evlənmək haram deyil); heyz halında olan qadınla yaxınlıq; etikaf halında yaxınlıq.

Sünnədə göstərilən haram yaxınlıqlar isə bunlardır:

Mübarək Ramazan ayının gündüzlərində olan yaxınlıq; "lian" edilmiş qadınla evlənmək; ehram halında öz qadını ilə yaxınlıq; ehram halında evlənmək, yaxud qarşı tərəf ehram halında olarkən onunla evlənmək; "zihar"dan[1](1) sonra kəffarə verilməmiş edilən yaxınlıq; müşrik qadınla evlənmək; doqquz dəfə talaq verilmiş qadınla evlənmək;

---

[1] Şəriətdə haram sayılan bir adətdir ki, əgər baş versə ər-arvad bir-birindən ayrılmalıdır.

## QIRX-ƏLLİ TƏRKİBLİ NƏSİHƏTLƏRDƏN İBARƏT OLAN BÖLMƏ

◘Fəzl İbn Yəssar deyir: “Həzrət Sadiq (ə) buyurmuşdur ki, hər kəs şərab içsə qırx gün namazı qəbul olunmaz. Əgər bu günlərdə namaz qılmazsa əzabı iki qat olar. Hər kəs əvvəl qırx mömin qardaşı üçün dua edib sonra özü üçün dua etsə, Allah həm onun duasını qəbul edər və həm də onun qardaşları barədə etdiyi duaları.”

◘Yenə İmam Cəfər Sadiq (ə) buyurub: “Elə ki, bir mömin dünyadan getdi və möminlərdən qırx nəfəri onun dəfn mərasimində iştirak edib “Pərvərdigara, biz onun barəsində yaxşılıqdan başqa bir şey bilmirik, Sən Özün onun vəziyyətindən daha agahsan.” - desələr Allah tərəfindən xitab olunar: “Mən sizin sözünüzü qəbul etdim və onun sizin xəbəriniz olmadığı günahlarını da qəbul etdim.” (Bir şərtlə ki, əqidəsi səhih olmuş olsun.)

◘Həzrət Əli (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Müsəlman qarnının altında (insanın cinsiyyət üzvünün ətrafında) olan tükləri təmizləməyi qırx gündən artıq təxirə salmamalıdır.”

◘Həzrət Riza (ə) ata-babalarından (ə) həzrət Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Meracda olarkən ərşdən asılmış bir kişi gördüm ki, öz qohumlarından şikayət edirdi. Ondan soruşdum: “Şikayət etdiyin qohumunla sənin aranda nə qədər fasilə var?” Dedi: “Qırx ata.” (yəni insan gərək bacardığı və tanıdığı qədər öz ata-babalarını yad edərək, hətta, qırx nəsil özündən qabaqkıların da, əldən vermiş olduqları əməlləri yerinə yetirib, onlar barəsində dua və ehsan etsin.)

◘Yenə də həzrət Peyğəmbərdən (s) nəql olunur: “Mənim ümmətimdən hər kəs camaatın ehtiyac duyduğu məsələlər barədə qırx hədis əzbərləyib (onlara çatdırsa), Allah-təala Qiyamət günü onu fəqih kimi məhşur edər.”

◘Həzrət İmam Cəfər Sadiq (ə) Peyğəmbərin (s) Həzrət Əliyə (ə) vəsiyyətlərində belə buyurduğunu nəql edir: “Mənim ümmətimdən olan hər kəs Allahın razılığını qazanmaqdan ötrü qırx hədis əzbərləsə, Allah-təala Qiyamət günü onu peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə məhşur edər. Bunlar çox gözəl dostlardır.” Həzrət Əli (ə) ərz etdi: “Ya Rəsuləllah, bu hədislərdə məqsəd nədir?” Həzrət buyurdu: “Məqsəd

budur ki, heç bir şəriki olmayan yeganə Allaha iman gətirəsən, Ondan başqa heç kəsə pərəstiş etməyəsən, fərəh və həvəslə dəstəmaz alıb namazlarını öz vaxtında qılasan, çünki, heç bir üzrü olmadan namazı təxirə salmaq Allahın qəzəbinə səbəb olar, zəkat verəsən, Mübarək Ramazan ayının orucunu tutasan, imkanın çatsa Allah evinin ziyarətinə gedəsən, ata-ananı incitməyəsən, yetimin malını haqsız yerə yeməyəsən, riba yeməyəsən, şərab və heç bir məstedici içki içməyəsən, ləvat etməyəsən, söz gəzdirməyəsən, yalandan Allaha and içməyəsən, israf etməyəsən, heç kəs barəsində istər yaxın olsun, istərsə də uzaq, yalandan şahidlik etməyəsən, böyük, kiçik hər kəsdən haqqı qəbul edəsən, zalıma - yaxın qohumun olsa da, etimad etməyəsən, nəfsani istəklərinə uymayasan, pakdamən qadınlara böhtan atmayasan, azacıq da olsa riya etməyəsən, çünki, azacıq riya Allaha şərik qoşmaq deməkdir. Eyiblərini üzlərinə vurmaqdan ötrü balaca boylu insana "balacaboy", hündür boylu insana da "uzunduraz" deməyəsən, Allahın yaratdıqlarından heç birini məsxərə etməyəsən, bəla və müsibətlər müqabilində səbirli olasan, Allahın verdiyi nemətlərə görə Ona şükür edəsən, özünü etdiyin günahların cəzasından amanda hiss etməyəsən, Allahın rəhmətindən naümid olmayasan, günahlarından tövbə edəsən, çünki, tövbə edən günahı etməyən kimidir. Günahı israrla təkrarlamayasan və ardıcıl olaraq istiğfar edəsən. Günahda davamlı olmaq Allahı və peyğəmbərləri məsxərəyə qoymaq deməkdir. Bil ki, sənə yetişən hər hansı bir şey (Alahın təqdirinə uyğun olaraq) qarşısıalınmazdır və əlinə gəlməyən bir şeyin də yetişməsi qeyri-mümkün olmuşdur. Camaatı razı salmaqdan ötrü Allahı qəzəbləndirmə və heç vaxt dünyanı axirətdən üstün tutma. Çünki, dünya fani və müvəqqəti, axirət isə əbədidir. Əlində olanları xəsiscəsinə qardaşlarından gizlətmə. Batinin də zahirin də bir olsun, zahirin gözəl batininsə çirkin olmasın, çünki, belə olsa münafiq hesab olunarsan. Yalan demə, yalançılarla yoldaşlıq etmə və onlarla əlaqə saxlama, haqq sözü eşidəndə qəzəblənmə, özünə, həyat yoldaşına və övladlarına qarşı bacardığın qədər ədəbli ol, elminə əməl et, Allahın yaratdıqlarına qarşı düzgün rəftar et, onlarla nahaq davranma, qohumlara və yadlara qarşı sərt və xırdaçı olma, zülümkar və qəddar olma, "Sübhanallah" və "La ilahə illəllah" zikrlərini çox təkrar et, çoxlu dua et, ölümü və ölümdən sonrakı həyatı (məadı, cənnət və cəhənnəmi) çox yad et, çoxlu Quran oxu və öz rəftarını da ona uyğunlaşdır, mömin və mömінələrə ehsan etməyi qənimət bil, diqqətli ol, özün üçün bəyənmədiyin bir şeyi başqalarına da rəva bilmə, xeyir işdən bezmə, öz yükünü başqasının çiyninə atma. Elə ki, bir kəsə yaxşılıq etdin, bu yaxşılığına görə ona minnət qoyma. Dünyanı özün üçün zindan bil ki, Allah da sənə behişt

qismət etsin. Hər kəs bu dediyim qırx hədisi əzbərləyib onlara əməl etsə və ümmətə çatdırsa Allahın rəhməti sayəsində behiştə gedər. Belə bir şəxs Allah yanında peyğəmbərlər və vəsilərdən sonra ən sevimli bəndələr hesab olunar və Qiyamət günü peyğəmbərlər, vəsilər, şəhidlər, salehlər və siddiqlərlə məhşur olar. Bunların nə gözəl dostları var!!!"

◘Həzrət Sadiq (ə) buyurub: "Hər bir bəndə qırx yaşına qədər genişlik və rahatlıqda olur. Elə ki, qırx yaşına çatdı Allah-təala onun əməllərinə nəzarət edən mələklərə əmr edər ki, Mən Öz bəndəmə uzun ömür verdim. Artıq, bundan sonra onun hər bir kiçicik əməllərini də diqqətlə yazın və ona qarşı daha tələbkar olun."

## *Əmirəl-mömininin (ə) Kumeyl ibn Ziyada nəsihətlərindən*

◘Ey Kumeyl! Hər gün Allahın adını çək və de ki, Allahın qüdrət və qüvvətindən başqa qüdrət və qüvvət yoxdur. Allaha təvəkkül et. Bizi də yad et və bizim adlarımızı çək, bizə salavat və salam göndər.

◘Ey Kumeyl! Allah Öz rəsulunu tərbiyələndirib ona ədəb qaydalarını öyrətdi. O, əziz isə məni tərbiyələndirib ədəbləndirdi. Mən də möminlərə tərbiyə verib ədəbləndirirəm və bu ədəb qaydalarını ali və nəcib insanlara irs olaraq verirəm.

◘Ey Kumeyl! Elə bir elm yoxdur ki, mən onu bilməmiş olum və agah olmadığım heç bir sirr yoxdur.

◘Ey Kumeyl! (Ali-İmran surəsinin 34-cü ayəsində olan) [Əhli-beyt (ə) və imamət silsiləsindən olanlar elə bir nəsil və elə bir övladlardır ki, onlardan bəziləri bəzilərinin övladlarıdır, Allah eşidən və biləndir.]

◘Ey Kumeyl! Bizdən başqa heç kəsdən dini və elmi məsələ, yaxud hədis öyrənmə ki, həmişə bizdən olasan!

◘Ey Kumeyl! Yemək yeyən zaman Allahın adını çək, çünki, Onun adı ilə heç bir xəstəlik insana zərər yetirməz və Onun adında hər bir dərdin çarəsi var.

◘Ey Kumeyl! Başqalarına təam ver və onları yedizdir. Bu işdə xəsislik göstərmə. Bu işinə görə Allah sənin mükafatını qat-qat artıq edər. Əxlaqını gözəlləşdir, oturub-durduğun adamlarla xoş münasibətdə ol və öz xidmətçilərinə yersiz töhmətlər vurma.

◘Ey Kumeyl! Süfrə kənarında oturarkən yemək yediyin vaxtı uzat ki, səninlə bir süfrə kənarında oturan süfrədə olanlar da kamil şəkildə bəhrələnə bilsin.

◘Ey Kumeyl! Elə ki, yeməyini yeyib qurtardın sənə verdiyi nemətlərə görə Allaha şükür et. Şükr edərkən də elə səslə de ki, başqaları eşitsin və onlar da şükr etsin. Belə etsən sənin savabın daha da artıq olar.

◘Ey Kumeyl! Mədəni yeməklə doldurub ağırlaşdırma. Yeməkdən əlavə onun bir hissəsini su və bir hissəsini də nəfəs almaqdan ötrü boş saxla. Yeməkdən doymamış əlini çək. Əgər belə etsən həmin yemək sənin üçün dadlı olacaq və bil ki, bədənin sağlamlığı az yemək və az içməkdən irəli gəlir.

◘Ey Kumeyl! Xeyir-bərəkət o kəsin malındadır ki, zəkat verir, möminlərə kömək və xeyirxahlıq edir və yaxınları və qohumları ilə əlaqə saxlayıb onlara ehsan və yaxşılıq edir.

◘Ey Kumeyl! Öz qohumların və yaxınlarından olan möminlərə (səninlə qohum olmayan sair möminlərdən daha artıq əl tut və onlara qarşı daha artıq mehriban və mərhəmətli ol və yoxsullara da sədəqə ver.

◘Ey Kumeyl! Səndən bir şey istəyən heç bir kəsi əli boş qaytarma, hətta, yarım dənə üzüm giləsi də olsa ona ver. Çünki, sədəqə Allah dərgahına ucaldıqca böyüyür.

◘Ey Kumeyl! Möminin ən gözəl zinəti təvazökarlıqdır, onun gözəlliyi pakdamənlik və iffətdir, şərəfi fəhm, (dində) bəsirət və elmdir, başıucalığı isə bihudə danışıqları tərk etməkdir.

◘Ey Kumeyl! Hər bir cəmiyyətdə bir dəstə insan digərindən üstündür. Məbada onların alçaq fərdləri ilə mübahisə edəsən! Hətta, sənə nalayiq sözlər desələr də onlara baş qoşma. Təmkinli ol və o kəslərdən ol ki, Allah-təala onların barəsində belə buyurur: “Elə ki, nadan insanlar onlarla danışmaq istəyir, onlara sadəcə, salam deyirlər.”[1] (1)

◘Ey Kumeyl! Hər bir halda haqq söz danış. Təqvalılarla dostluq et və fasiqlərdən uzaq ol. Münafiqlərdən də kənar gəz. Xainlərlə əlaqə saxlama.

◘Ey Kumeyl! Zülümkarların qapısını döymə və onlarla qətiyyən əlaqə yaratma, məbada onlara təzim və ehtiram edəsən və onların məclislərində əsla iştirak etmə! Əgər, məcbur olub onların məclisində iştirak etməli olsan, ardıcıl olaraq təkrar-təkrar Allahı yad et, Ona təvəkkül et və şərlərindən Allaha sığın. Qəlbində onlara qarşı müxalif ol və uca səslə özünün Allaha olan təzim və ehtiramını onların eşidə biləcəyi tərzdə dilə gətir.

◘Ey Kumeyl! Allah bəndələri içərsində Onu tanıyıb, elçisini (s) və övliyalarını (ə) iqrar etdikdən sonra təqva, səbr, təmkin və davamiyyət sahəsində ən çox ciddiyyət göstərənlər Allahın ən çalışqan bəndələri hesab olunur.

◘Ey Kumeyl! Öz çətinliklərini camaata bildirmə. Allahın savabına ümidvar olaraq izzət və heysiyyətlə öz fəqirlik və yoxsulluğuna səbr et.

---

[1] “Furqan, 64.

◘Ey Kumeyl! Öz sirrini qardaşına deməyin heç bir eybi yoxdur. Lakin, qardaşın kimdir?! Sənin qardaşın o kəsdir ki, çətinlik zamanı səni tərk etmir, günaha getdiyin zaman səni qaytarmaqdan ötrü nəsihət və hidayətini əsirgəmir, sənə imkan vermir ki, öz ehtiyacını ona bildirəsən, səni öz işlərinlə baş-başa buraxmır ki, onu agah edəsən (yəni, onu agah etməyə ehtiyac olmur, bütün işlərinlə maraqlanır), əgər işlərində nöqsan əmələ gəlsə onu aradan aparıb islah etməyə çalışır.

◘Ey Kumeyl! Mömin möminin güzgüsüdür. Çünki, ona baxıb diqqət yetirir, çatışmazlıqlarını aradan aparır.

◘Ey Kumeyl! Möminlər qardaşdırlar və qardaşdan ötrü də qardaşından da dəyərli bir şey yoxdur.

◘Ey Kumeyl! Əgər qardaşını sevmirsənsə onun qardaşı deyilsən. Mömin odur ki, bizim dediklərimizi desin. Hər kəs bizim dediklərimizdən uzaq gəzsə bizdən deyil, hər kəs də bizdən olmasa Cəhənnəmin ən aşağı dərəcəsinə yuvarlanar.

◘Ey Kumeyl! Bizdən hesab edilən kəs dərdini sənə bildirsə və səndən bunu gizli saxlamağını istəsə, məbada onun üstünü açasan. Çünki belə etsən, sənə tövbə yoxdur. Hər kəsdən ötrü də tövbə olmasa, Cəhənnəm əhli olacaq.

◘Ey Kumeyl! Ali-Məhəmmədin (s) sirrini yaymaq məqbul deyil. Buna heç kəsin dözümü və təhəmmülü çatmaz. Ali-Məhəmmədin (s) dediklərini yalnız müvəffəq möminlər yanında açıb de.

◘Ey Kumeyl! Hər cür çətinlik zamanı "La həvlə və la qüvvətə illa billah" [Allahın qüdrət və qüvvətindən başqa qüdrət və qüvvət yoxdur] desən, həmin çətinlikdən qurtararsan. Hər bir nemət zamanı da "Əlhəmdu lillah" [Həmd Allaha məxsusdur] desən, nemətlər artar. Elə ki, ruzin gecikdi, istiğfar et və Allahdan bağışlanma dilə. Belə etsən, Allah işlərini yoluna qoyar.

◘Ey Kumeyl! Bizim vilayətimiz vasitəsi ilə şeytanın sənin mal və övladına şərik olmasından azad ola bilərsən.

◘Ey Kumeyl! Heç bir vacib əməli tərk etmək olmaz və heç bir nafilə və müstəhəb əməli yerinə yetirmək də vacib deyil.

◘Ey Kumeyl! Sənin günahların yaxşı əməllərindən çoxdur, qəflətin də Allahı yada salmaqdan və Onu zikr etməkdən çoxdur və Allahın sənə olan nemətləri sənin əməllərindən çoxdur.

◘Ey Kumeyl! Sən hər bir an Allahın nemətlərinə, Onun sənə əta etdiyi salamatlıq və afiyətə qərq olmuş haldasan. Elə isə sən də heç vaxt Ona sitayiş və həmd-səna etməkdən, Ona təsbih deyib Onu təqdis etməkdən, eləcə də daim Onu yad və zikr etməkdən yorulma.

◘Ey Kumeyl! O kəslərdən olma ki, Allah-təala onlar haqqında belə buyurur: "Onlar Allahı unutdular, Allah da onlara özlərini unutdurdu."

Belə kəsləri Allah-təala fasiqlər zümrəsinə aid edib buyurur: “Onlar fasiqlərdir”[1](1)

◘Ey Kumeyl! Namaz qılıb, oruc tutub, sədəqə verməyin elə də mühüm deyil, mühüm olan odur ki, namaz pak qəlblə, Allah yanında bəyənilmiş əməllərlə, xüzu-xüşu və təvazökarlıqla yanaşı olsun və bax gör ki, nədə (necə paltarda), nəyin üzərində namaz qılarsan. Çünki əgər onlar səhih və halal yoldan ələ gətirilmiş olmazsa, namazın qəbul olunmaz.

◘Ey Kumeyl! Dil (sözü, danışığı) qəlbdən çəkib çıxarır, qəlb də (yəni, onun pak olub-olmaması) yeməkdən asılıdır. Elə isə bədəninə və qəlbinə verdiyin yeməyə nəzarət et, çünki, əgər o, halal olmasa, Allah sənin şükr və təsbihini qəbul etməz.

◘Ey Kumeyl! Bil və agah ol! Biz yaradılmış olan heç bir varlığın əmanətini qaytarmamağa icazə vermirik. Hər kəs məndən bu məsələyə icazə verməyim barədə hədis rəvayət etsə, yalan demişdir. And içirəm ki, Həzrət Rəsul (s) dünyadan getməmişdən bir saat öncə üç dəfə təkrarən mənə belə buyurdu: “Ey Əbəlhəsən, əmanəti sahibinə qaytar, istər yaxşı adama olsun, istər pisə, istər az olsun, istərsə də çox, istər sap olsun, istərsə də iynə.”

◘Ey Kumeyl! Adil imamsız müharibə, cihad və fazil imamsız qənimət caiz deyil.

◘Ey Kumeyl! Din yalnız Allah tərəfindəndir və Allah rəsul, nəbi və vəsidən başqa heç kəs vasitəsi ilə dinini ayağa qaldırmaz.

◘Ey Kumeyl! Allah-təala böyük, səbirli, əzəmətli və mehribandır. Allah bizi Özünün əxlaqına uyğun tərbiyələndirdi və göstəriş verdi ki, onu əxz edək və camaata öyrədək. Biz heç bir yanlışlığa yol vermədən bunu yerinə yetirdik, təkzib və inkar etmədən bunu təsdiq etdik və heç bir şəkk-şübhə olmadan qəbul etdik.

◘Ey Kumeyl! And olsun Allaha! Mənə itaət edib, sözümə qulaq asmaqdan ötrü sözbazlıq etmirəm və heç kəsə var-dövlət və vəzifə söz verməmişəm ki, sözümdən çıxıb mənə qarşı itaətsizlik göstərsinlər. Mən ərəbin rəzil, alçaq və şəxsiyyətsizlərinə Əmirəlmöminin (ə) olmaqdan ötrü üz tutacaq deyiləm.

◘Ey Kumeyl! Arzusuna çatanlar bu fani və keçib gedən dünyada arzuya çatıblar, biz isə öz istəklərimizə əbədi axirətdə çatacağıq.

◘Ey Kumeyl! Bu iki dəstə insanın hər ikisi üzü axirətə tərəf gedir. Bizim rəğbət bəslədiyimiz şey Allahın razılığı və behiştin uca məqamlarıdır. Allah bunları təqvalı olanlara əta edər.

◘Ey Kumeyl! Behiştə getməyən kəsi qəmli əzab və zillətlə müjdələ!

---

[1] “Həşr”, 19.

◘Ey Kumeyl! Mən Allahın verdiyi tövfiq sayəsində hər bir halda ona həmd və səna edirəm. İstədiyin vaxt qalxa bilərsən.

### *Peyğəmbərin (s) Qədir-xum günündə söylədiyi xütbədən*

◘Qədir-xum günü həzrət Peyğəmbərin (s) göstərişinə əsasən onun üçün hazırlanmış minbərə qalxıb xütbə oxudu. Xütbə əsnasında əlli dəfədən artıq camaata xitab edib vilayət, Həzrət Əlinin (ə) canişinliyi, xilafətə təyin olunması barədə onlara göstərişlər verdi və bu məsələlərdə çoxlu təkid edib bu məsələni onlara tamam-kamal çatdırdı. İndi biz o həzrətin (s) misilsiz və qiymətli sözlərindən bəzilərini sizə təqdim edirik:

◘Ey camaat! Allah onu (Əlini (ə)) sizə rəhbər təyin edib. Ona itaət etmək ənsar, mühacir və tabeindən olan saleh əməl sahiblərinə, şəhərli və kəndli, ərəb və əcəm, azad və qul, kiçik və böyük, ağ və qara dərili və yeganə Allaha sitayiş edən hər kəsə vacibdir. Onun hikməti rəvan, danışığı haqq, fərmanı itaət olunmalıdır. Onunla müxalifət edən məlundur. Ona itaət edən Allahın rəhmətinə qovuşar.

◘Ey camaat! Bura mənim dayanacağım axırıncı yerdir. Eşidin və itaət edin. Öz Pərvərdigarınızın fərmanı qarşısında baş əyin. Allah sizin yeganə məbudunuz və yeganə rəbbinizdir. Ondan sonra itaət olunmalı kəs onun elçisi Məhəmməddir (s). Məndən sonra itaət olunmalı şəxs isə Əlidir. O sizin vəliniz, rəhbəriniz və imamınızdır. İmamət nəsli Qiyamətə qədər mənim nəslimdən və onun övladlarındandır. Allahın halal etdiklərindən başqa halal və Onun haram etdiklərindən başqa haram yoxdur.

◘Ey camaat! Allah bütün elmləri mənə öyrətmiş, mən də Allahın mənə öyrətdiyi bütün elmləri Əliyə öyrətmişəm.

◘Ey camaat! Əli (ə) barədə yolunuzu azmayın, ondan uzaq düşməyin və dediklərindən üz döndərib ona qarşı itaətsizlik göstərməyin.

◘Ey camaat! Allahın onu üstün tutduğu kimi siz də üstün tutun və onu tanıyıb qəbul edin. Çünki onu Allah seçib təyin edib.

◘Ey camaat! Bilin ki, o, Allah tərəfindən təyin olunmuş bir imamdır. Buna görə də Allah onun vilayətini inkar edənləri bağışlamaz və heç vaxt onların bu günahlarından keçməz!

◘Ey camaat! Allah bu fəzilət və üstünlüyü mənə əta edib və bunun vasitəsi ilə mənə minnət qoyub və mənə ehsan edib.

◘Ey camaat! Əlini yüksək tutun və ona ikram edin. O məndən sonra bütün insanlardan – istər kişi olsun, istərsə də qadın - üstündür. Allah bizim vücudumuzun bərəkətinə görə məxluqatına ruzi verir və onları saxlayıb yaşadır.

◘Ey camaat! Bilin ki, o, "Cənbillah"dır. (yəni, onun vilayətini qəbul etmək, Allaha itaət və bəndəlikdir). Allah-təala Öz nazil etdiyi kitabda buyurur:

["Cənbillah" barəsində etdiyim səhlənkarlıqlara görə vay halıma!]

◘Ey camaat! Quran üzərində dərindən düşünün, onun ayələrini dərk edin, onda olan möhkəm ayələrə nəzər salın və mütəşabih ayələrin ardınca getməyin. And olsun Allaha! Mənim əlindən tutduğum kəsdən başqa (yəni, Əlidən (ə) başqa) kimsə sizə Allahın nəhy etdiklərini bəyan etməz və həmin ayələrin düzgün izahını verə bilməz.

◘Ey camaat! Əli (ə) və nəslimdən olan pak imamlar "siqli-əsğər" (yəni, çox böyük dəyərə malik olan kiçik əmanət) və Quran isə "siqli-əkbər"dir (yəni, çox böyük dəyərə malik olan böyük əmanət). Bunların hər biri digərindən xəbər verir. Bunların heç biri Behiştdəki Kövsər Hovuzunun yanında mənə qovuşanadək digərindən ayrılmaz.

◘Ey camaat! Əli (ə) mənim qardaşım, vəsim, elmimin varisi, məndən sonra ümmətim arasında və Allahın kitabının təfsirində mənim canişinimdir. Allahın fərmanına əsasən deyirəm: "İlahi, onunla dost olanla dost, düşmən olanla da düşmən ol!"

◘Ey camaat! Bilin ki, Allah sizin dininizi Əlinin (ə) imaməti ilə kamil etdi. Kim ona və onun mənim nəslimdən olan övladlarına iqtida etməsə və onları öz imamı kimi qəbul etməsə, o həmin kəslərdən olacaq ki, onların əməlləri batil və özləri də etibardan düşmüş kəslərdir.

◘Ey camaat! Əli (ə) mənə sizin hamınızdan artıq kömək edib və mənim üçün sizin hamınızdan daha yaxın və daha layiqlidir. Mütəal Allah da, mən də ondan çox razıyıq.

◘Ey camaat! O, Allah dininin yavəri, Allah rəsulunun müdafiəsindən ötrü döyüşçüdür. O, pak təqvalı və hidayət olmuş hidayətçidir. Sizin peyğəmbəriniz (s) peyğəmbərlərin ən üstünü, Əli (ə) vəsilərin ən üstünü, onun mənim nəslimdən olan övladları da canişinlərim və imamların ən üstünüdür.

◘Hər bir peyğəmbərin canişinləri onun öz sülbündəndir. Mənim canişinlərim isə Əlinin sülbündəndir.

◘Ey camaat! Bilin ki, İblis Adəmi həsəd üzündən Behiştdən çıxardı. Elə isə Əliyə (ə) həsəd aparmayın. Əgər belə etsəniz, əməlləriniz batil olar və hədərə gedər, qədəmləriniz titrəyər.

◘Ey camaat! Allaha, Onun peyğəmbərinə və nazil etdiyi Nura iman gətirin!

◘Ey camaat! Mən sizi qorxudub çəkindirirəm. Mən Allahın sizin üçün göndərdiyi elçisiyəm. Məndən öncə də peyğəmbərlər gəlib getmişdir. Məgər ölsəm yaxud öldürülsəm keçmiş cahiliyyətinizə gerimi dönəcəksiniz?

◘Ey camaat! Müsəlman olduğunuza görə Allaha minnət qoymayın, yoxsa Onun sizə qəzəbi tutar və sizə əzab göndərər. Həqiqətən, Allahın əzabı günahkarların püsqusundadır.

◘Ey camaat! Məndən sonra sizə elə kəslər rəhbərlik edəcək ki, sizi ona tərəf dəvət edib, Qiyamət günü də sizə heç bir kömək etməyəcəklər.

◘Ey camaat! Allah da, mən də həmin rəhbərlərə nifrət edirik.

◘Ey camaat! Onlar, onların tərəfdarları, ardıcılları və dostları Cəhənnəmin ən dərin qatlarına yuvarlanacaqlar.

◘Ey camaat! Mən imamət və xilafəti özümdən sonra sizin aranızda Qiyamət gününə qədər irs və əmanət olaraq qoyub gedirəm. Mən sizə çatdırmaqdan ötrü məmur olunduğum vəzifəmi yerinə yetirdim. Burada olanlar bunu qaib olanlara çatdırsınlar.

◘Ey camaat! Allah, Onu, ayələrini, hökmlərini inkar etmələri üzündən hər bir abadı bərbad edər. Allah sizin vəlinizdir. Bunlar onun vədələridir. Allah vəd etdiyi hər bir sözdə haqlıdır və vəd etdiyi hər bir sözünə də vəfa edər.

◘Ey camaat! Sizdən öncə bir çox ümmətlər yollarını azdılar. Allah da onları məhv etdi. Allah keçmişdəkiləri də, gələcəkdəkiləri də məhv etməyə qadirdir.

◘Ey camaat! Cənnətlə cəhənnəm arasında təfavüt çoxdur. Bizim düşmənlərimiz Allahın lənət etdiyi kəslərdir. Dostlarımız da Onun sevdiyi kəslərdir.

◘Ey camaat! Bilin ki, mən peyğəmbərəm, Əli isə mənim vəsim, canişinimdir. Agah olun ki, axırıncı imam olan Həzrət Məhdiyyi-Qaim də (ə) bizdəndir.

◘Ey camaat! "Həcc", "Səfa", "Mərva" və "Ümrə" ilahi mərasimlərdəndir. Hər kəs Həcc, yaxud Ümrə ziyarətini yerinə yetirsə, iki dəfə təvaf etməyinin heç bir eybi yoxdur.

◘Ey camaat! Allah evinin həcc ziyarətini yerinə yetirin. Bu ziyarəti yerinə yetirən elə bir yoxsul yoxdur ki, sonradan dövlətli olsun və bu ziyarətdən üz döndərən elə bir imkanlı şəxs yoxdur ki, sonradan fəqir və yoxsul olsun.

◘Ey camaat! Həcc mərasimi zamanı Ərəfatda dayanan elə bir mömin yoxdur ki, Allah onun bütün keçmiş günahlarını əfv edər və həcc mərasimi bitdikdən sonra onun əməlləri yenidən yazılmağa başlayar.

◘Ey camaat! Hacılara kömək olunar, onların çəkdikləri xərclərin hamısı ödənilər. Allah yaxşı əməl sahiblərinin səylərini zay etməz.

◘Ey camaat! Həcc ziyarətini düzgün din, fəhm və biliklə yerinə yetirin və bu ziyarəti yerinə yetirərkən müqəddəs məkanlardan tövbə və günahlardan qayıtmaqla geri dönün.

◘Ey camaat! Allahın sizə buyurduğu kimi namaz qılın və zəkat verin. Əgər, müddət sizin üçün uzun olsa, ya səhlənkarlıq etsəniz, yaxud da unutsanız, Əli sizin rəhbəriniz və (dini məsələləri) açıqlayanınızdır.

◘Ey camaat! Sizi hidayət etdiyim hər bir halal və çəkindirdiyim hər bir haram olduğu kimi qalır. Mən onların heç birini əvəz etməmişəm. Agah olun ki, əmr be mərufun başı budur ki, mənim nə dediyimi biləsiniz, onu eşidib-bilməyənə çatdırasınız, ona həmin sözü qəbul etməsini göstəriş verəsiniz və onu bu sözlə müxalifət etməkdən çəkindirəsiniz.

◘Ey camaat! Quran sizə imamətin Əlidən sonra onun övladlarına çatacağını bildirir. Mən sizi agah etdim ki, onlar mənim və Əlinin nəslindəndir. Allah-təala buyurur:

[Onu nəslində həmişəlik bir söz qərar verdi.]

Mən də sizə deyirəm həmin bu iki şeydən (Quran və itrətdən) yapışsanız, heç vaxt yolunuzu azmazsınız.

◘Ey camaat! Təqva! Təqva! Qiyamətdən qorxun. Allah buyurur:

[Həqiqətən, Qiyamətin zəlzələsi çox böyük və dəhşətli bir şeydir.]

◘Ey camaat! Sizin sayınız çoxdur və hamınız bir-bir gəlib beyət edə bilməzsiniz. Allah-təala mənə göstəriş verib ki, sizdən Əlinin və ondan sonra onun mənim nəslimdən olan övladlarının möminlərin rəhbəri və xilafətin canişinləri olmağını dildə iqrar etməyinizlə söz alım. Elə isə, siz də hamılıqla deyin: "Biz eşitdik və itaət edirik."

◘Ey camaat! Nə deyirsiniz? Bəs, elə isə, Allah hər bir gizli səsdən və nəfəsdən də agahdır. Hər kəs hidayəti seçsə, onun öz xeyrinədir və hər kəs də zəlaləti seçsə, öz zərərinədir. Hər kəs beyət etsə, Allaha beyət edib:

[Allahın (qüdrət) əli onların əllərinin üzərindədir.]

◘Ey camaat! Allahdan qorxun, Əli, Həsən, Hüseyn və digər imamlarla beyət edin.

◘Ey camaat! Sizə dediklərimi deyin, Əliyə "əmirəlmöminin" kimi salam verin və deyin: "Eşitdik və itaət etdik. Pərvərdigara, bizi bağışla, axır dönüş Sənədir. Həmd olsun Allaha ki, bizi hadayət etdi. Əgər Allah bizi hidayət etməsəydi, yolu tapmaz və hidayət olmazdıq."

◘Ey camaat! Həqiqətən, Əliyyibni-Əbutalibin (ə) fəzilətləri Allahın sizə nazil etdiyi Quranda kifayət qədər bəyan olunub.

◘Ey camaat! Hər kəs Allaha, Onun rəsuluna, Əliyə və sair imamlara itaət etsə, həqiqətən də böyük bir hidayətə, böyük bir nicata nail olmuşdur.

◘Ey camaat! Ona ilk öncə beyət edənlər, onu sevənlər, ona "Əmirəl-möminin" kimi salam verənlər nicat tapacaq və nemətlərlə dolu olan behiştlərdə olacaqlar.

◘Ey camaat! Allahın sizdən razı olmasına səbəb olacaq sözü deyin. Əgər yer üzərində olan insanların hamısı kafir olsalar, Allaha heç bir ziyan verə bilməzlər. İlahi, mömin və möminələri bağışla və kafirlərə qəzəb et! Həmd olsun aləmlərin rəbbinə!"

Bu zaman hamı Peyğəmbərin (s) çağırışına cavab olaraq bir ağızdan uca səslə dedi: "Bəli, eşitdik və Allahın, Onun Rəsulunun (s) göstərişinə qəlbimiz, dilimiz və əllərimizlə itaət edirik."

## ƏLLİ TƏRKİBDƏN ARTIQ OLAN NƏSİHƏTLƏR BÖLMƏSİ

### *İmam Səccadın (ə) hüquq risaləsi*

◘Əbu Həmzə Somali deyir: “Bu risaləni həzrət Səccad (ə) öz səhabələrindən biri üçün yazmışdır.”

“Sənin üzərində olan haqların ən böyüyü Allahın haqqıdır. Onun sənin üzərində haqqı budur ki,  Ona ibadət edəsən, Ona heç bir şərik qoşmayasan. Əgər ixlas üzündən belə etsən, Allah həm dünya, həm də axirət işlərində sənə kifayət edər.

Nəfsinin (yəni, sənin özünün) sənin üzərində haqqı budur ki, ondan yalnız Allaha itaət yolunda istifadə edəsən.

Dilin haqqı budur ki, onu söyüş söyməkdən qoruyasan, gözəl danışığa adət etdirəsən, faydasız sözlər danışmayasan, onun vasitəsilə camaata ehsan edəsən və onlara qarşı şirindil olasan.

Qulağın haqqı budur ki, onu qeybət və sair mühərrəmat eşitməkdən qoruyasan.

Gözün haqqı budur ki, onu haramdan yumasan və onun vasitəsi ilə ibrətlər alasan.

Əlin haqqı budur ki, onu harama uzatmayasan.

Ayağın haqqı budur ki, onunla harama getməyəsən, çünki, həmin ayaqla Sirat körpüsündə duracaqsan. Muğayat ol ki, səni titrədib, atəşə atmasın.

Qarının haqqı budur ki, onu haram malın qabı etməyəsən və onu tutumundan artıq doldurmayasan.

Cinsiyyət üzvünün haqqı budur ki, onu zinadan qoruyasan və gözlərdən gizli saxlayasan.

Namazın haqqı budur biləsən ki, O, Allah dərgahına varid olmaq deməkdir və namaz halında haqq qarşısında dayanmısan. Bunu dərk edən kimi yaxşı olar ki, namaz halında zəlil, dəyərsiz, rəğbətli və ümidlə qorxu arasında olan, biçarə bir bəndənin əzəmətli sahibi qarşısında dayandığı kimi durasan. Eləcə də layiqdir ki, namazda tamam-kamal vüqar və aramlıqla dayanasan, hüzuri-qəlbə riayət edəsən və namazı bütün həddi-hüdudlarını və şərtlərini layiqincə yerinə yetirəsən.

Həccin haqqı budur biləsən ki, bu, Pərvərdigarın şah sarayıdır. Həcc günahdan qaçmaq və Allaha pənah aparmaq deməkdir. Həcc tövbənin qəbul olunması və vacib vəzifənin yerinə yetirilməsi deməkdir.

Oruc budur biləsən ki, Allahın səni atəşdən qorumaq üçün dilinə, qulağına, göz, qarın və fərcinə atdığı bir pərdədir. Əgər orucu tərk etsən, pərdəni yırtmış hesab edilirsən.

Sədəqənin haqqı budur biləsən ki, o sənin Allaha tapşırdığın və heç bir şahidə ehtiyacı olmayan əmanət və ehtiyatdır. Əgər bunu dərk etsən, gizli sədəqəyə, aşkar sədəqədən daha artıq etibar edəcəksən və eləcə də dərk edəcəksən ki, o, dünyada bəla və xəstəliklərdən, axirətdə isə atəşin qarşısını alır.

Qurbanlığın haqqı budur ki, onu yalnız Allahdan ötrü yerinə yetirəsən. Heç bir məxluqu nəzərdə tutmayasan və Allahın rəhmətindən və Qiyamət günündə nicat tapmaqdan başqa bir hədəfin olmasın.

Sultanın haqqı budur ki, biləsən ki, Allah səni onu yoxlamaq vasitəsi qərar verib. Allahın ona verdiyi qüdrət də onu imtahan etməkdən ötrüdür. Özünü onun qəzəbinə tuş etməyəsən. Əgər belə etsən, özünü həlakətə atmış olarsan və bu halda da onun sənə etdiyi zülmə şərik olmuş olacaqsan.

Müəllimin haqqı odur ki, ona təzim və ehtiram göstərəsən, diqqətlə sözlərinə qulaq asasan, onunla uca səslə danışmayasan, ondan bir söz soruşsalar sən cavab verməyəsən, qarşısında başqası ilə söhbət etməyəsən, bir kəs onu məzəmmət etsə sən onu müdafiə edəsən, eyiblərini örtəsən, gözəl xüsusiyyətlərini izhar edəsən, düşmənləri ilə oturmayasan, dostları ilə düşmənçilik etməyəsən. Əgər belə etsən, Allahın mələkləri şəhadət verərlər ki, həqiqətən sənin elm öyrənməkdə məqsədin Allah razılığını qazanmaqdır.

Tabeçiliyində olduğun şəxsin haqqı budur ki, onun qarşısında müti olasan, sözündən çıxmayasan. Yalnız Allahın qəzəbinə səbəb olacaq işlərdə ona tabe olma. Allaha qarşı günaha səbəb olacaq işlərdə, ümumiyyətlə, heç kəsə tabe olmaq olmaz.

Sənin tabeçiliyində olan kəslərin haqqı budur biləsən ki, onların sənin tabeçiliyin altına düşməsinə səbəb sənin qüdrətin və onların zəifliyidir. Elə isə gərək onlarla ədalətlə rəftar edəsən, onlardan ötrü mehriban ata olasan, onların nadanlığına göz yumasan, onları cəzalandırmaqda tələsməyəsən və Allahın sənə verdiyi bu qüdrətə görə Ona təşəkkür edəsən.

Sənin elm öyrətdiyin kəsin, tələbənin haqqı budur biləsən ki, elmi sənə Allah verib, elmin xəzinələrini üzünə O açıb və elm öyrətməyi O sənə qismət edib. Əgər onlarla mülayim və xoş rəftar edib üz-gözünü turşutmasan, Allah da sənə olan nemətlərini artırar. Əgər, elmini yaymaqda simiclik etsən və elm öyrənmək istəyənlərlə kobud davransan, Allah sənin elmində olan rövnəq və səfanı alar, qəlblərdə olan ehtiram və mövqiyyətini də aradan aparar.

Qadının sənin boynunda olan haqqı budur biləsən ki, Allah onu sənin ülfət tapmağın, aramlıq və rahatlığın vasitəsi qərar verib. Gərək sən bunu Allahın nemətlərindən hesab edəsən və buna görə də onunla xoş keçinib ehtiramını saxlayasan. Hərçənd ki, sənin onun boynunda daha çox haqqın var, lakin sən də gərək, ona qarşı mərhəmətli olasan, onun yeməyini və geyimini verəsən, nadanlıq etsə, buna göz yumasan.

Qulun haqqı budur biləsən ki, o da Allahın məxluqudur. Ata-anası, əti, qanı səndə olduğu kimidir. Sənin ona sahib olmağın bu demək deyil ki, onu yaratmısan. Sən onun bədəninin heç bir üzvünü də xəlq edə bilməzsən. Elə bir gün də gələcək ki, o sənin əlində olmayacaq. Onun ruzisini Allah verir. Səni də məhz Allah onun sahibi edib. O, Allahın sənin əlində olan bir əmanətidir. Allah bu əmanəti tapşırıb ki, ona yaxşılıq etməklə savab qazanasan. Necə ki Allah sənə ehsan edir, sən də onunla xoş rəftar et. Əgər onu bəyənməsən, azad et, Allahın yaratdığına işkəncə verməkdən çəkin. Və la həvlə vəla quvvətə illa billahil əliyyil-əzim.

Ananın sənin boynunda olan haqqı budur bilməlisən ki, ondan başqa heç kəs səni özündə saxlayıb-daşımayıb. O sənə qəlbindən meyvə verib ki, heç kəs bunu etməz. Bütün üzvləri ilə sənin qoruyub saxlamaqdan ötrü çalışıb. Sənə yemək verib, özü ac qalmaqdan, səni geyindirib, özü paltarsız qalmaqdan, sənə su verib, özü susuz qalmaqdan, sənin üzərinə kölgə salıb, özü günəşin hərarəti altında qalmaqdan, yuxusuz qalmaqdan, səni soyuqdan və istidən qorumaqdan əsla qorxmayıb. O bütün bunlara ona görə dözüb ki, təki bir övladı olsun! Əgər Allah sənə kömək edib tövfiq verməsə, ona təşəkkür edib borcundan qurtarmağa qüdrətin çatmaz.

Atanın sənin boynunda olan haqqı budur biləsən ki, o sənin varlığının, mövcud olmağının mənşəyidir. Əgər o olmasaydı, sən də olmazdın. Sənin vücudunda olan xoşagələn hər şeyin kökü atandır. Elə isə Allaha şükr et və bu nemətə görə ona minnətdar ol.

Övladın haqqı budur biləsən ki, o sənin bir hissəndir. Dünyadakı xeyir və şəri sənə mənsubdur. Onun Allahı tanımağı, ədəbli olmağı və tərbiyələnməyindən ötrü məsuliyyət daşıyırsan. Gərək Allaha itaət etməkdə ona kömək edəsən. Onun barəndə əməlin elə bir şəxsə oxşayır ki, o yaxşı iş görsə savabı var və pis iş görsə cəzası var.

Qardaşın haqqı budur bilməlisən ki, o sənin əlin, izzətin və qüvvətindir. Onu günah və zülm vasitəsi etməyəsən. Düşmənə qalib gəlməkdə ona kömək etməlisən. Onunla xeyirxahcasına davran. Əgər Allaha müti olsa, ona arxa-dayaq ol. Əks təqdirdə, Allahı ondan üstün tutmalısan.

Səni Allah yolunda azad edən sahibin haqqı budur bilməlisən ki, o öz malını səndən ötrü sərf edib səni zillətdən, qul olmaq dəhşətindən xilas edib, səni əsirlikdən qurtarıb, qul zəncirlərini ayağından açıb, səni zindandan azad edib, səni öz şəxsi mülkiyyətinə çevirib. Sənə ibadət etmək imkanı verib. Sən də gərək bacardığın və əlində olan hər bir imkanla, hətta canınla da olsa, ona kömək edəsən.

Azad etdiyin qulun haqqı budur bilməlisən ki, Allah-təala onun azad olunmağını Özünə yaxınlıq və atəşdən xilasolma vasitəsi qərar vermişdir. Sən ondan nəğd bəhrə aparırsan: əgər ölsə, qohumu olmadığı halda ondan qalan miras sənə çatır, ikincisi də onu azad etməklə axirətdən bəhrələnirsən ki, bu bəhrə də behiştdən ibarətdir.

Sənə ehsan edən kəsin haqqı budur ki, gərək ona təşəkkür edəsən. Onun sənə etdiyi ehsanı (yaxşılığı) unutmayasan, adını yaxşı tanıtdırasan, ondan ötrü Allaha ürəkdən dua edəsən. Belə etsən, gizlində də, aşkarda da ona minnətdar olmuş olarsan. Eyni zamanda onun sənə etmiş olduğu yaxşılığı zay etməyəsən.

Müəzzinin haqqı budur bilməlisən ki, o, Allahı sənin yadına salır, səni ibadətdən bəhrələnməyə çağırır, sənə ilahi vacibatı yerinə yetirməkdə kömək edir. Elə isə, sən də gərək ona minnətdar olasan.

İmam-caamatın haqqı budur ki, bilməlisən ki, o, Allahla sənin aranda səfir vəzifəsini icra edir. O sənin tərəfindən söz deyir, lakin sən onun tərəfindən söz demirsən. Sən onun üçün dua etmirsən, lakin o səndən ötrü dua edir. Pərvərdigarın qarşısında dayanmaq hövl və vahiməsini o öz öhdəsinə alıb. O özünü sənin, namazını isə sənin namazın qarşısında sipər edib. Buna görə də ona minnətdar olmalısan.

Səninlə oturub-duran, yoldaşlıq edən kəsin haqqı budur ki, gərək onunla yumşaq davranmalısan, onunla adilanə söhbət edəsən. O, razı olmasa, yanından qalxmayasan. Əgər sənin yanında başqa birisi oturmuş olsa, o səndən icazə almadan yanından dura bilər. Sən gərək onun səhv və xətalarına göz yumasan, yaxşılıqlarını unutmayasan və o gərək səndən yaxşı və xoş sözdən başqa bir şey eşitməsin.

Qonşunun haqqı budur ki, o olmayanda onun heysiyyətini qoruyasan, yanında ona ehtiram göstərəsən, əgər, ona zülm olunsa, onun tərəfini tutasan, eyiblərinin axtarışında olmayasan, eyiblərini örtəsən, əgər, nəsihətə qulaq asandırsa, ona nəsihət edəsən, çətin anlarında onu tək buraxmayasan, səhvlərinə göz yumasan, xətalarını bağışlayasan, onunla ünsiyyəti kəsməyəsən.

Dostun haqqı budur ki, onunla kərəm və insafla rəftar edəsən, necə ki o sənə ehtiram edir, sən də ona ehtiram edəsən. O səninlə necə dostluq edirsə, sən də onunla eləcə dostluq et. Əgər günah etmək fikrinə düşsə, onu gərək bundan daşındırasan, sən ondan ötrü qəzəb yox, rəhmət ol.

Şərikin haqqı budur ki, o olmadığı vaxtlarda onun işlərini öz öhdənə alasan, onun haqlarına riayət edəsən, onun razılığı olmadan bir işə qərar verməyəsən, onunla məşvərət etməmiş bir iş görməyəsən, onun malını hifz edəsən, nə kiçik, nə də böyük işlərdə ona xəyanət etməyəsən, çünki iki şərik nə qədər bir-birinə xəyanət etməyib, Allahın əli onların başları üzərindədir.

Sənin malının haqqı budur ki, onu halal yoldan başqa bir vasitə ilə gətirməyəsən, onu Allaha itaət yolunda sərf edəsən, simiclik etməyəsən. Çünki simiclik özü ilə həsrət, peşmançılıq və ilahi əzab gətirir.

Səndən borcunu istəyən şəxsin haqqı budur ki, əgər imkanın varsa onun borcunu ödəməlisən, verə bilmirsənsə, şirin dillə onun razılığını əldə etməlisən, onun borcunu hələlik qaytara bilməyəcəyini lütf və nəzakətlə bildirməlisən.

Səninlə xoş münasibət yaratmaq istəyənin haqqı budur ki, onu aldatmayasan və ona hiylə və fırıldaq gəlməyəsən, onunla bağlı Allah-təaladan qorxasan.

Səni ittiham edən şəxsin haqqı budur ki, əgər iddiasında haqlıdırsa, sən özün şahid olub iddiasını təsdiqləyəsən, yox, əgər yanlış iddiadadırsa, onunla xoş rəftar edəsən. Onunla yalnız xoşluqla davran və bu məsələdə Allahı qəzəbləndirmə.

Sənin ittiham etdiyin şəxsin haqqı budur ki, əgər iddianda haqlısansa, onunla xoş dillə danışasan, onun haqqını inkar etməyəsən, əgər nahaq iddiadasansa, Allahdan qorx, tövbə et və iddianı geri götür.

Səninlə məşvərət etmək istəyənin haqqı budur ki, əgər münasib rəyin varsa, onu bildirəsən, əgər münasib rəyin yoxdursa, onu məsləhət ala biləcəyi bir adamın yanına göndər.

Sənin məşvərət etmək istədiyin kəsin haqqı budur ki, əgər sənə istədiyinin əksinə rəy versə, onu günahlandırmayasan, əgər sənə münasib bir nəzər bildirsə də Allaha şükür et.

Səndən nəsihət istəyənin haqqı budur ki, ona mehr və məhəbbətlə nəsihət verəsən.

Sənə nəsihət edənin haqqı budur ki, onun qarşısında mülayim olasan, sözlərinə qulaq asasan, əgər sənə dəyərli sözlər desə, Allaha şükür edəsən, əks təqdirdə onunla mərhəmətlə rəftar edəsən, onu günahlandırmayasan, əgər, səhv etdiyini anlasan, onu danlamayasan, əgər, danlağa layiq olacaq sözlər danışsa, bu halda ona güzəştə getmək olmaz, çünki onun artıq heç bir etibarı qalmır.

Səndən böyüyün haqqı budur ki, yaşına görə ona hörmət edəsən, İslamda səndən çox ömür sürdüyünə görə ona ehtiram göstərəsən, onunla söz güləşdirməyəsən, yol gedərkən ondan qabağa düşməyəsən,

onu nadan bilməyəsən. Əgər bir dəfə nadanlıq etsə, İslama görə hörmətini saxlayasan.

Səndən kiçiyin haqqı budur ki, ona lütf və məhəbbətlə təlim verəsən, xətalarından keçəsən, pərdəni aradan götürməyəsən, onunla nəzakətlə rəftar edəsən, işlərində ona kömək edəsən.

Səndən borc istəyənin haqqı budur ki, imkan dairəsində ona köməklik göstərəsən.

Borc istədiyin kəsin haqqı budur ki, sənə borc versə qəbul edəsən, ona təşəkkür edib minnətdar olasan. Əgər, verə bilməsə, üzrünü qəbul edəsən.

Səni Allaha xatir sevindirən kəsin haqqı budur ki, əvvəl Allaha təşəkkür edəsən, sonra ona.

Sənə pislik edənin haqqı budur ki, onu əfv edəsən, amma bilsən ki, bağışlamaq onun zərərinədir, ondan intiqam al (ki, bunun vasitəsi ilə ağlı başına gəlsin.) Allah-təala buyurub: ”Zülm görərkən intiqam alan şəxs hücuma məruz qalmaz.”

Dindaşlarının haqqı budur ki, onların asayişi məqsədini güdəsən, günahkarları ilə mehriban rəftar edəsən, onlara lütf göstərəsən, islaha ehtiyacı olanları islah edəsən, yaxşı əməl sahiblərinə “çox sağ ol” deyəsən, onlara azar-əziyyət yetirməyəsən, özün üçün istədiyin şeyləri onlar üçün də istəyəsən, özün üçün istəmədiyini onlar üçün də istəməyəsən, onların yaşlılarını özünə ata əvəzi, cavanlarını qardaş, qoca qadınlarını anan yerində, uşaqlarını, azyaşlılarını övladların yerində biləsən.

(Xüsusi şərtlərlə İslamın himayəsində olan) zimmi kafirin haqqı budur ki, Allahın onlardan qəbul etdiyini sən də qəbul edəsən və nə qədər ki, Allahla bağladıqları əhd-peymana sadiqdirlər, onlara zülm etməyəsən.

## YETMİŞDƏN YUXARI TƏRKİBLİ NƏSİHƏTLƏRDƏN İBARƏT BÖLMƏ

### *Əmirəl-mömininin yetmiş fəziləti var ki, səhabələrdən heç biri bu məsələdə ona şərik deyil*

◘"Məkhul" rəvayət edir ki, bir gün həzrət Əmirəlmöminin Əli (ə) belə buyurdu: "Peyğəmbərin (s) ən yaxın dostları bilirlər ki, öz aralarında mənim fəzilətlərimə çata biləcək bir kəs yoxdur və mənə yetmiş fəzilət məxsusdur ki, bu məsələdə heç kəs mənə şərik deyil." Ərz etdim: "Ey Əmirəlmöminin (ə), məni onlardan agah edin." Buyurdu: "Həmin fəzilətlər bunlardır:

1. Bir göz qırpımı miqdarında da olsa heç vaxt Allaha şərik qoşmamış, Lat və Üzzaya (Büt adları - red.) sitayiş etməmişəm.

2. Heç vaxt şərab içməmişəm.

3. Allahın Rəsulu (s) körpə ikən məni atamdan alıb özünün həmsüfrəsi, həmdəmi, həmsöhbəti edib.

4. Mən bütün kişilərdən qabaq İslamı qəbul etdim.

5. Həzrət Peyğəmbər (s) mənə buyurub: "Ey Əli! Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Fərq yalnız bundan ibarətdir ki, məndən sonra peyğəmbər gəlməyəcək.

6. Mən Peyğəmbərdən (s) ayrılan axırıncı kəsəm və onun mübarək bədənini də aramgahına (məzar – red.) mən qoydum.

7. Həzrət Rəsul (s) hicrət etdiyi gecə öz yatağında məni yatırtdı və əbasını mənim üzərimə atdı. Müşriklər evə hücum edən zaman məni Məhəmməd (s) zənn edib oyatdılar. Mənə dedilər: "Dostun hara gedib? Dedim: "İş dalınca gedib." Dedilər: "Əgər o qaçsaydı, bu da onunla qaçardı."

8. Həzrət Rəsul (s) mənə min bab elm öyrətdi ki, hər bir babdan da min bab açılır. Bunu məndən başqa heç kəsə öyrətməyib.

9. Həzrət Rəsul (s) mənə deyib : "Ey Əli! Qiyamət günü mənim minbərim bütün peyğəmbərlərin minbərindən yuxarı, sənin minbərinsə bütün vəsilərin minbərindən üstün olacaq."

10. Həzrət Rəsuldan (s) eşitdim ki, belə buyurdu: "Ey Əli! Qiyamət günü mənə əta olunacaq hər bir şeydən sənə də əta edəcəklər."

11. Həzrət Rəsuldan (s) eşitdim ki, belə buyurdu: "Ey Əli! Sən mənim qardaşımsan, mən də sənin. Behiştə daxil olana qədər sənin əlin mənim əlimdə olacaq."

12. Allahın Peyğəmbərindən (s) eşitdim ki, belə buyurdu: "Ey Əli! Sənin ümmətimdən ötrü məsəlin Nuhun gəmisi kimidir. Ona minən hər kəs nicat tapar və ondan uzaqlaşan da qərq olar."

13. Peyğəmbər (s) əmmaməsini başıma bağladı, düşmənə qalib gəlməyimdən ötrü dua etdi, mən də Allahın izni ilə düşmənə qalib gəldim.

14. Bir dəfə Həzrət Rəsul (s) mənə buyurdu ki, südü qurumuş qoyunun döşünə əl çəkim. Mən ərz etdim: "Ya Rəsuləllah, siz əl çəkiniz." Buyurdu: "Ey Əli, sənin işin, mənim işimdir." Mən də əlimi qoyunun döşünə çəkdim. Ondan süd gəlməyə başladı. Ondan həzrət Rəsula (s) içirtdim. Sonra qoca bir arvad gəlib susuzluqdan şikayət etdi. Süddən ona da verdim. Peyğəmbər (s) buyurdu: "Mən Allah-təaladan istədim ki, sənin əlinə bərəkət versin, O da qəbul etdi."

15. Peyğəmbər (s) mənə vəsiyyət edib buyurdu: "Ey Əli! Səndən başqa mənə heç kəs qüsul verməsin və övrətimi səndən başqa heç kəs örtməsin. Əgər səndən başqa bir kəs mənim övrətimi görsə, hər iki gözü kor olar." Mən dedim: "Ya Rəsuləllah, bəs sizi necə çevirim?" Buyurdu: "Sənə kömək göstəriləcək." And olsun Allaha, o Həzrətə (s) qüsul verərkən hansı üzvünü çevirmək istəyirdimsə mənim üçün çevrilirdi.

16. Mən ona qüsul vermək istəyərkən əynində olan paltarını çıxartmaq istədim. Mənə belə dedilər: "Ey Məhəmmədin vəsisi! Onu çılpaq etmə elə əynindəki köynək qala-qala ona qüsul ver." And olsun onu (s) peyğəmbərliyə təyin edən Allaha, mən onun heç bir övrətinin üzərini açmadan ona qüsul verdim. Allah, bu şərəfi o Həzrətin (s) səhabələri arasında yalnız mənə bəxş etdi.

17. Allah-təala Fatimənin yalnız mənimlə evlənməsinə razı oldu. Məndən qabaq Əbu-Bəkr və Ömər bu barədə Peyğəmbərə (s) müraciət etmiş, lakin rədd cavabı almışdılar. Amma Allah yeddi asimanın fövqündə onu mənə zövcə etdi. Peyğəmbər (s) buyurdu: "Xoş sənin halına, ey Əli! Allah cənnət qadınlarının sərvəri olan Fatiməni sənə zövcə etdi. Fatimə mənim bədənimin bir parçasıdır." Mən dedim: "Ey Allahın rəsulu! Məgər mən səndən deyiləmmi?" Buyurdu: "Bəli, ya Əli! Sən məndən, mən də səndənəm. Biz səninlə sağ əllə sol əl kimiyik. Mən dünya və axirətdə səninləyəm və sənə ehtiyacım var."

18. Peyğəmbər (s) mənə buyurdu: "Ey Əli, axirətdə "həmd bayrağı" sənin əlində olacaq və Qiyamət günündə də məxluqatın mənə ən yaxın olanısan. Mən peyğəmbərlərin arasında, sən isə övsiyaların və canişinlərin arasında olacaqsan. Sənin başına nurdan tac qoyulmuş olacaq. Allah məxluqatının əməllərini haqq-hesab edənə qədər yetmiş min mələk sənin yanında olacaq.

19. Peyğəmbər (s) mənə buyurub: "Tezliklə peyman sındıranlar (nakisin), zülmkarlar (qasitin) və dindən çıxanlarla (mariqin) müharibə edəcəksən. Onlardan səninlə döyüşən hər bir nəfərə görə şiələrindən

yüz min nəfərinə şəfaət edəcəksən.” Dedim: “Ey Rəsuləllah, peyman sındıranlar kimlərdir? “ Buyurdu: “Təlhə və Zübeyr. Tezliklə onlar sənə Hicazda beyət edib, İraqda isə həmin peymanı sındıracaqlar. Belə etdikləri zaman onlara qarşı vuruş. Çünki sənin onlarla döyüşün yer əhli üçün paklıq və təharətdir.” Dedim: “Zülmkarlar kimlərdir?” Buyurdu: “Müaviyə və yaxınları.” Dedim: “Bəs dindən çıxanlar kimlərdir? “ Buyurdu: “Zus-sədiyyə yoldaşları. Onlar dindən oxun yaydan çıxdığı kimi çıxacaqlar. Onları öldür. Çünki onların ölümündə yer əhlindən ötrü fərəc və açılış, dindən çıxmışlardan ötrü təcili əzab və sənin üçün isə Allah-təala yanında xüsusimükafat var.”

20. Peyğəmbər (s) mənə belə buyurdu: “Sənin ümmətimdən ötrü məsəlin Bəni-İsrailin “Hittə qapısı” kimidir. Sənin vilayətini qəbul edən şəxs Allah-təalanın ona buyurduğu kimi həmin qapıdan daxil olub.”

21. Peyğəmbər (s) belə buyurdu: “Mən elm şəhəri, Əli isə onun qapısıdır. Şəhərə onun qapısından başqa bir yerdən daxil olmaq olmaz.” Sonra buyurdu: “Ey Əli! Sən mənimlə bağladığın peymana sadiq qalacaqsan, mənim sünnəmə uyğun döyüşəcəksən, mənim ümmətimsə sənə qarşı çıxacaq.”

22. Həzrət Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: “Allah-təala Həsən və Hüseyni sənin və Fatimənin nurundan xəlq edib. Bu iki nəfər iki qulaqdan asılmış, hərəkət edən iki sırğaya bənzəyir. Bu iki nəfərin nuru şəhidlərin nurunun yetmiş min qatına bərabərdir. Ey Əli! Allah-təala mənə vəd verib, bu iki nəfərə elə bir kəramət əta edəcək ki, bu cür nuru heç bir peyğəmbərə və rəsuluna əta etməyib.”

23. Peyğəmbər (s) hələ sağlığında öz üzüyünü, zirehini, belbağısını mənə əta etdi. Bütün səhabələrinin yanında, hətta, əmim Abbasın hüzurunda öz qılıncını mənə bağışladı. Allah-təala bütün bunlar vasitəsi ilə məhz məni Peyğəmbər (s) yanında xüsusi imtiyaz sahibi etdi.

24. Allah-təala öz Peyğəmbərinə (s) belə vəhy etdi: [Ey möminlər! Elə ki, Allahın rəsulu ilə xüsusi söhbət etmək istədiniz, bu söhbətdən qabaq sədəqə verin.]

Bu zaman mənim bir dinarım var idi. Onu on dirhəmlə əvəz etdim. Hər dəfə Peyğəmbərlə (s) xüsusi söhbət etmək istəyərkən həmin dirhəmlərin birini sədəqə verirdim. And olsun Allaha, o Həzrətin (s) səhabələrindən heç biri nə məndən əvvəl, nə də məndən sonra bu əməli yerinə yetirdi. Bundan sonra Allah-təala belə vəhy etdi:

[Xüsusi söhbət etməzdən qabaq sədəqə verməkdən qorxdunuzmu?! Buna əməl etmədiniz, amma Allah sizi bağışladı.]

Məgər, günah etməyən bir kəsdən ötrü bağışlanma varmı?!

25. Allah Peyğəmbərinin (s) belə buyurduğunu eşitdim: “Nə qədər ki, mən daxil olmamışam, Behişt bütün peyğəmbərlərə haramdır və nə

qədər ki, sən daxil olmamısan bütün vəsi və canişinlərə behiştə getmək haramdır. Ey Əli! Allah mənə sənin barəndə bir bəşarət verib ki, onu məndən öncə heç bir peyğəmbərə verməyib. Həmin bəşarət budur ki, sən bütün övsiyə və canişinlərin sərvəri, Həsən və Hüseyn də bütün behişt cavanlarının sərvəridirlər."

26. Qardaşım Cəfər Behiştdə mələklərlə bir yerdə pərvaz edir və Allah onu dürr, yaqut və zəbərcəddən olan iki qanadla zinətləndirib.

27. Əmim Həmzə behişt şəhidlərinin sərvəridir.

28. Peyğəmbər (s) belə buyurdu: "Allah-təala sənin barəndə mənə vəd verib ki, məni peyğəmbər, səni isə mənim vəsim və canişinim etsin. Məndən sonra tezliklə sən mənim ümmətimdən Musanın Firondan gördüklərini görəcəksən. Sən mənimlə görüşənədək bütün bunlara döz və Allahın savabına ümidvar ol. Mən isə, səninlə dostluq edənlə dost, düşmənçilik edənlə düşmənəm.

29. Həzrət Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Ey Əli! Sən Kövsər hovuzunun sahibisən. Səndən başqa onun başqa sahibi yoxdur. Bəziləri yanına gəlib səndən su istəyəcək, sən isə onlara belə deyəcəksən: "Yox, heç zərrə qədər də olmaz!" Onlar da üzüqara geri qayıdarlar. Mənim və sənin şiələrin sənə yaxınlaşan zaman isə onlara belə deyəcəksən: "Ləzzətlə və doyunca için." Onlar içdikcə üzləri ağ və parlaq olar.

30. Həzrət Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Qiyamət günü mənim ümmətim beş dəstədən ibarət olmaqla beş bayraq altında birləşəcəklər. Birinci bayraq altında mənim hüzuruma gələn dəstənin bayraqdarı bu ümmətin fironu Müaviyədir. İkinci dəstənin bayraqdarı bu ümmətin "Samiri"si olan Ömər ibn Asdır. Üçüncü dəstənin bayraqdarı bu ümmətin "Casliq"i olan Əbu Musa Əşəridir. Dördüncü bayraqdar "Əbul-Əvər Silmi"dir. Beşinci bayraqdar isə sənsən, ya Əli! Sənin bayraqdar olduğun dəstədə olanların hamısı möminlərdir, sən də onların imamı. Həmin vaxt Mütəal-Allah ilk dörd dəstəyə belə buyurur:

**[Geri dönün və özünüzə nur axtarın. O zaman aralarına qapısının içəri tərəfində rəhmət, bayır tərəfində əzab olan bir sədd çəkilər.]**[1]**(1)**

Onlar (içəridə olanlar) mənim şiələrim, mənimlə dostluq edər, Siratdan və rəhmət qapısından qayıdan kəslərlə mənimlə birgə döyüşən kəslərdir. O zaman (səddin bayır tərəfində olanlar) onları çağırıb deyərlər:

**[Məgər biz sizinlə birlikdə deyildikmi?! Onlara belə cavab verərlər: "Bəli, lakin siz özünüzü fitnəyə saldınız, siz gözləyirdiniz**

---

[1] "Hədid", 13.

**və şəkk edirdiniz. Allahın əmri gəlib çatanadək sizi xam-xəyallar aldatdı.]**

**[Bu gün artıq nə sizdən, nə də kafirlərdən bir fidyə qəbul olunar. Məskəniniz Cəhənnəmdir. Sizə yaraşan odur. Ora necə də pis yerdir!" ]**

Sonra ümmətim və şiələrim daxil olar və su içərlər. Mənim əlimdə bir ağac olar ki, onunla düşmənlərimi yad dəvələri qovan kimi qovaram."

31. Həzrət Peyğəmbərin (s) belə dediyini eşitdim: "Məsihilərin İsa barədə hədlərini aşdıqları kimi ümmətimin də sənin barəndə ifrata vardıqlarından qorxmasaydım sənin barəndə elə sözlər deyərdim ki, qoy bütün cəmiyyətlər sən keçərkən ayağının altının torpağından şəfa məqsədilə istifadə etsinlər."

32. Peyğəmbər (s) belə buyurdu: "Mütəal Allah düşmənin qəlbinə qorxu və vahimə salmağa mənə kömək etdi. Onun dərgahından səni də bu cür etməsini və mənə əta buyurduğu hər şeydən sənə də əta etməsini istədim."

33. Peyğəmbər (s) mənə keçmişdə olanların və Qiyamətə qədər olacaqların hamısını öyrətdi.

34. Məsihilər Peyğəmbərlə (s) mübahisə edərkən Allah-təala bu ayəni nazil etdi:

**[Sənə göndərilən bilikdən sonra buna dair səninlə mübahisə edənlər olsa, onlara de "gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü çağırın, sonra dua edib yalançılara Allahın lənət etməsini diləyək!]**

Bu ayədəki "özümüz" mən və Rəsul idi, "qadınlarımız" Fatimə, "övladlarımız" isə Həsən və Hüseyn idi. Məsihilər bunu görüb mübahilə etməkdən imtina etdilər və Peyğəmbərdən (s) üzr istədilər. And olsun Musaya (ə) Tövratı və Məhəmmədə (s) Furqanı nazil edənə, əgər onlar bizimlə mübahilə etsəydilər, donuz və meymun şəklinə düşərdilər.

35. Həzrət Rəsul (s) belə buyurdu: "Vay olsun səni qətlə yetirənə, ya Əli! O, dünyanın ən bədbəxt adamıdır! O, bədbəxtlərin bədbəxtidir! Allahın ərşi sən qətlə yetirilərkən lərzəyə gələr, ya Əli! Xoş sənin halına ki, siddiqlər, şəhidlər və salehlər zümrəsindənsən."

36. "Bədr" döyüşü günündə Allahın Rəsulu (s) mənə belə buyurdu: "Ey Əli, get mənim üçün qalaqlanmış xırda daş parçalarından bir ovuc gətir." Mən gedib bir yerə yığılmış xırda daş parçalarından götürdüm. İyləyib gördüm ki, onlardan müşk iyi gəlir. Onları Həzrət Rəsula (s)

verdim. O (s) həmin daş qırıntılarını müşriklərə tərəf atdı. O daşların dördü “Firdovs” cənnətindən, biri şərqdən, biri qərbdən, biri də ərşin dibindən idi. Hər bir daş parçasına görə min mələk bizim köməyimizə gəldi. Mütəal Allah nə bundan öncə, nə də bundan sonra belə bir fəziləti heç kəsə ikram etməmişdir.”

37. Həzrət Rəsul (s) öz səhabələri arasında Quranda mövcud olan “Nasix və Mənsux”, “möhkəm və mütəşabih” və “xüsusi və ümumi” kimi ayələrin elmini yalnız mənə öyrətdi. O həzrət (s) mənə belə buyurdu: “Ey Əli! Allah-təala mənə tapşırıb ki, səni özümə yaxın edim, uzaqlaşdırmayım, sənə öyrədim və səndən əsirgəməyim. Layiqdir ki, mən öz Pərvərdigarımın əmrinə itaət edim və layiqdir ki, sən də eşidəsən və yadda saxlayasan.”

38. Həzrət Rəsul (s) məni iş dalınca göndərdi və məndən ötrü dua etdi. Daha sonra məni özündən sonra baş verəcək bütün hadisələrdən agah etdi. Həzrətin (s) səhabələrindən biri bunu görüb paxıllıq üzündən belə dedi: “Əgər Məhəmməd öz əmisi oğlunu peyğəmbər etmək qüdrətində olsaydı, mütləq bunu edərdi!” Allah-təala öz Peyğəmbərinin (s) dili ilə məni həmin səhabənin bu sözündən agah etməklə şərəfləndirdi.

39. Həzrət Rəsulun (s) belə buyurduğunu eşitdim: “Məni sevdiyini iddia edib Əliyə düşmən olan hər kəs yalançıdır. Mənə bəslənən məhəbbətlə yanaşı Əliyə də bəslənən məhəbbət yalnız möminlərin qəlbində yer tutar. Ey Əli, Mütəal Allah məni və səni sevənləri Behiştə daxil olacaq dəstələrin ən öndə gedəni qərar verib. Eyni zamanda mənə də, sənə də düşmən olanları bu ümmətdən Cəhənnəm atəşinə daxil olacaq dəstənin ən birincisi qərar verib.

40. Həzrət Peyğəmbər (s) döyüşlərin birində məni su gətirməkdən ötrü bir quyuya tərəf göndərdi. Lakin orada su olmadığından əliboş geri qayıdıb bu barədə Həzrətə (s) xəbər verdim. Həzrət (s) buyurdu: “Ey Əli, quyudan mənə bir az torpaq gətir.” Mən gedib oradan bir ovuc torpaq gətirdim. Həzrət (s) həmin torpağa nəsə dedi və məndən o torpağı aparıb yenidən quyuya tökməyimi istədi. Mən torpağı quyuya tökdüm. Birdən quyudan su qaynamağa başladı və quyu çox qısa bir müddətdə su ilə doldu. Qayıdıb məsələni Həzrətə (s) bildirdim. O buyurdu: “Müvəffəq oldun, ya Əli! Məhz sənin bərəkətinə quyudan su qaynadı.” Bu şərəf Peyğəmbərin (s) səhabələri arasında yalnız mənə aid idi.

41. Həzrət Rəsulun (s) belə buyurduğunu eşitdim: «Xoş sənin halına, ya Əli! Cəbrail mənim yanıma gəlib dedi: “Ey Məhəmməd! Mütəal Allah sənin səhabələrinə nəzər salıb əmin oğlu, kürəkənin Əlini (ə)

sənin ən yaxşı dostun və köməkçin olduğunu gördü. Onu sənin vəsin və Allah tərəfindən olan hüccət qərar verdi.”»

42. Həzrət Rəsulun (s) belə dediyini eşitdim: “Xoş sənin halına, ey Əli! Sənin behiştdəki sarayın mənim sarayımla üzbəüzdür. Sən behişt əhli arasında mənə (camaatdan və peyğəmbərlərdən) ən yaxını, İlliyyinin (Beşitin ən üstün yeri – red.) ən uca yenində də mənimlə yanaşısan.” Dedim: “Ya Rəsuləllah, İlliyyinin ən uca yeri nədir?” Buyurdu: “Ağ və parlaq gövhərdən ibarət olan, yetmiş qapıcığı olan günbəz. Ey Əli! Sən və mən hər ikimiz həmin günbəzin altında olacağıq.”

43. Peyğəmbər (s) buyurdu: “Mütəal Allah mənim məhəbbətimi möminlərin qəlbində yerləşdirdi. Eləcə də, ya Əli, Allah sənin də məhəbbətini möminlərin qəlbində yerləşdirdi. Mənə və sənə olan kini münafiqlərin qəlbində yerləşdirdi. Sənə təqvalı mömindən başqa məhəbbət, kafir münafiqdən başqa nifrət bəsləyən olmaz.”

44. Həzrət Rəsulun (s) belə buyurduğunu eşitdim: “Ya Əli, sənə ərəblərdən yalnız atası məlum olmayanlar, əcəmdən yalnız alçaq və bədbəxtlər, qadınlardan yalnız rəzil və acıdillilər düşmən olar.”

45. Bir gün mənim gözlərim ağrayırdı. Həzrət Rəsul (s) məni çağırtdırdı. Ağzının suyundan mənim gözlərimə sürtüb belə dua etdi: “İlahi, onun qızdırmasını soyuqluq, soyuqluğunu da hərarətlə əvəz et.” And olsun Allaha! Ondan sonra indiyə qədər bir dəfə də olsun göz ağrısına tutulmamışam.

46. Həzrət Rəsul (s) bütün səhabələrinə və əlillərinə evlərinin məscidə açılan qapılarını bağlatdırdı. Yalnız mənim evimin qapısını Allahın göstərişinə əsasən açıq qalmasını buyurdu. Bu fəzilət yalnız mənə nəsib oldu.

47. Həzrət Rəsul (s) mənə vəsiyyət edib onun borclarını və üzərinə götürdüyü bəzi öhdəlikləri yerinə yetirməyi mənə tapşırdı. Mən dedim: “Ya Rəsuləllah, axı mənim heç bir şeyim yoxdur?!” Həzrət (s) buyurdu: “Allah bu işdə sənə kömək edəcək.” Doğrudan da, Allah-təala Həzrətin (s) bütün vədlərini və borclu olduğu səksən mini (dinar, yaxud dirhəmi) çox asanlıqla verməyə mənə kömək göstərdi.

48. Bir gün Allahın Rəsulu bizə gəldi. Biz artıq üç gün idi ki, heç bir şey yemirdik. Həzrət (s) buyurdu:

–Ya Əli, yeməyə bir şeyin var?

–And olsun sənə risalət verənə ki, üç gündür nə mən, nə Fatimə, nə də iki övladımız bir şey yeyirik.

–Ey Fatimə, evin içinə get gör bir şey tapırsan?

Fatimə (ə) ona dedi:

–Elə indicə evdən gəlirəm. Heç bir şey yoxdur.

Mən dedim:

–Ya Rəsuləllah, istəyirsinizsə mən gedim.

Həzrət (s) buyurdu:

–Allahın adı ilə get.

Mən içəri getdim. Birdən bir tabağın içində təzə xurma və bir yekə kasa xörək gördüm. Onu həzrət Rəsulun (s) qarşısına gətirdim. Həzrət (s) buyurdu:

–Ey Əli, bu yeməyi gətirən bir kəsi gördünmü?

Dedim:

–Bəli.

Buyurdu:

–Necə idi?

Dedim:

–Qırmızı, yaşıl və sarı idi.

Buyurdu:

–Bunlar Cəbrailin dürr və yaqutla bəzənmiş qanadlarında olan xətlərin rəngidir.

Biz hamımız xörəkdən doyunca yedik. Lakin, ondan azacıq da olsa azalmadı. Mütəal Allah bununla bizə o həzrətin (s) səhabələri arasında kəramət və şərəf nəsib etdi.

49. Mütəal Allah Öz Peyğəmbərinə (s) peyğəmbərlik bəxş etməklə ona kəramət əta etdi. Peyğəmbər (s) də özünün vəsi və canişini etməklə mənə kəramət bəxş etdi. Deməli, məni sevib mənimlə dost olan kəs Qiyamət günü peyğəmbərlərlə məhşur olacaq.

50. Həzrət Rəsul (s) "Bəraət" ayəsini (Məkkə müşriklərinə çatacaq xəbər) Əbubəkrin vasitəsi ilə göndərmişdi. Əbubəkr gedən kimi Cəbrail nazil olub dedi: "Ey Məhəmməd, bu işi yalnız ya sən özün, ya da özündən olan bir nəfər yerinə yetirməlidir." O həzrət də (s) məni öz dəvəsinə mindirib Əbubəkrin dalınca göndərdi. Mən "Zülhüleyfə" adlanan yerdə Əbubəkrə çatdım. "Bəraət" ayələrini ondan aldım. Allah mənə bu fəziləti də əta etmişdir.

51. Peyğəmbər (s) məni Qədir günü bütün insanlardan ötrü imam təyin edərək buyurdu: "Mən hər kəsin mövlasıyamsa, Əli də onun mövlasıdır."

52. Bir gün Peyğəmbər (s) mənə belə buyurdu: "Ey Əli, istəyirsənmi Cəbrailin mənə öyrətdiyi sözləri sənə də öyrədim?" Dedim: "Bəli."

Buyurdu:

[Ey heç bir şeyi olmayanlara ruzi bəxş edən, ey yoxsullara rəhm edən, ey eşidənlərin ən yaxşısı, ey görənlərin ən yaxşısı, ey mehribanların mehribanı, mənə rəhm et və mənə ruzi əta et]

53. Bizdən olan Qaim (ə) zühur etməyincə Allah-təala dünyanı sona çatdırmaz. Qaim (ə) zühur edib bizim düşmənlərimizi qətlə yetirər, bütləri və səlibləri sındırar, döyüş sona yetər, camaat arasında bərabər bölgü aparar, onlarla ədalət əsasında rəftar edər.

54. Həzrət Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Ey Əli, tezliklə Bəni-Üməyyə nəsli sənə lənət göndərəcək və mələklər onların hər bir lənətinə görə özlərinə min lənət göndərər. Qaim (ə) zühur edən zaman isə onlara qırx il lənət göndərər."

55. Allahın Rəsulu (s) mənə buyurdu: "Tezliklə mənim ümmətin sənin barəndə fitnəyə düşər və deyərlər: "Allahın Rəsulu (s) özündən sonra heç bir mal qoyub getməyib. Bəs onda Əliyə (ə) nə barədə vəsiyyət edib?" Məgər, Allahın nazil etdiyi kitab onun özündən sonra hər şeydən üstün deyilmi? And olsun məni haqq olaraq göndərənə ki, əgər, ya Əli, bu kitabı sən səhih və doğru-düzgün şəkildə cəm etməsən, səndən başqa heç kəs bu işi yerinə yetirə bilməz."

56. Allah mənə elə bir xüsusiyyət əta etmişdir ki, bunu yalnız Öz övliyalarına və müti bəndələrinə əta edir. Məni Məhəmmədin (s) varisi qərar verdi. (Əlini Mədinəyə tərəf uzadıb işarə edib buyurur:) Hər kəsin xoşu gəlir gəlsin, hər kəsin də xoşu gəlmir gəlməsin.

57. Döyüşlərin birində Həzrət Peyğəmbər (s) susuz qalmışdı. Mənə dedi: "Ey Əli! O qayanın yanına get və ona de ki, məni Allahın rəsulu göndərib, mənim üçün su axıt." And olsun onu peyğəmbər olaraq göndərən Allaha! Elə ki Peyğəmbərin (s) sözünü daşa çatdırdım, daş üzərində inək döşünə bənzər çıxıntılar əmələ gəldi və onlardan su axmağa başladı. Bunu görüb tez Peyğəmbərin (s) yanına gəlib onu məsələdən agah etdim. Həzrət (s) buyurdu: "Ey Əli, get o sudan gətir." Hamı gəlib qabını su ilə doldurdu. Heyvanlarını suladılar, özləri də doyunca içdilər və dəstəmaz aldılar. Mütəal Allah bu işi mənim vasitəmlə həyata keçirdi.

58. Döyüşlərin birində həzrət Rəsul (s) susuz qalmışdı. Məndən bir qab gətirməyimi istədi. Mən qabı gətirəndən sonra Həzrət (s) sağ əlini və mənim əlimi qabın içinə saldı və dedi: "Qayna!" Bu zaman barmaqlarımızın arasından su axmağa başladı və qab doldu.

59. Həzrət Rəsul (s) məni "Xeybər" qalasına tərəf göndərdi. Ora çatanda qalanın divarlarının bağlı olduğunu gördüm. Onu şiddətlə tərpədib yerindən qopardım və qırx addımlıq məsafəyə tulladım. Qalaya daxil oldum. Mərhəb (yəhudi pəhləvanı – red.) mənimlə döyüşmək üçün üzərimə cümdu. Mən ona həmlə edib yeri onun qanı ilə suvardım. Məndən öncə Peyğəmbər (s) özünün iki səhabəsini (Əbubəkr və Öməri) Xeybərin fəthindən ötrü göndərmişdi. Lakin o iki nəfər başaşağı və utana- utana bir halda qayıtmışdı.

60. Mən min nəfər döyüşçüyə bərabər olan Əmr ibn Əbdəvədi öldürmüşəm.

61. Həzrət Rəsulun (s) belə buyurduğunu eşitdim: "Sənin ümmətim arasındakı məsəlin "Qul huvəllahu əhəd" kimidir. Səni səmimi qəlblə sevən kəs Quranın üçdə birini oxuyan şəxs kimidir. Hər kəs səni səmimi qəlbdən sevərək dili ilə də sənə kömək yetirərsə, Quranın ikidə birini oxumuş şəxs kimidir. Hər kəs də səni səmimi qəlbdən sevib dili və əli ilə sənə kömək etsə, bütün Quranı oxumuş şəxs kimidir.

62. Mən baş verən bütün mühüm hadisələr və döyüşlər zamanı həzrət Peyğəmbərlə (s) bir yerdə olmuşam.

63. Mən heç vaxt döyüşdən qaçmamışam, döyüşdə heç vaxt məğlub olmamışam və mənimlə döyüşə girən hər kəsi qanına qəltan etmişəm.

64. Həzrət Peyğəmbərə (s) Behiştin qızardılmış toyuğu gətiriləndə mən Allahdan istədim ki, Həzrətin (s) yanında ən sevimli məxluqlarına da həmin təamdan yeməyi nəsib etsin. Həmin toyuqdan yemək mənə nəsib oldu.

65. Bir gün məsciddə namaz qılırdım. Bir fəqir gəlib ona bir şey verməyimi istədi. Mən rüku halında idim. Barmağımda olan üzüyü ona uzatdım. Mütəal-Allah da mənim barəmdə bu ayəni nazil etdi:

[Həqiqətən, sizin vəliniz Allah, Onun Rəsulu və namaz qılıb rüku halında zəkat verən möminlərdir.]

66. Allah-təala Məhəmməd (s) ümmətindən yalnız məndən ötrü günəş batdıqdan sonra onu təkrarən geriyə qaytarıb.

67. Peyğəmbər (s) göstəriş vermişdir ki, mən həm sağlığımda, həm də dünyadan göçəndən sonra "əmirəlmöminin" ləqəbi ilə çağrılım. Bu xüsusiyyət məndən başqa heç kəsə aid edilməmişdir.

68. Peyğəmbər (s) buyurub: " Ey Əli, Qiyamət günü ilahi ərşin altından bir səs yayılar ki, "Peyğəmbərlərin sərvəri haradadır?" O zaman mən ayağa qalxaram. Bu zaman yenidən səs gələr: "Canişin və övsiyaların sərvəri haradadır? " Bu dəfə sən ayağa qalxarsan. Behiştin və Behişt xəzinələrinin nəzarətçisi olan Rizvan adlı mələk Behitşin açarlarını, Cəhənnəmin nəzarətçisi olan Malik adlı mələk də Cəhənnəmin açarlarını mənim yanıma gətirər və deyərlər: "Allah-təala bizə göstəriş verib ki, bu açarları sənə təhvil verək və onu da çatdıraq ki, bu açarları Əliyə (ə) verəsən. Sən isə, ey Əli, Cənnət və Cəhənnəm əhlini təyin edəcəksən."

69. Həzrət Rəsul (s) mənə belə buyurdu: "Əgər sən olmasaydın möminlər münafiqlərdən seçilməzdi."

70. Peyğəmbər (s) oturdu. Məni, Fatiməni (ə) Həsəni (ə) və Hüseyni (ə) çağırıb yanında əyləşdirdi. Sonra öz əbasını beşimizin də üzərinə saldı. Allah-təala bu ayəni nazil etdi:

**[Həqiqətən, Allah iradə edir ki, siz əhli-beytdən bütün çirkinlikləri uzaqlaşdırsın və sizi pak-pakizə qərar versin.]**

Cəbrail (ə) Peyğəmbərə (s) dedi: Onda Rəsuləllah buyurdu: "Ey Məhəmməd, mən də sizdənəm" Bizim altıncımız da Cəbraildir.

## *Peyğəmbərin (s) nəhy etdikləri*

◘Şeyx Səduq Peyğəmbərdən (s) rəvayət etmişdir ki, o həzrət (s) bir çox şeyləri nəhy etmişdir. Bu nəhylərin bəziləri məkruh, bəziləri də mühərrəmatlardır. Biz onların müəyyən qismini burada qeyd edirik:

1.Cənabət halında yemək yemək.

2. Hamamda misvak etmək.

3. Ağızın, yaxud burunun suyunu məsciddə yerə atmaq.

4. Məscidləri yol üstü keçid vasitəsi kimi istifadə etmək. Həzrət (s) buyurub: "Yolunuzu məscidlərdən salmayın. Əgər belə etsəniz, orada iki rükət namaz qılıb sonra oradan çıxın."

5. Meyvə ağacının altına bövl etmək.

6. Sol əllə yemək yemək.

7. Yemək yeyərkən söykənmək.

8. Məqbərələri təmir etmək və orada namaz qılmaq.

9. Açıq yerdə çimərkən, yaxud qüsul alarkən övrəti açıq saxlamaq.

10. Axarı olmayan suya bövl etmək.

11. Ayaqyolunda üzü qibləyə oturmaq.

12. Bəla və müsibət zamanı ah-nalə edib fəryad qoparmaq.

13. Yas mərasimlərində növhə demək və ona qulaq asmaq.

14. Yalan yuxu danışmaq

15. Şəkil çəkmək.

16. Hər hansı bir heyvanı yandırmaq.

17. Cinsi əlaqədə olan zaman çox danışmaq.

18. Zibili atmayaraq gecəyə qədər evdə saxlamaq.

19. Gecə əli yağlı olduğu halda və oturan halda yatmaq.

20. Ərinin icazəsi olmadan qadının evdən bayıra çıxması.

21. Qadının öz ərindən başqası üçün bəzənməsi.

22. İki qadının çılpaq halda bir yataqda yatması.

23. Bir qadının başqa qadınla özü və əri arasında olan xəlvət məsələlər barəsində danışması.

24. Qadınla kişinin üzü qibləyə olduqları halda cinsi yaxınlıq etməsi.

25. Falçıya, münəccimə müraciət etmək.

26. Nərd, şahmat oynamaq, tar və tənbur çalmaq.

27. Qeybət etmək və ona qulaq asmaq.

28. Söz gəzdirmək və sözgəzdirənə qulaq asmaq.

29. Fasiq insanların yemək dəvətini qəbul etmək.

30. Yalandan and içmək.
31. Üzərində şərab olan süfrə kənarında əyləşmək.
32. Allah yolundan başqa bir yola çəkən söhbətlərə qulaq asmaq.
33. Qızıl və gümüş qablardan su içmək.
34. Kişilərin ipək paltar geyinməyi.
35. Nərd alveri.
36. Şərab alveri və şərab paylayan olmaq.
37. Faiz yemək.
38. Kafirlə əl verib görüşmək.
39. Dördayaqlıların üzündən vurmaq.
40. Biləərəkdən öz mömin qardaşının, yaxud qeyrisinin övrətinə baxmaq.
41. Qadının digər qadının övrətinə baxması.
42. Məqbərələrdə, yol üstündə, dəyirmanlarda, dərələrdə, dərin çalalarda, tövlələrdə namaz qılmaq.
43. Bal arısını öldürmək.
44. Dördayaqlıların üzünə dağ basmaq.
45. Allahdan başqasına and içmək.
46. Cənabət halında məsciddə oturmaq.
47. Cümə namazının xütbələri oxunarkən danışmaq.
48. Mis və dəmir üzük taxmaq.
49. Üzük üzərinə heyvan şəkli döydürmək.
50. Fitr, Qurban bayramları günü, Yəvmul-şəkk günü (yəni, Ramazan ayının əvvəli, yaxud Şabanın axırıncı günü olması məlum olmayan gün) və Əyyamut-təşriq (yəni, həccin Qurban bayramından sonra Minada keçirilən üç günü) günlərində oruc tutmaq.
51. Əllə deyil dördayaqlılar kimi su içmək.
52. Ağız suyunu suyu içilən quyuya atmaq.
53. Əlmuzdunu əvvəlcədən müəyyənləşdirmədən fəhlə işlətmək.
54. Küsmək. Əgər küssə də bunu üç gündən artıq uzatmaq.
55. Qızılı çəkidə daha artıq qızıla satmaq.
56. Mədh etmək və tərifləmək.
57. Münaqişə zamanı zalım tərəfin vəkili olub onu müdafiə etmək.
58. Tamah məqsədi ilə sultan, padşah, zalım hakim və digərlərini mədh edib tərifləmək.
59. Zülm və ya zalımın ardınca getmək.
60. Özünü göstərmək və fəxr etməkdən ötrü ev tikdirmək.
61. Quran oxuyub sonra haram yemək, yaxud dünyanın bər-bəzəyinin ardınca getmək.
62. Müsəlman, yəhudi, xristian, yaxud zərdüşt olmasından asılı olmayaraq hər hansı bir qadınla zina etmək.

63. Qonşunun evinə baxmaq (güdmək).
64. Allahın müəyyən etdiyi ruziyə razı olmayaraq şikayət etmək.
65. Təkəbbürlə yol getmək.
66. Qadının mehriyyəsi barədə ona zülm etmək.
67. Şahidliyi gizlətmək.
68. Qonşuya əziyyət etmək.
69. Müsəlman fəqiri təhqir etmək.
70. Pis və çirkin işlərə, şəhvətlərə, nəfsani istəklərə uymaq.
71. Dünya işlərini axirət işlərindən üstün tutmaq.
72. Harama baxmaq.
73. Naməhrəm qadınla əl tutub görüşmək.
74. Naməhrəm qadını qucaqlamaq.
75. Al-ver zamanı fırıldaq işlətmək.
76. Ev əşyalarını qonşudan əsirgəmək.
77. Qadının öz ərinə dili ilə əziyyət etməsi.
78. Hər hansı bir müsəlmanın üzünə şillə vurmaq.
79. Xəyanət etmək.
80. Bir kəsin əleyhinə yalandan və batil şahidlik etmək.
81. Xəyanətlə mal əldə etmək, yaxud xəyanət vasitəsi ilə əldə edilmiş mala yiyələnmək.
82. Başqa bir müsəlmanın haqqını tapdalamaq.
83. Pis və çirkin bir işdən xəbərdar olub onu faş etmək.
84. İmkanlı olduğu halda ondan borc istəyən müsəlman qardaşını əliboş geri qaytarmaq.
85. Kişinin öz qadınının bəd xasiyyəti qarşısında təmkinli olmaması.
86. Mömin qardaşına qarşı ehtiramsızlıq göstərmək.
87. Qohumlarla əlaqəni kəsmək.
88. Bir kəsin onun boynunda olan haqqını ödəməyə imkanı olduğu halda bu işi təxirə salmaq.
89. Zalım bir hakimin cəza icra edəni.
90. Yaxşılıq etdikdən sonra minnət qoymaq.
91. Hər hansı bir pis və günah işi kiçik saymaq.

## *Peyğəmbərin (s) Həzrət Əliyə (ə) vəsiyyətləri*

◘İmam Sadiqdən (ə) nəql olunur ki, həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) vəsiyyət edərkən belə buyurmuşdur: “Ey Əli! Sənə etdiyim vəsiyyətləri heç vaxt unutma və onlara riayət et. Əgər bunları yadda saxlayıb riayət etsən, daim xeyir içində olarsan.

◘Ey Əli! Hər kəs qəzəblənib qəzəbini əməli surətdə nümayiş etdirmək qüdrətinə malik olsa, lakin bunu etməyib qəzəbini boğsa,

Allah-təala Qiyamət günün onu elə bir amanda saxlayar ki, bunun ləzzətini hiss edər.

◘Ey Əli! Hər kəs ölən zaman gözəl və ədalətli vəsiyyət etməzsə, onun mürüvvət və comərdliyi naqis hesab edilər. Qiyamət günü isə şəfaətə nail olmaz.

◘Ey Əli! Ən üstün cihad odur ki, insan səhər tezdən durarkən heç kəsə zülm və sitəm etmək fikrində olmasın.

◘Ey Əli! Kimin ki dilindən camaat qorxur, həmin adam Cəhənnəmlikdir.

◘Ey Əli! İnsanların ən pisi odur ki, camaat ona ağzının pisliyinə və acıdilliyinə görə hörmət edir.

◘Ey Əli! İnsanların ən pisi odur ki, axirəti dünyasına satır, ondan da pisi odur ki, öz axirətini başqasının dünyasına satır.

◘Ey Əli! Hər kəs üzrxahlıq edən bir kəsin üzrünü yalan və düz danışmasından asılı olmayaraq qəbul etməzsə, mənim şəfaətimə nail olmaz.

◘Ey Əli! Allah-təala insanların arasını islah etməkdən ötrü yalan danışığı sevir, lakin insanlar arasında fitnə-fəsad törənməsinə səbəb olan doğru danışığı və düz sözü əsla sevmir.

◘Ey Əli! Hər kəs şərabı, hətta Allahdan başqasına görə də tərk etsə, Allah onu Cənnət şərbətləri ilə doyuzdurar.

–Allahdan başqasına görə?

–Bəli! And olsun Allaha ki, əgər şərabı hətta, sağlamlığını qorumaqdan ötrü də tərk etsə, Allah onun bu işinə xüsusi dəyər verər.

◘Ey Əli! Şərabxor, eynilə bütpərəst kimidir.

◘Ey Əli! Allah şərab içən adamın namazını qırx gün müddətində qəbul etməz və əgər həmin qırx gün müddətində ölsə, kafir hökmündə olar.

◘Ey Əli! Hər bir məstedici haramdır. Bütün məstedicilərdən hətta bir qurtumluq da olsa istifadə etmək haramdır.

◘Ey Əli! Bütün günahlar bir evdə cəm olunub, həmin bu evin də açarı şərabxorluqdur.

◘Ey Əli! Şərabxorun elə bir anı olur ki, Allahı tanımır.

◘Ey Əli! Dünya və axirətindən bəhrələnə bilməyən adamla oturub-durmaq sənə heç bir fayda verməz. Sənə hörmət etməyən kəsə sən də hörmət etmə.

◘Ey Əli! Allah-təala Behişti söyüş söyən, nə deyib nə eşidəcəyinin fərqinə varmayan hər kobud danışana haram etmişdir.

◘Ey Əli! Xoş o kəsin halına ki, ömrü uzun və əməli salehdir.

◘Ey Əli! Zarafat etməkdən çəkin, çünki o, insanın əzəmət və nuraniliyini aradan aparar.

◘Ey Əli! Bədxasiyyətli olmaqdan başqa bütün günahlardan ötrü tövbə var. Çünki bəd xasiyyətə malik olan insan bir günahdan qurtaran kimi, digərinə mübtəla olur.

◘Ey Əli! Bir kəsə ürək sıxıntısı və məlal üz versə, rahatlıq onun yanından köçər.

◘Ey Əli! Allah-təala Behişti iki cür–qızıl və gümüş kərpicdən divarlarını yaqutdan, tavanını zəbərcəddən, qumunu mirvaridən, torpağını müşk və zəfərandan yaratmışdır. Allah-təala Behişti yaradan zaman ona belə buyurdu: "Danış." Behişt dedi: "Əbədi olan Allahdan başqa məbud yoxdur. Həqiqi xoşbəxt odur ki, mənə daxil olar." Allah-təala buyurdu: "And olsun öz izzət və cəlalıma, heç bir şərabxoru (məqsəd şəraba qurşanıb onu tərk etməyəndir), sözgəzdirəni, qeyrətsizi, (ədalətsiz) darğanı, arvadsifəti (zənən adlı kişini), kəfən (yaxud qəbir) oğrusunu, bac alanı, qohumları ilə əlaqəni kəsəni, "cəbərk" məzhəbində olanları Behiştə daxil etmərəm."

◘Ey Əli! Şərəf və şəxsiyyətin afəti yersiz fəxr etməkdir.

◘Ey Əli! Hər kəs Mütəal Allahdan qorxsa, hər şey ondan qorxar, hər kəs də Allahdan qorxmazsa, Allah onu hər şeydən qorxudar.

◘Ey Əli! Büluğ həddinə çatdıqdan sonra yetimlik yoxdur.

◘Ey Əli! Ata-anaya yaxşılıq etməkdən ötrü iki illik yol qət et. Qohum-əqrəbaya yaxşılıq etməkdən ötrü bir illik yol qət et. Xəstəni yoluxmaqdan ötrü bir millik yol get. Cənazəni müşayət etməkdən ötrü iki millik yol get. Dəvəti qəbul etməkdən ötrü üç millik yol get. Mömin qardaşını ziyarət etməkdən ötrü dörd millik yol get. Çətinliyə düşənin əlindən tutmaq üçün beş millik yol get. Zülm görmüş insana kömək etməkdən ötrü altı millik yol get. Sənə çoxlu istiğfar etməyi tapşırıram.

◘Ey Əli! Hər kəs fəhlənin muzdunu verməsə, qətl hadisəsi yerinə yetirsə, yaxud onda iştirak etsə, yaxud bu işdə iştirak edəni qorusa, onun tərəfini saxlasa, onu gizlətsə, ona Allahın lənəti gələr.

◘Ey Əli! Mömin o kəsdir ki, müsəlmanlar öz mallarını və canlarını onun tərəfindən amanda hiss etsinlər, mömin o kəsdir ki, başqa müsəlmanlar onun əlindən və dilindən salamat qalsınlar. Əsl mühacir odur ki, günahlardan hicrət edib uzaqlaşsın.

◘Ey Əli! İman əldə etməkdən ötrü ən güclü vasitə Allaha xatir dostluq və Ona xatir düşmənçilikdir.

◘Ey Əli! Mütəal Allah İslamın vasitəsi ilə cahiliyyətin lovğalıq və təkəbbürünü, onların öz ata-babaları ilə fəxr etməyini aradan apardı. Bil ki, insanların hamısı həzrət Adəmdən (ə) vücuda gəlmişdir. Həzrət Adəm (ə) isə torpaqdan. Allah yanında insanların ən üstünü ən təqvalı olanıdır.

◘Ey Əli! Ölü heyvandan, itdən, şərabdan qazanılan pul, zinakar qadının mehriyyəsi, qəzavət işlərində verilən (yaxud, alınan) rüşvət, falçı və gələcəkdən xəbər verənlərə verilən pul – bunların hamısı haram pullardır.

◘Ey Əli! Elə ki, bir bəndə ölür, camaat deyir: "Görəsən, özündən sonra nə qoyub getdi?" Lakin, mələklərsə deyir: "Görəsən, özündən əvvəl nə göndərib?"

◘Ey Əli! Dünya mömininin zindanı, kafirinsə behiştidir.

◘Ey Əli! Qəfil ölüm mömin üçün rahatlıq, kafir üçünsə həsrət və təəssüfdür.

◘Ey Əli! Mütəal Allah dünyaya belə vəhy etdi: "Mənə xidmət edənə xidmət et, sənə xidmət edəni isə məşəqqətə sal!"

◘Ey Əli! Allah yanında dünyanın ağcaqanadın qanadı qədər də olsa, dəyəri olsaydı ondan kafirlərə bir qurtum su da verməzdi.

◘Ey Əli! Keçmişdə yaşamış və gələcəkdə yaşayacaq elə bir insan olmayacaq ki, Qiyamət günü belə desin: "Kaş dünya malından mənə yalnız zəruri ehtiyaclarımı ödəyəcək qədər verilərdi."

◘Ey Əli! İnsanların ən pisi odur ki, ilahi qəza-qədərə etiraz etsin və bu barədə Allahı müttəhim etsin.

◘Ey Əli! Mömin xəstə olarkən etdiyi nalələrə "Sübhanallah", fəryadlarına isə "La ilahə illəllah" savabı yazılar. Xəstəlik yatağında uzanmağı ibadət, o tərəf-bu tərəfə dönməyi cihad hesab olunar. Sağalıb camaat arasında gəzərkən isə bütün günahlardan təmizlənmiş halda olar.

◘Ey Əli! Əgər mənə (heç bir dəyəri olmayan) qoyun ayağını (bişirməkdən ötrü) hədiyyə etsələr qəbul edərəm və əgər, məni qoyun ayağından hazırlanmış xörəyə dəvət etsələr, həmin dəvəti qəbul edərəm.

◘Ey Əli! İslam çılpaqdır, onun libası isə həya və utanmaqdır. Zinəti vəfa, comərdliyi saleh əməl, sütunu təqvadır. Hər bir şeyin əsası və təməli vardır. İslamın da əsası və təməli biz əhli-beytlə birgə olmaqdır.

◘Ey Əli! Bədxasiyyətlik eyib və namübarəklikdir. Qadına itaət etmək peşmançılığa səbəb olar.

◘Ey Əli! Hər kəs mənə yalan bir şey nisbət versə, bilsin ki, yeri cəhənnəmdir.

◘Ey Əli! Misvak etmək sünnədir. Misvak ağızı təmizləyir, gözün nurunu artırır, Rəhman Allahı sevindirir, dişləri ağardır, dişin sarılığını və çürüklərini aradan aparır, dişin ətini möhkəmləndirir, iştahanı artırır, bəlğəmi aradan aparır, hafizəni gücləndirir, yaxşı işlərin savabını ikiqat edir və mələklərin məhəbbətinə səbəb olur.

◘Ey Əli! Allah-təala bütün peyğəmbərlərin nəslini onların öz sülbündən yaratmışdır. Mənim nəslimi isə sənin sülbündən olmasını istəmişdir. Ey Əli, əgər sən olmasaydın mənim nəslim davam etməzdi.

◘Ey Əli! İman cəhətdən insanların ən təəccüblüsü və yəqin cəhətdən onların ən əzəmətlisi axirəzzamanda yaşayıb heç bir peyğəmbər görmədən imamları, onlar qeybdə olduğu halda ağ (kağızlar) üzərindən qara (yazılar) oxumaqla iman gətirərlər.

◘Ey Əli! Allah qəlbi qafil olan kəsin duasını qəbul etməz.

◘Ey Əli! Alimin yuxusu abidin ibadətindən üstündür.

◘Ey Əli! Alimin iki rəkət namazı abidin min rəkət namazından üstündür.

◘Ey Əli! Ribanın (faizə pul verib-almağın) ən kiçik günahı budur ki, elə bil həmin adam Kəbədə öz anası ilə zina edib.

◘Ey Əli! Bir dirhəm riba Allah yanında öz məhrəmi (yəni, anası, bacısı) ilə Kəbə evində yetmiş dəfə zina etməkdən qat-qat pisdir.

◘Ey Əli! Hər kəs bir karat da olsa (bir qirat dinar və dirhəmin iyirmi dörddə bir hissəsinə bərabərdir) zəkat verməkdən boyun qaçırarsa onun nə imanı var, nə müsəlmandır. Belə bir kəsin hörməti də yoxdur. (Yəni, hörmətə layiq deyil.)

◘Ey Əli! Qüdrət və imkanı olduğu halda vacib həcci tərk edən insan kafirdir.

◘Ey Əli! Hər kəs Həcci təxirə salsa və bu halda dünyadan getsə Allah-təala Qiyamət günü onu yəhudi, yaxud məsihi olaraq məhşur edər.

◘Ey Əli! Sədəqə mütləq yetişəcək və baş verəcək qəza və qədəri dəyişdirər.

◘Ey Əli! Sileyi-rəhm ömrü uzadar.

◘Ey Əli! Yeməyi duzla başlayıb duzla da bitirmək insanın yetmiş iki xəstəlikdən şəfa tapmasına səbəb olar.

◘Ey Əli! Məhmud məqamında olacağım zaman atam, anam, əmim və cahiliyyət dövründəki qardaşıma şəfaət edəcəyəm.

◘Ey Əli! Əql odur ki, onunla Behişt əldə olunsun və onun vasitəsi ilə Rəhman Allahın razılığına can atılsın.

◘Ey Əli! Allahın ilk yaratdığı şey əqldir. Allah onu yaratdığı zaman belə buyurdu: "Dön və geri qayıt!" O, qayıtdı. O zaman Allah-təala buyurdu: "And olsun izzət və cəlalıma ki, Mənim üçün səndən də sevimli olacaq bir məxluq yaratmamışam. Yalnız sənə görə qət edib və yalnız da sənə görə əta edərəm. Sənin vasitənlə mükafatlandıraram və sənin vasitənlə cəzalandıraram."

◘Ey Əli! Qohumların ehtiyaclı olduğu halda sədəqəni başqalarına vermək caiz deyil.

◘Ey Əli! Əməl olmasa danışıqda heç bir xeyir və fayda olmaz. Əgər batində olmasa zahirdə də fayda olmaz. Səxavət və bəxşişi olmazsa var-dövlətin də faydası olmaz. Vəfa olmasa doğruçulluq da olmaz. Zahidlik olmasa fəqihliyin də faydası olmaz. Məqsəd və niyyət düzgün olmasa sədəqənin də faydası olmaz. Salamatlıq və sağlamlıq olmazsa yaşamaqda da xeyir olmaz. Əgər əmniyyət və xoşluq olmazsa vətənə də xeyir olmaz.

◘Ey Əli! Sizin əxlaqca mənə ən yaxın olanınız ən xoş xasiyyət, ən təmkinli, qohum-əqrəbasına ən çox yaxşılıq edəninizdir.

◘Ey Əli! Övladın öz atasının boynunda olan haqqı budur ki ata ona yaxşı ad qoysun, onu gözəl tərbiyələndirsin, onu yaxşı bir şeyə (sənətə, peşəyə) yiyələndirsin. Atanın övlad boynunda olan haqqı budur ki, övlad öz atasını onun adı ilə çağırmasın, yol gedərkən ondan qabağa düşməsin, ondan qabaqda oturmasın və hamama onunla birgə getməsin.

Ey Əli! Allah lənət etsin o valideynlərə ki, övladlarını özlərinə qarşı ehtiramsızlığa vadar edirlər.

◘Ey Əli! Valideynin övladına qarşı ehtiramsızlığı övladın valideynə qarşı ehtiramsızlığına gətirib çıxarar və bu iki işin günahı da eynidir.

◘Ey Əli! Allahın rəhməti olsun o valideynə ki, övladlarının onlara qarşı ehtiram və yaxşılıq etmələrinə bais olurlar.

◘Ey Əli! Ata və anasını qəmgin edən şəxs onlara ağ olub və onların haqlarını pozub.

◘Ey Əli! Hər kəsin yanında mömin qardaşının qeybəti olunarsa və həmin şəxs də qüdrəti çatdığı halda bunun qarşısını almazsa, Allah-təala onu dünyada da, axirətdə də xar edər.

◘Ey Əli! Bir şəxs öz pulu ilə bir yetimi büluğ həddinə çatana qədər saxlasa, mütləq Cənnətə gedər.

◘Ey Əli! Hər kəs mehr və məhəbbətlə əlini bir yetimin başına çəkərsə, Allah-təala Qiyamət günü ona sığal çəkərkən əlinə dəyən tüklərin sayı qədər nur əta edər.

◘Ey Əli! Nadanlıqdan da çətin fəqirlik yoxdur. Əqldən faydalı mal-dövlət yoxdur. Xudpəsəndlikdən (özünübəyənməkdən) də dəhşətli və qorxulu tənhalıq yoxdur. Tədbirli və çarə düşünməyi bacarmaqdan da üstün əql yoxdur. Allahın haram buyurduğu şeylərdən çəkinməkdən də gözəl zahidlik yoxdur. Gözəl əxlaq kimi üstün şərafət yoxdur. Təfəkkürdən də üstün ibadət yoxdur.

◘Ey Əli! Danışığın afəti yalandır. Elmin afəti unutqanlıqdır. İbadətin afəti onu tərk etməkdir. Gözəlliyin afəti təkəbbür və lovğalıqdır, əməlin də afəti paxıllıqdır.

◘Ey Əli! Hər kəs mənə salavat göndərməyi unutsa Behiştin yolunu itirib.

◘Ey Əli! Əlimi dirsəyə qədər əjdahanın boğazına salmağa razı olaram, lakin heç bir malı-pulu olmayan və birdən əlinə mal-pul keçən adamdan bir şey istəməkdən ötrü əlimi uzatmağa əsla razı olmaram.

◘Ey Əli! Allah qarşısında ən dikbaş və ən itaətsiz adam odur ki, onunla heç bir qan davası olmayan adamı nahaq yerə öldürsün və onu vurmayan bir kəsi nahaq yerə vursun.

◘Ey Əli! Sağ əlinə qaşı qırmızı əqiqdən olan üzük tax ki, bu Allah-təalanın Özünün müqərrəblərindən ötrü qərar verdiyi bir fəzilətdir.

◘Ey Əli! Həqiqətən, Mütəal Allah dünyanın bütün insanlarına nəzər saldı və kişilərin içindən məni seçdi. İkinci dəfə nəzər saldı səni seçdi. Üçüncü dəfə nəzər salıb sənin nəslindən olan imamları seçdi. Sonra dördüncü dəfə nəzər salıb qadınlar içindən Fatiməni seçdi.

◘Ey Əli! Həqiqətən mən sənin adını üç yerdə öz adımla birgə gördüm:

1. Merac zamanı Beytül-müqəddəsə çatan zaman orada böyük bir qaya parçasının üzərində belə yazıldığını gördüm: "Allahdan başqa məbud yoxdur. Məhəmməd (s) Onun rəsuludur. Mən (yəni, Allah) onu vəziri vasitəsi ilə qüvvətləndirib vəziri vasitəsi ilə də ona kömək etdim." O zaman mən Cəbrailə (ə) dedim: "Mənim vəzirim kimdir?" Dedi: "Əli ibn Əbutalib (ə).

2. "Sidrətül-müntəha"ya çatan zaman gördüm ki orada belə yazılıb: "Mənəm Allah. Məndən başqa məbud yoxdur. Məhəmməd (s) mənim seçilmiş bəndəmdir. Mən ona vəziri vasitəsi ilə də köməklik göstərdim." Cəbraildən (ə) soruşdum: "Mənim vəzirim kimdir? " Buyurdu: "Əli ibn Əbutalib (ə)." Elə ki, "Sidrətül-müntəha"dan keçib Cəlal sahibi olan Allahın ərşinə çatdım, orada da belə yazıldığını gördüm: "Mənəm Allah. Məndən başqa heç bir məbud yoxdur. Məhəmməd (s) mənim həbibimdir (sevimli dostumdur). Mən onu vəziri vasitəsi ilə qüvvətləndirib, ona vəziri vasitəsi ilə də kömək etdim."

## Mündəricat


**ÖN SÖZ** ... 4
**İRŞAD BARƏSİNDƏ OLAN AYƏ VƏ HƏDİSLƏR** ... 5
**ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR BARƏSİNDƏ OLAN AYƏ VƏ HƏDİSLƏR** ... 8
**BİRİNCİ BÖLMƏ** ... 12
**BİR TƏRKİBLİ NƏSİHƏTLƏR** ... 12
**BİRİNCİ FƏSİL** ... Error! Bookmark not defined.
**HƏZRƏT RƏSULİ-ƏKRƏMDƏN (S) MÜKƏMMƏL SÖZLƏR, NADİR VƏ BƏNZƏRSİZ HİKMƏTLİ KƏLAMLAR** ... 12
**İKİNCİ FƏSİL** ... 17
**HƏZRƏT RƏSULİ-ƏKRƏMİN (S) DİGƏR TƏRZDƏ OLAN ÜRƏKOXŞAYAN SÖZLƏRİ** ... 17
**ÜÇÜNCÜ FƏSİL** ... 18
**RƏSULİ-ƏKRƏMİN (S) BAŞQA ŞƏKİLDƏ OLAN İBRƏTAMİZ KƏLAMLARI** ... 18
**DÖRDÜNCÜ FƏSİL** ... 23
**RƏSULİ-ƏKRƏMDƏN (S) OLAN MOİZƏLƏR** ... 23
**BEŞİNCİ FƏSİL** ... 28
**PEYĞƏMBƏRİN (S) DİGƏR NƏZMLƏ OLAN HİKMƏTLİ KƏLAMLARI** ... 28
**ALTINCI FƏSİL** ... 30
**RƏSULİ-ƏKRƏMİN (S) FƏRQLİ BƏYANLA OLAN BAŞQA NÖV KƏLAMLARI** ... 30
**YEDDİNCİ FƏSİL** ... 34
**PEYĞƏMBƏRİ –ƏKRƏMİN (S) DİGƏR TƏRZDƏ OLAN HİKMƏTLİ KƏLAMLARI** ... 34
**SƏKKİZİNCİ FƏSİL** ... 35
**RƏSULİ-ƏKRƏMİN (S) ƏN GÖZƏL ŞEYLƏRİ TANITDIRAN DİGƏR HİKMƏTLİ KƏLAMLARI** ... 35
**DOQQUZUNCU FƏSİL** ... 36
**PEYĞƏMBƏRİ-ƏKRƏMDƏN (S) OLAN BƏNZƏTMƏLƏR** ... 36
**ONUNCU FƏSİL** ... 37
**ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN (Ə) HİKMƏTLİ KƏLAMLARI** ... 37
**HƏZRƏT ƏLİNİN (Ə) BAŞQA NÖV KƏLAMLARI** ... 43
**ON BİRİNCİ FƏSİL** ... 44
**ALİMLƏRİN DEDİKLƏRİNDƏN BƏZİLƏRİ** ... 44
**ON İKİNCİ FƏSİL** ... 47
**HİKMƏT SAHİBLƏRİNİN DEDİKLƏRİNDƏN** ... 47
**HİKMƏTAMİZ MƏSƏLLƏR** ... 53
**HİKMƏT SAHİBLƏRİ DEYİBLƏR:** ... 54
**YENƏ DƏ HİKMƏT SAHİBLƏRİ DEYİBLƏR:** ... 54

İKİNCİ BÖLMƏ.....55
İKİNCİ FƏSİL.....58
PEYĞƏMBƏRİ-ƏKRƏMDƏN (S) OLAN ƏHLİ-SÜNNƏT HƏDİSLƏRİ .....58
ÜÇÜNCÜ FƏSİL.....64
PEYĞƏMBƏRDƏN (S) OLAN DİGƏR ŞİƏ HƏDİSLƏRİ.....64
DÖRDÜNCÜ FƏSİL.....66
ƏLİ İBN ƏBİTALİBDƏN (Ə) NƏQL OLUNAN ŞİƏ HƏDİSLƏRİ.....66
BEŞİNCİ FƏSİL.....68
SÜNNİ VƏ ŞİƏLƏRİN HƏZRƏT ƏLİDƏN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR.....68
ALTINCI FƏSİL.....69
HƏDİSLƏRDƏN DİGƏR NÜMUNƏLƏR.....69
YEDDİNCİ FƏSİL.....71
İMAM SADİQDƏN (Ə) OLAN ŞİƏ HƏDİSLƏRİ.....71
SƏKKİZİNCİ FƏSİL.....73
HİKMƏT SAHİBLƏRİ, ZAHİDLƏR VƏ ABİDLƏRİN NƏSİHƏTLƏRİ .....73
DOQQUZUNCU FƏSİL.....80
İMAM HƏSƏN MÜCTƏBADAN (Ə) OLAN HƏDİSLƏR.....80
ONUNCU FƏSİL.....84
HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİ BARƏSİNDƏ OLAN İKİLİ HƏDİSLƏR.....84
ÜÇÜNCÜ BÖLMƏ.....87
ÜÇ TƏRKİBLİ NƏSİHƏTLƏR.....87
BİRİNCİ FƏSİL.....87
MÜTƏAL ALLAHIN MOİZƏLƏRİ.....87
İKİNCİ FƏSİL.....88
PEYĞƏMBƏRDƏN (S) OLAN HƏDİSLƏR.....88
ÜÇÜNCÜ FƏSİL.....93
PEYĞƏMBƏRDƏN (S) OLAN SÜNNİ HƏDİSLƏRİ.....93
DÖRDÜNCÜ FƏSİL.....100
SÜNNİ VƏ ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR.....100
BEŞİNCİ FƏSİL.....103
DİGƏR TƏRZDƏ OLAN HƏDİSLƏR.....103
ALTINCI FƏSİL.....108
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR .....108
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ DİGƏR HƏDİSLƏR.....110
YEDDİNCİ FƏSİL.....114
ƏMİRƏL-MÖMİNİNDƏN (Ə) NƏQL OLUNAN ŞİƏ HƏDİSLƏRİ.....114
SƏKKİZİNCİ FƏSİL.....120
İMAM SADİQDƏN (Ə) NƏQL OLUNAN HƏDİSLƏR.....120

DOQQUZUNCU FƏSİL ... 127
ŞİƏ VƏ SÜNNİLƏRİN İMAM SADİQDƏN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 127
ONUNCU FƏSİL ... 129
SAİR İMAMLARDAN (Ə) NƏQL OLUNAN HƏDİSLƏR ... 129
HİKMƏT SAHİBLƏRİNİN, ZAHİDLƏRİN VƏ S. BU KİMİLƏRİNİN DEDİKLƏRİNDƏN ... 134
DÖRDÜNCÜ BÖLMƏ ... 143
BİRİNCİ FƏSİL ... 143
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 143
İKİNCİ FƏSİL ... 148
ƏHLİ-SÜNNƏNİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİYİ HƏDİSLƏR ... 148
ÜÇÜNCÜ FƏSİL ... 153
ŞİƏLƏRİN ƏMİRƏL-MÖMİNİNDƏN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 153
DÖRDÜNCÜ FƏSİL ... 157
ŞİƏLƏRİN İMAM SADİQDƏN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 157
BEŞİNCİ FƏSİL ... 164
ŞİƏLƏRİN SAİR İMAMLARDAN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 164
ALTINCI FƏSİL ... 165
ALİM VƏ HİKMƏT SAHİBLƏRİNİN DEDİKLƏRİNDƏN ... 165
YEDDİNCİ FƏSİL ... 169
NAMƏLUM ŞƏXSLƏR TƏRƏFİNDƏN SÖYLƏNİLƏN NƏSİHƏTLƏR ... 169
SƏKKİZİNCİ FƏSİL ... 170
FARS FİLOSOFLARININ HİKMƏTLİ SÖZLƏRİ ... 170
BEŞİNCİ BÖLMƏ ... 173
BEŞ TƏRKİBLİ NƏSİHƏTLƏR ... 173
BİRİNCİ FƏSİL ... 173
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 173
İKİNCİ FƏSİL ... 177
SÜNNİLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ ... 177
HƏDİSLƏR ... 177
ÜÇÜNCÜ FƏSİL ... 179
SÜNNİ VƏ ŞİƏLƏRİN HƏR İKİSİNİN PEYĞƏMBƏRDƏN NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ... 179
DÖRDÜNCÜ FƏSİL ... 183
HƏZRƏT ƏLİDƏN (Ə) NƏQL OLUNMUŞ HƏDİSLƏR ... 183
BEŞİNCİ FƏSİL ... 184
İMAM SADİQDƏN (Ə) NƏQL OLUNAN HƏDİSLƏR ... 184

**ALTINCI FƏSİL** ........ 187
**SAİR İMAMLARDAN (Ə) OLAN HƏDİSLƏR** ........ 187
**YEDDİNCİ FƏSİL** ........ 190
**MERACNAMƏDƏN OLAN HƏDİSLƏR** ........ 190
**SƏKKİZİNCİ FƏSİL** ........ 191
**ALİMLƏR, ZAHİDLƏR VƏ FİLOSOFLARIN DEDİKLƏRİNDƏN** .. 191
**DOQQUZUNCU FƏSİL** ........ 194
**MÜXTƏLİF MƏSƏLƏLƏR** ........ 194
**ALTINCI BÖLMƏ** ........ 198
**ALTI TƏRKİBLİ NƏSİHƏTLƏR** ........ 198
**BİRİNCİ FƏSİL** ........ 198
**PEYĞƏMBƏRDƏN (S) NƏQL OLUNAN HƏDİSLƏR** ........ 198
**İKİNCİ FƏSİL** ........ 200
**SÜNNİLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR** ........ 200
**ÜÇÜNCÜ FƏSİL** ........ 201
**PEYĞƏMBƏRİN (S) ƏLİYƏ (Ə) NƏSİHƏTLƏRİ** ........ 201
**DÖRDÜNCÜ FƏSİL** ........ 202
**ƏMİRƏLMÖMİNİNDƏN (Ə) NƏQL OLUNAN HƏDİSLƏR** ........ 202
**BEŞİNCİ FƏSİL** ........ 203
**HƏZRƏT İMAM SADİQDƏN (Ə) OLAN HƏDİSLƏR** ........ 203
**ALTINCI FƏSİL** ........ 204
**SAİR İMAMLARDAN (Ə) NƏQL OLUNAN HƏDİSLƏR** ........ 204
**YEDDİNCİ FƏSİL** ........ 207
**HİKMƏT SAHİBLƏRİNİN, ZAHİDLƏRİN VƏ ABİDLƏRİN DEDİKLƏRİNDƏN** ........ 207
**YEDDİNCİ BÖLMƏ** ........ 211
**YEDDİ TƏRKİBLİ NƏSİHƏTLƏR** ........ 211
**BİRİNCİ FƏSİL** ........ 211
**PEYĞƏMBƏRDƏN (S) NƏQL OLUNAN HƏDİSLƏR** ........ 211
**İKİNCİ FƏSİL** ........ 213
**PEYĞƏMBƏRDƏN (S) NƏQL OLUNAN ƏHLİ-SÜNNƏ HƏDİSLƏRİ** ........ 213
**ÜÇÜNCÜ FƏSİL** ........ 215
**HƏZRƏT ƏMİRƏL-MÖMİNİNDƏN (Ə) OLAN HƏDİSLƏR** ........ 215
**DÖRDÜNCÜ FƏSİL** ........ 216
**İMAM SADİQDƏN (Ə) HƏDİSLƏR** ........ 216
**XATİMƏ** ........ 217
**SƏKKİZİNCİ BÖLMƏ** ........ 220
**SƏKKİZ TƏRKİBLİ NƏSİHƏTLƏR** ........ 220
**BİRİNCİ FƏSİL** ........ 220
**PEYĞƏMBƏRDƏN (S) HƏDİSLƏR** ........ 220
**İKİNCİ FƏSİL** ........ 221
***HƏZRƏT ƏMİRƏL-MÖMİNİNDƏN (Ə) HƏDİSLƏR*** ........ 221
**ÜÇÜNCÜ FƏSİL** ........ 221

İMAM SADİQDƏN (Ə) HƏDİSLƏR ........ 221
DÖRDÜNCÜ FƏSİL ........ 224
ZAHİDLƏRİN DEDİKLƏRİNDƏN ........ 224
NƏTİCƏ ........ 225
DİLİ QORUMAQ BARƏDƏ ........ 225
DOQQUZUNCU BÖLMƏ ........ 227
DOQQUZ TƏRKİBLİ NƏSİHƏTLƏR ........ 227
BİRİNCİ FƏSİL ........ 227
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ........ 227
İKİNCİ FƏSİL ........ 228
ƏMİRƏL-MÖMİNİNDƏN (Ə) HƏDİSLƏR ........ 228
HƏM ŞİƏLƏRİN, HƏM DƏ SÜNNİLƏRİN NƏQL ETDİKLƏRİ HƏDİSLƏRDƏN ........ 229
SON ........ 230
ONUNCU BÖLMƏ ........ 232
ON TƏRKİBLİ NƏSİHƏTLƏR ........ 232
BİRİNCİ FƏSİL ........ 232
PEYĞƏMBƏRDƏN (S) HƏDİSLƏR ........ 232
İKİNCİ FƏSİL ........ 234
ƏHLİ-SÜNNƏNİN PEYĞƏMBƏRDƏN (S) NƏQL ETDİYİ HƏDİSLƏR ........ 234
ÜÇÜNCÜ FƏSİL ........ 237
ŞİƏLƏRİN PEYĞƏMBƏRDƏN (S) VƏ HƏZRƏT ƏLİDƏN (Ə) NƏQL ETDİKLƏRİ HƏDİSLƏR ........ 237
DÖRDÜNCÜ FƏSİL ........ 240
İMAM MƏHƏMMƏD BAQİR (Ə) VƏ İMAM SADİQDƏN (Ə) HƏDİSLƏR ........ 240
BEŞİNCİ FƏSİL ........ 243
DUANIN ƏDƏBLƏRİ BARƏDƏ ........ 243
ALTINCI FƏSİL ........ 244
HİKMƏT SAHİBLƏRİNİN DEDİKLƏRİNDƏN ........ 244
YEDDİNCİ FƏSİL ........ 245
ZAHİDLƏRİN DEDİKLƏRİNDƏN ........ 245
ON BİRİNCİ BÖLMƏ ........ 247
ON BİR TƏRKİBLİ NƏSİHƏTLƏR ........ 247
ALİMLƏRİN DEDİKLƏRİNDƏN ........ 247
ON İKİNCİ BÖLMƏ ........ 249
ON İKİ TƏRKİBLİ NƏSİHƏTLƏR ........ 249
ON ÜÇÜNCÜ BÖLMƏ ........ 251
ON ÜÇ TƏRKİBLİ NƏSİHƏTLƏR ........ 251
ƏMİRƏL-MÖMİNİNİN (Ə) ON ÜÇ FƏZİLƏTİ ........ 252
ON DÖRDÜNCÜ BÖLMƏ ........ 253
ON BEŞİNCİ BÖLMƏ ........ 254
ON ALTINCI BÖLMƏ ........ 255

**ON YEDDİDƏN OTUZA QƏDƏR OLAN BÖLMƏ ............................. 256**
**OTUZ-QIRX TƏRKİBLİ NƏSİHƏTLƏRƏ QƏDƏR OLAN BÖLMƏ 265**
**QIRX-ƏLLİ TƏRKİBLİ NƏSİHƏTLƏRDƏN İBARƏT OLAN BÖLMƏ ............................................................................................................ 266**
**ƏMİRƏL-MÖMİNİNİN (Ə) KUMEYL İBN ZİYADA NƏSİHƏTLƏRİNDƏN ................................................................... 268**
**PEYĞƏMBƏRİN (S) QƏDİR-XUM GÜNÜNDƏ SÖYLƏDİYİ XÜTBƏDƏN................................................................................... 272**
**ƏLLİ TƏRKİBDƏN ARTIQ OLAN NƏSİHƏTLƏR BÖLMƏSİ......... 277**
**İMAM SƏCCADIN (Ə) HÜQUQ RİSALƏSİ......................................... 277**
**YETMİŞDƏN YUXARI TƏRKİBLİ NƏSİHƏTLƏRDƏN İBARƏT BÖLMƏ ........................................................................................... 283**
**ƏMİRƏL-MÖMİNİNİN YETMİŞ FƏZİLƏTİ VAR Kİ, SƏHABƏLƏRDƏN HEÇ BİRİ BU MƏSƏLƏDƏ ONA ŞƏRİK DEYİL ............................................................................................................ 283**
**PEYĞƏMBƏRİN (S) NƏHY ETDİKLƏRİ ............................................ 293**
**PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİYƏ (Ə) VƏSİYYƏTLƏRİ ........... 295**